"ADİLOĞLU"—nəşriyyatı
BAKI—2004



Cavanşir yaradıcılığa tərcüməçi kimi başlamışdır. İndiyədək 7 kitabı nəşr olunmuşdur. Ərəb, rus və türk dillərindən çap edilməmiş bir neçə tərcüməsi vardır.

Bu, Cavanşirin üçüncü monoqrafiyasıdır ("İraq türkmanları"/ 1993-cü il, "Hökmdarlar" 1993-cü il) Şərqin tarixinə və ictimai fikrinə aid başqa nəşr edilməmiş kitabları da vardır.

Müəllif bədii yaradıcılıqla da məşğul olur. Çoxlu sayda şerləri, publisistik yazıları, hekayə və novellaları vardır. İndiyədək onların çox az qismi çap olunmuşdur.

3

Azərbaycan Milli Elmlər Akademiyası
Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

CAVANŞİR XIDIROV

# ŞƏRQİN TARİXİ ABİDƏLƏRİ

3

755

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

"ADILOĞLU" nəşriyyatı
BAKI-2004

63.3(5)+63.4(5)+85.11(3)
X 54

*Kitabın sponsoru və elmi redaktoru:*
**Ağayar Şükürov**
*Fəlsəfə elmləri doktoru, professor*

*Rəyçilər:*
**Seyidağa Onullahi**
*Tarix elmləri doktoru, professor*

**Ariz Gözəlov**
*Fəlsəfə elmləri namizədi*

*Kompüter tərtibçisi:*
**Ariz Əvəzoğlu (Gözəlov)**
*Fəlsəfə elmləri namizədi*

X 4322314416 / 121-2004 sifarişlə

© C.Xıdırov

# KİTABIN İÇİNDƏKİLƏR

Giriş ....6
Hindistan və hind sənətinin qısa xülasəsi ....8
Xarappa mədəniyyəti ....15
Ellora məbədləri ....16
Buddizm ....18
Sarnatx ....22
İnduizm ....24
Acanta məbədləri ....26
Allahabad ....27
Caynizm ....28
Caypur ....29
Hind islam memarlıq məktəbi ....30
Dehli (ümumi) ....33
Tuqlaqabad ....37
Şahcahanabad ....41
Siri ....43
Ləl- kot ....44
Purana- qala ....46
Füruzabad ....49
Tac-mahal ....51
Fatehpur Sikri ....55
Mədrəs ....57
Sikxlər ....60
Bombey ....60
Udaypur ....63
Madura ....65
Əhmədabad ....66
Dekan islam abidələri ....67
Konarak ....70
Əfqanıstan ....72
Kabul ....73
Herat ....75
Qəznə ....82
Surx Kotal ....84
Bəlx ....86
Bamian ....89
İran ....92
Zərdüştilik ....94
Pasarqad ....97

Şiraz ..... 99
İsfahan ..... 103
Yəzd ..... 108
Manixeylik ..... 111
Persopol ..... 112
Məşhəd ..... 117
Suz ..... 121
Mədain ..... 125
Cənubi Azərbaycan: Midiya abidələri ..... 130
Həmədan ..... 133
Monqol- İslam memarlıq məktəbi ..... 135
Təbriz ..... 137
Səfəvilər memarlıq məktəbi ..... 141
Ərdəbil ..... 144
Qəzvin ..... 147
Səlcuqilər memarlıq məktəbi ..... 153
Marağa ..... 156
Bakı ..... 158
İraq ..... 163
Şumerlər və abidələri ..... 163
Babil qülləsi ..... 169
Semiramida asma bağları ..... 174
Xadar ..... 180
İslam memarlıq məktəbləri ..... 182
Abbasilər memarlıq məktəbi ..... 185
Bağdad ..... 187
Kərkük qalası ..... 192
Nimrud- qədim Assuri abidəsidir ..... 195
Samarra ..... 201
Suriya ..... 203
Əməvilər memarlıq məktəbi ..... 204
Dəməşq ..... 207
Afameya ..... 211
Bosra ..... 214
Palmira ..... 219
Əməvilər məscidi ..... 224
Hələb Tartus ..... 228
Laziqiyyə ..... 231
Məlulə ..... 232
Xoms ..... 233
Rəsafə ..... 235
Hama ..... 236
Məmluklar memarlıq məktəbi ..... 237



Suriyanın digər tanınmış abidələri ..... 240
İordaniya - Cərəş ..... 246
Roma sənəti (memarlığı) ..... 247
Aya Petra ..... 252
Quseyr Əmra ..... 255
Mşatta ..... 258
Qüds ..... 261
Qübbət əs- saxra məscidi ..... 264
Livan ..... 266
Bəəlbək ..... 269
Bıbl ..... 274
Beyrut ..... 278
Tir (Sur) ..... 280
Sayda ..... 284
Türkiyə ..... 286
Yunan sənəti (memarlığı) ..... 289
Efes ..... 294
Perqam- Zevs məbədi ..... 298
Kammaqena ..... 302
Bizans sənəti (memarlığı) ..... 304
Aya Sofiya ..... 309
Kappodokiya ..... 311
Osmanlı memarlıq məktəbi ..... 313
Bursa ..... 315
İstanbul ..... 318
İzmir ..... 325
Memar Sinan ..... 329
Diyarbəkir ..... 332
Xüsn Keyfa ..... 334
Qayseri ..... 338
Divrici ..... 341
Ərzurum ..... 344
Amasiya ..... 345
Ankara ..... 348
Konya ..... 351
Ədirnə ..... 356
Son söz ..... 363
Ədəbiyyat ..... 365

# GİRİŞ

Haqqında danışılan ölkələr dünya mədəniyyətinin ən qədim və zəngin nümunələri cəmlənmiş regionları təşkil edir. Dünyada ilkin sivilizasiyanı yaradıb bəşəriyyətə bəxş edən şumerlər bu ərazilərdə yaşamışdır. Ən böyük və çoxsaylı dinlər - induizm, iudaizm, buddizm, xristianlıq və islam məhz bu regionlarda meydana gəlmişdir. Bu regionlar dünyanın əsas irqlərinin rastaşdığı, qaynayıb - qarışdığı yeni xalqlar yaratdığı ərazilərdən ibarətdir. Şərqlə Qərbin bir- birinə mədəni təsiri, tarixi qarşıdurması, bir - birindən faydalanması məhz haqqında danışılan ölkələrdə həyata keçmişdir.

Belə zəngin tarix özünü həm də yaradılmış maddi - mədəniyyət abidələrində əks etdirir. Odur ki, mədəniyyət tarixi ümumi tarixin bir hissəsi sayılır və onun daha çox nəzəri xüsusiyyətlərini özündə cəmləşdirir. Mədəniyyət tarixinin ən başlıca göstəricilərindən biri onun özünəməxsus, milli və təkrarsız olmasıdır.

Təqdim olunan bu kitabda əsasən Yaxın və Orta Şərq regionlarında yerləşən ölkələrin ərazilərində hazırda mövcud olan (və bəzən mövcud olmuş) qədim memarlıq abidələrindən danışılacaq. İmkanın məhdud olması onların yalnız ən məşhurlarını söyləməklə nəticələnir.

Abidələrin yerləşdiyi ölkələrin hərəsinin öz tarixi və mədəniyyəti, öz xüsusiyyəti var. Onlar dünya mədəniyyətinin inkişafında çox böyük rol oynamışdır. Bu ölkələrlə, doğma dünyamız Azərbaycan uzun tarixi əlaqələrə malik olub. Onların bəziləri ilə müxtəlif dövrlərdə hətta bir dövlət tərkibində birləşib. Bəziləri ilə dini, bəziləri ilə siyasi ümumiliklər olub və indi də var.

Haqqında danışılan abidələrin hər biri müəyyən tarixi dövrlərdə müxtəlif xalqlar tərəfindən yaradılıb. Daha doğrusu onları yaradan sənətkarlar müxtəlif xalqların elmi- mədəni nailiyyətlərini təmsil ediblər. Odur ki, onlar bugünkü günümüzdə həmin xalqlar haqqında oxucuda müəyyən təsəvvürlər yaradırlar.

Abidələrin bəzisi öz gözəlliyi ilə (məs. Tac - Mahal), öz əzəməti ilə (məs. Aya Sofiya), yaxud ölçülərinin nəhəngliyi və görülən işin böyüklüyü ilə (məs. Acanta məbədləri) insanda müxtəlif duyğular yaradır. Amma bütün hallarda ümumi bir hiss adamı tərk etmir. Onların hamısı öz işinin vurğunu, sənətinə sonsuz məhəbbət və sədaqət bəsləyən sənətkar əməyinin bəhrəsidir. Belə olmasaydı bu cür möhtəşəm abidələr yarana bilərdimi?

Bu abidələrin hər biri müəyyən məqsədlər üçün yaradılıb. Onların bəzisi hərbi- siyasi xarakterdə tikilib (məs. Krak de Şevalye, Hələb qalası),





bir qismi dini- ideoloji baxımdan yaradılıb (Məbədlər, məscidlər). Abidələr içərisində bu məqsədlər üçün tikilənlər üstünlük təşkil edir. Bu da cəmiyyətlərdə dinin oynadığı rolla əlaqədardır. Çünki din cəmiyyətin bütün həyatını tənzimləyirdi. Amma, şübhəsiz, bu abidələr bizi tarixilik - sənətkarlıq baxımından daha çox maraqlandırır.

Onların içərisində ən məşhurları, əlbəttə böyük məhəbbətin gücü sayəsində yaranmış böyük sənət abidələridir. O abidələr zaman keçdikcə özünə qarşı daha çox ehtiram yaradırlar. Çünki onları yaradan məhəbbət ülvi hiss olduğu üçün hər bir insanı yüksəlməyə səsləyir. Biz də onları yaradan bütün sənətkarlara, tikililərdə zəhməti olan əməkçilərə qiyabi də olsa ehtiramımızı ifadə edirik.

Təqdim olunan bu kitabda adı çəkilən abidələrin yaranma müddəti müxtəlifdir. Onların bəziləri bir neçə ilə, bəziləri on - yüz ilə tamamlanmışdır. Onları yaradanlar öz vəzifələrini illərlə, on illərlə yerinə yetirmişlər. Özlərindən sonra qoyub getdikləri abidələr isə indi də onların şərəfli əməyindən söhbət açır. Yaradılmış adidələr, əməklərinin bəhrəsi vətənlərini hər yanda tanıtdırır. Deməli sənətkarların əməyi son nəticədə vətənlərinin başını uca etməklə səciyyələnir. Mənim fikrimcə, abidələrdə ilk növbədə onu yaradan sənətkarların zəhmətinin bəhrəsini qiymətləndirmək lazımdır.

Ciddi axtarışların nəticəsi kimi yaranan bu kitabda keçmiş SSRİ- də həmçinin xaricdə çap olunmuş müxtəlif növ mənbələrdən istifadə olunmuşdur.

*Müəllif*

# HİNDİSTAN VƏ HİND SƏNƏTİNİN QISA XÜLASƏSİ



*Madxya Paradeş*

Söhbətimizin Hindistandan başlanması təsadüfü deyildir. Hindistan, abidələrindən danışacağımız Asiya qitəsinin ən böyük ölkələrindən biridir. Qədim tarixə və mədəniyyətə malik olan Hindistan həm öz yaxın qonşularına, həm də başqa Asiya ölkələrinə böyük dini- iqtisadi və mədəni təsir göstərmişdir. Hindistanın dünya elminə və mədəniyyətinə verdiyi töhfələr çoxdur və həmişə yüksək qiymətləndirilmişdir.

Hindistan abidələrinin böyük əksəriyyəti bu ölkədə müxtəlif tarixi dövrlərdə yayılmış dinlərlə - braxmanizm, buddizm, caynizm, induizm, islam və s. ilə bağlı yaradılmışdır.

Qədim Hind mədəniyyətinin təkrarsızlığı və uzun ömürlü olması çox zaman ölkənin təbii coğrafi şəraiti ilə əlaqələndirilir. Belə ki, Hindistan şimaldan qitə ilə keçilməz Himalay dağları ilə ayrılmışdır. Ölkəyə daxil olan quru yollar yalnız şimal - qərbdən və şimal - şərqdəndir. Hindistanın qalan ətrafı sudur - bir tərəfdə Benqal körfəzi, o biri tərəfdən Ərəbistan dənizi və Hind okeanı onu əhatə etmişdir. Ölkənin bu vəziyyəti milli özünəməxsusluğun uzun əsrlər boyu sabitliyinə və başqa sivilizasiyaların təsirinə məruz qalmamasına səbəb olmuşdur.

Hind milli mədəniyyəti 14 iri xalqın və 200 - dən artıq dildə və ləhcədə danışan etnik birliklərin yaradıcılıq dühasının məhsuludur. Bununla belə, mütəxəssislər haqlı olaraq bütün Hind mədəniyyətinə xas olan ümumi cəhətlərdən- təkrarolunmazlıqdan, ictimai, davranış xüsusiyyətlərindən, məişət əməllərindən danışır, Hind mədəniyyətinin bütövlüyünü qeyd edirlər.





Tarixin lap başlanğıcından Hind torpağına Asiya qitəsindən müxtəlif xalqların və tayfa birliklərinin axını həyata keçmişdir. Saklar, skiflər, hunlar və başqaları dalğa - dalğa Hind torpağına gəlmiş və əsasən ölkənin mərkəzdən şimala sarı olan hissəsində məskən salmışlar. Odur ki, ölkənin bu hisəsəsinin əhalisi həm xarici görkəminə, həm də dil və başqa xüsusiyyətlərinə görə cənublulardan fərqlənir. Ümiyyətlə, Hind mədəniyyətinin yaradıb formalaşdıran əsas insan tipləri kimi aşağıdakıları göstərmək lazımdır: Türk - İran, Hind - Avropa, skif - dravid, ari - dravid, monqoloid, dravid.

Hind - avropalıların Hindistana axınının tarixi təxmini güman edilir. Tarixi qaynaqlardan belə məlum olur ki, ağdərili hind - avropalılar Hindistanda yerli əhali ilə uzun müddət mübarizə aparmaq məcburiyyətində qalıblar. Bu haqda "Vedlər" adı altında toplanan müxtəlif növ ədəbi - bədii mənbələrdə xəbər verilmişdir.

Eradan əvvəl VI əsr bir sıra Şərq ölkələrində olduğu kimi Hindistanda dəyişikliklə səciyyələnmişdir. O vaxt Çində böyük filosof Konfutsi öz təlimini yayırdı, Azərbaycan, İran və Orta Asiyada Zərdüşt fəaliyyət göstərirdi, İordaniyanın yunan adalarından Heraklit mövcud qayda - qanunlara yenidən baxmağa çağırırdı. Hindistanın düşünən beynə malik övladları ictimai əlaqələrin arxaikliyinə, dini ənənələrdəki mürəkkəbliyə və mənasızlığa, ruhanilərin mütləq hakimiyyətinə, mədəni irsin tənəzzülünə qarşı çıxış edirdi. Bu yeni cərəyan kasta sisteminin ləğvinə çağırırdı, ictimai bərabərsizliyi və ədalətsizliyi ləğv etməyə çalışırdı. Başlıca məqsəd insan şəxsiyyətinə hörmət və daxili azadlığın təmin edilməsi olmalı idi. Yeni hərəkatlar bəşəriyyətin tərəqqisini fərdin daxili təkamülündə və inkişafında görürdülər. Hərəkatların rəhbərlərindən biri Vardxaman Maxavir, ikincisi isə Quatama Budda olmuşdur. Maxavirin irəli sürdüyü fəlsəfi və dini fikirlər sonradan ardıcılları tərəfindən formalaşdırılmış və caynizm dininə çevrilmişdir. Buddanın fikirləri isə buddizm dinini yaratmışdır. Caynizm sonradan varlı siniflərin dininə çevrilsə də, Hind torpağından kənarda özünə ardıcıl tapa bilməmişdi. Buddizm isə Hindistanda on beş əsr davam edən fəaliyyətindən sonra başqa ölkələrdə yaşamağa məcbur olmuşdur. Hind torpağının dünya mədəniyyətinə verdiyi bu böyük töhfə hazırda ən böyük dünya dinlərindən sayılır.

Caynizm dini ilə bağlı memarlıq abidələrinin ən çox yarandığı dövr XI - XII əsrlər hesab olunur. Həmin abidələr əvvəllər müqəddəslərin şərəfinə ucaldılmış və buddizm nümunələrinə bənzəyən pəncələrdən ibarət idi. Belə abidələrə Maqxurda, Bundelxanda, Madya Bxaratda rast gəlmək olar. Baxbalinada inşa edilmiş Sravan, Belqolda və Maysurda yerləşən abidələr dünyanın möcüzələri kimi qiymətləndirilir. Onlardan birincisi 70 fut hündürlüyündədir və vahid qranit parçasından yonulmuşdur. Bu məşhur

abidə 984 - cü ildə Qanq sülaləsindən olan Racamalla adlı padşahın vəziri Çamundaray tərəfindən ucaldılmışdır.

Madya Bxaratda nəhəng qaya üzərində həkk edilmiş relyef isə XV əsrə aiddir. Bunlardan əlavə Udayangirdə, Madya Bxaratda və Ellorada yerləşən caynizm mağara məbədləri o dövr memarlığının və heykəltəraşlığının ən kamil incilərindən sayılırlar. Caynizmin ardıcılları belə məbədlərin tikintisinə e. ə II əsrdə başlasalar da onu uzun müddət davam etdiriblər. Mağara - məbədlərə göstərilən ərazidən əlavə Orissada, Cunaqadda, Cunnarda, Osmanabadda rast gəlmək mümkündür. Caynizm zəvvarlarının ziyarətgahları Parşavanaqxda, Pavapurda, Racqirdə, Bixarda, Qirnarda, Papitanda və Katxnavarda hələ də qalmaqdadır. Caynizm dini ilə bağlı yaradılmış ən kamil sənət əsərlərindən biri kimi Racastandakı Çittor adlanan yerdəki cayni qülləsidir. XI əsrdə Racastanın Abu adlı dağının yamacında inşa edilmiş cayni məbədi hind memarlıq dühasının forma gözəlliyi yaratmasına ən yaxşı misal hesab olunur.

Tarixi xronologiya baxımından Hind mədəniyyətinin birinci əsas çiçəklənmə dövrü Mauryalar imperiyası (e.ə. 322- 184) mərhələsinə təsadüf edir. Məhz bu zaman ilk Hind imperator sarayları və başqa tikililər inşa edilmişdir. Məşhur hökmdar Aşokanın hakimiyyəti illərində Hindistan ərazisində pəncələrin yaradılması geniş vüsət almış, saraylar, bürclər və mağaralar məbədlər qurulmuşdur. Onlar o dövrdə Hindistanda mövcud olmuş induizmin və caynizmin tələblərinə əsasən inşa edilirdilər. Rəvayətə görə Aşoka Hindistanda və Əfqanıstanda 84 min pəncə qoydurmuşdur. Tarixi qaynaqlar xəbər verir ki, Aşokanın Patalinutradakı sarayı çox zəngin görkəmə malik olmuşdur. Çinli zəvvar Fa Syan onu görəndə sarayın Aşokanın xidmətində olan ruhlar tərəfindən yaradıldığını guman etmişdir. Təəssüf ki, bu abidə tamamilə məhv olmuşdur. Aparılan tədqiqatlar nəticəsində yalnız ümumi zalın, yüzdən artıq sütunun özülü aşkar edilmişdir.

Hind tarixi üzrə mütəxəssislərin fikrincə Mauryaların dövründən sonra Hind incəsənətinə (xüsusilə şimal zonasına) yunan təsiri güclənmişdir. Heykəltaraşlıqda və ağacyonma sənətində estetik zövqlərin inkişafı ilə əlaqədar olaraq dəyişiklik baş vermişdir.

Beş yüz ilə yaxın davam edən bu dövrün incəsənəti mahiyyət etibarı ilə buddizim təsirindən yaranırdı. Sənət daha çox xalqın arzu və istəklərini ifadə etməyə çalışırdı. Mauryalar dövrü incəsənəti əsasən saray əyanlarına xidmət edirdisə, bu dövrün sənəti daha çox şəhər əhalisinin zövqünə uyğun gəlirdi. Sənət həyatda öz yerini tapmağa, təbiətlə insanı ayrılmaz vəhdətdə təsvir etməyə çalışırdı.

Belə vəziyyət Hindistanın xarici dünya ilə əlaqələrinin, xüsusilə dəniz vasitəsilə genişlənməsi sayəsində yaranmışdı. Ticarət əlaqələri çoxlu şəhərlərin meydana gəlməsinə səbəb olmuşdur. Əhalinin zövqü yeni ictimai-





iqtisadi əlaqələrin təsiri altında dəyişir, sənət daha çox həyatı əks etdirməyə məcbur olurdu. Hind incəsənəti tarixində yeni istiqamət, həyatın sosial-iqtisadi cəhətlərini əks etdirmək istiqaməti özünü göstərir. Bu, Bxarxutda, Sançada və Amarvaadа mövcud olan barelyeflərdə aydın duyulur.

Kuşan imperiyası (225- 227 illər) zamanında Hind mədəniyyəti əsasən öz milli kökləri üstündə tərəqqi etmişdir. Bu iki yüzə yaxın il ərzində kuşanlar (onlar Hindistana gəlmə idilər) Çinlə, İranla, Orta Asiya və Roma imperiyası ilə geniş ticarət əlaqələri yaratmışdılar. Məhz həmin dövrdə buddizim xaricdə geniş yayılır və Çinə daxil olur. Buddizm dinində yeni təriqətlərin peyda olması da həmin dövrdə baş vermişdir.

Tarixçilər Quptların hakimiyyəti dövrünü (təxm. 300- 500 illər) Hind mədəni dirçəlişinin qızıl erası adlandırırlar. Hind müəllifləri göstərirlər ki, quptlar dövrü Hind milli ruhunun dirçəlişinə böyük təkan vermişdir və bu özünü həyatın bütün sahələrində göstərmişdir. Ölkədə xaricilərin- sakların, kuşanların və işatranların ağalığına son qoymuşdur. Hind milli mədəniyyəti böyük nailiyyətlər qazandığı üçün məhz bu şəraitə borcludur. Dövrün ən başlıca göstəricilərindən biri də induizmin dirçəlişi olmuşdur. Bu din, qədim ayin və inamları özündə cəmləşdirərək, buddizmi sıxışdırmağa başlayır. İnduizm və brahmanizm orta əsrlərdə mövcud olmuş vahid dini kompleksə çevrilir.

O dövr sənətinin ən səciyyəvi xüsusiyyəti gözəllik idealının özünün kamil formasında təcəssüm edilməsidir. Hind sənətkarları xarici yad təsirlərdən yaxa qurtarıb mükəmməl sənət əsərləri yaratmağa nail olmuşlar. Deyilənlərə ən yaxşı misal Acantadakı rəsmlərdir. Quntalar dövrünün sənət nümunələri həm Hind, həm də qonşu ölkələrin incəsənətinə böyük müsbət təsir göstərmişdir.

Tarixçilər təəssüflə qeyd edirlər ki, Quptlar dövrünün memarlıq nümunələrinin çoxu günümüzə qədər gəlib çatmayıbdır. Az çox salamat qalanlar isə bunlardır: Deoqarxdakı Daşavatar məbədi, Kanpur yaxınlığındakı məbəd, Cabbanpur rayonundakı Vişna məbədi, Kxandakı Şiva məbədi, Naçna- Kulxardakı Parvati məbədi, Assamdakı Brahmaputra çayı sahilindəki uçmuş sənət nümunəsi sayılan Dax Varbatye məbədi, Sança və Bodx- Qaydakı iki pəncə heykəlləri.

O dövr məbədləri plan etibarilə ümumi oxşarlığa malikdilər. Onların adətən zalı kvadrat şəkilli inşa edilərdi. Məbədlər gözəl heykəli pannolarla bəzədilər və tərtibat ümumi memarlıq ideyasına tabe etdirilərdi. O dövrdə Quptların hakmiyyəti illərində Hindistanda çoxlu hündür qülləli (şinxar) buddist abidələr ucaldılmışdır. Həmin dinə aid edilən ən məşhur məbədlərdən biri Nalandakı 300 fut hündürlüyünə malik Budda məbədidir. Həmçinin nəhəng ölçülərə malik Maxra Maradu məbədi də quptlar dövrünün yadigarıdır.

Mağara - məbədlərdən danışarkən ilk növbədə Acanta və Andradakı nümunələri qeyd etmək lazımdır. Onlardan əlavə Racapuramdak Undavalimdə, Akuannamaranda (ölkənin cənub hissəsində) və Bxopal yaxınlığında mövcud olanları göstərmək olar.

İnşa edilmiş mülki binalar- padşah sarayları haqqında da bizə məlumat gəlib çatmışdır. Onlara Amaravatda, Naqarcunakondda və başqa yerlərdə rast gəlinir. Adətən belə binalar bir neçə mərtəbədən ibarət olardı, çoxlu pəncərə, tağlı qapı və balkonları göz oxşayırdı. Sarayların bir neçə pavilyonu, qəbul zalları, müxtəlif əlavə binalar olduğu qeyd edilir. Daxili tərtibatda müxtəlif rəngarəng nümunələrdən istifadə olunardı. Quptlar dövrünün mülki memarlığının fərqləndirici cəhəti sütunların silindirik yaxud çoxbucaqlı formada özülə malik olması, Kapitelin forma zənginliyi və tərtibatındakı gözəlliklərdir.

Ölkənin cənub hissəsində o dövrlərdə yaradılan abidələr bir sıra xüsusiyyətlərinə görə şimaldakı nümunələrdən fərqlənirdilər. Mütəxəssislərin fikrincə cənub zonasının incəsənəti əsasən Pallavlar dövründən etibarən formalaşmışdır. Ona hind sənəti tarixində dravid üslubu deyirlər. Bu üslubun təkamül tarixinin başlıca mərhələləri ibarətdir: 1) Qayalar üzərində yaradılan abidələr dövrü (610- 690 illər); 2) Məbədlər və sair abidələr dövrü (690-900-cu illər).

Birinci dövrün ən məşhur abidələri kimi Mamallapuram yaxınlığındakı "Yeddi poqoda" adlı mağara-məbədlər göstərilir. İkinci dövrdə yaradılan sənət əsərləri arasında daha çox diqqəti Kançi adlanan yerdəki məşhur Kaylasa məbədi cəlb edir.

Qeyd olunmalıdır ki, Pallav dravid üslubu Cənubi-şərqi Asiyada Hind memarlığı üçün bir növ nümunə rolunu oynamışdır. Həmin üslub üzrə Kombodcada, Vyetnamda, İndoneziyada və sair ölkələrdə inşa edilən məbədlər, mütəxəssisilərin fikrincə vətəndəki abidələrdən də yaxşı görkəmə malik imişlər.

Dravid üslubu Pallavlardan sonra Çol sülaləsinin hakimiyyəti dövründə (900-cu ildən etibarən təxminən 250 il davam etmişdir) ən yüksək mövqeyinə qalxmışdır. Bu zaman dravid üslubu daha çox ehtişam və təmtəraqlı forma qazanıb, inşa edilən məbədlər öz nəhəngliyi ilə seçilir. Həddən artıq iri ölçülərə malik məbədlər diqqətlə seçilmiş heykəllərlə bəzədilirdi. Bu isə öz növbəsində sənətkarlardan güclü təxəyyül və zərgər dəqiqliyi tələb edirdi. Dravid üslubuna edilən yeniliklərdən biri də bu idi ki, artıq məbədlər hasarlarla əhatə olunur və giriş darvazası - qopur inşa edilirdi. Dravid üslubunun sonuncu mərhələsi Madura üslubu sayılır.

Bu dövrdə ölkənin şimal hissəsində Racputlar sülaləsi hakimiyyətdə olmuşdur (təxm. 900-1200-ci illər). Racputlar özlərini geneologiya baxımından məşhur Hind ilahələri və qəhrəmanları ilə bağlayırdılar. Bu





səbəbdən də bir müddətdən sonra təkəbbürlü aristokratiyaya çevrildilər. Malik olduqları imtiyazları qoruyub saxlamaq üçün bütün qüvvələrini sərf edirdilər. Bununla yanaşı Racputların hakimiyyəti illəri Hind mədəniyyəti tarixi üçün bir sıra hadisələrlə əlamətdar olmuşdur.

Hind tarixi üzrə mütəxəssislər Racputlar dövrünü (incəsənətin tərəqqisi baxımından) iki əsas mərhələyə bölürlər: 1) Racputların birinci mərhələsi (600- 900- cı illər) və 2) Racputları ikinci mərhələsi (900- 1200- cü illər). Birinci mərhələ memarlığın ümumi tərəqqisi ilə səciyyələnirsə, ikinci mərhələdə zahiri bəzək- düzəyin çoxluğu diqqəti cəlb edir. Mütəxəssislərin fikrincə bu dövrdə qədim Hind özünəməxsusluğunun zəiflədiyi müşahidə olunur. Sənətkarlar yaratdığı sənət əsərlərində ehtişamı qabarıq vermək üçün daha çox fiziki ölçülərdən istifadə edirlər. Bəzək - düzəyin çoxluğu isə abidələrin füsunkarlıq xüsusiyyətlərinə xələl gətirir. Zövqlər korlandığı üçün təsvir olunan hadisələrin quruluşu əxlaqsızlıq təsiri bağışlayır.

Bununla yanaşı erkən Racput mərhələsində bir sıra dəyərli nümunələr yaradıldığını da unutmaq olmaz. Onlardan Mamallapurandakı abidəni, Naylas məbədinin, Elloranın və Elifantaranın heykəllərini göstərmək mümkündür. İkinci Racput dövründə də altı əyalətin hamısında - Orissa, Kxucaraxo, Racastan, Madxya, Buxarat, Qucarat və Katxiavarda - abidələr yaradılmışdır. Onların hər biri öz yerli xüsusiyyətlərinə malik olsa da Racput dövrünün Hind incəsənəti ümumi bir səciyyədə müəyyən bir forma, metod və prinsipləri meydana gəlmişdir.

Tarixçilər racputların çoxlu qala və bürc inşa etdirdiklərini də söyləyirlər. Çittoqarx, Ratxarbuxor, Kumxaqaxda (bunlar Racastana daxildir), Madya Bxaratdakı Mondu, Qvalier, Çanderi və Madya Pradejdəki Asirqarx qalaları öz möhtəşəmliyi və möhkəmliyi ilə görənləri heyran qoymuşdur. Bunlardan əlavə o dövrdə tikilən saraylar da xüsusi qeyd edilməlidir. Mansinqxdə, Qvaliorda və Ambərdakı saraylar deyilənlərə ən yaxşı misaldır. Racput saraylarının çoxu dağlar qoynunda, möhkəm qala divarları ilə əhatə olunmuş şəhərlərdə inşa edilmişdir.

Lakin racputlar dövründə ən çox yaradılan tarixi abidələr, əlbəttə məbədlər olmuşdur. Memarlıq sənəti racputların ikinci mərhələsində tənəzzülə uğrasa da, hind mütəxəssislərinin fikrincə hind memarlığının daxili gözəlliyi onu tamam məhv olmağa qoymamışdır. Onlardan ilk növbədə Orissa məbədlər kompleksi göstərilməlidir. Bəzi sənətşünasların rəyinə görə, o, hətta xüsusi Orissa üslubu kimi yaradılmışdır. Bu məbədlər kompleksi 5 əsr ərzində (750- 1150-ci illər) inşa edilib başa gəlmişdir. Kompleksin ən səciyyəvi cəhəti budur ki, məbədlərin daxili hissəsi öz sadəliyi ilə seçildiyi halda, xarici quruluşda çoxlu mürəkkəb təsvirlər və detallar mövcuddur.

Racput dövrünün başqa bir görkəmli abidəsi Kxurcaraxdakı məbədlər

kompleksi sayılır. O, hind- - ari üslubunun ən zərif və kamil nümunələrindəndir. Həmin kompleksə 30 məbəd daxil edilmişdir. Onların hər birinin öz memarlıq xüsusiyyəti var və məbədlər ayrı- ayrılıqda hündür özül üstündə tikilmişdir. Maraqlıdır ki, heç bir məbəd böyük ölçülərə malik deyildir. Onların ən irisinin uzunluğu 100 futa bərabərdr. Onları fərqləndirən başlıca cəhətlər düzgün tənasüblüyə malik olmaları və xarici tərtibatında zəngin formalardan istifadə edilməsidir.

Deyilməlidir ki, sənətşünasların qənaətinə görə hind- ari üslubunda yaradılan məbədlərin əsas göstəricisi şinxaranın görkəminin necə olmasıdır. Bu baxımdan Kxurcaraxa məbədləri əsil nümunə rolunu oynaya bilər. Onların şinxarası sözün tam mənasında kamil və zərif yerinə yetirilmişdir. Bunlardan əlavə daxili və xarici tikililər- tavanlar, tağlar, zallar gözəl heykəllərlə bəzədilmişdir. Bu məbədlər əsasən caynizm dini ilahələrinə və induizm dininin Şiva və s. allahlarına həsr olunaraq yaradılmışdır.

Həmin dövr məbədlərindən danışarkən Racaputan və Madya Bxarata ərazilərində inşa edilmiş abidələri unutmaq olmaz. Çadpxurdan 32 mil aralıda Osiya adlanan yerdə 16 induist və caynist məbədlərindən ibarət kompleks qalmaqdadır. Onların çoxu hal - hazırda dağılmaq təhlükəsi qarşısındadır. Yenə də hind dövrü abidələrindən olan Çittarqodxun Kaanxi Mata və Udaypurun yaxınlığındakı Enalinça məbədlərini göstərmək olar. Bunlardan əlavə şimal zonasının memarlıq üslubunun ən yaxşı nümunəsi kimi Racastandakı Abu dağının ətəyindəki caynizm məbədi qeyd edilməlidir.

Həmin dövrdə inşa edilmiş- Nemavar və Udyaspurdakı Şiva məbədlərinin qalıqları, Madya Bxaratın Qvalior rayonundakı Şaş- Baxu məbədi- göstərir ki, ölkənin bu hissəsində də memarlıq tərəqqi etmişdir.

Hind sənət tarixinin mühüm bir hissəsi islam dini ilə bağlı təşəkkül tapmışdır. Deyilməlidir ki, müsəlman əhalinin fəaliyyəti ilə əlaqədar olaraq, o əsasən ölkənin şimal rayonlarında iz qoymuşdur. Ölkənin cənub zonası incəsənəti isə müstəqil surətdə inkişaf etmişdir.

Hind tarixçilərinin yekdil fikri belədir ki, ölkədə hakimiyyətə gəlmiş ilk müsəlman hökmdarlar incəsənətin bütün növlərinə qiymət qoysalar da ilk növbədə memarlığın qeydinə qalıblar. Bu da islam memarlıq komponentlərinin - məscidlərin, camelərin, türbələrin və s. çox böyük dini-ideoloji əhəmiyyətə malik olmasından irəli gəlmişdir. Qədim hind torpağında rastlaşan islam sənət ənənələri ilə hind sənəti ənənələri biri - birinə qovuşaraq yeni, daha zəngin, maraqlı nümunələr yaradılmasına imkan vermişdir. Yerli hind əhalisinin ruhi və estetik prinsipləri xalqın incəsənətində özünü biruzə verirdi. Hindistanın dinləri və incəsənəti deyildiyi kimi bir - biri ilə üzvü surətdə bağlı meydana gəlmiş və inkişaf etmişdir. Ölkəyə daxil olan islam əhalisi Qərbi və Mərkəzi Asiyanın, Şimali





Afrikanın, Cənubi - Qərbi Avropanın (Əndəlusun) ənənəvi mədəniyyət ünsürlərini hind ünsürlərinə əlavə etdilər və yeni, orijinal üslub meydana gəldi. İslam incəsənəti Hindistanın müxtəlif ərazilərində, məsələn Caypurda, Benqalda, Bicapurda, Qucaratda və s. yayıldı və hər regionda təkrarolunmaz xüsusiyyətlərlə özünü göstərirdi.

# XARAPPA MƏDƏNİYYƏTİ

Hindistanın tarixi və mədəniyyəti ilə məşğul olan alimlər uzun müddət belə güman edirdilər ki, ari tayfalarının bu ölkəyə gəlişinə qədər Hindistan mədəniyyət və iqtisadiyyat baxımından geridə qalmış xalqların məskəni olub. Bu ölkənin çiçəklənməsində şimaldan gələn yeni tayfalar - arilər əsas rol oynayıblar.

Amma 1921- ci ildə Hind çayı hövzəsindəki Xarappa kəndi yaxınlığında aparılan qazıntılar göstərir ki, bu fikirlərdə yanlışlıq var. Bir il sonra 1922- ci ildə Xarappadan 600 km cənubda Moxanco- Darodakı arxeologiya işləri də yeni mülahizələr söyləməyə vadar edir. Bu iki yerdə çox qədim şəhərlərin qalıqları tapılmışdır. Sonralar daha da bir neçə şəhər aşkar edildi: Çanxu, Daro, Lotxal, Kalibanqai, Rupar... Bunların bir qismi Pakistanın şimal - şərq torpaqlarına düşür.

Arxeologiya ilə məşğul olan mütəxəssislər yavaş- yavaş möhtəşəm mədəniyyət abidələrini aşkar edirdilər. Tarix etibarilə yeni tapılmış şəhərlər Qədim Misirin, Şumerin, Elamın və Çinin həmyaşıdı idilər.

Beləliklə Hindistanın ən qədim tarixi haqqında, o dövrdə bu ölkədə yaşamış xalqlar haqqında məlumat çoxalırdı. Tarixə aid yeni fikirlər söyləməyə imkan açdığı üçün bu dövr sivilizasiyası Xarappa mədəniyyəti adlandırılır.



*Xarappa - b.e.ə. 3000 il*

İndi olduğu kimi o dövrdə də ölkənin şimal - qərb hissəsinin əhalisi müxtəlif irqi növlərə aid edilə bilərdi. Xarici görkəmcə onlar Aralıq dənizi, Alp, zənci - Avstraliya tiplərindən olublar. Geyimləri də hazırdakı Hind və Pakistan geyimlərinə bənzəyib: kişilər dxoti və şali geyinirlərmiş. Qadınlar da indiki kimi bəzək - düzək qolbağı, üzük, boyünbağı taxardılar.

Xarappa mədəniyyəti yayılan torpaqlarda müxtəlif dini təriqətlər olub. Əhali oda, suya, ağaclara sitayiş edərmiş. Allah - ananı müqəddəs sayarmışlar. O dövrdən qalmış bir sıra heykəllər və möhür yazıları belə guman etməyə imkan verir ki, hazırda hind allahlarının ən böyüklərindən sayılan - Şivaya bənzəyən allahları da olub.

Alimləri düşündürən ən əsas məsələlərdən biri Xarappa mədəniyyətinin yaranma və süqutu dövrləridir. Bu haqda hələ dəqiq məlumat yoxdur. Amma radio karbon təhlilinə və bir sıra başqa detallara əsasən belə güman edilir ki, bu mədəniyyət b.e. əvvəl XXIV əsrdə çiçəklənməyə başlayıb, b.e. əvvəl XIX- XVII əsrlərlərdə isə süquta çatıb

# ELLORA MƏBƏDLƏRİ



***Kaylisa Matxa məbədi VIII əsr***

Hindistanın şimal hissəsi ilə uzaq cənubu müxtəlif memarlıq üslubları yaradıblar. Bu iki rayon arasında Dekan yaylası yerləşir. Hər iki memarlıq üslubu məhz bu ərazidə yaradılan abidələrdə bir-birilə qarşılaşmışdır.

Çalunların paytaxtı olmuş Badamı adlanan yerin yaxınlığında çoxlu mağara məbədlər mövcuddur. Onlar induizm dinindəki allahlara həsr edilmişdir və özünün gözəl heykəlləri ilə səciyyələnirlər. Onların içərisində ən maraqlıları Şeş adlı ilanın üstündə oturmuş Vişnanın, Varaxanın (vəhşi qaban obrazında təsvir





edilən Vişna), Narasimxanın (insan- şir obrazında təsvir edilən Vişna), Vamanın (cırtdan obrazında təsvir edilən Vişna) heykəlləridir.

Badami və ətraf yerlərdə çoxlu daşdan tikilmiş məbəd qalıqları qalmaqdadır. Onların çoxunda pallav, yaxud cənub, yəni dravid üslubu özünü göstərir. Onu Raştranut mənşəli hökmdarlar qəbul edib sənətə tətbiq edirdilər. Elloradakı bütün dünyada tanınan Kaylasa məbədi buna ən layiqli nümunədir.

Auranqabad yaxınlığındakı Ellorada əsasən üç qrup- brəhmənizm, buddizm və caynizm dinlərinə aid abidələr qalmaqdadır. Mütəxəssislərin rəyincə onların ən maraqlısı brəhmən- şiva qrupuna daxil olan məbədlərdir. Kaylas məbədi bu bölgünün içərisində xüsusi yer tutur və mağara məbədləri tikintisinin ölməz nümunəsi hesab edilir. Onun diqqəti cəlb edən xüsusiyyətləri memarlıq formalarının ifadəliliyi, ölçüyə gəlməz zəhmət hesabına başa gəlməsi və yüksək sənətkarlıqla yaradılan heykəllərə malik olmasıdır. Persi Braun onun haqqında belə demişdir: "Bu məbəd insanın ağlının, əllərinin və qəlbinin ali ideala çatmaq üçün birgə zəhmətinə ən parlaq misaldır".

Bu məbəd Raştranut sülaləsindən olan hökmdar I Krişnanın (757- 783-ci illər) hakimiyyəti zamanında yaradılmışdır. Bəzi tarixi məlumatlar onun 75 il müddətinə başa gəldiyini söyləyirlər. Hündürlüyü isə 29 m çatır. İki vertikal hissədən ibarətdir. Belə qeyd olunur ki, daşyonan ustalar dağın bütöv bir yamacını dağ silsiləsindən ayırıblar və böyük bir qaya parçasından bu məbədi yonublar. Məbəd zirvədən özülə sarı yonulub düzəlibmiş. Məbədin baş ibadətgahı indi də canlı təsir bağışlayan şir heykəllərinin kürəyinə söykənmişdir. Məbəd dravid üslubuna uyğun şikxaraya malikdir. Daxilində çoxlu heyvan fiqurları vardır. Baş məbədin yaxınlığında giriş qapıları yerləşir. Ondan əlavə köməkçi Kandi ibadətgahı və beş dənə başqa ibadətgahları örtmüş tağlar ordadır. Məbədin sütun qayalarında bol - bol şəkil və yazı görmək mümkündür. İki böyük divarda hind xalqının ölməz "Ramayana" və "Mahabxarata" dastanlarından götürülmüş mövzularda səhnələr təsvir olunmuşdur.

Baş məbədin yanındakı qayalarda da mağara- məbədlər yonulub düzəldilmişdir. Onların geniş zalları brəhmənizm dininin məşhur allahlarının heykəlləri bəzəyirmiş. Daşavarat adlanan qalereyada başqa formaya keçmiş ilahə heykəlləri müəyyən edilmişdir. Onlarda böyük dramatizm özünü göstərir. Hind sənətşünaslarının rəyincə, bu abidələr dünyanın möcüzələrindən hesab edilməlidir.

Kaylas məbədindən bir qədər aralı Nasik, Karle və Acanta məbədlərinə bənzəyən abidələr aşkar edilmişdir. Onların içərisində caynizm dininə məxsus iki məşhur məbəd vardır.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI
755

Bir sözlə deyilsə Ellora mağara- məbəd memarlığı sənətkarlıq baxımından özünün zirvəsinə çatmışdır. Məhz Ellorada, yarımçıq mağara dini abidələri formalaşmış və tam şəklə düşmüş məbədlərə çevrilmişdir. Bu mərhələdən sonra qayaçapma sənəti zəifləmiş və get- gedə aradan qalxmışdır.

Əgər Acanta məbəd və monastırları yalnız buddizmin Hindistanda yayıldığı dövrün məhsuludursa, Ellora məbədləri buddizmlə yanaşı brəhmənizm və həmçinin caynizm dinləri məbədlərindən ibarətdir. Burada yerləşən məbədlərin ən qədim dövrlərdə yaradılanları birinci məbəddən on ikinciyədək olanlardır. Bu abidələr bizim eradan iki əsr əvvəldən başlayaraq bizim eranın VII əsrinədək olan dövrdə yaradılmışdır. On üçüncü mağara-məbəddən iyirmi doqquzuncuyadək olanları isə IX əsrdən XII əsrədək olan müddətdə tikilmişdir.

Acanta məbədləri əgər buddizm rahiblərinin əsrlərlə sərf etdiyi əməyin nəticəsidirsə, Elloradakı abidələr xalq sənətkarlarının yaratdığı ölməz əsərlərdir.

Ellora ərazisindəki məbədlər içərisində daha bir məşhuru Ray Şivanın adını daşıyan indus məbədidir. O, tarixi məlumatlara əsasən VIII əsrdə yaradılıb tamamlanmışdır. Ümumi hündürlüyü beşmərtəbəli bina qədər olan nəhəng qayadan yonulubdur. İçərisində çoxlu sütun, eyvan, pəncərə, qapı və s. vardır. Tikilinin özülü ətrafında nəhəng fil, pələng və digər vəhşi heyvanların heykəlləri durur. Sənətkarlıq baxımından həm fiqur və heykəllər, həm də təsvirlər yüksək səviyyədə yerinə yetirilmişdir.

Acanta və Ellora mağara - məbədlərini təsvir edən qələm sahibləri onların heyranedici təsirindən yaxa qurtara bilmir, bu iki qədim ansamblları yaradan xalqın böyük istedadını, nəhəng sənət əsərləri yaratma qabiliyyətini, əməksevərliyini qeyd edirlər.

## BUDDİZM

Bu dinin yaradıcısı Quatama Budda e.ə. 563- cü ildə Hindistanın şimalında Kapilavastu adlanan yerdə varlı qəbilə başçısının ailəsində anadan olmuşdur. Budda uşaq vaxtından tək qalıb düşünməyə meyl göstərir, həyatda gördüklərini təhlil etməyə çalışırdı. O, əhatə olunduğu dövlətə tam biganə olmuş, hakimiyyətin verdiyi zövqə həvəs göstərməmişdir. Övladındakı bu vəziyyəti görən atası onu evləndirir. Qonşu qəbilənin başçısının gözəl qızını ona alır. Lakin, bu da Buddanı yaşadığı həyata bağlaya bilmir. Onu daha çox





həyatın mənası, ölüm, o dünya, xəstəlik və s. problemlər düşündürür. Nəhayət oğlu Raqula doğulandan sonra (e.ə. 533- cü il) Budda 29 yaşında evini tərk edir və ölkəni gəzməyə çıxır. Onun bu gedişi buddizm tarixinə "Böyük üz döndərmə" adı ilə daxil olmuşdur.

Bundan sonra Budda ömrü boyu sərgərdan həyat keçirir (Budda 80 ilə yaxın ömür sürmüşdür). Brəhmən rahiblərdən aldığı təlim onu qane etmir. Çünki brəhmən dinindəki fikirlər Buddanı düşündürən suallara cavab verə bilmirdi. O, asket həyata qapılır, özünə olmazın əzab- əziyyəti verir ki, həqiqəti dərk edə bilsin. Müəyyən müddətdən sonra Budda hiss edir ki, Böyük Dünya onun qəlbindədir və bütün suallara cavabı məhz orda axtarmaq lazımdır. Bu, buddizm tarixində "Böyük nurlanma" adlanır. Budda sözünün hərfi mənası da məhz nurlanmış deməkdir.

Budda Sarnatx yaxınlığındakı Maral parkında özünün ilk çıxışını edir. Yaydığı fikirlər ona beş silahdaşının qoşulması ilə nəticələnir. Bundan sonra Budda qalan ömrünün qırx beş ili ərzində diyarbadiyar gəzir, öz fikirlərini əhali içərisində yayır. Sağlığında ilk buddist- rahib təşkilatının əsasını (Sanqxa) qoyur. Həyatdan gedərkən o tələbələrinə vəsiyyət edir: "Mənim irəli sürdüyüm və sizin üçün müəyyən etdiyim həqiqətlər və icmanın qayda-qanunları qoy, mən gedəndən sonra sizin üçün müəllim olsun".

Mütəxəssislərin fikrincə Budda öz qarşısına yeni din yaratmaq məqsədi qoymayıbdır. O, özündən sonra qanun və doqmalar məcəlləsi yox, mənəvi inkişaf üçün düzgün sxem yaradıb qoymuşdur. Onun təliminin başlıca cəhəti fikirdə, əməkdə və davranışda mötədil xeyirxahlığa riayət etməkdir. Brəhmənizmdən fərqli olaraq buddizm təlimi şəxsin fərdi daxili təkmilləşməsini və xeyirxahlıq üzərində qurulmuş həyatı təbliğ edir. Buddizmin əsas müddəası şəxsin öz- özünü tərbiyə etməsi sayılır. Xeyirxahlığa gedən yol praktik əxlaqın qaydalarını rasional surətdə yerinə yetirməkdən başlanır. Odur ki, buddizmi çox zaman dini həyatda yox, ictimai- siyasi həyatda çevriliş edən təlim sayırlar. O, təcrübi davranışın qaydalarını müəyyən edir və bərabərlik ideyasına çağırırdı.

Budda təliminin başlanğıcı "dörd nəcib həqiqəti" izah etmək olub. Bu, əzabın mahiyyəti, əzabın səbəbləri, əzabdan qurtuluş və əzabı məhv etmək üsulu haqqındakı fikirlərdir. Buddaya görə əzabı doğuran səbəb həyat zövqlərinə can atmaqdır. Məhz bu cəhd yeni insanların doğulmasına gətirib çıxarır. Bu təkəbbürlü cəhd, yaxud mövcudluq ehtirası insana öz təsirini etmədiyi vaxt, onda insanın ruhu bu sözsüz ölmə və doğulma prosesindən xilas olacaqdır. Bu həzz ehtirasını məhv etmək insanın qarşısında duran başlıca məsələdir. Bunun üçün, Budda təliminə görə özünə əzab vermək, dua oxumaq, qurbanlar vermək, yaxud vedi himnlərini təkrar etmək kifayət deyil.



*Elefanta – Üç simalı Şiva*

Aşağıdakı səkkiz bənddən ibarət nəcib işlər yalnız insanı həmin yola gətirə bilər:

1) düzgün inam - Buddanın ilkin dedikləri dörd nəcib həqiqəti dərk etmək.

2) düzgün cəhd göstərmək səfeh fikirlərdən uzaqlaşmaq və başqalarına zərər vurmamaq.

3) düzgün nitq- yalan, böhtan, təhqir, söyüş və boşboğazlıqdan əl çəkmək.





4) düzgün davranış - sənə verilməyən şeyləri götürməmək, ehtirasa qapılıb ifrata varmamaq.

5) düzgün həyat tərzi - qəbul olunmamış həyat tərzi keçirməmək.

6) düzgün mənəvi quruluş - daxili şər duyğuları məhv etmək, yeni yarananları aradan qaldırmaq, xeyirxah duyğulara və hərəkətlərə meydan vermək.

7) düzgün fikir - bədənə və mənəviyyata qarşı elə rəftar etmək lazımdır ki, özünüidarə itməsin, düşüncə pozulmasın. Güclü ehtirasdan və ruhdan düşməkdən uzaqlaşmaq gərəkdir.

8) düzgün təfəkkür - dünyəvi müşahidənin dörd mərhələsinə ardıcıl surətdə nail olmaq. O, bu səkkiz bölgülü yolu başa çatdırır.

Burdan belə görünə bilər ki, buddizm insanı fəaliyyətdən uzaqlaşdırmağa çağırır. Amma bu yanlış təsəvvürdür. Buddizm fəaliyyətdən yox, pis əməllərdən saxlamağa xidmət edir. Onu xeyirxah olmağa istiqamətləndirir. O, daha çox əxlaqın təmizliyinə, məhəbbət və ürəyiyumşaqlığa, valideynlərə hörmətə, böyüklərə qulaq asmağa, ayıqlığa, xeyriyyəçiliyə, xeyirxahlığa, bütün canlılara rəhm etməyə çağıran təlimdir.

Buddizmə görə insanın mövcud və gələcək həyatı yalnız onun işindən və əməllərindən asılıdır. Allahlara qurban vermək, cürbəcür dualar və etiraflar insanın günahlarını yuyub təmizləyə bilməz. İnsan öz əməllərinin cavabını görür. Yalnız o, öz taleyinin yaradıcısıdır. Heç bir ilahədən və ya allahdan o asılı deyildir. İnsan öz əməllərindən heç vaxt yaxa qurtara bilməz. Ruhun bir bədəndən başqasına keçməsini əsas tutan buddizm göstərir ki, yeni doğulan insana əvvəl mövcud olmuş ruh daxil olur ki, onu yeni əzablara düçar etsin. Əgər insan günah işlətmirsə o, ölmür. Əgər ölmürsə, o yenidən doğulmur. Ölməyən və yenidən doğulmayan günahsız insan əbədi rahatlığa nail olur.

Buddizm, deyildiyi kimi əvvəlki brəhmənizmə qarşı etiraz şəklində meydana gəlmişdi. Brəhmənizmin və başqa etiqadların uzun dövr ərzində toplanması nəticəsində meydana gələn induizm və buddizm qədim hind torpaqlarının ən geniş yayılmış dinləri omuşdur. Odur ki, onların arasında oxşar və fərqləndirici cəhətlər də yox deyil. Qısaca olsa bunu demək vacibdir. Öncə qeyd olunmalıdır ki, induizm allahı, materiyanı və insanın ruhunu ayrı- ayrı mahiyyət kimi qəbul edir və allahı bütün kainatın yaradıcısı sayır. Buddizm isə materiyanı və ruhu mahiyyət hesab edir. Buddizm təlimində alllah üçün yer yoxdur. Bu məsələdə Buddizm aqnostik mövqe tutur, yəni allah ideyasını və onun yaradıcı qüdrətini qəbul etmir.

İnduizm vedləri müqəddəs sayır və ruhun xilası üçün onların icrasını təkid edir. İnduizmə görə qurban vermək müqəddəs işdir. Buddizm isə bütün bunları mənasız hesab edir.

Hər iki dinin məqsədi həyatda ruhun günahlardan xilas edilməsidir. Onların hər ikisi ruhun bir bədəndən başqasına keçməsinə inanır. Ümumi götürüldükdə induizm abstarkt fəlsəfi təlimdirsə, buddizm praktik və etik təlimdir.

Buddizm və caynizmdə paralellik aparmaq ehtiyacı vardır. Bunların hər ikisi brəhmən ənənələrinə qarşı çıxır, vedlərin avtoritetini qəbul etmir, qanlı qurban mərasimlərinə nifrətlə baxır, kainatı yaradan allah ideyasına inanmır. İnsanı günahdan uzaqlaşdırmağa, canlılara zərər yetirməməyə, kasta sistemini dağıtmağa, qadınlar və kişilər arasında bərabərlik yaratmağa çağırırdılar.

Lakin aralarında böyük fərqlər də vardır. Caynistlər öz fikirlərini yayarkən adi insanlara arxalanırdılar, buddistlər isə xüsusi rahiblərə bağlanırdılar. Məqsədə nail olmaq üçün caynistlər ciddi asketiklik və əsas təbliğ edirdilər, buddistlər isə əleyhinə idilər. Caynistlərə görə bütün mövcudatda ruh vardır, bitki aləmi də öz dünyasına malikdir. Buddizm isə ruhu permanent mahiyyət kimi qəbul etmirdi.

Caynizm indi də öz tərkibində çoxlu brəhmən ənənələri və kasta sisteminin dəyişdirilmiş fikirlərini saxlayır. Buddizm isə deyildiyi kimi onları bütövlükdə inkar etmişdir.

## SARNATX

Buddanın pəncəsi: Sarnatx məşhur Benaresdən, hindlilərin ölülərinin əsas yandırılma mərkəzindən təxminən 10 km aralıda yerləşsə də aralarındakı fərq çox böyükdür. Bura öz sakitliyi və təmizliyi ilə daha çox tanınır. Əgər Benares hindli induizm dininə mənsub olanların ziyarətgah yeridirsə, Sarnatx buddizm ardıcıllarının müqəddəs mərkəzidir.

Sarnatxın mərkəzi hissəsində yarımsferik şəkilli və "pəncə" adlanan ibadətgah yerləşir. Onun diametri 50 m-ə çatır.

Rəvayətə görə iki min beş yüz il bundan əvvəl Budda bu torpaqlardan dxarnaşanranı- sonralar buddizmin dini simvoluna çevrilən 16 milli təkəri hərəkət gətirmişdir. Bundan sonra o öz təlimini yaymağa başlamış və ətrafına tərəfdarlar toplamışdır.

Buddizm Hindistanda b.e.əvvəl VI- V əsrlərdə dini iyerarxiyaya qarşı etiraz kimi meydana gəlib. Ondan əvvəlki din sayılan brəhmənizm hind quldarlıq quruluşunu müdafiə edir, sinfi bərabərsizliyi və ictimai imtiyazları təsdiq edirdi. Bu ideologiyanın yaradıcıları öyrədirdilər ki, insanın ruhu





vəfatından sonra karma - yəni intiqam qanununa uyğun olaraq yeni vücuda keçir. Bundan başqa brəhmənizm təsdiq edirdi ki, mənsub olduğu kastadan asılı olmayaraq hər kəs öz vəzifəsini vicdanla yerinə yetirsə, o zaman dünyanı yaradan Brahma onun ruhunu daha ali vücudlara keçirə bilər. Vıcdanlı adamın ruhu hətta ən yüksək kasta sayılan brəhmən- rahibə də dönə bilər. Brəhmənın qoyduğu qanunu pozanlar isə daha alçaq vücudlara çevrilməlidir.

Buddizmin ilk mərhələsi dini doktrinadan daha çox fəlsəfi sistemi xatırladır. Çarpazlaşmış əlləri, kök vücudu və o dünyanı düşündüyünü nümayiş etdirən baxışları olan Buddaya sonradan sitayiş etməli olublar. Bu, Buddanın ölümündən bir neçə yüz il keçdikdən sonra, "maxayana" (böyük təkər) adlanan budda icmasının təkidi ilə həyata keçirilib. Buddizm yarandığı dövrdəki vəziyyətdə yalnız Seylonda yaşayan və "Xanayana" (kiçik təkər) adlanan icmalarda saxlanılır.

Buddizm ilk dövrlərdə müəyyən mütərəqqi rol oynasa da, sonralar, bütün dinlər kimi sinifli cəmiyyətdə hakim siniflərə xidmət etməyə, xalqı dini ətalətdə saxlamağa yönəldilib. Buddizmin əsas qayda- qanunları da buna kömək edirdi: şərə qarşı qüvvə tətbiq etməmək, həyatı bitib- tükənməyən əzab mənbəyi kimi qəbul etmək, taleyə hərtərəfli tabe olmaq, yoxluğa tutulmağa cəhd etmək və s.

Hindistanda buddizm dini əvvəlcə böyük müvəffəqiyyət qazanır. Sonralar isə induizm adlanan dinlə əvəz edilir. Hazırda yarandığı ölkədə buddizm tərəfdarları olduqca azdır.

Sarnatx o vaxtdan indiyəcən buddistlərin "müqəddəs yeri" olaraq qalır. Dünyanın hər yerindən bura dindar buddistlər ziyarətə gəlir. Məbədin divarlarında Buddanın həyatının müxtəlif səhnələrini təsvir edən və görkəmli yapon rəssamının fırçasının məhsulu olan şəkillər asılmışdır. Budda rahibi - lama "maxayana" adlı dua mərasimini icra etdikdən sonra Buddanın qızıldan tökülmüş nəhəng heykəli qarşısında ibadət edirlər.

Sarnatx şəhər muzeyində b.e. əvvəl III əsrdə məşhur hind çarı Aşokanın Buddanın şərəfinə yüksəltdiyi və tarixdən məlum olan büst nümayiş etdirilir. Buddizmin simvolik təkəri ilə bitən girdə platformanın üzərində bir- birinə qısılaraq dörd dənə şir oturub. Dxarmaşakara- buddizm dininin simvolu Hindistanın milli bayrağında da əks edilib. Aşoka sütunu üzərində qədim sanskritcə aşağıdakı sözlər yazılaraq (satayam evan cayata- həqiqət həmişə qalib gəlir) Hindistanın dövlət gerbini bəzəyir.

# İNDUİZM

Bir neçə kəlmə də Hindistanın əhalisinin böyük əksəriyyətinin qulluq etdiyi induizm haqqında:



*Humayun mavzoleyi*

Aşağıdakı əsas prinsiplərə riayət edən şəxslər bu dinin ardıcılları sayılırlar. Aximsa- yəni qüvvə tətbiq etməmək- həyatda üç əsas məqsədə nail olmağa çalışmaq: mənəvi təkmilləşmə (dxarma), maddi gəlirə can atma (artxa) və həzz alma (kama). Bunlar nəticədə ruhun bir cisimdən başqasına keçməsinə inanmalıdır. Bu zaman ruhun əvvəlki cisimlərdə olarkən törətdiklərinə lazımi qiymət veriləcəyinə də inanmalıdır. Həmin qiymətə əsasən ruhun gələcək mövqeyi ayırd edilir.

Bu prinsiplərdən əlavə bəzən üç qanunu qəbul etmək də nəzərdə tutulur. Vedlərin müqəddəs olmaları (qədim hind topluları), brəhmənlərin müqəddəs olmaları və inəyin ilahiləşdirilməsi.

Təcrübədə və real həyatda induizm dininin çoxlu allah, təriqət və müxtəlif ayinləri nəzərə çarpır. Şiva və Vişnadan əlavə, baş allah Brahma də qəbul edilib. Amma onun üçün xüsusi məbədlər inşa edilmir və ona sitayiş etmirlər. O, həddən artıq yüksəkdə durur və hamıya aid ediləndir.

Hindistanla məşğul olan mütəxəssislərdə belə bir fikir mövcuddur ki, induizm dini qədim hind torpağının müxtəlif etnik və dil qruplarına mənsub əhalisinin çoxlu təriqət və allahlarında heç bir dəyişik, təkamül aparmadan qəbul etmiş sadəcə olaraq onlar arasında fərqləri silməyərək bir qismini Şiva allaha, başqa qismini isə Vişnaya mənsub etmişdir.







*Tac Mahal*

# ACANTA MƏBƏDLƏRİ



*Acanta*

Heydərabad ştatında yerləşən Acanta hər tərəfdən dağlarla əhatə olunub, kiçik Vaqora çayının sahilində yerləşir. Qayalardan yonulub düzəldilmiş məşhur mağara - məbədlər burdadır. Acanta məbədləri təxminən 900 il müddətində buddist rahiblər tərəfindən yaradılıb.

Acanta adı ilə tanınan bu yerdə 24 monastr və 5 məbəd qalmışdır. Onların bəzilərinin tarixi 2 min ildən çoxdur. Təbii qayalarda yarımdairə şəklində çapılaraq müxtəlif fiqurlar, sütunlar, tavan və s. düzəldilmişdir. Bəzi mağaralar elə yonulmuşdur ki, günün bir sıra saatlarında günəş işığı içəriyə düşə bilir.



*Acanta*

Mağaralarda təsvir olunan səhnələrin əksəriyyəti dini mövzulardan - buddizmin müxtəlif folklor və əfsanələrindən götürülüb. Yarandığı dövr nəzərə alınsa təsvirlərin sənətkarlıq səviyyəsi yüksək hesab edilə bilər. Müxtəlif rəng və vəziyyət dəyişmələrindən istifadə edərək rəssamlar insanın daxili aləmini çox məharətlə verə biliblər. Maraqlıdır ki, Acanta məbəd rəsmlərində 240 - a qədər müxtəlif qadın saç düzülüşü görmək olar.

Məbədlərin birindəki "Bodxisatva" (Şahzadə Budda) şəkli qədim dövrlərdəki ən gözəl əsərlərdən sayılır.





Şahzadə Buddanın Acantadakı təsviri elə düzəldilmişdir ki, Budda sanki tamaşaya gələnlərin qəlbini oxuyur, nələr düşündüyünü görür. Onun ətrafında hərəkət etdikcə Budda gözləri ilə insanı izləyir, onun sağına və yaxud sol hissəsinə dönsən, sənə elə gələcəkdir ki, Budda da nəzərlərini səndən ayırmadan arxanca nəhəng daşdan yonulmuş bədəni ilə dönür.

# ALLAHABAD

Bizim eradan əvvələ aid edilən bir neçə şəhər hind torpağının ən müqəddəs yerləri sayılır. "Əbədi şəhərlər" adlanan bu yaşayış məntəqələrinə hindlilərin kütləvi ziyarəti bu günkü günümüzə qədər davam edir. On iki ildən bir olaraq isə "kubxmela" bayramında yüz minlərlə adam onların başına yığışırlar.

Bir qədim hind əfsanəsində "müqəddəs və əbədi şəhərlərin" yaradılması haqqında maraqlı rəvayət mövcuddur. Orda deyilir ki, allahlar və şər qüvvələr süd dənizinin dibindən həyat eliksiri olan amirta çıxarırmışlar. Həm allahlar, həm də şeytanlar əbədi yaşayıb ömür etmək istəyirdilər - bununsa yeganə çarəsi həmin amirtanı içmək imiş. Onu birlikdə çıxardıqları üçün bölmək tələb olunurdu. Amma bölgü vaxtı allahlar şeytanlara kələk gəlib bütün eliksiri özləri üçün əldə etmək istəyiblər. Odur ki, aralarında vuruşma başlayır. Allahların ən böyüyü Vişnanın bacarığı və gücü sayəsində allahlar amirtadan hərəsi bir udum içir. Qalan eliksiri isə ətrafında güclü alovlar qalxan hündür dağın əlçatmaz, başı buludlara qalxan zirvəsində gizlədir. Şeytanların anası Dita işə qarışır. O, öz oğlu, nəhəng quş olan Qarudanı göndərir ki, qızıl camda saxlanılan eliksiri gətirsin. Qaruda özü ilə min çayın suyunu götürüb yola düşür, yanan alovları söndürür. Qızıl camı eliksir ilə birlikdə anasının yanına gətirir.

Amma şeytanlar amurtadan içib əbədi həyat qazana bilmirlər. Allahlar onların üstünə hücum çəkir və camı geri alırlar. Bu vuruşmada camdan dörd amirta yerə tökülür. Damcılar düşən yerlərdə dörd "əbədi və müqəddəs" şəhər- Usayn, Xardvar, Nasik və Prayaq yaranır. Allahabad adı Prayaqa sonradan verilmişdir.

Bu şəhər hindlilərin müqəddəs çayları olan Qanqa və Camnanın qovuşduğu yerdə inşa edilmişdir. Allahabadın özünəməxsus müqəddəsliyi vardır. Həm bayram zamanı, həm də adi günlərdə hindlilər özlərindən "günah ləkələrini" təmizləmək üçün bu şəhərin yaxınlığındakı çayda çimirlər. Həmin yerdə başqa bir qədim ənənə də icra olunur: ölmüş hindlilər

yandırılır və külü çayın üstünə səpilir. Bəzənsə cəsədi yandırmadan çayın dibinə buraxırlar.

Qanq çayında dəfn olunmaq böyük iftixar hissi doğurur. Odur ki, bəzən cənazələri yüz km - lərlə uzaqlardan gətirirlər. Qocalıb əldən düşmüş, kimsəsiz hindlilər hərdən özləri gəlib çayın yaxınlığında - Allahabad və ətrafında - ömürlərinin qalan hissəsini yaşayırlar. Həmin yerlərdən biri də yaxınlıqdakı Benares şəhəridir. Bütün il boyu Allahabadda olduğu kimi buradada zəvvarlar dolu olur. O, bir növ hindlilərin Məkkəsi rolunu oynayır və eyni hörmətə malikdir. Benaresdə XVI və XVIII əsrlərə aid abidələr qalmaqdadır.

Benares buddistlərin ürəyində xüsusi yer tutmaqdadır. O, həmçinin buddizm dininin müqəddəs ziyarətgahıdır. Deyilənə görə buddizmin yaradıcısı Budda bir müddət bu şəhərdə fəaliyyət göstərmişdir.

## CAYNİZM

Bu din, təxminən buddizm ilə eyni vaxtda yaranıb. Hazırda Hindistanda 1,5 milyon nəfərə qədər ardıcılı vardır. Bu dini bəzən buddizmin bir təriqəti də hesab edirlər. Dinin adı onun yarıməfsanəvi yaradıcısının- Maxaviranın, yəni Cinnanın (qalibin) adından götürülüb.

Caynizm Hindistanda quldarlıq quruluşunun inkişafı ilə əlaqədar olaraq hakim siniflərin istismarının güclənməsi nəticəsində yoxsul kütlələrin narazılığı kimi meydana gəlir. Sonradan hakim sinfin daxilində baş verən dəyişikliklər onu bir din kimi formalaşdırır. Bu dinə görə insanın taleyi onun öz şəxsi keyfiyyətlərindən asılıdır. Bu o deməkdir ki, onun bu və ya digər sinfə mənsub olmasının əhəmiyyəti yoxdur. Məsələnin belə qoyuluşu əvvəlki dinə - brəhmənizmə zidd idi. Bu səbəbdən də, caynizm əsas etibarilə hindistanın ticarət - sələmçi qrupları arasında daha çox yayılıb. Çünki onlar yoxsul kütlələrin brəhmənizmdən narazılığından bacarıqla istifadə edirdilər.

Din öz ardıcıllarına ciddi əxlaqi - esketik qayda - qanunlar qəbul etdirir. Bütün zor tətbiq etməni, o cümlədən canlı orqanizmi öldürməyi qadağan edir. Başqa dinlər kimi o da, ictimai bərabərsizliyi inkar etmir.

Caynizm nəticə etibarilə kasta sistemini qəbul edərək onunla razılığa gəlmişdir. Bu səbəbdən o induizmin bir qolu kimi indiyədək yaşamaqda davam edir. Onun əksinə olaraq buddizm kasta sistemini rədd edir, insanın düşüncə və dünyagörüşünə böyük imkanlar verir. Buna görə o, Hindistanda özünə yer tapa bilməyərək tarixdən getmişdir.





## CAYPUR

Caypuru çox vaxt "qızılgül rəngli şəhər" adlandırırlar. Çünki onun demək olar ki, əsas binaları bu rəngli daşlardan tikilib. Aydın günəşli havada Caypur rəngdən- rəngə düşür, daha da gözəlləşir. Heyranlıq yaradır.

Hava - mahal (Küləklər sarayı). Hava aydın və günəşli olanda bu beşmərtəbəli saray daha da sirli görkəm alır. Onu qəribə göstərən arı pətəklərinə bənzəyən çoxlu uzunsov pəncərələrdir.

Hava - mahal qırmızımtıl rəngli qum daşından yaradılıb. Memarlığında müsəlman məktəbinin təsiri açıq - aydın duyulur.

Bir qədər aralıda, çox da böyük olmayan vadidə maxaracaların ağ mərmərdən məqbərə və qəbirləri nəzərə çarpır.

Hindistanda belə bir qənaət yaranıb ki, Racastanın paytaxtı olan bu şəhər ölkənin ən düzgün salınmış yaşayış məntəqələrindən biridir. Caypur 1728- ci ildə Maxaraci Cay Sinqx tərəfindən planlaşdırılmış və inşa edilmişdir. O, öz dövrünün ən görkəmli şəxsiyyətlərindən biri olub. Çay Sinqx hələ on üç yaşına çatar - çatmaz knyaz taxtına əyləşib. Öz təbiətində astronom və riyaziyyatçı, mahir inşaatçı və cəsur döyüşçü kimi xüsusiyyətləri cəmləşdirən bu şəxs paytaxt üçün yeni yer seçərkən yanılmamışdır. Şəhərin küçələrinin eni 30 m - dir. Ox kimi düz olan bu küçələr biri - biri ilə düzbucaq altında kəsişirlər. Bütün küçələrdə səkilər salınıb, drenaj sistemi və su təchizatı mövcuddur. Şəhərdəki yaraşıqlı meydançalar göz oxşayır.

Caypur öz banisinin adını daşıyır. Cay Sinqxin vaxtında yaradılmış rəsədxana öz dəqiqliyi və kamilliyi ilə mütəxəssisləri heyran qoyur. Tarixi mənbələr göstərir ki, bu adamın birbaşa rəhbərliyi və köməyi sayəsində Hindistanın başqa şəhərlərində də - Dehlidə, Varanasidə, Ud- aynada eyni tipli rəsədxanalar inşa edilmişdir.

Cay Sinqx bu şəhəri bir paytaxt kimi inşa etdirərkən mövcud tarixi şəraitdən çıxış etmişdir. O dövrdə Hindistanda Moğollar hakimiyyəti artıq tənəzzülə uğrayırdı. Heç bir qüvvə ayrı- ayrı knyazlıqların müstəqil həyata qədəm qoymasına mane ola bilməzdi. Bütün bunlardan əlavə Cay Sinqx şəxsən imperator Auranqzebin tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişdi və sarayda hörmətə malik idi. Bununla əlaqədar deyilməlidir ki, Böyük Moğollar, ümumiyyətlə onun sələflərinə də yaxşı münasibət bəsləmişdilər. Çünki Racpur əhalisi öz döyüş qabiliyyəti ilə məşhurdur və bu xüsusiyyət onlara hörmət qazandırmışdı. Racpurlardan hətta Moğol

sarayından general rütbəsi alanlar da olmuşdu. Onlardan ən məşhuru Cay Sinqxin ulu babası I Man Sinqx nəslin fəxri sayılırdı.

Caypurda sənətkarlıq geniş yayılıb və tərəqqi etmişdir. Şəhərin əsas küçələrində çoxlu zərgərlik emalatxanaları və dükanları vardır. Zərgərlik işləri ilə adətən müsəlmanlar məşğul olub. Digər sənət növlərindən əsasən dulusçuluq, misgərlik və boyaqçılıq geniş yayılmışdır. Caypur sənətkarlarının istehsal etdiyi zərgərlik məmulatları kimi dəri, parça və mərmərdən düzəldilmiş əşyalar da hər yerdə məşhurdur.

Caypurun məşhur saraylarının bir neçəsi artıq muzeyə çevrilmişdir. Məşhur Ram- baqx adlı saray isə sahibkarı tərəfindən mehmanxana şəklinə salınmışdır. Nağıl təsiri bağışlayan Caynivas bağı öz fantanları ilə hələ də gələnləri valeh etməkdədir.

Caypurdan bir neçə kilometr aralıda, dağların qoynunda Amber adlı qədim şəhərin qalıqları durur. O, bir neçə əsr ərzində Racastanın paytaxtı olmuşdur və knyazlığı xarici hücumlardan qorumuşdur. Təpəliklərdə o dövrdə salınmış qalaların xarabalıqları hələ də qalmaqdadır. Amma əvvəlki paytaxtın ən başlıca abidəsi knyaz sarayı hesab olunur. Ağ mərmərdən XVII əsrdə tikilmiş bu sarayın gözəlliyinə tamaşa etmək üçün dünyanın hər yerindən turistlər axışıb gəlirlər.

Saray bərq vuran süni gölün sahilində inşa edilmişdir. O, hündür hasarla ətraf aləmdən ayrılıb. Sarayın aydın həndəsi ölçülərində, quruluşunda və zallarının bəzədilməsində Böyük Moğollar dövründəki hakim islam sənətinin təsiri aydın duyulur. Tamaşaçıda "Güzgülü zal" unudulmaz təəssürat oyadır. O, sanki minlərlə müxtəlif ölçülü və formaya malik kiçik şüşə parçalarından yaradılmışıdr. İşıq düşən zaman güzgülər par- par yanır. Zal qaranlıq olduğu üçün tamaşaçıda o, ucu- bucağı görünməyən kainatdakı yanan ulduzları xatırladır.

## HİND- İSLAM MEMARLIQ MƏKTƏBİ

Bu memarlıq məktəbinn tarixi (1526- 1857- ci illər) Böyük Moğollar adlı məşhur dövlətin tarixi ilə bağlıdır. Amma islam mədəniyyətinin Hindistana gəlişi çox əvvəllərdən başlanıb. Tarixi mənbələr göstərir ki, həm əməvilər, həm də abbasilər dövründə Hindistanın Yaxın və Orta Şərqlə sıx mədəni əlaqələri olmuşdur. Bu məsələdə Türküstanın rolu xüsusilə qeyd edilməlidir. Eranın əvvəllərindən başlayaraq müxtəlif türk xalqları kütləvi surətdə hind torpaqlarına köç etmiş və əsasən ölkənin şimal və qərb zonasında məskən salmışlar. Artıq onuncu əsrdə pəncab vilayəti Qəznəvi





dövlətinə tabe edilmişdi. XII əsrdə Şimali Hindistanda türk dövlətləri yaradılır. Onların içərisində məşhur ğazz qəbiləsinin mühüm rolu olmuşdur. Qurilərin hakimiyyəti zamanında, xüsusilə Qütbəddin Aybəkin dövründə güclü mərkəzləşdirilmiş islam dövləti (1192- ci il) mövcud idı. Məhz həmın dövrdən etibarən hind incəsənətində islam ənənələri özünə yer tapmışdı.

Daha sonra daxili vuruşmalar davam edir. 1399- cu ildə Teymurləngin Hindistana hücumu onlara son qoyur. Nəhayət, on altıncı əsrin başlanğıcında Teymurləngin nəslindən olan Babur Hindistanda Böyük Moğollar dövlətinin əsasını qoyur və o vaxtdan etibarən xüsusi hind- islam sənət məktəbi formalaşıb fəaliyyət göstərir.

Hindistan memarlığı üzrə mütəxəssislər göstərir ki, bu məktəbin təşəkkülü uzun sürmüşdür. Belə ki, müsəlman memarlar ilk dövrlərdə hind məbədlərindən istifadə edərək onları məscidə çevirirdilər. Türklərin Şimali Hindistanda yaratdıqları dövlətlərin incəsənətində hind sənət ənənələri hökm sürmüşdü. Təəssüf ki, Mahmud Qəznəvi zamanında hind torpağında yaradılan abidələr gəlib bizə çatmayıb. Bunu bəzi mənbələrin verdiyi məlumata görə Qurilərin və başqalarının dağıtdıqları kimi izah edirlər. Həmçinin göstərirlər ki, Böyük moğollar Lohorda və Pəncabda çoxlu qəsr və saray dağıtmışdır.

Hindistanda yaradılan, ən qədim islam abidələrini Qütbəddin Aybəkin adı ilə bağlayırlar. O 1193- cü ildə Dehli yaxınlığında "Qüvvət - əl - islam" adlı məscid tikdirir. Deyilənə görə məscidin yerində Cayna məbədinin xarabalığı varmış. Eyvanlı və qübbəli olan məscid öz üslubuna görə daha çox Abbasilər dövründə İraqda yayılmış üslubu xatırladırmış. Bu abidəni tədqiq edən alimlər qeyd ediblər ki, onun konstruksiyasında çoxlu hind memarlıq ünsürləri olubdur. Amma diqqəti daha çox hündürlüyü 72 m, çatan minbər cəlb edir. O, qırmızı daşdan inşa olunub və beş müxtəlif həcmli hissədən ibarətdir. Hər hissənin üstündə yazı və bitki ornamentləri vardır. Eyni cür ornamentlər məscidin fasadını da bəzəyir. Belə güman edilir ki, minbər öz xüsusiyyətlərinə görə Qurilərin Camdakı abidəsi (XII əsrin sonu) və Qəznəvilərin xatirə bürcləri kimi Qəznədə yaratdıqları abidəni xatırladır.

Tuğluqlar dövründə memarlıqda daşdan yonulmuş və müxtəlif rəngli ornamentlər, həmçinin mərmər plitələr istifadə olunmuşdur. Həmin abidələr içərisində bürcvari mavzoleylər də vardır. Məlumdur ki, onu qəznəvi türkləri və səlcuq türkləri Əfqanıstan, İran və Türkiyə ərazisində yüksəltmişdilər.

1414 - ci ildə tikilmiş Cavanpur şəhər camesinin tədqiqi isə göstərmişdir ki, onda qədim hind qəsr memarlığı ilə yanaşı hind məbəd konstruksiyası vardır. Camedəki səlcuq memarlıq ünsürləri isə özünü hündür qübbə və darvazaların tikilişində göstərmişdir.

Böyük Moğollar hökmdarı - Əkbər və şah Cahanın dövründə hind islam memarlıq sənəti uzun axtarış və təcrübələrdən sonra özünü hind və islam ənənələrinin sintezi şəklində formalaşmış surətdə biruzə verir. Buna ən yaxşı nümunə kimi mütəxəssislər Aqra şəhərində şah Cahan qalasına bitişik tikilmiş (1628- ci il) "Mirvari Məscidi"ni göstərirlər. O, hind- islam memarlığının gözəl nümunəsidir. Məsciddə ilk növbədə diqqəti dik - dik sütunlar cəlb edir. Tavanında üç dənə qübbə yüksəlir. Daxildə də eyni formalı sütunlar vardır. Daxili divarlar mərmərlə bəzədilmişdir. Şah Cahan Dehlidə də iri bir Came inşa etdiribmiş. Onun fasadında cərgə sütunlar və böyük sütunlar vardır. Hər iki tərəfdə bir neçə hissədən ibarət iki zərif, gözəl minbər ucalır.

Hindistanın türk - islam hökmdarları mavzoley tikintisinə həmişə xüsusi fikir veriblər. XIII əsrdən başlayaraq məşhur türbələr inşa edilmişdir. Onların əksəriyyəti dördbucaq şəklində olub daş tikililərdir. Əsas zalı qübbə örtərdi. Belə üsul qədim hind ənənələri ilə bağlı olub. Ən qədim hind - islam memarlıq nümunəsi kimi türk məmluklarından İltutmuşun 1235 - ci ildə Dehli yaxınlığındakı mavzoleyi qeyd olunur.

Al Tuğluq hakimiyyəti dövründə mavzoleylərin memarlıq xüsusiyyətləri Elxani nəslinin Azərbaycan və İranda tikdirdiyi mavzoleyləri xatırladır. O dövrün ən tanınmış mavzoleyi Qiyasəddin Tuğluqun oğlu üçün 1325- ci ildə Dehli yaxınlığında tikdirdiyi abidə sayılır. Mavzoleyin maili divarları yuxarı qalxdıqca daralır. Ətrafında isə möhkəm qala hasarı və bürclər olub. Məlumdur ki, belə maili divarlar Orta Asiya memarlığında meydana gəlmişdir.

Sonrakı dövrlərdə yaradılmış mavzoleylər öz əzəməti ilə fərqlənirdilər. Onlarda əsas qübbə ətrafında bir neçə yardımçı qübbələr inşa edilirdi. Onların forması daha çox soğanı xatırladırdı, bəzənsə açılmış lotos çiçəyinə bənzəyirdi. Belə mavzoleylərdən ən məşhuru Sasaram adlı yerdə Sultan Şirşahın şərəfinə ucaldılmış abidədir (1545- ci il).

Moğollar bu ənənələri daha da təkmilləşdirdilər. Nəticədə təkcə hind - islam memarlığının yox, dünya sənətinin ən gözəl incilərindən biri - Tac Mahal meydana gəldi. Mütəxəssislərin fikrinə görə o, hind - islam memarlıq məktəbinin zirvəsi sayılmağa layiqdir.

Saraylardan söhbət düşəndə yenə alimlər hökmdar Əkbərin dövrünü xatırlayırlar. Onun Fatehpur Sikridə yaratdığı abidələr yada düşür. Şah Cahan dövründə də gözəl qəsr və saraylar inşa edilmişdir. Bu şahın Aqrada inşa etdirdiyi qala və başqa abidələr kompleksi - Qırmızı Qala - Böyük Moğolların hind torpağını zənginləşdirən əməlləri kimi qeyd edilir. Onlarda mütəxəssislər Azərbaycan - İran təsirlərini də söyləyirlər.





# DEHLİ (ÜMUMİ)

Hindistan Respublikasının paytaxtı Dehli Qanqın çay qolu olan Camnanın sahilində yerləşir. O ölkənin qədim şəhərlərindəndir. İlk orta əsrlərdə İndrap rastha adlanırmış. Dehli adı XIII-XIX əsrlərdən etibarən verilməyə başlanıb.

Dehlini tarixdə şöhrətləndirən əsas səbəblərdən biri şəhərin 1206- cı ildə Sultanlığın paytaxtına çevrilməsi olub. Sonra bu şöhrət başqa bir sülalənin hakimiyyəti ilə əlaqədardır. 1642- ci ildə Şimali Hindistanda hökmranlıq etmiş Böyük Moğollar Dehlini özlərinə paytaxt seçmişdilər və şəhərin abadlığına böyük fikir vermişlər. Hindlilər 1857- ci ildə üsyan etmiş və yadelli rəhbərliyi devirmişdir. Amma bu dəfə ingilislər hakimiyyətə gəlmişdilər. Beləliklə, Dehli bir daha paytaxt seçilir. O, İngilis - Hind imperatorluğunun paytaxtı olur. Amma avropalılar paytaxtı yeni görkəmdə görmək istəyirdilər. Odur ki, köhnə şəhərin qərb hissəsində, əvvəllər avropalıların yaşayış məhəllələri olmuş rayonlarda yeni şəhər saldırırılar. Adını da Yeni Dehli- Nyu Dehli qoyurlar. Əsas inzibat binaları, hakimiyyət idarələri, parlament, universitet burada cəmlənmişdi.

Dehli Hindistan kimi nəhəng ölkənin təkcə siyasət mərkəzi olaraq qalmır. O, həm də mühüm iqtisadi ticarət və mədəniyyət ocaqlarından biridir. Şəhər altı dəmir yol xəttinin birləşdiyi bir nöqtədədir və bu, onun texniki- iqtisadi imkanlarını göstərir. Dehlidə çoxlu zavod, fabrik və s. sənaye müəssisələri vardır.

Bir sıra tarixi qaynaqlar Dehli adında yerdə şəhər olduğundan xəbər verir. Bu, bizim haqqında danışdığımız Dehlinin - Hindli Cavhan - Racput nəslindən törəmiş şahzadə Ray Pitxoranın tərəfindən təsis edildiyi göstərilir. Dehlinin ad - san qazanmasının tarixi isə belədir: Şəhər 1193- cü ildə Şahabəddin Qurinin valisi Qütbəddin Aybek tərəfindən zəbt edilir. Sonra Qütbəddin Aybek özünü müstəqil hökmdar - sultan elan etmişdi və onun hakimiyyəti zamanı Dehli paytaxta çevrilmişdi. O, tarixdə Dehli - türk və ya məmluk sülaləsi kimi tanınmış və 1296- cı ilədək hakimiyyətdə qalmışdı. Bu dövr ərzində Dehlidə yaradılan abidələr bunlardır: 79 m hündürlüyündə olan, Qütb Minar adı ildə dünyada tanınan möhtəşəm minarə, Cayna məbədlərinin müəyyən təsiri duyulan məşhur Qüvvət - əl - İslam camesi, bu camenin qərb tərəfində olduqca zəncin bəzədilmiş şah Eltutmuşun məqbərəsi, Qüvvət - əl - İslam camesinin daxilində Raca Pritfinin sələfi olan Tomarlı tərəfindən tikilmiş məşhur dəmir sütun.



Dehli – Qırmızı istehkam

Aybək sülaləsindən sonra gələn Xilaci sülaləsi də müəyyən quruculuq işləri aparmışdır. O zaman abidələrə bir sıra əlavələr edilmiş, təmir və yenidənqurma həyata keçirilmişdir. Bu sülalənin gördüyü başqa mühüm iş Dehlidən 3 km aralıda yeni bir paytaxtın inşa edilməsi olub. Tarixi qaynaqlar göstərir ki, 1397- ci ildə Teymur məhz həmin bu şəhəri fəth edibmiş. Xarabalar qalmış həmin şəhərdə bir vaxtlar bir neçə came fəaliyyətdə imiş. Ümumiyyətlə, bu əsrlər dövründə Dehlidən bir qədər aralı bir neçə paytaxt inşa edilir, tərəqqiyə çatır və tənəzzülə uğrayır.

Böyük Moğollar dövrünün ilk ən böyük və kamil abidəsi Hümayünün türbəsi sayılır. Bu gözəl abidə təpəcik üzərində qurulmuşdur, inşasında isə ağ mərmərdən istifadə olunmuşdur. Bir hissəsi isə qırmızı qum daşındandır. Maraqlıdır ki, 1857- ci ildə ingilislər Dehlini mühasirəyə alarkən sonuncu böyük moğol hökmdarı Bahadur şah məhz burada gizlənibmiş. İngilislər onu əsir alıb Qırmızı istehkama aparırlar. Son vəliəhdlə birlikdə öldürürlər. Bu türbənin günbəzini bəzəyən mavi kaşi İrandan gətirilərmiş.

Hümayün türbəsi ətrafında aşağıdakı abidələr vardır: İsa xanın türbə və camisi, məşhur sərkərdə və dövlət xadimi Bayram xanın oğlu Xaqan xanın türbəsi, Nizaməddin Ciştinin türbəsi, bir qədər əvvəlki dövrə aid edilən





Cami Xana Caməsi öz gözəlliyi ilə diqqəti cəlb edir. Bunlardan 6 km aralıda Out vilayətinin ikinci valisi Sərdar Sanqın məzarı qiymətli abidələrdən hesab olunur. Onu hind tarixində türklər tərəfindən son dövrlərdə (abidə on səkkizinci əsrin ortalarında inşa edilib) yaradılan ən yaxşı türbə hesab edirlər.

İmperator Əkbər (1556- 1605- ci illər) paytaxt kimi başqa bir şəhəri - Aqranı seçir. Oğlu Cahangir isə Aqradan imtina edərək sarayı əvvəlcə Lahora, oradan da Kaşmirə köçürür. Dediyimiz kimi, yeddi şəhərdən ibarət Dehlinin son - yəni yeddinci şəhərini qurmaq şərəfi Şahi Cahana nəsib olmuşdur. Yeddinci şəhər Şah Cahanabad adlanır və onun məşhur abidəsini - Ləl Gila (Al - Kala) sarayını həmin hökmdar inşa etdirib. Başqa abidə - Böyük Came və s. təxminən eyni vaxtda (XI əsrin II yarısı) inşa edilmişdir. Dehlinin binaları, Came məscidi istisna olaraq, Aqradakı Mati məscidlə və Tac Mahalla kamillik cəhətincə müqayisəyə gələ bilməz. Amma bununla belə iç qaladakı sarayın qırmızı qum daşından hörülmüş divarları və iki böyük giriş qapısı, həmçinin Naqqarxane deyilən musiqi salonu həm tərtibatına, həm də ustalığına görə sənət inciləri sayılırlar. Oradakı divane - xass və divane - am adlanan inzibati binalar da yüksək qiymətləndirilir. Came məscidə gəlincə, əvvəlcədən deyilməlidir ki, həm xarici həm də daxili görünüşü etibarilə ən gözəl məscidlərdən sayılır. Onlardan başqa Qaziəddin xanın 1752- ci ildə tikilmiş türbəsi də tarixi abidələr sırasında layiqli yer tutur. XVII əsrdə Dehlini səyahət etmiş və bəzi abidələri tədqiq etmiş Bernier və Tavernier şəhərin abadlığına və sarayların ziynət və təmtarağına aid çoxlu məlumat verirlər. O dövrün gözəl abidələrindən bəzisi, məsələn haqqında danışılmış zadəgan sarayı sonralar zərər çəkmişdir. Həmçinin, saraya bitişən Çandni Çauk küçəsi də öz şərq xüsusiyyətlərini itirmişdir.

Qırmızı istehkam: Onun möhtəşəmliyi, əzəməti görənləri heyran qoyur. Qırmızı istehkam məşhur moğol hökmdarı Şah Cahanın iqamətgahı kimi tikilib. Binanın xarici divarları qırmızı rəngli qumdaşından yaradıldığı üçün belə adlanır.



*Dehli Qütb - Minar*

İstehkamın daxilində müxtəlif məqsədlər üçün yaradılmış xüsusi binalar var. Onlardan ən maraqlısı "qəbul zalıdır". O, müxtəlif mərasimlər icra etmək üçündür. Bundan başqa xüsusi qəbul otağı vardır (Divan xas). Bu imperatorun təklikdə etdiyi görüşlər, söhbətlər üçün nəzərdə tutulub. Qadınların yaşayışı üçün ayrılmış bina Ranq - mahal adlanır. Onun tərtibatı, bəzək - düzəyi daha parlaq, daha zəngindir.

Bu binalardan əlavə yüksək zövqlə yaradılmış mərmər Moti - məscidi (Mirvari məscidi) göstərmək olar. Gözəl, valehedici naxışları olan və qiymətli daş - qaşla bəzədilmiş şah hamamı indi də gələnləri heyran qoyur. Tarixi məlumatlarda qeyd olunub ki, bəzək - düzək və naxışların çoxu o vaxt Florensiyadan xüsusi olaraq gətirilmiş ustalar tərəfindən yaradılırdı.

Böyük moğolların hakimiyyəti dövründə Qırmızı istehkam dövlətin xəzinəsinin saxlandığı yer olub. Tarixdə məşhurlaşan zümrüd və brillyantlarla bəzədilmiş, qızıldan ayaqları olan Şah Cahanın taxtı bu binada yerləşirmiş.

1947- ci ilin avqustun 15- də Qırmızı istehkamın üzərində azad Hindistanın bayrağı qaldırıldı. Bu milli istiqlaliyyətin əldə edilməsini elan edirdi. Milli bayrağı Hindistanın böyük oğlu, məşhur siyasi və dövlət xadimi Cavahirləl Nehru qaldırmışdı.

Cümə məscidi: Qırmızı istehkamla üzbəüz Cümə məscidi dayanıb. Sanki o, bu böyük tikili ilə rəqabətə girib. Məscid də qırmızı qumdaşından və mərmərdən yaradılıb. Məscidin portalları, ibadət zalları, iki qırxmetrlik minarəsi yüksək sənətkarlıqla işlənib. Minarələrin qurtaracağı ağ mərmərlərlə örtülsə də, qara mərmərdən istifadə olunmuş uzununa xətlər onu bəzəyir.

Məscid öz memarlıq kompozisiyasına görə Orta Asiya tikililərini xatırladır. Nəhəngliyini təsvir etmək üçün demək lazımdır ki, onun içərisində 100 min adam rahat yerləşə bilər. Tarixi sənədlərdə qeyd olunmuşdur ki, onun memarı Orta Asiyalı Usta Cəlaləddin olub. Cümə məscidində dünya müsəlmanlarının peyğəmbəri Məhəmmədin geydiyi dəvə dərisindən başmaq, peyğəmbərin başının iki tükü və Məhəmmədin ayağının izi qalmış və Məkkədən gətirilmiş balaca mərmər lövhə saxlanılır.

Cümə məscidi Hindistanda ən böyük müsəlman dini mərkəzi sayılır. Ümumiyyətlə, o, dünyadakı ən iri məscidlərdən biridir.

Qütb - minar: Bu abidə müxtəlif çalarları olan açıq - qırmızı rəngli qumdaşından tikilib. Hündürlüyü 75 m çatır. Müxtəlif hündürlükdə qurşaqvari zolaqlarla əhatə edilib. Xırda eyvancıqlar onun gövdəsini bəzəyir.

Qütb - Minar yerləşən ərazi indi çoxdan uçub dağılmış, xarabaya dönmüş qədim tikililərlə əhatə olunub. Tarixçilərin fikrincə o, vahid





ansambl olub. Sultan Məhəmmədin tikdirdiyi böyük məscidin qalereya və tacları artıq yoxdur. Amma qələbə şərəfinə ucaldılmış minarə uzun müddət keçməsinə baxmayaraq çox yaxşı qalıb.

Qütb - Minar, bütün müsəlman tikililərində olduğu kimi heykəlsiz və canlı orqanizm şəkli olmadan yaradılıb. Bütün gövdəsi qurandan götürülmüş yazılarla örtülüb.

Abidə tam harmoniya təşkil etdiyi üçün adama elə gəlir ki, yalnız göyə ucalmaq naminə o tikilib. Daxilindəki 378 pilləli vintvari nərdivanla abidənin platformasına qalxdıqdan sonra bu hiss daha da güclənir. Ordan bütün Dehli və Camna çayı əl içi kimi görünür. Bir qədər aralıdakı Dəmir sütun xırdaca kibrit çöpünü xatırladır.

Dəmir sütun: Qütb- Minar yerləşən ərazidədir. Bizim eradan 3 əsr əvvəl yaradılıb. Bu abidə Şərqin qədimdə nə qədər yüksək inkişaf səviyyəsinə çatdığına ən yaxşı dəlildir. Sütun toz metallurgiyası əsasında hazırlanıb. Yaradıldığı dövrdən iki min ildən çox vaxt keçməsinə baxmayaraq o bütün təbiət təsirlərinə dözür, paslanıb çürümür. Onunla bağlı əfsanədə deyilir ki, sütunu qucaqlayan adam həyatda xoşbəxt olacaq. Odur ki, sütunun adam boyu hissəsi sürtüldüyü üçün par - par parıldayır.

# TUQLAQABAD

1320 - ci ildə sui - qəsd nəticəsində hakimiyyətə gələn Malik Qazi tacqoyma mərasimindən sonra Qiyasəddin Tuqlaq kimi tanınır. O, Dehlidə yeni türk sülaləsinin əsasını qoyur və bu sülalə XV əsrin əvvəllərinə qədər hakimiyyətdə olur.

Qiyasəddin Tuqlaq Ləl - Kotdan təxminən 8 km şərqdə yeni paytaxtın binasını qoydu. Şəhər cəmi 4 ilə tikilib başa çatdırılmışdır. İnşaat işlərində əsasən yerli tikinti materiallarından - boz və tünd daşdan istifadə olunubdur. Şəhərin ətrafında güclü müdafiə divarı çəkilmişdir. Onun ümumi uzunluğu 6,5 km çatırmış. Tikinti işlərində həmçinin gil və kərpicdən, Pəncabda, Sinddə və Əfqanıstanda geniş yayılmış materiallardan istifadə olunmuşdur.

Tuqlaqabad qalası qayalıq yamacda salındığı üçün təbii müdafiə xüsusiyyətlərinə malik imiş. 10 - 15 m hündürlüyündə olan qala divarlarında mağaralar və darvazalar inşa edilibmiş. Qalanın baş qapısı süni göl olan tərəfə- cənuba sarı açılırmış. Qalanın daxilində cənub qapılarından şərq tərəfdə istehkam tikilibmiş. Darvazadan qərb tərəfdə isə sultanın sarayı yerləşərmiş.

İbn Battuta özünün valeh olduğu bu paytaxt - qala haqqında belə yazıb: "Burada tuqlaqların var - dövləti toplanmışdı və sarayları vardı. Böyük saray qızıla tutulmuş kərpiclərdən inşa edildiyi üçün günəşin şüarları altında par-par yanırdı. Odur ki, heç kəs ona uzun müddət baxa bilmirdi. Bura o, böyük və qiymətli var- dövlət sərf etmişdi. Hətta danışırlar ki, sultan nəhəng bir quyu qazdırıb, qızılını əridərək ora tökür. Deyirlər ki, həmin qızıl bərkiyib iri bir qayaya dönüb".

Tuqlaqabad qalasının şimal tərəfindən şəhər başlayırdı. Şəhərlə qala arasında xarici qala divarları kimi divar çəkilibmiş. Hal - hazırda mövcud olan şəhər ərazisində indi də evlərin özülü görünməkdədir. Şəhərin küçələri şəhər darvazalarından başlayaraq əks istiqamətdəki darvazalaradək uzanırmış.

Tuqlaqabad memarlığı ciddi və sadə görkəmə malik olub. Eyni sözləri Qiyasəddin Tuqlağın məqbərəsi haqqında da demək olar. O, xarici görkəmcə balaca bir qalanı xatırladır. Beşguşəli, mazğal və bürclərlə əhatə edilmiş hasarın əhatəsindədir. Deyilir ki, Tuqlaq bu məqbərəni sağlığında, çox da böyük olmayan gölün ortasında tikdiribmiş. Məqbərədən qalaya doğru quru yol çəkdiribmiş. Hazırda məqbərənin hasarındakı iri darvaza yerindən içəri girərkən qarşıya daş pilləkən çıxır. Həmin yol həyətin ortasınadək aparır və sultanın məqbərəsi ilə rastlaşdırır. Məqbərənin səkkizguşəli divarı da qırmızı qumdaşından yaradılmışdır. Ağ mərmərdən olan qübbə səkkizguşəli divarın üstündə yerləşir. Qırmızı qumdaşının yaratdığı yeknəsək təsir ağ mərmərin, tavanın və naxışlı kərpiclərin doğurduğu xoş təəssurata xələl gətirir.

Qiyasəddinin fəaliyyətinin məhsulu olan Tuqlaqabad onun faciəli ölümünün də şahidi olmuşdur. Atası Qiyasəddinin Benqaliyəyə uğurlu hərbi səfərinin təntənə ilə qeyd edilməsinə oğlu Cunaxan şəxsən rəhbərlik edərmiş. Ordusu ilə səfərdən qayıdan sultan təntənə həyata keçirilən zaman fillərin paradına baxmaq üçün ağacdan düzəldilmiş tribunaya çıxır. Bu vaxt taxtalar uçur, o, tribunanın altında qalıb həlak olur. Bəziləri belə düşünürlər ki, bu iş onun oğlu tərəfindən əvvəlcədən qurulmuş plan əsasında həyata keçirilmişdir. Məşhur ərəb səyyahı İbn Battuta da bu fikirdədir. O, Cunaxanın hakimiyyəti dövründə bir müddət Dehlidə yaşamışdı. Cunaxan isə tac qoyduqdan sonra Məhəmməd şah Tuqlaq kimi tanınıb.

Tuqlaqabadda həyat sürən Məhəmməd şah Dehlinin başqa şəhər - peyklərini də yaddan çıxarmırdı. Qədim şəhərlə Siri arasındakı ərazi böyük olsa da qorunmurdu. Orda bağlar salınmış, çoxlu ev və dükanlar tikilmişdi. Get - gedə böyüməkdə olan şəhəri müdafiə etmək məqsədi ilə Məhəmməd şah Ləl - Kotu Siri ilə divar vasitəsilə birləşdirmək qərarına gəlir. Bu yeni





əraziyə Cahanpənah adı verilir. Tədqiqat aparan arxeoloqlar orda saray hamamını, qadınlara məxsus binaları və "min dənə sütun" adlı məşhur zalı müəyyən ediblər. Deyilir ki, həmin zal Ələddin Xilcinin sarayını kölgədə qoymaq məqsədilə tikilibmiş. Əbdül Fəzl adlı müəllifin yazdığına görə sütunlar mərmərdən imiş.

Eyni zamanda Məhəmməd şah Tuqlaqabadın müdafiəsini möhkəmləndirir. Cahanpənah tikilib başa çatdıqdan sonra, sultanın əmri ilə Tuqlaqabadda yeni, çox da böyük olmayan bir qala inşa edilib. Əsası müdafiə kompleksinə əlavə olan bu qala Adilabad adlandırılır. Həmin qalanı Tuqlaqabadla birləşdirən divar təpələr üzərində uzanırdı və qalanı xarici hücumlardan qorumaq funksiyasını yerinə yetirirdi. Cənub - şərqdə və cənub - qərbdə iki möhkəm müdafiə darvazası qurulmuşdur. Hasarın əhatə etdiyi ərazidə istehkamlar varmış, saray tikililəri də orada yerləşirmiş. Tuqlaqabadda və Adilabadda yağış suyunu toplamaq və şəhərətrafı tarlalara axıtmaq üçün xüsusi qurğular olmuşdur.

Dehli haqqında ən geniş məlumat verən səyyahlardan biri İbn Battuta, qaynaqlara əsasən 1333- cü ildə Məhəmməd şahın hakimiyyəti dövründə orda yaşamışdır. Şimali Afrikanın Tanjer şəhərində anadan olan bu şəxs Məkkədə ilahiyyət elmini öyrənmiş və səyahətə çıxmışdır. O, Misri, Suriyanı, Kiçik Asiyanı, Ərəbistanı, İraqı, İranı gəzə- gəzə Qara dənizdən adlayır. Sultan Məhəmməd Özbəyin məmləkətini dolanır. Qızıl Ordada bir müddət qalır. Cənubi Rusiyanı səyahət edir. Ordan isə Buxaraya, daha sonra Xorasana və Kabula üz qoyur. Dehlinin Şərq mədəniyyətinin mərkəzinə çevrildiyini eşidən Battuta şəhərə gəlir. Sultan onun biliyinə hörmət edərək sarayında iş verir. Lakin 1340- cı ildə o, sultanın qəzəbinə düçar olur və Çinə elçi sifətində yola salınır. Lakin Çinə çatmamış sultanın göndərdiyi böyük və qiymətli hədiyyələr yolkəsənlər və tufan nəticəsində əldən gedir. Vəziyyəti belə görən İbn Battuta yenidən səyahətə qurşanır. Bu dəfə o, Çini gəzir, ordan hind- çinə səyahət edir və gəmi ilə vətəni Mərakeşə qayıdır. Bir müddətdən sonra İbn Battuta İspaniyaya gedir, yenidən Afrika sahillərinə yollanır və Nigerə qədər səyahət edir. Böyük səyyahın gördükləri məşhur "Səfərnamə" adlı əsərində öz əksini tapmışdır.

Deyilənə görə Məhəmməd şah Tuqlaq böyük bir imperyaya başçılıq edirdi. Onun tabeliyində olan vilayətlər Dehlidən bəzən min kilometr aralıda yerləşirdi. Sultanın paytaxtı Tuqlabaddan yeni, Hindistanın cənubuna yaxın bir şəhərə köçürmək arzusu çox güman ki, varlı- dövlətli cənuba daha çox hökm etmək istəyindən yaranmışdı. Yeni paytaxt kimi Davaqarı adında bir şəhər müəyyən olunur və 1326- cı ildə paytaxt oraya köçürülür. Sonralar o, Dövlətabad adlandırılır.

Sultanın bu hərəkətini müasirləri hərəsi bir cürə izah edirdilər. Məsələn, Barani adlı bir müəllif belə fikir irəli sürür ki, Dehlinin yerli əhalisinin hökmdara qarşı olan nifrəti onu paytaxtı köçürməyə məcbur etmişdi. Onun bu fikrini İbn Battuta daha da genişləndirir. O, yazır ki, sultan ona hədə- qorxu gələn çoxlu məktub alırmış. Nəticədə hökmdar Dehlini tərk etməyə qərar verir. Sultanın planına əsasən şəhərin bütün əhalisi yeni, möhkəm qala divarları ilə əhatə olunmuş paytaxta - Dövlətabada köçməli imiş. İbn Battuta yazır ki, sultan Dehli əhalisindən evləri və dükanları pulla satın alır, özlərinə isə əmr edir ki, üç gün müddətinə şəhəri tərk etsinlər. Əhalinin böyük əksəriyyəti bu işə razılıq verir və Dövlətabada köçür. Çox cüzi bir hissəsi isə qorxusundan gizlənir, sultanın adamları gizlənənləri tutub zorla şəhərdən köçürür. Dehlidə yalnız qocalar və hərəkət edə bilməyən əlillər qalır. İbn Battutanın yazdığına görə şəhərin bütün əhalisi köçməyə məcbur olmuşdu və şəhər "boş səhranı xatırladırdı". İbn Battuta həmçinin qeyd edir ki, o dövrdə Bağdad və Qahirə ilə rəqabət aparan Dehli müsəlman şəhəri o qədər boşaldılıb viranə qalmışdı ki, şəhərdə hətta it və pişik belə gözə dəymirdi.

Lakin, yenidən İbn Battutaya görə 1337- ci ildə öz tutduğu işdən peşman olan Məhəmməd Dehlinin paytaxta çevirmək qərarına gəlir. Hətta üstəlik o, qonşu vilayətlərin əhalisinə müraciət edərək onları Dehlidə yaşamağa çağırır. Əhali çağırışa qoşulur və öz doğma yurdlarından şəhərə köçür. Dehli isə deyildiyi kimi geniş və yaşayış üçün əlverişli idi. İbn Battutanın yazdığına görə "o, həqiqətən dünyanın ən böyük şəhərlərindən biri hesab oluna bilərdi".

Həmçinin çoxlu qaynaqlardan məlumdur ki, Dövlətabadın paytaxta çevrilməsi Dehlinin fəlakətinə səbəb olmamışdı. Məhəmməd şahın müasiri olmuş Bədr Çaç adlı bir müəllif göstərir ki, sultanın iqamətgahı Cahanpənahda məhz həmin dövrdə 1327- 1329- cu illərdə inşa edilmişdir. Həmçinin bu da məlumdur ki, Bədr Çaç 1334- cü ildə yazdığı mənzum əsərdə Dehlinin gözəlliklərini tərənnüm edibmiş. Başqa qaynaqlar isə göstərirlər ki, Məhəmməd şah 1328- ci ildən 1337- ci ilədək dəfələrlə Dehlidə olmuş və öz ətrafı ilə birlikdə orda qalmışdır. Bu isə Dehlinin tamam viranə qaldığını inkar edir. Görünür Dövlətabadla yanaşı Dehli yenə də dövlətin paytaxtı olaraq qalarmış. Ərəb dilində olan ensiklopedik əsərin "Məsalik əl- əbsar"ın müəllifi də (XIV əsrin 30- cu illəri) ölkənin iki paytaxtı olduğunu təsdiqləmişdir.

Dehlidən Dövlətaba qədər olan yol boyu təxminən hər iki km- dən bir poçt stansiyaları (İbn Battuta ona davat deyir) yerləşdirilmişdir. Həmin torpaqdan gələn gəlir poçt işçilərinin payına düşürdü. Yollarda həmçinin sufi





- dərvişlər üçün xanəgahlar inşa edilmişdi. Gəzən dərvişlər orda gecələyə və yemək ala bilərdilər. İbn Battutanın yazdığına görə Dehlidən Dövlətaba qədər olan yol boyu o, ərzaqdan korluq çəkməyib. 40 gün davam edən səfər zamanı səyyah sanki başdan- başa bazar olan bir ərazidən keçibmiş. Yolun hər iki tərəfində çoxlu ağaclar əkildiyi üçün kölgəsində istirahət etmək mümkün imiş.

# ŞAH CAHANABAD

1638- ci ildə məşhur moğol hökmdarı Şah Cahan sarayı ilə birlikdə Dehliyə köçür. Camna çayının sağ sahilində, Füruz şah Kotladan şimalda yeni saray inşa etdirir. Saray möhkəm qala divarları ilə əhatə olunur. Qala inşa olduğu tikinti materialının- qırmızı qumdaşının rənginə görə "Ləl- qala"- yəni Qırmızı istehkam adlandırılır. Sonradan bu məntəqənin ətrafında böyük şəhər əmələ gəlir və o, Şahcahanabad kimi tarixə daxil olur.

Şahcahanabad, yaxud XVII əsrdə deyildiyi kimi, "Yeni şəhər" Hindistvandan çox- çox uzaqlarda məşhurlaşmışdı. XVII əsrdə çoxlu avropa səyyah və taciri bu şəhərdə olmuşdu. Tarixi qaynaqlar onlardan fransız zərgəri J.B.Taveriysenin, səyyahı M.Tvenonun, ingilislər C.Freyerin və A.Hamiltonun, italiyalı N.Manuççinin adını çəkir.

Fransız həkim, filosof və səyyahı Fransua Beriye (1625 - 1688 - ci illər) on iki il Hindistanda yaşamış və doqquz il Böyük Moğollar sarayının baş həkimi işləmişdir. O, "Böyük Moğollar dövlətindəki siyasi çevrilişlərin tarixi" kitabını yazmışdır.

F.Beriye yazır ki, Dehli (yəni Şahcahanabad) tamamilə yeni şəhərdir. O, Leuraya oxşayan Camna çayının ətrafında salınıb. Şəhər öz planına görə aypaya oxşayır. Çay üzərində yalnız bircə dənə panton körpü vardır. Şəhər hər tərəfdən (çaya bitişik səmtdən başqa) hündür qala divarları isə əhatə edilmişdir. Amma onlar müdafiə üçün qəti yararlı hesab edilə bilməz: çünki divarboyu xəndəklər yoxdur. Alimin yazdığına görə Yeni şəhərin tikintisində köhnə binaların qalıqlarından istifadə edibləmiş.

Şahcahanabad qalasının 14 darvazası varmış. Onlardan bir neçəsi indiyədək qalmaqdadır. "Qırmızı istehkamın" inşası 1639- cu ildə başlanıb və təxminən 9 ilə tikilib. Bu qalanın divarlarının üstündə o vaxtlar bir neçə səhra topu yerləşdirilbmiş. Qaladan kənarda isə çoxlu meyvə bağları salınıbmış. Beriyenin dediyinə görə, qala hər yandan yaşıllığa qərq olduğu üçün çox gözəl görünərmiş.

Ləl - qala öz formasına görə düzgün olmayan səkkizgüşəlidir. Onun əsas qapıları- Laxor darvazası qərbə açılırdı. Dehli darvazası isə cənuba baxırdı. Laxor qapılarının önündə kiçik meydançada padşahın keşikçiləri olmuş racların çadırı qurulubmuş. Həmin meydançada sübh tezdən atları gəzdirir və şah damğası ilə nişanlayırdılar. Türküstandan və Tatarıstandan olan atlar öz cinsinə görə ən yaxşı at sayılır və şah tövləsinə verilərdi.

Laxor darvazasının hər iki tərəfində böyük şir heykəlləri yüksəlirdi. Onların birinin üzərində Racput qalası Çitorun rac qardaşlarının təsviri verilmişdir. Əfsanəyə görə bu iki qəhrəman 1568- ci ildə qalaya hücum çəkən moğol hökmdarlarına qarşı vuruşmada həlak olmuşlar.

Laxor darvazasından içəri girərkən iki yaruslu qalereya qarşıya çıxır. Ona naqqarxana (yəni musiqi evi) deyirlər. Bu binada şaha aid olan musiqi alətləri saxlanırmış. "Musiqi evindən" sonra ilk saray pavilyonu- Divan- am (yəni ictimai qəbul zalı) gəlir. Pavilyon qırmızı rəngli qumdaşından tikilmişdir. Əvvəllər onun ətrafında başqa binalar varmış və o, vahid ansanbl təşkil edərmiş. Zalda şahın taxtı qoyulubmuş və taxtın üstündə mərmər tavan ucalarmış. Bayram günlərində zalın döşəməsi iri xalılarla örtülür, sütunlara qızıl işlənmiş bahalı parçalar asılarmış.

İctimai qəbul zalı üç tərəfdən açıqdır və hündür daş platformanın üstündə yerləşmişdir. Ətrafında gümüş məhəccərlər qoyulmuşdur. Zalı müxtəlif sütunlar və dişli tağlar bəzəyir. Tavan gözəl naxışlarla doludur. Zalın yeganə divarı hərəmxana tərəfdəndi. Divarın ortasında adam boyu hündürlüyündə yeganə pəncərə qoyulmuşdur. Hər gün təxminən günorta vaxtı şah həmin pəncərənin önündə oğullarından biri ilə oturub söhbət edərmiş, qullar isə yanında durarmışlar; onlardan biri xüsusi yelpiklə milçəkləri qovlayır, başqası havaya ətriyyat vurar, qalanlar isə müti vəziyyətdə şahdan göstərişlər gözləyərmiş. Aşağıda pəncərənin önündə əmirlər, raclar, səfirlər başlarını aşağı salaraq və əllərini qarınlarında çarpazlayaraq dayanarmışlar. Taxtdan bir qədər aralıda daha aşağı mənsəb sahibləri müntəzir dururmuşlar. Qeyd olunur ki, ictimai qəbul vaxtlarında şahı əyləndirmək üçün cürbəcür at, fil və s. heyvan nümayişləri təşkil olunurdu.

Zal yerləşən həyətin o biri tərəfində "Ranqmahal" (Çiçəklər sarayı) inşa edilmişdir. Hazırda onun ornament zənginliyindən heç nə qalmayıb. Deyilir ki, Çiçək sarayının tavanı gümüşlə örtülü imiş və qızıldan düzəldilmiş çiçək rəsmləri onu bəzəyirmiş. Kvadrat şəklində olan mərmər hovuz çiçək və yarpaq formasında doğranmış parlaq daşlarla bəzədilibmiş. Ora tökülən su çiçəklərin hərəkəti təsəvvürü yaradarmış. Suyun axdığı mərmər arxa o dövrdə "Nəhri- behişt" (Behişt arxı) deyərmişlər.





Ranq - Mahaldan sol tərəfdə Xas- Mahal (xüsusi saray) yerləşir. O da gözəl naxışlarla bəzədilmişdir. Onun arxasında isə səkkizgüşəli bürc yüksəlməkdədir. Bürc bir vaxtlar mis və sair metaldan düzəldilmiş naxışlara malik imiş.

Xas - Mahaldan şimal səmtdə Divan- Xas (xüsusi qəbul zalı) vardır. O, ağ mərmərdən inşa edilmişdir və üç tərəfdən tağlarla əhatə olunub. Şah taxtı da bu zalda qurulubmuş. Beriyenin yazdığına görə taxtın dörd iri ayaqları olub. Deyildiyi kimi onlar qızıldan tökülübmüş və almazla, brilyant və zümrüdlə bəzədilmişdir. Zalın tağlarının birinə həkk edilmiş bu sözləri- "Dünyada cənnət varsa, o burdadır, burdadır" Şah Cahana aid edirlər.

Qalada təkcə şah sarayı deyil, çoxlu başqa binalar- divanxanalar, dövlətin xəzinəsi, yığılmış vergini saxlayan anbarlar, ərzaq ehtiyatı üçün xüsusi zirzəmilər və s. inşa edilibmiş. Onlardan əlavə qalanın daxilində müxtəlif sənətkar emalatxanaları varmış. Beriyenin yazdığına görə Yeni şəhərin XVII əsrdə malik olduğu görkəm Aqranın yaxşı dövrünün görkəmini xatırladırmış.

## SİRİ

1303- cü ildə hökmdar Ələddin Siridə özünə iqamətgah inşa etdirir. Bundan sonra istehkamın tikintisinə başlanır. 5 m qalınlığında olan daş hasardan hazırda qərb və cənub hissələrində ayrı- ayrı fraqmentlər qalmaqdadır. Hasarın ümumi uzunluğu 2 km çatarmış. Divarlar dişli şəkildə tikilibmiş (Hindistanın qala memarlığında belə hal ilk dəfə Siridə rast gəlinir). Hasarın müxtəlif yerlərində qüllələr, mazğallar və darvazalar varmış. Yazılı mənbələrə görə Siri qalasının yeddi qala darvazası olmuşdur. Onlardan birinin- cənubi- qərbə açılan darvazanın qalıqları indi də durmaqdadır. Qalanın içərisində məscid binası və ikimərtəbəli sultan sarayı- "hezar- sütün" inşa edilibmiş. Saray ağacdan olduğu üçün Ədəddinin varisləri dövründə tamamilə aradan qalxır.

Ələddin Siri ilə yanaşı Ləl- Kotun abadlığına da ciddi fikir verirmiş. O, cümə məscidin ətrafında hasar çəkdirir, darvazalar inşa etdirir. Sənət mütəxəssislərinin fikrincə bu abidə tamamilə islam memarlıq ənənələrinə uyğun surətdə yaradılan nümunədir. Onun görkəmində Səlcuq memarlıq məktəbinin təsiri aydın görünərmiş. Bu fakt Dehlini qurub yaradan memarların əksəriyyətinin Mərkəzi Asiyadan və Azərbaycan, İran ərazilərindən olması ilə izah edilir.

Ələddin həmçinin Qüvvət- ül- islam camesinin yanında yeni bir mədrəsə inşa etdirir. Görünür Ələddinin özünün məqbərəsi də həmin rayonda yerləşirmiş. Bu hökmdarın təkəbbürü və qüruru o qədər yüksək olub ki, özünü Dehlidə o dövrdə buraxılan sikkələrdə "inkinci İskəndər" kimi təqdim edib. Bundan sonra Qütb Minardan iki dəfə hündür olan qüllə tikdirmək qərarına gəlir ki, adı hind torpağında əbədiyyətə qovuşsun. Amma tale başqa hökm verir. Sultan qüllənin inşasının lap başlıngıcında vəfat edir.

Deyilməlidir ki, Ələddinin hakimiyyəti dövründə Siri böyük bir imperiyanın paytaxtına çevrilmişdi. Hökmdarın çoxlu hərbi səfərləri nətisində qonşu torpaqlar bu sultanlığa tabe etdirilmişdi.

Siri şəhərini su ilə təchiz etmək üçün qərb tərəfdə böyük bir su anbarı tikirlər. Həmin anbar əvvəllər Hauz Alam, sonralar isə Xauz - Xas, Tac hovuz adlandırılır.

Ələddinin qonşu hind ərazilərinə hücumları əlində külli miqdarda sərvətin toplanmasınasəbəb olmuşdu. Hökmdar bu var - dövlətdən həm paytaxtın abadlığı üçün istifadə edirdi, həm də ordunun qüvvətlənməsinə xərcləyirdi. Tarixi qaynaqlar göstərir ki, Ələddin hakimiyyəti illərində tabeliyində olan hərbi hissələr bir neçə dəfə monqol hücumlarının qarşısını ala bilibmiş.

## LƏL - KOT

Deyildiyi kimi, Dehli tarixən bir - birindən yaxşı salınmış bir neçə paytaxt şəhərin birləşməsindən əmələ gəlmişdir. Ləl - kot onların ən qədimlərindən sayılır.

Ləl - kot mənşəcə Xorasanlı olmuş və uşaqlığından qul kimi bazarlarda satılan, sonra isə Dehlinin sultanına çevrilən Qütbəddin Aybekin hakimiyyəti illərində (1206-1210) salınmışdır. Aybek iqamətgahı yerləşən bu şəhərin tikintisinə başlasa da çovkan oyunu vaxtı atdan yıxılıb həlak olur. Hökmdarın və yaxın adamlarının fikrincə islamın gücü və yerli dinlər üzərində qələbəsi şəhərdə tikilməkdə olan came məscidinin timsalında özünü göstərməli idi. Sonralar həmin came "Qüvvət- ül- islam" (islamın gücü) adlandırılmışdır. Bu abidə hind- müsəlman tikinti sənətinin ilkin dövrlərinin ən yaxşı nümunələrindən sayılır. Camenin düzbucaqlı həyəti (43x33 m) bu bütün müsəlman məscidlərinin ayrılmaz hissəsidir- ətrafdan tağlarla, naxışlı və bəzəkli sütunlarla əhatə edilmişdir. Bəzi mənbələr həmin detalların müxtəlif induist və caynist məbədlərdən götürüldüyünü qeyd edir. Tağlar cərgəsinin





şərq tərəfində qadınlar üçün xüsusi binalar olmuşdur. Ananqalar Tomor tərəfindən yüksəldilmiş dəmir sütunun qarşısında ibadət zalı mövcud imiş. Sonralar həmin yerin qarşısında bir mərkəzi, iri tağ və bir neçə köməkçi tağ ucaldılmışdır. Zalın qarşısındakı daş divarın üzərində naxışlı və Qurandan gətirilən ayələr yazılmış daş lövhələr olmuşdur. Hind - islam poeziya məktəbinin ən böyük nümayəndələrindən biri Əmir Xosrov Dəhləvinin yazdığına görə XII əsrin sonlarında məscidin doqquz gümbəzi varmış.

Qütbəddin Aybekin ölümündən sonra onun tikinti işlərini yerinə gəlmiş hökmdar- Şəmsəddin İltutmuş davam etdirir (1211 - 1236). O da Qütbəddin kimi bazardan qul kimi alınmışdı və Qütbəddinin yeznəsi olduğundan torpaq mülkiyyətinə və hətta Badaun adlı şəhərə malik idi. Monqol hücumları nəticəsində islam dünyasından qaçıb Hindistana pənah gətirənlərə iltifat göstərir, yer verirdi. Dehli sultanlığının şöhrəti hər yana yayıldığı üçün 1229 - cu ildə Bağdad xəlifəsi onu sultan kimi tanıyıb qiymətləndirmişdir. Ləl - Kot isə birdən - birə böyüməyə başlamışdı. Sultan İltutmuş şəhərin tikintisinə və abadlığına böyük fikir verirdi. Məhz onun vaxtında Qütb minar tikilib başa çatdırıldı. Onun tikintisində yerli sənətkarlarla yanaşı, Qurdan və İrandan gətirilmiş ustalar da işləmişdir. Qütb minar qədim və orta əsrlərdə yaradılmış ən yüksək sütun hesab edilir.

Qüvvət- ül- İslam camesinin şimal - qərb tərəfində 1235- ci ildə inşa edilmiş Şəmsəddin məqbərəsi yerləşir. Bu abidə məsciddən onunla fərqlənir ki, bunda hind memarlığının təsiri duyulmur. Məqbərəyə qırmızı qumdaşından üzlük çəkilmişdir. Görünür, əvvəllər onun gümbəzi də olub. Daxili tərtibat islam memarlıq ənənələrinə əsasən bəzədilmişdir: onda çoxlu dekorativ və həndəsi ornamentlər mövcuddur.

Qütb minardan və Qüvvət- ül- İslam məscidindən qərb tərəfdə daha bir abidə olmuşdur. O, süni su anbarı idi. Anbarın yanında gözəl bir pavilyon da inşa edilibmiş. Abidəyə "houz- əş- şəms" (Şəmsin su hovuzu) adı verilibmiş.

Maraqlıdır ki, İltutmuş öz varisi kimi oğullarından birini yox, qızı Raziyəni təyin edibmiş. Raziyə sultan olduqdan sonra kişi paltarı geyər, dövlətin işləri ilə fəal məşğul olarmış. Tarixçilər onun at sürmə bacarığını, qılınc oynatma və ox atma qabiliyyətini yüksək qiymətləndirirlər.

Lakin bu dövr siyasi cəhətdən qeyri - sabit olduğu üçün quruculuq işləri ləngimişdir. Daxili çəkişmələr, hakimiyyət uğrunda mübarizə İltutmuşun övladlarını daha çox hərbi- siyasi işlərə cəlb etsə də Ləl - kotda müəyyən tərəqqi nəzərə çarpır. Belə ki, XII əsrin 50 - ci illərində Ləl- Kotdan bir qədər aralıda Qiyasəddin Balbanın iqamətgahı ucaldılır. Cuzcuni adlı müəllifin yazdığına görə o yaşayış yeri Qiyaspur adlandırılıbmış. Həmçinin Qiyaspur el arasında yeni şəhər kimi tanınarmış və bir növ köhnə şəhərin, yəni Ləl- Kotun rəqibi hesab edilərmiş.

XII əsrin 60- 70- ci illərindən etibarən yeni şəhər sürətlə böyüyür. Qiyasəddin Balban həmin illərdə öz doğma ölkələrindən qovulmuş 15 hökmdarı qəbul etmiş və şəhərdə yerləşdirmişdir. Onlar Türküstanın, Məvaraannəhrin, Xorasanın, İranın, Azərbaycanın, Türkiyənin və Suriyanın monqollar tərəfindən məğlub edilmiş əmirləri idilər. Nəticədə şəhər ətrafında 15 yeni məhəllə yaradıldı. Məhəllələr orda yerləşən əhalinin ana vətəninin şərəfinə - Qaşqari, Səmərqəndi, Xorəzmşahi, Quri, Rumi, Sancari, Abbasi və s. adlandırıldı. Bir neçə il sonra, yəni 1292- ci ildə onlara məğlub edilmiş monqollar qoşununun qalıqları da əlavə olunmuşdu. Onlarla birlikdə təxminən dörd minə çatan qadın və uşaq da həmin ərazidə yerləşdirildi. Monqolların bu qədər çoxalması nəticəsində yeni şəhərə Moğolpur adı verildi.

Görkəmli şair Əmir Xosrov Dəhləvinin verdiyi məlumata görə yeni şəhər XII əsrdə bağ- bağatla əhatə edilibmiş. Şəhərin yaxınlığından Camna çayı axırmış. XVI əsr müəllifi Əbu Fəzl Ələmi isə göstərir ki, Qiyaspur Humayunun (moğol hökmdarı) son istinadgahı sayılır. O dövrdə şəhərdə üç qədim qala varmış və onların birində sultan iqamətgahı yerləşərmiş. Qiyaspurun sultan sarayı isə qədim şəhərdən 3- 4 km aralıda tikilibmiş. Əmir Xosrovun yazdığına görə saray səma qədər yüksək, cənnət qədər gözəl imiş. Sarayın inşa edildiyi kərpiclər şüşə qədər şəffaf olmuşdur. Yuxarı hissəsinin tərtibatında mərmərdən istifadə edilibmiş.

1292- ci ildə hakimiyyətə gələn Ələddin Xilci "qulamlar sülaləsi" adlanan nəslin hakimiyyətinə son qoyur. Bir müddət Qiyaspurda yaşasa da o, özü üçün yeni paytaxt inşa etdirmək fikrinə düşür. Bundan sonra Qiyaspur tənəzzülə uğrayır. 1333- cü ildə Hindistanda olmuş məşhur ərəb tarixçisi və səyyahı İbn Battuta "Dehlinin dörd şəhərini" təsvir edərkən onun adını çəkmir. Ələddin hökmdar yeni paytaxtını Ləl - kotdan 3 - 4 km aralıda inşa etdirir və o, Siri adlandırılır.

## PURANA- QALA

Əvvəllər Böyük Moğolların himayəsində tərbiyə alan və hərbi sənətə yiyələnən, əslən əfqan olmuş Şirşah Moğol hakimiyyətinə qarşı çıxış edir. Müxalifətin köməyi sayəsində o, 1539- cu ildə şah elan olunur. Şirşah Dehlini paytaxt seçir və Purana qala adlı yeni qala tikdirir. Həmin qala Camnadan bir qədər aralıda yerləşir. Rəvayətə görə qala tikilən yerdə "Mahabxaratanın" İndraprastxası və sonralar Kulikxari və Dinpənah mövcud





olubmuş. Deyilənə görə Şirşah yeni qalanı tikdirmək üçün təkcə öz siyasi rəqibi Humayuna qalib gəlməyibmiş. O, həm də Humayunun həmin yerdə tikdirdiyi abidələri (Dinpənahdakı yeddi mərtəbəli saray da ora daxil imiş) uçurtmağı qərara alır.

Uzunsov plana malik olan qalanın günclərində istehkam inşa edilmişdir. Qala divarlarının ümumi uzunluğu 2 km çatır. Qalanın üç darvazası vardır. Onlar şimala, cənuba və qərbə sarı açılır. Şərq tərəfdəki qapı isə yalnız giriş üçün inşa edilibmiş. Bütün qapılar ikimərtəbəlidir, qırmızı rəngli qumdaşından tikilmişdir. Divarın daxili hissəsi boyu cürbəcür köməkçi binalar- müxtəlif xidmət evləri və qaravolxanalar inşa edilmişidir.

Şimal qapıları xalq içərisində "Balaqi darvaza" (Qadağan darvazası) kimi tanınmışdır. Lakin belə qadağanın kim və nə üçün qoyulduğunu bilən olmayıb. Darvazanın çöl hissəsindəki eyvanlarda insanların pələnglərlə əlbəyaxa vuruşmasını təsvir edən mərmər lövhə mövcuddu. Bundan əlavə darvazasının müxtəlif yerlərində daş üzərində müxtəlif çiçək təsvirləri qalmaqdadır.

Purana qala yerləşən rayonda Kalla- kuxna- məscid (Qədim qala məscidi) bu günkü günümüzədək qalmaqdadır. Bu abidə 1541- ci ildə inşa edilmişdir. Məscidin ibadət zalı 51x15 m ölçülərinə malikdir və daxildə beş şəkilli tağlar qurulmuşdur. İbadət zalına daxil olmaq üçün tikilmiş girişin əsas tağı mərmər və başqa gözəl daşlarla bəzədilmişdir. Qonşu tağların üzərində naxışlar da eyni üslubda işlənmişdir. Lakin onlar daha da zəngindir. Sonuncu tağ isə o biriləri kimi qırmızı qumdaşından deyil, ağ rəngli qumdaşından yaradılmışdır. Mehrabın tərtibatı isə öz zənginliyinə görə seçilir. İbadət zalının arxa hissəsində iki yaruslu qüllələr vardır. Zalın hər iki tərəfindəki pilləkənlərlə ikinci mərtəbəyə qalxmaq olar. Zalın üstündə gözəl bir qübbə ucalır. İbadət zalının önündəki həyətdə əvvəllər fantanı olan bir su hovuzu varmış.

Bu abidələrin tədqiqatçılarından biri, məşhur sənətşühas Persi Braun qeyd edir ki, moğol hökmdarlarının ən qüvvətliləri sayılan Əkbərin və Cahangirin dövrlərində inşa edilmiş abidələr məlum olmayan bir dühanın yaradıcılığının məhsuludur. Onun fikrincə, Şirşah qalasındakı bu məscid də həmin adı bəlli olmayan ustanın işidir.bununla yanaşı, söylənilir ki, beş tağlı yanlarında qüllələr olan və yastı pəncərəli abidələr öz plan və tərtibatı etibarilə başlancığını XI əsrdə və XVI əsrin birinci yarısında tikilmiş məscidlərdən götürmüşdür. Onlara misal olaraq "Bara Qumbad" adlı abidə göstərilir.

Purana qaladakı bu məscidin cənub tərəfində Şir - Mandal adlı ikimərtəbəli, qırmızı qumdaşından tikilmiş və mərmərlə bəzədilmiş

səkkizguşəli bürc ucalmaqdadır. Bürcün hər səmtində tağ mövcuddur. Daxili gözəl kaşı ilə bəzədilmişdir. Bu bürcün nə məqsədlə tikildiyi məlum deyil. Bəzi tədqiqatçılar isə şənliklərdən ötrü inşa olunduğunu güman edirlər.

Purana qaladan aralı, qərb tərəfdə "Şir - şah darvazası" qalmaqdadır. Belə fərziyyə mövcuddur ki, bu Şirşah tərəfindən salınmış şəhərə - Şirqarxa girmək üçün olan şəhər darvazasıdır. Darvaza qırmızı rəngli qumdaşından tikilmişdir və ona görə "qırmızı darvaza" adlandırılır. Bundan əlavə ikinci darvaza da mövcud imiş. O, Purana qaladan şimalda, təxminən 3,5 km aralıda, Füruz şah- kotladan isə yarım km qərbdə yerləşibmiş. Həmin qapı xalq içərisində "Kabuli - darvazası" və "Xuni - darvaza" kimi məşhurlaşıbmış. Sonuncu ad, yəni "qanlı darvaza" ona çox gec verilmişdir. Deyilənə görə, 1857- ci ildə axırıncı moğol hökmdarlarının iki oğlu ingilislər əleyhinə üsyana başçılıq etdiyi üçün burda edam olunmuşdular.

Bu qapıdan Purana qalaya yaxud Şirşah darvazasına divar çəkildiyi guman edilsə də onun izinə rast gəlmək mümkün deyildir. Ehtimala görə, həmin iş həyata keçirilməmişdir. Tarixçilərin fikrincə, hər iki darvaza arasında o dövrdə yaşayış məskəni olmuşdur. Tarixi məlumatlara görə Şirşahın hakimiyyəti zamanı Dehlinin ərazisi şimaldan cənuba sarı 15 - 16 km uzanarmış. Lakin XVI əsrin əvvəllərində Hındistanda olmuş fransız səyyahı De Laet yazırdı ki, Şerqarx o dövrdə tənəzzülə uğrayarmış. Şəhər dağılmağa və tərk olunmağa başlayıbmış.

Şirşah 1545- ci ildə müharibə vaxtı öldürülür. Deyilənə görə onun öz ordu hissəsinin atdığı bomba düşmən tərəfə yox onun özünə dəyir. Yerinə taxta çıxmış oğlu İslam şah (1545- 1554- cü illər) öz paytaxtının müdafiəsini möhkəmlətmək üçün Camna çayının sağ sahilində Purana qaladan 5,5 km aralıda Salimqarx adlı yeni qala inşa etdirir. Sonralar o, XVII əsrdə moğol hökmdarları tərəfindən yaradılan "Qırmızı istehkam" adlı məşhur abidədən şimal- şərq tərəfdə qalmışdır.

İslam şahın 1554- cü ildə ölümü daxili çəkişmələrə səbəb oldu. Vəziyyəti belə görən və İrana müraciət etmiş keçmiş moğol hökmdarı Humayun səfəvi qoşunlarının köməyi ilə yenidən Hindistana qayıdır. 1555- ci ildə Humayun çaldığı qələbədən sonra taxta çıxır. O, Dehlini, daha doğrusu Purana qalanı özünə paytaxt seçir. Amma Humayunun Dehlidəki hakimiyyəti uzun çəkmir. Kitabxanasının pilləkənləri üzərindən sürüşüb ayağını sındırır. Sınıq nəticəsində hökmdarın xəstəliyi güclənir və o, tezliklə vəfat edir. Bundan sonra Dehlinin quruculuq işləri onun nəslindən olan başqa moğol hökmdarlarının üzərinə düşür.





# FÜRUZABAD

Məhəmməd şah Tuqlaqın ölümündən sonra taxta əmisi Füruz şah Tuqlaq çıxır (1351- 1386). Onun hakimiyyəti uzun sürür və nisbətən sakit keçir. Füruz şahın iqamətgahı Camna çayı yaxınlığında yerləşən Füruz şah kotla olmuşdur. Həmin iqamətgah əvvəllər inşa edilmiş Dehlidən təxminən 10- 12 mil aralıda yerləşirdi. Yeni paytaxt inşa edələrkən Tuqlaqabadda və başqa Dehli şəhərlərində su çatışmamazlığı nəzərə alınmışdı. Məhz bu vaxtdan başlayaraq XX əsrə qədər Dehlinin şəhər həyatı Camna çayı ilə üzvü surətdə bağlanır. Füruz şahın hakimiyyəti dövründə inşa edilmiş iki yaruslu və yeddi hissədən ibarət körpü indiyədək qalmaqdadır. onun uclarında şəhərə su vurmaq üçün xüsusi qüllələr tikilmişdir. Amma Füruzabadı Dehlinin başqa şəhərləri ilə birləşdirən divardan heç nə qalmamışdır. Onun haqqında demək olar ki, tarixi məlumatlar yoxdur.

Füruz şah kotla isə hər tərəfdən dördbucaq şəklində hasarla əhatə edilmişdir. Divarın şərq hissəsi indi təxminən yer səviyyəsindədir. Şimal və cənub divarları isə lazımi hündürlüyə malikdirlər. Amma ən hündür hissənin, qərb tərəfin divarları olub. Məhz o tərəfdən qalaya girmək üçün baş qapılar qoyulmuşdur. Qapının hər iki tərəfində istehkamlar inşa edilmişdir. Divarlarda mazğallar qurulubmuş. Maraqlıdır ki, divarlarda ox atmaq üçün xüsusi meydançalar yoxdur.

Füruz şahın öz sarayı isə qala divarının içində imiş. Sarayda ictimai işlər və şəxsi görüşlər üçün xüsusi zallar yaradılıbmış. Sarayın böyük hissəsi dövrümüzə gəlib çatmayıbdır. Belə guman edilir ki, XVII əsrdə Böyük Moğolların paytaxtı Şahcahanabad inşa edilərkən uçub dağılmaqda olan tikililərin tikinti materiallarını söküb, yeni paytaxtın qurulmasında işlədiblər. Amma başqa tikililərə görünür zaman rəhm edib və bizim günlərimizə gətirib çatdırıb. Bu gün də Füruzabadın şimal hissəsində böyük su anbarını görmək olar. O, isti günlərdə şəhərə sərinlik paylayırmış. Məhz həmin yerdə çox sonralar 1759- cu ildə böyük moğolların padşahı Ələmgir II öz güclü vəziri İmadəl - mülkün əmri ilə qətl edilmişdir. Füruzabad məscidi də qismən salamat qalmışdır. Məscidin həyətinə açılan qapının ölçülərinə və birinci mərtəbədəki binalara diqqət verilsə belə qənaətə gəlmək olar ki, o XIV əsrdə Dehli sultanlığında tikilmiş ən böyük məscidlərdən olmuşdur.

Üç istiqamətdə yeraltı yollar çəkilmiş böyük məsciddən bir qədər aralı şimalda piramida formasında tikilmiş üç mərtəbəli, üstü malalanmış binanın qalıqları durur. Sonra gələn hər bir mərtəbə əvvəlkindən sahəsinə görə kiçikdir. Mərtəbələr arasında daş pilləkanlar vardır və hər bir mrətəbədə tac

şəklində girişlər inşa edilmişdir. Mütəxəssislərin fikrincə həmin otaqlar sultanın istirahəti üçün nəzərdə tutulubmuş.

Füruz şah kotla adlı qalanın ətrafında sonralar şəhər salınır və Əfif adlı müəllifə görə ona Füruzabad deyərlərmiş. O, Dehlinin beşinci şəhərciyi hesab olunur. Saray əyanlarının və sultanın yaxın adamlarının əksəriyyəti qalanın yaxınlığında öz imarətlərini ucaldıblarmış. Onların arasında sultanın vəziri olmuş xan Cahanın da sarayı varmış. Deyilənə görə, öz təmtərağı və gözəlliyi baxımından onu sultanın sarayına bərabər sayırlarmış. Əfifin yazdığına əsasən təxminən 80 xırda məhəllə və torpaq sahəsi Füruzabadın ərazisinə daxil imiş. Onlardan ən məşhurları kimi İndrapat qəsəbəsini, Qavin kəndini, Əbu Bəkr Tusinin sarayları yerləşən məhəlləni, Məlik Yar Paran adlı şeyxin sarayını, Raziyə sultanın məqbərəsinin yerləşdiyi yeri qeyd ediblər. Əfif adlı tarixçi həmçinin göstərir ki, bu ərazilərdə bircə qarış da boş yer qalmayıbmış. Şəhərin inkişaf istiqaməti elə imiş ki, o, daha çox qalan dörd Dehli şəhəri ilə birləşməyə sarı meyl edərmiş.

Həmçinin qeyd olunur ki, Füruz şahın hakimiyyəti illərində Füruzabadla qalan şəhərlər arasında gediş - gəliş o qədər intensiv imiş ki, yollarda adamlar sanki növbəyə durublarmış. Bundan əlavə, xüsusi yük arabaları Füruzabadla qalan şəhərlər arasında müəyyən məbləğə yük daşıyarmış.

Özünün hökmdar sələfləri kimi Füruz şah Dehlinin başqa şəhər peyklərinin abadlıq işlərinə həmişə fikir verərmiş. Onun hakimiyyəti dövründə Qütb Minarın zədələnmiş üst yarusları bərpa edilmişdi. Bundan əlavə Houz - xasda da bəzi yenidənqurma işləri aparılmışdı. Bu süni su anbarlarının ətrafında Füruz şahın göstərişi ilə mədrəsə inşa etdirilib. Mədrəsədə ilahiyyat elmləri və ərəb dili tədris olunurdu. Houz Xasdan bir qədər aralı, cənub - qərb tərəfdə sultan özü məqbərə tikdirmişdi. Füruzşah 1388- ci ildə həmin məqbərədə dəfn edilmişdir.

Beləliklə, məlum olur ki, Dehli artıq XIV əsrdə müsəlman - türk hökmdarlarının səyi nəticəsində bir neçə peyk- şəhərindən ibarət inşa edilmişdir. Onlar vahid şəhər şəklinə düşməsə də bir - biri ilə müxtəlif vasitələrlə - bəzən hasar, bəzən bağ - bağat, bəzənsə tarlalarla əlaqə yaradıbmış.





# TAC- MAHAL



*Tac Mahal*

Hindistanı dünyada tanıtdıran onlarca tarixi abidə vardır. Onların içərisində Tac-Mahal, əlbəttə, ən yüksək yerdə durur. Odur ki, hind torpağının qədim memarlıq abidələrindən açacağımız söhbəti Tac- Mahalla davam etdiririk.

Əvvəlcədən deməliyik ki, o, ümumhindistan mədəniyyətinin ayrılmaz bir hissəsi sayılır. Hətta onun ən parlaq abidəsi adlansa səhv olmaz. Məlumdur ki, Hindistan yarımadasında yaşayan və müxtəlif etnik mənsubiyyəti olan xalqlar uzun əsrlər boyu bu mədəniyyəti yaratmışlar. Onların içərisində bu ölkəyə aid yazılmış əsərlərdə müsəlman mədəniyyəti termini altında gedən və hind mədəniyyəti çərçivəsində layiqli yer tutan, ölkənin əsasən şimal hissəsində yaşamış və Böyük Moğol dövlətini yaratmış türkdilli xalqların mədəniyyəti özünəməxsus mövqeyə malikdir. Tac - Mahalsa "moğol incəsənətinin ən gözəl çiçəyi, yer üzərində ər- arvad məhəbbətinin, razılığının, səadətinin ən gözəl abidəsi" sayılır.

Tac - Mahal Böyük Moğol hökmdarı Şah Cahanın öz sevimli arvadı Mümtaz - Mahalın xatirəsinə qoydurduğu abidədir. Qızlıqda adı Banu Bəqam olub. Atası Asif xan moğol nəslindən olan şah Cahangirin (1605-1627) həyat yoldaşı Nur Cahanın qardaşı idi. Onların atası milliyyətcə fars

olub, yoxsul təbəqədən imiş. Ehtiyac üzündən Hindistana köçübmüş. Mümtaz Mahal haqqında bir neçə rəvayət gəlib çatıb. 19 yaşı tamam olanda o, şahzadə Kxurrama (taxta çıxdıqdan sonra Şah Cahan adlanıb) ərə gedib. Toy zamanı bəyin atası Şah Cahangir gəlinini və həm də qaynının qızını Mümtaz Mahal yəni "Sarayın bəzəyi" adlandırır.

Şah Cahanla Mümtaz Mahal bir - birlərini çox sevirdilər. "Böyük Moğollar dövlətindəki sonuncu siyasi çevrilişlərin tarixi" əsərinin müəllifi Hindistanda on iki il yaşamış məşhur fransız həkimi, filosofu və səyyahı Fransua Berge yazır ki, şah öz qadınını "o qədər istəyirdi ki, sağlığında başqa heç kəsə fikir vermirdi". "Məsələ burasındadır ki, bütün digər müsəlman hökmdarı kimi şahın da böyük hərəmxanası vardır".

1628- ci ildə hökmdarlığının ikinci ilində Şah Cahan növbəti hərbi yürüşündə müvəffəqiyyət qazanır. Lakin çaldığı qələbəyə sevinə bilmir, əksinə qəm dəryasına batır. Sevimli arvadı Mümtaz Mahal onunla birgə səfərdə olarkən vəfat edir. Bir sıra məlumatda deyilir ki, qadın on dördüncü uşağı dünyaya gətirərkən vəfat edir. Sevimli arvadının belə ölümü şahı çox kədərləndirri. O, hətta özünə qəsd etmək fikrinə düşür.

Mümtaz Mahalın cənazəsi altı aydan sonra Moğol dövlətinin paytaxtı Aqra şəhərinə gətirilərək dəfn edilir. Sonradan onun qəbri üzərində adı dillər əzbəri olan Tac- Mahal tikilir. Şah Cahanın fikrincə bu mavzoley vəfat etmiş qadının gözəlliyini təcəssüm etdirməli idi.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, bu dövrdə Hindistanda Moğol mədəniyyəti və incəsənəti özünün ən yüksək zirvəsinə çatır. Tikilən abidələr forma sadəliyi, üslub zərifliyi ilə seçilirlər ki, çox zaman onları zərgərlik nümunələrinə bənzədirlər.

Çayın o biri sahilində Şah Cahanın özü üçün tikdirmək istədiyi mavzoleyin özülü indiyədək qalmaqdadır. Şahın fikrincə o bina qara mərmərdən tikilməli idi. Sonra hər iki mavzoley çayın üzərindən keçən körpü ilə birləşdirilməliydi. Şah Cahan 39 yaşlı və ona on dördüncü övladı bəxş edərkən həlak olmuş gözəl qadını Mümtaz Mahalla körpü üzərində ruhən görüşmək arzusunda imiş.

Mavzoleyin içərisində Mümtaz Mahalın sarı, fil sümüyü rənginə çalan, seylon mərmərindən düzəldilmiş qəbri vardır. Mərmərin üzəri otuz iki qiymətli daşla bəzədilib.

Onun yanında Şah Cahanın öz qəbri yerləşir. Qəbrin üzərində Allahın 99 adı həkk olunub. Bir zamanlar bu qəbri dünyanın ən qiymətli brilyantlarından biri sayılan "Kox- i- nur" (İşıq dağı) bəzəyirmiş. İngilislər Hindistanı tutduqdan sonra həmin daş yoxa çıxır. İndi o, Britaniya tacını bəzəyir.





Şah Cahanın qocalığında hakimiyyət uğrunda oğlanları arasında mübarizədə Auranqzeb qalib gəlir. O, bütün qardaşlarını qılınc və zəhər gücünə üstələyir, atasına da rəhm etməyib Tac - Mahalla üzbəüz tikilmiş zindana salır. Rəvayətə görə səhər - səhər gün təzə çıxan zaman və gecələr ay doğarkən - bu vaxtlar Tac - Mahal daha gözəl olur- qoca Şah Cahan zindanın balaca eyvanından tikdirdiyi mavzoleyə baxa - baxa sevimli arvadı ilə keçirdiyi xoş saatları xatırlayırmış. Qocanın sonralar gözünün işığı tamam itir. Bu zaman oğlu onun həbs otağında böyüdücü brilyant linza qoydurur. Tac - Mahalın əksi həmin linzaya düşərək qocanın xatirələrini canlandırır. Sonralar, deyilənə görə, ingilislər həmin linzanı da oğurlayırlar.

İngilislərin Tac - Mahala vurduğu ziyan bunlarla bitmir. Onlar həmin şəhəri tutarkən mavzoley tamamilə təsadüfən artileriya atəşindən uçurulmayıb. Sonralar ingilis qubernatoru olmuş cənab Bentink ("Con Bul"qəzetinin 26 iyul 1831- ci il məlumatına görə) bu möhtəşəm mavzoleyi sökdürüb, mərmər və daşını bazarda satdırmaq istəyib. Yalnız əhalinin narazılığı onu fikrindən daşındırıb.

Bəs bu möcüzəni hansı qüdrətli sənətkarın əli yaradıb? Bir sıra başqa hallarda olduğu kimi burda da müəllif haqqında sənədli məlumat yoxdur. Təkəbbürlü avropalılar onun yaradıcısının şərqli olduğunu inkar edərək, gah italiyalı (Djerinimo Veroneonun), gah da fransalı, (ixtisasca zərgər olan) memar olduğunu sübut etməyə çalışıblar. Amma, bəzi mənbələrdə bir nəfərin adı da çəkilir. O, yerli sənətkar Ustad İsa Xandır.

Onun haqqında çox maraqlı, Şərq koloriti ilə zəngin bir rəvayət danışılır. İsa Xan mavzoleyin bütün hesablamalarını, çertyojlarını və maketini gətirib Şah Cahana təqdim etdikdən sonra hökmdarı qibtə hissi bürüyür. İkinci belə bir mavzoley tikdirə bilməmək üçün əmr edir ki, sənətkarın əlini vursunlar. Sonralar, deyilənə görə, şah öz tutduğu işdən peşiman olub, sənətkara dəfələrlə ənam verdirib.

Şərq memarlığı üzrə mütəxəssislər Tac Mahalın bütün yüksək keyfiyyətlərini nəzərə alıb, onu hind- moğol mədəniyyətinin zirvəsi sayırlar. Onun tikilməsində şərqin ən məşhur ustalarınının cəlb olunması guman edilir.

Üç yüz otuz il müddətində Hindistanın əksər hissəsində Böyük Moğollar hökmdarlıq edib. Sülalənin binasını Teymurləngin oğlundan olan nəvəsi Babur qoyub. O, yerli ixtişaşlar üzündən Fərqanəni tərk edib, əvvəlcə Kabulda sonra isə Hindistanın şimal hissəsində hökmdar olub. 1526- cı ildə Dehlini, Hindistanının indiki paytaxtını alıb öz dövlətinin mərkəzinə çevirib. Babur həm də ədəbiyyatla maraqlanıb. Özündən sonra "Babur- namə" adlı xatirələr kitabını, çoxlu rübai və qəzəl qoyub gedib.

Əslən Fərqanə türklərindən olub. Ata tərəfdən Teymurləngdən, ana

xətti tərəfdən Çingizxandan doğulan Böyük Moğollar tarixdə bəzən səhvən monqol kimi qələmə veriliblər. Moğol şahı Əkbər demək olar ki, bütün Hindistanı dövlətinə tabe edə bilir. Tac - Mahalı tikdirən Şah Cahan isə ortabab hökmdar olub.

Tac - Mahal dünyanın yeddi memarlıq möcüzəsindən biri sayılır. Qalan altıları bunlardır: İstanbuldakı Ayasofiya məscidi, Venesiyadakı Müqəddəs Mark kilsəsi, Afinadakı Parfonon, Fransadakı Reyms kilsəsi, Moskvadakı Vasili Blajennı kilsəsi və Qrenadadakı Xəlifələr sarayı.

Tac - Mahalı ay işığında görənlər onun gözəlliyindən vəcdə gəlirlər. Mavzoley sanki canlanır, ətrafa işıq saçır, sanki mavzoleyin bütün konturları boyu parıltılı halə yaranır.

Beşqübbəli mavzoleyin tikintisi təxminən (1630- 1652- ci illərdə) iyirmi il çəkib. Tac - Mahalın ümumi hündürlüyü 75 m çatır. O, bünövrə etibarilə dörbucaqlı formadadır. Dörd minarəsi vardır. Daxili tərtibatda on səkkiz rəng çalarlarına malik mərmərdən istifadə edilib.

Tac - Mahalın divarları hamar mərmərdən ibarətdir. Bəzi yerlərdə rəngli qumdaşından istifadə edilib. Pəncərə və taclar zərif şəbəkə ilə əhatə olunub. Malaxit, yaşma və digər qiymətli daşlardan istifadə edilən, gözəl, nazik mozaika qara fonda əla görünür. Toctavanlı girişlər ərəb əlifbası ilə yazılmış Quranın ayələri ilə bəzədilib.

Tac - Mahalın memarlıq xüsusiyyətlərinin öyrənilməsi bunu sübut edir ki, onda orta əsrlərdə Orta Asiya və İran memarlarının, həmçinin qədim Hind və Şərq ölkələrinin ən gözəl təsirləri vardır. Şərq memarlıq ənənələrini üstün tutanlar abidənin yaradıcısının İraqdan Hindistana gəlmiş Əli Mərvan xan, yaxud Ustad Laxori, yaxud Mükərrəmat xan və Mir Əbdül Kərim olduğunu söyləyirlər.

Amma son zamanlar yaranmış və daha geniş yayılmış fikir budur ki, mavzoleyin tikintisində Yaxın və Orta Şərqin bir neçə memarı çalışıb. Rəhbərlik edəni isə Hindistanlı Ustad İsa olub.

Tac - Mahal haqqında çoxlu əfsanə yaranıb. Uzun əsrlər boyu sevdiyi qızın məhəbbətini qazanmaq istəyən gənclər Tac - Mahalın minarəsinə çıxıb, özünü oradan atıblar. Belə hallar bu günümüzə qədər davam edir.

Tac - Mahal ən çox məhəbbət və kədər simvolu kimi aləmdə tanınır. Həm də sevgiyə sədaqət kimi.





# FATEHPUR SİKRİ

1556- cı ildə vəfat etmiş moğol hökmdarı Humayunlun yerinə oğlu Əkbər taxta çıxır. Daxili düşmənləri ilə 1556- cı ildə vuruşması 14 yaşlı hökmdar üçün nailiyyətlə başa çatır. XVI əsrin axırınadək apardığı müharibələr nəticəsində o demək olar ki, bütün Hindistanı fəth edir. Əkbərin hakimiyyəti dövründə hind - türk dövləti ən böyük qüdrətə malik olmuşdur. Onu tarixdə yaradılmış ən güclü türk dövlətləri ilə bir sıraya qoyurlar. Hind tarixçiləri də onu Hindistanın feodal pərakəndəliyinə son qoyan bacarıqlı dövlət xadimi, istedadlı sərkərdə və uzaqgörən siyasi rəhbər kimi qiymətləndirirlər.



*Fatehpur Sikri – 1509-1574*

Əkbərin hakimiyyəti dövründə Hindistanda geniş quruculuq işləri aparılmışdır. Atası Humayunun şərəfinə ucaldılmış Humayunun türbəsi (inşasına 1569- cu ildə başlanmışdır) o dövrün ən yaxşı abidələrindəndir. V.X.Siddiqinin yazdığına görə bu abidənin müəllifi orta Asiyadan olan memar Mirzə Qiyas idi. Bundan əlavə 1562- ci ildə tikilmiş Adəmxanın məqbərəsi, 1567- ci ildə inşası başa çatmış Atağanın məqbərəsi Dehlinin

bəzəyi sayılırdı. Məşhur məscid- "Xeyr əl- mənəzil" (Məscid ən yaxşı binadır) Əkbərin Dehlidə tikdirdiyi yeganə dini mərkəz olmuşdur.

Əkbərin hakimiyyəti illərində monumental memarlıq quruculuğu Dehlidən kənarda Aqra və Fatehpur şəhərlərində aparılmışdır. Belə böyük miqyaslı inşaatın həyata keçirilməsi, əlbəttə şahın xəzinəsinə ölkənin hər yerindən axıb gələn külli miqyaslı var - dövlətin sayəsində mümkün olmuşdur. Məhz həmin illərdə hind- islam memarlığının imperiya üslubu deyilən üslub formalaşmışdır. Aqra şəhərindəki Əkbərin sarayı buna ən birinci nümunə kimi xatırlanır.

Aqradan 30 km aralıda Əkbərin yeni paytaxtı- Fatehpur Sikri- bomboş yerdə salınmışdır. Tarixi məlumatlara görə şəhər fantastik sürətlə tikilib başa gəlibmiş. Hind mütəxəssislərinin fikrincə, onun memarlığına induizm və çaynizm məbədlərinin sənət təsiri duyulmaqdadır.

Ümumiyyətlə, Əkbərin hakimiyyəti dövrünü Hindistanda moğol sənətinin çiçəklənmə dövrü hesab edirlər. Yerli müəlliflər bu hökmdarın gözəl zövqü, geniş biliyi və quruculuğa sonsuz həvəsi haqqında həmişə danışıblar. Əbdül Fəzl onun haqqında belə yazmışdır: "Şah füsünkar abidələri təsəvvüründə yaradır. Sonra isə ağlının və hissiyyatının yaratdığını daşdan və palçıqdan meydana çıxarır".

Fatehpur Sikridən danışan Feqyusson isə qeyd edir ki, bu şəhər böyük bir insanın (Əkbərin) ağlının əksi kimi yaranmışdır. Fatehpur Sikrinin ən başlıca abidələrində xüsusi saraylarda artıq formalaşmış üslub özünü göstərmişdir. Fatehpur Sikrinin ən böyük abidələri Codxa Ban sarayı, Məryəm və Sultanı iqamətgahları, Birbala imarəti, Sanxala Məkan, yaxud şahzadə Əkbərin mülkü, Divan- am, yaxud induizm üslubunda tikilmiş imperator dəftərxanası, Divan- Xas (xüsusi qəbullar evi), Pənc Mahal (beşmərtəbəli saray), Came Məscidi, Buland Darvaza və Səlim Çistinin məqbərəsi sayılır. Onların içərisində planına və quruluşuna görə Codxa Ban sarayı ən mükəmməl abidə hesab olunur.

Məryəm sarayının tikililərinin daxili tərtibatında iri, çox guman ki, fars mənşəli freskalar diqqəti cəlb edir. Türk qızı Sultanının sarayı isə birmərtəbəli pavilyondan ibarətdir. Ondakı əsas cəhət xətlərin sadəliyi, ornamentlərin zəngin və gözəl olmasıdır. Birbala imarətində isə əsas memarlıq bər - bəzəyi, daxili və xarici tərtibat qeyd edilir. Nadir taxt - tac zalına malik olan Divan - Xas öz planlaşdırılmasında və konstruksiyasındakı Hind ənənələri ilə seçilir. Pənc Mahal piramida formasında tikilmiş beş mərtəbəli binadır. Onun hər mərtəbəsinin özünəməxsus naxışları vardır. Hind mütəxəssislərinin fikrincə bunda Hind buddist mərkəzlərinin təsiri özünü göstərmişdir.





Fatehpur Sikrinin tamaşaçıda heyranlıq doğuran binaları dini xarakterli abidələrdir. Onların içərisində Came Məscid xüsusilə seçilir. Onu ən ali memarlıq qabiliyyətinin təcəssümü sayırlar. Bu abidədə tərtibat işlərində rənglənmiş mərmər və kibs relyeflərindən geniş istifadə edilmişdir. Bu məsciddən bir qədər aralıda memarlıq sənətinin incisi sayılan Səlim Çisti məqbərəsi ucaldılıb. Buland Darvaza isə Hindistan tarixində tayı- bərabəri olmayan darvaza tipli abidədir. O, hündürlüyü 176 futa, fasadının eni 130 futa çatan nadir sənət nümunəsidir. Darvaza Əkbər şahın Qucarat vilayətini fəth etməsi şərəfinə ucaldılıb. Bəzi müəlliflər bu abidəni bütün hind memarlığının ən kamil nümunəsi hesab edirlər. Məlumdur ki, memarlığın hər bir növü özünün mükəmməl təcəssümünü tapdığı bir formada göstərir. Moğol sənətində belə forma darvaza- tağlar hesab edilir.

Hazırda bu böyük tarixi sənət yadigarı "Ölü şəhər" adlandırılır. Əkbər şah öz sarayı ilə birlikdə bu şəhərdə 1569- 1588- ci illərdə ömür sürmüşdür. Sənətkar Fəthullah Şirazi tərəfindən inşa olunmuş güclü su vurma qurğuları şəhəri su ilə təchiz edə bilməmiş və paytaxtdan köçməyə məcbur olmuşlar.

Tarixi mənbələrin verdiyi məlumata görə Əkbər Fatehpur Sikriyə ən yaxşı rəssamları və xəttatları toplayıbmış. Məhz Əkbərin hakimiyyəti zamanında moğol saraylarının tərtibatında rəssamlar daha çox iştirak edirdilər. Şahın rəssamlıq emalatxanalarında məşhur hindli sənətkarlar- Dasvantx və Basavan çalışırdılar. Əkbər şahın himayəsi sayəsində Fatehpur Sikridə İrandan gəlmiş məşhur rəssam Xoca Əbd- əs Səməd işləyirdi. Bu adları çəkilən tanınmış rəssamların və onlarla başqalarının qabiliyyəti sayəsində qədim Hind təsviri sənətində yeni məktəb formalaşdı. O, sənət tarixinə moğol təsviri sənət məktəbi adı altında daxil olmuşdur. Bu məktəb öz kamilliyinə Əkbərin oğlu Cahangirin hakimiyyəti dövründə çatmışdır.

## MƏDRƏS

Mədrəs Hindistanın cənub hissəsinin başlıca mədəni mərkəzi sayılır. Orta əsrlərdən başlayaraq burada bxakt adlanan dini hərəkat meydana gəlir. Həmin hərəkatın əsas ideyası sevimli ilahə qarşısında səcdə etmək və güclü ehtizaz ilə ruhən onunla qovuşmaq olmuşdur. Mistik şairlər öz dini mahnılarında Vişna allaha mədhiyyələr deyərmişlər. Onların içərisində ən məşhur şairə, "Turunnural" adlı əsərin müəllifi- Turulluvalluvara həsr edilmiş abidə bütün cənubun fəxridir. Abidənin üzərində mütəfəkkirin dediyi 1330 hikmətli ifadə həkk edilmişdir. Mədrəsdən 60 km aralıda

Mahabaşnurum məbədləri yerləşir. Onlar XII əsrdə, Pallavların hakimiyyəti dövründə yaradılmışdır. Şəhərin başqa tərəfində, kançi adlanan yerdə məşhur din xadimi və islahatçısı Şankaranın adını daşıyan məbəd vardır. Maraqlıdır ki, məbədin baş rahibi ənənəyə görə Şankara adlanmalıdır.

Mədrəsin özündə isə Pallavların hakimiyyəti dövründə inşa edilmiş məşhur Şri Partxa Saratxi məbədi fəaliyyət göstərir. O, adından göründüyü kimi, Krişnaya həsr edilmişdir. Krişna özü Kurukşatr döyüş meydanında məşhur vuruşma zamanı Arcunaya himayədarlıq edibmiş. "Bxaqavarqita" adlı məşhur əsərdə göstərilir ki, Kurukşatrdə baş verən vuruşma sadəcə olaraq iki nəslin - Pandavlar və Kauravlar arasında getmirdi. Həmin döyüşdə bütün bəşəriyyətin gələcəyi həll edilirdi və bu vəziyyət Krişnanı işə müdaxilə etməyə səsləmişdi. Mütəxəssislərin fikrincə, "Bxaqavarqita"nın ümumi məzmunu da əsasən bu ideya üzərində qurulmuşdur: Krişna döyüşçü Arcunaya məsləhət və göstərişlər verir. Çünki Krişna öz müdrikliyi və düşüncəsi ilə Arcunanın xoşuna gəlmişdir. Döyüşçü onu saysız- hesabsız tərəfdarından üstün tutduğu üçün özünə dost və məsləhətçi seçmişdir.

Məbədin xarici divarları başdan- başa daşdan yonulmuş fiqurlarla bəzədilmişdir. Üzərində relyef və qülləciklər olan divarın qapısı ağzında hal-hazırda çoxlu xırda dükanlar peyda olmuşdur. Qapıdan içəri girən kimi adam ayaqyalın olmalıdır. Məbədin içərisində, mərkəzi hissədə tunc sütun diqqəti cəlb edən başlıca detaldır. İbadətə gələnlər ilk növbədə ona yaxınlaşmalıdırlar. Bu zaman insanlar öz təkəbbürlərindən əl çəkməli, dünyanın həyat qayğılarını unutmalı və günah fikirləri özlərindən uzaqlaşdırmalıdırlar.

İnduizmin yaratdığı məbəd kompleksləri adətən bir neçə bölmədən ibarət olur və hər bölmə müəyyən bir ilahəyə məxsus hesab edilir. Haqqında danışılan məbədin də Vişna, Krişna, Rama, Xunamana, Balaramaya və başqa ilahələrə aid xüsusi ibadətgahları vardır. Onlardan əlavə burda məşhur dini - fəlsəfi təlimlərin yaradıcıları olmuş Şankara və Ramanucaya məxsus yerlər inşa edilmişdir. Zəvvarlar onları da xatırlayıb ehtiram göstərirlər.

Kompleksdə Vişnaya həsr edilmiş çox da böyük olmayan bir məbəd xüsusi qeyd olunur. Onun heykəli gücdən düşüb yatağa sarı əyilən formada yaradılmışdır. Arvadı Lakşmi isə ondan balaca təsvir edilmişdir. Qadın yorğun ərinin ayaqlarını ovxalamaqla məşğuldur.

Bütün məbəd kompleksinin mərkəzində baş ibadətgah yerləşmişdir. O, nazik dəhlizdə birləşib və dəhlizin girəcəyində, hər iki tərəfdə girintilərdə heykəllər ucaldılmışdır. Demək olar ki, günəş düşmədiyi üçün həm dəhlizdəki heykəllər, həm də ibadətgah pis işıqlandırılır. Tağ şəklində tikilmiş tavanın altında Krişnanın heykəli durur. Onun yanında sevimli





qadını Rukmani və qardaşı Balaramanın heykəlləri vardır. Krişna azacıq əyilmiş şəkildə təsvir edilmişdir. O, düşmənlərinin vurduğu oxların ağrısından əzab çəkir. Krunşa döyüşçü ona yaralarla başa gəlmişdir. İbadətgahın sol tərəfində isə daş hücrədə qəhrəman Arcunanın heykəli ucalmaqdadır.

Şri - Partxa - Saratxa məbədinin bir təkraredilməz özünəməxsusluğu vardır. O, məbəddə mövcud olan hər bir heykəlin daha kiçik nüsxəyə malik olmasıdır. Nüsxələr hamısı ağacdan düzəldilib və bəzən orijinaldan hətta fərqlənir. Onları həmişə əsas ilahələrin heykəllərinin yanına düzürlər. Bayram təntənələrində ağac nüsxələr xüsusi taxtaların üstündə bayıra çıxarılır. Sonra əvvəlcədən müəyyən olunmuş marşrut üzrə onları məbədin ətrafında gəzdirirlər. Bu zaman həmin ağacdan düzəldilmiş ilahilərə həm mömin induslar, həm də dindar olmayanlar baxa bilər. Hər bir heykəlciyin üstünü çiçək çələngləri, bahalı, parpar yanan parçalarla bəzəyirlər və ətriyyat vururlar. Hətta bəziləri qiymətli daş - qaşla əhatə edilir. Ətrafında xoş ətir verən çöplər yandırılır və musiqi çalınır. Sonra pucra adlanan ənənə yerinə yetirilir. O, mahiyyət etibarilə ilahələrə xeyir- dua etməkdən və qurban verməkdən ibarətdir.

Mədrəsdə mövcüd olan başqa abidələr içərisində xristian dini tikililərini xüsusi qeyd etmək lazımdır. XIV əsrdən etibarən portuqaliyalı katolik din xadimləri Hindistanın cənubunda fəal təbliğat aparıblar. Nəticədə əhalinin bir hissəsini katolik dininə cəlb etmişdilər. Bu isə öz növbəsində kilsələrin və məktəblərin tikilməsini tələb edirdi. Hal - hazırda Mədrəs şəhərinin ən məşhur tarixi abidələrindən biri Müqəddəs Fomanın adını daşıyan katolik kilsəsidir. O, sahildən bir qədər aralıda eyni adlı küçədə yerləşir. Rəvayətə görə kilsə Müqəddəs Fomanın dəfn olunduğu qədim bazilikanın yerində ucaldılmışdır. Şəhərin kiçik Təpəsi (Çinna- Malay) adlanan yerində, Saydanat ərazisində indi də durmaqda olan mağarada düşmənlərinin üzündən mühacirətə vadar olmuş apostol Foma gizlənirmiş. Portuqaliyalı müstəmləkəçilər həmin kilsəni Fomanın şərəfinə 1551-ci ildə inşa etdiriblər. Şəhərdən bir qədər aralıda XVI əsrdə tikilmiş başqa bir kilsə mövcuddur. Rəvayətə görə eranın ikinci əsrində onun yerində Foma ölümə məhkum edilib öldürülmüşdür.

# SİKXLƏR

Sikxlərin dini ən cavan dünyəvi dinlərdən biridir. XVI əsrdə təşəkkül tapmışdır. Yaradıcısı olan Nanak adlı şəxs Hindistanda tez- tez baş verən toqquşmalara son qoymaq üçün və induslarla müsəlmanları barışdırmaq üçün bu təlimi irəli atır. Nəticədə yeni din sikxizm meydana gəlir. İslam dinindən sikxizm yeganə allaha iman gətirməyə, induizmdən isə ruhun bir cisimdən digərinə keçməsi təlimini qəbul etmişdir. Sikxlərin müqəddəs yazısı- Adi Qrantx asketik həyat tərzini inkar edərək, allaha ən yaxşı qulluq göstərməyi əməkdə görür. Bu dini təlim həyatda öz yerini tapanlara və müharibəni sona çatdıranlara hörmət etməyi öyrədir.

Sikx dininə mənsub olanları başlarında gəzdirdikləri rəngli çalmaya və üzlərinin tüklü olmasına görə ayırd etmək olar. Adətə görə sikx üzünü qırxmamalıdır. Təlim "k" hərfi ilə başlanan beş əşyaya ciddi əməl etməyə çağırır: kes- uzun saçlar, kaç- uzun şalvar, kara- polad qolbaq, kirnan- xəncər, kanqa- saç darağı.

Sikxlərin müqəddəs məbədi- Qızıl məbəd- Amritsara şəhərindədir. O, ağ mərmərdən tikilib, minarələrin tağları qızılı rəngdədir. Mütəxəssislər onu milli memarlığın xüsusi təzahürü sayırlar.

Sikxlər əsasən Pəncabda və qismən isə Dehlidə yaşayırlar. Onların ümumi sayı altı milyona yaxındır.

# BOMBEY

Məbədlər: Var- dövlət və firavanlıq ilahəsi sayılan Mahalakşmini şərəfinə yaradılmış məbəd daha məşhurdur. Dənizin lap sahilində yerləşir. Həcmi çox da böyük deyil, kümbəz hissəsi assimetriya formasındadır. Əsas zaldan yüksələn sütunlar hamar damın altınadək qalxır və onu saxlayır. Məbədə aparan küçə çaylaq daşlarla döşənib. Pudşanı (dini ayini) yerinə yetirən dindarlar mərmər döşəmə üzərində oturub dünyanı fikirləşirlər.

Bir rəvayətə görə məbədin yerində XVIII əsrdə yol çəkirlərmiş. Relyefin yararlı olmaması işin gedişatına pis təsir göstərir, çox vaxt alırmış. Lakşmi işin təşkilatçılarının birinin yuxusuna girir. İlahə həmin şəxsə xəbər verir ki, bir az aralıda torpaqda onun büstü var. Əgər həmin büstü tapıb çıxartsa və layiqli məbəddə yerləşdirsə, o zaman yolun çəkilişi müvəffəqiyyətlə bitəcəkdir. Həmin şəxs səhərisi günü qubernatorun yanına gedib əhvalatı ona söyləyir. Büst həqiqətən tapılır. Bundan sonra həmin





məbəd inşa edilir və tapılan ilahənin büstü orada yerləşdirilir. Yolun çəkilişi tezliklə tamamlanır. Ona qubernatorun adı verilir.

Hindistanın darvazası: O, fasad tərəfdən Bombey limanına sarı çevrilərək Atolla sahilində xüsusi qürurla dayanıb. Açıq qırmızı bazaltdan yaradılan bu iri gövdəli tikilinin hündürlüyü 25 m çatır. Zəfər darvazası formasında tikilib, hər tərəfdən minarəyə bənzəyən dörd çıxıntı yüksəlir. Darvazadan dəniz suyunadək daş pilləkan uzanır. Üzərində aşağıdakı sözlər həkk olunub: "Zati aliləri kral V Georq və kraliça Mariyanın Hindistan səfərinin şərəfinə yüksəldilib". Həmin məşhur səyahət 1911- ci ildə olub. 1924- cü ildə isə "Hindistan darvazasının" təntənəli açılışı olub. O vaxtdan başlayaraq Hindistana su yolu ilə gələn böyük adamlar burda qarşılanır. 1948- ci ildə isə burdan sonuncu ingilis əsgəri ölkəni tərk edib. Darvaza üzərində azad Hindistanın üçrəngli bayrağı qaldırılıb. Limana daxil olan gəmilər darvazanı bir neçə mil uzaqdan görürlər.

Elefanta adası Bombeydən bir neçə saatlıq məsafədədir. Əsas mağara - məbədin qarşısı qranitdən yonulmuş hamar meydançadır. Bir neçə pillə aşağı düşdükdə sütunlarla qarşılaşmaq olar. Məbəd, adadadkı iri təpənin dibində yonulub düzəldilib. Təpənin hər yanı meşəlikdir. Qarşıya çıxan mağara- məbəd yaxşı saxlanılıb. Daxil olarkən geniş zal göz önündə canlanır. Hər yan- döşəmə də, tavan da - qranitdən yonulub. Üç sıra sütun döşəmədən tavanadək yüksəlir. Əsas mağara- məbədin ümumi sahəsi 40 m2 bərabərdir.

Hazırda məbəd muzeyə çevrilib. Divarlar və taxçalar boyu müxtəlif allah fiqurları düzülüb. Yarımqaranlıq zaldan məşhur hind allahları - səkkizəlli rəqs edən Şiva, Vişna, Parvati, Varupa, Nila, Qaneşa bura gələnlərə baxır. Onların üzü gah kədər, gah laqeydlik, gah da gülümsəyən kimi görünür. Qranit üzərində allahların həyatından müxtəlif səhnələr təsvir edilir.

Mağaranının dərinliyində, məbədin arxa divarında əsas allah - Şiva üç simada təsvir edilib. Ümumi hündürlüyü 6 m qədərdir. Bu allahın simasında verilən üç böyük başlanğıc həkk olunub. Mütəxəssisilərin rəyincə bu təsvir bütün qədim Hindistan incəsənətinin zirvəsi sayılır. Mərkəzi heykəl Şivanı yaradıcı, qurucu kimi təqdim edir. Sifəti sakitdir, gözlərində mülayim ifadə var, alnı mütəfəkkir alnı kimi genişdir. Sağ tərəfdəki Şiva qoruyucudur. Onun ikinci görkəmində nə isə qadına məxsus xüsusiyyət nəzərə çarpır. Sifəti xəyalpərvər, fikirlidir. Şiva qoruyucunun əlində şana- küllə var, o, gözəllik timsalıdır. Sol tərəfdəki abidə Şiva- dağıdıcını əks etdirir: qabarıq alçaq alın, donqar burun, ağzın dəhşət ifadə edən cizgiləri. Ölüm simvolu sayılan kəllə və ilan Şiva dağıdıcının başında durur.

Pars məbədi. Parslar adlanan dini - etnik qrup əsasən Bombey və

ətrafında yaşayırlar. Onlar zərdüşt dininə itaət edən qədim farsların nəsillərindədir. VII - VIII əsrlərdə müsəlman dininin təzyiqi üzündən Hindistana mühacirət ediblər. Bu dinin əsas ayinlərindən biri oda sitayiş etməkdir. Hazırda Bombeydə parsların beş böyük atəşgahı - yəni od məbədi fəaliyyət göstərir. Onların ən böyüyü 1713- cü ildə tikilib. Uzunsov görkəminə görə, o, nə isə çin paqodasını (məbədini) xatırladır. Atəşgahın damı iri sarı kərpicdən düzəldilib. Əsas girişdən hər iki tərəfə qalereyalar uzanır. Onların sütunları arasında zərif şəbəkəli metal çərçivələr salınıb. Hər bir şəbəkənin üzərində günəşin simvolik təsviri vardır.

Pars olmayan şəxslər od məbədinə daxil ola bilməz. Zərdüştlər öz dinlərini böyük canfəşanlıqla qoruyurlar. Vəfat edən parsları nə hindlilər kimi yandırır, nə də müsəlmanlar və xristianlar kimi torpağa dəfn edirlər. Bombeydə "sakitlik bürcləri" adlanan yerlər var. Parslar ölənlərin cənazəsini gətirib ora qoyurlar. Yırtıcı quşlar gəlib ölünü dimdikləyib yeyirlər. Zərdüştilər dəfn mərasimini belə həyata keçirirlər.

Hindistanın tarixi abidələrinin çoxu müxtəlif dini - fəlsəfi cərəyanlarla bağlı yaradılmışdır. Mərkəzi Bombey şəhəri olan Maxaraştra ştatında da belə abidələr çoxdur. Onlardan bir qismi bir neçə əsr təşəkkül tapmış varnari adlanan dini- mistik cərəyanın ardıcıllarının ibadət etdiyi məbədlər kompleksidir.

Hər yay, yağışlar mövsümünün əvvəlində on minlərlə varnari ardıcılı Maxaraştra ştatının hər yerindən Pandxarpur adlanan şəhərə sarı axışır. Həmin şəhər Bxim çayının mənsəbinə yaxın düzənlikdə yerləşir. İbadətə gedənlər məşhur şairlərdən Diyaneşvar (XIII əsr), Namdev (XIII- XIV əsrlər), Eknatx (XII əsr), Tunaram (XVII əsr) və s. həmin təriqətə aid yazdığı şerləri avazla oxuya- oxuya yola düşürlər. Həmin şəhərdə 18 məbəd mövcuddur. Lakin bütün dini ayinlərin mərkəzində Vixxoba məbədi durur. Onun heykəli ayaq üstündə yaradılmışdır, ilahənin isə əlləri belindədir. Varnari ardıcıllarının ibadətində əsas məqsəd dini ayini- "darşana" (müşahidə) və "padasparşa" (alınla toxunma)- yerinə yetirməkdir.

Pandxarpurda yerləşən Vixxaba məbədlər kompleksi XII əsrdə yaradılsa da sonradan bir neçə dəfə yenidən qurulmuşdur. Məbədə daxil olan şəxs gərək əvvəlcə Bxim çayında yuyunsun, sonra isə təmiz paltar geyinsin. Məbədin giriş qapılarının önündə ayaqqabılarını çıxarmaq lazımdır. Maraqlıdır ki, məşhur varnari şairi Namdevin şərəfinə adını daşıyır. Şairin adı həmçinin birinci pilləkana verilmişdir. Adətən ona ayaq toxundurmadan adlayırlar. Rəvayətə görə şair Namdev öz şerində daim Vitxobanı tərənnüm etdiyi və insanları başlıca həyat məqsədi üçün Pandxarpura ziyarətə çağırdığı üçün məhz birinci pilləkənə ayaq basan zaman ilahə ilə qovuşmaq (ona





"samadxi" deyirlər) imkanı əldə etmişdir. Vitxobanın abidəsinə daxil olan hər kəs bu baş ilahədən başqa, ikinci dərəcəli ilahələrə də ehtiram göstərməlidir.

Məbədin içərisində yerləşən Vitxabanın abidəsi saf gümüşdən düzəldilmiş qapının arxasındadır. Onu iki polis nəfəri qoruyur. Onlar həmçinin "darşan" və "parasparş" ayinlərini yerinə yetirən zəvvarların davranışına nəzarət edirlər. Qara metaldan, təxminən V- VI əsrlərdə töküldüyü güman edilən heykəl çox diqqətlə qorunur. Buna səbəb, bir tərəfdən abidənin böyük maddi- mədəni dəyəridirsə, digər tərəfdən heykəlin başına gətirilən bəlalardır. Heykəl dəfələrlə oğurlanıb və sonradan tapılmışdır, o, bəzən əsrlər boyu qaranlıqlar içərisində itib batmışdır.

Bir əfsanədə deyilir ki, Vitxobanın Pandxorpura bu səbəbdən bağlanmışdır: Pandxarpurlu brəhmən olan Pundalina qoca, əlsiz, ayaqsız valideynlərinə yaxşı baxar, qeydinə qalarmış. O, gəlib Vitxobaya təzim edir və sevimli ilahəsinin ona iltifat göstərməsini arzulayır. Nəhayət Vitxoba onlara gəlir. Bu vaxt Pundalina qoca valideynlərinin ayaqlarını yumaqla məşğul imiş. Odur ki, sevimli ilahəsini layiqincə qarşılaya bilmir, yalnız ayaqları altına daş qoyur. İlahə isə həmin daşın üstünə çıxıb Pundalininin işininin bitməsini gözləyir. Amma ilahə belə münasibətdən incimir. Əksinə, Pundalinanın öz övladlıq borcunu sədaqətlə yerinə yetirməsi onu heyran qoyur və ilahə həmişəlik Pandxarpurda qalmağı qərara alır.

## UDAYPUR

Bu şəhərdə yerləşən Udaypur sarayı hər yanda tanınır. O, nəhəng şəhər darvazalarını adlayan kimi qarşıya çıxır. Altı hündür mərtəbədən ibarətdir. Gümbəzli minarələr onu daha da gözəlləşdirir. Sarayın sağ tərəfindəki pilləkən tövləyə aparır. Orda müxtəlif cins atlar bəslənir. Onların bəziləri xüsusi seçilmiş cinsdəndir və mehtərlər tərəfindən qayğı görürlər.

Sarayın ikinci mərtəbəsi xüsusilə bərbəzəklidir. Burada müxtəlif tovuz quşu rəsmləri, Mevarın müqəddəs sayılan quşlarının şəkilləri gələnləri heyran qoyur. Sarayı tikdirən sahibkarın da müxtəlif formada çəkdirdiyi şəkillər diqqəti cəlb edir. İkinci mərtəbədən yuxarı mərtəbələrə vintşəkilli pilləkan vardır. Pəncərələrin xüsusi forması, binanın xarici görkəmi bənna və inşaatçıların böyük məharətindən xəbər verir.

Yuxarı mərtəbədən qədim şəhərin kiçik dalan və küçələri əl içi kimi görünür. Amma, ən böyük həzzi bir az aralıda yerləşən Piçoda gölünə və onun daxilində tikilmiş "Cartandir" məbədinə və Caqniva adasında yerləşən

saraya baxarkən almaq olar. Gölün suyu gömgöydür. Belə rəng daxilində ağappaq daşlardan tikilmiş məbəd və saray hamını heyran qoyur.

Mevar ştatındakı Udaypur sarayı yeganə deyil. Ondan başqa iki böyük gölün- Racsamand və Caysamandın ətrafında salınmış qala xarakterli böyük tikililələr vardır. Çitar və Kumbxalqarda yerləşən və nisbətən yaxın vaxtlarda Caqnivdo tikilmiş saray da məşhurdur.

Ümumiyyətlə, Hindistanda saray tikdirmək çoxdan dəbdədir. Uzun əsrlər boyu hər bir varlı feodal xalqdan soybuğu var - dövlət hesabına özü üçün möhtəşəm saraylar tikdirərmiş. Belə vəziyyət 50- ci illərədək davam etmişdir.

Udaypurun təxminən 20 km - də yerləşən Eklinqçi ölkənin məşhur ziyarətgahlarından sayılır. O, dar vadidə yerləşir. Ətraf mühit romantika axtaranlar üçün ideal yerdir. Nəhəng qayalıqlardan yaranmış təbii darvazanı keçən kimi məbədlər gözün önündə canlanır. Onların tən ortasında beş məbəd ucalır. Ətraf məbədlər ona nisbətən həm kiçik, həm də görkəmcə zəifdir. Məbədlər şəhərinin arxa hissəsində süni yaranmış göl var. Hər gün səhər- səhər gölün sahilində yuyulan və ruhi təmizlik adətini yerinə yetirən zəvvarları görmək olar.

Bu məbədlərdən başqa qərbə sarı təxminən 3 km məsafədə Naqda adlanan yerdə möhtəşəm məbəd qalıqları durur. Onun bizə gəlib çatmış sütün və tağlarının naxışları yaradıcılarının güclü fantaziya və yüksək zövq sahibləri olduğuna dəlalət edir.

Ümumiyyətlə, Hind mədəniyyəti ilə məşğul olan mütəxəssislərin fikrincə, ən qiymətli orijinal və dəyərli nümunələr ən azı min il bundan əvvəl yaranıb. Bu iddianı, Acanta mağara məbədləri, Sança pəncəsi, Ellora məbədləri və haqqında danışdığımız Naqda məbədi təsdiqləyir. Sonradan yaranmış abidələr isə yüksək yaradıcılıq səviyyəsinə qalxa bilməyiblər.

Udaypur yerləşən ərazidə mədəniyyət adibələrindən danışmamaq olmaz. Heç bir səyahət kitabçasında adı çəkilməsə də Aravella dağ silsilələrinin ən əlçatmaz yerlərinin birində dəniz səviyyəsindən 1200 m yüksəklikdə, uçurum dərələrlə əhatə edilmiş bu yer müxtəlif dövrlərdə tikilmiş bir neçə məbəd və racın sarayı ilə tanınır.

Kumbxamarxdan bir neçə km, Ranapur adlanan düzənlikdə caynilərin hündür hasarla əhatə edilmiş məşhur məbədi yerləşir.

Burda hər şey insan gözünü qamaşdırır. Məbədin bir neçə yüz zalınını hər biri bər- bəzəklə doludur. Həm tavan, həm də divarlar çaynizm dininin 24 tartkxanakarının (qəyyumunun) şəkillləri ilə bəzədilmişdir. Həddən artıq bəzək- düzəyi, cavahiratı olduğu üçün məbəd bura gələnlərə ağır, cansıxıcı təsir bağışlayır.





# MADURA



*Monakşi məbədi – XVI əsr*

Madura memarlığı dravid sənət üslubunun yekunu kimi qəbul olunmuşdur. Madurada və Uzaq Cənubun bir sıra başqa yerlərində dravid üslubu Nayaklar adlanan sülalənin hakimiyyəti dövründə son mərhələsini yaşamışdır. Madura sənəti Pandya memarlıq formalarının dirçəlişi və davam etdirilməsinə bir cəhd kimi özünü göstərmişdir. Təcrübədə isə mövcud məbədlərə yeni baxış demək idi: məbədlərin yenidən qurulmasını və genişləndirilməsini tələb edirdi. Nəticədə məbədin ərazisi genişləndirilir, ətrafında yüksək divar inşa edilirdi. Geniş həyət- prokaram yaradılırdı. Onlarda müxtəlif tikililər, sütunlu zallar, əlavə köməkçi məbədlər ucaldılırdı. Adətən dini ayinər üçün yaradılan xüsusi su hovuzu üstü örtülü tağları olan sütunlarla əhatə edilirdi. Suya isə pilləkanlar vasitəsilə enmək mümkün idi. Madura sənətinin ən yaxşı nümunələri kimi Maduradakı Şiva və Minakşi məbədləri, Şriraqamdakı Vişna məbədi, Çidambaramdakı Şiva məbədi və Remeşvaramdakı məbəd qeyd edilir. Dravid sənəti özünün ən yüksək mərhələsinə XVII əsrdə Remeşvaram və Madura məbədlərinin inşası dövründə çatmışdır. Remeşvaram məbədinin hər biri 700 fut uzunluğunda olan və vahid qranit parçasından yonulmuş dəhlizləri insanda silinməz təsir buraxır. Madura məbədinin böyük zalı isə nəhəng mifoloji obrazlarla sənətkar fantaziyasının məhsulları ilə elə tərtib edilmişdir ki, daha çox qrotesk əhval - ruhiyyəsi yaradır. Göstərilən tarixi abidələr nəhəng, iri həcmli və təmtaraqlı tikilsələr də, çoxlu divar, uzun həyətlərə və mürəkkəb labirintlərə bənzəyən keçidlərə malik olsalar da, sonu görünməyən sütunlara və sütunlu xiyabanlarla əhatə edilsələr də vahid ideyaya tabe olduqları üçün tamaşaçını yormur, əksinə yüngüllük gətirirlər.

Minakşi məbədi. Bu daha doğrusu məbədlər kompleksidir. Maduranın

ən görəkmli yeri sayılır. Xarici görkəmcə ilk baxışdan nəhəng qayanı xatırladır. Yanındakı caynistlərin Qomatasvarasının abidəsi də eyni təsiri bağışlayır.

Məbədlər qumdaşından tikilmiş iri darvazadan sonra başlanır. Onların bəzisinin zalları bir - birilə əlaqələndirilib. Bu "müqəddəs şəhərciyin" mərkəzində bütün hind məbədlərində olduğu kimi içərisi daşla örtülmüş hovuz var.

Minakşi məbədinin ən xoşagəlimli hissəsi yüksək sənətkarlıqla yaradılmış dörd iri darvaza bürcləridir. Onlar trapesiya şəklində tikiliblər, hər birinin hündürlüyü 40 m çatır.

Ümumiyyətlə, məbədlər kompleksi bütün qədim hind memarlıq ansanbllarında olbuğu kimi xaos təsiri bağışlayır. Minakşi məbədindən fərqli olaraq caynizm dininin apostolu sayılan Qematasvaranın məbədi təmtəraqlı olmayıb, çox sadə formadadır.

Baş heykəl 25 m hündürlüyündə olan nəhəng qranit qayasından yonulub düzəldilib. Onun üzərində təcəssüm edilən ciddilik caynizm dininin tərki dünyalıq və astetik fikirlərini ifadə edir.

## ƏHMƏDABAD

Böyük Moğollara qədər olan hind- islam sənətinin ən maraqlı və zərif istiqaməti Qucarat adlı rayonda özünü göstərmişdir. Qucaratın hind- islam sənətinin çiçəklənməsində əsas iki amil başlıca rol oynamışdır: birincisi, yerli müsəlman hakimlərin sənətə böyük maraq göstərərək sənətkarlara himayədarlıq etməsi və ikincisi, yerli əhali içərisində mahir sənətkarların olması. Məhz bu səbəbdən Hindistanda o dövrlərdə paytaxtdan ən çox Qucarat üslubu milli hind ənənələrinə yaxın sayılırdı. Qucaratın islam abidələri müəyyən qədər müsəlman zövqünə uyğunlaşdırılmış hind memarlıq ənənəlrinin açıq təsirindən xəbər verir. Hind ənənəlrinə xas olan genişlik, açıqlıq, ciddilik və zəriflik Dehli - islam sənətinə xas olan semmetriya və tənasüblük hissi ilə qovuşmuşdur. D- r Bryuqes Qucarat memarlığından vəcdə gələrək qeyd edir ki, o, yerli incəsənətin bütün kamilliyini və qəşəngliyini özündə cəmləşdirmişdir. Persi Braun isə təsdiq edir ki, Qucaratın islam abidələrinin çoxlu elementləri induizm və çaynizm məbədlərinin memarlığına uyğunlaşdırılmış və bəzi hallarda onların təkrarı olmuşdur. Qucarat üslubunu fərqləndirən cəhətlər - ağacyonmada zəriflik, ornament bolluğu və nazik işlənmiş şəbəkələr- hind milli memarlığının səciyyəvi xüsusiyyətləridir. Qucaratın ən qədim islam abidələri bunlar hesab edilir: Patnadakı şeyx Fəridin mavzoleyi və Came məscid, port şəhəri sayılan





Brondakı Came məscid, Kambaydakı Came məscid. Sonuncu abidənin ən yadda qalan cəhəti zərif asılmış tağın olması, əla tənasüblük və təmtaraqlı görkəmidir.

XV əsrin birinci yarısında Əhməd şah özünün adını daşıyan Əhmədabad şəhərini salır. Çoxlu binalar tikdirir. Amma onların içərisində inşası 1423- cü ildə tamamlanmış Came məscidi xüsusi qeyd etmək lazımdır. Məscidin 15 qübbəsi 200 sütun üzərində yüksəldilmişdir. O, ümumi rəyə görə Qucaratda tikilmiş bütün məscidlərin şahı sayılır. Yerli üsluba xas olan kompozisiya və formanın bütün gözəlliyi bu möhtəşəm sənət əsərində vəhdət təşkil etmişdir. Onu görənlər deyirlər ki, "insanların qəlbi daş çiçəklərin təsirindən öz - özünə gözəlləşir. Çünki bu əsəri yaradan sənətkarlar öz əlləri ilə qəlblərinin və beyinlərinin gözəlliyini bu daşlara veriblər".

Ondan başqa məşhur abidələrdən Tin Darvaza, Zəfər tağı, Əhməd şahın sarayı, Əhməd şahın məqbərəsi, Sernecdəki şeyx Əhmədin qəbri və məscidi qeyd olunur. Mahmud Beqarkın Çampanerdə tikdirdiyi məscid, Əhmədabadın Rani Sipari məscidi Qucarat üçlubunun zənginliyini əks etdirir. Onlardan əlavə Əhmədabadda və Qucaratın başqa yerlərində çoxlu bidavi (pilləli quyular), müxtəlif irriqasiya qurğuları tikilmişdir.

## DEKAN İSLAM ABİDƏLƏRİ

Cənubi Hindistanda Behmənilər sülaləsi dövründə çoxlu dini və dünyəvi xarakterli binalar inşa edilmişdir. Onlarda yerli dekan incəsənətinin əksi görünməkdədir. Sənətşünas Marşal qeyd edir ki, Behmənilər dövrü sənətində çoxlu türk, Misir və İran elementləri olsa da, Hind memarlıq dühası xarici təsirlərə qapılmamış və özünün təzahürünə nail olmuşdur. Behmənilər sülaləsindən olan sultanlar öz saraylarını əsasən Gülbarqda, Bicarpurda və Bidarda inşa etdiriblər. Nisbətən erkən islam dövrünün ən tanınmış abidələri Dövlətabaddakı Came məscid və Bodxandakı (Heydəabadın yaxınlığındadır) Deval məscid hesab edilir. Onların birincisi, deyildiyinə görə uçurulmuş induist abidələrinin qalıqlarından yaradılmışdır. İkincisi isə ulduz formalı caynist məbədinin sonradan məscidə çevrilmiş binasıdır. Gülbarqın ən maraqlı müsəlman tikililəri kimi Came məscid və sultanların məqrəbələri, xüsusilə Firuz şahın mavzoleyi diqqəti cəlb edir. Came məscidin bütün binaları örtülüdür və belə hal - hind islam sənətində nadir hadisə hesab olunur. Çünki, adətən hind- islam məscidlərinin həyəti açıq inşa edilir. Firüz şahın mavzoleyi isə hind induizm ənənələrinin təsirini biruzə verir: O, xüsusilə naxışlarda, daxili tərtibatda və s. vardır. Bidardakı

Behməni dövrünün ən gözəl nümunələri bunlardır: Ranqin Mahal, Zenan Mahal və s. adlı saraylar, Mahmud Qavan tərəfindən inşa etdirilmiş mədrəsə və s. Bidarın ən xarakterik memarlıq nümunələri kimi sultanların məqbərələri göstərilir. Onların içində ən tərifə layiqlisi Əli Beridin gözəl mavzoleyidir. Dövlətabaddakı Çənd Minar (Aylı minarə) həmçinin sənət nümunəsi sayılır.

Dekan islam memarlığının başqa bir qism abidələri Qolkondda cəmlənmişdir. Onlardan əlavə Heydərabadın Çar Minare (Dörd minarə) yaddan çıxmamalıdır. Heydərabadın gözəlliyi haqqında deyilmiş bu sözlər dillər əzbəridir: "onun qüvvəsi özünü göstərir, amma pis təsir oyatmır. O, əzəmətli olsa da eyni zamanda canlıdır".

Lakin Behməni dövrünün ən gözəl abidələri Bicapurda cəmlənmişdir. Hindistanın az - az şəhəri Bicapur kimi abidələrinin bolluğu ilə fəxr edər. Öz sadəliyi ilə həddən artıq göz oxşayan Came məscid, daxili tərtibatının gözəlliyi və ornamentlərinin zənginliyi ilə seçilən İbrahim Rzanın mavzoleyi, Mixtar mahal və Gül Gümbəz (Məhəmməd Adil şahın mavzoleyi) Bicapurun memarlıq simasını müəyyən etdirir. Göstərilir ki. İbarhim Rzanın mavzoleyi sonradan gələn moğol memarlığında da özünə gözəllik və zəriflikdə tay tapa bilməmişdir. Mixtar Mahalın bu hündür və zərif binası haqqında belə deyiblər: "bu saray sözün tam mənasında orijinaldır. O, sənətkarın zəngin fantaziyasını və həyatsevərliyini özündə əks etdirir". Gül Gümbəz də Hind sənətinin böyük nailiyyəti sayılmaqdadır. Bu abidə tamaşaçıda özünün əlçatmaz ölçüləri və tamtərağı ilə xoş hisslər yaradır. Persi Braun onu Hindistandakı ən böyük və gözəl müsəlman abidələrindən biri hesab etmişdir. Onlardan başqa Bəhməni nəslindən olan sultanlar çoxlu qala və saraylar tikdirmişlər.

Heydərabad. Heydərabad tarixi və memarlıq abidələri ilə zəngin şəhərdir. Onların demək olar ki, hamısı köhnə şəhər hissəsində yerləşir. Əlbəttə, Heydərabadı bütün dünyada tanıtdıran Çar minar adlı ansanbldır. Bu abidə XVI əsrdə tikilib başa çatıb. Böyük Moğol memarlıq məktəbinin ən yaraşıqlı tiklililərindən sayılır. Hökmdar Qulu Qütüb şahın zamanında yaradılıb. Çar- Minar geniş iri darvazaları olan dördbucaqlı şəklindədir. Dörd küncün hər birindən hündür minarə yüksəlir. Minarələr onbucaqlı formasındadır, zərif qalereyalarla əhatə olunubdur. Abidənin ümumi hündürlüyü 57 m çatır. Hər bir darvaza bir cəhətə- qərbə, şimala və cənuba açılır.

Özünün nəhəng ölçülərinə baxmayaraq Çar Minar yüngül, zərif tikili təsiri bağışlayır. Bu fikir əsasən binanın mərkəzi hissəsini bəzəyən şəbəkəli qalereyadan yaranır. Çar Minarın üzərində balaca bir məscid və indus məbədi tikilib. Bunların bir yerdə yaradılması hindli və müsəlman olan xalqların mehribanlığını, dostluğunu təmsil edir.

Çar Minar, ümumiyyətlə, Heydərabadın fəxri kimi adlansa səhv olmaz.





Bu abidə çoxlu tarixi hadisələrin şahidi olub. Hindlilərin avropalılara qarşı apardığı istiqlaliyyət müharibələrinin qəhrəmanları burada xalq tərəfindən qarşılanıblar.

Heydərabadın ikinci böyük abidəsi Məkkə məscid adlanır. O, Hindistanda tikilmiş ən gözəl məscidlərdən biridir. 1600- cü ildə Qulu Qütbşah tərəfindən inşası başlanıb. Öz xarici görkəminə görə Məkkənin məşhur məscidinə bənzəyir. Tikintisi yalnız 1687- ci ildə tamamlanıb, formaca dördbucaqlıdır. Çox da yüksək olmayan dörd minarəsi vardır. Sütunları bütöv daşlardan böyük məharətlə yonulmuşdur. Məscidin həyətində qara rəngli daşdan düzəldilmiş skamya durur. Rəvayətə görə onun üzərində oturan şəxs yenidən Heydərabada qayıdacaqdır.

Qolkond Heydərabaddan yeddi mil aralıda yerləşir. Qalanın hündür, diş - diş görkəmi və nəhəng gövdəsi diqqəti hələ uzaqdan cəlb edir. 1845- ci ildə Hindistanı gəzən fransız səyyahı Taveriya Qolkondu təsvir edərkən onun saysız- hesabsız varından, şəhərin fəal ticarət apardığından yazır. O vaxt bu şəhər şərq ölkələrinin əksəriyyəti ilə əlaqə saxlayırmış. Qolkondun dövlətli olmasına ən yaxşı dəlil onu bütün dünyaya tanıdan məşhur brilliantları olub (Koxi- nur, Dərya - yi - nur, Orlov, Reqent və başqaları).

Qolkondun yerləşdiyi təpəlik nəhəng qayalardan yaranıb. Qala divarlarının bəzi hissəsi elə qayalardan ibarətdir. Qalanın içərisində indiyədək qalmış çoxlu su toplamaq üçün hovuzlar var. Qalanın əsas binası olan saray görkəmcə sadə və genişdir. Qalanın içərisi elə qurulub ki, daim hava işləyir. Ona görə burda həmişə sərinlik olur. Sarayın içərisində uçub dağılmış yeraltı yol yeri qalır. Deyilənə görə o qalanı Heydərabadla birləşdirir. Sarayın pavilyonlarının birində şahın taxtı duran yer indiyədək qalır. Sarayın yanında müşavirələr yaxud "baradari" üçün xüsusi zal tikilib. "Baradaridən" başlanan daş pilləkən şah hərəmxanasına aparır. Sarayın digər yanında Qütübşahların tikdirdiyi balaca bir məscid və iki minarə ucalır. Qalanın digər hissəsində başqa bir saray diqqəti cəlb edir. O, Qulu- Qütüb şahın ən sevimli arvadı Baqmatinin iqamətgahı olub. Qalanın şimal hissəsində, divarların yanında şah nəslinə mənsub olanların bir necəsinin ağ daşlardan tikilmiş məqbərəsi görünür.

Qolkond qalasının bir məşhur xüsusiyyətini də qeyd etmək lazımdır. Bu hind və müsəlman memarlarının yüksək sənətkarlığına ən yaxşı dəlildir. Bir divardan o birisinə dəyərək səs, şəhərin bu başından o başına heç də zəifləmədən çatır. Qala fəaliyyət göstərən zaman darvazanın yanında xidmətçi və keşikçi dəstələri yerləşdirilibmiş. Şah isə öz ətrafları ilə sarayda otürarmış. Şahın bircə dəfə əl çalması bütün qala boyu gəlib giriş darvazasına çatarmış. Bunun üçün əlavə hərəkətə ehtiyac qalmazmış. Beləliklə xəbər ən iti sürətlə bir yerdən digər yerə ötürülərmiş.

# KONARAK


*Konarak – Günəş məbədi*

Konarak məbədi böyük hind torpağının çoxlu qiymətli abidələri içərisində özünəməxsus yer tutur. Yarıməfsanəvi çar Navasimbavedanını əmri ilə XIII əsrdə yaradılmışdır. 12000 sənətkardan, memardan, bənna və digər tikinti mütəxəssisilərindən ibarət heyət yorulmadan 12 il işləyərək Konarakı başa çatdırmışlar. Yaradılan sənət altı əsrdən artıq vaxt keçməsinə baxmayaraq indi də heyran qoyur.

Baş məbəd günəş allahının nəhəng arabasını təmsil etdiyi üçün simvol daşıyır. Onu həftə günlərinin sayına uyğun olaraq yeddi at çəkir. Araba insan boyundan hündür 12 dənə nəhəng təkər üzərində dayanıb. Bu ədəd ayların sayını və yer üzərində həyatın inkişafını təmsil edir. Məbəd başdan - başa təsvirlərlə doludur. Onlar yüksək zövqlə, böyük ustalıqla yerinə yetirilmişdir. Bəzəklərdə təsvir edilən insan və digər canlı orqanizm şəkilləri əsas ideyaya - həyat, ölüm və yenidən dirilmə fikrinə tabe etdirilmişdir.

Taxçada qoyulmuş taxt - tacda günəş allahı əyləşib. Onun ətrafında düzülmüş heykəllər sanki onu görmürlər, hər biri özü- özlüyündə müstəqildir. Amma əslində belə deyil, onlar hamısı günəş allahına tabe olunublar. Ətrafında yerləşən və qumdaşından hazırlanan heykəldən fərqli olaraq, günəş allahı yaşıla çalan mərmərdən yonulub hazırlanıb. Heykəlin bir neçə zədəsi var, qolu isə sınıb.

Mütəxəssislərin ümumi fikrincə Benqal körfəzinin sahilində yaradılmış Konarak- günəş məbədi dünyanın memarlıq sənətinin və tikinti ustalığının ən parlaq nümunələrindən biridir. Ona qədim Bxaratın mədəni cərəyanları təsirinə məruz qalmamış, bütün cisminə azadlıq hissi hopmuş Bxaratın obrazı verilib.

Hind incəsənəti üzrə ən yaxşı mütəxəssislərdən sayılan Persi Braunun fikrincə bu günəş məbədi Şərq memarlıq üslubunun ən yaxşı nümunələrindən biridir. Onu hind- orissa sənətinin təşəkkülündə yeni





mərhələ də saymaq olar. Məbədin bütün elementləri biri- biri ilə üzvü surətdə bağlanıbdır və vahid sənət əsəri yaradıbdır. Hindlilərin inamına əsasən Surye adlı günəş ilahəsi zaman arabasının üstündə ayaq üstdə durmalı və səmanın ənginliklərinə sarı yürüş etməlidir. Sənətşünasın rəyincə bu etiqad abidədə baş funksional həllini tapmışdır. Belə ki, məbəd yeddi at qoşulmuş arabanı, yerli ifadə ilə deyilsə "ratxunu" tam təcəssüm etdirir.

Abidə yaradılmamışdan əvvəl onun özül hissəsi qurulmuşdur. O, hər birinin diametri təxminən on futa çatan 12 təkərin yerləşdiyi geniş terrasdan ibarətdir. Təkərlər iki tərəfdən bərkidildiyi üçün Günəş ilahəsinin arabasının təsirini yaradırlar. Yanındakı yeddi dənə at isə şahə qalxıb arabanı çəkirlər. Bu yüksək platformada əsas məbəd ucalır. O, caqmonaxadan, yəni 100 fut uzunluğuna və 100 fut hündürlüyə malik iri zaldan ibarətdir. Zalın üstündə isə 225 fut hündürlüyündə bürc ucaldılmışdır. Bürcün özülünün ətrafında isə üç dənə ibadətxana inşa edilmişdir. Onların hər birində Günəş allahının büstü qorunub saxlanılır. Məbədə daha da təntənəli və zəngin görkəm vermək üçün hündür divarlar heykəllərlə və mürəkkəb formalı fiqur və ornamentlərlə bəzədilmişdir.

Mütəxəssislər bu məbəddən danışarkən heykəllərin sayına xüsusi diqqət verir və göstərirlər ki, hind məbədlərinin az bir qismində belə hala təsadüf etmək mümkündür. Lakin təəssüflər olsun ki, böyük zaldan başqa bu hind memarlığının parlaq nümunəsinin qalan hissələri tamamilə dağılmaq təhlükəsi qarşısında qalmışdır.

Raçmalla adlı padşahın vəziri Çamundaray tərəfindən ucaldılmışdır. Madya Bxaratda nəhəng qaya üzərində həkk edilmiş relyef isə XV əsrə aiddir. Bunlardan əlavə Udalyangirdə, Madya Bxaratda və Ellorada yerləşən caynizm mağara məbədləri o dövr memarlığının və heykəltəraşlığının ən kamil incilərindən sayılırlar. Caynizmin ardıcılları belə məbədlərin tikintisinə e.ə. II əsrdə başlasalar da onu uzun müddət davam etdiriblər. Mağara - məbədlərə göstərilən ərazidən əlavə Orissada, Cumqadda, Cunnarda, Osmanabadda rast gəlmək mümkündür. Caynizm zəvvarlarına ziyarətgahları Parşavanaqxda, Racgirdə, Biarda, Girnarda, Papitanda və Katxnavarda hələ də qalmaqdadır. Caynizm dini ilə bağlı yaradılmış ən kamil sənət əsərlərindən biri kimi Racastandakı Çittor adlanan yerdəki cayni qülləsidir. XI əsrdə Racastanın Abu adlı dağının yamacında inşa edilmiş cayni məbədi Hind memarlıq dünyasının forma gözəlliyi yaratmasına ən yaxşı misal hesab olunur.

# ƏFQANISTAN

Bu ölkənin çox zaman Asiyanın düyün nöqtəsi, bəzənsə "etnik qazan" adlandırırdılar. Ölkənin zəngin qədim tarixi var; son onilliklərdə aparılan arxeoloji qazıntılar göstərir ki, əfqan torpaqlarında daş dövründə insan yaşamışdır. Bürünc dövründə isə o, oturaq əkinçiliklə məşğul olan qəbilələrin məskəni olub.

Əfqanıstanın tarixi həmsərhəd dövlətlərin- İranın, Hindistanın, Pakistanın və Orta Asiya xalqlarının tarixi ilə sıx surətdə əlaqədardır. Müharibələrin, müxtəlif sivilizasiyaların birinin digərini əvəz etməsi müəyyən formalarda Əfqanıstanda öz təsirini qoyub. O, qonşu ərazilərdə orta əsrlərdə güclü dövlətlər olan Ərəb xilafəti, Qəznəvilər, Çingizilər, Teymurilər, Böyük Moğollar, Səfəvilər və s. imperiyalar tərkibində birləşib. Ümumiyyətlə götürülsə, Əfqanıstan başqa ölkələrə nisbətən daha çox hücum və dağıntılara məruz qalıb. B. e. əvvəl II minillikdə özlərini ari adlandıran qəbilə birləşmələri şimaldan köçüb Əfqanıstanda müəyyən bir qismi qalaraq Hindistana daxil olmuşdur. Onlar özlərinin dilini- sanskriti də yayıldıqları ərazilərdhə işlətmişdir. B. e. əvvəl VII əsrdə hind- avropa mənşəli tayfaların Qelmend və Pəncab çayları hövzəsində yaşadıqları tarixi faktdır. Herepot onları "paktik" deyə təqdim etmişdir.

Əfqanıstan tarixində ellin mədəniyyətinin təsiri makedoniyalı İskəndərin saysız- hesabsız qoşunla Asiya üzərinə hücumundan sonra (b. e. əvvəl IV əsr) aydın duyulur. O dövrdə Əfqanıstan digər ətraf ərazilər kimi böyük fatehin yaratdığı nəhəng dövlətin tərkibinə daxil olub.

B. e. I əsrindən etibarən Əfqanıstanda buddizm yayılır. Qədim dünya tarixi ilə məşğul olan alimlərin fikrincə buddizmin fəlsəfi və estetik konsepsiyalarının formalaşmasına ellinizmin ciddi təsiri olub. Həm də tarixi məlumatlar göstərir ki. bu din Əfqanıstan ərazisindən Çinə və digər Uzaq Şərq ölkələrinə yayılmışdır.

B. e. I- IV əsrlərində hazırki Əfqanıstanın, Şimali Hindistanın və Orta Asiyanın bir hissəsini tərkibinə almış Kuşan imperiyası dövründə buddizm dövlət dini kimi inkişaf etdirilir. Onun geniş təşəkkül tapmasına ən yaxşı sübut Əfqanıstan ərazisindəki bütün dünyada tanınan komplekslərdir. Bu abidələr Buddanın şərəfinə qoyulmuş ən monomental heykəllər sayılır.

Əfqanıstan ərazisində islam dininin bərqərar olması (VIII- IV əsrlər) buddizmin bu ölkədə birdəfəlik tarix səhnəsindən silinməsi ilə nəticələnir. Ərəbistan yarımadasından gətirilmiş yeni dinin etik normaları kimi, təsviri incəsənəti də buddizmdən əsaslı surətdə fərqəlnir. Canlıların təsvirinə mənfi





münasibət bəsləyən müsəlmançılıq, əvvəl ölkədə inkişaf etmiş sənətin bu sahəsinin inkişafını dayandırır. Onun əvəzində hər yerdə olduğu kimi, əsasən dini və memorial binalar - məscidlər, mədrəsələr, mavzoleylər geniş tərəqqi tapır.

# KABUL

Kabul şəhərinin yerləşdiyi rayon ta qədim dövrlərdən tarixi hadisələrin şahidi olmuşdur. Eramızın VIII əsrindən başlayaraq şəhərin adı ilə bağlı onlarla məxəz tarixi qaynaqlarda məlumat verir. Bununla belə qədim yunan və latın müəllifləri Kabul yerində eradan da qabaq yaşayış məntəqəsinin olduğunu söyləyirlər. Eradan iki əsr əvvəl yunan alimi Ptolomey onun haqqında yazmışdır. A. Berthelot bu yerin Kabul olduğunu söyləyərək o dövrdə də şəhərin indiki kimi iki hissədən ibarət olduğuna diqqət yetirir. Pəhləvi ədəbiyyatında da o yer xatırlanmışdır. Sasanilərin dövrünün sənədləri də Kabul adında yaşayış məskəni olduğundan xəbər verir. Nəhayət, böyük İran şairi Firdovsi ölməz "Şahnamə" əsərində Kabulu xatırlamışdır.

Belə bir püştu əfsanəsi vardır ki, əfqanların ulu babaları Nuhun iki oğlu- Kakul və Xabul olub. Onlar öz aralarında uzun müddət tikdikləri şəhərin gələcək adı ətrafında mübahisə edirlər. Nəhayət, belə qərara gəlirlər ki, onlardan birinin adının birinci hecası, o birinin adının ikinci hecası verilsin. Beləliklə, Ka- bul yaranır.

Başqa bir əfsanəyə görə həmin iki oğulların - kain və Avelin farsca adları Kabil və Habildir. Guya Kabil şəhəri saldığından adı ordan götürüblər.

Üçüncü rəvayət isə belədir: bir zamanlar şəhərin yeri böyük göl imiş, gölün ortasında ada olub. Orda bir nəfər musiqi çalan və rəqs edən oğlan yaşayırmış. Bir dəfə böyük padşah burada gəzərmiş, amma adaya çatmaq üçün qayıq tapmır. Belə olduqda o yaxın kəndlərdən saman - "kax" gətirməyi tapşırır. Sonra isə körpü - "pul" tikdirməyi əmr edir. Bu yerlər o qədər xoşuna gəlir ki, şəhər saldırmağı qərara alır. Beləliklə Kaxbul- Kabul yaranır.

"Mən heç vaxt Kabulun gözəlliyni öz ürəyindən silə bilmirəm. Həmçinin, ora qayıtmaq arzusunun yanğısını, gücünü də izhar edə bilmirəm". Bu sözlər Böyük Moğollar sülaləsinin yaradıcısı Babura aiddir.

Çoxlu tarixi tufanlar görmüş Kabul və ətrafı bolluca abidəni, əşyanı öz

qoynunda saxlamaqdadır. Şəhərdən səkkiz km aralıda başı qarlı dağların qoynundakı Şivaki, Siyah Bini və Bini- Xisar kəndələrində buddizm və brəhmənizmə aid məbədlər, monastır və pəncələr aşkar edilmişdir. Bu dağ sisliləsində, Minari- Çakari adlı zirvədə vaxtilə buddistlər tərəfindən buddist zəvvarlara yol göstərmək məqsədilə ucaldılan 20 m hündürlüyündə daş sütun mövcuddur. Kabulun yaxınlığındakı Maranqan adlı təpəcikdə 1933- cü ildə aparılan tədqiqatlar III əsrdə Kuşanlar tərəfindən qurulmuş iki böyük buddist abidə üzə çıxarmışdır. Yenə o yerdə eradan əvvəl VI - V əsrlərə aid olunan yunan gümüş sikkələri tapılmışdır.

Kabulun ətrafında ucalan Şirparvaza dağlarının cənub- şərqindəki təpəlikdə qədimdə Bala- Xizar adlı bir qala mövcud olmuşdur. Qədim dövrdə həmin qalanı şəhərlə bağlayan və qaldırıb- endirilən Taktapul adında bir körpü olmuşdur. O körpüdən hazırki Kabulun ən qədim bazarı sayılan və uçub- dağılmaqda olan Şor Bazara yol var idi. Hind- türk imperatoru Aurenqzeb tərəffindən inşa etdirilən məscid - Ulya buradadır.

Kabulun bazarları şərq ölkələrinin əksəriyyətində olduğu kimi müəyyən peşələr və sənətlər üzrə qurulmuşdu. Məsələn misgərlər, dəmirçilər, sərraclar, odun satanlar, yemiş satanlar, ayaqqabıçılar, kitabçalar və s. bazar bölmələri var idi. Şah Cahan zamanında Kabul valisi Əli Mərdan Xan tərəfindən inşa edilmiş Çar- Çata adındakı məşhur üstüörtülü bazarlar Şor Bazardan başlayır, Puli- Xiştiyə qədər uzanırdı.

Kabulun ən məşhur Camelərindən biri Məscidi Puli Xişti (Kərpic körpü) körpünün yaxınlığında durmaqdadır. Qədim dövrlərdə şəhərin giriş darvazalarından biri burada idi. Şahi du Şəmşirə körpüsünün qarşı tərəfində Baburun ziynətləndirib xüsusi diqqət verdiyi yer Kabulun o zamanlarda da yüksək şərəfə layiq olduğu göstərir. Ondan bir qədər aralıda bir məhəllə- Kabulun şiə əhalisinin yaşadığı Çindabul məhəlləsi yerləşir. Şəhərin qədim və məşhur bağlarından ancaq biri, şəhərdən kənarda Cizarçah yaxınlığında Babur tərəfindən salınan və adını daşıyan bağ (Babur şah) qalmaqdadır. Dağ yamacında salınmış bu bağça Çarpih vadisinə baxır. Baburun özünün qəbri də bağın yuxarı hissəsindədir. Qəbir tikildiyi zaman sadə bir görkəmə malik imiş, üzərində kitabəsi olan adi mərmərdən ibarətdir. Amma son dövrlərdə o, Zabir Şah tərəfindən Kabulun gözəl və rəngli kaşilərilə yenidən qurulmuşdur.

Şerparvazanın tam ortasında, bulağı və bağçası olan Xoqa Safa adında məşhur ziyarətgah vardır. Buradan bütün Kabul əl içi kimi görünür, Asamaye ətəyində saldırdığı Aləmi- Cəng bağı öz gözəllyi ilə göz önündə canlanır. Əmir Əbdürrəhman xan Əfqanıstanda ilk silah zavodunu tikdirdiyı zaman xalq öz narazılığını bu sözlərlə ifadə etmişdi, "Aləmi - Cəng





tutmuşdu, dumanı çıxdı, maşınların borusu oldu". İndi Aləmi Cəngdən əsər-əlamət qalmayıb. Yolla irəlilədikcə qədim Kabuldan çıxırsan və Çardih valisində yerləşən yeni Kabula doğru gedirsən. Onu Əmənulla Xan inşa etdirmişdir. Bala Xizarın yanındakı dörd yolun ayrıcında bir abidə vardır. O, Nadir şahın 1929- cu ildə daxili ixtişaşı yatıraraq Becceyi - Sagayyı məğlub etməsinin şərəfinə ucaldılmışdır. Sol tərəfdə isə Cameyi İnqah yerləşirdi. Onun qarşısında. Çayla üzbəüz Əfqanıstanın vətənpərvərlərinin istiqlaliyyət uğrunda apardıqları müharibəyə həsr edilmiş abidə yüksəlməkdədir. Burdan yol, Əfqan şahların iqamətgahı yerləşmiş Ərq qalasının şərq darvazasına aparacaqdır.

Dördbucaq şəklində olan bu qalanın hər küncündə bürclər ucalır, qədimdən bəri onun mazgalı və ətrafında müdafiə xəndəklərinin yeri qalmaqdadır. Qala Əbdürrəhman xan tərəfindən inşa edilmişdir. Zəmanəmizə öz sağlam və gözəl görkəmində gəlib çıxmışdır. Ərq qalası çox gözəl bir bağçanın əhatəsindədir. Ərqın şimal darvazası qarşısında Əmir Həbibulla xan tərəfindən tikdirilmiş Dil Guşa qəsri və Saat qülləsi, qərb darvazası qarşısında yenə də Həbibula xan zamanında inşası tamamlanmış Star köşkü mövcuddur. Əsrin ortalarına yaxın tikilən Şəhri Nou məhəlləsi, Ərqdən sonra Şir pur və Şərh Araya qədər olan sahəni tutmuşdur. Adı çəkilən Alami Cəngdən sonra Dih Mazanq kəndinə sarı irəliləyərkən, solda, kənardakı bir qayalıq üzərində Əmənulla Xanın inşa etdirdiyi Mikari ilm və Qəhl abidələri yüksəlir. Dih Mazanqı keçdikdən sonra Navaye Kabul (Darul- Aman) gəlir. O yolun üstündə Kabul universitetinin binası və məşhur filosof və alim Cəmaləddin- əl- Əfğaninin türbəsi yerləşir. Əl Əfqaninin məzarı İstanbuldan ana vətəninə köçürülmüşdür. Oradan başqa bir yol Kabulun ən gözəl istirahət zonası Paqmana sarı uzanır.

## HERAT

Herat şəhərinin yerində Fuşənc adlı bir qəsəbə olub. Tarixi mənbələr onun Peşənc ibn Nemurp ibn Kənan tərəfindən salındığını söyləyirlər. Sonralar Peşənc adı ərəbləşərək Fuşənc formasına düşmüşdür.

Herat əyaləti dördüncü iqlimdə yerləşdiyi üçün havası mülayimdir və ərazisinin su ehtiyatları çoxdur. Onun hər tərəfi yaşıldır.

Heratın bir şəhər kimi salınması haqında şeyx Səqəddini Əbdürrəhman belə bir məlumat verir: Herat Təhmurəs ibn Göyüərsin dövründə bina edilmiş az bir zamanda mühacirətə məruz qalmış, çoxlu əhali o şəhərə

axışmışdır. Mühacirlər əvvəlcə özlərini müdafiə etmək məqsədilə Şəmiran qalası tikirlər, çoxlu darvaza və bürc inşa edirlər. Onlar bu minvalla Mənuçöhrün hakimiyyəti dövrünədək yaşayıblar. Sonra Mənuçöhr əhalinin xahişini nəzərə alaraq onlara yeni şəhər salmağa icazə verib. Alimlər o dövrü Həzrəti Musanın dövrü ilə eyniləşdirir.



*Herat qala*

Beləliklə şahın icazəsi ilə Qəhəndəz şəhəri tikilir. Ətrafında 4 hündür qəsr olub. Şimal və cənub istiqamətlərə açılan 2 darvaza da inşa edilir. Şəhərin ətrafında dərin xəndək qazıldı. Bina tikilib hazır olunandan sonra Şamirandan camaat köçüb gəlir. Amma əhalinin çoxluğundan yer qıtlıq edirdi. Xalq Bəhmən şahdan xahiş edir ki, yeni bir şəhər salsın. Beləliklə, Heratın əsası qoyulur. Şəhər divarlarla əhatə edilmişdir. Onun uzunluğu 583 ges, hündürlüyü 45 ges, eni isə 110 ges idi. Hər dörd tərəfdən bürclər tikilmişdir. Çöl tərəfində hər birinin eni 20 ges olan 2 divar da inşa edilmiş, arasında çox dərin olan xəndək qazılmışdır.

Heratın tarixinə aid başqa məlumatları "Rouzət- ul- cənnət" (Cənnət bağı) adlı əsərdə görürük. Burda şəhərin beş darvazası olduğu qeyd olunur (Şimalda Məlik darvazası, qərbdə Eraf darvazası). Belə nəql edilir ki, Qıçaq darvazasının adı qıpçaq sözündən alınıb.

Heredotun Miland adlandırdığı çay Heratdan keçərək şəhəri 2 hissəyə bölür. Birinci hissəyə Dağırabad və siyafisan adlı torpaqlar daxil olub. Onlar





Turan, Xuran, Kəmiran və s. adlı kəndlərdən təşkil edilmişdir. Bunlardan əlavə tarixdə Balitan, Əlincan, Encil, Xiyaban, Səbsər, Əğvanının da adları çəkilir.

Heratın ən məşhur abidəsi kimi "Rouzət- ul- cənnət" əsərində şəhərin Cümə məscidinin adı çəkilmişdir. Təsvirə əsasən məscidin 5 qapısı olub. Cümə məscidi Məhəmməd Sam Quri tərəfindən inşa olunmuşdur. Əsərin müəlliflərinin yaşadığı dövrdə, yəni IX əsrdə binanın eyvanında olan yazını tamamlandığı il kimi qəbul etmək olar. Adı çəkilən başqa məscid Qouhər Şad adlanır. Əsərdə, o Mirzə Şahruxun yoldaşı tərəfindən Heratın ətrafında inşa edildiyi göstərilir. Bunlardan əlavə "Rouzət-ul- cənnət" Heratın daha bir abidəsi haqqında söz açmışdır. O, İxtiyarəddin qalasıdır. Qala şəhərin şimalında yerləşir. Məlumata görə onun hündür bürcləri və ətrafında dərin xəndəyi olmuşdur.

XIII əsr monqol basqınları Orta Şərqin və Şərqi Avropanın taleyini faciəyə döndərdiyi kimi, Əfqanıstanın da həyatında uzun müddətli dağıntıya, hərc- mərcliyə səbəb olmuşdur. Yalnız on illər keçəndən sonra ölkəni idarə edən Qazan xanın (1295- 1304) dövlət islahatları ictimai həyatda müəyyən dirçəlişlərə gətirib çıxarır. Sonra yerli mənşəli sülalənin- Kuptların hakimiyyəti zamanı ölkədə, ilk növbədə başlıca şəhər sayılan Heratda bir sıra abadlıq, yenidən qurma işləri görülür. Heratın Cümə məscidi təmir etdirilir, şəhər ətrafında müdafiə istehkamları yenidən yaradılır və s. Həmçinin XIV əsrdə Heratda məşhur şəhər hamamı və iki karvansara da tikilmişdir.

Qısa bir tarixi dövrdən sonra Əfqanıstan yenidən hücum və dağıntılara məruz qalır. Teymurləng ölkəni qılınc gücünə istila edir, ən yaxşı sənətkarlarla birlikdə layiqli sənət əsərlərini də öz paytaxtının bəzədilməsi üçün Səmərqəndə göndərir (Məsələn, gözəl naxışları olan Heratın nəhəng şəhər darvazaları buna misaldır).

XV əsrdə "dəmir axsaqın" yaratdığı nəhəng dövlət nəsli tərəfindən müxtəlif əmirliklərə və s. bölünərək idarə olunur. Teymurun hakimiyyəti zamanı Səmərqənd "yer kürəsinin işıq saçan nöqtəsi" kimi öz dövrünün ən görkəmli adamlarını - alim və şairlərini, rəssam və memarlarını, musiqiçilərini və digər sənət sahiblərini özündə cəmləşdirirdisə, vəfatından sonra get- gedə öz əhəmiyyətini itirir. Bu dəfə həmin vəzifəni Teymurun övladlarının fəaliyyəti nəticəsində çiçəklənən Herat yerinə yetirir. Sultan Hüseyn Bayqaranın təxminən qırxillik (1469- 1506) hakimiyyəti zamanı Herat öz dövrünün ən yüksək səviyyəli mədəniyyət ocaqlarından birinə çevrilir. Görkəmli şair, dövlət xadimi və mədəniyyət hamisi Əlişir Nəvainin (1441- 1501) həyati və fəaliyyəti məhz həmin dövrə təsadüf edir.



*Herat*

O illərdə Heratın və eləcə də Əfqanıstanın və digər vilayətlərin irriqrasiya sistemlərinin təmir edilib işə salınması, sarayların zövqünə, yaşayışına sərf edilən boluca kənd təsərrüfatı məhsullarının artımına səbəb olur. Yenidənqurma işləri nəticəsində əldə olunan gəlir həm də şəhərlərin abadlaşdırılmasına sərf edilir.

Ölkədə o əsrlərdə inşa edilmiş mülki və dini abidələr təkcə ölçülərinin böyüklüyü ilə, mühəndislik sənətindəki yeniliklərlə xarakterizə olunmurlar. Həmin sənət əsərlərində həmçinin istifadə olunan müxtəlif növ əla inşaat materialları, yeni stilin ən bariz xüsusiyyətləri- təsirlilik və kamillik diqqəti cəlb edir.

Teymurun dördüncü, bəzi mənbələrə görə ən az istədiyi oğlu, Heratın hökmdarı Şahrux (1405- 1447-cü illər) şəhərin xarabazarlıqdan çiçəklənən mərkəzə çevrilməsi üçün az iş görməmişdir. Onun dövründə Heratın ətraf müdafiə hasarı və digər istehkamları yenidən qurulub möhkəmləndirilmişdir. Dörd şəhər darvazası təmir edilmiş və beşincisi yaradılmışdır. O dövrdən qalma inşaat işləri indi də maraq doğurur. Qala divarları və bürcləri baxanlara təmkin və alınmazlıq hissi yaradır. Onun cənubi- qərb hissəsi qeyri adi görkəmdədir. Qalanın iri silindrə oxşar bölümündə daş atan mancanaqlar üçün keçilməz xəndəklər qazılıbmış, bəzi yerlərdə isə qaldırılıb- endirilən körpülər qoyulubmuş. Mütəxəssislərin fikrincə Herat qalasını mühasirə zamanı demək olar ki, praktiki baxımdan fəth etmək mümkün deyilmiş.

Yenidənqurma işləri aparılarkən ilk növbədə Səmərqəndin planlaşdırılması nümunə kimi qəbul edilib. Əsas küçələr həm də ticarət- yarmarka, sənətkarlıq emalatxanaları, köşkləri yerləşən, şəhərin əsas alış- veriş yerləri olmalı idi. Magistrallar kəsişən yerdə





çasu adlanan, əsasən dörd tağı və künbəzi olan iri bina tikilməli idi. Şəhər darvazalarından mərkəzə gedən küçələrdə gediş- gəliş üçün münasib passajlar inşa etdirilir. Yeni yaradılan binalar əhaliyə həm gözəl estetik hisslər aşılayırdı, həm də möhkəm idi. Onların demək olar ki, hamısı bişmiş kərpic və xüsusi hazırlanmış palçıqdan tikilirdi.

Əsas magistrallardan əlavə yerli əhalinin kütləvi istirahəti üçün xüsusi küçələr salınır. Teymurilər dövründə Heratda "bütün Xorasan üçün ləzzət, şəhər üçün əyləncə" yeri adlandırılan xüsusi məhəllə varmış. Maraqlı burasıdır ki, ümumən Şərq ölkələri üçün qəribə görünsə də bu məhəllənin ikimərtəbəli evlərinin pəncərə və qapıları küçəyə baxırmış. Məlumdur ki, şərqdə uzun əsrlər boyu əksinə olub: küçəyə adətən evin qapı və pəncərəsi olmayan arxa, yaxud yan hissəsi dururdu.

O dövrün Heratının ən görkəmli hissəsini Xiyaban adlanan və şəhər ətrafında salınan gözəl küçə təşkil edirmiş. O, Parapamiz dağının ətəklərindən başlayır və şair Abdulla Ənsarinin mavzoleyinə qədər uzanırmış. Xiyabanın hər iki tərəfində səliqə ilə salınmış bağça, çayxana, dükan, cürbəcür məqsədlər üçün tikilmiş müxtəlif növ köşk və s. olub. Bütün küçəyə ziynət verən memarlıq abidələri- məqbərə mavzoleylər, məscid və inzibati xarakterli binalar da varmış. Böyük şair Əlişir Nəvainin bağı və bütün şərqdə tanınan memarlıq ansambılı - Musəllə də burda imiş. Bir neçə əsr ərzində Xiyaban çoxlu dini mərasim, təntənələr və s. görmüşdür. Müxtəlif növ şənliklər, gəzintilər də bu küçədə keçirilmişdir.

Heratın ən maraqlı memarlıq abidələrindən biri də adı çəkilən Müsəllədir. O, məscid, mədrəsə və mavzoleydən ibarət kompleks olub. Gövhər şadın sifarişi ilə İranın məşhur memarı Qəvaməddinin başçılığı ilə 1418- ci ildə kompleksin tikintisinə başlanıb və 1438- ci ildə tamamlanıb. Müsəllə məscidi əsasən iki islam bayramları- qurban fitrdən- ötrü inşa edilib. "Bayram məscidi" adlansa da bəzi hallarda cümə məscidi rolunu da oynayırmış.

Məhz bu səbəbdən də böyük ölçülərə malik inşa olunmuşdur. Onun xarici perimetri 106 x 64 m, həyət üzrə isə 52 x 49 m imiş. Abidənin dörd güncünün hər birindən bünövrəsi səkkizbücaqlı olan minarə ucalırmış, həyətə baxan fasad ikimərtəbəli tağlı binalardan ibarət imiş.

Əsas ox boyunca üzü müsəlmanların qibləsinə- Məkkəyə sarı baxan böyük ölçülərə malik məqsurə adlı tikili olub. Onun ətrafında isə gümbəzli binalar yerləşərmiş.

Məscidin minarələrinin ikisi bizim dövrümüzə gəlib çatıb. Onların qaməti ilk baxışdan diqqəti cəlb edir. Cismi konusvaridir. Birinci və ikinci hissələr arasında güldəstə adlanan stalaktik halqa da vardır. Minarələr müxtəlif formalı, rəngli şəbəkə və naxışlarla bəzədilmişdir.



*Herat*

Müsəllədən şimal tərəfdə Govhərşad (Govhərşad Şahruxun arvadı idi) mədrəsəsi inşa edilib. Binanın girişində qamətli, gözəl tağlı portal olub. Həddən artıq zərif təsir bağışlayan və üç hissədən ibarət minarələr onun günclərində ucaldılmışdır. Əsasən kvadrat şəkildə olmuş həyət boyunca ikiyaruslu hücrələr inşa edilibmiş.

Mədrəsələrin minarəsi çox ucadır. Ümumi hündürlüyü 50 m çatır. Gövdələrinin hissələri də tənasübdür.

Qeyd olunduğu kimi Əlişir Nəvai Heratın çiçəklənməsində həm dövlət xadimi, həm də mədəniyyət hamisi kimi böyük rol oynamışdır. Türkdilli xalqların ən böyük şairlərindən sayılan bu görkəmli insanın məqbərəsi adının və əməklərinin böyüklüyünə uyğun gəlməsə də, özündən sonra qoyub getdiyi əsərlər- həm bədii, həm memarlıq abidələri onu ölməzlər sırasına çıxarmışdır. Əlişir Nəvainin bilvasitə rəhbərliyi altında inşa edilmiş və Heratın bəzəyi sayılan ansambl İxlasiyyə adı altında tarixə daxil olmuşdur. O, Xiyabandan bir qədər aralı, İncil adlı suvarma kanalının sahilində, Müsəllə abidələri kompleksi ilə üzbəüz inşa edilmişdir. Özü də Müsəllə ilə həm gözəlliyi, həm də tərkibinə daxil olan binaların sayı və yaraşığı ilə rəqabət apara bilmişdir. İxlasiyyə kompleksi Xalasiyyə adlı mədrəsə - xanegah binasından, Qudsiyyə adlı məscidindən Safaiyyə adlı hamamxanadan, Şəfaiyyə adlı xəstəxanadan, Ünsiyyət adlı yaşayış binalarından və s. ibarət imiş. Göründüyü kimi, bu tikililər ictimai- faydalı məqsədlərə xidmət edirdi. Onlar çox zaman maarif-mədəniyyət ocaqları kimi fəaliyyət göstərir, elmin, incəsənətin yayılmasında böyük rol oynayırdılar. Xanegah təkcə sufilərin daldalandığı sığınacaq olmayıb; o öz qoynunda şair və alimlərə də yer vermişdir. Bəzi mənbələr bu mədrəsə otaqlarında dəyərli elmi axtarışların aparıldığını qeyd edirlər.





Xəstəxana binası müalicə ocağı olmaqla yanaşı, dövrünün böyük tibb alimlərinin tədqiqat apardıqları elmi mərkəz olmuşdur. Bütün bu deyilənlər və həmçinin Ə. Nəvainin digər çoxlu xidmətləri onun nə üçün bu qədər ehtiram qazandığına ən yaxşı sübutdur.

XV əsrdə teymurilər hakimiyyətinin Əfqanıstan ərazisində tikdirdiyi görkəmli memarlıq ansamblları ilk növbədə məşhur sənətkar Qavaməddin Şirazinin adı ilə bağlıdır. Cavanlığında Şərqi İranın məşhur şəhərində şiə müsəlmanların müqəddəslərindən olan imam Rzanın qəbri üzərində yaratdığı məqbərə memara böyük şöhrət qazandırır. Sonra, Herata gətirilir və teymurilər sarayında baş memar vəzifəsinə təyin edilir. Bəzi məlumatlar XV əsrin I yarısında Heratda tikilmiş görkəmli abidələrin böyük əksəriyyətinin ya onun layihəsi əsasında ya da bilvasitə iştirakı ilə tikildiyini qeyd edirlər. Dövrünün ən yaxşı memarlıq ansambllarından sayılan Gövhər şad, Müsəllə, Abdulla Ənsarinin mavzoleyi və s. məhz sənətkarın əməyinin məhsulu kimi qiymətləndirilir.

Səmərqəndin abadlaşdırılmasında da olduğu kimi inşaat işlərində də qonşu ölkələrin, o cümlədən Azərbaycanın məşhur sənətkarlarının çalışdığı da tarixi faktlardır. Məsələn, Xorasan abidələrinin ən məsul və yüksək zövq tələb edən işini, binaların daxili və xarici dekorativ tərtibatını Xoca Əli Hafiz Təbrizi adlı sənətkar görərmiş. Dəqiq elmi axtarışlar inanırıq ki, çoxlu azərbaycanlı sənətkarın adını aşkar edə biləcək və xalqına tanıtdıracaqdır.



*Herat*

# QƏZNƏ

Qəznənin haqqında az məlumat vardır. İstərxi Qəznəni Sistan və ona tabe olan yerlərlə birlikdə 2 hissəyə ayırıb deyir:

1 çayı vardır, amma bağı yoxdur. Bəlxin ətrafındakı şəhərlərin hamısı ticarət nöqteyi nəzərindən çox inkişaf etmişdir və rövnəqli bir yerdir.



*Qəznəvilər sarayı – XII əsr*

İbn Hövqəl Qəznənin ticarət mərkəzi olduğuna işarə ilə təkrar edir ki, Qəznə bağsız şəhərlərdən biridir. Amma çayı vardır, Qəznə ticarət və sərvət baxımından inkişaf etmişdir, buna səbəb Hindistana yaxın yerləşməsidir. Amma bu şəhər hicri qəmərinin 5- ci ilində (626- 627) Hacub ora gəlib oranı özünə ordu düşərgəsi etdiyi zaman, tamamilə dəyişilmişdir. Sultan Mahmud Qəznəvi (998- 1030) hind səfərindən qayıtdıqdan sonra Qəznəni özünə paytaxt seçmişdi. O, şəhərin tikilib abadlaşmasına böyük əhəmiyyət verdi. Və bundan sonra şəhər qəznəvilərin paytaxtı oldu və bütün şərq ölkələri arasında cah- cəlalı, gözə dəyimli binaları ilə şöhrətini qoruyub saxladı. Lakin Sultan Əlaəddin Quri Qəznəvi şahlarından olan Bəhram şahdan qardaşının qan intiqamını almaq üçün 544- cü ildə şəhəri alıb yandırdı və ondan sonra Qəznə şəhəri öz gözəlliyini itirdi. Əlaəddinin qəzəbindən salamat qalmış yalnız Sultan Mahmud Qəznəvinin məqbərəsi bir neçə ildən sonra viran olmuşdur.

X əsrin əvvəllərindən Əfqanıstan faktiki olaraq Abbasi xilafətindən ayrılır və müstəqil feodal- sultanlıqlara bölünür. Burada müxtəlif dövrlərdə X əsrdən XIII əsrədək Samanilər, Qəznəvilər, Səlcuqlar, Qurilər sülaləsi hakimiyyətdə olur.





Mütəxəssislər bu sülalələrin dövrünün və o cümlədən ellin incəsənətinin nailiyyətlərini tədqiq edərkən Qəznəvilər hakimiyyətinə (962-1161) xüsusi diqqət verirlər. Qüvvətli qəznəvi Mahmud ibn Səbuktekinin qonşu torpaqları zəbt etməsi və dövlətinin sərhədlərini Hindistandan Xarəzmə qədər genişləndirməsi sübut edir ki, tutulan torpaqlardan və hərbi yürüşlərdən əldə edilən küllü miqdarda gəlir paytaxt Qəznənin abadlaşdırılmasına böyük təsir edir. Tikilən zəngin saraylar, sultanın və yaxın adamlarının dəbdəbəli həyatı, əldə olunan hərbi qənimətlər və əhalidən zorla alınan vergilər hesabına mümkün olmuşdur.

Əlbəttə, Qəznənin müasir mənzərəsi əyalət şəhərlərinin tipik nümunəsi görkəmindədir və o bir vaxtlar güсgü dövlətin çiçəklənən paytaxtı olduğu haqqında düzgün təsəvvür yarada bilmir. Orta əsrlərdəki Şərqin bir çox ölkələrini və şəhərlərini viranəliyə çevirmiş monqol basqınları bu məşhur paytaxtı da uçurub dağıdır. XV əsrdə Qəznəni görən digər məşhur türk hökmdarı Böyük Moğollar sülaləsinin banisi Zahirəddin Babur da uçub-dağılmış və deməli öz əvvəlki əzamətini itirmiş şəhərin hansı cəhətinin Qəznəvilər üçün əziz olduğunu və belə yerin nə üçün dövlətə paytaxt seçildiyini anlamayaraq heyrətlənmişdir.

Qəznənin ümumi mənzərəsinə cəlincə ilk növbədə diqqəti təpəlikdə yerləşən qala cəlb edir. Onun ətrafında isə şəhərin yerli əhalinin təbiri ilə deyilsə "Şəhristan" yerləşir. Yer darısqal olduğundan, yaxud başqa səbəbdənsə küçələr ensiz və qısadır, əsasən bir qapıdan başqa qapıyadək uzanır. Şəhərdə ağac və bitki demək olar ki, gözə dəymir. Evlərin əksəriyyəti iki mərtəbəlidir. Hərdən üç mərtəbəlisi də gözə dəyir. Evlərin fasad hissəsi sadə və yaraşıqsızdır; tək- tək pəncərələrə malik olur. Damlarda isə balkonlar inşa edilmişdir. Əksər hallarda birinci mərtəbələrdə dükanlar, sənətkar emalatxanaları, kafe və s. yerləşir.

Qalanın nəhəng, qorxu yaradan divarları onu əsas şəhərdən ayırır. Kənarında xəndəklər vardır. Qala divarları əsasən bişmiş və ya çiy kərpicdən inşa edilmişdir. Yarımdairəvi qüllələr müəyyən məsafələrin sonunda yerləşdirilmişdir və digər divarın təxminən 15- 20 m hündürlüyədək qalxır.

Əksər şərq şəhərlərində olduğu kimi, Qəznənin də ətraf qəsəbələri - onlara rabat deyirlər - olmuşdur. Sülalənin hakimiyyəti gücləndiyi əsrlərdə (X- XII) bu qəsəbələrdə ətraf ərazilərdən bəzən zorla, bəzənsə ehtiyac üzündən köçürülüb gətirilən sənətkarlar, xırda tacirlər və xidmət işlərində çalışanlar yaşamışlar. Rabatlar dövlətin müxtəlif yerlərindən gələn əhalinin əsas alqı- satqı mərkəzi olmuşdur. Onun meydançaları vaxtaşırı düzəldilən yarmarkalar və ticarət üçün bazar rolunu, oynamışdır.

Rabatlarda, həmçinin, dövlətin ən məsul xadimlərinin istirahət evləri, bağları və s. inşa edilərmiş. Qəsəbələrdə bəzən əyan və sərkərdələrin mavzoleylərinə və s. xüsusi tikililərə də rast gəlmək olar. Əfqanıstan tarixi ilə məşğul olan mütəxəssislərin fikrincə Qəznəvi hökmdarları əsas var-dövlətlərini qalada və Şəhristanda yerləşdirməkdən daha çox rabatalarda inşa etdirdikləri saraylara sərf edirmişlər.

Qəznənin ən məşhur abidələrindən biri də Mahmudun 1018- ci ildə Hindistana etdiyi 12- ci hərbi yürüşdən sonra inşa etdirdiyi nəhəg məscid mədrəsəsidir. Qəznə yaxınlığında III Məsudun adı ilə bağlı qüllə də (1098-1115) diqqəti cəlb edir, həmçinin Qəznə yaxınlığındakı Bəhram qülləsi də (1117- 1153) maraqlı abidələrdən biridir. Səbuktəkinin və xüsusi ilə Sultan Mahmudun mavzoleyləri əfqan incəsənətini öyrənmək üçün ən layiqli nümunələrdir.

## SURX- KOTAL

B. e. əvvəl 330- 327- ci illərdə Makedonyalı İsgəndər müasir Əfqanıstanın ərazisində yerləşən müxtəlif qəbilə birləşmələrini, ayrı- ayrı xırda əmirlikləri "mühərrik sürətilə" məğlub edib özünün ucu- bucağı bilinməyən dövlətinin tərkibinə qatır. Vahid, güclü dövlətin yaratdığı obyektiv müsbət şərait ticarətin genişlənməsi, məhsuldar qüvvələrin inkişaf etmək imkanları və həmçinin, yüksək ellin mədəniyyətindən bəhrələnmək üçün lazımi şəraitin yaranması Əfqanıstanın yaradıcı qüvvələrinə yaxşı təsir edir. Təxminən 100 ildən çox (b.e.əvvəl III əsrdən) əfqan incəsənətində ellin ənənələri açıq- aydın duyulur. O dövrdən qalma və arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş bir sıra maddi mədəniyyət nümunələrində, xüsusilə numizmatikada ellin mədəniyyətinin təsiri çox güclüdür.

B. e. əvvəl Yunan- Baktriya çarlığının zəifliyindən istifadə edən, alimlərin mənşəcə türk hesab atdikləri, dil etibarilə hind- avropa dillərində danışan Yuci adlı tayfa birlikləri kütləvi axınla şimaldan Əfqanıstana soxuldular. Onların ən qüvvətlisi- Kuşanlar b.e.əvvəl I əsrdə qalan qəbilələri və vilayətləri özlərinə tabe etdirərək güclü imperiya yaradırlar. Bu sülalə ən qüvvətli dövrünü I- III əsrlərdə keçirmişdir. O zaman Kuşan imperiyası öz böyüklüyü və gücü etibarilə yalnız Roma, Parfiya və Çinin Xan dövlətləri ilə müqayisə edilə bilərdi. III- Vəsrlərdə Kuşan dövləti tənəzzül edir və müxtəlif köçəri tayfaların hücumunun qarşısında müqavimət göstərə





bilməyərək məğlubiyyətə uğrayır.

Kuşan dövrü mədəniyyəti ölkədə buddizmin yayılması ilə bağlı olaraq güclü hind təsirinə məruz qalması ilə xarakterizə edilir. Ölkə ərazisində tikilən çoxlu buddizm məbədləri, dini təbliğat mərkəzləri və s. bu fikirləri söyləməyə əsas vermişdir. Bu əsərlərdə həmçinin qonşu İranın yenidən dirçələn və get- gedə qüvvətlənən Sasani təsiri inkar edilməzdir.

O dövrün maddi mədəniyyətinin ən yaxşı nümunələrindən biri Kabuldan Məzari- Şərifə gedən yolun yanındakı indi və maraq doğuran Surx- Kotal adlı abidədir. Onun yaradılması Kuşan çarlarının fəaliyyətinin məhsulu kimi meydana çıxmışdır. Surx- Kotal dini, müqəddəs mərkəz olmuşdur.

Aşkar edilən yazıda göstərilir ki, məşhur çar Kanişa ruhunu təkr etməməsi və tikdirdiyi akropolun heç vaxt boş qalmaması üçün, onun ətrafına hasar çəkdirmiş, su ilə təchiz etmiş və s. abadlıq işləri aparmışdır.

Alimlərin ehtimalına görə Surx- Kotal Kuşan sülaləsindən olan çarlar üçün ata- baba məbədi rolunu oynamışdır. Bir çox məlumatlar onun I əsrdə tikilib qurtardığını göstərir.

Binanın inşasında əsas material kərpic olmuşdur. Amma özül hissəsində iri daş bloklar və plitələri işlədilib. Sütunların iki ucunda daş hissələr qoyulsa da özül ağacdan olmuşdur. Müqəddəs sayılan mərkəzi hissəyə işıq, tavanı təşkil edən və biri - birilə kəsişən tirlərin arasından, pyuku adlanan yerdən düşərmiş.

Surx- Kotalda aparılan arxeoloji tədqiqatlar o dövrdə yunan- roma memarlıq ənənələrinin bu ölkədə necə geniş yayıldığını bir daha sübut etmişdir. Aşkar edilən daş kapitelın mərkəzindəki insan fiquru və s. detallar, həmçinin əhəngdaşından yonulmun heykəl faizinin üzərində həkk edilən amurlar deyilənlərə nümunədir. Qeyd olunmalıdır ki, bu cür memarlıq detalları təkcə Əfqanıstan ərazisində yox, Orta Asiyanın əksər rayonlarında da geniş intişar tapmışdı. Hətta onların Şimali Hindistana və Çinə qədər yayıldığı göstərilir.

Surx- Kotal ətraf rayonlardan müəyyən qədər yüksəklikdə duran, süni təpəliyin üzərində tikilibmiş. Ümumi xarici görkəmi baxımından o, ellin - roma məbədlərindən köklü surətdə fərqlənir. Ətrafı hündür qala divarları kimi yüksək hasarla əhatə edilibmiş. Dəqiq simmetriyaya malik pilləkənlər həyətə açılan qapıyacan uzanıbmış, həyətin daxilində bir sıra sütunlar varmış. Sütunlar sırası elə qurulubmuş ki, mərkəzi hissəsində xüsusi dini bayramlar, çar nəslinə aid edilən müxtəlif növ mərasimlər keçirmək üçün müqəddəs yer qalsın. Sütunlar sırası roma ənənələrindən fərqli olaraq içəri hissəyə baxırmış. Belə kompozisiya həlli Kuşanlar üçün siyasi- iqtisadi

vəziyyətlə əlaqədar olub. Məsələ burasındadır ki, quldarlıq quruluşunun son mərhələsində yaşayan Kuşan imperiyasında ictimai ziddiyyətlər, yoxsullarla, daha doğrusu dilənçi vəziyyətində yaşayanlarla həddən artıq varlanmışlar arasında çox böyük uçurum mövcud olmuşdur. Odur ki, bir ovuc varlıya xidmət etmək üçün yaradılan Surx- Kotalın daxili tərtibatı kənar gözlərdən gizli saxlanılmalıydı. Məbədin belə quruluşu da bu sinfi ziddiyyətlərin təsirilə əlaqədar həyata keçirilib.

Mütəxəssislər Surx- Kotalın ümumi mənzərəsini bilərəkdən ellinləşdirilməsini Qərb alimlərinin qeyri- obyektiv rəyi ilə bağlayırlar. Bu abidədə, həmçinin, sonradan əfqan mədəniyyətində güclü iz buraxmış hind təsirinin olmadığını da qeyd edirlər. Beləliklə, məlum olur ki, Surx- Kotal yerli əfqan sənətinin ən bariz nümunələrindən biri kimi meydana gəlmişdir.

## BƏLX

Əfqanıstanın orta əsrlərdə tərəqqidə olmuş şəhərlərindən biri də Bəlx idi. O da öz dövrünün mühüm ticarət və iqtisadi mərkəzləri- Qəznə, Kabul, Herat və s. kimi Hindistandan Orta Asiyaya və Şərqə sarı uzanan yolların üzərində yerləşdiyindən, ətrafında gözəl kənd təsərrüfatı məhsulları yetişdirmək üçün yaxşı torpaqlar və abad kəndlər olduğundan uzun əsrlər boyu çiçəklənmişdir.

Qədim Bəlx özünün əvvəlki planını ölkə islamlaşdıqdan sonra da dəyişməyərək yaxşı saxlayıbmış. Amma islam dini Əfqanıstanda yayılıb möhkəmləndikdən sonra, şəhərin forması çox dəyişilib. Şəhərin ətrafında müdafiə məqsədləri üçün salınmış torpaq val olub, daxili hissə isə möhkəm qala hasarları ilə əhatə edilibmiş. Amma qala divarlarının yanında müdafiə xəndəkləri qazıldığı qeyd olunmur. Şəhərin ətraf qəsəbələri - rabatlar da qala hasarları ilə möhkəmləndirilibmiş. Əksər Şərq rabatlarında olduğu kimi burada da çoxlu gözəl imarətlər, bağ və bostanlar salınıbmış.

Bəlx də digər Şərq şəhərləri kimi kvartallara, yəni şərq termini ilə deyilsə məhəllələrə bölünübmüş. Hər bir məhəllədə müəyyən sənətlə məşğul olan sənətkarlar, yaxud peşə və ticarətdə çalışan adamlar məskən salıbmış. Bir sıra hallarda da hər bir məhəllənin öz müdafiə hasarı, ayrı darvazası və s. varmış. Hətta gecələr hər bir məhəllənin darvazasının xüsusi keşikçilər tərəfindən qorunduğu da qeyd olunur.







*Bəlx – Məzari - Şərif*

Ərəblər Əfqanıstanı istila etdikdən sonra ölkədə islam dini mərkəzlərinin, ilk növbədə məscid və minarələrin inşasına başlanılır. Tezliklə islam mərkəzində iri ibadətxananın, məscidin tikintisi başa çatır. O, şəhərin qaynar yerində alış - veriş, gediş - gəliş olan rayonunda inşa edilibmiş. X əsrdə Bəlxdə olmuş məşhur coğrafiyaşünas Əl - Müqəddəsi belə yazır: "Bəlx səfalı, ürəkaçan və gözəl şəhərdir. O, Xorasanın cənnət guşəsidir. Başqalarından ən çox Əlcəzairin Taxartına və Suriyanın Dəməşqinə oxşayır. Onun küçələrini kanalları kəsir, yan tərəfində çoxlu bağ- bağça var. Şəhərdə elm çox tərəqqi edib, burda alimlər böyük hörmət və şöhrət sahibidirlər. ...Şəhərin camaatı ədəblidir, evləri genişdir, bazarları nemətlə boldur, şəhərin məhsulları tərifəlayiqdir, yaşayış ləvazimatı ucuzdur, suyu yaxşıdır...O, Sindlə ticarətin mərkəzidir, Xorasanın məğrur evladıdır...Fars əyalətlərində onun Cümə məscidinə tay ola bilən məscid tapmaq olmaz. Şərqdə ona bərabər şəhər yoxdur"...

Bununla belə məşhur səyyah Bəlxin bir qədər qəmgin təsir bağışladığını, şəhərdə çoxlu dedi- qodu yayıldığını, bəlxlilərin mahir fitnəkar olduqlarını da qeyd edir. Sonra yazır: "... Ərazisi baxımından, o, Buxara qədər olar, amma evləri Bağdad evləri kimi cenişdir. Orda divarlara tərtibatı bəzən gibsdən hazırlayırlar. Cümə məscidi bazarların ortasındadır,

ora pilləkənlərlə enirlər. Məscid abad və gözəldir, ağac şəbəkələrlə bəzədilmişdir".

Tarixi məlumatlar göstərir ki, gözəl şəhər olmuş Bəlx XIII əsrədək, yəni monqol basqınlarınadək inkişaf etmişdir. Amma monqol orduları onu yerlə yeksan ediblər.

Şəhərin ümumi planlaşdırılmasından danışan mənbələr iki biri- birilə kəsişən magistral küçəni qeyd edirlər. Hər iki xiyabanda çoxlu ticarət, xidmət və s. köşkləri olub.

Küçələrin kəsişdiyi yer isə üzərində kümbəzi olan xüsusi formalı binadan ibarət imiş.

Bəlx uzun əsrlər boyu Xorasanın ən böyük, zəngin və şöhrətli şəhəri olmuşdur. Şəhərin ətrafındakı bərəkətli zəmilər olduğu üçün o Xorasanın, ən böyük, zəngin və şöhrətli şəhəri sayılmışdır, taxılı həm Xorasanı, həm də Xarəzmi təmin elərmiş. Orta əsrlər mənbələri bu gözəl şəhərə "parlaq", "qeyri- adi" epitetini vermişdir.

Orta əsrlərdə Bəlxin çoxlu tarixi abidələri içərisində müəlliflər məşhur Cami- məscidi daha çox tərifələmişdir. Başqa mühüm tikililərdən dövrümüzə gəlib çatmış və şəhərin yaxınlığında yerləşən minarəni (1108-1109-ci illər) xüsusi qeyd etmək lazımdır. Məzari - Şərifdə yerləşən memarlıq kompleksi Əfqanıstanın ən məşhur abidələrini sayılır. Həmçinin məşhur şeyx Əbu Nəsr Parsın mavzoleyi də (1460- 1461) diqqəti cəlb edir.

Bəlx yaxınlığında ən yaxşı saxlanılmış abidələrdən biri Məzari - Şərif adıyla tarixə daxil olan mavzoley binasıdır. XII əsrdə, Sultan Səncərin hakimiyyəti zamanı şərqi Xorasanın şiə əhalisi arasında şaiyə yayılır ki, imam Əlinin qəbri Bəlxdən bir qədər aralıda aşkar edilib. Sultan Səncər hakimiyyətini möhkəmləndirmək məqsədilə qəbrin üzərində layiqli məqbərə inşa etdirir. Amma monqol hücumu zamanı məqbərə dağıdılır. XII əsrdə Xorasan vilayətində şiələrin nüfuzu yenidən gücləndiyi zaman məqbərəyə diqqət artır. Sultan Hüseyn məqbərəni yenidən qurmağa sərəncam verir. 1480- ci ildə mavzoley binası təntənəli surətdə əhaliyə təqdim edilir. Amma bir il sonra dövrümüzə gəlib çatan və çox yaxşı saxlanan mavzoley binası, Məzari- Şərif adıyla tanınan abidə tikilib tamamlanır. O, şiə müsəlmanların ziyarət etdiyi dini ocaqlardan biri kimi fəaliyyət göstərir.





# BAMİAN

Bamian vadisi Hindiquş və Kuxi- baba dağ silsilələri arasında yerləşir və ən qədim zamanlardan mühüm ticarət və strateji maqistralların keçib getdiyi yer olmuşdur. Vadidən adlayan məşhur karvan yolu Kabulistana, oradan da Hindistanadək uzanır. Vadinin kənarından başlayan təpəliklər get - gedə sıldırım dərəliklərə çevrilir. Vadinin özündə isə təbii sellərin təsirindən yaranmış düzənlik meydanı xatırladır. Sıldırım qayalarda saysız - hesabsız mağaralar mövcuddur ki, onların böyük əksəriyyəti insan əməyinin məhsuludur.



*Bamian – Buddanın heykəli*

Bu mağara məbədlər içərisində qədim budda monastırı xüsusi diqqəti cəlb edir. Tarixi mənbələr onun yaradılmasını Kuşan dövlətinin qüvvətli dövrünə, Kaniya adlı çarın quruculuq fəaliyyətinə aid edirlər. Ətrafındakı qalan memarlıq abidələri və təsviri sənət nümunələri isə V- VII əsrlərdə tamamlanmışdır. Bu monastır Əfqanıstan ərazisində buddizmin ən böyük mərkəzi olmuşdur. Onun güclü təbliğat vasitələrinə, xüsusi torpaq sahələrinə malik olduğu qeyd olunur. Monastırın personalı həmçinin yaxşı ticarət imkanlarından istifadə edərək ticarət faktoriyaları da yaratmışlar.

Mağara- monastır qədim çöküntülərdən yaranmış qayalıqda düzəldilmişdir. Min beş yüz ildən artıq bir müddətdə Bamian vadisində əsən şiddətli küləklər onun bir hissəsini uçurub dağıtmışdır. Daxili hissədə, bəzi hallarda sayı altıya çatan yaruslar biri- digərinin üstündə yerləşmişdir. Ortalıqda iki nəhəng taxçada Buddanın iki iri heykəli yonulmuşdur. Taxçaların bünövrəsi bir növ paylayıcı dəhliz funksiyasını yerinə yetirir. Ordan çoxlu keçidlər müxtəlif məqsədlər üçün düzəldilmiş və müxtəif yüksəkliklərdə yerləşən otaqlarla birləşmişdir.

Yaşayış üçün düzəldilmiş otaqlar- hücrələrin tərtibatı sadə və adidir, həm döşəmə, həm də tavanlar hamar və naxışsızdır. Monastırın nizamnaməsi üzvlərdən asket həyat sürməyi tələb etdiyi üçün belə yaşayış məskənləri qurulmuşdur. Lakin ictimai xarakterli binaların, buddizmə aid qənimət, hədiyyə və s. saxlanılan otaqların tərtibatı daha zəngindir.

53 m hündürlüyündə olan Budda heykəlinin özülündə yerləşən bir nömrəli iqamətgahın interyeri dövrün xüsusiyyətlərini öyrənmək üçün maraqlıdır. Onun plafonu künbəz formasındadır, dərin, altıguşəli kessonlar işlənmişdir. Mütəxəssislər bu konstrukpiyanı şərqi Roma memarlığı üçün səciyyəvi hal sayılar. Misal üçün Bəəlbəkdəki Baxus məbədində də belə xüsusiyyət aşkar edilmişdir.

Ümumiyyətlə Kuşan dövlətinin Roma imperiyası ilə müxtəif sahələrdəki geniş əlaqələri çoxlu tarixi qaynaqlar tərəfindən təsbiq olunmuşdur.

Əfqanıstanla həmsərhəd ölkə və mədəniyyət regionlarının, ilk növbədə Hindistan və İranın memarlıq sahəsindəki təsiri həm binaların quruluşuna - məsələn, kümbəzformalı tavanların birləşməsində, həm də əksəriyyət etibarilə bədii tərtibatda özünü göstərmişdir. İran təsirindən danışarkən ən çox İranın Sasanilər hakimiyyəti dövrünün (əsasən V- VI əsrlər) incəsənətinin yüksək nailiyyətləri nəzərə alınır.

Bamian mağara məbədləri ilkin variantlarında çoxlu heykəl, yarımheykəl, rəngsazlıq elementləri ilə bəzədilmiş, həm də memarlıq, heykəltaraşlıq və rəngkarlıq üzvü vəhdətdə biri digərini tamamlamışdır. Heykəllərdən danışarkən Buddanın iki adı çəkilən nəhəng heykəlindən başqa üçüncü - oturan Buddanın yarımçıq qalmış abidəsini də qeyd etmək lazımdır. Məbədlərin daxili tərtibatında iştirak etmiş heykəltaraşlıq elementləri, tarixçi və sənətşünas alimlərin dediyinə görə, heç bir bütü qəbul etməyən islam fanatikləri tərəfindən məhv edilmişdir.

Divarlara, tavana, tağlara çəkilmiş şəkillər də çox pis vəziyyətdədir. Onlar, adət üzrə divara mineral boyalarla vurularmış. Parlaq qırmızı, çəhrayı - mavi rəngləri, şəkilləri sevinc, şənlik ruhu yaradırmış. Daxili tərtibatda bizim eranın əvvəllərində hətta Romanın özündə belə yüksək qiymətləndirilən Bədəxşan lazuritinin işlədilməsi qeyd olunur.

Bamian məbədlərinin rəngkarlıq üslubunda, mütəxəssislərin fikrincə əvvəlki üslub duyulsa da, o daha çox yaranmaqda olan yerli rəngkarlıq məktəbini təmsil edir.

Əfqanıstanı hər yanda şöhrətləndirən bu abidələr təbii qayalardan yonulmuşdur. Bəzi mənbələrin verdiyi məlumatlar söyləyir ki, heykəllərin üzəri qızıl təbəqə ilə örtülübmüş. Böyük Buddanın taxçası Bodisatvanı





(budda allahı) təsvir edən yazılarla bəzədilibmiş. Dövrümüzə gəlib çatmış bu iki Buddadan əlavə "uzanmış Budda" da olub. Bir sıra məlumatlarda onun uzunluğu 300 m- dir; onlar tarixən ellin mədəniyyətini buddizmlə birləşdirir. Onlarda qədim Yunan və Misir mədəniyyəti elementlərinə də rast gəlinir. Bamianın dünyanın digər məbədlərinə- Tibet və Qobidə yerləşənlərə, Acanta məbələrinə- estetik təsiri olmuşdur. Əfqanıstan VII- VIII əsrlərdə ərəblər tərəfindən istila edilib islamlaşsada buddizm Bamianda XII- XIII əsrlərədək yaşamışdır.

Buddanın heykəlləri bir neçə nəsil tərəfindən yonulub hazırlanıb. Bütöv qayadan bədən və özül yonmaq lazım imiş. Heykəli palçıqla suvamaq, lazımi formaya salmaq, sonra isə hamarlamaq gərək idi. Sonra rəngləmək və yüksəklikdə tağlar düzəltmək tələb olunurdu.

Ümumiyyətlə Bamiyan çayı hövzəsində yerləşən sayı iki mindən çox olan mağara məbədlərdən ibarət nəhəng kompleks tarix etibarilə 5- 6 əsrdə hazırlanıb başa gəlmişdir (b.e. I-VI əsrləri). Onlar təbii əhəng süxurlarından ibarət qayalarda 3- 5 mərtəbədə yonulub düzəldilmişdir. Haqqında danışılan Budda heykəlləri bu ansamblın mərkəzi fiqurlarını təşkil edirmiş. Bəzi alimlərin fikrincə Buddaya ilk dəfə heykəl məhz Əfqanıstan ərazisində qoyulub.

Bamian vadisində həmçinin məşhur antik dövrün yadigarı "şərh- e qol-qole" qalası yerləşir. O bir vaxtlar monqollar tərəfindən dağıdılıb. Bundan əlavə "qırmızı şəhər" adlanan, divarları, bürcü tünd qırmızı rəngli qala da buradadır. O, da bir vaxtlar monqolların əlilə yerlə yeksan olunmuşdur.

# İRAN

Müasir İran dövlətinin ərazisi bəşər sivilizasiyasının ən qədim mərkəzlərindən biri sayılır. B.e.əvvəl IV minillikdə burda əkinçilik yaxşı inkişaf etmişdi. İlk metal alətləri b.e. 6500 il əvvəl yaradılmışdı. B.e.əvvəl III minillikdə İranın cənub - qərb hissəsində kiçik dövlətlər yaranır. Sonra quldarlıq quruluşuna əsaslanan Elam çarlığı meydana gəlir. Bu dövlətin ən qüdrətli dövrü b.e.əvvəl XIII- XII əsrlərə təsadüf edir. Elam mədəniyyəti özündən daha əvvəl yaradılmış böyük Şumer və Akkad mədəniyyətlərinin güclü təsirinə məruz qalmışdır. Yeni Elam Babil çarlığı ilə ittifaqda güclü Assuri dövlətinə qarşı vuruşsa da b. e. əvvəl 639- cu ildə məğlub edilmişdir. B. e. əvvəl Azərbaycan ərazisində yerləşmiş güclü Midiya dövləti tərəfindən zəbt olunmuşdur.



***Həmədan – Ələviyan gümbəzi***

Müasir İranın müəyyən bir qismini tutmuş, əsasən Azərbaycan torpaqlarında yaranmış Midiya çarlığı b. e. əvvəl VII əsrin sonlarında altı böyük qəbilənin hərbi- siyasi ittaqı nəticəsində meydana gəlmişdi. Midiya əhalisi qismən maldarlıqla, qismənsə əkinçiliklə məşğul olarmış. Midiya dövlətini yaratmış qəbilələrin mənşəyi məsələsi üzərində ciddi mübahisələr





gedir. Paniranistlər onların altısının da irandilli olduğunu iddia edirlər. Alimlərin bir qrupu isə qəbilələrin yarısının türk mənşəli olduğunu söyləyirlər. Midiyanın müasir ərazisində arxeoloji qazıntıların aparılması, regionun maddi mədəniyyət abidələrinin yerli- yataqlı öyrənilməsi bu işin elmi həllinə kömək edərdi. Maraqlıdır ki, bu elmi (müəyyən mənada isə siyasi) problemin düzgün, tarixi faktlar əsasında həll edilməsinə mane olan, Midiyanın qədim əhalisinin mənşəyini öz istədikləri kimi yozan paniranistlər və mürtəce hökümət dairələri olmuşdur.

İranın digər əsas etnik qrupunun- farsların və digər irandilli xalqların ulu babaların- dil etibarilə hind- avropa qrupuna mənsub olanların- İran ərazilərinə köç etmələrinin tarixini eradan əvvəl 2000-ci ildən bəri sayırlar. Onlar bir fərziyəyə görə keçmiş SSRİ- nin Avropa hissəsinin mərkəzindən, başqa bir fərziyyə görə Xəzər- Ural ətraflarından, yaxud Mərkəzi Asiyadan gəliblər. Özlərini ari adlandıran bu qəbilələr əsasən maldarlıqla məşğul olarmışlar.

B.ə.əvvəl VII əsrdə irandilli qəbilələr öz ilk dövlətini yaradır. Bu əsri Əhəmənilər sülaləsinin başlanğıcı sayırlar. Sülalənin hakimiyyəti o qədər qüvvətlənir ki, Misirdən tutmuş İranədək bütün əraziləri özünə tabe etdirir. Əhəmənilər bir neçə dəfə Dardanel boğazınadək gedib çatmışdılar. Amma Makedoniyalı İskəndər İranın şimalında, Plutarxın yazdığına görə "Böyük müharibə"də (b. e. əvvəl 334- cü il) Əhəmənilər qoşunlarını darmadağın edir. Dövlət süquta uğrayır. Sonra İran əvvəlcə Selevkilər dövlətinə, sonra Parfiya dövlətinə tabe etdirilir.

İranın yeni dirçəlişi bu dəfə Sasanilər sülaləsinin adı ilə bağlıdır. Dövlətin yaradıcısı Artaşir eramızın 224- cü ilində Parfiya hökmdarı V Artabana qalib gəlir və ətraf torpaqları - Beynonnəhreyini, Midiyanı, Atropatenanı, Xorasanı və s. istila edir. Beləliklə, təxminən beş yüz il davam edən Sasani dövləti yaranır.

637- ci ildə Qadisiyyə və 642- ci ildə Nəhavənd vuruşlarında ərəb islam orduları sasani qoşunlarını darmadağın edir. İran, Azərbaycan və s. torpaqlar ərəb xilafətinə tabe olunur. Bundan sonra İran ərazisində bir sıra İran əmirlikləri yaranır. Beləliklə onlardan tahiriləri, səffariləri, samaniləri, ziyariləri göstərmək olar. XI əsrdə güclü türk mənşəli Qəznəvilər sülaləsi hakimiyyətə gəlir. O, vaxtdan etibarən İran ərazisində türkdilli xalqlardan çıxmıq müxtəlif siyasi birliklər mühüm rol oynayır.

XI əsrdən etibarən türk- səlcuqların hakimiyyəti başlanır. XII əsrdə İran Xarəzimşahlara tabe etdirilir. 1220- 1222- ci illərdə İran və ətraf torpaqlar üzərinə monqolların birinci yürüşü olmuşdur. 1229- 1230- cu illərin ikinci hücumunda monqollar İranı, İraqı və Azərbaycanı zəbt edirlər. 1256- 1265-

ci illərdə monqol Hülaki xan İranın da böyük hissəsi daxil olmaqla öz dövlətini yaradır. Bu əsrlərdə İranın müəyyən əraziləri müxtəlif atabəylərin hakimiyyətinə tabe etdirilmişdir.

XIII əsrin sonunda İran və ətraf ölkələr teymurilərin tərəfindən istila edilir. Lakin fatehin ölümündən sonra (1405- ci ildə) daxili ixtişaşlar başlanır. İki türk mənşəli dövlət arasında (Ağqoyunlu və Qaraqoyunlu) gedən mübarizədə birincilər qalib gəlir.

Azərbaycanlı Səfəvilər nəslindən olan İsmayıl 1499- cu ildə Ağqoyunlulara qarşı çıxır. Qısa bir tarixi dövr ərzində, o, Azərbaycanı və İranı öz hakimiyyətinə tabe etdirir. Yeni dövlət tarixə Səfəvilər dövləti adı altında daxil olmuşdur. Səfəvilər hakimiyyəti XVIII əsrin 30- cu illərinədək davam etmişdir. Daxili ixtişaşlar və feodal müharibələri nəticəsində digər türk - Azərbaycan mənşəli afşarlar sülaləsi hakimiyyətə gəlir. Sülalənin başçısı Nadirin İran tarixində mühüm rolu olmuşdur.

XVIII əsrin sonlarında İranın başqa bir türk (azərbaycan) qəbilə birliyi - qaçarlar siyasi- hərbi həyatda mühüm işlər görürlər. Feodal müharibələri qaçarların qələbəsi ilə bitir. Bü sülalənin İran üzərində hakimiyyəti 1925- ci ilədək davam etmişdir. O vaxtdan Pəhləvilər sülaləsi İranı idarə edərək bir sıra iqtisadi, mədəni və s. islahatlar keçirmişdir. Pəhləvi xanədanına 1979- cu il fevral inqilabı nəticəsində son qoyulmuşdur.

## ZƏRDÜŞTİLİK

Persopoldan, Əhmənilər sülaləsinin dini ideoloji mərkəzində təxminən 7 km- lik məsafədə Nəqşe- Rüstəm adında nəhəng nekropol var. O, əsasən hündürlüyü 50 m çatan nəhəng qayadan yonulmuş və Əhəməni hökmdarlarından I Daranın (e. ə. 521- 486 illər), I Artakserskin (e. ə. 464- 424 illər), Kserskın (e. ə. 424 illər) və II Daranın (e. ə. 424- 404 illər) qəbirləri yerləşən hissədən qaya ilə üzbəüz tikilmiş və hər yanda Zərdüştün məqbərəsi kimi tanınan xüsusi tikilidən ibarətdir. Əvvəlcədən qeyd olunmalıdır ki, son tədqiqatlar Zərdüştün məhz burada dəfn olunduğunu təsdiq etmir. Alimlərin fikrincə bu tikili zərdüştilik dini ayinlərinin yerinə yetirildiyi ən mühüm mərkəzlərdən biri olmuşdur.

Zərdüştün özü isə tarixi şəxsiyyət kimi qəbul edilir. Bizim eradan əvvəl VII əsrin sonu VI əsrin əvvəllərində yaşadığı güman edilir. Zərdüştilik dininin müqəddəs kitabı olan Avestanın ən qədim hissəsini - qatları (mahnıları) məhz zərdüştün yaratdığı söylənilir.





*İran – İsfahan Nəqşe Cahan*



*Zərdüştün Məqbərəsi*

Bu dini təlim göstərir ki, dünyanı iki başlanğıc- özünü Hörmüzdə tapan xeyir və şərin təmsiliçisi Əhrimən- hərəkət elətdirir. Onların arasında gedən aramsız mübarizədə xeyir qalib gəlir. Amma şərə üstün gəlmək üçün insan öz həyatında aşağıdakı prinsiplərə rəayət etməlidir: "Xeyir haqqında düşünməli, xeyir haqqında danışmalı və xeyirli iş görməlidir". Həmçinin bu dini təlim asketliyi rədd edir. Öz ardıcıllarının maddi təminatının qorunub hifz ediləcəyini söyləyir.

Zərdüştilik o dünyanı təsdiq edir. Və 12 min ildən sonra şərlə xeyirin mübarizəsində sonuncunun təntənəsində iştirak etmək və kainatı məhv olmaqdan xilas etmək üçün göydən xüsusi missiyanın gələcəyini söyləyir. Qeyd olunmalıdır ki, zərdüştiliyin bu fikri sonradan yaranmış dinlərə- iduaizm və xristianlığa- müəyyən təsir göstərmişdir.

Bu din Əhəmənilər dövründən Azəprbaycan ərazisində, İranda, Əfqanıstanda və Orta Asiyanın bəzi rayonlarında yayılsa da öz tərəqqisini ən çox İranın Sasanilər sülaləsi hakimiyyəti dövründə keçirərək, dövlətin hakim dini və əsas ideoloji dayağı olmuşdur. O, göstərilən ərazilərdə az qala 14 əsr davam etmişdir. VII əsrdən başlayaraq yeni təkallahlıq din- islam- tərəfindən get - gedə sıxışdırılmışdır. Ərəb- islam ordularının İranı və Azərbaycanı fəthi islamın yayılması və zərdüştiliyin öz ömrünü başa vurması ilə nəticələnmişdir. Dinin ardıcılları islamın təqiblərindən qaçaraq əlçatmaz yerlərdə məskən salmışlar. Bir qismi isə Hindistana köçüb getmişdir. Hazırda Hindistanda bu dinin ardıcılları milli birliklər şəklində yaşayırlar. İran ərazisində zərdüştilər əksər etibarilə Yəzd və Kirman şəhərlərində yerləşmişdir.

Atəşgahlarda dinin yaradıcısı Zərdüştün surətləri asılırmış. Deyilənə görə bizim edaran bir min il əvvəl din təşəkkül tapır. Zərdüştə görə dünya iki əsas qüvvənin xeyir və şərin mübarizə meydanı, atəş isə müqəddəs əks sayılır.

Avropada Zərdüştün dini əvvəllər az tanınıb. Keçən əsrin sonlarında





məşhur alman filosofu Nitsşe özünün məşhur "Fövqəladə adam" konsepsiyasını hazırlayarkən müəyyən mənada bu fəlsəfəyə əsaslanıb. Sonradan nasistlər zərdüştilərdən günəş simvolu olan sevastikanı (su- xeyir, astika- əsas deməkdir) götürüb öz mənfur məqsədləri üçün istifadə etməyə çalışıblar.

# PASARQAD

Qədim İran tarixi üzrə mütəxəssislər yazırlar ki, irandilli qəbilələrdən olanlar I minlillyin əvvəllərində İrana daxil olublar. Onların doqquzuncu və səkkizinci əsrlərdə Urmiya gölünün cənubunda və cənubi qərbində məskunlaşması qeyd olunur. Amma müxtəlif hücumlar həmin qəbilələri köçməyə məcbur etmişdir. Onlar təxminən yeddinci əsrdə Bəxtiyari dağlarının ətəklərində, Suzun cənubi- şərqində, tarixi- coğrafi elmdə Pars əyaləti kimi tanınmış Elamın bir hissəsində yerləşiblər.

Yad qəbilələrin öz torpaqlarında yerləşməsinin qarşısını almağa tənəzzülə uğramış Elamın gücü çatmırdı. Buna əsas səbəb əhəməni sülaləsinin rəhbərliyi altında birləşmiş parsların madları da öz hakimiyyətinə tabe etməsi idi. Əhəmənilərin tarixə düşmüş ən böyük şahı Kir olsa da, Kirin əcdadlarının da hökmdar olduqları göstərilir.

Pasarqad haqqında məlumatlar hələ akkad mənbələrində verilmişdir. Amma Kir əvvəlcə paytaxt üçün Midiyanın keçmiş paytaxtı Ekbatanı seçmişdi. O, Həmədan yerləşən ərazidə olmuşdur. Və Ekbatan haqqında olduqca az məlumat vardır. Pasarqad bir müddət yaddan çıxıbmış, çünki onunun yeri, əhəmiyyəti və ölçüləri böyük Əhəməni dövlətinin ehtiyaclarını təmin etmişdir. Pasarqad Əhəməni nəslinin məhz bu qəbilədən olduğunu göstərir. Qədim yunan tarixçisi İntesiy Pasarqad deyəndə həm dağ adı, həm də bütöv bir rayon nəzərdə tuturmuş. Makedonyalı İskəndərin Şərqə yürüşülərini müşayət edən alimlər isə Pasarqadın özülünün Kir tərəfindən qoyulduğunu söyləyirlər. Onlardan biri, Anaksimen adlı alim, sözün mənasını parsların (farsların) düşərgə yeri olduğu güman edir. Müasir Amerika alimi, qədim İran üzrə ən yaxşı dünya mütəxəssislərindən biri R. Fray da pasarqad sözünün həm tayfa, həm də şəhər adı olduğunu söyləyir.

Əhəməni sülaləsinin başlanğıcında tikilən, amma sonradan dağılmış şəhəri II Kir yenidən dirçəldir. Bu şəhərin parlaq dövrü, bəzi tarixçilərin qeyd etdiyi kimi, e. ə. 550- ci ildən, paytaxt olduqdan, sonra başlayır. Kir paytaxtı inşa etməkdən ötrü çoxlu sənətkar işə cəlb edir. Şəhərdə bağlar,

məbədlər, saraylar hasara alınıbmış. Şəhərin giriş darvazasının hər iki tərəfində qanadlı öküz heykəlləri qoyulubmuş. Bundan əlavə, orda üzərində II Kirin adı həkk olunmuş çoxlu mərmər lövhə tapılmışdır.

Pasarqadın xarabalıqları hal- hazırda abidəyə başqa bir paytaxtın Persopolun (Təxte- Cəmşid) yerindən 43 km şimal səmtdədir. O, dəniz səviyyəsindən 1800 m yüksəklikdə yerləşir. Odur ki, Pasarqad qış iqamətgahı kimi əlverişli sayıla bilməzdi. Şəhərin ərazisində müəyyən edilmiş lövhələr isə qədim fars, elam və akkad dillərində eyni ifadəni söyləyir: "Mən Kirəm, əhəmənilər şahıyam". Həmin lövhələr Kirin dövründə tikilmiş sarayların sütunları üzərində vurulmuşdur və bir neçə yerdə tapılmışdır. Onlardan əlavə Pasarqadda yenə də bir neçə saray və "Kirin məqbərəsi" adlanan abidə müəyyən edilmişdir. Daha iki abidə haqqında xüsusi danışmaq gərəkdir. Onlardan biri nəhəng daşlardan yonulub qurulmuş tağdır. İkincisi isə divarın qalıqlarıdır. O divar Persopol yaxınlığındakı məşhur Nəqşe Rustəm adlı məqbərə üçün tikilmiş bircə oxşayan Pasarqad bürcünün qalıqlarının bir hissəsidir. Tağ isə adətən Xuzistan vilayətindəki başqa bir abidənin - Məscide Süleyman adlı abidənin - tağı ilə müqayisə olunur. Bu cür tağlar hələ Urartu dövründən başlayaraq tikilərdi. Onlara qədim İran tikililərində də rast gəlinir.

Həm Pasarqad, həm də Persopol tikintilərinin bəzəyi olmuş ağ rəngli daş Pasarqadın cənub - qərbindən, hazırki Sivani kəndinin yaxınlığındakı karxanalarından gətirilirmiş. İri daş bloklar çox güman ki, çayla gətirilər, sonra isə tikintilərdə iri dəmir sıxaclarla bir- birinə bağlanırmış. Pasarqadın memarlığı orijinaldır. Onda Əhəmənilər mədəniyyəti özünəməxsus şəkildə təcəssüm olunub. Mütəxəssilər qeyd edirlər ki, sarayların daxili tərtibatında Kiçik Asiyadakı yunan şəhər dövlətləri mədəniyyəti nümunələri iki cəhətdən özünü göstərir. Birincisi, o, Əhəmənilərin ilkin dövrünü əksidir. İkincisi isə, Urartu mədəniyyətindən həddən artıq şey əxz etmiş Midiya təsirlərinin olmasıdır. Bu baxımdan Persopol, əksinə, Əhəmənilər dövrünün təşəkkül tapmış mədəniyyəti kompleksi sayılır və o, daha çox cənub qonşularının, Elamın təsirinə məruz qalmışdı.

Həm Pasarqadda, həm də Persopolda heykəlli daş relyeflər əsasən dekorativ xüsusiyyət daşıyır. Məlumdur ki, assuri dövrünün relyefləri isə bütöv süjetlər əks etdirirdilər. Bu keyfiyyət, Əhəməni incəsənətlərindəki heyvan heykəlləri, Urartu və Assuri dövrü heykəllərinə oxşasa da onlar əsasən dekorasiya üçün işlədilmişdi. Mütəxəssislər belə vəziyyəti ümumiyyətlə Əhəmənilər dövrü incəsənətinin ayrılmaz bir hissəsi hesab edirlər. Pasarqad haqqında danışarkən deyilməlidir ki, bu şəhərdən çox az abidə bizə gəlib çatmışdır. Əldə olunan nümunələr isə Kir dövrünün





məhsullarını sonrakı hökmdarların abidələrindən fərqləndirməyə imkan verir. Əhəmənilər sülaləsinin bu paytaxtı və abidələri haqqında geniş danışmaq üçün isə başqa imkan yoxdur.

# ŞİRAZ



*Şiraz – Kərim xan məbədi*

"Şiraznamə" və "Farsnamə"də deyildiyi kimi islamlaşmadan əvvəl Fars beş hissəyə bölünmüşdü və hər hissəsinə "Kure" və yaxud "Xure" deyilərmiş.

I Kure Ərdəşir - paytaxtı Cur, hal- hazırda Firuzabad adlanır.

II Kure Estəxr, hazırda Estəxr Mərv - Kəşt adalanan yerdir. Estəxr adı altında onun paytaxtı olmuşdu və "Təxte Cəmşid" orada yerləşmişdi.

III Kure Darabkerid, paytaxtı tamamilə viran olmuş Darabdır. Lakin onun 6 km-də yeni şəhər salmışlar ki, Darab şərh adlanır. Lakin bu Darab arasında fərq vardır.

IV Kure Şahpur, paytaxtı Şahpur. Xarabalıqları hazırda Kazrul qəsəbəsindən 18 km şimalda qalmaqdadır.

V Kure Qubal. Paytaxtı Ərqan, ərəblər Ərcan adlandırmışlar. Bu şəhər tamamilə viran olub getmiş, onun 3 km- də Behbəhan şəhəri salınmışdır.

Ərəblərin istilası zamanı dağıntılar baş vermişdir. Yeni yaranmış iqtisadi şəraitə uyğun olaraq Fars torpaqları yenidən dörd coğrafi əraziyə bölünmüşdür:

1. Paytaxtı Şəhreyk (ərəbcə şəhreyc) olan Şəban Kars. Bu şəhər tamamilə viran olmuşdur.
2. Fars- paytaxtı Şiraz şəhəri.
3. Kəhkiluyə.
4. Larestan.



*İran – Qum Fatimə məscidi*



Parsın islamdan əvvəl paytaxtı Estəxr olsa da hazırda bu ostanın inzibati mərkəzi Şiraz şəhəridir.

Bütün tarixçilərin dediyi kimi hicri tarixinin 74- cü ilində Estəxrin cənubunda 54 və ya 60 km- də Məhəmməd ibn Yusif Səqəfi tərəfindən şəhərin əsası qoyulmuşdur.

Hicri tarixinin 323- cü ilindən etibarən şəhərin bazarına "Sugül -Əmir" dedilər, şəhərdən hal- hazırda heç bir əsər- əlamət qalmayıb. Ozdudövlə bu şəhərdə çoxlu hündür qəsr, xəstəxana, dəbdəbəli binalar tikdirmişdir. Qazıntı nəticəsində şirəli saxsı və islamdan öncəyə aid sikkələr tapılmışdır. Hicri tarixi ilə 432- ci ildə Əmir Əbu Kalecar Estəxr şəhər ətrafında əkinçiliyi genişləndirmişdi. Bu ildəcə Əmir Kalecar Şiraz ətrafına hasar çəkdirmişdir. Bu vaxtdan başlayaraq Kərim xan Zəngin zamanına qədər müxtəlif dövrlərdə, müxtəlif şəxslər tərəfindən Şirazın ətrafında divar çəkilmiş, xəndəklər qazılmışdır.

1180- ci ildə Kərim xan Şirazı onu özünə paytaxt seçmiş və orada aşağıdakı tikinti işlərini görmüşdür:

Bazare Vəkil, Həmmam Vəkil, Məscede Soltani Vəkil, Anbare Vəkil, Xeyabani Zənd, Bağe Nəzər (hazırda muzeydir), Bağe ərk, Bağe ədalətxane kimi küçə və bağlar saldırmışdır. Eyni zamanda şəhərin kənarına hasar çəkdirmişdir. Hicrətin 1207- ci ilində Ağa Məhəmməd Şah Qacarın əmri ilə Şiraz şəhərinin bürcünü və qalasını dağıtdılar.

Sonra hicri tarixi ilə1218- ci ildə Nəvvab Hüseynqulu Mirzə Qacar dağılmış Vəkil hasarının üzərində yeni, yaraşıqlı hasarlar çəkdirdi ki, zəlzələ nəticəsində (h.t.1239) bunların bir hissəsi tələf oldu.

Əvvəllər Şiraz indiki Came- ötic məscidinin ətrafında yerləşmişdir. (Əmr ibn Veys səffar m.t. 1281- ci ildə bu məscidi tikdirib). Sonralar şəhər cənuba tərəf genişlənmişdir. H.t. 373- də Əmir Ozdüldövlə Deyləmi Darussəlamın ətrafında, qəbristanlığın qəbrində bu şəhəri saldı. Bu dövrlərdə Fars Atabəyləri də özlərindən yadigar qalan abidələr yaratmışlar ki, onlardan Abeş Xatun qəsrinin xarabalıqları qalmaqdadır.

Səfəvilər dövründə bu şəhər şimala tərəf genişlənmişdir. İmamqulu Xan (h.t.1024- də) köhnə yuxarı hissəsində Mədrəsəye Xan adlı mədrəsə tikdirmişdir.

Kərimxan Zənd şəhəri şimal tərəfdən genişləndirmiş Mədrəseyi Xanın şimalında öz qəsr və imarətini (h.t.1100- də) tikdirmişdir. Bu gün Şiraz şimala, həm də şərq və qərb tərəfə genişlənmişdir.

Şimaldan Quran darvazasına tərəf, qərbdən Səfa və Abyurdi bağına, Qosruddəştə qədər uzanıb gedir.

Şiraz şəhəri öz abadlığı dövründə 12 və ya 19 məhəlləyə bölünmüşdü

ki, uzunluğu az qala 10 km çatırdı. Kərimxan Zənd Şirazı 5 darvaza girəcəyi olan 12 məhəlləyə bölmüşdü. Hər bir darvazanın qarşısında meydan saldırıb (indi meydanlar "Fələke" adlanır) ağaclar əkdirmişdi.

Darvazalar bunlardır:

1) Bace şah darvazası, 2) Daravazaye Esfahan, 3) Darvazeyi sədi, Sədinin təkyəsi yaxınlığındadır; 4) Darvazeye qəssəbxane, 5) Darvazeyi Şahudan, əsil adı sufi təriqətin şeyxlərindən olan Şahuddağidən götürülüb. Bu darvazanın xaricində təkyə tikmişlər ki, qədimdə ona darussəlam deyirmişlər.

Məzarat kitabının müəllifi nəğl edir ki, Əbu Zəkəriyyə Səlim ibn Abdullah Şirazi böyük şeyxlərdəndir və darussəlamda fəaliyyət göstərib.

12 məhəllə aşağıdakılardan ibarətdir:

1. İshaq beyk məhəlləsi.
2. Bazare morğ məhəlləsi.
3. Bala kofi məhəlləsi.
4. Dere Şahbale məhəlləsi.
5. Meydana şah məhəlləsi.
6. Darvazaye Kazervan" məhəlləsi.
7. Sərbağ məhəlləsi.
8. Serzek məhəlləsi.
9. Semge Syah məhəlləsi.
10. Lebe ab məhəlləsi.
11. Qol deste məhəlləsi.
12. Dərə Şeyx məhəlləsi.

Semge Syah məhəlləsində dil və qrammatika alimi Sibavəyhinin məzarı yeləşir. İndi həmin məzar çox məşhurdur. Alimin qəbrinin üzəri qara daşla bəzədildiyinə görə bütün məhəllə bu daşın adı ilə tanınıb.

XVII əsrdə fransız səyyahı Şaflin İranı səyahət etmiş və Şirazın abidələri haqqında qiymətli məlumatlar vermişdir.

Şirazdan Xorrem Dərə adlı çay keçir. Yayda quruyur. Ancaq qışda və baharda suyu daşdığına görə şəhəri qorumaq məqsədilə sədd çəkmişlər.

Esfahan darvazası şəhərin gözəl küçəsilə birləşir. Beləki küçənin eni 50 qədəm və hər 2 ətrafı səfalı bağlardır. Üzbəüz tikilən ikimərtəbəli binaların hamısının üzərində bir günbəz vardır. Küçənin ortasında mərmər daşından 4 bucaqlı şəkildə tikilmiş, hər tərəfinin uzunluğu 50 qədəm olan hovuz vardır. Hovuzun kənarlarında 30 addımlıq yer gediş - gəliş asan olsun deyə saxlanılmışdır.

Küçə şəhərin meydanı ilə birləşən bazara qədər uzanır. Şiraz İranın başqa şəhərləri kimi karvansara və hamamlarla zəngin olmasa da onun küçə və bağları gözəl ağaclarla bəzədilmişdir.





Şiraz şəhərinin əhalisi təəssübkeş olduğundan şəhərin məscid və imamzadələri saysız hesabsızdır. Onların ən böyük məscidlərin biri, Mescede camei ətiqdir.

# İSFAHAN

İran tarixini tədqiq edən alimlərin fikri belədir ki, Teymurləngin dağıdıcı hücumlarından sonrakı dövr xüsusilə XV əsr ölkənin həyatının ciddi dirçəlişini göstərir. Teymurun nəslindən olan hökmdarlar (Uluqbəy, Şahrux və s. ) böyük fatehdən fərqli olaraq əsas diqqətlərini quruculuq işlərinə, elmin, ədəbiyyatın, incəsənətin çiçəklənməsinə vermişlər. Bu tərəqqi İranın yeni türk (azrbaycanlı) mənşəli hökmdarlarının, xüsusilə I Şah Abbasın hakimiyyəti illərində davam etdirilmişdir (1587- 1629). O zaman həm orduda və həm də inzibati aparatda həyata keçirilən islahatlar, Avropa ölkələri və Rusiya ilə aparılan ticarət, İranı bir dövlət kimi daha da qüvvətləndirmişdir.



*İsfahan məscidi*

Müəyyən səbəblər üzündən bu şah ölkənin paytaxtını Fars torpağı sayılan İsfahana köçürmüşdür (h. t. 1006, m. t. 1597. 98). Maraqlı budur ki, İsfahan hələ Səlcuqlar dövründə də (XI- XII əsrlər) bir müddət İranın paytaxtı olmuşdur. Yaradılması qədim dövrlərdən başlanan şəhərin

Səfəvilər dövlətinə paytaxt seçildikdən sonra həqiqi mənada yeni həyatı başlanır. 1616- cı ildə İskəndər bəy Türkmanın yazdığına görə şah Abbas qışı yeni seçdiyi paytaxtda keçirdikdən sonra, baharda şəhərin abadlıq işlərini görür. İlk növbədə məşhur Nəqşe cahan adlı sarayın ətrafında yeni, gözəl binalar tikdirir. Yararlı torpaqları varlı əyanlar arasında bölüb, iki mərtəbədən aşağı olmayan evlər tikdirməyi və üzümlüklər saldırmağı, hər yanı yaşıllığa bürüməyi əmr edir. Sonra şəhərin içərisindən axan Zayənderud çayı üzərindən enli körpü saldırır. Şəhərin baş küçəsi ən yaxşı dövrlərdə 6 km çatarmış. Tikilmiş binalar həm xarici gökəmlərinə, həm də daxili tərtibatlarına görə biri- digərini təkrarlamayaraq tamaşaçılarda ecazkar təsir yaradarmış.



*İsfahan – Şah Abbas məscidi*

1617-ci ildə İsfahanda olmuş italyan səyyahı Petro Della Valle bu şəhər haqqında öz xatirələrində yazmışdır ki, şəhərin baş küçəsi çoxlu gözəl bağçalarla əhatə edilibmiş. Əsas dörd bağdan yaradıldığı üçün "Caharbağ" adlanarmış. Qurtaracağında Hezar - Carib adlı gözəl park olub. İtaliyalının yazdığına görə o, öz dövrünün Roma, Neapol, Genuya və s. kimi şəhərlərinin baş küçələrini kölgədə qoyurmuş. Başqa bir səyyah, II Şah Abbasın dövründə İranda yaşamış fransız Şarden də İsfahanı ağız dolusu tərifləyir. O





şəhərin əsas gəzinti yeri sayılan baş küçəsini daha dəqiq təsvir edir. Fransız səyyahının yazdığına görə küçənin uzunluğu üç mil iki yüz fut, eni isə iyirmi fut olub. Hər iki tərəfində arxlar varmış. Arxlar daşdan güzəldilmiş parapetlərlə əhatə olunubmuş. Küçə boyu enli daş səkilər tikilibmiş. Sonra isə içində şiş günbəzlər olan, qulluq edilmiş bağçalar görünürdü. Bağçaların hasarları əksər hallarda kərpicdən tikilərmiş. Müxtəlif formalı çərçivələrdən də istifadə edilərmiş. Binaların eyvan və s. hissələrində bir-birini tamamlayan rəngli metallar, hətta qızıl suyuna çəkilən detallar da nəzərə çarparmış.

Şəhərdə çoxlu hovuz olub. Fransız səyyahı onların müxtəlif formada olduğunu qeyd edir. Məsələn, şəhərdən çayacan əsas yeddi hovuzun dördü böyük, üçü balaca imiş. Dörd böyük hovuzun ikisi dördbucaqlı şəkildə olub. Üçüncü hovuzsa səkkiz bucaqlı imiş. Onun ətrafında iki məşhur bağça Vağe text və Vağe Bülbül yerləşərmiş.

İsfahanda, bu səyyahın yazdığına görə, həmçinin bir neçə dənə şəlalə də mövcud imiş.

Şəhərin çaydan sonrakı hissəsində də gözəl bağlar və imarətlər olub. Qeyd olunan dövrdə onların ümumi sayı 14 çatarmış. Çaparbağın hər iki tərəfində simmetriya şəklində yerləşmişdir.

İsfahanın ən görkəmli yerlərindən biri Hezar - Carib, yaxud Abbasabad adlanarmış. O bir neçə hissədən yaranmış qəşəng bağçadan və məşhur Hezar - Carib sarayından ibarət imiş. Səyyahlar orada çox da hündür olmayan çoxlu meyvə ağaclarının olduğunu söyləyirlər. Bağçalar içərisində düzgün salınmış xiyabanlar varmış. Ən hündür yerdəki bağçadan suvarma kanalı çəkilibmiş. Bağın ümumi uzunluğu üç mil, eni isə bir milə yaxın olub, hər küncündə qüllə tikilibmiş. Qüllələrdə çoxlu göyərçin saxlanarmış. Bağçanın bir yerində barokko stilində tikilmiş iki qəşəng bina varmış. Onlarda şah yayın isti günlərində istirahət edərmiş. Bağın içində, həmçinin hərəmxana üçün ayrıca bina olub. Bina qayıqda üzməyə imkan verə bilən süni göllə yanbayan inşa edilibmiş.

İsfahan və eləcə də ölkənin digər yerlərində o dövrdə inşa edilmiş ictimai, inzibati, dini və s. binaların tərtibatı mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

XVI-XVII əsrlərdə Səfəvilərin hakimiyyəti zamanı İran incəsənəti özünün ən yüksək zirvəsinə çatmışdır. O dövrdə böyük nailiyyətlər qazanmış Təbriz, Qəzvin və İsfahan miniatiür məktəbləri İranın çox əsrlik mədəniyyətinin ən parlaq səhifələrini təşkil edirdi.

Təbii - coğrafi mühiti baxımından da İsfahan İranın əksər şəhərlərindən seçilir. İqliminə görə onu şairlər vətəni Şirazla müqayisə edirlər. Doğrudan

da ölkənin digər böyük şəhərləri kimi o da qumsallıq çöllərin əhatəsində yerləşib. Amma şəhərin ətrafı 10 km-lərlə uzanan bərəkətli zəmi və tarlalardan ibarətdir. İsfahan zəhmətkeşlərinin gündəlik qayğısı və zəhməti sayəsində həmin torpaqlar yaxşı məhsul verir.



*İsfahan – Mərkəzi Meydan*

İsfahanın göyərçinxanaları da çox məşhurdur. Onlar 5-6 mərtəbəli ev hündürlüyündə olan, girdə formalı və yuxarı qalxdıqca nazilən xüsusi şəkilli tikililərdir. Uzun əsrlər boyu onlarda saysız - hesabsız göyərçin saxlanılmışdır.

Hazırda şəhərin mərkəzi hissəsi bir növ muzey rolunu oynayır. Şah meydanı adlandırılmış sahə isə daha məşhurdur. Bu hissədə tarixdə Şah məscidi adlanan və öz füsunkar gözəlliyi ilə dillər əzbəri olmuş məscid ən yaxşı abidələrdən biridir. Hündürlüyü 50 m-dən artıqdır. Əsas giriş darvazaları qiymətli metallarla, qızıl, gümüşlə, tağı isə qlazurla bəzədilmişdir. Onun açıq darvazasından görünən daxili hissəsi məscidin nəhəngliyinə yaxşı dəlalət edir. Amma kənardan bina heç də ətalət, ağırlıq təsiri bağışlamır. Əksinə, ölçülərin tənasüblüyü ona nə isə bir yüngüllük verir.

Şah məscidi bir neçə min adam tuta bilər. Məscidin daxili quruluşu elədir ki, həm ümumi mənzərə, həm də səsötürmə xüsusiyyətlərini saxlayır. Məsələn, bir hissədə çıxarılan astaca bir səs, nəhəng məscidin ən ucqar hissəsində eşidilir. Maraqlıdır ki, məscidin hər zalının öz rəngi olub. Bir zal isə xüsusi olaraq şah ailəsinə xidmət edirmiş. Başqa heç kəsə o zalda ibadət





edib, namaz qılmağa icazə verilməzmiş.



*İsfahan – Lütfullah məscidi*

Məscidin frizlərində ərəb əlifbasının müxtəlif xətt formaları ilə Qurandan sitatlar yazılmışdır. Onların arasında isə bəzi məlumatlara görə məscidi inşa edən ustaların adları yazıldığı göstərilir.

Şəhərin mərkəzi hissəsində nəhəng ölçülərə malik portal da qalmaqdadır. İndi həmin hissəyə yanaşı olaraq bazar yerləşir.

İsfahandan danışarkən digər məşhur abidəni - Qırx sütunlu (Cehel sütun)- yada salmamaq olmaz. Onu II Şah Abbas əsasən dövlət qəbulları üçün inşa etdiribmiş. Saray gözəl bir bağın içərisində, şəffaf suyu olan hovuzun yanında tikilib. Suya düşən iyirmi sütunun əksi sarayın sütunlarının sayını ikiqat artırıb qırxa çatdırıb. Odur ki, saray belə ad qazanmışdır. Bu sarayın müxtəlif cür, yüksək zövqlə bəzədilmiş çoxlu zallarında İran incəsənətinin ən yaxşı nümunələri toplanmışdır. Qeyd olunmalıdır ki, bu şəhər, həm də özünün əla, təkrarolunmaz xalçaları ilə də çox məşhurlaşıb.

Zayən derud çayı üzərindən müxtəlif dövrdərdə salınmış körpülər də diqqətəlayiq memarlıq nümunələridir. Uzunluğu 350-400 m, eni isə 15 metrə çatan qədim körpülər əsasən kərpicdən tikilmişdir. Onlardan biri Si- o- Se pol (Otuz üç dayaqlı körpü) həm aşağı, həm də yuxarı hissəsində enli meydançalara malikdir. Aşağı meydançalar su səthindən 2-3 metr yüksəklikdədir. Yuxarı meydançalar isə körpünün gediş - gəliş hissəsi ilə eyni səviyyədədir. İsti yay günlərində onlar xalılarla örtülür və çayın sərinliyində istirahət yerinə çevrilir.

# YƏZD



İsfahan – Yəzd Məscidi

Yəzd haqqında bir neçə kitab yazılıb. Orta əsr müəlliflərindən sayılan və özünün dediyinə görə imam Hüseynin nəslindən olan Cəfər ibn Məhəmməd Cəfəri bu şəhərin yaradılma tarixinə həsr etdiyi kitabına belə bir parça da daxil etmişdir: (Dahi Nizami bu haqda öz "İskəndarnamə"sində də yazmışdır).

Əhəmənilər sülaləsinin yarıməfsanəvi banisi Ərdəşir Babakan (b. e. əvvəl II əsr) bütün dünyanı tutub oğlu Daraya verir ki, hər yerdən vergi toplasın. Yunan padşahı Filip də hər il Daraya bir səbət qızıl və gümüş yumurta hədiyyə göndərərmiş. Amma Filip xəstələnib ölür, yerinə oğlu İskəndər taxta çıxır. Elə ilk vaxtdan xalqına elan edir ki, daha Daraya sovqat göndərilməyəcək. Bunu eşidən xalq sevinir, şadyanalıq edir, əl çalır. Xəbər Daranın qulağına çatanda soruşur ki, bu nədir. Cavab verirlər ki, Filipin oğlu ərköyün İskəndər daha bizə vergi vermək istəmir. Xeyirxah adam olan Dara Yunanıstana elçi göndərir və tapşırır ki, İskəndərə hədə- qorxu gəlsin, verginin tələb etsin. Müəllif belə nəql edir ki, İskəndər elçi ilə yalan əhvalat uydurur. Söyləyirlər ki, qızıl yumurta çıxaran quş uçub gedib daha o yumurtaları tapmaq olmaz. Elçi İskəndərin dediyini Daraya çatdıranda Dara ona çovqan və top verir ki, İskəndərə çatdırsın. İskəndər Daranın onu uşaq saydığını anlayır. Elçiyə tapşırır ki, Daraya onun təşəkkürünü çatdırsın. Dara daha dözə bilməyib özündən çıxır. Elçiyə bir torba darı verir ki, aparıb İskəndərin qarşısında yerə töksün. Elçi tapşırığı yerinə yetirəndə İskəndər başa düşür ki, Dara bununla saysız- hesabsız qonşunun olduğuna işarə edir. İskəndərsə darını yığıb yerə





tökür. Bundan sonra Dara ordusunu çıxarır. Əvvəlcə ordusunu, sonra isə zənci şahını İskəndərin üstünə göndərir. Gənc Makedoniyalı hər iki qoşuna qalib gəlir. Nəhayət, Dara ilə İskəndərin orduları Həmədan yaxınlığında qarşılaşdılar. Daranın ən yaxın adamlarından dördü İskəndərlə əlbir olub dava vaxtı şahı vururlar. Dara ölən zaman İskəndər onun başını qucağına alıb nə vəsiyyət edəcəyini soruşur. Daranın üç vəsiyyəti bu olur: Birincisi, xəyanətkarları cəzalandır ki, gələcəkdə bir daha xəyanət olmasın. İkincisi, qızımla evlən ki, İranın gələcək taxt- tacı bizim nəslə qismət olsun. Üçüncüsü, mənim xalqımla yaxşı rəftar et ki, sən öləndən sonra xalqım da sənin mülayim rəftarını unutmasın. İskəndər Daranın vəsiyyətlərini vəd etdiyi kimi yerinə yetirir, Daranın qızı Rövşənəklə evlənir, xalqla ədalətli rəftar edir.

Sonra İskəndər hazırki Yəzdin yerindən keçərkən əmr edir ki, qala tikilsin. Sonra qalaya su çəkdirməyi tapşırır. Bir sıra müəlliflər "Zülqəreyn zindanı" adlanan binanın məhz İskəndərlə bağlı olduğunu söyləyirlər. Amma bəzi tarixçilər bu fikirlə razılaşmırlar. Qeyd olunur ki, İskəndər İranı tutduğu zaman Reydə ona qarşı üsyan qalxır. İskəndər üsyanı yatırır, bütün hərbi başçıları əsir alır. Aristotelin məsləhətinə əsasən yeni bir məhbəs tikdirir və əsirləri orada saxlayır. Lakin Makedoniyalı qoşunu çəkilib getdikdən sonra əsirlər məhbəsdən çıxır və hazırki Yəzdin yerində yaşayış məskəni salırlar.

Yəzd tarixini yazan Əhməd ibn Hüseyn ibn Əli (h.t.862) Makedoniyalı İskəndər tərəfindən Yəzdin bünövrəsinin qoyulmasını söyləyir və belə deyir: İskəndər Reyə getdiyi zaman Yəzddə zindan yaratmışdı ki, ona Qəse və ya Gəse deyərdilər. Bu zindan böyüklərin həbs olunub salındığı quyu idi, hətta Hafiz bu haqda belə şer deyir:

Ürəyim İskəndərin zindanından qorxuya düşdü,
Tədarük gördüm Süleyman mülkünə gedəm.

Həmin kitabda Yəzd haqqında belə söylənilir: elə ki, imarət tamam oldu, işə qadir əhalinin hamısı əkinçilik və tikinti sahələrinə meyl göstərdi, əkinçilik üçün müxləlif kanallar çəkdirdilər.

Yenə belə yazılır: Nərsinin qardaşı Şapurun zamanında Yəzd abadlaşdırıldı. Müəllif bunun barəsində çoxlu hekayətlər nəql edir və deyir: Şapurxan Yəzdə çatarkən Xorasan yolunun ortasında gözəl bir yer gördü və dedi: Mən burada allahın adı ilə adlanan bir şəhər salacağam. Belə ki, bu həmin Yəzdan şəhəridir.

Bənnalar işə başladılar, münəccimlər zici götürdülər və qızlar bürcü altında şəhərin tikilməsini məsləhət gördülər. Allahın adına tikildi Yəzdi adı Yəzdəgerd qoyuldu. Onun adı Şapur idi və şahın olsa da Yəzdəgerd ilə onun adı məşhurlaşdı. (Yəni şahın adı tikdirdiyi şəhərin adı ilə məşhurlaşdı) Bir

neçə kanal çəkdilər. Bəhramqurun dövründə onun oğlu Yəzdəgerd, Yəzdə hakim təyin olundu və Tizfundan Yəzdə gəldi. Əmr verdi ki, Yəzdin natamam işlərinə əncam çəkilsin.

Yəzdəgerd qəflətən öldüyünə görə işləri yarımçıq qalmışdı. Bənnalar tikinti ilə məşğul oldular. Məmləkətin hər tərəfindən ailələr gəlib Yəzdə yerləşdilər. Bu ailələrin içində 3 sərhəng var idi ki, 1- nin adı Bidad, digərinin adı Mibdad və o birinin adı Əqdad idi. Hər biri öz adları ilə adlanan kəndin əsasını qoydular və bu hər üç kənd Səva gölündən 10 fərsəng aralı yerləşirdilər. Bu dəniz Barcin adlanırdı. İndi Bargin adlanır.

Kiçik Yəzdəgerd də böyük binalar tikdirdi və kanal çəkənləri gətirib bir enli kanal çəkdirdi. 1- si Yəzdəbad, 2- si Dahabad, 3- sü isə Basdeyn idi. Onun göstərişi ilə şəhərin ı fərsəngliyində salınmış I dəxmə Dudliye adı ilə məşhur idi ki, ordan su axırdı.

Elə ki, Bəhramgur öldü, Yəzdəgerd taxta əyləşdi və II Yəzdəgerdin (1157- ci ildə ölmüşdür) iki oğlu var idi. Firuz və Balaş Yəzdə gəldilər və oranı idarə etdilər. Balaş böyük bir bağ saldırıb su çəkdirdi və böyük uca qəsr, atəşgah tikdirdi və bunlara Balaşkerd adını qoydu. Sonralar Babiri Əsgər adı ilə məşhurlaşdırdı.

Firuz Yəzd mahalında 2 kənd saldı ki, birinin adı Firuzabad Məcmumərd, ikincisinin adı Firuzabad Mibəd idi. Qubah əhd etmişdi idi, əgər ikinci dəfə padşahlığa çatsa Yəzd şəhərində atəşgah tikəcəkdir. Səltənəti ələ aldıqdan sonra o Yəzdə gəldi və Mibəd vilayətində bir şəhər saldı və məşhur Atəşgahı tikdirdi. 7 atəşgahdan bura od gətizdirdi. Birinci Fars atəşgahından, ikinci Bəlx, üçüncü Azərbaycan, dördüncü Nəsah, beşinci İsfahan, altıncı Qəzni, yeddinci Tisfundan.

Bu şəhərin ikinci adı Həftazər (7 atəş) oldu. Qubadın iki oğlu var idi. Ənuşirəvan və Mobid. Mobid xəstələnir, nə qədər müalicə edilirsə heç bir xeyri olmur. Hindistandan gəlmiş həkim ona yaxşı hava şəraitində yaşamasını məsləhət görür. Onu çoxlu mənzərəli yerlərdə gəzdirirlər. Amma heç bir fayda vermir, naəlac qalıb həftazər Atəşgahına gətirirlər ki, bəlkə şəfa tapa. Həkim bu yerlərin abi- havasını görür və xeyli şad olub deyir: "Bu yerin havası onun xəstəliyinin əlacıdır". Ona görə bir şəhər saldılar və adını Mobidgerd qoydular. Get- gedə Mobed adlandı. Qubadın zamanında baş vermiş böyük bir zələzələ nəticəsində Mobedin bir çox binaları yerlə yeksan oldu.





# MANİXEYLİK



*Böyük Kirin məqbərəsi – Pasarqad*

Bu dini təlim sasanilər hakimiyyəti (IIIəsr) dövründə geniş yayılmışdır, onun ardıcıllarının İran, şimali Hind, Mesopotamiya, Roma, Misir və s ölkələrdə dini təbliğat işləri apardıqları tarixi faktlardır. 243- cü ildə İranın sasani nəslindən olan hökmdarı Şapur tac qoyma günü bu dini təlimin yaradıcısı sayılan 25 yaşlı Manini qəbul edib, ona bütün mövcud dini-fəlsəfi cərəyanları birləşdirərək yeni dünyəvi təlim yaratmağı tapşırmışdır. Məlumatlar göstərir ki, Mani o vaxtadək çox ölkələr gəzib, əsas dini təlimlərlə - buddizm, brəhmənizm, iudaizm və s. ilə tanış olmuşdu. Onun həmçinin zərdüştiliyin və xristianlığın fəlsəfi əsaslarını bildiyi də qeyd olunur.

Bu dini təlimin əsas fikirləri "Misteri kitabı", "Canlı tovrat", "Şapuragan" və s. əsərlərdə toplanmışdır. Alimlər cərəyanın çətin tədqiq edilməsindən söhbət açarkən onun müxtəlif ölkələrdə müxtəlif formada tətbiq edilməsini söyləyirlər. Təbliğat isə qədim Suriya əlifbası ilə orta fars dilində həyata keçmişdir.

Manixeyçiliyin baş allahı "əbədi axan zamanın" ilahəsi Zrvan sayılırdı. O, zərdüştiliyin iki əsas ilahəsinin Hörmüz və Əhrimənın atası hesab edilirdi. Həmçinin, Misir, Mesopotamiya, İran və s. ölkələrin yerli dinlərində mövcud olmuş çoxlu mif manixeyçiliyin kosmoqoniya və kosmologiyasına daxil edilmişdir. Bir sıra mühüm məsələlərdə razılaşmasalar da manixeyçilər həm Budda, həm də İsa dinini qəbul edirdilər.

Mani təliminin əsas ideyası iudaizm üzərində qurulub, əxlaq məsələlərində bu təlim öz ardıcıllarına "şərin" əbədi olacağını təlqin edirdi.

O, insan ruhunun da şərdən törəndiyini söyləyirdi və beləliklə əsas diqqəti dünyəvi problemlərə yox, insanda "ilahi işıq qığılcımları" yaratmağa verməyi tələb edirdi. Öz ardıcıllarından həyat məsələlərində ciddilik, doğruçuluq, sözə etibar, başqasına pislik etməmək və s. keyfiyyətlər istəyirdi. Təlim başdan- başa tərki- dünyalıq fikirləri ilə doludur. Məhz bu səbəbdən və həmçinin təlimin yayılmasının təşkilindəki zəiflik, daxilindəki fəlsəfi fikirlərin mürəkkəb və bəzən ardıcıl olmaması və s. amillər bu yeni dünya dininin dövlət işlərinə cəlb edilməsini ləngidirdi. Bunlardan əlavə artıq Sasanilər dövlətinin qərb sərhədlərində güclü inkişaf tapmış xristiyanlıq, dövlətdə qüvvətli ideoloji dayağa malik olan zərdüştilik, şərq sərhədlərində uzunəsrlik tarixə malik olan buddizm, Sasanilərin hakimiyyətindən də əvvəl müəyyən mənada ziyalılara bəlli olan yunan fəlsəfəsi və yerli xarakterli müxtəlif ictimai fikir cərəyanları manixeyçiliyə güclü mənfi təsir göstərirdi. İran dövlətinin yeni mərhələdə- quldarlıqdan feodalizmə keçid dövründə- olması ona manixeyçilik kimi dindən daha çox, yeni yaranmaqda olaq iqtisadi - ictimai münasibətlərə cavab verən dini qəbul etməyə məcburiyyət yaradırdı. O, müəyyən müddətdən sonra zərdüştilik oldu.

## PERSOPOL

Bəzi tarixçilər qədim farsların Parsamuş əyalətində (Zaqro dağları rayonunda) b.e.əvvəl VIII əsrdə öz kiçik çarlıqlarını yaratdığını söyləyirlər. Həmin dövlətin Əhəmənilər də daxil olmaqla bir neçə qəbilə birləşməsindən yarandığı güman edilir. Midiyanın vassalı sayılan bu çarlıq b. e. əvvəl 558-ci ildə üsyan qaldırır. B. e. əvvəl 550- ci ildə Persopoldan bir qədər aralıdakı Morqab vadisində Midiya çarı Astiaqla Əhəmənilərin qoşunları arasındakı həlledici döyüşdə Midiya məğlub olur. Sonra Əhəmənilər qısa bir tarixi dövr ərzində qonşu torpaqları- Assuriyanı, Ermənistanı, Kappadokiyanı tuturlar. Kiçik Asiya, Babil, Suriya, Fələstin də fəth olunur. Əhəmənilər hakimiyyəti hətta Misiri də özünə tabe edir.

B. e. əvvəl Asiyanın ən qüvvətli dövlətlərindən biri Əhəmənilər sülaləsi olur. Əksər iranşünasların, İran alim və rəhbərlərinin fikri belədir ki, İran dövlətinin yaradılmasının başlanğıcı o dövrə təsadüf edir. Qeyd olunsa yerinə düşər ki, 1971- ci ildə şah hakimiyyəti dövründə İranlılar dövlətlərinin 25000 illiyini qeyd etdilər. O qədim dövrün ən böyük abidəsi, əlbəttə, dünyada Persopol adı ilə tanınan şəhərin qalıqlarıdır.







*Persopol*

İranlılarsa onu Taxte- Cəmşid adlandırırlar. Rəvayətə görə şəhəri İranın böyük şairi Firdovsinin "Şahnamə" əsərində iftixarla təriflədiyi əhəmənilərdən olmuş Cəmşid saldırmışdır. Amma, aparılan qazıntılar onun I Daranın (b. e. əvvəl 522- 486- cı illər) hakimiyyəti illərində tikilməyə başlandığını xəbər verir.

Qeyd olunmalıdır ki, uzun müddət qərb alimləri bu şəhəri Əhəmənilər dövlətinin paytaxtı hesab etmişlər. Amma son dövrlərin materialları, xüsusilə Persopolda tapılmış üzərində yazılar olan gil lövhəciklər göstərir ki, o paytaxt olmayıb. Alimlərin dini bayramları keçirmək üçün yığışdıqları bir növ dini- ideoloji mərkəz olmuşdur. Ölkənin paytaxtı isə müxtəlif zamanlarda gah Babil şəhəri, gah Suzı, gah da Ekbaton adlanan şəhər imiş. Persopolu bir paytaxt kimi qəbul etmək üçün İranşünas alimlər ən çox Əhəməni hökmdarı Artarserganın (b. e. əvvəl 404- 356- cı illər) sarayında həkim işləmiş yunanın yazdığı "Qədim İranın tarixi" əsərinə və digər müəlliflərə (əksərən yunanlara) istinad edirlər. Müasir tarixçilər göstərirlər ki, yalnız Makedoniyalı İskəndər Əhəmənilər dövlətini məğlub etdikdən, Persopolu tutduqdan sonra bu şəhər haqqında yazılmağa başlanmışdır. Mənbələrin göstərdiyinə görə Böyük İskəndər Persopolu (çox güman ki, dini səbəblər üzündən) yerlə- yeksan etmişdir.



*Persopol*

Bu qədim abidə öz yaşına və əzəmətinə görə Misirin piramidaları, Yunanıstanın Akropolu, Romanın Kolizeyi, Türkiyənin Perqamı ilə yarışa girə bilər. Əhəmənilərin ən qüdrətli dövründə məğlub edilmiş xalqların - misir, yunan, soqdiya, xərəzm, babil və s. - minlərlə övladları təxminən iki yüz il müddətində bu şəhəri tikib başa gətirmişlər. Şəhər başdan - başa saraylar və s. binalar kompleksindən ibarət olmuşdur. Tutduğu ümumi sahə 135 min kvadrat metr imiş. Maraqlıdır ki, şəhər daşlı təpənin kəsilib düzəldilmiş hissəsində salınıb. Eni 300 m, uzunluğu isə təxminən 450 m olub. Vadiyə sarı olan hissəsi beş metr qalınlığında on metr hündürlüyündə olan hasarla əhatə edilibmiş. "Şahlar şahının" iqamətgahına gətirilənlər atların da keçə biləcəyi enli pilləkənlərlə gözləmə zalına daxil olmalı idilər. Bu zal bəzən "çarın darvazası" adlandırırlar. Zalın tavanını saxlamış 18 m- lik sütunlar indiyənədək qalmaqdadır. Sütunların başında mürəkkəb formalı kapitel olub. Tarixi məlumatlar Əhəmənilər sülaləsinin qüdrətini təcəssüm etdirən fantastik formalı heyvanın da daşdan yonulmuş başını sütunlarda yerləşdiyini xəbər verirlər. Onların hər birinin çəkisi iyirmi tondan çox imiş.

Gözləmə zalında ən diqqətəlayiq səhnələrdən birində taxtda qürur və ciddiyyətlə oturmuş çar təxt- rəvan var. Arxasında isə gənc vəliəhd görünür. Hər ikisinin ayaqları altında üç cərgə ilə düzülmüş, əllərində hədiyyələr tutan rəiyyət təsvir olunur. Onların başı üzərində isə atəş və işıq allahı sayılan Əhrimənin simvolu yanar kürə görünür. Yaxında belə bir yazını oxumaq olar:

"Əhrimənin rəhmi sayəsində mən bu qalanı tikdirdim...Onun iradəsinə itaət edərək qalanı mükəmməl və gözəl inşa etdirdim. Qoy Əhrimən məni və qalamı mühafizə etsin".

Daranın və oğlu Kserskın dövrlərində inşa edilmiş Apadon adlanan sarayın qalıqları da buradadır. O, forma etibarilə kvadrat şəklindədir, ölçüləri 85 m bərabərdir. 36 daş sütun bu öz dövrünün ən yaxşı memarlıq nümunəsi sayılan zalın tavanını saxlayırmış. Sütunlar üzərində saray həyatının müxtəlif





səhnələrini əks etdirən barelyeflər həkk olunmuşdur. Apadona sarı aparan pilləkənlərdə də milli geyimlərdə adamlar, at qoşulmuş arabalar və s. diqqəti cəlb edir. (Başqa mənbələrdə sütunların sayı 72 və hündürlüyü 16 m göstərilir). Hazırda sütunlardan yalnız otuzu müəyyən dərəcədə salamat qalmaqdadır.

Apadonün cənub qurtaracağında Dara və Ksreskın saraylarının- Tacara və Xadişi - qalıqları indi də görənlərdə heyrət hissi doğurur. Müşavirələr keçirilən bina isə Tiripilon adlanırmış. Şərq hissədə adı "yüz sütunlu zal" olan tikili yerləşərmiş. Onlardan əlavə burda çarın şəxsi qvardiyası üçün tikilmiş binaların qalıqları durur. Qvardiya "ölməzlər" adlanarmış və on min nəfər döyüşçüdən ibarət imiş. Əgər sayı azalarmışsa, tezcə ən yaxşı əsgərlərlə çatışmamazlığı aradan qaldırarmışlar. Adının "ölməzlər" olması da sayının heç vaxt azalmaması ilə bağlıdır.

Persopolda qalmaqda olan pilləkənlərin, divarların, sütun və s. hissələrin əksəriyyətində müxtəlif təsvirlər vardır. Və alimlər tərəfindən tədqiq olunur. Onlardan ən diqqətəlayiqli olanlar, uzun dəri şalvarlı, keçə papaqlı midiyalıları, şirlərlə birgə həkk olunmuş suzluları, qısa qollu, amma uzun ətəkli paltarı olan lidiyalıları, karakul qoyunlarla addımlayan soqdiyalıları, yarıçılpaq hindliləri, təmtəraqlı dəvə karvanları ilə, əyinlərində formalı əba olan ərəbləri, qıvrımsaç həbəşləri...və s. təsvir edən barleyfləridir. Əhəmənilərin ən güclü dövründə tabe etdikləri iyirmi satrapın (inzibati bölgünün) müxtəlif etnik mənşəli əhalisi uzunluğu iki yüz metrə çatan daş lövhələr üzərində həkk olunmuşdur.

Bu abidənin yaradılmasında müxtəlif xalqların nümayəndələri olan ustaların sənətkarlıq səviyyəsi indi də heyranlıq yaradır. Onlar primitiv texnika ilə qaya parçalarını yonub pilləkən, sütun, tağ və s. düzəltmişlər. Daşlar üzərində həkk edilmiş insan fiqurları öz ifadəliyi və forma rəngarəngliyi ilə səciyyələnir. Heyvan və ev əşyaları da düzgün təsvir edilmişdir.

Persopolun cənub və cənub- şərq qurtaracağında dövlət xəzinəsi, hərəmxana və s. köməkçi binalar olub. Hərəmxananın bir hissəsi demək olar ki, tamamilə bərpa olunub. O, əvvəlki funksiyasından fərqli olaraq bina hazırda muzey rolunu oynayır. Həm də binanın daxilində gözəl xanımlar kolleksiyası yox, şəhərdə aparılan qazıntı işləri zamanı tapılan maddi mədəniyyət nümunələri satılır.

Persopolun şərq qurtaracağında, sərt qaya üzərində Daranın qəbri yerləşir. Məqbərənin üst hisəsində isə tabe etdirdiyi ölkələrin sayını təmsil edən 28 adam fiquru həkk olunmuşdur.

Persopolun inşası Əhəmənilər sülaləsinin hökmdarlarından olmuş I

Kserskin, III Kserskin, I və II Artaksersin, III Daranın hakimiyyəti illərində başa çatdırılmışdır.

B. e. əvvəl330- cu ildə nəhəng Əhəmənilər dövləti gənc İskəndərin orduları tərəfindən darmadağın edilir. Bu müharibə haqqında şərqdə, xüsusilə İranda çoxlu rəvayətlər söylənilir. O, həmçinin bir sıra tarixi və bədii kitabların (ilk növbədə dahi şairimiz N. Gəncəvinin "İskəndənamə" əsərini yada salmaq olar) mövzusuna çevrilmişdir. İranlı müəlliflər arasında Makedoniya ordusunun qələbəsini və Persopolun dağılmasını müxtəlif cür yazanlar, bəzi əlavələr və s. edənlər də az deyil. Qədim tarixçilərdən biri, özünü olmuş hadisələrin şahidi kimi təqdim edərək aşağıdakı kimi təsvirinə başlayır. O yazır ki, İskəndər Daranı məğlub etdikdən sonra bir neçə dəfə Persopolda ziyafət təşkil edir.

Bu ziyafətin qızğın çağında Makedoniyalı fateh öz sirdaşlarına deyir: " ... saysız- hesabsız qoşun burdan çıxaraq hücumlar etmişdir. Əvvəl Dara sonra Ksersk Avropaya qarşı cinayətləri burdan başlamışdır. Bizim əcdadlarımıza olan borcumuzu biz şəhəri dağıtmaqla yerinə yetirməliyik..."

Deyilənə görə qədim dünyanın bu görkəmli abidəsi bir neçə saat ərzində yanıb, dağılıb.

Bu şəhər haqqında bolluca elmi kütləvi əsərlər, məqalə və s. yazılmışdır. Onların demək olar ki, hamısı Persopol muzeyində toplanmışdır. Abidənin gözətçisinin binasında isə İskəndərin şəhəri yandırdığını təsvir edən maraqlı tablo asılmışdır.

Əhəmənilər dövrünü tədqiq edən alimlər hakimiyyətin çox böyük iqtisadi və ictimai dirçəliş yaratdığını qeyd edirlər. İmperiyanın tabeliyində olan xalqların, o cümlədən Azərbayacan ərazisinin o dövrdəki əhalisinin də bu nailiyyətlərdə öz rolu olub. Azərbaycan torpağının övladları sonrakı qərinələrdə olduğu kimi Əhəmənilər dövründə (b. e. əvvəl VI- IV əsrlər) müxtəlif həyat sahələrində, o cümlədən tanınmış abidələrin tikintisində də öz yüksək istedadlarını nümayiş etdirmişdir. Nəticədə yenə sonrakı dövrlərdə olduğu kimi İran dövlətinin adı- sanı yüksəlmiş, beynəlxalq aləmdə İran milli mədəniyyətinin tərəqqisi kimi qəbul olunmuşdur.

Əhəmənilər hakimiyyətinin zəmanəmizə gəlib çatan ən böyük maddi mədəniyyət nümunələri- haqqında danışılan Persopoldan başqa müəyyən vaxt paytaxt olmuş, Suzıda, Pasaqadda və s. tarixi yerlərdə - indi də tamaşaçılarda öz yüksək səviyyəsi ilə hörmət hissi yaradır.





# MƏŞHƏD

İran ərazisində yerləşən məşhur tarixi- mədəniyyət mərkəzlərindən biri də Məşhəddir. O, Nişapurun şərqində yerləşir. Aralarında Nişapur çayının başlanğıc götürdüyü silsilə dağlar vardır. Məşhəddən bir neçə mil şimalda qədim Tus şəhərinin qalıqları mövcuddur. Qədimdə Tus Nişapurdan sonra ikinici şəhər sayılardı, özü isə iki yaşayış məntəqəsindən - Tabran və Nuqandan - yaranmışdı. Məşhur alim Həmdullah özünün "Məsalik və məmalik" (h. t. 372- ci ildə yazdığı) əsərində Tus və ətraf rayonlar haqqında məlumat vermişdir. Müəllif həmçinin, Tuzda fiiruzə və mis mədənləri olduğunu da qeyd etmişdir.



*Məşhəd – Gövhərşad məscidi*

İstəxri isə yazır ki, əgər Tusu Nişapurun bir hissəsi kimi qəbul etsək, Tabran və Nuqan onun mühüm şəhərləri olacaq. Bu iki şəhərdə məşhur fiiruzə mədənləri mövcuddur. Əli ibn Musa Rza əleyhissəlamın məqbərəsi və Harun ər- Rəşidin qəbri Kurqanın dörd fərsəngliyindədir.

İbn Hoqəl də Tusu Nişapur mahalının bir hissəsi hesab edirdi və yazır ki, Rayqan, Tabran və Nuqan onun tanınmış şəhərlərindən sayılır. Onun mədənləri fiiruzə, dəmir, gümüş, mis, qızıl və s. zəngindir.

Həmdullah Mustafi də Məşhəd mədənləri haqqında yazmışdır. Alimin fikrinə görə, Tus 4- cü iqlimdə yerləşir. Şəhərin əsası Cəmşid Pşidadi tərəfindən qoyulmuşdur. Sonralar Tus xarabazarlığa çevrilmişdi. Amma

Nouzar onu yenidən abadlaşdırır.- Həmin yer Sənabal adlanır. Abbasilər xilafətinin məşhur xəlifələrindən olmuş Harun ər- Rəşidin qəbri də həmin şəhərdədir. Tusun Məşhədi indi məzara çevrilmişdir. Həmin yer indi kiçik şəhər olmuş və Məşhəddən Zadesəncana qədər olan yol 15 fərsəngə bərabərdir. Onun cənubi- şərqində Höccətül İslam İmam Məhəmməd Gəzalinin və Əhməd Gəzalinin, Firdovsinin, Məşuqə Tusinin məzarları qalmaqdadır.



*Nişapur – Ömər Xəyyam məqbərəsi*

Tus əhalisi əsasən xoşxasiyyət, əxlaqlı, qəribə hörmət göstərəndir. Torpağı da bərəkətlidir. Ənciri və üzümü dillər əzbəridir. Tusun ətrafında yerləşən Rayqan şəhərinin quş bazarı çox məşhurdur.

Həmdullah Mustafi Tusun firuzə mədəni haqqında yazdığı hissədə göstərir ki, orda çıxarılan firuzə öz keyfiyyəti etibarilə Nişapur firuzəsindən aşağıdır. Həmçinin alim göl barədə də öz təsvirini vermişdir. Yazdığına görə Çeşmə səbz gölü Xorasandan Tusa qədər olan ərazidədir. Nişapur və Tusla həmin gölü iki böyük çay birləşdirir. Bu çaylar nisbətən dolğundur, belə ki, öz gücünə görə onlardan hər biri 20 dəyirmanı işlətmək imkanına malikdir. Heç bir dənizçi gölü üzüb keçə bilməz və dibinədək enə bilməz.

Tus haqqında başqa müəlliflərin əsərlərində də müəyyən məlumatlara rast gəlmək olar. Onlardan biri "Bustane səyahəti" yazmış Zeynalabdin Tusi təsvirini belə vermişdir. Səyahətçi alim Tusu gördüyü vaxt şəhər artıq xarabalığa çevrilmibmiş. Şəhərin özündə isə cəmi 30 ev olub və bir abad kənd qalıbmış.

Alim həm də deyir ki, Tusun binası Cəmşid tərəfindən qoyulub. Sonradan onu uzun sürən dağıntıdan sonra Tusi ibn Nouzər yenidən bərpa etdirib. Bir müddət şəhər öz bərpaçısının adını daşımışdır. Orta əsrlər





coğrafiya elminə əsasən onu 4- cü iqlimə aid edirlər. Əvvəlcə dağın ətəyində salınsa da, sonradan genişlənib geniş düzənliyi də öz əhatəsinə alıbmış. Məşhur xəlifə Məmunun dövründə tikintisi davam edibmiş. Amma 8- ci imam Əleyhissəlam dəfn olunduqdan sonra vəziyyət dəyişir. Artıq Tus tərəqqidən qalır. Əvəzinə isə Sənəbad çiçəklənməyə başlayır. O sonradan Məşhəd adı altında tanınır. Məşhəd şəhəri həm də tarixdə öz alimləri ilə də məşhurlaşmışdır. Tanınmış sufi şeyx Əhməd Ğəzali, həmçinin Xacə Nasir Əbu Hamid, Məhəmməd Qəzali, böyük fars şairi Firdovsi məhz Məşhəd şəhərinin övladları idilər. "Bustane səyahə"nin müəllifi Məşhəd tarixini daha da dəqiqləşdirərək belə yazır: "Məşhəd keçmişdə Sinabad kəndi kimi tanınardı. Həzrəti imamın burda dəfn olunması onun şəhərə çevrilməsində əsas rol oynamışdır"...

Əsərin müəllifinin dövründə şəhərin ətrafının ümumi uzunluğu 2 fərsəng imiş. O, iki dağın arasında düzənlikdə salınmışdır. Həttva belə nəql edirlər ki, İmam Rza Əleyhissalam onu görərəkən "iki dağ arasında bir cənnət bağı" adlandırıb, öz təmiz abı havasına görə şöhrətləndirib. Tarixçi alimin zamanında şəhərdə azı 6 min ev varmış. Əhalisinin böyük əksəriyyəti şiə məzhəbindəndir, yalanı sevməyən, gözəl rəftarlı, mülayim təbiətli adamlardır.

İmam Rza Əleyhissəlamın məqbərəsinin yuxarı hisəsində böyük bir qala mövcud imiş. Müqəddəsi bu haqda yazır ki, Əmir Faiq Üməyyədövlə Həzrət imamın qəbrinin ətrafında əzəmətli bir məscid inşa etdirir. Harun ər-Rəşidin qəbri isə bir qədər aralıdadır. Yaxınlıqda isə bir bağı var imiş. Həmçinin bazar və çoxlu imarətlərin olduğu da qeyd edilmişdir.

Sinabad monqolların hücumu nəticəsində viranəyə çevrilmişdir. Tus isə yenidən abadlaşmağa başlamışdır. Lakin yerli əhalinin səyi nəticəsində İmam Rzanın məqbərəsi və eləcə də Harun ər- Rəşidin qəbri uçulmaqdan xilas edilmişdir.

H. t. ilə VIII əsrdə yaşamış Həmdullah Mustafi Sinabadı Məşhəd kimi adlandıran ilk tarixçi sayılır. Həmdullahdan sonra yaranmış tarixi qaynaqlar artıq onu Məşhəd kimi təqdim edirlər.

Həmin qaynaqlarda deyilir ki, İmam Rzanın məscidinin böyük kümbəzi olub.

İmamın qəbri zaviyənin daxilindədir, mədrəsə və məscid binaları isə onun ətrafında inşa edilib. Həm imarət, həm də minbərlər gözəl və ürəkaçan üslubda yaradılmış və zəngin kaşıdən istifadə olunub. Qəbrin üzərində gözəl ağac məmulatlarından və gümüşdən istifadə endilib. Məqbərənin tavanından gümüş qəndil asılmışdır. Qübbənin astanasında qızıldan toxunmuş ipək pərdə asılmışdır. Döşəməyə cürbəcür bahalı xalılar döşənmişdir.

Harun ər- Rəşidin qəbri isə öz təmtəraqına görə o qədər də gözə çarpmır. Qəbrin üstündə məhəccər qurulduğu qeyd edilir və bir zamanlar şamdan da olduğu söylənilir. Məşhəd əhalisi onu şamdana görə tanıyıb müəyyən edərmiş. "Bustıne səyahə"də hətta belə bir fikir vardır ki, gələn əhali imam Rzanın qəbrini görmək üçün Harun ər- Rəşidin qəbrini, tapdalamağa məcbur olarmış.

H. t. 808- ci ildə Əmir Teymurun sarayına yollanan İspaniya səfirinin yolu Məşhəddən düşüb. Səfir öz yazılarında İmam Rzanın qəbrini xatırlayır. Və qeyd edir ki, o zaman məqbərəyə daxil olmaq üçün xristiyanlara da icazə verərlərmişlər. Məzarda çoxlu ziynət, cəvahirat və s. bəzək əşyaları neçə-neçə əsr müxtəlif şəhər və kəndələrdən zəvvarlar tərəfindən gətirilmişdir. Məşhədin dirçəlişi İranda hakimiyyətdə olmuş Əfşarilərin adı ilə bağlıdır. Əfşar tayfaları mənşəcə türkdür və hal- hazırda İran ərazisində yaşamaqdadır.

Sülalənin ilk hökmdarı Nadir h. t. 1100- cü ildə Qoçam və Dərəgə arasında yerləşən Dəstəcərdə anadan olub. Öz fərasəti və qoçaqlığı sayəsində tayfaları arasında ad qazanır və digər türk sülaləsinin - Səfəvilərin nümayəndəsi olan şah IITəhmasiblə dostluğa nail olur. Tezliklə o, İran ordusuna başçı təyin olunur. H. t. 1138- ci ildə öz qoşunu ilə Məşhədi tutmuş Məlik Mahmud Sistanini məğlub edir və şəhərdə bərpa işləri aparır. Məşhəd Nadir Əfşarın hərbi əməliyyat mərkəzinə çevrilir. O, burdan h.t.1142- ci ildə ikinci hərbi yürüşə başlayır, və əfqan Qəlcanini məğlub edir. Sonra isə 1145- ci ildə II şah Təhmasibi taxtdan salır. 8 ayında olan 3- cü şah Abbas Səfəvini taxta çıxarır. Özünü isə Sultanın Naibi kimi qələmə verir. Nadir 1146- 1148- ci illərdə osmanlılarla apardığı müha.ibələri müffəqiyyətlə başa çatdırır. 1148- ci ildə Azərbaycanın Muğan düzündə tacqoyma mərasimi keçirilir və Nadir şah Əfşar taxta çıxır. Nadir Məşhədi öz dövləti Əfşarilər sülaləsi üçün paytaxt seçir. 1149- cu ildə o burdan Qəndəhara qoşun çəkib şəhəri möhkəm qala ilə birlikdə tutur. Nadir şah Hindistana etdiyi məşhur hərbi səfərə də məhz Məşhəddən üz qoyub. 1151- ci ildə o, Hindistanın padşahı Məhəmməd şahı məğlub edib paytaxtı Dehliyə daxil olsa da şahlığı sonradan ona qaytarmış, özü isə külli miqdarda qənimətlə və hədiyyələrlə geri Məşhədə qayıtmışdı. 1160- cı ildə Fəthabadda öldürüldükdən sonra qardaşı oğlu Adil şah taxta çıxır. Məşhəd yenə Əfşarilərin paytaxtı olaraq qalır. 1161- ci ildə Nadirin nəvəsi Şahrux Adili taxtda əvəz edir. Əfşarilər sülaləsinin sonuncu hökmdarı Nadir Mirzə olmuşdur ki, o da 1218- ci ildə Fətəli şah Qacarın əli ilə aradan qaldırılmışdı. Bununla da Əfşar sülaləsinin yerinə İranda hakimiyyətə mənşəcə türk olan yeni sülalə- Qacarlar gəlirlər.

Məşhədin tanınmış abidələrindən həmçinin, dünya şöhrətli şair, böyük





"Şahnamə"nin müəllifi Firdovsinin məqbərəsini göstərmək lazımdır. Məqbərə son dövrlərdə bərpa edilmiş və layiqli görkəmə salınmışdır. Bundan əlavə Nadir şahın, Şeyx Bəhaəddinin məqbərələri, Göhər şad məscidi, Allahverdixan günbəzi və s. binalar Məşhədin görkəmli yerləridir. Nadir şah əfşarın məqbərəsi də son əsrdə təmir olunmuş və yeni şəklə salınmışdır.

## SUZ

Suz Şərqin ən qədim yaşayış məskənlərindən sayılır. Yerləşdiyi ərazinin həddən artıq məhsuldar torpaqlara malik olması sanki şəhərin qədimliyinə şərait yaratmışdır. Qədim yunan tarixçisi Strabonun yazdığına görə, Suzda hər arpa dənəsi 100 arpa, hər buğda dənəsi isə 200 buğda verərmiş.



*Suz – Əhənilər*

Bir sıra mənbələr şəhərin yerində eradan əvvəl VII minillikdə insan yaşadığını, V minillikdə isə kəndlər olduğunu söyləyir. Əhalinin saxsı qab bişirdiyi məlumdur. 4-cü minillikdə əhalinin oturaq həyata keçməsilə əlaqədar olaraq əkinçilik inkişaf edir.

Suzun o dövrdəkı abidələri bizə gəlib çatmasa da, şəhər qəbiristanlığında aşkar olunan bəzi əşyalar o dövrün tərəqqisindən xəbər verir. Həmin nümunələr oraq, sancaq, ayna və s. dir. Filizdən hazırlanmış bəzi məmulatlar filizçiliyin inkişafından xəbər verir.

Suzun mövcudluğu tarixində ən böyük dağıntısı assuri hücumları zamanında olub. Şəhər demək olar ki, yerlə yeksan edilibmiş. Qaynaqlar, həmçinin Suzun bir qisim təsərrüfatının assurilərin paytaxtı Aşura köçürüldüyünü söyləyir.

Amma şəhərin gözəl coğrafi mövqeyi, yəni şərqlə qərb və şimala cənub

ölkələri arasındakı karvan yollarının üstündə yerləşməsi, bərəkətli torpaqları və s. Əhəməni hökmdarlarının (e. ə. II- IVəsr) diqqətindən yayınmadı. Suz Əhəmini sülaləsinin paytaxtından birinə çevrildi. Böyük bir dövlətin qüdrəti sayəsində çiçəkləndi. Və şan- şöhrət tapdı. O, qədim dünyanın ən tanınmış şəhərlərindən biri oldu.

Suzun o dövrdəki cah- cəlalı çoxlu səyyahları, alimləri özünə cəlb edib. Yunanıstan, Hindistan, Misirdən və s. ölkələrdən çoxlu sənətkarın, tacirin bura gəlib yaşaması bizə bəllidir.

## SUZ SASANİLƏRİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ



Sasani sülaləsi üç ardıcıl müharibə sayəsində Əşğani qoşunlarını məğlub edir. Onların axırıncı hökmdarını Suz yaxınlığında baş vermiş müharibədə əsir alır və oradaca öldürtdürür. Belə nəql olunur ki, şəhər bu döyüşlər zamanı hərbi təzyiqə məruz qaldığı və ciddi müqavimət göstərdiyi üçün böyük dağıntıya məruz qalmışdı, böyük bir hissəsi isə tamamilə yerlə yeksan olmuşdu. Lakin Ərdəşir Babakanın xələfləri- I Ərdəşir və I Şapur viran qalmış yerlərin bərpasını həyatı keçirdilər və Suz əvvəlki görkəminə qaytarıldı. Get- gedə Sasani hakimləri Suza çox əhəmiyyət vermişdilər, şəhərdə ticarət və sənətkarlıq çiçəklənmişdi, sərvəti və rövnəqi artmışdı. Suzda aparılan qazıntı işləri, aşkar edilmiş şüşə qablar, sikkələr və s. Suzun iqtisadi və mədəni sahələrdə nə qədər böyük inkişaf etdiyini göstərir.





Qrişməndin Suzun salamat qalmış yaşayış evlərinin divarlarında müəyyən etdiyi rəsmlər də Sasani dövrünə aid edilir. Nəqqaşlıq nümunələrindəki ahu, gərgədan öz təbii ölçülərindən iki dəfə böyük çəkilmişdir. Ona əlavə ov səhnələri də müəyyən olunmuşdur. Gildən hazırlanmış möhür və lövhələr də diqqəti cəlb edir. Möhürün üzərində dövrünün görkəmli şəxsiyyətinin rəsmi həkk edilmişdir.

Suzun bu dövrdəki sənətkarlığı, xüsusilə ipək istehsalı dünya şöhrəti qazanmışdı. Qeyd olunmalıdır ki, tarixi mənbələr Suzda qul əməyindən geniş istifadə olunduğunu göstərir. İran Roma müharibələri zamanı əsir düşmüş romalılar bu işə cəlb edilirdilər. Romalılar xüsusilə toxuculuq sahəsində və ipək istehsalının genişləndirilməsində böyük rol oynayırdılar.

Bu dövrün mühüm tarixi hadisələrdən biri də İranda və Mesopotamiyada xristianlığın yayılması olmuşdur. İran Roma müharibələri belə Şərqlə Qərb arasında əsrlər boyu davam edən mənəvi və maddi əlaqələri kəsə bilməmişdi. Qərbdən xristiyanlıq qısa bir dövr ərzində göstərilən ərazilərdə müəyyən dərəcədə yayılmışdı. Tarixi qaynaqlar çoxlu kilsə tikildiyinə də dəlalət edir.

Mesopotamiyada xristianlığın yayılmasında suriyalılar, bizanslılar və xüsusilə romalılar fəal rol oynayırdılar. Bu işdə, əlbəttə, həm siyasi, hə də iqtisadi amillər də öz təsirini göstərmişdi. Suz xristianlığı yayan birinci dərəcəsi mərkəz kimi diqqəti cəlb etmişdi. Roma əsirlərinə şəhərdə yaşayış yerləri verilməsi bu işə güclü təsir göstərmişdir.

Eramızın IV əsrində Sasani hökmdarı II Şapur (309- 379-ci illər) daxili siyasəti müəyyən mənada xristiyanlığa qarşı yönəltmişdi. Bu isə azlıqda olan dinin tərəfdarları içərisində böyük bir ixtişaş yaradır. Nəticədə II Şapur narazı əhaliyə divan tutmuş, şəhəri onun silahlı dəstələri alt- üst etmişdi. Sasani hökmdarı təkcə Suzu viran etməklə işi bitirməyib. Onun bir daha dirçəlməsinə mane olmaq üçün yaxınlıqda yeni şəhər- İrane Xure Şapur- adlı şəhər saldırır. Sasani rəhbəri bu yeni şəhərin genişlənib çiçəklənməsi üçün bütün tədbirləri görmüşdü. Tarixi qaynaqlar göstərir ki, II Şapurun səyi nəticəsində İrane Xure Şapur tərəqqi edir. Qeyd olunur ki, təkcə şah qəsrinin tutduğu ərazi 1 kvadrat kilometrə bərabər imiş. Qəsri inşa edərkən ilk növbədə müharibələrdə əsir düşmüş hərbçilərdən və başqa ölkələrdən gətirilmiş qullardan istifadə edilibmiş.

II Şapurdan sonra bütün Sasani sülaləsinin hakimiyyəti dövründə (640-cı ilədək) Suz yenidən dirçəlir, ölkənin mühüm ticarət və iqtisadi mərkəzlərindən birinə çevrilir. O şəhərin eyvanının - norx adlı eyvanın - günümüzədək gəlib çatmış xarabası bu fikri bir daha təsdiq edir.

Suz şəhəri İrane Xure Şapurun yaxınlığında olmasına baxmayaraq öz qədim mədəni şöhrətini saxlaya bilmişdi.

Xuzistanda və ölkənin digər əyalətlərində salınan müxtəlif yaşayış məntəqələri də onun əhəmiyyətini azaltmırdı. Amma bununla belə alimlər Suzun əvvəlki təmtəraqının, abadlığının zəiflədiyini qeyd edirlər. Çünki o, birinci dərəcəli şəhər səviyyəsini artıq ikinci dərəcəylə dəyişməyə məcbur olmuşdu.

Suz islam dövründə. Suz şəhəri M. t. ilə 640- cı ildə ətraf ərazilərlə birlikdə islam orduları tərəfindən tutulur. Suzun əhalisi ilə islam qoşunları arasında şiddətli vuruşma olur. Və nəticədə xeyli insan təlafatı və dağıntı baş verir.

Suzun qədim mədəniyyət mərkəzi kimi tarixi rolu ərəb rəhbərliyinin diqqətini özünə cəlb edir. Suzda öz dövrünün ən böyük məscidlərindən biri inşa edilir. O, eyni zamanda islam aləminin ən qədim məscidlərindən sayılır.

İslamın ilk əsrlərində Suzda təsərrüfat həyatı və mədəniyyət çiçəklənmişdir. Hicrətin birinci və ikinci yüzilliyinə aid tapılan çoxlu qab, alət, dulusçuluq vasitələri bunu təsdiq edir. Həmçinin müxtəlif ziynət əşyaları öz gözəlliyi, zərifliyi və yüksək zövqü ilə indi də yüksək qiymətləndirilir.

Tarixi qaynaqlar sonrakı dövrlərdə, yəni üçüncü əsrdən başlayaraq Suzun tənəzzülə uğradığına dəlalət edir. O, artıq yaddan çıxan əyalət şəhərinə çevrilir. Bunu görkəmli tarixçi Yəqubinin "Əl- Buldən" əsərində də görmək olar. Müəllif təkcə iki dəfə Suzun adını ötəri xatırlayır, həm də yalnız bunu qeyd edir ki, şəhərdən sular axmaqdadır.

Üçüncü- dördüncü əsrlərdə şəhərin vəziyyəti haqqında ətraflı məlumat toplamaq olmur. Görünür bu hal, Suzun əhəmiyyətini itirməsi ilə əlaqədardır. Sonradan, yəni dördüncü əsrdə, Müqəddəsi şəhər haqqında qısa bir yazı bizə qoyub getmişdir. Alim göstərmişdir ki, Suz çoxlu şəkər qamışı bitən yerdir.. şəhərdən xarici ölkələrə çoxlu şəkər göndərilir. Suzda həm də yaxşı ipək, cürbəcür sap istehsal olunur.

Suzun təkcə təsərrüfat həyatı zəifləməmişdi, o, eyni zamanda öz siyasi və inzibati əhəmiyyətini itirmişdi. Şəhərin bu halı onun keçmiş şan- şöhrəti, rövnəqi ilə uyuşmurdu. Suzun tarixinə toxunan "Hüdud əl- aləm" əsəri şəhəri birinci dərəcəli varlı- dövlətli, çoxlu taciri olan şəhər kimi təqdim edir. Suz Xuzistan əyanlarının yaşayış məntəqəsi olub, çoxlu pal- paltar, xəz, ətriyyat istehsal edib. Həmçinin göstərilir ki, Danyal peyğəmbərin tabutu Suzda müəyyən olunub.

Orta əsrlərdə Suz qədim şöhrətini bərpa edə bilməsə də, öz abadlığı, vilayət mərkəzi olması ilə tanınırdı. Şəkər qamışının bolluğu şəkər istehsalı





etməyə, ənənəvi sənətkarlıq isə yaxşı parça toxumağa imkan vermişdir. Xüsusilə Suz ipəyi əvvəlki kimi yüksək qiymətləndirilib. Suz naringisi o dövrlərdə dillər əzbəri imiş.

Tarixi qaynaqlar Suzu təsvir edərkən göstərirlər ki, şəhərin bazarı və məscidinin islamın ilk dövründə tikildiyi güman edilir.

Danyal peyğəmbərin qəbri isə Kerxə çayının sahilində olub. Suz həmin ərazini də əhatə edibmiş. Qəbrin yaxınlığında hicri tarixinin VIII əsrində, yəni monqol hücumlarından sonra, gözəl bir məscid binası inşa edilmişdir. Orta əsrlərdə Suzu görmüş Həmdullah Mustafi belə nəql edir ki, Peyğəmbərin qəbri şəhərin qərb hissəsinə düşürmüş. Özü də çayın ortasındakı alçaqlıqda imiş. Mustafinin verdiyi qısa məlumatda yalnız bir də bu deyilir ki, çayın balıqları qəribə də olsa insanla ünsiyyət sevir, görəndə qaçmır. Bundan başqa alim heç nə demir.

Belə güman olunur ki, Suz monqol hücümlarından sonra özünün olan qalan abadlığını və rövnəqini itiribmiş. Şəhəri təsvir edən, ya haqqında danışan müəlliflər yalnız Danyal peyğəmbərin qəbrindən xəbər veribdir. Qəbrin üzərində tikilmiş binanın da dəqiq yaranma tarixi söylənilmir. Amma sənətşünaslar həmin üslub xüsusiyyətlərini öyrənərkən onda Cənubi Elamın memarlığının təsirini açıq- aydın görmüşlər.

## MƏDAİN

Mədain bir sıra mənbələrdə Tisufue (Ktesifon) adlandırılır. Bu şəhərin birbaşa tarixini təsvir edən əsərlər yox dərəcəsində olsa da, bizim dövrə qədər qalmış xarabalıqları məlumat əldə etməyə kifayət qədər imkan verir.

Dəclənin sol sahilində, Bağdaddan 30 km cənubi şərqə əzəmətli yarımviran kərpic bina görünür.

Qədim İranın mədəniyyət mərkəzlərindən biri kimi tanınan bu məşhur bina Pars və Sasani şahənşahlarının paytaxtı olmuş Mədainin (Tisfunun) qalıqlarındandır. "Tisfun" məfhumu qəti surətlə demək olar ki, İran dillərindən olan sözdür. İslam dövrünə mənsub İran coğrafiyaçıları isə "Tisfun" və ya "Tusfun" yaxud "Tusbua" adlarını "Ktesifon" adlandırmışlar. O dövrlərdə bu şəhərin əhalisini yəhudi, arami, iranlılar təşkil edirdi. Onlar şəhərə "mədinə" deyirdilər. Şəhər 2 hissədən ibarət olduğundan "Mədain" adlandırılmışdır.

İlk dəfə Tisfun adı e. ə. 221- ci ildə Yunan tarixçisinin əsərində çəkilir. Bundan sonra bir sıra tarixçilər onun haqqında məlumat verirlər.



***Mədain***

Mehrdadın başçılığı ilə cavan Pars dövləti Selevkilər dövlətini məğlub etdi. Sonra isə onlar bütün Beynənnəhreyni və Suriyanı məğlub etdilər. Tisfunun hər cəhətdən yaxşı bir ərazidə yerləşdiyini gördükdə əvvəlcə onu şah iqamətgahı kimi inşa etdilər. Sonra isə Tisfun Parsların paytaxt şəhərinə çevrildi və orada dəbdəbəli gözəl saray və binalar tikildi.

O dövrlərdən başlayaraq şəhər günbəgün inkişaf edib. Sonra, Əşkanilərin paytaxtına çevrildi. Möhkəm divarlarla əhatə olunan və onun bir hissəsi olan Sulkiyə siyasi və iqtisadi mərkəz kimi tanındı.

Hərgiz Tisfunda Əşkanilər dövrünə aid tarixi abidələr qalmasa da Tisfun yaxınlığında salınmış, yəni Fərat çayının sahilində olan Əl- hadarda Əşkanilərə mənsub tikintilər vardır. Orada o dövrə aid olan tikililər haqqında müəyyən məlumat əldə etmək olar. Beləki Parslar əvvəl çadırlarda yaşamışdır. Çadırlar bir- birinin yanında dairə şəklində qurulurmuş. Belə bir qayda evlərin tikintisində də təzahür edir. Əl- hadar bu qayda ilə o dövrdə möhkəm qala divarları ilə əhatə edilmişdir. Bu qaydadan Sasanilərdən sonra tarixdə tanınan Abbasi xəlifələri də Bağdad şəhərinin tikintisində istifadə etmişlər. Bu dövrün mühüm abidələrindən biri "Qonbəde Ələviyan" (Ələvilər günbəzi)dir. O, həmçinin ən gözəl tarixi binalardan biri sayılır. Bu binanın həmçinin 4 tərəfi vardır. Əksər hisəsi saxsı yazılarla və gəclə bəzədilmişdir.

Yunanıstanlı tarixçi Filusterat, İranın şərq və qərbinə səyahət etmişdir. Yunanıstan alimi Eplunis gördüyü haqqında danışarkən Tisfunun gözəl sarayları barəsində belə deyir:





Sarayın tavanı filizlə (o- misə oxşar filizdir, adətən bəzək üçün istifadə edilir, misdən tez əriyir) ziynətlənmiş və şəffaflıqdan parıldayır, qadınlar və kişilər üçün çoxlu otaqlar var. Sarayın bütün divarları kərpiclər, qızıl- gümüş təsvirlər və nəqşlərlə bəzədilmişdi:

Ağ saray və başqa bu kimi binalar Tisfunda I Ərdəşirin və II Şapurun dövründə tikilmiş idi. Dəfələrlə həmlələrə məruz qalmış bu binalar Əşkanilər və hətta Sasanilər dövründə bərpa edilmiş, hicrətin III əsrinə qədər gəlib çatmışdı. Abbasilər xəlifələrində Əl - Müktəfibillahın əmri ilə dağıdılmış və onun avadanlığı, "Qəsr ut- tac" binasının tikintisinə sərf edilmək üçün Bağdada daşıdılmışdır.

1903- 1905, 1908- 1910- cu illərdə 2 avropa alimi Herzefeld və Zarre Tisfunun xarabalıqlarında qazıntı işləri aparmışlar. Onlar belə nəticəyə gəlmişlər ki, şəhər iki hissədən - şimal məhəllədən və cənub məhəllədən ibarət olmuşdur.

Köhnə hissə olan şimal məhəllədə kanalların və divarların qalıqları tapılmışdır. Tapıntılara əsasən tam dəqiqliyi ilə demək olar ki, şəhərin şimal hissəsi Əşkanilər dövrünə mənsubdur. Şəhərin iki hissəsini birləşdirmək üçün çayın üzərində möhkəm körpü tikilmişdi. Bu körpü haqqında Həmzə İsfahani də öz əsərində danışmışdır. Sonrakı dövrlərdə Dəclə üzərində Sasanilərin hakimiyyəti zamanı yeni körpü salınmışdır.

Sasanilərin dövründə Tisfun təkcə gözəlliyi ilə deyil, böyüklüyü ilə dünyanın iki böyük şəhərlərindən biri olmuşdur. Çünki bu paytaxt 7 şəhərin (qəsəbəsinin) birləşməsindən təşkil olunmuş idi.

Dəclənin sağ sahilində Vehərdəşirin qəbri yerləşən ərazini də Tisfunun bir hissəsi kimi hesab edirlər. Əgər sağ sahildə yerləşən Maxuza məhəlləsini başqa bir şəhər kimi götürsək, tam şəkildə Tisfunun 7 şəhərdən ibarət olduğunu görərik.

Sasanilərin paytaxtı bütünlükdə hündür hasarlarla əhatə olunmuşdu. Şəhərə gediş- gəliş Əşkanilərin dövründə salınmış bir körpünün vasitəsilə olmuş, lakin sonralar əhalinin sayı artdığından gediş- gəliş üçün bu kifayət etməmiş, II Şapurun dövründə Dəclənin üzərində 2- ci körpü salınmışdır.

Dəclənin hər iki tərəfində şah sarayları olmuşdur. Şahənşahlar adətən yonulmuş daşlarla və müxtəlif nəqşlərlə bəzədilmiş xüsusi saraylarda yaşamışlar. İndi də onun bir hissəsi qalmaqdadır. Kmaxe- Kəsrə yaxud Tağe Kəsra adı ilə tanınmış, I Ənuşiravan tərəfindən tikildiyi tarixçilər tərəfindən yazılan, o bina Sasanilərdən qalmış mühüm abidədir. Herzfeld adlı Fransız tarixçisinin fikrincə bu bina I Şapurun dövrünə aiddir. Ancaq tarixi həqiqət belədir ki, o, I Şapurun dövründə burada mövcud olsa da, sonra I Ənuşirəvanın dövründə belə əzəmətli şəklə salınmışdı. İnşaat nəticəsində

başqa bina və imarətlər ona əlavə olunmuşdur. Bu bina öz qalıqları ilə tamaşaçısının nəzərini özünə cəlb edib heyrətə salır. Məşhur Azərbaycan şairi Əfzələddin Xaqaninin bu binaya həsr etdiyi "Mədain xərabələri" adlı əsəri vardır. Şərq memarlıq əsərlərinin ən gözəl nümunələrindən olan abidə əsrlər boyu müxtəlif təsirlərə məruz qalsa da, yenə də öz estetik təsiri, ehtişamı ilə Sasanilər dövründən bizə məlumat verir. XVII əsrin əvvəllərində səyyahlar və qədim abidələr üzrə tədqiqat aparan alimlər Tağe Kəsra və Tisfun ilə maraqlanmış, qiymətli tədqiqat işləri aparmışlar. Belə ki, onların çəkdiyi təsvirlər və gördükləri elmi işlər 2 əsr bundan əvvəl oranın hansı vəziyyətdə olduğu haqqında bizə məlumat verir. Təssüflər olsun ki, hazırda onun yarısından azı qalıb. Mədain haqqında belə bir tarixi məlumat da vardır:



Xosrov Ənuşirəvan (531-579-cu illər) Tisfunda taxta çıxdıqdan yarım əsr sonra onun dövləti hər cəhətdən- siyasi, hərbi və iqtisadi- baxımdan inkişaf etmişdir. Ənuşirəvan Yunan filosoflarına (Afina məktəbi üzvləri Yunanıstanda əziyyət çəkirdilər) burada sığınacaq vermişdir.

Tisfun bu dövrdə öz inkişafının ən yüksək zirvəsinə çatmışdı. Xosrov Ənuşirəvanın dövründə yeni qalalar tikilir, hasarlar çəkilir və binalar təmir olunurdu. Bu barədə "Uyun ul-əxbar" əsərində belə deyilir: "O, Mədaində divar və "babuləbvabı" tikdi, Xosrov həmçinin bir neçə hamam və məbəd inşa etdirdi. Biri indi də onun adı ilə adlanan saraydır ki, Xosrov onu tikdirmişdir". Başqa inşaat ilə birlikdə çoxlu bəzək işləri və gəc bəzəkləri bizə gəlib çatmışdır.

Tisfun sarayı haqqında Andre Qedar belə yazır: "Sasanilər paytaxtında, yəni Tisfun şəhərində Tağe Kəsra adı ilə məşhur olan əzəmətli bina tikildi. Xarici görkəminə görə bina 6 mərtəbədən ibarət olub kiçik tağlardan təşkil





olunmuşdur. Onun eyni zamanda parsların memarlıq üslubunda olan eyvanı vardır.

Eyvanın eni 64 metr, hündürlüyü 34 metr, uzunluğu 48 metrdir. Eyvanın böyüklüyü elədir ki, "Kaxe Daryuş" orada maneəsiz yerləşir. Sasani padşahları eyvanda başqa səfirləri qəbul edərdilər. Eyvan çoxlu sütünlardan ibarət olub, kərpicdən tikilmişdi və divarları çoxlu, nəzəri cəlb edən nəqşələrlə bəzədilmişdi. İpləri gümüşdən və gülləri qiylmətli daşlardan olan Xosrovun füsunkar gəbəsi ona xüsusi yaraşıq verirdi.

Xalı "Baharıstan" və ya "Bare Kəsra" adlanırdı və iranlılar tərəifndən toxunulmuşdu. Deyirlər ki, bu xalının toxunulmasına 25 il vaxt sərf olunmuşdu. Xalının 357 metr uzunluğu və 72 metr eni varmış. Gülbətin, ipək, qızıl və gümüşdən toxunulmuş, müxtəlif qiymətli qaş- qaşlar əlavə edilmişdi. Onda bir bağın bahar fəsli təsvir olunurdu. Quşlar və təsvir olunmuş başqa heyvanlar öz təbii şəkillərindən fərqlənmirdi. Ərəblər İranı istila edərkən o xalını başqa qiymətli əşyalarla birlikdə apardılar. Ömərin əmri ilə Əsrhab arasında o xalı parça- parça edilərək paylandı. Həzrəti Əli öz səhmini 20 min dirhəmə satmış və xəlifə Ömərin xumsunu verdikdən sonra yerdə qalanını 60 min döyüşçüyə paylamışdı. Deyilənlərə görə hər birinə 12 dirhəm çatmışdı.

Ərəblər Sərkərdə Səd Vəqqasın başçılığı ilə 637- ci ildə Tisfuna hücum etmişlər. Yəzd gerd bir sıra yaxınları ilə qaçandan sonra bütün dövlət ərəblərin əlinə keçmişdi. Ərəblər Tisfuna daxil olarkən gözəlliyinə heyran qalıb Quran ayəsi oxumuşlar. Sonra aldıqları qənimət xəzinəyə daxil olub.

Şahın aparmadığı qiymətli əşyalarla dolu sandıqları gördülər. Onların içərisində "cəvaherneşanlı" qızıl və gümüşdən at və başqa heyvanların heykəlləri var idi. Sonra onlar eyvanda fəth namazına çıxdılar.

Hicrətin 140- cı ilində Abbasilər xilafəti dövründə paytaxt İraqa köçürüldü. Xəlifə Mənsur əmr verdi ki, Bağdadın böyüyüb genişləndirilməsində Tisfunun, yəni Mədainin qalan tikinti materiallarından istifadə etsinlər. Beləliklə məğlub, boşalmış Mədain tam süquta uğradı.

# CƏNUBİ AZƏRBAYCAN

# MİDİYA ABİDƏLƏRİ

Haqqında bizim dövrə çox məlumat gəlib çatmasına baxmayaraq, Azərbaycan ərazisində yerləşmiş ilk, ən qədim və güclü dövlətlərdən olmuş Midiya abidələri və ümumiyyətlə Midiya haqqında bir az danışmağı özümüzə borc bilirik.



*Midiya – Assuriya relyefi b.e.ə. VIII əsr*

Bu dövlətin tarixini yazan alimlər ilk növbədə qədim dünyanın ən tanınmış tarixçi alimi Heredotun qoyub getdiyi məlumatlara müraciət edirlər. Heredot Midiyaya aid aşağıdakı xronikanı yazmışdır:

Saysız hesabsız müharibələr nəticəsində Assuriya Midiyanı istila edir. Amma tezliklə əsarətdən azad olur və çar Deyoiun rəhbərliyi altında Ekbatan adlı paytaxt inşa edir. Deyoiun hakimiyyəti 53 il, farsları və digər asiyalıları məğlub etmiş oğlu Fraortun hökmdarlığı isə 22 il çəkmişdir. Assuri dövləti





ilə olmuş növbəti müharibədə Fraort öldürülür. Oğlu Kiaksar yerinə hakim olur. Kiaskar Assuri şahlığını məğlub etmək istəsə də bacarmır. Ona qalib gəlməkdə başda Midiya adlı rəhbəri duran skif tayfaları mane olurlar. Kiaksar skiflərlə vuruşur və qalib gəlir, sonra isə Babil çarlığı ilə birləşir və Assuri şahlığını darmadağın edir. Daha da qüvvətlənən Kiaksar skiflərin tamam axırına çıxmığa çalışır. Məğlubiyyətə uğramış skif tayfalarının qalıqları qaçıb Kiçik Asiyaya səpələnir. Onlarla havadarlıq edən Midiya arasında müharibə beş il davam edir. O, taxtı oğlu Astiaqa verir və vəfat edir. Astiaqın qızı Mandanadan və Kambis sayılan Kir Midiya zadəganlarından olan Qarpaqın köməyi ilə Astiaqı məğlubiyyətə uğradaraq Midiyanı istila edir.

Heredotun təqdim etdiyi bu qısa hekayət dövrümüzün məhşur alimləri tərəfindən heç də mütləq həqiqət kimi qəbul edilmir. İlk növbədə Assuri kitabələri, yunan və qismən də erməni mənbələri həm Midiya, həm də qonşu ərazilərdə o əsrlərlə mövcud olmuş dövlətlərin mümkün qədər müfəssəl tarixini yazmaqda alimlərə böyük kömək göstərirlər.

Müasir tarix elmini maraqlandıran ən mühüm problemlərdən biri də Midiya çarlığının müstəqil inkişaf dövrlərində (b. e. əvvəl VII əsr) və ondan əvvəlki mərhələlərdə etnik tərkibinin müəyyən edilməsidir. Bu məsələ ətrafında uzun vaxtdır ki, elmi mübahisələr gedir. Midiya ərazisində yaşamış qəbilələrin mənşəyi üzərində aparılan təlqiqatlar da Heredotun verdiyi məlumatlara əsaslanır. Heredot Midiyanın altı qəbilə birləşməsindən ibarət olduğunu qeyd edir: Buslar, paretakenlər, struxatlar, arziantlar, budilər və mağlar. Bunlardan paretakenlər, arziantlar və qismən də struxatlar adlarına və s. göstəricilərə görə irandilli qəbilələr kimi güman olunur. Qalanlardan-buslar, budilər və mağların mənşəyi ətrafında isə müxtəlif fərziyələr irəli sürülür. Bəzi alimlər onların qeyri- İran olduğunu söyləyərək qafqaz xalqları ilə yaxın mənşədən yarandıqlarını güman edirlər. Başqa qism tədqiqatçılar isə bu qəbilələrin türk kökündən olduğunu təsdiq etməyə çalışır. Bu barədə yəqin ki, gələcəkdə alimlərin, xüsusilə Azərbaycanın o dövrləri ilə məşğul olan vətənpərvər övladlarının əsaslı elmi mülahizələri söylənəcəklir. Bu məsələ ilə bağlı bir neçə söz demək yerinə düşərdi. Məlumdur ki, indiki İraqın ərazisində b. e. əvvəl IV- III minilliklərdə yaşamış şumerlər əksər alimlər tərfindən heç də türk mənşədən kənarda qəbul edilmirlər. Onları İraqa ən çox şimal- şərq tərəfdən, yəni Midiya ərazisi regionundan köc etdikləri fikirləri də mövcuddur. Bütün bunlardan əlavə şumer maddi abidələri və Türküstan ərazisində aşkar edilmiş abidələr arasında yaxınlıq da inkar edilməz faktlardır. Odur ki, bütün bu deyilənlərin müxtəlif elmi ekspedisiyalar tərəfindən təsdiq olduğunu nəzərə alaraq güman etmək

olmazmı ki, şumerlərin nəsillərindən olanların Midiya ərazisində yaşadıqları sonrakı minilliklərdə, məsələn, hind- avropa qəbilələrinin ümumən qəbul edilmiş fikrə görə b. e. əvvəl 2000- 1500 illərdə Azərbaycana - İrana göc vaxtlarından sonrakı əsrlərdə də yaşamaqda davam etmişdir? Təəssüf bu ehtimal ətrafında hələlik İran - fars mənşələi qəbilələrin tarixi haqqında yazılan kimi samballı elmi tədqiqatlar aparılmamışdır. Bu məsələnin dəqiq elmi həlli həm Yaxın və Orta Şərqin ən qədim dövrləri haqqında yaxşı təsəvvür yaradar, həm də bir sıra şovinist, mürtəce rəsmi və qeyri rəsmi dairələrə dəyərli cavab olardı.



*Midiya*

Midiya abidələri haqqında məlumatlar da çox çətinliklə əldə edildiyindən biz onların ikisini, Assuri mənbələrindən götürülmüş iki şəkli təqdim edirik. Onlardan biri Midiya qalasının, ikincisi isə Midiyanın ən qəddar düşməni sayılan Assuriyanın möhtəşəm qalası sayılan Aşurin relyef rəsmləridir. Oxucular onlara baxarkən o dövrün memarlığı, istehkam tikintisi xüsusiyyətləri ilə müəyyən qədər tanış ola biləcəklər.





# HƏMƏDAN

Həmədanın adı Madların dövründə "Əssaya" idi. Assuri dilində "Kaseşan şəhəri" mənasını verir. Bu şəhəri yunanlar "Ekbatan" adlandırmışlar. Əhəməni kitabələrində "Hemkatana" və ya "Heqemetale", Assur kitabələrində isə "Həmədana" yaxud "Əmədana" şəklində, sasanilərin dövründə "Ehmetan" adlandırmışdılar. Tövratda isə "Ehmina" sözlüyə, Sasanilərin dövründə "Ehemetan" adlanmışdır. Bu ad iki sözdən ibarət olub "Heng" (yer) "Meta" (cəmlənmiş) cəm yer və ya mərkəz deməkdir.

İslam dövrünün iran tarixçi və coğrafiyaşünasları onu Cəbəl əyalətinin bir hissəsi kimi qeyd edirlər. Cəbəl adının ona verilməsi onun dağlıq zona olması ilə əlaqədardır. Həmədan və ətrafı Mad torpaqlarına daxil olub. V əsrin ortalarında "Dağlıq ölkə" ya "Eraq" adı ilə adlanmışdır. "Əyalətə Cebəl"ı orta əsrlərdə çox vaxt səhv olaraq "İraqi- Əcəm" adlandırılıb. O, Beynənnəhreynin aşağısı olan ərazi olmuşdur. Qərbdə Kermanşah və Həmədan, şimali- şərqində Rey, cənubunda İsfahan yerləşirdi.

Həmbullah Müstafi Həmədan haqqında belə deyir: "Cəmşid Pişdadi tərəfindən Həmədan salınmışdır. Qalalar kilidlənir. Şəhərin ortasını "Şəhəristan" adlandırırlar ki, Dara Darab oğlu tərəfindən salınmışdır. İndi otaqların əksəriyyəti xarabaya çevrilmişdir. Həmədan əvvəl böyük və möhkəm şəhər kimi tanınmışdır. "Təbəqat" kitabında deyildiyi kimi 2 fərsəng uzunluğu olmuşdur. Onun çoxlu zərgər bazarları varmış. Sonra xarabalığa çevrilmiş amma yenidən Cəmşid Pişdadi tərəfindən bərpa etdirmişdir və eyni zamanda ətrafına hasar çəkilmişdir".

İstərxi isə deyir: "Həmədan böyük şəhərdir. Dörd dəmir darvazası vardır. Binaları kilidlənir və çoxlu bağ, əkin yerləri vardır".

Eramızdan əvvəl 612- ci ildə Neynovanın süqutundan sonra Əhəmənilər sülaləsi tərəfindən yeni torpaqlar ələ keçirilmiş və "herq metane" əzəmətli taxt- tac mərkəzinə çevrilmişdir. Şahənşahlar yeni qalalar, hasar və dəbdəbəli saraylar tikmişlər. Heredot və Pulip saraylar və şəhərlər haqqında belə yazırlar: "şəhərin içərisində bir saray vardır ki, ərazisi 1 km-dir. Binanın tavanı, sütunları, tağlar, giriş qapıları, qızıl örtüklə örtülmüşdür. İçində olan qablar xalis qızıl və ya gümüşdəndir. Oranın məbədləri də bu cür bəzədilmişdir".

Hal- hazırda "Heqmetane" təpəsinin ətəyində hasarların, qalaların və sarayların xarabalıqları qalmaqdadır.

H.t.1330- cu ildə Əbu Əli ibn Sinanın (m.t.987- 1037-ci illər) minillik yubileyinin keçirilməsi ilə əlaqədar olaraq Həmədanda yol tikintisi işləri

aparılır. Üzərində Dara şahın qalasının yeri qalan təpəylə üzbəüz yerləşən "Heqemata"nın təpələrinin birinin qərbi uçularkən Əhəmənilərin, Midiyalıların şəhərinin qala və binalarının, zirzəmilərinin, dəhlizlərinin köhnə divarlarının qalıqları üzə çıxdı.

Midiyalalardan indiyə qədər yadigar qalmış abidələrin içərisində "müəlla" təpəsinin cənubunda qalmaqda olan "daş şir" olduqca böyük maraq doğurur. Əhəməni sülaləsinin şahları çoxlu bina məbəd və saraylar tikdirmişlər.

Daş sütunların aşağısı oyma üsulu ilə yazılımışdır və kitabələrdən ("Heqamətane" təpəsində) belə məlum olur ki, Ərdəşir o yerlərdə məbəd və saray tikdirmiş, "Mədra" dininin ayinlərinə görə Mehr və Anahiataya da sitayiş olunması üçün "Anahita"nın heykəlini yüksətlmişdir.

İran tarixinə dair mühüm abidələr bu yerdə mövcuddur. Bu abidələr içərisində "Lovheye Zərrin" (qızıl lövhə) böyük əhəmiyyət kəsb edir. Bu lövhə Daranın böyük babası Aryarama aiddir. Digəri isə "Lovhe Ərşam"dır ki, onu I Daranın özünə II Daraya və II Ərdəşirə aid edirlər. Daha bir lövhə isə həqiqətən misilsiz xəzinə olan "Gəgçname"dir. Bu Əlvənd dağının sülaləsinin şahlarından bəhs edir və onların nəslinin bu şəhərdən olduğunu söyləyir. Yuxarıda adları çəkilən 1- ci və 2- ci lövhə Parsi, Elami və Babili hərfləri ilə yazılmışdır. Şəhərin mərkəzində "Armaqahe Estər" (Estər qəbri) kimi tanınan məşhur bina vardır. İslam dövrünün tikililərinə oxşasa da belə ehtimal olunur ki, binanın əsli daha qədim olmuş sonralar bu şəklə salınmışdır.

Əşkanilər qüdrət sahibi olduqdan sonra Məqruniləri İrandan qovdular və "Hekmətane"ni əhəməni şahlarının yay istirahət mərkəzi kimi seçdilər. Belə ki, indi də "Müsəllə" təpəsinin üzərində oyma üsulu ilə yazılmış kitabə Əhəməni sülaləsinin şahlarından bəhs edir və onların nəslinin şəhərdən olduğunu söyləyir.

Tarixən məlum olduğu kimi, Şəmsuddövlənin dövründə burada vəzir olan Əbu Sina buradaca vəfat etmiş və dəfn olunmuşdur. Böyük alimin min illiyi münasibəti ilə məzarı üzərində həmin dövrün üslubunda dəbdəbəli bina tikilmişdir.

590- cı ildəki məğlubiyyətdən sonra Həmədan Xarəzmşahların torpaqlarından biri kimi hesab olunmağa başlandı.





# MONQOL - İSLAM MEMARLIQ MƏKTƏBİ

Şərq mədəniyyəti tarixində monqol və tatar mənşəli sülalənin hakimiyyəti dövründə yaradılmış maddi mədəniyyət nümunələri bu məktəbin sənət üslubunda meydana gəlmişdir. Bir sıra müəlliflər həmin dövrü iki yerə bölürlər, 1) Elxanilər dövrü mədəniyyəti (m.t.1218- 1334-cü illər). 2) Teymurilər dövrü mədəniyyəti (m.t.1370- 1502-ci illər) illər.

Bağdadın süqutundan sonra (1258- ci il) Azərbaycanın Təbriz şəhəri Elxanilərin paytaxtına çevrilir və Yaxın və Orta Şərqin başlıca mədəniyyət mərkəzi rolunu oynamağa başlayır. Saysız - hesabsız hərbi yürüşlər və xalqların köç etməsi bütün şərq xalqalarında sarsıntı, başqasına maraq, həyat uğrunda mübarizə və s. ibarət yeni əhval- ruhiyyə yaratmışdı. Sonra isə yeni quruculuq dövrü başlayır. Bu zaman tatar- monqolların özləri ilə gətirdikləri və islama daxil olduqdan sonra yaşatdıqları çin mədəniyyətinin ünsürləri incəsənətdə və s. büruzə verir. Bu dövrdə yaradılan maddi və eləcə də mənəvi mədəniyyət nümunələri çin, ənənəvi islam və yerli mədəniyyətlərin sintezindən, qaynayıb- qarışaraq yeni bir üslub yaratmasından ibarətdir. Bu dövrü islam mədəni irsinin yeni bir pilləsi hesab edirlər. Belə ki, əsasən Asiya qitəsinin qərbində yaradılıb formalaşan islam mədəniyyəti uzaq Şərq-Çin mədəniyyətləri ilə bağlana və qarışa bilmişdi. Bu yeni üslub sonradan bir sıra islam ölkələrinə yayıldı. Beləliklə islam incəsənətində özündən əvvəlki ünsürlərə yeni bir mədəniyyət ünsürü daxil olmuşdu.

Bu sülalə mənşə etibarilə Azərbaycan və İran üçün yeni olsa da mədəni tərəqqiyə güclü təkan verdi. Marağa kimi sənətkarlıq mərkəzi yenidən öz simasını bərpa etdi. Eyni sözləri əksər İran şəhərləri haqqında demək olar. Regionda yeni məscid, mavzoley və mədrəsə inşaatı geniş vüsət aldı. 1295-ci ildə Təbrizi paytaxt seçən Qazan xanın varisi Olcaytu şəhərin cənub-qərbində Sultaniyyə adlı daha bir gözəl yaşayış məntəqəsi saldırır. Təəsüf ki, ondan Olcaytu mavzoleyinin qalıqlarından başqa heç nə gəlib çatmayıb.

Monqol - islam memarlığında ilkin dövrlərdə səlcuq üslubu təqlid olunurdusa, sonra daha çox zərifliyə və şuxluğa meyl artır. Bu meylin ən yaxşı təzahürü 1322- ci ildə inşa edilmiş Qaramin məscidində nəzərə çarpır. Onun planında dördbucaq şəklində meydança və hər tərəfdə bir eyvanı olan məscid binaları vardır. Onlar da qübbələrlə örtülmüşdür. Daha da çox zərifliyin yaradılmasına başqa bir misal kimi, 1418- ci ildə Məşhəddə inşa edilmiş Gövhərşad Camesini göstərmək olar.

Elxanilərdən yadigar olaraq gözəl paytaxtları Təbrizdə Came məscidindən başqa bir abidə qalmayıb. Həmin nümunə 1322- ci ildə tikilib tamamlanmışdır. Onun diqqəti cəlb edən başlıca xüsusiyyəti meydança ətrafında inşa edilmiş dörd eyvan və qübbələrin olmasıdır. Divarları kərpicdən tikilmişdi və nisbətən hündür idi. Divarların üzərində isə daxili eyvanlar yerləşmiş, bir neçə qaleryası varmış. Monqol islam məktəbinin başqa bir layiqli nümunəsi Yəzddə yerləşən Came məscid sayılır. Həmin abidə 1327-cü ildə Elxanilər dövrünün sonunda inşa edilmişdir, sonradan həmin binada bəzi dəyişikliklər aparılmışdır.

Təəssüf ki, həmin dövrdə yaradılan saray və qəsrlər haqqında məlumat olduqca azdır. Halbuki həm Təbriz və Səmərqənddə, həm də Bağdad və Sultaniyyədə çoxlu saray inşa edilmişdi. O da qeyd edilməlidir ki, bütün tabe ölkələrdə poçt yolları boyu çoxlu xüsusi dayanacaq məskənləri də vardı. Onlardan biri, Xan artım adlısı Bağdadda 1359- cu ildə tikilmişdi. Bina üstüörtülü iri salondan, ayrı- ayrı otaqlardan və birləşdirici dəhlizlərdən ibarətdir.

Monqol - islam məktəbi mavzoleylərin tikintisində də çox zaman səlcuqları təkrar edirdi. Bu hal, onların qədim əcdadlarının ənənələrinə bağlılıqla izah olunur. Mavzoleylər əksər hallarda bürc şəklində yaradılırdı. Ən yaxşı nümunə kimi mütəxəssislər Azərbaycanın Marağa şəhərində tikilmiş və Hülakunun qızına aid olan mavzoleyi qeyd edirlər. Onu gözəl mozaik tərtibat bəzəmişdir. Eyni uslub Qum şəhərinin yaxınlığında imamlar dəfn olunmuş mavzoleydə də vardır. Həmin məktəbin başqa layiqli nümunəsi kimi Olcaytu hökmdarın qeyd olunan Sultaniyyə şəhərində aşkar edilmiş mavzoleydir. O, 1307- 1316- cı illərdə inşa olunub. Mavzoley, üzərində iri qübbə olan otaqdan ibarətdir. O, mavi rəngli divarla əhatə olunmuş, daxilində dəhlizlər vardır. Səkkizguşəli plana malik həmin abidədə səkkiz minbər yerləşir.

Monqol - tatar abidələrinin ən görkəmlisi kimi Səmərqənddə Teymurləngin dəfn olunduğu mavzoley qeyd edilir. O, 1405- ci ilə inşa edilmişdir. Tarixən məlumdur ki, Teymurləng öz paytaxtını Şərqin birinci şəhərinə çevirmək üçün əlindən gələni etmişdir. Səmərqəndlə müqayisə oluna bilən şəhərləri tənəzzülə uğratmış, istila etdiyi ölkələrin ən yaxşı sənətkarlarını paytaxtının abadlaşması üçün cəlb etmişdir. Nəticədə həqiqətən Səmərqəddə bütün dünyada tanınan möhtəşəm abidələr ucaldıldı.

Reqistan meydanı, Qur Əmir abidəsi, Şah Zənd və başqaları indi də görənlərin nəzərində öz gözəlliyi və əzəməti ilə həmişəlik yaşayır.

Ümumiyyətlə Teymurilər dövründə möhtəşəm darvazaları və nəhəng qübbələri olan məscidlərin tikintisi həyata keçmişdir. Belə abidələrin





minarələri də öz ölçülərinə görə əvvəlkiləri ötüb keçirdi. Buxarada inşa edilmiş Koliyan məscidi Temurilər dövrünün yadigarıdır.

Bu dövrü xarakterizə edən bir mühüm cəhət də qeyd edilməlidir. Başqa islam diyarlarında canlı həyatın təsviri qadağan edildiyi halda, İranda bu tez-tez pozulurdu. Monqol- tatar hakimiyyəti dövründə yaradılan sənət əsərlərində mütəxəssislər çoxlu belə rəsmlərə rast gəliblər. O dövrdə bu sahədə ən yaxşı mərkəz kimi Təbriz şəhəri göstərilir. Məhz Təbriz incəsənətinin bir sıra sahələrində monqol- islam sənət məktəbin təşəkkül tapıb formalaşdığı üçün o, mədəni mərkəz rolunu oynamışdır.

Sənət üzrə mütəxəssislər, həmçinin bunu da göstərirlər ki, bu dövrdə yaradılmış miniatür məktəbliləri bütün islam dünyasında ən görkəmli məktəblər idilər.

## TƏBRİZ

Cənubi Azərbaycanın bu gözəl şəhərinin yaranma tarixi bu günkü günümüzədək araşdırılsa da dəqiq, elmi şəkildə müəyyən olunmamışdır. Bəzi alimlər onu Midiyanın qədim paytaxtı olmuş Ekbatanın, başqaları isə Kaza yaxud, Kabrin şəhərinin yerində inşa olunduğunu qeyd edirlər.



*Ərk qalası*

Təbrizin indiki ərazisində salınma dövrünü iranşünas tarixçilərdən bir qismi Sasanilər hakimiyyəti illərində həyata keçirildiyini söyləyirlər. Amma bu fikir də şəhərin tarixini düzgün əks etdirmir. Çünki Təbriz Sasanilərin dövründə (VI əsr) artıq inkişaf etmiş şəhər olmuşdur. İranın qatı şovinist dairələri isə Təbrizin yaradılmasını Abbasilər sülaləsinin məşhur hökmdarı Harun ər - Rəşidin adı ilə bağlayır. Təbrizdə Rəşidin anası Zeynəb xatunun adına bulağın mövcud olması onlara bu iddianı söyləməyə əsas verir. Əslində bu fikir Azərbaycan xalqının qədim tarixini və milli özünəməxsusluğunu təhrif etmək məqsədini güdür. Çünki Təbrizin Abbasilər dövründə inşa ekdilməsi (X əsr) fikri qəbul olunsa, onda xalqımızın tarixi də şovinistlərin nəzərincə "dayazlaşar" və biz öz vətənimizin "gəlmə qonaqları" ola bilərik.



*Təbriz – Göy məscidin bəzəyindən*

Məsələ isə daha qədim dövrlərlə bağlıdır. 1903- cü ildə Təbriz ərazisində aşkara çıxarılmış sikkələr mütəxəssislərə şəhərin b. e. əvvəl VII-IV əsrlərdə mövcud olduğunu söyləməyə imkan vermişdir.

Qədim tarixçilərdən II Sarqonun kitabəsində verilən məlumatlar da Təbriz şəhərinin b. e. əvvəl XIII əsrdə bir yaşayış məntəqəsi kimi fəaliyyət göstərdiyinə dəlalət edir. O dövrdə yaradılmış Manna dövləti də Təbrizin





ərazisində müxtəlif növ tikinti- abadlıq işləri aparmışdır.

Ərəb dilli tarixçilərdən şərqin görkəmli alimləri Əl - Bəlazuri (IX əsr), Əl - Həmadani (IX əsr), İbn Hövqəl (X əsr), İbn Misnəveyh (XI əsr), Əl - Müqəddəsi (X əsr), Əl- Nəsavi (XIII əsr) və başqaları Təbrizin bina və küçələrinə, baş vermiş müxtəlif tarixi hadisələrə aid müxtəlif növ məlumatı qələmə almışlar. VIII əsrdə Azərbaycan ərazisi ərəb xilafətinin tərkibinə daxil olduqdan sonra Təbriz ərəb canişini yerləşdiyi iqamətgaha çevrilir. Bu vaxtlardan etibarən şəhərin abadlaşması dana da sürətlənir.

Qeyd olunmalıdır ki, Azərbaycan xalqının igid oğlu, milli azadlıq mübarizəsinin rəhbəri Babəkin də iki ilə yaxın Təbriz şəhərində yaşaması söylənilir. Bəzi tarixçilər (məs. Şərqin görkəmli alimi Ət- Təbəri) Təbriz şəhərində alınmaz qala olduğunu və Babək hərakatı iştirakçılarının həmin qaladan xilafət qoşunlarına qarşı mübarizədə bir dayaq nöqtəsi kimi istifadə etdiklərini yazırlar.

Təbrizin IX əsrin ortalarından başlayaraq güclü tərəqqi keçirdiyi məlumdur. Şəhərdə ticarət, sənətkarlıq inkişaf etdikcə ətraf ərazilərdə yerləşən əkin yerlərinin də istifadəsi genişlənir. Bu dövrlərdə şəhərin bollu - bərəkətli, abadlaşmış bir yaşayış məntəqəsi olması çoxlu tarixi sənədlərdə qeydə alınmışdır.

Amma 1042- ci il zəlzələsi gözəl Təbrizə böyük ziyan vurur. Bəzi mənbələr göstərir ki, bu təbii fəlakət nəticəsində 40- 50 min adam tələf olubmuş. Şəhərin müdafiə hasarı, binaların çoxu və məşhur bazarı dağılıbmış. Azərbaycan Atabəylər dövlətinin hakimləri Təbrizi paytaxt seçdikdən sonra (XII əsr) şəhərin yeni dirçəliş dövrü başlayır. Xüsusilə bu sülalədən olan və vətənpərvərlik əməlləri ilə ad qoymuş Qızıl Arslan şəhərin abadlıq işlərinə böyük fikir verirmiş. O dövrün çiçəklənən digər iri yaşayış məntəqələri - Naxçıvan, Beyləqan, Şamaxı - kimi Təbriz də özünün inkişaf mərhələsini yaşayırdı. Bir sıra mənbələr bu göstərilən Azərbaycan şəhərlərinin hər birinin əhalisinin 100 minə çatdığını qeyd edirlər.

O əsrlərdə şəhərdə istehsal olunan müxtəlif növ ipək, yun və pambıq parçalar və onlardan tikilən müxtəlif cür geyimlər Şərq ölkələrində geniş şöhrət tapmışdır. Bundan əlavə Təbriz həmçinin ox, kaman, qılınc düzəldən çoxlu silah qayırma karxanalarına da malik idi. Şəhər dulusçularının yaratdıqları məmulatlar da yüksək qiymətləndirilirdi. Orta əsrlərdən görkəmli səyyah- alimi, dünyanın əksər ölkələrində olmuş Ət- Battuta yazmışdı ki, Təbrizin bazarı kimi səliqəli və zəngin bazara heç yanda rast gəlməmişdi. Səyyah alimin qeyd etdiyinə görə, şəhərdə hər bir sənət üzrə xüsusi məhəllələr olub. Orta əsrlərdə Təbrizdə toxunan xalçalar hər yanda məşhurlaşmışdır.

Beynəlxalq əhəmiyyətli ticarət yollarının kəsişdiyi nöqtədə yerləşməsi Təbrizin ticarət aləmində mühüm rol oynamasını şərtləndirirdi. Bu, xüsusilə 1258- ci ildə Bağdadın monqol hökmdarı Hülaku xan tərəfindən dağıdılmasından sonra daha da genişləndi. Təbriz də o vaxtdan başlayaraq Yaxın və Orta Şərq ölkələrində ən fəal ticarət mərkəzlərindən birinə çevrildi.



*Təbriz*

Yüz ildən artıq davam edən tərrəqqi mərhələsi bu dəfə 1385- ci ildə Temurləngin istilası nəticəsində dayandırılır. Bir il sonra isə (1386 - cı il) Toxtamış güclü hücumla şəhərə soxulur. Hər iki hücum Təbrizə çox böyük ziyan vurmuşdu. Tarixi mənbələr istilalar nəticəsində Təbrizdə on min adam öldürüldüyünü, yüz min nəfərin isə əsir aparıldığını xəbər verir. Təxminən on il sonra Qara Yusifin dəstəsi şəhəri çalıb talayıbmış. Beləliklə, XI əsrin sonları Təbrizin tənəzzül etdiyi illlər olub. XV əsrdə Azərbaycan və qonşu ölkələrdə hakimiyyətdə olmuş Qaraqoyunlu və Ağqoyunlu nəslindən olan hökmdarlar da Təbrizin çiçəklənməsi üçün xüsusi diqqətə layiq bir iş görməmişdilər.

Bu əsrlər ərzində şəhərdə inşa edilmiş ən görkəmli tikililərdən qala divarlarını və onlarla birlikdə inşa edilmiş altı şəhər darvazasını, ətrafında çoxlu dükan yerləşən Sahibabad meydanını, həddən çox hücrədən ibarət olan Dövlətxana binasını, Həştbehişt sarayını, Uzun Həsən məscidini, səkkiz bucaqlı şəkildə inşa edilmiş ustu örtülü şəhər bazarını və sair dini və inzibati xarakterli binaları göstərmək olar.

1501 - ci ildə Şah İsmayıl Xətai Təbrizi Azərbaycan Səfəvilər dövlətinin paytaxtı elan etdikdən sonra şənər yenidən inkişaf yoluna qədəm qoyur. Şah İsmayılın Təbriz və ətraf rayonların tərəqqisinə xüsusi fikir verdiyi tarixi faktlardır. 1524 - cü ildə Çaldıran müharibəsinin nəticələri ümumən Azərbaycan üçün ağır vəziyyət yaratmışdı və Təbrizin də





tərəqqidən qalmasına səbəb oldu. Dövlətin paytaxtının 1555- ci ildə Təbrizdən Qəzvinə köçürülməsi də şəhərin yeni dirçəlişinə sürətli təsir göstərməmişdir. Bunula belə səfəvi hökmdarlarından I Təhmasib və Şah Abbasın gördükləri bir sıra tədbirlər dagıdılmış təsərrüfatlarda qayda- qanun uaratmaga yönəldiyi üçün bütün sahələrdə oldugu kimi Təbrizdə də müəyyən tərəqqi yaratmışdı. Tədqiqatcılar bu illərdə də şənərdə çoxlu bazar, karvansara, içtimai və yaşayış binaları olduğunu qeyd edirlər.

İnşasına 1311- ildə başlanmış Tacəddin Əlişah məscidi nəinki Azərbaycanın, həmçinin orta əsrlər Şərqinin ən gözəl abidələrindən biri sayılmışdır. Onun hündürlüyü 25 m çatdırılmış, ümumi sahəsi isə 200 x250 m olub. Məscid bir tərəfdən mədrəsə, başqa tərəfdən isə zaviyə ilə əhatə edilibmiş. Bina öz yaradıcısı, memar Tacəddin Əlişahın adı ilə tanınıb. Sənətkar məscidin həyətində özü üçün tikdirdiyi məqbərədə dəfn edilmişdir. XII- XIV əsrlərdə şəhərdə məşzhurlaşan Cümə məscidi həmçinin, Süleymaniyyə, Əlaiyyə adlı məscidlər də var imiş. Ümumiyyətlə, Səfəvilər sülaləsi hakimiyyətinin sonu üçün Təbrizin ümumi mənzərəsini təsəvvür etməkdən ötrü şəhərdə 350 məscidin, 47 mədrəsə binasının, 300 karvansaranın, və saysız hesabsız dükanın olduğunu söyləmək kifayətdir.

## SƏFƏVİLƏR MEMARLIQ MƏKTƏBİ

Bu sənət üslubu Azərbaycan Səfəvilər sülaləsinin hakimiyyəti illərində yaradılmışdır (1502- 1722- ci illər). Tarixçilərin yazdıqlarına görə Səfəvilər paytaxtı Təbrizdə mədəni hərəkat meydana gəlmişdi. Amma paytaxt Qəzvinə köçürüldükdə o, nisbətən zəifləyir. İsfahan şəhəri Səfəvilərə yeni paytaxt olduqdan sonra isə başlıca mədəni mərkəzə çevrilir. O, iki əsr ərzində islam aləminin ən məşhur sənət mərkəzlərindən biri sayılırdı. Səfəvilər dövründə ölkənin Çinlə və Avropa ölkələri ilə əlaqələri genişlənmişdi və bu da öz növbəsində mədəni inkişafa kömək edirdi.

Təəssüf ki, səfəvilərin Azərbaycan şəhərlərində - Təbriz və Qəzvində- yaratdıqları abidələrindən çox az nişanə qalıb. Halbuki tarixçilər Şah İsmayılın və Şah Təhmasibin inşa etdirdikləri divarları bəzəkli və mərmərlə döşənmiş çoxlu saraylar olub. Qaynaqlarda o binalar haqqında məlumat verilir. Odur ki, Səfəvilər sənət məktəbindən danışarkən adətən İsfahan paytaxta çevrildikdən sonrakı dövr nəzərə alırlar.

Səfəvi məscidləri öz planına görə ənənəvi Azərbaycan İran memarlığını

davam etdirirdilər. Onların ilk nümunəsi kimi Şah İsmayılın Qəzvin yaxınlığında altıncı əsrdə tikdirdiyi Safə şəhər məscidi xatırlanır. O, planına görə mərkəzi meydan ətrafında qurulmuş dörd eyvandan ibarət idi. Qiblə eyvanı həcmcə ən böyüyü idi və onun iri özülü varmış, üstündə isə qübbə tikilibmiş.

Səfəvi memarlığının zirvəsi kimi İsfahandakı Şah məscidini qeyd edirlər. O, mütəxəssislərin fikrincə, Azərbaycan memarlığının yüz illərlə axtardığının nəticəsi kimi meydana gəlmişdir. Bu məktəbin ən yaxşı nümunələrinə İsfahanın mərkəzi meydanında rast gəlmək olar.

Səfəvilər dövründə çoxlu mədrəsə və mavzoley binaları da inşa edilmişdir. Onlar bu sahədə əvvəlki üslublara bir sıra yeniliklər daxil etmişdilər. Belə ki, Qərbi İran ərazisində mavzoleylərə də qübbəli zala əlavə bir giriş zalı da birləşdirilir. Şərqi İranda və Azərbaycanda isə səkkiz bucaqlı mavzoleylər inşa edilir. Səfəvi məktəbinin ən qədim mavzoleylərindən biri Şeyx Səfiəddinin Ərdəbildəki mavzoleyidir. Onun tikintisinə on altıncı əsrdə başlanıb. Qeyd olunmalıdır ki, mavzoleyin yanında "çin evi" adlı bir qübbəli bina var. Tikilmə tarixi kimi XVII əsr göstərilir. Həmin binanın daxili divarları ağacdan düzəldilmiş, müxtəlif formalı və şəkilli ornamentlərlə bəzədilmiş örtüklə örtülmüşdür. Orada mavzoleyə aid olan saxsı qabları saxlamaq üçün xüsusi yerlər vardır.

Səfəvilər həmçinin şiə təriqətinin ardıcılları olduğu üçün İraqın şiə şəhərlərində - Kərbəlada, Nəcəfdə, Samarada çoxlu mavzoley binları tikdirmişlər. Şah Abbasın zamanında Bağdad şəhərində inşa edilmiş Kazımiyyə mavzoleyi buna ən yaxşı misaldır. Həmin abidə Səfəvi memarlıq üslubunda yaradılmışdır. O, iti burunlu qübbəsi və hündür minbərləri ilə fərqlənir.

İsfahandakı Madər şah mədrəsəsi Səfəvi memarlığının bu sahədə nailiyyəti sayılır. O, Səfəvi sülaləsinin hakimiyyətinin sonlarında, şah Hüseynin zamanında,1700- ci illərin əvvəlində inşa edilib. Ənənəvi plana malikdir; uzun meydança, ətrafında dörd eyvan, hər birində iki mərtəbə. Bunun qiblə eyvanı Şah məscidinin eyvanını bəzəyir. Qiblə zalının qübbəsini mavi rəngi mozaikalardan ibarət gözəl ornament bəzəyir. O, Səfəvi memarlığının sonuncu əzəmətli abidəsi hesab olunur.

Səfəvilərin tikdirdiyi saraylar içərisində Çahar sütun və Əli Qapu xüsusi qeyd edilməlidir. Onları Şah Abbas İsfahanda inşa etdirmişdi. Səfəvi sarayları həm də gözəl bağçaları ilə fərqlənirlər. Çahar sütun sarayının girəcəyində gözəl bir eyvan da vardır. Ondan yay fəslində qəbul zalı kimi istifadə olunarmış. Binanın tavanı bir neçə möhkəm sütunlar üstündə qurulub. Sarayın ortasında şah zalı yerləşir, ətrafında isə iki məktəbdə kiçik





yaşayış otaqları vardır. Sarayın daxili divarlarını insan və bitki rəsmləri olan gözəl şəkillər bəzəyir. Əli Qapu sarayı isə dövlət işləri üçün nəzərdə tutulubmuş. Onun ikinci mərtəbəsində bir balkon vardır. Tavanı da ağac sütunları üstündə qurulmuşdur.

Səfəvilər dövründə çoxlu karvansara binaları inşa edilmişdir. Bu dövrdə tikilən körpülər isə iki mərtəbəli olub, səlcuq memarlıq məktəbi ənənələrini davam etdirmişdir. Ümumiyyətlə bu məktəb bolluca ornament və mozaika tətbiq etməklə səciyyələnir. Həmçinin mərmərdən də çox istifadə edilmişdir. Binaların daxilini çiçək rəsmləri, müxtəlif bitki şəkilləri bəzəmişdir. Kipvari ornamentlər də tərtibatda mühüm rol oynamışdır.

Səfəvilər sənət məktəbi saxsı qablar istehsalında da böyük uğurlar qazanmışdı. O, get- gedə təkmilləşib, əvvəllər mövcud olan çin təsirlərindən uzaqlaşmış və orijinal üslub kimi özünü təsdiq etmişdir. On yeddinci əsrdən qalma və gözəl rənglərə malik saxsı qablar indi də öz təsnifini saxlayır.

Bəzi alimlərin fikrincə toxuma sənəti Azərbaycan və İranda Səfəvilər dövründə öz zirvəsinə yüksəlib. Bu ilk növbədə ipəkçiliyə aiddir. O dövrdə həm sadə, həm əlvan, həm də gümüş və qızıl saplardan istifadə edilərək çoxlu növ ipək toxunurdu. Onlar geyimdə olduğu kimi evin tərtibatında, hətta çadıraların bəzədilməsində istifadə olunurdu. Toxunulmuş məmulatlarda rənglərin, ornamentlərin zənginliyi indi də görənləri heyran qoyur.

Səfəvi sənət məktəbi bütün Azərbaycan və İran xalçaçılıq sənətinin qızıl dövrünü yaratmışdır. Bu, islam mədəniyyəti üzrə mütəxəssislərin gəldiyi nəticədir. Belə ki, həmin dövrdə toxunan xalçalar dünya bazarlarında öz vətənlərinin şərəfini birdəfəlik və həmişəlik yüksəltdilər. Bu işdə ən başlıca rolu Azərbaycanın Təbriz şəhəri oynamışdır. Bu da qeyd edilməlidir ki, on altıncı əsrdən başlayaraq Səfəvi sənət məktəbi öz xalçaçılıq üslubunu yaradır. Monqol və teymuri üslublarından o fərqlənirdi.

Səfəvilər dövründə yaradılan miniatür məktəbi də bütün inkişaf edən mədəniyyətin bir hisəsi kimi tərəqqi etmiş və öz ölkəsini dünyada tanıtmışdı. Bu sahədə yenidən Təbriz şəhərinin əvəzsiz rolunu qeyd etməliyik. Həmçinin Qəzvin miniatür məktəbi də sənətşünaslar tərəfindən yüksək qiymətləndirilir.

# ƏRDƏBİL

Azərbaycanın ən qədim şəhərlərindən olan Ərdəbilin zəngin tarixi vardır. Bəzi mənbələrin verdiyi məlumatlara görə Makedoniyalı İskəndər İranı fəth edərək bir müddət Ərdəbildə öz qoşunları ilə düşərgə salıbmış.



*Ərdəbil – Şeyx Səfiəddin və Şah İsmayıl məscidi*

Şəhərin adı tariximizdə ən çox Azərbaycan Səfəvilər dövlətinin qurucusu Şah İsmayılın və Səfəvilər nəslinin ana vətəni olduğuna görə məşhurlaşmışdır. Tarixi məlumatlara əsasən belə qənaətə gəlmək olar ki, Səfəvi nəsli Ərdəbildə artıq XIII əsrdən etibarən güclü nüfuz sahibi olmuşdur. Onlar Azərbaycan dövlətinin rəhbərliyinə gələnəcən şəhər ətrafında geniş torpaq mülkiyyətinə malik imişlər. Nəslin ən görkəmli üzvlərindən olmuş və təriqətin yaradıcısı sayılan Şeyx Səfiəddinin iri torpaq sahələri olub. Bundan əlavə də o, vəqf və mülk hüququ əsasında Ərdəbil vilayətində, Marağada, Muğan və Gilan rayonlarında onlarla kəndə malik imiş. Ömrünün sonuna yaxın kəndləri yaratdığı təriqətin vəqfinə veribmiş.

Şeyxin oğlu Sədrəddin (1334- 1392-ci illər) varisi olduğu mülkiyyətdən gələn gəlir hesabına ata- baba vətəni olan Ərdəbildə təmtəraqlı ailə





məqbərəsi - qəbirstanlığı tikdirir. Bir sıra tarixçilər inşaat işlərinin 10 il davam etdiyini göstərirlər. Sonradan Səfəvi nəslinin əksər üzvləri burada dəfn edilərmiş. Bəzi mənbələr nəql edir ki, h.t.1203- cü ildə gürcü qoşunu Azərbaycana soxulub Ərdəbilə talan vurarkən qəbirstanlığının darvazasını da özü ilə aparıbmış. Sonradan həmin darvaza geri qaytarılaraq öz əvvəlki yerinə qoyulmuşdur.

Səfəvi ordeninin yaradıcısı Səfiəddin əl - Ərdəbilinin silahdaşları və ardıcılları tərəfindən verilən müxtəlif növ tərpənməz əmlak və torpaq payları səfəvi nəslinə az qazanc verməzmişdir. Maraqlıdır ki, tarixçilər məzar vəqfinə hədiyyə verənlər içərisində Əmir Teymurun da adını çəkirlər. Teymurləng Səfiəddinin nəvəsi Hacı Əlinin xahişi ilə Anadoluda Osmanlı ordusu ilə müharibələrdə tutduğu çoxlu əsiri buraxır. Sonradan həmin əsirlərin nəsilləri Şamlı və Rumlu qəbilələrini yaratmışdılar. Səfəvilər hakimiyyəti dövründə onlar siyasi və hərbi sahələrdə səfəvilərdən asılı vəziyyətdə idilər.

Əmir Teymurun səfəvi nəslinə etdiyi ikinci böyük yaxşılıq Ərdəbil ətrafındakı geniş və bərəkətli torpaqları pulla alıb Səfiəddinin məzarının vəqfinə bağışlaması olmuşdur. İ.Münşi bu faktı təsdiq edərək göstərir ki, I Abbas 1602- ci ildə Bəlxə etdiyi hərbi yürüş zamanı Əmir Teymurun şəxsi möhürü və Monqol Qırmızı Damğası (Al- Tamğa) ilə bəzədilmiş vəqf sənədini təsadüfən ələ keçirmişdir.

Müasir tarixçimiz Ə.Rəhmani haqlı olaraq belə bir nəticəyə gəlmişdir ki, məhz əmir Teymurun Səfəvi nəslinə Ərdəbil mahalının xəracını yığıb istifadə etməyi tapşırması, Səfəvilərin güclənməsinə və müstəqil siyasət yeritməyə başlamasına zəmin yaratmışdır.

İsmayılın atası Şeyx Heydərin (1406 - 1488- ci illər) fəaliyyəti sayəsində səfəvi ailəsinin Ərdəbildəki nüfuzu güclənmiş və sərvəti daha da artmışdı. Buna, əlbəttə Şeyxin Uzun Həsənin qızı Aləşah xatınla evlənməsi də müəyyən təsir göstərmişdir. O da ata - baba vərəsəsi saylan məşhur məqbərəyə diqqət vermiş, abadlığının qorunub saxlanmasına çalışmışdır.

Artıq XIV əsrin ikinici yarısından başlayaraq səfəvilərin nüfuzu qonşu torpaqlara yayılır. Tarixçi O.Əfəndiyev göstərir ki, XV əsrdə Ərdəbil səfəvi təriqətinin ardıcılları təkcə Azərbaycanda deyil, həmçinin Kiçik Asiyada, Farsda, İraqda, Gilanda, Talışda və s. ölkələrdə fəaliyyət göstərirdilər.

Qeyd olunmalıdır ki, təriqətin yaradıcısı Səfiəddin haqqında çoxlu rəvayət, yarıreal, yarım möcüzə əhvalat və s. mövcuddur. Bununla belə əksər tarixçilər şeyxin tibb, riyaziyyat, fəlsəfə, məntiq və s. elmlərə yaxşı bələd olduğunu söyləyirlər.

Səfəvilər Azərbaycan dövlətini yaradıb idarə etdikləri zaman həm

Ərdəbil ətrafında, həm də digər vilayətləridə öz şəxsi torpaqlarının həcmini həddən ziyadə artırmışdılar. Qızılbaş - Osmanlı müharibələri isə onları İranın daxili rayonlarından yer əldə etməyə məcbur edirdi. Çünki sərhəd ərazilər dağıntıya, soyğunçuluğa məruz qalırdı. Bəzi tarixçilər səfəvilərin müəyyən mənada ata - baba yurdlarından uzaqlaşmasının səbəblərindən birini də bunda görürlər.

Ərdəbilin ən məşhur abidəsi sayılan Səfəvi məzarıstanı ilə bağlı bir tarixi fakt diqqətə layiqdir. O, tariximizdə mühüm rol oynamış Şah İsmayılın fəaliyyəti ilə bağlıdır. 1509- cu ildə Şah İsmayıl ikinci dəfə Şirvana hərbi səfər edir. Səfəvilər hakimiyyətinin tarixini yamış məşhur alim İ.Münşi göstərir ki, Şirvanın o dövrdəki hakimi Şeyxşah mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırmışdı. Şah İsmayıl bu səfəri də müvəffəqiyyətlə başa vurduqdan sonra atası Heydərin Təbərisaranda yerləşən qəbrini Ərdəbilə - Səfəvilərin ata- baba yurdundakı qəbiristanlığa göçürməyi əmr edibmiş. Onun bu tapşırığı yerinə yetirilmişdi. Tarixçi Xandəmir də bu haqda xəbər verir.

Ərdəbilin tarixdə şöhrət tapması səfəvi təriqətinin fəaliyyətinin genişlənməsi ilə birbaşa əlaqədardır. Bu da əsas etibarilə XIV- XV əsri əhatə edir. Bir qədər əvvəl Ərdəbil monqol basqınlarına məruz qalmış, Yaxın və Orta Şərqin çoxlu yaşayış məntəqələri kimi yerlə yeksan edilmişdi. Bəzi mənbələr Ərdəbil əhalisinin tamamilə qırılıb müxtəlif səmtlərə dağıldığını söyləyirlər.

Səfəvilər XIV əsrdən başlayaraq şəhərin abadlığına xüsusi diqqət verirlər. Ölkənin hər yerindən şiə müsəlmanlar onun ziyarətinə gedərmiş. Bir sıra müəlliflər məzarın öz nüfuzuna və təmtərağına görə ölkədə yalnız Məşhədin imam Rza məzarından geri qaldığını söyləyir. Səfəvilər hakimiyyətdə olduğu zaman Ərdəbil ölkənin paytaxtı idi və dövlətdə mühüm mövqeyə malik olmuşdu. Şəhər və ətraf ərazilər birbaşa şaha tabe idi. Və yalnız onun qarşısında haqq hesab verirdi. Qeyd olunmalıdır ki, Ərdəbilin belə vəziyyəti həm əhalinin ümumi güzəranına, həm də tikinti-quruculuq işlərinə müsbət təsir etmişdi. Şəhərin abad görkəmi, zənginliyi onu görənlər tərəfindən yüksək qiymətləndirmişdir. İngiltərə kraliçasının xüsusi elçisi A.Cenikson onu öz təsvirlərində aşağıdakı kimi qələmə almışdır: "Biz 1562- ci ilin oktyabrın 16- da Ərdəbil adlanan şəhərə daxil olduq və karvansarada (hospital) yerləşdirildik. O, indiki sufinin atası İsmayıl tərəfindən yalnız xarici qonaqlar və səyyahlara kömək üçün ağ daşdan inşa etdirilmişdir.

Adını çəkdiyim mərhum hökmdar İsmayıl sağlığında tikdirdiyi gözəl, görkəmli məqbərədə dəfn olunub. Məqbərə təmtəraqlı məsciddə yerləşir..."





Məlumdur ki, orta əsr Avropa və s. müəllifləri Səfəvi hökmdarlarının mənsub olduqları təriqətin adından çıxış edərək, çox zaman "Böyük sufi" yaxud "Sufi" adlandırırdılar.

Ərdəbil, Gilan, Şirvan, Təbriz və s. mühüm iqtisadi rayonların yolu üstdə yerləşdiyindən bir ticarət mərkəzi kimi də geniş rol oynamışdır. Şəhərdə çoxlu karvansara, hamam, bazar və s. ictimai xarakterli mərkəzlər olmuşdur. Onun ticarətləri Şərqin və Qərbin çoxlu ölkələri ilə əlaqədar olmuşdur. Bazarları xarici qonaqları özünə cəlb etmişdir. XVI əsrdə Ərdəbildə olmuş ingilis taciri T.Benister Ərdəbil haqqında yazmışdır: "Böyük əhəmiyyətə malik olan Ərdəbil həm də İran şahlarının məzarı yerləşdiyi üçün xüsusi ehtiram qazanmışdır:...Onu çoxlu əyan və nücabə ziyarət edir"...

Azərbaycanın qədim şəhəri sayılan Ərdəbilin zəngin tarixindən verilən bu parça, onun haqqında müəyyən təsəvvür yaratmaq məqsədini güdür. Şübhəsiz şəhər ayrıca əsərin mövzusu olmağa layiqdir.

## QƏZVİN

Qəzvin Azərbaycanın ən tanınmış mədəniyyət mərkəzlərindən biridir.

Əhməd ibn Ubeydullah "Kitabu Təbyan" əsərində, Xacə Həmdulla Mustafi "Tarixe Qəzide", Əhməd Razi "Yeddi iqlim" əsərində, Məhəmməd Həsən xan Etimadüssəltənə "Miratül- büldan" əsərində rus şərqşünası Bartold "Təzkiraye coğrafiyaye Tarixe İran" əsərində Qəzvinin əsasının qoylmasını Sasanilər dövlətinin 2- ci padşahı I Şapurun (642- 671-ci illər) dövrünə aid edirlər. Lakin Məsudi "Mərucul-zəhəb" əsərinə və İbn Fəqir Həmədani "Əxbar- ul- Buldən" əsərində və İmam Rafii "Kitabu- tədvin" əsərində, Zəkəriyyaye Qəzvini "Asarul- bilad" əsərində, Yaqut Həməvi "Mucəmul - buldan" əsərində Qəzvinin əsasını Şapur (310 - 371-ci illər) tərəfindən qoyulduğunu söyləyirlər.

İbn Fəqir, İbn Xordadbeh, Balazuri və Yaqut Həməvi kimi islam coğrafiyaçılarının fikrincə, Qəzvin sözünün ilkin forması "Kəşvin" olmuş sonradan ərəbləşmişdir. "Qəzvin" adının Xəzər dənizinin qərb sahillərində yaşayan Kaspi tayfasının adından yarandığını da söyləyirlər.

İslamdan əvvəl yaradılmış abidələr hal - hazırda Qəzvində yoxdur. Lakin bəzi tarixçilərin yazdığına görə Sasani dövrünə məxsus atəşkədələr Qəzvin müsəlmanların əlinə keçənə qədər mövcud olmuşdur. Sonra məscidə çevrilmişdir. İmam Ravinin dediyi kimi "Əbu Kəssahın yazdığında

oxumuşam ki, Qəzvin və Rey xərac vermişlər, çünki adı çəkilən hər 2 şəhər sülh yolu ilə ələ gəlmiş və ona görə də onların atəşkədələri xaraba olmamışdır". Həmdullah Mustafi deyir: "Məhəmməd ibn Həcac Qəzvində məscid yaratdı ki, əvvəl bütxana idi, eyni zamanda "Mehreheyre" məscidi əvvəl atəşkədə olmuşdur".



*Qəzvin – Hüseyn Şahzadənin məqbərəsi*





İslam sərkədəsi Burra ibn Qarib tərəfindən tutulmuş şəhər imam Ravinin adlandırdığı "köhnə şəhər"dir. Fransalı səyyah Şardon yazmışdır ki, Səfəvilər zamanı bu şəhərin yerində sonralar Şah meydanı salınmışdır. O, məşhur Ali Qapının qarşısındadır və indi Səpəh küçəsi onun bir hissəsidir.

I Şapur Sasani tərəfindən əsası qoyulan bu şəhər hicrətin ikinci əsrinə qədər yaşayış mərkəzi idi. Elə ki, Abbasi xəliflərindən olan Musaye Hadi (h.t.169-170) Reyə getmək üçün, Qəzvinə gəldi və deyləmiləri döyüşdə məğlub etdi. Xalqın vəziyyətindən xəbər tutduqdan sonra Şapur şəhərinin yaxınlığında şəhər salmağa fərman verdi. Bu şəhər "Musa şəhəri" (Mədinaye musa) adı ilə tanındı. Musaye Hadinin qulamı Mübarək h.t.176-cı ildə başqa bir şəhər saldı və o da "Mədineye mübarək" və ya "Mübarikiyyə" kimi adlandı. Harun ər - Rəşid (h.t.170- 193) Rafe ibn Leysin üsyanını dəf etmək üçün Xorasana gedərkən Həmədana çatdı. Qəzvin camaatı onun yanına gedib Dilmanlıların onlara rahatlıq verməkdiklərini bildirdilər. Harun Qəzvinə gəlib şəhərin ətrafına hasar çəkdirmək haqqında əmr verdi. Amma onun ölümü səbəbindən bu hasar tikilmədi. 654- cü ildə Musa ibn Buqa Mötəzibillah (h.t.651- 655) Həsən ibn Zeyd ələvi ilə müharibəyə girən zaman şəhərin ətrafında qala tikilməsi başa çatdırıldı. Harun ər - Rəşid məscid tikilməsi haqqında da əmr vermişdi. Rafinin dediyinə görə sonralar Came Kəbir məscidi kimi tanınan həmin abidə qədimdən qalmış atəşgah bünövrəsi və 4 tağı üzərində ucalmışdı. Elə ki, Ali Buveyh İranda dövlət yaratdı, İraq, Əcəm (Rey, İsfahan, Həmədan) hakimiyyəti Ruknuddövləyə çatdı. Mustafinin yazdıgına görə Qəzvini yüz il Buveyh ailəsinin hakimiyyət mərkəzi oldu. Deyiləm böyüklərindən olan Sahib ibn İbad və əsli Taleqandan olan vəziri Fəxridövlə h.t.373- ci ildə Qəzvinə gəldi və 2 il müddətdə bu şəhərdə yaşadı və bu şəhərin abadlaşmasında çoxlu fəalliyyət göstərmişdi. O, indi "Kuşək" darvazası kimi tanınan Cusək məhəlləsində çoxlu imarətlər tikdirdi və eyni zamanda Came Kəbirin qonşulugunda bir mədrəsə inşa etdirdi. Şəhərin qalasını təmir etdirdikdən sonra qalaya 212 bürc qoydurdu, şəhəri 9 məhəlləyə ayırdı.

Qəzvinin çiçəklənməsinin ilkin vaxtları hakim Xumartaş ibn Abdullanın adı ilə baglıdır. Zahid və xeyirxah olan Xumartaş xeyriyyə binalarına yaxşı münasibət bəsləyirdi. O cümlədən "Tağe narun"un qərb tərəfində, məqsurə məscidi yanında imamın qalması üçün tikdirdiyi kiçik bina "Məqsureye Xumartaş" adı ilə məşhurdur. Eyni zamanda "Tağe Cəfəri" adlanan bu məqsurədə nəfis şəkildə kəc ilə kitabələr yapışdırmışdır. Bu məqsurənin yuxarısında əzəmətli künbəz vardır. Əmir Xumartaş bu məqsurənin tikintisinə h.t.500- ci ilində başlamış və 509- cu ilində başa çatdırmışdır. Əmir Xumartaş zəlzələ nəticəsində uçmuş "Əshabe Əbu Hənifə" (hündür

Heydəriyyə mədrəsəsi) camesini 513- cü ildə təmir etdirir. Bununla belə o, Cameni Kəbiri və yeni təmir olunan bu cameni nəfis şəkildə kəc ilə ziynətləndirir. Əmir Zahid Xumartaş Qəzvində 500- cü ildə kəhrizlər çəkdirir. İmam Ravinin dediyinə görə, bu kəhrizlərin çəkdirməsinə o, 12 min dinar xərcləmişdir.

Bu dövrdən sonra müxtəlif tarixi keşməkeşlərlə üzləşmiş Qəzvin 955-ci ildə osmanlı türklərinin Təbrizi işğalı nəticəsində Şah İsmayıl Xətainin oğlu I Şah Təhmasib tərəfindən Azərbaycana paytaxt seçilmişdir.

Qəzvinin paytaxt seçilməsi haqqında fransalı səyyah Şardin deyir: "Sultan Süleymanın qarşısında Təbrizi müdafiə etməyə aciz olan şah Təhmasib Qəzvinə gəlir və bu şəhəri ölkənin paytaxtı edir. Çünki bu şəhər hər baxımdan paytaxtlığa münasib idi". Bununla bərabər lord Kerzen də qeyd edir ki, Şah Təhmasibin Qəzvini paytaxt seçməsinə səbəb türklərin əlindən asudə qalmaq arzusu idi.

Qəzvin paytaxt seçildikdən sonra "Darussəltənə" kimi şöhrət qazandı və bundan sonra tərəqqi etməyə başladı. Oruc bəysə, "İranlı don Juan" əsərində qeyd edir: "Bu şəhərdə 100 min ailə - üzvü 5 nəfər və artıq olan ailə - başqa sözlə, 350 min nəfər yaşayır. Şəhərin inkişafı nəzərə alınsa, əhalinin sayı 500 mindən artıqdır". Xalqın milli tərkibi barəsində isə deyir: "Dünyanın bütün mərkəzlərində olduğu kimi əhalisi sıx olan Qəzvin də hər tərəfdən toplanmış camaatdan təşkil olunmuşdur". Lakin paytaxt İsfahana keçdikdən sonra şəhərin əhalisinin sayı azalmağa başladı. Belə ki, Tomas Herbetin və Doren Kottenin dövründə Qəzvinin əhalisi 12 min nəfərdən ibarət olmuşdur. Amma Şah Süleyman Səfəvinin şahlığı zamanı 10 min nəfərdən ibarət olduğunu qeyd etmişlər.

Səfəvi şahlarının dövründə Qəzvində aşağıda göstərəcəyimiz abadlıq işləri görülmüşdür.

I. I Şah Təhmasibin binalarından olan Şah Sarayı tikilmiş, sonralar Şah Abbas onun bir hissəsini dəyişib genişlənmişdir. Şah Sarayının yeddi qapısı olmuşdur ki, onlardan birini Ala qapı adlandırmışlar. İndi Ala qapıdan başqa Şah sarayının qapılarından əsər- əlamət qalmayıb. Məşhur xəttat Əlirza Abbasi tərəfindən yazılmış kitabə Ala qapı darvazasının binası üzərində mövcuddur.

II. Şah sarayının cənubunda yerləşən Səadət meydanı. İtaliyalı Petro Della Vallenin dediyinə görə bu meydan İsfahandakı meydandan bir az kiçik olmuş, lakin gözəllik baxımından ondan geri qalmamışdır. Şah Abbas çox vaxt bu meydanda çovqan oynayarmış. Şah Abbas bu meydanda xarici ölkə səfirlərini qəbul edərmiş və onlar buradaca onun üçün gətirdikləri hədiyyələri şaha təqdim edərmişlər. Şah Abbas Qərb və Şərq tərəfdən





tikdirdiyi Cahannüma adı ilə tanınmış binalarla Səadət meydanını əhatə etdirmişdir. Meydanın ətrafında dükanlar olmuşdur ki, bayramlarda bu dükanlar bəzədilərmiş.

III. Dörd sütun imarəti. Bu imarət Şah Sarayının bir hissəsi idi. I Şah Təhmasib zamanında saray şimal tərəfindən ona birləşdirilmişdi. Eyvanlı, ikimərtəbədən ibarət olan bu binada Şah Təhmasibin dövründə xarici qonaqlar qəbul edilərmiş. Şah Abbasın da ilk bayram mərasimi bu imarətdə keçirilmişdir.

IV. At meydanı - Şah Sarayının ətrafında olan meydanlardan biri olub. Aləm aranın müəllifinin dediyinə görə hərəm bağçasına bitişik imiş.

V. Cənnət bağı böyük bağlardan biri imiş. Geniş küçələri uçulubmuş. Ortasında bir neçə otaqdan ibarət kiçik bina varmış. Amma orada qonaq qəbul edilməzmiş.

İranda şiəlik məzhəbini rəsmləşdirən səfəvi şahları xalqın nəzərini bu məzhəbə cəlb etmək üçün dini binalara, məscidlərə, ələlxüsus imamzadələrə xüsusi diqqət yetirmişdilər. Səfəvilər zamanı Qəzvində tikilmiş və ya yenidən təmir olunmuş dini binalar aşağıdakılardan ibarətdir:

I. Məscide Camenin şimal eyvanı. Onun hər iki tərəfində Şah Təhmasibin dövründə iki kaşi minarə tikilmişdir.

II. Məscide Camenin cənub eyvanı. Məscidin gözəl eyvanlarından biri olan bu eyvan II Şah Abbasın dövründə Xumartaşın məqsurəsinin daxilində tikilmişdir.

III. 1017- cü ildə Cameyi Kəbirin şərqində və 1081- ci ildə, qərbində Şah Süleyman Səfəvinin əmri ilə eyvan tikilmişdir.

IV. Şah məscidi- Şardinin dediyinə görə Səfəvilərə məxsus binalardandır. I Şah İsmayıl bu binanın tikintisinə fərman vermiş və I Şah Təhmasibin dövründə başa çatdırılmışdır. Lakin sonralar unudulmuşdur. Qacarlar dövründə Fətəli şahın fərmanı ilə Təhmasib binasının yerində yenidən qurulmuşdur.

V. Pənce Əli məscidi Peyğəmbəriyyə küçəsinin qərbində yerləşir. Şah İsmayıl Xətainin tikdirdiyi binalardan biri kimi qeyd edirlər. Guya Şah Təhmasibin dövründə Şah Hərəm sarayının məscidi olmuşdur.

VI. Peyğəmbəriyyə mədrəsəsi. Peyğəmbəriyyə küçəsinə (İmam və ya İmamzadələrin dəfn olunan yerə) bitişik və qırxsütun bağının qərb tərəfində olan bu bina Şah Abbasın vəziri Sarı Tağı tərəfindən 1054- cü ildə tikilmişdir.

XII. Sultan Xəlifə mədrəsəsi. Şahesabiq meydanının şərqində, Cameyi Kəbir ilə üzbəüz olmuş və bu bina II Şah Abbasın Sədrüləzəmi tərəfindən 1604- cü ildə tikdirlilmişdir. Qəzvinin Məşhur imamzadələrdən biri, iki

yaşında Kohənbod qəbiristanlığında dəfn olunmuş Hz. İmam Əleyhissəlamın oğlu şahzadə Hüseynin məqbərəsidir. Deyirlər ki, Həzrət Rza və s. Xorasandan keçərkən Qəzvinə gəlmiş, Davud ibn Süleuman Qazinin evində qalmış və övladı orada vəfat etmişdir.

Hicrətin 1047- ci ilində qabaqlar nisbətən yüksək olan Şahzadə Hüseyn məqbərəsi I Şah Təhmasibin qızı Zinnət bəyim tərəfindən yenidən tikilmiş və baş qapı da onun tərəfindən düzəltdirilmişdir. Şah Təhmasibin göstərişi ilə o qapı əvvəllər nəfis şəkildə oyulmuş ağaclarla bəzədilmişdi. Eyni zamanda Səfəvilərdən olan II Şah İsmayılın taxta pəncərə ilə əhatə olunmuş məzarı buradadır.

Qəzvin təbiətən quraqlıq bir yerdir. Əvvəlki dövrlərdə su şəhərin əhalisini kifayət qədər təmin etmişdir. Şəhər paytaxta çevrildikdən və əhalisinin sayı artdıqdan sonra xalqın suya olan ehtiyacı bir daha artdı. Ona görə də Səfəvi şahları, varlı adamlar əvvəl mövcud olmuş kəhrizlərdən əlavə kəhrizlər çəkməyə başladılar. Böyük Şah Abbasın, II Şah Abbasın həyat yoldaşlarının çəkdirdiyi kəhrizlər buna misaldır.

Su ehtiyatını artırmaq məqsədi ilə qış fəslinin sularını yığmaq üçün böyük və geniş həcmli su anbarları tikdirdilər. Belə anbarlardan biri (h.t.1093-ci il) Əlixan adlı, öz dövrünün böyüklərindən olan bir şəxs tərəfindən Şah Süleyman Səfəvi zamanında Cameyi Kəbirin cənubunda tikilmişdir.

1007- ci ildə Şah Abbas paytaxtı Qəzvidən İsfahana köçürür. Bundan sonra yenə də Qəzvinin cahı- cəlalı azalmağa başladı.

Qacarlar sülaləsinin hakimləri o dövrə qədər mövcud olan, səfəvilərdən qalmış binalarda yaşayırdylar. Təmirə ehtiyac duyulduqda onu təmir etdirirdilər. Qacarlar zamanı Qəzvində tikilən ən mühüm məscidlərdən biri Şah məscididir. Bundan qabaq qeyd etdiyimiz kimi, bu məscidin tikintisini Şah İsmayıl Xətai və onun oğlu I Şah Təhmasiblə bağlayırlar, lakin sonralar bu məscid tərk olunub xarabalığa çevrilmiş və Fətəli Şah Qacar tərəfindən yenidən bərpa edilmişdir. Bu məscidə daxil olmaq üçün 3 qarı vardır:

I. Şimal qapısı (sabiq) Pəhləvi küçəsinə tərəf açılır. Qarının üzərində nəstəliq xətlə gözəl yazılmış kitabə vardır və qapının üstü ürək açan kaşılərlə bəzədilmişdir.

II. Qərbdən bazara tərəf qapı açılır ki, burada da qapının üzəri kaşi ilə bəzədilmişdir.

III. Şərq qapısı kiçikdir və küçəyə birləşmişdir. Məscidin həyəti dördbucaqdır və hər tərəfdə hündür eyvanlar vardır. Cənub eyvanı Rafi məqsurəsinə bitişib və onun üzərində arxa tərəfdən kaşi ilə örtülmüş böyük günbəz vardır.





Qacarilər dövründə inşa edilmiş mədrəsələrdən biri, Sərdar mədrəsəsidir. Həllaq məhəlləsində yerləşir. Bu mədrəsə 1831- ci ildə Fəthəli Şah Qacarın zamanında Həsənxan və Hüseynxan tərəfindən tikilmişdir. Mədrəsə iki mərtəbədən ibarət olub Cənub tərəfdən firuzeyi rəngli kaşi ilə örtülmüş, qübbəsi bir metrə yaxın, uzunluguna qızılı künbəzi olan İmarət məscidinə birləşmişdir.

H.t.1306- cı ildə Sədussəltənətin göstərişi ilə İmamzadə Hüseyn məqbərəsi yenidən bərpa edilmişdir. Əsas qapının qarşısında yerləşən eyvan h.t.1293- cü ildə Ağayev Məmmədbağır Əmini tərəfindən ayna ilə bəzədilmişdir.

Şəhəri əhatə edən qala divarları təmir olunmadığından və ya təmir olunsa da tarixin keşmə- keşlərində dəfələrlə təsirə məruz qaldığından məhv oluv getmişdir. Lakin Fətəli Şahın zamanında yenidən təmir olunmuşdur. Təmir keyfiyyətsiz olduğundan divarlar yenidən uçmuşdur. Hal- hazırda şəhərin cənubi- qərbində yalnız qalıqları durur.

Qəzvinin əvvəllər səkkiz darvazası olmuşdur. Bunlardan beşi kaşi ilə dəbdəbəli şəkildə bəzədilmişdir. Darvazalar tədricən bərbad vəziyyətə düşmüş, hal- hazırda 2 darvaza qalmışdır. Bunlardan biri Dorb Kuşək (Qəsr darvazası)dır ki, şəhərin şimal hissəsindədir. Onun üzərinə kaşi bəzəklər vurulması h.t.1206- cı ildə Qəzvin hakimi şahzadə Əzuddudövlənin göstərişi ilə həyata keçirilmişdir. İkinci darvaza Rah Rey darvazasıdır ki, onun yenidən kaşi ilə bəzədilməsi şəmsi ilə 1348- ci ildə "Qəzvin mədəniyyət idarəsi" tərəfindən başa çatdırılmışdır.

Qəzvindən çoxlu alimlər çıxmışdır. Onlardan bir hissəsi bu şəhərdə dəfn olunmuşdur. Ancaq təkcə Həmdullah Mustafinin məzarı üstündə gümbəz vardır.

# SƏLCUQİLƏR MEMARLIQ MƏKTƏBİ

Şərq tarixi üzrə mütəxəssislər göstərirlər ki, on birinci əsr islam aləmində bir növ dönüş dövrü olmuşdur. Həmin vaxt yeni din Türkistanda tam bərqərar olur və islam tarixində türk ünsürünün rolu güclənir. Bundan sonra o, əsas qüvvəyə çevrilir. Bu işdə mənşəcə Orta Asiyadan olan səlcuq türklərinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onlar qısa tarixi dövr ərzində İranı, İraqı, Türkiyənin əsas hissəsini özlərinə tabe etdirirlər.

Səlcuq sənət məktəbini tədqiq edən alimlər onu tarixi dövrlərə əsasən

üç hissəyə bölürlər. İran və Azərbaycan dövrü (h.t.1055- 1157- ci illər) və səlcuq atabəyləri dövrü (h.t.1127- 1262- ci illər).

İran və Azərbaycanda səlcuq hakimiyyəti illərində məscid tikintisi xüsusi vüsət almışdı. Memarlıq məktəbi isə artıq Əbülfət Məlikşah (h.t.1072- 1042- ci illər) zamanında özünü göstərir. Belə ki, səlcuq məscidlərində iri, üstü qübbəli eyvanlar, fasadda iki mərtəbəlilik, qiblə eyvanının üç eyvandan həcminə görə iriliyi, minbərlərin daha hündür olması və s. xüsusiyyətlər səciyyəvi hal alırlar.

Bir sıra mütəxəssislər belə güman edirlər ki, səlcuq memalığı daha çox Qəznəvi incəsənətindən təsirlənmişdir. Hər halda onlarda Türküstan ruhu daha güclü olmuşdur.

Bu məktəbin bariz nümunəsi İsfahanda tikilmiş Cümə Məscidi sayılır. Onu məşhur vəzir Nizamülmülk, Sultan Məlikşahın dövründə h.t.1073- cü ildə inşa etdirmişdir. Bu abidə öz memarlıq üslubunu sonradan Qəzvindəki Cümə məscidində (h.t.1115- ci il) təkrar etmişdir. Bağdadda Məlikşahın tikdirdiyi Sultaniyyə Camesi də həmin məktəbin abidələrindəndir.

Tarixçilər göstərirlər ki, İran və Azərbaycan ərazilərində mavzoleylərin müqəddəs yerlərə çevrilməsi fikri və işi məhz səlcuqlar tərəfindən yerinə yetirilib. Məhz səlcuqlar bürc şəklində məqbərələrin tikintisini daha da inkişaf etdiriblər. Bu məktəbin üslubuna uyğun olaraq belə məqbərələr çoxlu forma kəsb etmişdilər. Səlcuq məktəbinə məxsus ən qədim məqbərə Qəzvin yaxınlığında müəyyən olunubdur. O, 1067- ci ildən 1093- cü llədək inşa etdirilmişdir.

Səlcuqlar, həmçinin Azərbaycan və İran ərazilərində ilk dəfə olaraq dini məktəblər, mədrəsələr inşa etdiriblər. Bu işdə məqsəd mənsub olduqları sünni təriqətlərini şiə əhalisi içərisində yaymaq imiş. O mədrəsələrin ən yaxşı nümunəsi Qəzvindəki Heydəriyyə mədrəsəsidir. Tarixçilərin fikrincə həyata keçirilməsində vəzir Nizamülmülk fəal rol oynadı. Onun təşəbbüsü ilə belə mədrəsələr həmçinin Nişapurda, Tusda və 1066- cı ildə Bağdadda inşa etdirilib. Amma təssüf ki, onlardan heç nə qalmayıb.

Səlcuqların Nişapurda, Reydə, İsfahanda və s. şəhərlərdə tikdirdikləri saraylar da günümüzə gəlib çatmayıb. Yalnız Arp Aslanın Nişapurdakı sarayının bəzi yerləri qalıb.

Türkiyə ərazisində səlcuq mədəniyyəti əsasən XIII əsrdə inkişaf dövrünə qədəm qoyub. O, öz kökləri ilə İran və Azərbaycan səlcuqlarına bağlı olsa da, bir sıra yerli- türk xüsusiyyətləri ilə fərqlənib. Bu cəhətdən onda bizans memarlığının müəyyən təsirləri duyulmaqdadır. Tikintidə daşdan daha çox istifadə edilmişdir. Həmçinin, Konya məscidləri məşhur İsfahan səlcuq məscidinin təkrarı olmamışdır. Buradakı məscidlərin zalı ya olmayıb, ya da sütunlarla əhatə olunmuş çoxlu dəhlizlərə bölünübmüş.





Türkiyədə səlcuq memarlıq məktəbini Sultan Ələddinin adına inşa edilmiş məscid (h.t.1116- cı il) yaxşı xarakterizə edir. Ondan əlavə Nəcdədə, Divricidə və s. yerlərdə inşa edilmiş məscid binalarını da göstərmək olar.

Səlcuqların Türkiyədə tikdirdikləri mədrəsələr çox zaman müəllifinin qəbri ilə eyni yerdə olublar. Başqa bir xüsusiyyət budur ki, səlcuq mədrəsələrinin zalı İraq, İran və Azərbaycan mədrəsələrindən fərqli olaraq həm örtülü olub, həm də ortasında çarhovuz inşa edilib. Bəzi hallarda fəvvarələr də qoyulubmuş. Bu cür yeni növ mədərəsələrdən ən qədimini II Ələddin Keyqubad 1253- cü ildə Ərzurum şəhərində inşa etdiribmiş. Belə mədrəsələrə ikinci ən yaxşı nümunə 1251- ci ildə tikilmiş Qaratay mədrəsəsidir. Həmçinin, Koyadakı Sircanlı mədrəsəsini (1242- ci il), İncə minarəli mədrəsəni (1258- ci il) göstərmək olar.

Səlcuq mavzoley memarlığından danışarkən bir cəhəti qeyd etmək lazımdır. Tarixçilər göstərirlər ki, dördbucaq şəkilli və qübbəli mavzoleylər adətən xırda hakimlər və əyanlar üçün nəzərdə tutulurdu. Böyük mənsəb sahibləri isə bürc şəkilli mavzoleylərdə dəfn olunurdu. Bunu qədim türk ənənəsi ilə bağlayanlar da var. Bürc şəkilli mavzoleylər həm silindirik, həm dördbucaq, həm səkkiz və daha artıq bucaqda, hətta ulduzvari ola bilərdi. Onlara Kiçik Asiyada olduğu kimi İraqda, İranda və s. ölkələrdə rast gəlinir.

Tarixçilər həmçinin qeyd edirlər ki, səlcuq hakimləri səlib yürüşlərində islamın müdafiəsi üçün çox iş görüblər. Bu məqsədlə onlar Dəməşqin qala divarlarını yenidən qurub və qalasını möhkəmləndiriblər. Hələb qalasında təmir işləri aparıblar.

Səlcuqlar Atabəyləri də Suriyada, İraqda, Azərbaycanda və s. ölkələrdə quruculuq işlərinə böyük fikir veriblər. Bəni Zəngin nəslinin Suriya ərazisində və Mosulda tikdirdikləri mədrəsə binaları məşhur olub və səlcuq memarlarının yaxşı nümunələri sayılıb. Həmçinin, Atabəy Nurəddin Mahmudun 1148- ci ildə Mosulda inşa etdirdiyi Böyük Məscidi xüsusi qeyd etmək lazımdır. Səlcuq atabəylərinin mülki memarlığından danışarkən ilk növbədə Bədrəddin Lulunun 1233- cü ildə Mosulda Dəclə sahilində tikdirdiyi Qara Saray yada düşür.

Səlcuqların Bağdadın şəhər memarlığında da müəyyən izləri qalıbmış. Onlar şəhərin qala divarlarında yeniliklər yaradıblar. 1122- ci ildə Bəbi - Tilsim darvazasını təzələyiblər. Onlar imperiya ərazisində ticarəti və s. ictimai əlaqələri tənzimləmək üçün çoxlu karvansara binaları tikdiriblər. Səlcuq məktəbinə uyğun olaraq onlar mərkəzi küçədə inşa etdirilərmiş, iri həyəti, çoxlu otaq və yardımçı binaları olarmış. Belə karvansalardan biri indiyənədək Şimali İraqda, Mosul şəhəri ilə Silcar arasında qalmaqdadır. Həmin bina XIII əsrdə inşa edilmişdir.

# MARAĞA

Cənubi Azərbaycanın ən qədim və böyük şəhərərindən biri olan Marağa Səhənd dağının cənub ətəklərində yerləşir. Bu dağ silsiləsi Marağanı Təbriz şəhərindən ayırmışdır. İqlimi olduqca yumşaq və könül oxşayandır. Şəhər və ətrafı su ehtiyatları ilə zəngindir. Marağanın meyvələri nəinki İranda, hətta xarici ölkələrdə də məşhurdur.

Şəhərin bir vaxt mövcud olan qala divarları indi yoxdur. Darvazalarının adları isə bunlardır: Əhmədi, Quraxana, Ağdaş, Puli, Banab (yaxud Qilazlik) və Xass Mirzə. Aşağıdakı məhəllələri vardır: Ağa- bəy, Meydan, Darvaza və Sallarxana.

Şəhərin tarixi bəzi qaynaqara görə eradan əvvəldən başlayır. Bu şəhərin adına Strabonun, Ptolomeyin, və s. alimlərin əsərlərində rast gəlinir. Sasani mənbələrində onun haqqında müəyyən məlumat verilmişdir.

Tarixçilərin fikrincə, bu şəhərin böyüməsi əsasən islam dövrünə təsadüf edib. 740- cı ildə Muğana və Gilana səfər etmiş Mərvan ben Məhəmməd Mağarada qalır. Və o dövrdən etibarən qədim qəsəbə Marağa adlandırılır və yenidən qurulur. Mərvan bəzi binalar tikdirir. Sonra şəhər Harun ər- Rəşidin qızlarının ixtiyarına keçir. Təxminən h.t.187- ci ildə şəhərin qala divarları tikilir. Bunun əsas səbəbi Azərbaycanda baş verən narazılıq olmuşdur. Vali Xusaima ben Hazim həmçinin şəhərdə ordu bölmələri yerləşdirir. Babəkin üsyanı zamanında da şəhərin inzibati və hərbi əhəmiyyəti artmışdır. H.t.221- ci ildə Mağara ərəb ordusunun başçısı Afşinin qərargahlarından biri kimi təqdim edilmişdir.

Sonra bir müddət şəhərin adı Deyləmilərin fəaliyyəti ilə bağlı olmuşdur. Daha sonra tarixi qaynaqlar Rəvvadi nəslindən olan hökmdarların Mağara və ətrafında qalalar inşa etdirdiyini söyləyir.

Səlcuqların hakimiyyəti h.t.446- cı ildən başlayır. H.t.497- ci ildə Məlikşah oğulları Börküyarlıqla Məhəmməd arasında sülh məhz Marağa yaxınlığında bağlanıb. Bir il sonra şəhər yerli sülalələrdən sayılan Əhmədilərə tabe etdirilir. Bundan sonra Azərbaycanda və ətraf rayonlarda hakimiyyət uğrunda gedən məhəllə müharibələri, çaxnaşma və üsyanlar Marağadan yan keçməmişdir.

O dövr abidələrindən danışarkən tarixi qaynaqlarda tez- tez Ruindiz adına rast gəlinir. İbn əl- Əsirə görə (h. t. 322- ci il) o, Marağa yaxınlığında yaradılan qala olub, Ruindizı olduğu kimi verməyə çalışan Zəkəriyyə Qəzvini yazmışdır ki, şəhərin üç fərsəngliyində idi. Qalanın alınmaz





mövqeyi xalq arasında zərbi məsələ çevrilibmiş. Tarixçilər onun Səhənd dağının ətəklərində olduğunu təxmin edirlər. Rus dilli xəritədə Sofi Çay üzərində Marağanın şimal səmtinin 16 km- də, Yay şəhəri adlı bir mərkəz göstərilmişdir. Onların arasında Rez, yaxud Eriz adlı bir yazı oxunulur. Hər tərəfində bir uçurum dərə olan qalanın məhz bu nöqtədə yerləşməsi çox ağla batandır. Rez sözü Diz oxunsa onda Ruindiz mənası alına bilər.

Tarixçi İbn- Əl- Əsirin işlətdiyi kütab sözü Gülsar qəsəbəsinin təhrif olunmuş formasıdır. O qəsəbə Marağa- Ərdəbil yolu üzərində yerləşmişdi və çox məşhur idi. Görkəmli tarix və coğrafiya alimləri İbn Xərdadbeh və İstəxri onun haqqında danışmış İbn Hövqal isə öz şəxsi müşahidələrinə əsaslanaraq Gülsarı təsvir edir, abadlığından, tərəqqisindən söhbət açır. Eyni sözlər Marağa yaxınlığında yerləşən başqa bir qəsəbəyə də - Qaranqu üzərində Gültəpə adlı məntəqəyə də - aid olunub. Gültəpədən 25 km aralı, arxeoloq Montey tərəfindən aşkar edilmiş qədim bir istehkam - Qalaye Zohakın xarabalıqları - diqqəti cəlb etmişdir. O, tarixçilərin gümanına görə şimaldan və şərqdən olunan hücmlara qarşı Gülsaranın və Marağanın müdafiə sipəri olmuş, dövrünün abidəsi kimi tanınmışdır.

H.t.628- ci ildə Marağa monqol qoşunu tərəfindən zəbt olunur. 1258- ci ildə Bağdadı fəth edib ərəb xilafətinə son qoyduqdan sonra monqol ordusunun rəhbəri Hülaku Marağaya gəlir və qərargahını orda yerləşdirir. Nəsrəddin Tusinin planlarına əsasən bir rəsədxana yaradılmasına sərəncam verir. Qaynaqlar göstərir ki, Tusinin elmi heyətindəki, dörd alimdən biri, Fəxrəddin adlısı, əslən Marağalı olmuşdur. Rəsədxana şəhərin qərb hissəsində, özülü möhkəm bir yerdə inşa edidlir. Hazırda çox təəssüf ki, ondan divar özüllərindən bəzi parçaları qalmaqdadır.

Skhindlerin rəyincə, rəsədxana inşa edilən təpə düzgün formaya salınıbmış və həmin yer 137x437m ölçülərə malik imiş.

Bundan əlavə Hülaku xəzinəsini mühafizə etmək üçün idarə mərkəzindən 1- 2 günlük məsafədə xüsusi bir qala inşa etdirir. Sonradan, vəfat edəndə özü də orda dəfn olunubdur. Şəhərdəki gözəl qüllə məşhur abidə hesab edilir. O cür məzarlar Marağada dörd dənədir. Birincisi Sofi Çay körpüsünün başında yerləşir. Dörd guşəli plan üzərində qırmızı kərpicdən tikilmişdir və qırmızı günbəzi vardır.

İkinci məzar da birinciyə oxşayır. O, şəhərin cənubunda Xan Əkə yolunun üstündə salınmış bağçaların arasındadır.

Üçüncü və dördüncü məzar şəhərin içindədir. O, qədim qəbiristana yaxın yerdədir. Üçüncüsü səkkiz guşəlidir və qırmızı kərpicdən tikilmişdir. Üzəri mavi kaşilərlə bəzədilmişdir. Dördüncüsü isə yuvarlaq olub üstünün təzyinatında ərəb üslubu nəzərə çarpır.

Monqol dövrü alimlərindən Zəkəriyyə Qəzvini (1275- ci il) Marağanın şəxsən görə bilərdi. Onun yazdığına görə şəhərdə islamiyyətdən əvvəlki abidələrdən bəzisi dururmuş. Morier, Lehmani, Haput, Minorski və b. tərəfindən tədqiq edilmişdir. Çay Bağı adlanan yer haqqında yazarkən onlar ordan çıxan mədən sularından və ordakı bir mağaradan bəhs edirlər. Ondan əlavə Qəzvini öz qələmi ilə Zəngaqan dağını, Günbadan qəsəbəsini və Ruindizi vəsf etmişdir.

Qeyd olunmalıdır ki, monqollar dövründə Marağa məşhur bir xristian şəhərinə çevrilibmiş. Tanınmış Bar Herrasus Marağanın "Yeni monastrında" 1268- ci ildə Evklid haqqında və 1272- ci ildə Ptolomey haqqında mühazirələr oxumuşdu. Məşhur "Kitab əl- Duvad" əsərini burda yazmışdır. 1281- 1317- ci illərdə Nestori patriarxı "Mar II tarixi" kitabında Marağa haqqında qiymətli məlumatlar vermişdir. Həmin şəxs əvvəllər tikilən Mar Şalita kilsənin yenidən inşa etdirir. Sonra isə yanında iqamətgah tikdirir. 1294- cü ildə yenə o. Marağadan 2- 3 fərsəng şimalda Yean Baptist monastrının təməlini qoydurur. Qazanın taxta çıxmasından sonra (1295- ci il) əmir Novruzun təşəbbüsü ilə xristianlıq təqib olunur. Patriarx özü oradan qaçır. Qazan Marağaya qayıdır və qarışıqlıq salanları cəzalandırır. 1301- ci ildə Yean monastrı inşa edilib qurtardı. Həmin monastrdan bəhs edən müəllif, binanın gözəlliyindən, hücrələrin tərtibatından və daxildəki var-dövlətdən ağız dolu bəhs etmişdir.

Rəsədxana təpəsinin cənub səmtində, qayalar içərisində çapılmış bir sıra otaqlar vardır. Hündürlüyu 4 m olan üç otaqdan bir- birinə keçid və dəhlizə ayrı yol vardır. İçəridə isə mehrab şəklində hücrələr düzəldilib.

## BAKI

Bakı yalnız Azərbaycanın deyil, bütün Şərqin ən qədim yaşayış məskənlərindən biridir. Şəhərin özündə və ətraf rayonlarında aşkar edilən arxeoloji mədəniyyət nümunələri bu qədimlikdən xəbər verir.

Bakı haqqında ən qədim məlumatın eradan üç min il əvvəl tərtib edilmiş Misirin "Ölülər kitabı" adlı sənədlər məcmuəsində verildiyi güman edilir. Bir sıra fərziyyələrlə görə həmin kitabda tez- tez təkrar edilən "Bagay" termini Bakıya aiddir. Həmin terminin mənası "Böyük dağ" deməkdir. İngilis alimi F.Petri mətndən çıxış edib onu "Səhər şəfəqləri" kimi təqdim etmişdir. Deyilməlidir ki, fərziyyənin irəli sürdüyü fikir hər şeydən əvvəl Bakının qədimliyindən xəbər verir.





Xəzər dənizinin səviyyəsinin kəskin sürətdə dəyişməsi Bakı şəhərinə də öz təsirini göstərmişdir. Qədimdə Sabayel və Şahbağ adlı şəhərlərin su altında qalması haqqında çoxlu əfsanələr danışılmaqdadır. Bir sıra rəvayətlər də olduğu söylənilir. Bəzən isə xalq arasında Xaraba- şəhər, yaxud Xunsar şəhəri haqqında rəvayətlərə rast gəlmək olar. Qədim əfsanələrdə hətta Bakının yerində əvvəllər mövcud olan bir şəhərin Makedoniyalı İskəndər tərəfindən suda batırıldığı da qeyd edilmişdir.

Bakının orta əsrlər tarixi üzrə görkəmli mütəxəssisi Sara xanım Aşurbəylinin fikrincə bütün bunlar əfsanələr və rəvayətlərdir. Tikililər və s. abidələr arasında şəhərin yerində çox qədimlərdə mövcud olmuş və su basmış yaşayış məskəni olduğuna dəlalət edən faktlar çoxdur.

Bakının bu günkü günümüzədək gəlib çatmış ən yaxşı abidələri əsasən XI- XIII əsrlərdə inşa edilmişdir. Sonra bir müddət şəhərin abadlıq işlərində fasilə olmuş və tikinti XIV əsrin əvvəllərindən yenidən canlanmışdır. Bu dəfə o, XVI əsrədək ardıcıl olaraq həyata keçirilmişdir.

Şəhərdə inşa edilmiş abidələrdə azacıq sarıya çalan ağ rəngli daşdan istifadə edilmişdir. Tarixçilər Bakı abidələrinin bədii üslubunu, ciddi-lakonik formasını nəzərə alaraq onları Şirvan- Abşeron qrupuna daxil edirlər.

XI əsr abidələrindən danışılarkən ilk növbədə Məhəmməd ibn Əbu-Bəkr məscidinin adı çəkilir. O, İçəri şəhər adlanan və Bakının ən qədim hissəsi sayılan rayonda yerləşir. O, dördbucaqlı şəklindədir. Məscidin tağı və mehbarı vardır. Əldə olunan məlumata görə məscid 1078-1079- cu illərdə Şirvanşah If Erizburz dövründə inşa edilmişdir. Məsciddən bir qədər aralı, qərb tərəfində 12 m hündürlüyündə minarə vardır. O, öz gövdəsinin iriliyinə görə Bakı və Abşeron minarələrindən fərqlənir, daha çox qala bürcünü xatırladır.

Qız qalasından bir qədər aralı daha iki məscid mövcuddur. Onlardan biri, Məscidi- bazzaz (parça tacirlərinin məscidi) ikincisi isə Ləzgi məscidi adlanır. O da dördbucaqlı şəklindədir. Bu məscidiin tərtibçisinin adı məlumdur- İbrahim Bakuyinin oğlu Aşur.

Bütün Bakının ən əzəmətli abidəsi əlbəttə, Qız Qalası adlanan abidə sayılır. Hündürlüyü 28 m çatan bu abidə öz forması etibarilə nəhəng silindiri xatırladır. Divarlarının qalınlığı özül hissədə 5 m, 8- ci mərtəbə səviyyəsində ilə 4 m- dir. Şərq tərəfdə Qalanın kontrafarsı, irəli çıxmış bir hissəsi vardır. O, qalaya həm əzəmət,həm də möhkəmlik verir.

Qalanınn ikinci mərtəbəsindən yuxarı bütün hissələrində hücrəvari girintiləri vardır. 14 metr yüksəklikdə isə belə bir yazı qalmaqdadır. "Məqsud ibn Davudun qalası". Bir sıra tədqiqatçılar onu hökmdar hesab edib İran səlcuqları ilə bağlayır, başqaları isə sonradan əlavə edildiyini

söyləyirlər. Üçüncülər ilə yazının memara aid olduğunu göstərirlər.

Deyilməlidir ki, Qalanın qeyri- adi formada olması da mübahisələr doğurur. Həqiqətən bu formada abidəyə nəinki Abşeronda, hətta yaxın ölkələrdə də rast gəlinməyib. Bəzi alimlər onun XI əsrdə yox, daha əvvəl inşa edildiyini güman edir.

Qala haqqında yaranan əfsanələr də maraqlıdır. Onlardan birində deyilir ki, Bakıda o dövrdə hakimiyyətdə olan bir şah öz qızına evlənmək istəyir. Qız isə atasından belə bir qala tikilməsini xahiş edir. Qala tikilib qurtardıqdan sonra, qız onun üstündən dənizə atılır və suda boğulur.

Bu qəmli hekayət uzun əsrlərdir ki, xalqın yaddaşında yaşamaqdadır. Əgər bu əfsanə müəyyən bir tarixi dövrün ənənələrinin əksi kimi qəbul edilsə, onda Sasanilər dövrü yada düşər (IV- VI əsrlər). O vaxt qəbul edilmiş qaydaya görə ata öz qızı ilə, qardaş öz bacısı ilə evlənməli idi. Belə olduqda qalanın inşa edilmə tarixi daha əvvəlki dövrə aid oluna bilər.

S.Aşurbəylinin gəldiyi nəticə budur ki, (onu bir sıra başqa mütəxəssislər də təsdiq edir) Qız Qalası daha əvvəlki dövrün məhsuludur. XI- XII əsrlərdə o, ciddi şəkildə dəyişdirilmişdir. Çox güman ki, Qalaya müdafiə xarakteri vermək üçün onun yenidən qurulması həyata keçirilmiş və o, feodal müdafiə istehkamı rolu oynamağa başlamışdır. Alim öz fikrini qüvvətləndirmək üçün o dövrdə Bakıda tikilən digər hərbi inzibati obyektləri sadalayır və göstərir ki, regiondakı siyasi vəziyyət Şirvanşahları bu işləri görməyə təlqin edirdi. 1924- cü ildə Qala yaxınlığında aparılan elmi tədqiqatlar bir sıra yeraltı yollar aşkar edib. Onların bəzisi saray kompleksi ilə bağlı imiş. Həmin yer altında otaqlar və hücrələr müəyyən olunmuşdur. Onlardan əlavə yeraltı quyu və kanallar da tapılmışdır ki, alimlərin fikrincə bunlar sular Qaladan kənara axıtmaq üçün istifadə olunarmış.

Qədim tarixçilərdən, bakılı olan Əbdürrəşid Əl- Bakuvi bu şəhəri təsvir edərək deyir ki, orda iki möhkəm qala vardır. Onlardan biri dənizə bitişikdir. İkinci qala monqolların mühasirəsi zamanı dağıdılmışdır. İkinci qalanın Qız qalası olduğu güman edilir.

Maraqlıdır ki, daha əvvəlki ərəb səyyah və tarixçiləri bu abidə haqqında demək olar ki, heç nə yazmayıblar. Belə vəziyyət abidənin XI- XII əsrlərdə böyüdülüb inşa edildiyinə ehtimal yaradır. Bu da deyilməlidir ki, Qalanın üst hissəsi bir neçə dəfə təmir olunmuşdur. S.Aşurbəylinin fikri belədir ki, öz tarixi dövrü ərzində Qız Qalasının üstü dəfələrlə uçub və yenidən qurulmuşdur.

İçəri şəhərin divarları da çox qədim və mürəkkəb tarixə malikdir. Onlar Şirvan dövlətinin güclənməsi və sairə amillərlə bağlı olaraq, XII əsrdə, II Mənuçöhrün zamanında yenidən əsaslı surətdə qurulur. Qala divarları





sonradan, məsələn Teymurləngin dövründə bir daha təmir olunmuşdur. Bu haqda Teymurun tarixçisi Şərəfəddin Yəzdi məlumat vermişdir.

Bakının, eləcə də Abşeronun tərəqqisi Dərbəndilər nəslindən olan Şirvanşahların adı ilə bağlıdır. XV- XVI əsrlərdə bu sülalə tərəfindən Bakı paytaxt kimi çox inkişaf etdirilir. Şəhərdə bir sıra saray və s. yaradılır. Onların Şirvanşahlar ansamblı ümumiyyətlə, orta əsr Azərbaycanın ən yaxşı memarlıq abidələrindən sayılır. Buraya aşağıdakı başlıca tikililər daxildir: Divanxana, Türbə, Minarəli məscidlər, Seyid Yəhya Bakının mavzoleyi, (ona bəzən "Dərviş mavzoleyi" də deyirlər). Bunlardan əlavə Şərq tərəfdə yalnız özülü qalmış Murad darvazasını, su saxlanılan ovdanı və uçmuş hamaxana binasını göstərmək olar.

Ansamblın içərisində saray öz gözəlliyi ilə seçilir. O, ikimərtəbəli binadan ibarətdir, 52 otağı var. Binanın birinci mərtəbəsində 27 otaq tikilmişdir ki, çox güman ki, onlarda xidmətçilər yaşayırmış. Orda həmçinin ambarlar da olub.

Divanxana səkkizguşəli zaldan ibarətdir. O, üç tərəfdən dəhlizlə əhatə olunub, dördüncü tərfədən sarayla bitişmişdir. Bu bina zərifliyi ilə nəinki Azərbaycanın, hətta bütün Yaxın Şərqin memarlıq abidələri içərisində yüksək yerlərdən birini tutmaqdadır.

Türbə adlanan bina Şirvanşahların dəfn olunduğu yerdədir. O, plan etibaridlə xaç şəklindədir, mərkəzi hissənin günbəzi vardır. Zalın künclərində dörd otaq inşa edilmişdir.

Seyid Yəhya Bakuvinin mavzoleyi XV əsrdə inşa edilib. Onun üst hissəsi konus şəklindədir. Bu abidə əvvəlcə mövcud olmuş məscidin yerində tikilmişdir.

Bakının qədim abidələrindən biri sayılan Bibi Heybət məscidinin maraqlı tarixçəsi olub. Rəvayətə görə, yeddinci imam Musa Kazımın qızının məqbərəsi üzərində inşa edilmişdir. Məlumdur ki, Musa Kazım 745-746-cı ildə anadan olmuş 799-800- ci ildə Xəlifə Harun Ər- Rəşid tərəfindən öldürülmüşdür.

Başqa bir rəvayətdə göstərilir ki, Məkkə hakimlərindən olan Qureyşilərlə peyğəmbər Məhəmmədin tərəfdarları arasında gedən mübarizə zamanı bir sıra şəxs Ərəbistanı tərk etməli olur. Qaçanlar içərisində səkkizinci imam sayılan İmam Rza da öz ailəsi ilə birlikdə varmış. Köç zamanı onların hərəsi bir tərəfə dağılır. İmam Rza Xorasana yola düşür. Qızı və bacısı isə Bakıya gəlir və hazırda Şıx adlanan kənddə yaşayırlar. Onlar burada vəfat edirlər. Dəfn olunduqları yerdə məqbərə inşa edilir. Həmin yer bu günümüzdə də müqəddəs sayılır.

İmam Rzanın qızının adı Ügeymə xanım imiş. Onlardan əlavə, Heybət

adlı bir nəfər qulluqçu da həmin məscid məqbərənin həyətində dəfn edilmişdir. Heybət İmamın qızına "bibi" dediyi üçün məscid "Bibi- Heybət" adı ilə məşhurlaşır. Bir müddətdən sonra məscidin başına çoxlu şeyxlər toplaşır, ev- vşik tikib yaşamağa başlayırlar. Nəticədə həmin kənd Şeyxi adlandırılır. Hazırda, Şıx adı da həmin qədim addan götürülmüşdür.

Biz qədim Bakının abidələrinin yalnız cüzi bir hissəsi, ən məşhurları haqqında danışdıq. Onların hərtərəfli və tam təsviri üçün əsərlər yazmaq tələb olunur.





# İRAQ

Müasir İraq Respublikasının ərazisində planetimizin ilk mədəniyyət mərkəzlərindən biri yaranıb və uzun minilliklər boyu fəaliyyət göstərmişdir. İraq (ona tarixdə bəzən Mesopotamiya, bəzənsə Rafideyn deyiblər) haqlı olaraq qədim dünyanın Hind, Çin və Misir kimi əzəmətli sivilizasiyaları ilə bir səviyyədə qiymətləndirilir.

Keçən əsrdə aparılan tədqiqatlar göstərmişdir ki, hələ b.e.əvvəl V- IV minilliklərdə ölkədə yüksək əkinçilik mədəniyyətinə malik xalqlar - şumerlər yaşamışdır. Sonralar onları əvəz edən digər qəbilə və xalqlar, xüsusilə babillilər, ümumən şərq ölkələrinin bütövlükdə siyasi və mədəni həyatında qüvvətli rol oynamışdır. Başqa sami mənşəli xalq- assurilər də əsrlər boyufəaliyyət göstərən güclü dövlət yaratmışlar. Sonra İraq bir neçə müddət İranın Sasanilər sülaləsinin hakimiyyətinə tabe etdirilir. VII əsrin II yarısında ərəb- islam orduları İraqı fəth edir. O zamandan etibarən ölkə ərəbləşir. Xilafətin paytaxtının Bağdada köçürülməsi İraqın həyatında çox böyük əhəmiyyət kəsb etmişdir. Ölkə bir neçə əsr boyu (VIII-XI) islam aləminin başlıca siyasi, ideoloji və mədəni mərkəzi olmuşdur.

Qədim tarixə malik İraqın çoxlu tarixi abidələrindən biz ən məşhurları haqqında söhbət edəcəyik. Onlar bu torpaqlarda min illiklər boyu həyat sürmüş və yaradıcıları olan xalqlar haqqında müəyyən qədər təsəvvür yarada bilər.

## ŞUMERLƏR VƏ ABİDƏLƏRİ- ZİQQURATLAR

Qədim dünya tarixini öyrənən alimləri uzun zaman bir məsələ düşündürmüşdür. Bəşər svilizasiyası ilk dəfə planetin hansı hissəsində, hansı coğrafi, tarixi və s. amillərin sayəsində yaradılmışdır? Onu yaradanlar kim olmuşdur?

Uzun zaman Çin, Hindistan, Mesopotamiya və Misir bu birincilik uğrunda mübarizə aparsalar da, alimlərin fikri daha çox Mesopotamiya üzərində cəmləşməyə başladı. Müasir İraq Respublikasının cənub hisəsi- Dəclə və Fərat çayların hövzəsi- bəşər mədəniyyətinin ilk beşikləri arasında birincilik qazanırdı.

Amma məsələnin ikinci tərəfi yenidən mübahisələrə səbəb olurdu. Alimləri indi svilizasiyasını yarayan xalqın mənşəyi maraqlandırırdı.

Şumerlər kim idi, müasir xalqlardan kimə ən çox yaxın imişlər? Bu suallara uzun əsrlər boyu şumer dövlətinin paytaxtı olmuş, hazırda bir sıra abidələri- o cümlədən haqqında danışılan ziqqurat da- bərpa edilmiş Urda aparılan tədqiqatlar müəyyən qənaətbəxş cavab vermişdi.



***Şumer – Ziqqurat bərpadan sonra***

Ur İraqın cənub zonasının iri şəhərlərindən sayılan Nasiriyyədən 15 km aralıda yerləşir. Ətrafı başdan- başa bitkisiz qumsallıq çölləridir. Ərazisində isə bir neçə təpə nəzərə çarpır. Onların ən irisi "Tel əl-Muqayir" "yəni Qırlı təpə) adlanır. Bu təpə, əslində qədim məbədi və "müqəddəs ayinələr" meydançası olan pilləli qüllənin qalıqlarıdır. Tarixdə çox məşhurlaşan Babil qülləsi özündən çox- çox əvvəl tikilmiş bu abidənin başqa surəti olub.

Bu yerlərdə ilk axtarışları Britaniya muzeyinin xüsusi tapşırığı ilə Bəsrədə konsul işləyən ingilis Teylor 1854- cü ildə aparıb. O, "Qırlı təpə"də apardığı tədqiqatlar nəticəsində müəyyən etdi ki, ora Tövratda "Xaldeylərin Uru" kimi adı çəkilən qədim şumerlərin paytaxtı Ur şəhərinin yeridir. Sonradan, 1918- ci ildə Britaniya muzeyinin əməkdaşı K. Tomson yenidən axtarışlar aparır. Bundan sonra 1922- ci ildə Pensilvaniyanın Universitet muzeyi (ABŞ) və Britaniya muzeyi birgə məşhur ingilis Leonard Vullinin rəhbərliyi altında ekspedisiya təşkil edir. Şumerlər haqqında indi dünyaya məlum olan nə varsa, demək olar ki, hamısı 1922- ci ildən 1934- cü ilədək Urda işləmiş həmin alimlərin əməyinin məhsuludur.

Şumerlərdən qalmış maddi mədəniyyət və ədəbi abidələrin öyrənilməsi, bir sıra mürəkkəb tədqiqatlar belə bir elmi nəticəyə gətirib çıxarmışdır ki, bu xalq nə özlərini ari adlandırmış Hind Avropa qrupuna, nə də Sami qrupuna aid edilən xalqlardan olub. Özləri də Mesopotamiya





ərazisinə milladdan təxminən 4500 il əvvəl şərq istiqamətindən gəliblərmiş. Çox sonralar (təxminən 2000 il) farsların ulu əcdadlarının köç edib məskən saldıqları ərazilərdə də yaşadıqları təxmin olunub.

Onların irqi- etnik mənşəyi haqqında müyyən fikir ixtilafı mövcud olsa da, əksər tədqiqatçıların fikri belədir ki, şumerlər ən qədim türk kökünə yaxın olmuşlar. Öz xarici görkəmlərinə görə şumerlər əsasən ortaboylu, girdəsifət, iri gözlü, burun pərdəli enli olmuş adamlar imişlər.

Leonard Vulli o xalqın mənşəyini araşdırmaq məqsədi ilə yazır ki. Şumer mədəniyyəti nümunələrinə bənzər çoxlu abidəni Xəzər dənizindən tutmuş Çin sərhədlərinə qədər geniş ərazidə müşahidə etmək olar. Bir qədər öncə Hindistanın şimal- qərb hissəsində - Mohenco- Daro adlı yerdə aparılmış qazıntılar şumer abidələrinə uyğun nümunələr aşkara çıxarmışdı. Tarixdə Xarappi mədəniyyəti adı altında tanınan bu tapıntı göstərirdi ki, Hindistan ari tayfalarının axınından əvvəl (midaddan təxminən 2500 il qabaq) çox parlaq dövr yaşamış şumer, Türkistan mədəniyyətinə yaxın xalqların məskəni olmuşdur. Nəticədə, bir fərziyyəyə görə şumerlərin vətəni Türkistan götürülsə də, şimali Hindistan istisna edilmirdi. Ancaq daha çox üstünlük qazanan nəzəriyyə belə idi ki, Şumer, Türküstan və Hindistanın ariləşməsindən əvvəlki mədəniyyəti vahid bir kökdən əmələ gəlibmiş. Qədim dünya tarixinə aid kitablarda o kök haqqında konkret bir fikir deyilmir.

Şumer tarixini alimlər üç əsas hissəyə bölürlər: Birinci, ilk sülalə dövrü 177 il çəkib. Beş hökmdarı olub: ən məşhuru Mes- Ani Bada idi. İkinci sülalə dövründə dörd hökmdar olub və ümumi müddət 108 il çəkib. Sonra akkad-sami mədəniyyəti dövrü gəlir. Üçüncü Şumer sülaləsi b.e.əvvəl 2113- 1006-cı illəri əhatə edir. Bu dövrdə Şumer öz inkişafının zirvəsinə çatır. Məşhur alim N. V. Saqqs qeyd edir ki, bu illərdə Şumer dili siyasət və ədəbiyyat dili kimi üstünlük qazanır. Şumerlərin ibadət etdikləri ilahə başqalarından üstün sayılır. Bu dövrdəki böyük mənəvi təkamül, özündən sonrakı xalqların mədəniyyətinə və ədəbiyyatına güclü təsir göstərmişdir. ("Kilkameş haqqında dastan" nəzərdə tutulur. )

Şubad adlı çariçanın b. e. əvvəl tikilmiş məqbərəsindən arxeoloqlar bolluca ziynət əşyaları tapıblar. Onların içərisində qızıl və gümüşdən düzəldilmiş əşyalar o qədər məharət və ustalıqla hazırlanmışdır ki, bir sıra mütəxəssislər onları orta əsrlər ərəb zərgərlərinin əşyaları sayıblar.

Dövrümüzə gəlib çatmış ədəbi nümunələri o qədər də çox deyil; cəmi yüz əlliyə yaxın abidədir. Əksəriyyəti dini moizələr, mahnı və ağılar, müxtəlif növ didaktik hekayətlərdir. Onların əksəriyyəti b.e.əvvəl III minilliyin sonlarında yazıya alınmış, bizim dövrümüzədək, demək olar ki,

ciddi ədəbi dəyişikliyə uğramışdır. Şumer ədəbiyyatının ən parlaq incisi, əlbəttə, "Kilqameş haqqında dastan" adlı epik poemadır. Qeyd edildiyi kimi şumer mədəniyyəti, xüsusilə isə ədəbiyyatı qədim dünyanın xalqlarının mənəvi həyatında böyük təsir qoyub getmişdir. Onlar, babil, assuri, əhəməni İranı, ellin, və s. mədəniyyətlərdə özünü göstərir. Şumer əfsanələrinə yəhudi dini kitablarında və xristianlıqda rast gəlinir. Bununla əlaqədar bu faktı göstərmək olar: Urda qazıntı apararkən L. Vulli 2 m qalınlığında təmiz allivual gil təbəqəyə rast gəlibmiş. Bu məsələni tədqiq edən alimlərin yekdil fikri bu olub ki, təbəqə şumerlər dövründə yaranıb. Bu tarixi fakt şumer ədəbi nümunələri vasitəsilə başqa xalqlara örtülüb və Tövratda özünü məşhur dünyanın su tutması əfsanəsi şəklində tapıb. Məlumdur ki, həmin əfsanədə Nuh sağ qalıbmış. Şumer ədəbiyyatının adı çəkilən incisində "Gilqamış haqqında dastanda" isə nuhun adı Utnapiştim kimi göstərilir.

Şumerlərin, həmçinin yüksək səviyyəli əkinçilik mədəniyyətinə malik olduqları arxeoloji qazıntılar tərəfindən aşkar edilib. Bu xalqın ümumiyyətlə bəşər svilizasiyasına verdiyi töhfə çoxdur. Onlar ilk dəfə çarxlar istehsal edərək arabalar yaratmışlar. Sonra ona ev heyvanları öküz, eşşək qoşaraq təsərrüfat işlərində istifadə ediblər. Şumerlərin qədim şəhərindən tapılmış ev əşyaları, bəzək, ziynət şeyləri öz yüksək sənətkarlığına, qiymətli metallardan və eləcə də fil sümüyündən yaradılan müxtəlif maddi mədəniyyət abidələri öz gözəlliyinə görə alimləri valeh etmişdir.

Müəyyən dövr ərzində şumerlərin təsərrüfat həyatı o qədər inkişaf edib ki, onlar saxsıdan çoxlu təsərrüfat əşyaları - saxsı halqa, xış - istehsal ediblər. Memarlıq tarixində ilk dəfə olaraq tağlı darvaza, gümbəz formaları tikiblər. Öz əlifbalarını yaradıblar ki, onun vasitəsilə lövhələrdə tarixə, elmə, ədəbiyyata aid fikirlər yazarlarmış. Təəssüf ki, şumerlərin vətəni Urda aşkar edilmiş 16 çar məqbərəsininin yalnız ikisi salamat qalıb. Qalanları isə bu uzun tarixi dövr ərzində dağıdılmışdılar.

Qeyd olunmalıdır ki, şumerlərin mənəvi həyatında (qədim dünyanın başqa xalqlarında olduğu kimi) ayrı- ayrı bütlərə sitayiş çox güclü idi. Onların ən geniş yayılmış ilahələri bunlar olub. Səmanı təmsil edəni "An", Yerin hərəkət etdiyi kainatı təmsil edəni "Enki", Yerin üzərindəki qüvvələri təmsil edəni "Enlil" və s. Əlbəttə, şümerlər ölkəsində heç də bütün ilahələrin şərəfinə abidələr ucaldılmayıb. Ayı təmsil edən Nanna ilahəsinin adıyla bağlı abidə öz şöhrətiylə hər yanda tanınmışdır. Söhbət miladdan əvvəl şumer çarı Urnammunun tikdirdiyi ziqquratdan gedir. O, hazırda bərpa işlərindən sonra öz əvvəlki görkəminə qayıtmışdır.

Ziqqurat üç pilləli piramidanı xatırladan mürəkkəb bir tikilidir. Onun birinci hissəsi nisbətən yaxşı qalıb: ölçüləri 60x45 m olan dördbucaqlı





formasındadır. Şimali şərq hissəsində hər biri yüz pilləsi olan iki giriş pilləkəni vardır. İkinci hissədən, üçüncü, son hissəyə isə bir pilləkən qalxır. Ziqquratın ümumi hündürlüyü 100 m qədərdir. Onun zirvəsindən şumerlərin daha qədim şəhəri sayılan Eridanın xarabalıqları görünür. Göstərildiyi kimi, həm ziqquratın aşkar edilib, qumdan təmizlədilərək öz ilkin vəziyyətində qurulmasında, həm də Urda və ətraf yerlərdə tapılmış maddi mədəniyyət nümunələrinin öyrənilməsində L. Vullinin və rəhbərlik etdiyi elmi ekspedisiyasının xidmətləri əvəz olunmazdır.



*Şumer*

Demək lazımdır ki, formaca və memarlıq görkəminə görə ziqqurata bənzər tikililər Mesopotamiyanın müxtəlif yerlərində müxtəlif dövrlərdə yaradılmışdır. Amma onlar şumerlərdən sonra tikilmişdir və bu hadisədə qədim dünyada çox böyük izlər qoymuş bu xalqın açıq təsirini görməmək olmur.

Urda müəyyən edilmiş çar qəbiristanlığı da elmə bolluca məlumat vermişdir. Məqbərələrin birində tabut üzərinə qoyulmuş bir qadın cəsədinin qalıqları tapılmışdır. Cəsədin əynindəki paltar qızıl saplarla tikilmiş, əklilin üzərini bəzəyən güllər də qızıldan düzəldilmişdir. Bir qədər aralıda daha 60 adam cəsədi varmış. Müəyyən olunmuşdur ki, həmin tapıntılar eyni bir hadisə ilə əlaqədardır. 60 nəfər vəfat etmiş qadını son mənzilə yola salaraq, özləri də onunla birlikdə o dünyaya getmişlər.

Alimləri orda əldə edilmiş qızıl, gümüş və başqa qiymətli daşlardan düzəldilmiş əşyaların çoxluğu heyran qoyub. 60 nəfəri isə şəxsi keşikçi dəstəsi qulluqçu, mehtər və s. təşkil edibmiş. Mərkəzdə qoyulmuş gümüş yemək stolunun ustundə cürbəcür qab- qacaq, qızıl badələr, kuzələr və s. mövcud imiş.

Həlak olmuş adamların xarici forması tam sakitlik təlqin edir. Qədim dünyanın qanunlarına görə hakim ölərkən ətrafındakılar da onunla birlikdə könüllü surətdə bu dünyanı tərk edərmiş. Belə güman edilir ki, içilmiş şərabda zəhər qarışdırıldığından adamlar tez həyatdan gedibmiş.



*Şumer – Kilqameş Luvr muzeyi*

Ümumiyyətlə, İraq torpağı nə qədər tədqiq olunsa da hələ çoxlu sirləri özündə saxlayır. Dəstə- dəstə arxeoloq, dilçi, tarixçi əldə etdiyi məlumatı





şərh edə- edə tək İraqın yox, dünya mədəniyyətinin bitməz xəzinəsini zənginləşdirir. Son zamanlar daha bir kəşf edilmişdir. Polşalı alimlər İraqın cənubunda, Nemrik şəhəri yaxınlığında Yaxın Şərqin ən qədim daş heykəlini aşkara çıxarmışlar. Bu, elm aləmində sensasiya yaratmışdır. Heykəlin daşı qırlıdır və o, bütöv bir qaya parçasından yonulub, hamarlanıb. Ən maraqdlı cəhəti budur ki, o dövrdə belə heykəllər ancaq gil və sümükdən düzəldilirmiş. İraqlıların öz tarixlərinə qayğıkeş münasibəti də təqdirə layiqdir. Son dövrlərdə Fərat çayı axarına yaxın bir yerdə aşkar edilmiş qədim dünyanın məşhur şəhərlərindən olmuş Ana adlı abidələr toplusu su basmadan mühafizə edilmək üçün başqa yerə köçürülmüşdür. 15 km aralıda tamamilə Ana şəhərinin yeni nüsxəsi inşa edilmişdir. İraqlı memarlar 4 min il əvvəl qədim şumerlərin yaratdığı abidələri, şəhərdə mövcud olmuş nümunələri həm muzeydə yerləşdirmiş, həm də açıq hava altında yenidən qurmuşlar. Bundan əlavə XI əsrdə islam memarlığı nümunəsi olan 28 m hündürlüyündə səkkizbucaqlı minarə də hissə- hissə öz yeni məskəninə köçürülmüş və yeni şəhərdə qurulmuşdur.

## BABİL QÜLLƏSİ

Nabubalasar və Novoxodonsor öz çarlıqları dövründə şəhəri bəzəyən bu qülləyə böyük diqqət vermişlər. Bürc səma Allahı sayılan Atamenankinin şərəfinə ucaldılmışdı. Bu qüllə haqqında məlumatımız əsasən dörd mənbəyə əsaslanır: 1. Tövrat, 2. Heredot, 3. Digər mənbələr, 4. Kətibə adlı lövhədə yazılmış və Anu- Bel- Şunu adı altında tapılan mixi yazılar.

Tövratda yazılanlar Babil Qülləsinə bütün dünyada şöhrət qazandırmışdır. Əslində isə oradakı məlumatlar nisbətən az və qeyri- dəqiq sayılır.

F. Krişen qeyd edir ki, bu vəziyyətin əsas səbəbi Novoxodonosorun yəhudiləri əsir alıb vətənlərindən didərgin salması olub. Babil çarı onları qüllənin tikintisindəki ağır işlərə cəlb etmişdir. Alman alimi, həmçinin qeyd edir ki, bu qüllə öz konstruksiyası baxımından heç də yeni deyildi və çox güman ki, daha qədim dövrlərdən qalmış məbəd qalıqları üzərində ucaldılmışdı. Bu qəbildən olan və ziqqurat adlanan tikililər Mesopotamiyanın başqa yerlərində, ələlxüsus, Dəclə və Fəratın qovuşduğu zonada əvvəllər də yaradılıbmış. Onların hamısı özü- özlüyündə dağ timsalı idilər; ərazilərin ən yüksək yerlərində məbəd tikilərdi, ilahənin orda yerə enməsi üçün nərdivan da düzəldilərdi.



*Babil*

Tarixin atası sayılan Heredotun təsviri isə daha ətraflıdır və böyük əhəmiyyətə malikdir. Heredot uzaq- uzaq ölkələr gəzə- gəzə, xalqlarla ünsiyyətdə olar və adət- ənənələrini öyrənərmiş. Əsas məqsədi ilə, əslində yunanlr və farslar arasında gedən müharibələrin səbəbələrini öyrənmək olub. Lakin bu məqsəddən daha böyük bir arzu onun qəlbində yurd salıbmış. Bəzi tədqiqatçılar yazırlar ki, Heredota analitik fikir vermək lazımdır. Bu zaman onlar yəqin Heredotun dediklərinə tam inamla yanaşmırlar. Bunun da səbəbi ondan irəli gəlir ki, Heredot bir sıra qeyri- dəqiqliyə yol verib. O, bu hallarda öz şəxsi müşahidələrindən daha çox ifadələrə və adamlardan eşitdiklərinə inanıbmış. Bu səhvlərdən biri onun ölçüləri dəqiq və yenidən qeyd etməməsidir. Məlum məsələdir ki, Heredot dünyanı gəzərkən özü ilə ölçü ləvazimatı aparmamışdır. Həmçinin bu da aydındır ki, Babil kimi öz dövrünün ən böyük şəhərlərindən sayılan bir şəhəri də ölçə bilməzdi. Bunu da qeyd edək ki, Babil özünün çiçəklənmə dövrü sayılan Novoxodonosorun çarlığı zamanına nisbətən Heredotun səyahəti illərində (təxminən b. e. ə. 470- 460- cı illər) dəyişilmişdi. O tənəzzülə uğramış, bir hissəsi uçmuş, başqa hissələri Fəratın daşqınları nəticəsində suların təsirindən yox edilmişdi. Bu faktlar alman arxeoloji ekspedisiyasının qazıntılarının nəticələrini müqayisə etdikdə aşkara çıxmışdır. Babil Qülləsinə aid Heredotun şəxsi müşahidələri zamanı etdiyi qeydləri isə tamailə düzgün hesab etmək olar.







*Babil*

Heredot qeyd edir ki, Fəratın hər iki sahilində yerləşən şəhərdə çoxlu gözəl binalar olub. Bir sahildə keçilməz sədlərlə əhatə olumur çarın sarayı yerləşmişdi. Başqa bir sahildə isə Zeus- Bilus ilahəsinin şərəfinə tikilmiş və dəmir qapıları olan məbəd varmış. Onun dördbucaqlı formada özülü olub.

Məbədin ərazisində bir bürc tikilibmiş. Onun üzərində isə biri digərindən xırda bir neçə bürc olub. Onların ümumi sayı səkkizə çatarmış. Zirvəsinə çıxmaq üçün ətrafında xüsusi nərdivan olub.



*Babil*

Təxminən orta hissəsində qalxıb-düşənlərin istirahəti üçün xüsusi istirahət meydançası tikilib. Sonuncu bürsün üzərində böyük bir məbəd yerləşərmiş. Məbəddə hazır yataq yeri və qızıldan düzəldilmiş masa olub. Həmçinin burada ilahə təsviri də olmayıb. Gecələr burada yerli gadınlardan yalnız biri, ilahənin özünün seçdiyi gecələyirmiş.

Alimlər belə güman edirlər ki, Heredotun təsviri həqiqətə tam uyğun gəlir. Birinci, ilk bürsün hündürlüyü yəqin başqa hissələrdən artıq olub və xüsusi formaya malik olub.

Başqa yunan roma mənbələrində də Qüllə haqqında məlumat var. Amma onlar bir dövrlərdə qələmə alınmışdır. Onlardan biri təxminən b.e.ə. 400- cü ildə fars sarayında həkimlik edibmiş, Babili şəxsən gördüyü güman edilən Aktsiyas adlı şəxsin yazısıdır. Sonradan (b.e.ə. 60- cı ildə) tarixçi Deodor onun qeydlərini yenidən işləmişdir və aşagıdakı kimi oxuculara təqdim etmişdir: Bir müddət keçdikdən sonra Seramis babillərinin Beylus adlandırdıqları Zeyus ilahəsinə şəhərin mərkəzində məbəd ucaltmışdır. Qeyd olunmalıdır ki, uzun əsrlərdən sonra tikili zirvəsindən başlayaraq uçub tökülüb. Kəldanilər (babilin nəsilləri) ulduzların çıxıb batmasını müşahidə etmək üçün onun üzərində rəsədxana tikdiriblər.

Bürc başdan ayağa qədər kərpicdən hörülübmüş. Həmçinin tikintidə qırdan da istifadə edilib. Ən yüksək hissəsində qızıldan tökülmüş üç heykəl qoyulubmuş. Yeyus, Hira və Rayanın heykəlləri. Bu mənbəyə əsasən təxminən b.e.ə 400- cü ildə uçmağa başladığını güman etmək olar. Çünki Makedoniyalı İskəndər Babili fəth edərkən (b. e. ə. 331- ci il) onun tamamilə dağıla biləcəyi ehtimalını nəzərə alaraq (bunu Aristotel də təsdiq edir) yenidən tikmək istəyibmiş. Amma, təəssüf ki, böyük sərkərdənin vəfatı bu gözəl arzunu həyata keçməyə qoymur.







*Babil*

Alim F. Krişerin fikrincə Qüllə haqqında ən mühüm məlumat tarixə Anu- Bel- Şunu adı altında daxil olmuş lövhədə verilmişdir. Həmin lövhə ən qədim yaşayış məskənlərindən olan Əl- Bəkə şəhərində aşkar edilmişdir. Qədim Babil dövründə həmin yerdə Anu- Antuş (Beyt- Rim) məbədi yerləşibmiş.

Lövhənin yazılma tarixi b.e.əvvəl 229- cu ilin dekabr ayının 12-si kimi göstərilir. O çar Silusis Kalininusun hakimiyyəti zamanı tərtib olunub. Həm də daha qədim, İsakila adı ilə tanınan başqa bir lövhənin nüsxəsidir. Burada İsakila məbədi, Atemenanki qülləsi ilə birlikdə təsvir olunur. Qüllənin planı lövhənin çox hissəsini tutmuşdur.

Qüllənin ümümi mənzərəsi Babil- Assuri abidələrinin demək olar ki, hamısında nəzərə çarpan bürc şəkilli tikililərlə və diş- diş sonluqlarla səciyyələnir. Sonuncu hissədə yerləşən məbəd şüşə qarışdırılmış kərpicdən yaradılaraq mavi rəngə boyadılıbmış. O bizə salamat qalmış və dünyada məşhur olan İştar qapısını xatırladır. Vaxtilə həmin darvaza, üzərində öküz və digər heyvanların təsviri ilə təntənələr xiyabanını tamamlayırmış.

Qüllənin yaradılma tarixinə aid Babilin iki məşhur çarının- Nabubalasar və Novoxodonosorun nitqləri həkk edilmiş iki, mixi xəttlə yazılmış lövhə hazırda qədim dünyanın bu böyük abidəsi ilə məşhur olan alimlər tərəfindən tərcümə edilərək bəşəriyyətin ixtiyarına verilmişdir.

Babilin küçələri planlı şəkildə salınıbmış. Onların bir qismi çaya paralel, digər hissəsi ilə perpendikulyar yerləşmişdi. Sonuncular şəhəri çay tərəfdən mühafizə edən qala divarları ilə bitişik idi. Həmin divarlar həm də daşqınların qarşısını almaq üçün bir növ bənd rolunu oynayırmış.

Babildə aparılan geniş quruculuq işləri çoxlu inşaat materialına ehtiyac törədirdi. Başlıca materialı- yəni bişmiş kərpici şəhərin yaxınlığında istehsal edirmişlər. Tarixi qaynaqlar Babil ətrafında yüzlərlə kərpic bişirən sobalar olduğundan xəbər verir.

Babildə iki yüz ildən artıqdır ki, arxeoloji qazıntılar aparılır. Amma müasir dövrdə Babilin yenidən öyrənilməsinin əsasını ingilis alimi Koldovey qoymuşdur. O, 1898- ci ildən etibarən alman arxeoloji ekspedisiyasının tərkibində Babili tədqiq etməyə başlamışdır.

Hal- hazırda min illər bəşər ayağı dəyməyən Babil öyrənilir, abidələr qumdan, torpaqdan təmizlənib üzə çıxarılır. Şəhərin nisbətən yaxşı qalmış hissəsi "Təntənələr xiyabanı" adlanan küçəsidir. O küçə İştar darvazası önündən başlanarmış.

Uzun əsrlər boyu Babilin xarabalıqları ətraf rayonlarda yaşayan əhalinin diqqətini özünə cəlb etmişdir. Camaat Babil abidələrini söküb, materiallarını daşımış və beləliklə çoxlu mədəniyyət nümunəsi yox olmuşdur. Mütəxəssislər qeyd edir ki, ətraf yaşayış məntəqələrində hal- hazırda üzərində Novoxodonosorun şəxsi möhürü vurulmuş kərpic və pilitələrə rast gəlmək mümkündür.

Babilin yenidən qurulması nəzərdə tutulur. Hal- hazırda ümumi sahəsi 26 hektardan artıq olacaq şəhərin başlıca hissəsi bərpa edilməkdədir. 23





dənə əsas binanın, məbəd və sarayların, eləcə də asılan bağların tikilib öz əvvəlki görkəminə qaytarılması işi davam edir. Təntənələr daravazası keramik pilitələrlə bəzədilərək günəşin şüaları altında bərq vurur və Babilə gələn qonaqları salamlayır.

# SEMİRAMİDA ASMA BAĞLARI

Dəclə və Fəratın hövzələri arasında, qədim Babildə yaradılmış bu bağları bütün dünyada tanıtdıran, əfsanəvi şöhrət oreolu geyindirən onun iki xüsusiyyəti olub: insan əliylə yaradılan yüksək səviyyəsi və quruluşu. Qədim dövrlərdə bu möcüzəli tikili yunan mənbələrində "srimastus", roma kitablarında isə "bənzilis" adlandırmışdır. Hər iki söz dilimizdə "asılmış, asılan" mənasını verir. Bu qəribə abidə onu görənlərin qəlbində heyrət və təəccüb, xəbərini eşidib, amma müşahidə imkanından məhrum olanlarda isə həsrət, arzu doğurarmış.

Bağlara ecaskar tarixi abidə adını qazandıran ikinci amil, onun bəzi mənbələrdə tikintisinin həyata keçirmiş əfsanəvi Assuri padşahı Semiramisin adıdır.



*Semiramida asma bağları*

Bizə gəlib çatmış tarixi mənbələrin bəzisi kimi çox maraqlı da olsa, görkəmli tarixçi Heradot onun və məşhur Assuri sarayı haqqında məlumat vermir. Alimlər bu faktın səbəbini Heradotun zamanında çar sarayının farslar tərəfindən istila edilməsində və tarixçinin ora daxil olmaq imkanından məhrum olmasında görürlər. Asılan bağlar haqqında ən zəruri və geniş məlumatı Deodorun qoyub getdiyi kitablardan əldə etmək olar. Onunsa istifadə etdiyi bolluca tarixi mənbələr içərisində fars çarının sarayında xidmət etmiş və çox güman ki, bağları öz gözü ilə görmüş Aksiyasın yazdığı kitablar da olub.

Deodor bağlar haqqında aşağıdakı məlumatı bizə çatdırır:

"...Sarayın yaxınlığında Semiramisin yox, sonrakı hökmdar Hosirusun öz qadının eşqinə həsr edib tikdirdiyi asılan bağlar vardı. Belə nəql edirlər ki, qadın mənşəcə midiyalı olub. Vətəni dağlar üçün çox darıxdığından çardan dağlara bənzəyən tikili yaratmağı xahiş edir. Çar da həmin əfsanəvi bağları inşa etdirir. Onlar elə tikilmişdi ki, insan ora daxil olarkən həqiqətən elə bilirdi ki, dağa qalxır. Bir binadan o birisinə keçə- keçə sanki özünü tamaşa salonunda hiss edirdin. Hərəkət etmək üçün yerlərin altında dar keçidlər düzəldilibmiş. Əslində isə bütün bağların ağırlığı onların üzərinə düşürdü. Ən yüksək keçid o birisindən təxminən 25 metr hündürlükdə olub. Ən yüksək keçidi divarlar saxlayarmış. Ümumiyyətlə isə divarlar çox yüksək səviyyədə inşa edilibmiş. Hər birinin qalınlığı 7, 5 m çatarmış. Keçidlərinsə eni 3, 4 m bərabərmiş. Onların tavanı hər birinin uzunluğu 5, 4 m eni 1, 35 m olan daş sallarla örtülübmüş. Daşların üzərinə isə çoxlu qamış və qır qarışığından ibarət xüsusi örtük çəkiblərmiş. Onların üstündə kərpic və əhəng məhlulundan yaradılmış xüsusi qat olub. Nəhayət üçüncü təbəqə qurğuşun laylardan ibarətmiş ki, bunu görmədə əsas məqsəd aşağı hissəyə su keçməsinin qarşısını almaq olub. Bütün bu hazırlıq işlərindən sonra ağacların bitib lazımi dərəcədə boy atması üçün tələb olunan torpaq qatı tökülübmüş.

Bağlarda xüsusi bağbanlar tərəfindən becərilən ağaclar öz növlərinin müxtəlifliyinə və gözəlliyinə görə ətrafdakıları heyran qoyarmış. Keçidlərin ətrafında sarayın müxtəlif təsərrüfat işləri üçün xüsusi otaqlar tikilibmiş. Bu keçidlərin birindən bağın ən yüksək meydançasına xüsusi pəncərə açılarmış. O çayın suyunu bağçaya ötürmək üçün lazım imiş. Çayın suyu xüsusi formaya malik qurğular nəticəsində o qədər yüksəkliyə qaldırılır və bağları suvarmaq üçün istifadə edilərmiş. Qeyd etdiyimiz kimi bu cənnət bağı sonralar inşa edilib..."

Strabon özünün coğrafiya əsərində də onun haqqında qısa məlumat verir. Digər mənbələrdə də- Kortius Rofusun, məşhur yəhudi tarixçisi Cozefin və həmçinin fars müəllifi Brususun- əsərlərində bu heyranedici





abidə haqqında oxumaq olar. Əvvəlcə verdiyimiz Deodorun təsvirini daha da tamamlamaq üçün, məşhur babil çarı Novoxodonosor və babil şəhəri ətrafında tikilmiş müdafiə istehkamlarından söhbət açmaq üçün Cozefin əsərinə müraciət etsək yerinə düşər. O yazır: "Novoxodonosor 43 illik hakimiyyətdən sonra həyatdan getdi...onun özündən sonra qoyub getdiyi işlər haqqında Brusus "Kəldanilərin tarixi" adlı əsərində deyir: (mətn ixtisarla verilir) Novoxodonosor atasının ölüm xəbərini eşitcək Misir və qonşu ölkələrdə işləri səhmana saldı, yəhudi, fars, suriyalı və misirli əsirlərə əncam çəkdi, sonra Babilə qayıtdı. Qüvvətli kəldani imperiyaya başçılıq edərək əsirləri Babil torpağında yerləşdirdi. Belə və digər məbədlərə hərbi qənimətlərindən payladı. Qədim Babil şəhəri beləliklə yeni görkəm aldı. O, şəhər ətrafı istehkamları qaydaya saldırdı, Fəratın məcrasını dəyişdirdi, şəhərin üçqat daxili hasarları ilə yanaşı xarici maneələrini də düzəltdi. Babil alınmaz qalaya çevrildi. Ona gözəl darvazalar düzəltdirdi, atasının tikdirdiyi qala ilə birləşən, təsvirinə söz tapılmayan gözəl saray inşa etdirdi... Bundan əlavə bağlar tikdirdi, çünki midiyalı qadını arzu etmişdi ki, ölkəsində olan bağlara bənzər olsun..."

Kəldani kitabələrində verilən məlumatlar da bağlarla gözəl sarayın və hazırda bir qismi mövcud olan məşhur İştar darvazasının yaxın məsafədə yerləşdiklərini göstərmişdir. Xüsusi arxeoloji ekspedisiyanın da apardığı tədqiqatlar və əldə etdikləri nəticələrə əsasən tərtib olunan sxemlər bunu sübut etmişdir.

Tarixi mənbələrdə alimlər asılan bağları 6 mərtəbəli kimi qəbul edirlər. Hər mərtəbə arasındakı hündürlük 5 m çatarmış. Belə simmetrik bərabərlik ümumən Babil qülləsinə xas imiş. Həmçinin bu cür hündür binalar havanın dəyişdirilməsi və s. üçün pəncərələrə malik olmalı idi. Ən yüksək mərtəbə, başqalarına nisbətən daha hündür, yəni 30,5 m müqabilində olub. Alimlər həmçinin asılan bağların divarlarının, mərtəbələr arası örtüyünün qalınlığını və digər elementləri təxminən müəyyən ediblər. Koldofay adlı alimin təsəvvüründə hətta bağlar öz əvvəlki vəziyyətində yaranıb. Onun rəsmələrini biz oxuculara təqdim edirik.

Bir qism arxeoloqlar belə güman edirlər ki, asılan bağlara bənzər tikililər tarixdə yeganə ola bilməzlər. Çünki onun yaradıcıları çar və qadının istədiyini yerinə yetirərkən öz dövrünün tikinti texnikasından istifadə etsələr də, əvvəlki zamanlar təcrübəsindən, fikir və forma mənbələrindən qidalanmışlar. Asılan bağlara aid ümumiyyətlə Babil tarixi ilə bağlı maraqlı bir abidədən, Babil istehkamlarından danışmamaq olmaz. Onlar haqqında geniş və dəqiq, yaxud buna çox yaxın məlumat toplamış və qədim dünyanın bu möcüzəli tikintisi haqqında qiymətli xəbərləri bizə çatdırmış görkəmli alimlərə də minnətdarlığımızı bildirməliyik.



Kərbəla – İmam Hüseyn məscidi



Əvvəlcədən qeyd edək ki, Babil qədim dünyanın ən böyük və alınmaz şəhərlərindən olmuşdur. Onun ümumi sahəsinə aid dəqiq məlumat olmasa da xarici ölçüləri artıq bəllidir. Müdafiə məqsədləri çüçün tikilmiş xarici hasarın uzunluğu 20 km çatarmış (Heredot onu şişirdib 86 km təqdim etmişdi). Bir sıra yunan mənbələri isə divarların hündürlüyünün 100 m olduğunu yazırlar. Heredot Babildə olakən divarların bir hissəsi uçubmuş. Babildə divarların üzəri ilə dörd heyvanın araba isə hərəkət edə biləcəyini alimlər qəbul etmirlər. Kontiyus Bufus isə dörd heyvanın iki araba çəkə bildiyini yazır ki, bu da həqiqətə uyğun gələ bilməz.

Amma istehkamlarda çoxlu bürclərin olması tarixi fakt kimi qəbul olunur. Onlar hər iki tərəfdən görünərmiş. Bürcələrin əsas məqsədi hasarı aşmaq istəyən düşmənə qarşı müqavimət göstərməklə yanaşı, həmçinin onu iki bürc arasındankı məsafədə mühasirəyə alıb əzmək olub. Heredotun şəhərin daxili istehkamlarına aid verdiyi məlumatlarda son əsrdə Babildə aparılan arxeoloji qazıntılar nəticəsində ziddiyyət və nöqsanlar aşkar edilmişdir. Şəhər çay boyunca uzanıbmış. Fərat onu şimaldan cənuba iki hissəyə bölübmüş. Ümumi forması təxminən dördbucaqlı formasında olub. Onun qərb hissəsi şərq hissəsinə nisbətən kiçik imiş. Şəhərin mərkəzində Atomonamiki ziqquratı ucalarmış. Ondan bir qədər cənubda İsakilə məbədi yerələşrmiş. Şimali hissənin ortasında çarın cənub sarayı varmış. Onun burda tikilməsi şəhərin şimal qapıları İştarla və çay yolu ilə bağlı olub. Şəhərin əsas küçəsi sayılan Təntənələr xiyabanı şərq hissəni şimaldan kəsərək, çayın yanından adlayır və düzbucaq altında bululаraq qərbə sarı yönələrmiş. Qərb hissə xüsusi körpü vasitəsilə birləşmişmiş.

Novoxodonosor paytaxtının müdafiəsini daha da qüvvətləndirmək üçün Fərat boyunca xəndəyi olan yeni, tarixdə "çinkal şərqi" adı ilə tanınan hasar çəkdirir. Həm də çar öz nitglərinin hamısında o hasardan danışır. Belə zənn olunur ki, o, bu əməli ilə şəhərin şərq tərəfdən gözlənilən hücumlardan qoruya biləcəyini düşünürmüş. O hasarın haqqında Borsus da xəbər vermişdir.

Mixi yazılarında şəhər daxilində 8 əsas darvazanın olduğu göstərilir. Cənub tərəfdən Uraş darvazası, şərq tərəfdən Kişu darvazası, yaxud Mərdux darvazası, şimal tərəfdən İştar darvazası haqqında məlumat verilir. Heredotsa İştar darvazasını Seminaris qapısı altında təqdim edib.

Ümumiyyətlə Heredotun Babilə səyahəti zamanı (b.e.ə. 470- 460-cı illər) bu əzəmətli şəhər öz çiçəkləmə dövrünü çoxdan itirmişdi. Babilistanın istila edilməsi (b. e. ə. 539- cu il) nəticəsində şəhərin tənəzzül dövrü başlanmışdı. O, get- gedə qədim dünyanın ən gözəl və zəngin paytaxtlarından ikinci dərəcəli əyalət şəhərinə çevrilirdi. Kserskin b. e. ə.

479- cu ildə yenidən Babili fəth etməsi və Mərduxun heykəlini dağıtması qədim tarixdə Babil dövrünün sonu sayılır...

Babilistanla əlaqədar çox mühüm bir faktı da burda qeyd etsək yerinə düşər. O, Fəratın məcrasının dəyişdirilməsidir. Alimlər müəyyən etmişlər ki. Fərat öz daşqınlarının birində ətrafındakı hasarı və şəhərin daxili divarını uçuraraq özünə yeni məcra salır. Heredot da məsələyə işarə edib göstərir ki, şəhərin hər iki hissəsi yeni məcranın ətrafında yerləşibmiş. Onların birini çar saray, digərini isə Ziyus- bilus məbədi bəzəyirmiş. Çayın məcrasının dəyişdirilməsi haqqında məlumatlar Makedoniyalı İskəndərin Babildə olduğuna aid yazılan kitablarda da öz əksini tapır. Müəlliflər İskəndər və başqa sərkərdələrin əmrilə tikililərin ətrafında yığılıb qalmış torpağı çay qayıqları vasitəsilə daşıtdırdıqlarını nəql edirlər.

Alimlər Babil hasarının inşaat baxımından tikilməsini çətin hesab etmirlər. Onun hündürlüyü isə alimlər tərəfindən çox da böyük miqyasda qəbul olunmur. Hasarın ən yüksək nöqtəsi yerdən təxminən 30 m yüksəklikdə olub. Onun tikintisində süd məhsullarından istifadə edildiyi qeyd edilir. Rütubət çox olan və dərin özül qoyulan yerlər qır və kərpicdən tikilərmiş.

# XADAR

Bu şəhər qədim, bəzən "karvan şəhərləri" adlandırılmış, susuz düzənliklərdə salınıb tərəqqi etmiş Bosra, Tadmor və s. kimi yaşayış məntəqəsi olmuşdur. Xadar İraq Respublikasının ikinci böyük şəhəri saylan Mosuldan 15 km cənub qərbdə, Tərtərdən aralıda yerləşibmiş. O, eramızın əvvəllərində, sərhədləri şərqdə Dəclə, qərbdə Fərat çaylarınacan, Şimalda Sincar dağlarına, cənubda isə Mədainin hüdudlarınadək uzanan bir ərəb çarlığının paytaxtı olmuşdur. Həmin dövlət eramızın üçüncü əsrindək yaşamışdır. Xadar İraqın Səlluqiyyə dövlətinin paytaxtından (Səlluqiyyədən) Suriyadakı Antakiya çarlığına uzanan iki yolun birincisinin üzərində yerləşibmiş. Xadarın çiçəklənməsi İraqda farsların hakimiyyəti dövrünə təsadüf edir. Bu zaman o, Roma və Sasani dövlətləri arasında gedən müharibələrdə əsas hərbi mərkəzlərdən birinə çevrilibmiş.

Xadar həmçinin məşhur dini mərkəz kimi də tanınıb. Orda ərəb qəbilələri öz bütləri üçün binalar tikdirmişlər. Bir müddət ətraf rayonların ərəb dilli əhalisi ora ziyarətə gələrmiş. Günəş həmin ilahələr içərisində əsas yer tutarmış. Böyük Xadar məbədi şəhərin mühüm dini ideoloji mərkəzi





olmuşdur. Onun xarici və daxili tərtibatına çəkilən bəzək- düzəyinin gözəlliyi yüksək qiymətləndirilir.



*Xadar*

Məbədin planı dördbucaqlı şəklindədir. Onun əsas tərəfləri dörd cəhətə sarı baxır. Ətrafında həmçinin dördbucaqlı formasına malik hasar olmuşdur. Bina yonulmuş daşdan inşa edilmişdir. Bir neçə giriş darvazası vardı. Başlıcası isə şərq tərəfdə yerləşmişdir.

Hasarın qalıqlarının uzunluğu 437,5 m, eni 322 m çatır. Bütlər üçün tikilmiş binalar əsasən iki qismə bölünürlər. Onların hər birinin üç giriş qapısı olub. Ortadakı qapı ən böyüyü sayılır. Binalar eyvanlı qəsrlərdən Şərq tərəfdə yerləşmişdir. Şahru (Şairu) ilahəsinin binası da buradadır: Onun qarşısında iki kiçik eyvanı və bir neçə otağı olan bina vardır.

Xadarda həmçinin bir sıra yunan ilahələrinin heykəllərinə də rast gəlinmişdir. Apollonun müxtəlif yerlərdən tapılmış heykəlləri yaxşı qalıb. Qeyd olunmalıdır ki, yunan ilahələri yerləşən binalar yunan memarlıq üslublarına uyğun inşa edilibmiş.

İndiyədək İraq arxeoloji qazıntılar mərkəzi tərəfindən Xardarın çoxlu mədəniyyət nümunələri aşkar edilmişdir. Tədqiqatlar nəticəsində aydın

olmuşdur ki, Xardarın kənar hasarı südlü məhsuldan tikilibmiş. Özü də təxminən yarımdairə formasında olmuşdur. Diametri isə 3 km çatarmış. Daxili hasar nisbətən kiçik olub diametri 2 km qədərmiş. Üzərində 163 dənə qüllə varmış. Daxili hasar iki divardan ibarət olub. Birinci divarın eni 3 m, ikinci divarın eni 2,5 m imiş. Xarici divarların ətrafında dərin xəndək qazılıbmış. Dörd əsas darvazaya malik olmuşdur.

Bu görkəmli şəhər məşhur Sasani şahı Şapurun 41- ci ildə Roma orduları tərəfindən məğlub edilməsi nəticəsində dağılıb.

# İSLAM MEMARLIQ MƏKTƏBLƏRİ

Ənənəvi islam sənət məktəblərindən danışarkən ilk növbədə qeyd olunmalıdır ki, o, dünyada özünü əsasən məscidlər, mavzoleylər, rabatlar, xaneqah və təkyələr, xanələr, bazarlar, hamamlar və s. şəklində göstərmişdir. Onların hər birinin dini- ideoloji, sosial- iqtisadi və s. funksiyaları olmuşdur.

Məscidlərdən danışarkən ilk islam məscidi yada düşür. Reyğəmbərimiz Məhəmmədin (S) Mədinədə çıxış etdiyi məşhur məscid, sonrakı bütün məscidlər üçün bir növ nümunə rolu oynamışdır. Hər bir məscidin "sahn" adlanan daxili salonu olmalıdır. Çox zaman onun ətrafında dəhlizlər inşa edilir. Ən böyüyü adətən " qiblə dəhlizi" adlanır. Yanında minbər olan mehrab da orada yerləşir. Məscidin tavanı tirlər üzərində qurulur və onları ya mərmərdən, ya da daşdan inşa edilən sütunlar saxlayırlar. Bəzənsə onlar binanın divarına söykənirlər. İslamın ilk dövrlərində məcidlərdən tədris mərkəzləri kimi də istifadə edirdilər.

On birinci əsrdən başlayaraq bir, ya da dörd məzhəbi öyrənmək üçün xüsusi mədrəsələr inşa edilməyə başlandı. Onlar həm də məscid rolunu oynayırdılar. Bəzən həmin mədrəsələrə bitişik tələbə və müdəssirlərin yeri inşa olunardı. On üçüncü əsrdən etibarən belə məscid- mədrəsələr əksər islam ölkələrində yaradılmışdır.

Mavzoleylər ənənəvi ədəbiyyatda həm qübbə, həm də türbə adlanırdı. O, adətən yüksək mənsəb sahiblərinin qəbri üzərində inşa edilərmiş. Qəbrin üstü isə ağac məmulatından, yaxud mərmər və daşdan qurularmış. Mavzoleylər xarici görkəminə görə adətən ya qübbə şəklində, ya da tavanı konusvari olan silindrik bürc şəklində olardı. Çox zaman mavzoleylər sahibinin tikdirdiyi məscidlə bitişik inşa edilərdi.





Rabatlar- əsasən sərhədlərdə və mühüm strateji mərkəzlərdə, ordunun yaşaması üçün tikilən binalara deyirdilər. Onlara ən çox Şimali Afrikada rast gəlmək olar. Öz planına görə dördbusaqlı idilər, möhkəm xarici divarları vardı və çoxlu bürcləri olardı. Daxilində isə çoxlu yaşayış üçün otaqlar-hücrələr tikilərdi. Hər rabatın öz məscidi olmalıydı.

Xanegahlar sufilərin ibadət etdiyi xüsusi evlər olmuşdur. Təkyələr isə osmanlı dövrünün məhsuludur, onlar da dərvişlərin ibadət etdiyi binalar idi.

Xanalara bəzi mənbələrdə vəkalətlər də deyilir. Hər iki məfhum dilimizdə karvansara sözü ilə ifadə olunub. Xüsusi olaraq müsafirlərin yaşayışı və ticarət karvanlarının qalması üçün tikilərmiş. Daxilində mal saxlamaq üçün böyük anbarları, iri geniş qapıları, küçəyə açılan dükanları, yaşayış otaqları, geniş meydançası və s. olarmış.

Bütün şərq şəhərlərinin ayrılmaz parçası olan binalar onların bazarları və hamamları idi. Hamamlar suyun istiliyindən asılı olaraq üç hissəyə bölünürdü. Su binanın altında yanan ocağın sayəsində qızdırılır və divarlardakı borulara axıdılardı. Divarlar içəridən elə bəzədilmişdi ki, çimənlər ondan mənəvi zövq alır və dincəlirdilər.

Bunlardan əlavə şərqdə geniş yayılmış minbərləri də qeyd etmək lazımdır. Onlar da ayrıca, ya da mədrəsə, yaxud da məscidlə vahid kompleksdə inşa edilirdi.

İslam memarlığını təşkil edən ən başlıca ünsürlərdən biri minarədir. Onun məscidin funksiyasının yerinə yetirilməsində böyük rolu vardır.

Tarixçilər qeyd edirlər ki, nə Peyğəmbərimiz Məhəmmədin (S), nə də dörd sonrakı xəlifənin dövründə məscidlərin xüsusi minarəsi olmayıb. O, ilk dəfə əməvilərin Dəməşqdə tikdirdikləri məsciddə meydana gəlib. Sonradan minarə bir ənənə kimi Şimali Afrikaya və başqa ölkələrə yayılmışdır. Dövrümüzə qədər salamat qalan ən qədim minarə Hişam Əbdülmalikin dövründə Qeyravanda 728- ci ildə tikilmiş minarədir. O, Seyid Agabə Camesindədir və "sumie" adı altında məşhurdur. Quruluş etibarilə bürc şəklindədir, ümumi hündürlüyü otuz bir metrə çatır. Minarə üç hissədən ibarətdir və yuxarı qalxdıqca kiçilir. Hər hissənin sonunda balkon vardır, minarənin qurtaracagında isə qübbə inşa edilmişdir. Qeyravandakı bu minarəyə oxşar olaraq Mərakeşdə Kətəbiyyə minarəsi və Sevilyada Came məscidinin minarəsi yaradılmışdır.

Şərq şəhərlərindən ən çox Qahirədə müxtəlif formalı minarələrə rast gəlmək olar. Onu bəzən bu sahədə muzey adlandırırlar. Şəhərin ən qədim minarəsi Əhməd İbn Tulun məscidindədir. İslam incəsənətində Fatimələr və Əyyublar məktəblərini təmsil edən minarələr, həm də digər abidələrdən ibarət bu böyük ansanbl heç də bütövlükdə, tam şəkildə bizim zəmanəmizə

qədər gəlib çatmamışdır. Fatimilər məktəbinə misal olaraq Came- hakim məscidinin iki minarəsini göstərmək olar.

İslam memarlığında ikinci mühüm ünsür qübbə sayılır. O, tarixçilərin qeyd etdiyi kimi islamdan əvvəl Ərəbistanda məlum imiş. Sasani və Bizans memarlığında da qübbə istifadə edilərmiş.

Müsəlmanlar əvvəlcə mavzoleylərin inşasında qübbə tətbiq ediblər. Sonradan o geniş yayılır və islam memarlığının ayrılmaz hissəsi olur.

Qüdsdəki "Qübbət Us- Saxra"məscidindəki Əbdülmalik ben Mərvanın 692- ci ildə tikdirdiyi qübbə İslam memarlığındakı ən qədim nümunə sayılır. Başqa bir qədim qübbə Quseyr Əmra adlanan abidəyə aiddir. Qeyd olunmalıdır ki, həm minarə, həm də qübbə öz formalarına və tərtibatına görə müxtəlif görkəmə və ölçülərə malik olublar.

Başqa bir memarlıq ünsürü sütunlardır. Bu haqda məlumat verən mənbələr göstərir ki, islamın ilk dövrlərində memarlıqda xüsusi istiqamət olmayıb. İlk islam memarları sütun inşa edərkən qədim roma abidələrinə məxsus detalları işlədirdilər. Həmçinin göstərilir ki, islama məxsus üslubdakı ilk sütun Samaradakı Əl-cüsəq- əl Xəqani sarayında inşa olunmuşdur. Sütunlar da tavan, giriş qapısı və s. ünsürlər, aid oldugu memarlıq üslubunun- məktəbinin bədii- estetik qanunları əsasında qurulur, bəzədilir və formalaşdırılırdı.

1974- cü ildə Qahirədə Amerikalı alim tərəfindən buraxılmış "Funun əş- şərq- ausat" (Yaxın Şərq incəsənəti. Müəllifi N. İ. Alləmdir) və yenə Qahirədə prof. Ə. S. Əl- Ələfi tərəfindən 1969- cu ildə çap etdirilmiş, "Əl- fənn- əl- islami" (İslam incəsənəti) kitablarında islam memarlığının müxtəlif tarixi dövrlərinə toxunulmuş, bəzi abidələrin bədii- estetik xüsusiyyətləri açılmış və islam incəsənətini məktəblər üzrə qruplaşdırmağa cəhd göstərilmişdir. Qeyd olunmalıdı ki, hər iki müəllif öz fikirlərini irəli sürərkən ən mötəbər mənbələrə əsaslanmışdır. Bu sahədə ümumdünya şöhrəti qazanmış alimlərin yazdıqlarını saf- çürük etdikdən sonra nətisə çıxarmışlar. Hər iki əsərin təhlili göstərir ki, müəlliflər memarlıq məktəblərini müəyyən edərkən tarixi- xronoloji yolla getmiş, sənətdə ardıcıllıq prinsipinə riayət etmişlər. N.İ.Alləm xanımın fikrincə yarandığı gündən bəri islam incəsənətində aşağıdakı əsas məktəblər- üslublar mövcud olmuşdur:

1. Əməvilər məktəbi. 2. Abbasilər məktəbi. 3. İspaniyada Əməvilər məktəbi. 4. Fatimilər məktəbi. 5. Səlcuqilər məktəbi. 6. Misir və Suriyada Əyyubilər məktəbi. 7. Monqol- islam məktəbi. 8. Məğrib- İspan məktəbi. 9. Məmluklar məktəbi. 10. Səfəvilər məktəbi. 11. Osmanlı məktəbi. 12. Hind- islam məktəbi. Professor Ə.S.Əl- Ələfi isə həmin on iki məktəbə birini də





əlavə edir. Onun fikrincə ilk islam dövründə yaranmış sənət əsərlərini ayrıca məktəbə daxil etmək lazımdır. Beləliklə göründüyü kimi, Şərq incəsənəti üzrə mütəxəssislərin fikri demək olar ki, bütün məktəblərin müəyyən olumasında bir- birini tamamlalır. Biz isə yalnız haqqında danışacağımız abidələrə aid məktəblər həqqında məlumat verəcəyik.

# ABBASİLƏR MEMARIQ MƏKTƏBİ

Sonuncu Əməvi xəlifəsi II Mərvan xilafətin paytaxtını Hərran şəhərinə köçürdükdən sonra (747 il) Qüreyş qəbiləsindən olan Abbasilərin təhriki ilə xilafətdə narazılıq azalmır. Nəhayət 750- ci ildə Əməvilər taxtdan salınır, bütün nəsli qılıncdan keçirilir. Yalnız bir nəfər uzaq İspaniyaya qaçaraq orada Əməvi xanədanını bərpa edə bilir.

Abbasilər qısa fasilədən sonra paytaxtı Bağdada köçürürlər. Əməvilər haqqında danışan tarixçilər onları güclü ərəb təəssübkeşliyinə malik adamlar kimi təqdim ediblər. Abbasilərin hakimiyyəti isə başqa xalqlara yaxşı münasibətlə səciyyələnmişdir. Bu, xüsusilə əvvəlcə fars, sonra isə türk mənşədən olan xalqlara aiddir. Bu iki etnik birliyin xilafətin bütün həyatında böyük rolu olmuşdur. Türk təsirinin başlanğıcını doqquzuncu əsrin ortaları ilə bağlayırlar. 1055- ci ildə isə Səlcuq bəyin sultan təyin edilməsi ilə xilafət faktiki olaraq türklərin əlinə keçir.

Mədənniyyət tarixi üzrə mütəxəssislər Abbasilər memarılıq məktəbinin fəaliyyət dövrünü 750- ci ildən 1055- ci ilədək qəbul edirlər. Bu məktəbin memarlıq nümunələrinə ən paqlaq misal yeni tikilmiş və islam dünyasının bir neçə əsr mədəni mərkəz rolunu oynamış, öz dövründə yalnız Konstantinopolla müqayisə edilən gözəl Bağdad şəhərinin arxitekturasıdır. (Bu haqda Bağdad bölməsində xüsusi danışılacaq). Həmçinin deyiməlidir ki, Abbasi memarlıq məktəbi öz təsirini İranda, Orta Asiyada, Şimali Afrikada və s. regionlarda göstərmişdir. Bu da göstərilməlidir ki, Abbasi xəlifələri İraq ərazisində daha iki paytaxt inşa etdirmişdir. Xəlifə Mötəsim 836- cı ildə Bağdaddan bir qədər aralıda, Samara adlı yeni paytaxt tikdirmişdir. Başqa bir xəlifə Əl - Mütəvəkkil ölümündən bir qədər əvvəl Samaradan şimalda daha bir paytaxt Əl- Cəfəriyyə adlı şəhər saldırmışdı. Amma onların heç biri Bağdadı əvəz edə bilməzdi.

Bu memarlıq məktəbinin formalaşmasında tikilən şəhərlərlə yanaşı ayrı- ayrı xəlifənin inşa etdirdiyi məşhur saray və qəsrlərin xüsusi rolu

olmuşdur. Məsələn, xəlifə Mənsur Bağdadda Qızıl Qəsr adlı saray, Xəlifə Rəşid isə Rıqqədə özü üçün gözəl saray tikdirmişdi və həmin binanın qalıqları bizə gəlib çatmışdır. Mötəsim adlı Xəlifə Samarada Cusəq adlı bina yaratmışdı. Mütəvəkkildən isə Cəfəriyyə şəhərində daha çox bina qalmışdır. Onlar Aruş, Muxtar, Vahid, Cəfəri adlı saraylardır. O, həmçinin oğlu Mütəzz üçün Balkvara saray da tikdirmişdi. Bunlardan əlavə xəlifə Mütəməddin Samarada tikdirdiyi Aşiq sarayını, Kərbəlanın cənub- qərbindəki Uxezar sarayını göstərmək olar. Tarixi məlumatlar təsdiq edir ki, bu saraylar öz görkəminə və tərtibatına görə dövrünün məşhur abidələri olublar. Onların xüsusi hamamxanaları və fəvvarələri varmış, tərtibatında gips məmulatınadan istifadə edilibmiş.

Abbasilər memarlıq məktəbinin Şimali Afrikada yayılmasını təsdiq edən tarixi məlumatlar vardır. Onlardan biri 801- ci ildə hakim İbrahim İbn Əl- Əğləbin yeni tikdirdiyi və Abbasiyyə adlandırdığı paytaxtında bu üslubda inşa etdirdiyi saraydır. Həmçinin səkkizinci və doqquzuncu əsrlərdə sahil boyunca məktəbin təsiri açıq duyulan çoxlu müdafiə istehkamları və s. tikilmişdi. Adını çəkdifimiz Əl - Əğləb Tunisdə 861- ci ildə inşa etdirdiyi həmin binanın yanında silindr formalı bir minarə də olubdur, ondan minbər kimi istifadə ediblər.

Qeyd olunmalıdır ki, Abbasilər hakimiyyəti dövründə xilafətdə parçalanma gedib, bir sıra müstəqil dövlətlər yaranmışdısa (Məs: Misirdə Tulunilər, Asiyada Samanilər, Buveyhilər, Qəznəvilər) ənənə, sənət dünyasında müəyyən dərəcədə özünü göstərmək imkanı versə də, başlıca meyar olaraq qalırdı.

Fatimilər dövründə (877- 905- ci illər) Misirdə bir sıra görkəmli abidələr ucaldılmışdır. Onlardan Əhməd ben Tulunun əsgər və zabitlər üçün tikdirdiyi iqamətgahları göstərmək olar. Amma bu dövrdə yaradılmış ən gözəl bina Ben Tulun Məscididir. O, islam aləminin yaxşı camelərindən biridir.

Xəzər dənizinin cənubunda və İranın qərb zonasında yaradılan Buveyhilər dövlətində (932- 1055- ci illər) mədəni həyatda böyük dirçəliş baş verdi. Sənətdə İran ənənələrəri öz qüvvəsini saxlasa da Abbasilər məktəbinin təsirindən qurtara bilmirdi. Bu özünü memarlıqda daha çox göstərmişdi. İslamın ilk dövrlərində İrandakı məscidlərdə bu xüsusiyyət bariz şəkildə mövcud olub. Birincisi- dördbucaq şəkilli, üst qübbəli atəşgahlar məscidə çevrilmiş, ikincisi- açıq qübbəli eyvanlı sasani qəsrlərini məscid kimi istifadə edirdilər. Üçüncüsü isə ənənəvi ərəb- islam üslubudur; məscidin zalı və ətrafında sütunları olubdur. Buveyhilər dövründə bu üç üslübün birləşməsindən yeni yerli üslub yaranıb və Abbasilər memarlığı ona





öz bədii- estetik təsirini göstərmişdir. Buna misal olaraq Yəzd şəhəri yaxınlığındakı hələ də salamat qalan və İranda ən qədim məscid sayılan abidəni göstərmək olar.

Samanilər dövləti (873- 999-cu illər) Xorasan və ətraf vilayətlərdə yaradılmışdı. O dövrdən qalma məşhur abidə Buxarada yerləşən İsmayıl ben Əhmədin türbəsi sayılır.

Qəznəvilər tarixi (862- 1186- ci illər) həm də abadlıq işləri ilə zəngindir. Amma təəssüf ki, onların çoxu dağılıb. İki məşhur məscid qalıb. Onlardan birini Sulan Mahmud, ikincisini isə Sultan II Məsud h.t.114- cü ıldə tikdirib.

Mütəxəssislərin fikrincə Abbasilər sənətində Bizans və yunan təsirləri çox azalmışdı. Onun əvəzində fars, sonra isə türk ənənələrinin təsiri güclənməyə başlayır. Samaranın memarlıq və incəsənəti xilafətdə türk təsirinin mövqeyini çox aydın əks etdirir.

# BAĞDAD

Orta əsrlərin ən qüvvətli dövlətlərindən sayılan ərəb xilafətinin paytaxtı 661- ci ildən 750- ci ilədək Suriya Ərəb Respublikasının paytaxta Dəməşq şəhəri olmuşdur. Xilafətə isə Əməvilər sülaləsindən olan xəlifələr rəhbərlik etmişdir. Bu dövr ərzində İraq və ətraf torpaqlar mərkəzi Bəsrə, Kufə və Vasıt şəhərində yerləşən canişinliyə tabe olunurdu.

Əməvi hakimlərinin yürütdüyü ərəb təəssübkeşliyi siyasəti və s. amillərdən məharətlə istifadə edən Qureyş nəslinin digər nümayəndələri- Məhəmməd Peyğəmbərin əmisi Abbasın övladları üsyan nəticəsində hakimiyyətə gəlirlər. 749- cu ildə Əbul Abbas əs - Səffah Kufə şəhərində təntənəli şəkildə xəlifə elan olunur. Beləliklə tarixdə Abbasilər adı ilə tanınan sülalənin hakimiyyəti başlanır.

Paytaxt Dəməşqdən Kufə yaxınlığında yerləşən Əl- haşimiyyəyə köçürülür. 754- cü ildə qardaşı Əbul abbasın qəflətən vəfatından sonra hakimiyyətə gələn Cəfər dövlətə lazımi tələblərə cavab verən yeni paytaxt tikdirməyi qərar verir. Uzun çəkməyən axtarışdan sonra İraq Respublikasının indiki paytaxtı Bağdadın yeri seçilir. Bu ərazinin qəbul olunması əsas tələbləri lazımi qədər ödəyirdi. Havası yaxşı idi, dövlətin müxtəlif rayonları ilə həm quru, həm də su yolları vasitəsilə əlaqə saxlayırdı, ətraf regionun əhalisi yeni sülalənin hakimiyyətindən narazı deyildi, və s. Ən mühümü isə bu idi ki, paytaxtın yaxınlığında onunla rəqabətə girə biləcək iri şəhərlər yox idi.



***Bağdad – Abbasilər sarayı***

Qeyd olunmalıdır ki, bu göstərilən yer, paytaxt seçilərkən kiçik bir kənddən ibarət olub. Adına Bağdad deyirmişlər.

Sözün mənasının bəzən iran dillərindən yarandığını, bəzənsə çin dilindən gəldiyini- "Allah verən", "bağ verən" vəs. kimi mənalar ifadə etdiyini söyləyirlər. Sasanilər hakimiyyəti zamanı (II- VII əsrlər) Bağdad yaxınlığında Çindən tutmuş Bizansa qədər olan ölkələrdən gəlmiş tacirlərin alver etdikləri, iri ticarət yarmarkası keçirildiyi də göstərirlir.

Paytaxtın inşasına başlamaq üçün xəlifə Mənsur 762- ci ilin avqustun 1-də həlledici qərar qəbul edir. Beləliklə Abbasilər xilafəti tarixində çoxlu mühüm dövlət işləri görmüş, mahir siyasətçi xəlifə sonradan çox böyük şöhrətə çatacaq bir şəhərin təməlini qoyur. Dövlətin hər yerindən ən yaxşı sənətkarlar işə cəlb olunurlar.

Şəhər əvvəlcədən hazırlanmış baş plana görə dairə formasında inşa edilir. Orta əsr mənbələri çoz zaman ona "əl- mədinə əl- mudavvara" (yəni "dairəvi şəhər") deyirdilər. Ətraf hasarlar üç qat olub, bişməmiş kərpicdən tikilibmiş. Ümumi uzunluğu isə 2638 m. çatarmış. Hasarın hündürlüyü isə təxminən 18 m. imiş. Birinci hasarın önündə dərin xəndək qazılıbmış. Bağdadın əsas dörd darvazası olub: Kufə, Bəsrə, Xorasan və Dəməşq darvazaları. Hər darvazadan göstərilən şəhərlərə sarı abad yollar uzanarmış. Darvazaların arasında 28- 29 ədəd keşiçki qülləsi olub.

Mənsur şəhəri inşa etdirərkən ilk növbədə sarayın mühafizəsinə diqqət verib. Şəhərdə yalnız sarayla müəyyən əlaqəsi olan adamlar yaşayarmış.





Odur ki, yeni paytaxt tikildiyi ilk dövrlərdə daha çox hərbi düşərgəyə bənzəyərmiş.

Xəlifə sarayı şəhərin mərkəzində olub. Orda yalnız məscid, yeddi dənə divanxana binası olub. Xəlifə sarayı öz təmtəraqına görə şöhrət tapıb. Çox zaman ona "bab- əl- əzhəb" (zızıl qapı), bəzənsə "əl- xadra" (yaşıl günbəz) deyərmişlər. Rəvayətə görə sarayın ən hündür yerində əlində nizə tutmuş atlı heykəli olub. Hansı səmtdə düşmən gözlənilirmişdisə, nizə o səmtə yünəldilirmiş. H.t.441- ci ildə olmuş güclü leysan yağışı və daşqın gözəl sarayı tələf etmişdir.

Bağdadın tikintisi 4 il çəkib. Ümumi xərc 9 milyon dinardan çox olub. İnşaatda Kufə, Dəməşq, Vasıt şəhərlərindən gətirlilən müxtəlif hazır hissələr, məsələn, dəmir darvazalar da işlədilib. Qədim dünya abidələrindən - Babil və Mədain xərabəliklərindən - də istifadə oluna biləcək materiallar gətirilib.

Şəhərin inşasına rəhbərlik edən xəlifənin göstərişi ilə yeni paytaxt "Mədinət- əl- Səlam" (sülh, əmin- amanlıq şəhəri) adlandırılır və rəsmi dairələrdə belə tanınır. Xalq arasında isə əvvəlki məntəqəsinin adı- Bağdad adı geniş yayılır.



***Bağdad – Əbu Hənifə məqbərəsi***

Qeyd olunmalıdır ki, Bağdad sonrakı əsrlərdə təkcə Yaxın və Orta Şərqdə yox, ümumiyyətlə bəşər svilizasiyasının tarixində İraq ərazisində müxtəlif minilliklərdə salınıb ad çıxartmış Şumerlərin paytaxtı Ur, Babillərin böyük mərkəzi Babil, məşhur Assuri paytaxtı Nimrud və Sasanilərin mərkəzi Mədain kimi mühüm siyasi iqtisadi, mədəni mərkəz olaraq öz ölkəsini hər yanda tanıtdırmışdır.

Birinci yarım əsr ərzində paytaxt özünün ən səfalı dövrünü yaşayır. O illər zamanı Mənsur paytaxtının yalnız uzun tarixə malik Bizans paytaxtı Konstantinopolla müqayisə edə biləcəyini qeyd edirlər. Gənc şəhərin çiçəklənməsində, qeyd olunduğu kimi ticarətlə yanaşı gözəl coğrafi mövqeyi çox böyük rol oynayır. "Dairəvi şəhərdən" kənarda sənətkarlar üçün yaşayış məhəllələri salınıbmış. Beləliklə şəhər ilkin formasını get- gedə itirir və müxtəlif istiqamətlərdə genişlənir.

Tarixçilər Bağdadın ən çox altı Xəlifə - Mənsur oğlu Mehdi, nəvələri Əl- hadi və Harun ər- Rəşid və sonuncunun oğulları Əmin və Məmunun hakimiyyəti (833- cü ilədək) zamanında öz yüksək zirvəsinə çatdığını yazırlar. Bu dövrdə xilafətin sərhədləri ağlasığmaz dərəcədə genişlənmişdi. Şərqdə Çin sərhədlərindən başlayırdı, qərbdə İspaniya da daxil olmaqla Pireney dağlarında qurtarırdı. Saysız- hesabsız ölkələrdən alınan külli miqdarda gəlir əyan və feodalların ən başlıcası isə Xəlifə sarayının doymayan tələbatını ödəməyə yönəldilirdi. Tarixçi alimlər o dövrdə xəlifələrin ağlasığmaz dərəcədə harınlığından dövlətin malını "tarixdə ad qoymaq" xatirinə növbənöv əyləncələrə, avanturalara sovurduqlarından çoxlu hekayət qələmə alıblar.

Xəlifə Məmunun hakimiyyəti zamanı əvvəllər də görkəmli rəssamları, musiqiçələri, şair və zərif sənət mütəxəssislərini özünə cəlb edən və qucağında layiqli yer verməyə çalışan bağdad daha da tərəqqi edir. O, tam mənada İslam dünyasının birinci mədəniyyət mərkəzinə çevrilir. Bu şəhər, ümumiyyətlə Abbasilər sülaləsinin yürütdüyü qeyri- millətçilik siyasətinə uyğun olaraq öz qapılarını müxtəlif dindən, irqdən, dildən olan istedadlı insanların üzünə açır. Belə vəziyyət ümumi tərəqqi işinə müsbət təsir göstərir. Nəticəsi isə, bəşər tarixinin çox mühüm mərhələlərindən birini təşkil edən Şərq intibahının yaranması ilə bitmişdir.

Bağdadın yarandıgı ilk dövrdən zəmanəmizə çox az abidə gəlib çatıb. Əldə olunan məlumatlara əsasən demək mümkündür ki, onlardan ən maraqlısı Mənsurun dövrünü yaşamış və islam dini nəzəriyyəçilərindən olan Əbu Hənifənin mavzoleyidir. Həmin bina "Əl- imam- əl- əzəm" məscidi adlanır. Əbu Hənifənin din xadimi olmaqla yanaşı inşaat işləri bilicisi olduğu da tarixçilər tərəfindən qeyd edilir.







*Bağdad – Mustansarıyyə Ali Məktəbi*

Qeyd olunduğu kimi Abbasilərin Əməvi xəlifələrindən fərqli olaraq yürütdüyü başqa millətlərə qarşı etimad siyasəti, dövlət işlərində əvvəlcə farsların, sonradan isə türk xalqlarının nüfuzunun artmasına gətirib çıxarmışdı. Ölkənin paytaxtının da bir müddət yerinin dəyişməsini- Samaraya köçürülməsini- əksər mütəxəssislər bu tarixi faktla izah edirlər.

892- ci ildə Bağdad yenidən paytaxt olur. Amma xilafəti və deməli paytaxtı əvvəlki əzəmətinə qaytarmaq mümkün deyildi. Bir- birinin ardınca müxtəlif ölkələr Bağdada tabe olmaqdan boyun qaçırırdılar. Orduya külli miqdarda döyüşkən, istedadlı türk əskər və sərkərdələrinin cəlb edilməsi də Abbasi xanəndanını dirçəldə bilmirdi. Şəhərin özündə belə, tez- tez üsyanlar baş verirdi.

1055- ci ildə səlcuq türkləri hücumla Bağdadı tuturlar. O vaxdan I dünya müharibəsinin sonunadək Bağdad da daxil olmaqla İraq ərazisi birbaşa, yaxud bilavastə türk mənşəli xalqların hakimiyyətinə (əvvəlsə səlcuqların və monqolların, sonra səfəvi, teymuri və s. və nəhayət osmanlı dövlətinin) tabe etdirilir. Abbasi xəlifələri dünyəvi işlərdə dövlət xadimlərinin nüfuzunu qırmağa çalışsalar da, çox böyük müvəffəqiyyət qazana bilmirlər. Bir sıra mənbələr Orta Asiya türkmənlərinin qüdrətini (Xarəzim dövlətini) sarsıtmaq üçün Abbasilərin Çingiz xanı məhz qərbə - Türkistana sarı hücuma təhrik etdiklərini söyləyirlər. Məsələ burasındadır

ki, monqollar, Xarəzm şahlığına son qoyduqları kimi Abbasilər hakimiyyətinə də son qoymuşlar. Çingiz nəslindən olan Hülaku 1258- ci ildə Bağdadı hücumla tutaraq xəlifə nəslini demək olar ki, tamamilə qılıncdan keçirmişdi. Beləliklə altı əsrdən bir qədər ar çəkən xilafətə monqolların qılıncı ilə son qoyulmuşdur.

O illərdə yaradılmış ən böyük abidələrin bir qismi bizim zəmanəmizə kimi yaxşı çatmış, bəziləri isə təbiətin və insanların əli ilə uçub dağıdılaraq yerlə eksan edilmişdir. Onlardan biri məşhur darvazanın, Bab- əl- Vastaninin qalıqları indi də durur. Başqa darvazalar - Bab- əl- Təlsəm, Bab əl-Müəzzəm və Bab- əş- Şərqi I dünya müharibəsi zamanı ingilislər tərəfindən dağıdılmışdır.

Abbasilər dövründə çox güman ki, mədrəsə olmuş və yerli camaat arasında "Abbasilər sarayı" adı altında tanınan və yaxşı qalmış tikili də Bağdadın tarixi yerlərindən sayılır.

Başqa biri maarif ocağı- əl- Mustansariyyə adlı tikili isə daha məşhurdur. O, abbasi sülaləsinin otuz altıncı xəlifəsi əl- Mustansırın (1226-1242-ci illər) hakimiyyəti dövründə inşa edildiyi üçün xəlifənin adını daşımışdır. Bu məktəb həm tədris sisteminə, həm də alim və müəllimlərinin səviyyəsinə görə öz dövrünün ən qabaqcıl elm ocaqlarından olub. Başqa tədris müəssisələrindən fərqli olaraq burda sünniliyin təriqətlərindən dördü - maliki, hənəfi, hənbəli və şafiiliklə yanaşı dünyəvi elmlər- ərəb dili, qarammatika, ədəbiyyat, məntiq, cəbr, həndəsə, bəlağət elmi, əczaçılıq, zoologiya və. tədris olunub. Məktəbin nəzdindəki kitabxanada ümumi sayı 8 mindən çox olan kitab varmış.

Abbasilər zamanında tikilmiş abidələr içərisində xəlifə Nasırın arvadı Zümrüd zatunun məscidini, (1202- ci il) Harun ər- Rəşidin müasiri olmuş şeyx Məruf əl- Kərxinin (IX) məqbərəsini və s. göstərmək olar. Sonrakı dövrlərdə (1258- ci il monqol hücumundan sonra) ümumi tənəzzüllə əlaqədar olaraq şəhərin abadlığı ləng gedir. XIII əsr abidələrindən Suq- əl-qəzəl məscidi, XIV əsr abidələrindən Əmirəddin Mərcan məscidi, Kazımeyi məscidi və s. diqqəti cəlb edir.

## KƏRKÜK QALASI

Gərkük sözünün etimologiyasından bəhs alimlər deyir ki, sözün kökü sami (ərami) dillərindən törəyə bilərdi. Üç dəfə "k" səsinin işlədilməsi isə sözə özünəməxsusluq vermişdir. Sonra alimlər sami mənşəli xalqların ənənəvi məskənləri olmuş Livan ərazisində, Qırmızı dənizin Aqaba limanı ilə Qüds şəhəri arasında (ərami tayfalarının qədim dövrlərdə yaşadığı yerlər)





bir sıra toponimlərin də oxşar adlara- Kərək, Kərg - malik olduğunu söyləyirlər. Sözün mənası qədim sami sözü "Kərxe"dən törəyərək qala, istehkam bildirdiyi kimi qəbul edilir. Müqayisə üçün M. Cavid İraqın müxtəlif ərazilərində yerləşən "Kərək Əl- Bəsrə" (Bəsrə qalası), "Kərək Meysani" (Meysan qalası) və s. adlarını çəkir və fikrini əsaslandırmağa çalışır. Sözün digər forması "karxinə" də tarixi sənədlərdə rast gəlinir.

Kərkük şəhəri müasir İraq Respublikasının mühüm iqtisadi və mədəni mərkəzlərindən biridir. İraq ərazisində yaşayan türk dilli xalqın cəmləşdiyi əsas yerdir. Başqa şəhərlərdə də uzun əsrlərdən bəri məskən salsalar da (məs. Mosul, Ərbil, Bağdad, və s. ) İraqın bizə həm dil, həm də etnik mənşə etibarilə çox yaxın olan əhalisi məhz Kərkükdə və ətraf qəsəbə və kəndlərdə yaşamaqda davam edir. Kərkük şəhəri onların mədəni mərkəzi hesab edilir. Orada ana dilində yerli radio və televiziya verilişləri aparılır. Qəzet, jurnal, kitablar nəşr edilir. Kəlkükdə həmçinin ana dili tədris edilən məktəblər də vardır. İraqın rəsmən türkman adlandırılan əhalisinin ədəbi dili məhz Kərkük dialekti əsasında qəbul edilmişdir.



*Kərkük*

Şəhərin tarixinə aid məlumat çoxdur və müxtəlif mənbələrdə toplanmışdır. Orta əsrlərin görkəmli tarixçisi Yaqut- əl- Həməvi özünün "Mucəm Əl- Buldən" adlı məşhur əsərində belə yazır: "Kərxin (yəni Kərkük) Daquq arasında düzdə yerləşən xoşagələn, təbiəti saf qaladır. Onu

gördüm. Qala özü hündür bir təpənin üstündədir..."

Qeyd olunmalıdır ki. Məşhur tarixçinin bu qeydələri h. t. 626- cı ilə, (m. t. 1228- ci ilə) aid edilir. Deməli o vaxt artıq Kərxin adı ilə tanınan Kərkük qalası mövcud imiş.

M.Cavad eyni toponimi həmin dövrdə yaşamış başqa bir müəllifin- İbn Şədad Əl- Mosulinin "Seyrətu Səlahəddin Əl- Əyyubi" əsərində Sədrəddin Hüseynin "Tərixu beni Səlcuq" kitabında da çəkdirdiyini qeyd edir. Həmin tanınmış alimlərin yazılarında o, "Kərxani" formasında işlədilmişdir.

Hicri tarixinin VIII əsrində yaşamış Fəzullah Əl- Ömərinin "Məsalik Əl- Əbsar" kitabında isə "Əl- Kərxin" kimi gəlib bizə çatmışdır.

Tarixi araşdırmalar belə bir qənaətə gətirib çıxarmışdır ki, hazırki Kərkük şəhəri mənşəcə türk qəbiləlrindən olan və tariixdə Ağqoyunlular kimi tanınmış sülalənin İraqda hakimiyyəti dövründə (m. t. 1469- 1508- ci illər) iri yaşayış məntəqəsinə çevrilmişdir. Başqa bir qəbilənin Qaraqoyunluların tarixindən bəhs edən alim Abdulla Əl- Bağdadi öz əsərində hadisələri təsvir edərək belə yazır: "Atası Qara Yusifə qarşı üsyan edən İskəndər Kərxinə hücum edib aldı. Ona qarşı heç kəs çıxmadı. Atası isə h. t. 632- ci (m. t. 1428- ci) ildə öldü"... Əsərin başqa yerində isə şəhər indiki adıyla qeyd olunmuşdur. Alim yazmışdır ki. "Yusif vəfat etdikdən sonra oğlu tələsdi və İraqa gəlib Kərkükdə bərqərar oldu..."

XV əsrdən e'tibarən demək olar ki, bütün mənbələrdə şəhərin adı Kərkük sözüylə verilir. Məsələn, Teymurləngin İraqa hücumunun tarixini yazmış Əl- Qiyasi də onu Kərkük kimi təqdim etmişdir. Məsələ burasındadır ki, hazırda türkdilli əhalinin yaşadığı Daquq da indiki adıyla- yəni Daquq sözüylə yazılmışdır. Maraqlıdır ki, İraqlı azərbaycanlıların daha bir yaşayış məntəqəsinin adına da- Altun Körpüyə- məhz XV əsrin əvvəllərində yazılmış tarixi sənədlərdə rast gəlmək olar.

M.Cavadın fikrincə Kərxin (Kərax, Kərx) və Daquta sözləri türkdilli xalqın dil xüsusiyyətlərinin təsiri altında dəyişilmiş və indiki halına düşmüşdür. Qeyd olunur ki, Daquq adına Tavuq formasında da rast gəlmək mümkündür.

Tarixi mənbələr göstərir ki, Səlcuqlar nəslinin İraq ərazisində hakimiyyəti zamanı (XI- XII əsrlər) Kərkük əsasən hərbi məqsədlərə yarasa da sonradan (1258- ci ilədək) Kərkük qıpçaqlar əmirliyinin mərkəzinə çevrilərək inkişaf etmişdir. Görkəmli tarixçi İbn Əl- Əsir yazmışdır ki, qıpçaqların hakmiyyəti ətraf əraziləri özünə tabe etmişdir: "Türkmənlər ona boyun əyirdi. Səlcuq sultanları da onun vilayətinə toxunmaqdan çəkinirdilər. Çünki qalası çox möhkəm idi. Beləliklə şöhrəti artıb, adamı çoxalmışdı. Hər yerdən türkmənlər ona qoşulur və ətrafında toplanırdı".





Göründüyü kimi Kərkük qalası dövrünün layiqli hərbi mərkəzlərindən olmuşdur. Amma m. t. 1248- ci ildəki Mosula, Xuzistana ciddi zərər vurmuş selləmə yağışlar nəticəsində Kərkük qalasına da böyük ziyan dəymişdi. O, bir neçə yerindən uçub dağılıbmış. Tarixi mənbələr göstərir ki, qala sonradan təmir etdirilmiş və şəhərin möhkəm zirehinə çevrilmişdir.

Azərbaycanın Səfəvilər dövləti ilə Osmanlı İmperiyası arasında gedən müharibələrdən sonra Osmanlılar 1638- ci ildə üçüncü və axırıncı dəfə İraqı fəth edirlər. Bu tarixdən etibarən İraq Osmanlı hakimiyyətinə tabe olunur. Sonradan 1733- cü il ildə Nadir şahın İraq üzərində hücumu zamanı türk komandanlığı (vəzir Topal Osman paşa) Kərkük qalasını özünün hərbi dayaq nöqtəsinə çevirir. Azım çay ətrafında baş verən döyüşdə osmanlı ordusu qalib gəlir və qışı Kərkük qalasında keçirir. 1735- ci ildə Nadir şah ikinci dəfə Kərkük üzərinə hücuma keçir. Bu dəfə müvəffəqiyyət İran ordusunun tərəfində olur. 1743- cü ildə üç günlük ağır hücumuna tab gətirən Kərkük camaatı Nadir şahın yanına elçi göndərib aman istəmişdir. Bu təklifi qəbul edən Nadir şah Kərkük qalasını şəhərlə birlikdə ələ keçirmişdir.

Kərkük şəhərinin və qalasının tarixi haqqında həm osmanlı mənbələrində, həm də İraqın müasir tarixçi alimlərinin (məs. Ş.S.Zabitin) əsərlərində çoxlu məlumat vardır.

# NİMRUD- QƏDİM ASSURİ ABİDƏSİDİR

B. e. əvvələ aid edilən mixi yazılarda və Assuri kitabələrində bu yer çox vaxt Galih yaxud Kalihu adlanır. Tövratda da o, eyni adla qeyd olunur. Yunan müəlliflərindən Zenfon (Aksinofon) özünün "Dənizə səyahət" əsərində onu "Larisa adlı xaraba bir şəhər" kimi təsvir etmişdir. İslam dini yayıldıqdan və İraq ərəbləşdikdən sonra yaşamış alimlərdən Yaqut əl-Həməvi özünün "Mucəm əl- buddan" və Əbu əl- Fəda "Təqvim əl- buldan" kitablarında bu şəhərin haqqında məlumat vermişlər. Onlar öz təsvirlərində yerin "Asur" adlandırdırıldığını nəqd edirlər.

Bir sıra tədqiqatçıların fikrincə yerin indiki adı Nimrud, qonşu ərəb qəbilələri tərəfindən əfsanəvi padşah olan Nimrudun şərəfinə verilib, yaxud da assurilərin ilahəsi sayılan Ninurtanın adının təhrif olunmuş formasıdır.

Nimrudun qalıqları Dəclə çayının şərq sahilində, Mosul şəhərindən 37 km cənubi şərqdə yerləşir. O, b. e. əvvəl qüvvətli dövlətlərdən biri olmuş qədim Assuri imperiyasının ən yüksək mədəniyyət mərkəzlərindən biri

hesab edilir. B.e.ə. XIII əsrdən başlayaraq ölkənin paytaxtı olub. Ətrafında o dövrdən qalma abidələr, qədim kanal yerləri, yaşayış məskənləri indiyənədək durur. Nimrud qədim Assuri dövlətinin çayın qərb sahilində yerləşən birinci paytaxtından- Şərqatdan sonra mərkəzə çevrilib. Onun yeni paytaxt seçilməsində əsasən strateji mövqeyi və həm də siyasi, iqtisadi və dini səbəblər əsas rol oynayıb.



*Nimrud*

Dövləti yaradan assurilər əslən sami xalqlardan idilər. B. e. əvvəlki üçüncü minilliyin ortalarında, Ərəbistan yarımadasından daha qədim xalqlarla- akkad və xüsusən şumerlərlə ünsiyyət onların mədəniyyətinə, həyat tərzinə və s. çox böyük təsir göstərmişdir. Onlar b. e. əvvəl ikinci minilliyin XVII əsrindən başlayaraq müəyyən dövrlərdə tərəqqi və tənəzzül edən dövlətlər yaratmışlar. Nimrud ilk dəfə b. e. əvvəl 1273- 1244- cü illərdə hökmranlıq etmiş məşhur Assuri çarı Şalmanasar tərəfindən tikilsə də sonradan unudulub xarabazarlığa çevrilib. Onu yenidən dirçəldənb. e. əvvəl 883- 859- cu illərdə hakimiyyətdə olmuş II Aşurnasıral idi. Bu görkəmli hökmdar yenidən paytaxtda gözəl saray və digər binalar tikdirir. İnşaat üçün çoxlu rəngli mərmər gətirib binaları bəzədir. Onun ilk beş ildə hökmran olduğu zaman gördüyü işlər mərmər üzərində mixi xətlə yazılmışdır. Oğlu II Şalmanasar onun quruculuq siyasətini davam etdirmiş, paytaxtda ziqqurat, Ninurta məbədi və həmçinin özü üçün yeni qəsr tikdirir.







*Nimrud*

Qüvvətli Assuri dövlətinin tam süqutu birləşmiş Midiya, Skif və Babil qoşunlarının b. e. əvvəl 614- cü ildə hücumu nəticəsində başa çatır. Bundan sonra assuri xalqı daha dövlət yaratmaq qüdrətini birdəfəlik itirir. İraq ərazisində Babilin yeni dövrü başlanır (b. e. əvvəl 625- ci il).

Nimrudda aparılan arxeoloji qazıntılar nəticəsində müəyyən

edilmişdmir ki, şəhər formaca dördbucaqlı şəklində tikilmişdir. Ətrafındakı müdafiə hasarının ümumi uzunluğu 8 km qədərdir. Bir tərəfdən Dəclə çayı, digər tərəfdən kanalla əhatə edilibmiş.

Əsas binalarından konus şəklində tikilmiş və şərq arxitekturasında ziqqurat adlanan tikilini qeyd etmək lazımdır. O, şəhərin şimal qərbində yerləşir, qalıqlarının ümumi hündürlüyü 17 m çatır. Əslində isə zirvəsində Ninurta ilahəsi üçün tikilmiş məbəd olan çoxmərtəbəli bina olub. Özülü dördbucaqlı şəklindədir. Hazırda bu maraqlı tikili alimlər tərəfindən öyrənilir.

Ninurta məbədi bir neçə otaq və digər tikililərdn ibarətdir. İçərisindəki divarlarının bir hissəsi mərmərlə örtülüb, xüsusi otaqlarda taxıl və yağ saxlamaq üçün yerlər olub. Məbədin girişində başı insan, bədəni isə qanadlı şir olan iki heykəl qoyulmuşdur. Mosul muzeyindəki məlumatlara görə o, uzun müddət Assuri dövlətinin baş məbədi olmuşdur.

Ümumiyyətlə, assurilərin çoxlu məbədləri mövcud imiş. Hər birinin də öz mövqeyi olub. Onlardan biri- İştar adı altında tanınanı başqa xalqlarda müharibə, yaxud sevgi mənası versə də, assurilərdə "ölkənin gözəli" məfhumunu yaradarmış. İştar məbədi ziqquratın şərq hissəsində tikilibmiş.

Nümrudda həmçinin, məşhur çar II aşurnasırbalın tikdirdiyi də 200x130 m ölçülərində olan qəsri və tarixdə məlumdur. Onun əsas hissələri inzibati işlərdən ötrü çar qəbulları və yaşayış üçün tikilmişdir. Onların ən görəkəmlisi qəbullar üçün yaradılmış zal olub. Qəsrin hər iki giriş qapısında assurilərin "lamasu" adlandırdıqları mürəkkəb formalı- gah başı insan bədəni şir, qanadlı insan və s. - məxluq - heykəlləri nəzərə çarpır. Bunlar qədim Assurilərin fikrincə onu görən düşmən nümayəndələrində qorxu və təşviş yaratmalı imiş. Digər tərəfdən onlar Assuri dövlətinin qüvvəsinin havada, quru və suda hakimiyyətini təcəssüm etdirərmiş.

Bunlardan əlavə giriş hissəsində mərmər üzərində Assuri dövlətinin məğlub etdiyi xalqları təsvir edən şəkillər, vəssalların çara gətirdikləri ənamlar və s. çəkilmişdir. Tac zalının önündə sarı rəngli, kub formalı bir daşın üzərində çarın şəkli ilə yanaşı Assuri allahlarının təsviri verilib. Daşın hər iki tərəfi mixi yazılarla doludur. Onlar II Aşurnasırbalın fütuhatlarından, hərbi səfərlərindən, tikdirdiyi imarətlərdən, gördüyü işlərdən söhbət açır. Həmin yazılarda o dövrün müxtəlif ayinlərinə, geyimələrinə, bitki və heyvanat cinslərinə aid bolluca məlumat verilir.

Tac zalı uzunsov, 45, 5x10, 5 m ölçülərə malik binadır. Zalın şərq hissəsində mavi rəngli mərmər üzərində binanın tikilmə tarixi, səbəbləri, çarın gördüyü əsas işlər həkk edilibmiş. Ümumiyyətlə Nimruddakı abidələrdə çoxlu Mosul mavi mərmərindən müxtəlif məqsədlər üçün istifadə edildiyi məlumdur.







*Kərbəla – İmam Hüseyn məscidi*

Tac zalının başqa bir qapısı digər bir otağa- ölçüləri, 36, 5x27, 5 m. olan və saray həyətinə çıxan otağa - açılır. Onun döşəməsi dördbucaqlı kərpicdən düzəldilib. Divarlarda da çoxlu yazısı olan lövhələr vardır.

Sarayın meydançasına on dənə qapı açılır. Onların qanadlı fiqurları ilə əhatə edilmiş dördü əsas giriş sayılır. Hər iki tərəfində başlıca bürc tikilmişdir.

Sarayın yaşayış və qadınlar üçün xüsusi tikilmiş binaları onun cənub-şərq hissəsini tutur. Tədqiqatlar zamanı orada müxtəlif qadın ziynət şeyləri və fil sümüyündən düzəldilmiş əşyalar tapılmışdır. Burada həmçinin üç quyu olduğu da aşkar edilmişdir. Hər birinin dərinliyi 25 m çox olan bu quyular müxtəlif ölkələrin alimləri tərəfindən öyrənilərkən, onlarda mis və fil sümüyündən düzəldilmiş, bəzisinin üzərində yazısı olan lövhələr, oyuncağa bənzər əşyalar və s. çıxarılmışdır. Alimlər tapılan məişət əşyalarının yüksək sənətkarlıq səviyyəsini qeyd edirlər.

Nimrudda, xüsusilə çar sarayında həmçinin, çoxlu assuri saxsı qabları

da tapılmışdır. İraq alimləri onun bir qismini "saray saxsısı" termini altında təqdim ediblər.

Çarın əsas sarayı (onu arxeoloqlar mərkəzi bina adlandırıblar) şəhərin mərkəzində yerləşibmiş. İki giriş qapısının ətrafında öküz fiqurları indiyənədək qalmaqdadır. Binanın özü isə, çox güman ki, çar Assur Xadonun zamanında dağılıb tələf olub. Bu çar, qalıqları indiyənədək duran yeni saray tikdirir; həmin sarayın özül hissəsi şəhərin cənub qərbindədir. Bundan əlavə Nimrudda çar Aşurteləlinin tikdirdiyi (b. e. əvvəl 625- 621- ci illər) və çoxlu binaları olan saray da vardır.

Assurilərin hikmət, mərifət, incəsənət, elm, yazı ilahəsi sayılan Nabu, yaxud Zidanın məbədi şəhərin cənub şərq hissəsindədir. Özünün çoxlu zalları, keçidləri müxtəlif məqsəd üçün tikilmiş otaqları ilə diqqəti cəlb edir.

Bunlardan əlavə Nimrudda II Sarqonun sarayı, hakimin sarayı və s. xüsusi binaların qalıqları vardır.

Şəhərin ikinci arxitektura kompleksinin, ərazisinin cənub şərq hissəsində yerləşən, b. e. əvvəl 858- 824- cü illərdə hökmranlıq etmiş çar II Şalmansarin tikdirdiyi saray və digər binalar daxildir. Bu kompleksin ümumi sahəsi 350- 250 m ölçüsündədir. Köməkçi binaların sayı beşdir. Hər birində çoxlu otaq, ambar və hamamxanalar vardır. Onlar müxtəlif məqsədlər üçün- inzibati işlər, yaşayış, qəniməti saxlamaq, hərbi ləvazimatı qorumaq və s.- tikilmişdir. Tədqiqat zamanı burada Assuri çarı ilə Babil çarının görüşünü təsvir edən lövhə, Assuri çarının heykəli və s. tarixi abidələr aşkar edilmişdir. Həmçinin mərkəzi hissədə, "qara lövhə" adı ilə tanınan, üzərində Assuri çarının hərbi və mülki işlərdə göstərdiyi fəaliyyət həkk olunan, daş lövhə tapılmışdır. Ambar kimi istifadə olunan otaqda fil sümüyündən düzəldilmiş çoxlu formalı fiqur aşkar edilmişdir.

Burada habelə qədim hasarın qalıqları da vardır. O, bişmiş kərpic və daşdan hörülübmüş. Qeyd olunduğu kimi ümumi uzunluğu 8 km yaxın, hündürlüyü 15 m çatarmış; hər 25 m sonra hasarın bürcləri gələrmiş. Hər bürcün eni 9 m ibarət olub. Hasarın təxmini qalınlığı isə 5 m imiş.

Hasarın içərisinddə, həmçinin geniş bağ- bağat, çəmən və parklar olub. Onlar əksər hallarda dövlətin yüksək təbəqələrinin nümayəndələri yaşayan binaları əhatə edirmiş. Belə nəql olunur ki, Assuri çarı Aşurnasırbal öz mənzilinin kənarında müxtəlif növ quş, heyvan, hətta yırtıcılar saxlayırmış. Şəhərin yoxsul təbəqəsi isə sadə, palçıqdan tikilmiş binalarda yaşayırmış. Onların hətta çadırlarda ömür sürdükləri qeyd olunur. Qalanın böyründə o dövrdə bazar olduğu aşkar edilib. Nimrudun əhalisinin ümumi sayının alimlər təxminən 8 minə yaxın olduğunu söyləyirlər.





# SAMARA

İraqın heç bir tikilisi bu minarə qədər məşhurlaşmayıb. Ölkəyə aid edilən bütün prospektlərdə, turist kitabçalarında, albomlarda onun haqqında məlumat verilib. Üzərində surəti olan çoxlu otkrıtka, brelok, hətta kibrit qutuları da ondan danışır.

Bu minarə ərəb dünyasının ən görkəmli tikililərindən olmuş və bir müddət xilafətin paytaxtı sayılan Samaranın bəzəyi sayılan məscid qalığıdır.



*Samarra*

Abbasilər dövlətinin 56 il paytaxtı olmuş Samaranın çox maraqlı tarixi olub. Məşhur xəlifə Harun - ər - Rəşidin nəvəsi Əl - Mötəsimin anası türk qadını idi. Ümumiyyətlə o dövrdə həm sarayda, həm də orduda türklərin nüfuzu çox güclü idi. Xəlifənin şəxsi keşikçi qvardiyası türklərdən təşkil edilmişdi. Bütün bunlar Bağdadın ərəb əhalisinin narazılığına səbəb olmuşdu. Odur ki, xəlifə vəziyyətdən çıxış yolunu özünə yeni paytaxt seçməkdə görür.

Samara Bağdaddan 120 km aralı, Dəclə çayının sahidlində salınır. Ən

yaxşı dövrlərində şəhərin ümumi uzunluğu 35 km çatarmış. Mənbələrdə o, "gözəl və valehedici", "səhrada röya" kimi təsvir edilir. Samara sözünün mənası isə "surr mən raə" yəni "kim görsə sevinsin" deməkdir.

836- cı ildə paytaxt bura köçürülür. Yeddi xəlifə dövründə o daha da abadlaşdırılır. Əhalinin 200 min nəfərə çatdığı zamanlar da olub. Sonralar bir sıra səbəblər üzündən (içməli suyun çatışmaması, ağır iqlim şəraiti) paytaxt yenidən Bağdada köçürülür.

Yerli əhali bu minarəni çox zaman sadəcə "məlviyə", yəni "spiral" adlandır. O, xarici görkəminə görə bu adı qazanıb. Kərpicdən 52 m hündürlüyündə tikilmiş bu minarə eni 1,5 m olan pandusla əhatə olunub. Həmin pandus minarənin başınacan qalxır.

XI əsrdə tikilmiş məscid çox yaxşı qalıb. Amma, bəzi məlumatlara görə bir dəfəyə 10 min adam tuta bilən paytaxt məscidi indi yoxdur. Ondan yalnız bir neçə metr uzunluğunda olan divardlar qalıb. Onlar məscidin həyəti sayılan böyük dördbucaq şəklində olan sahəni əhatə edirlər.

Bir zamanlar öz təmtəraqı və zənginliyi ilə görənləri heyrətə salan və XI əsrdə tikilmiş Abbasi xəlifələrinin sarayı - Balkuvar da -çoxdan yoxdur. Onun yalnız giriş qapıları durur. Yerli şəhər muzeyində saxlanılan bir sıra detallar, sarayın yaradıcılarının yüksək sənətkarlığından xəbər verir.

Bu şəhər ərəb mədəniyyəti tarixində ərəb əlifbasının bir neçə yazılış formasından biri hesab edilən kufi xəttinin yarandığı yer kimi məşhurdur.

Nəcəf bütün dünyada şiə müsəlmanların mərkəzin sayılır. Şiə məzhəbinin rəhbəri burda yerləşir. Şiə Universiteti və bir sıra ruhani məktəbləri də bu şəhərdədir. Şiə Universiteti (Mədrəsə Cəfəriyyə) 60- cı illərin ortalarında yaradılıb.

İraqın ən yaxşı abidələrindən biri də Kərbəlada yerləşən Hüseynin məscid- mavzoleyidir.

Bunlardan əlavə məşhur məscidlərdən Samarada yerləşən Ər- Raudə-əl- əsgəriyyə məscidini, Bağdada yerləşən "qızıl gümbəzli" Kazımeyin məscidini göstərmək olar.





# SURİYA

Müxtəlif dövrlərdə olmuş xalqlar: amoritlər, xetlər, qədim misirlilər, babillilər, assurilər, xaldeylər, finikiyalılar, əramilər, farslar, qədim yunanlar, qədim romalılar, parfiyalılar, bizzanslılar, Qərbi Avropa səlibçiləri, monqollar, türklər...hər biri özündən sonra Suriyada nəsə qoyublar. Ərəblər kütləvidə VII əsrin əvvəllərində Suriyaya gəliblər.

Ölkə ərazisində insanlar lap qədimlərdən- ilkin poliolit dövründən-yaşamışdır. Ölkənin o dövrdəki əhalisi sami kökünün qərb qolunu təmsil etmişdir.

B. e. əvvəl IV- II minilliklərdə əvvəlcə köçəri həyat keçirmiş əhali oturaq həyata keçib əkinçiliklə məşğul olmuşdur. III və II minilliklərdə yerli əhali arasında sinfi təbəqələşmə prosesi başa çatmış və ilk quldarlıq quruluşu meydana gəlmişdir. Yaranmış ilk xırda dövlətlər b. e. əvvəl XVI- XV əsrlərdə qüvvətli misir fironları tərəfindən istila edilmişdir. B. e. əvvəl XIV əsrdən etibarən Suriya bu dəfə Asiyanın nəhəng dövlətinin - xettlərin-hücumuna məruz qalır. Suriya xett dövlətinin tərkibində b. e. əvvəl XII əsrədək qalmışdır.

B. e. əvvəl X əsrdə paytaxtı Dəməşq olan quldarlıq dövləti yaranır. Sonra b.e.ə. VIII əsrdə assurilər tərəfindən məğlub edilir və Suriya qüvvətli Assuri çarlığına tabe edilir. VI əsrdə İranın Əhəmənilər sülaləsi, b.e.ə. IV əsrdə isə Makedoniyalı İskəndər Suriyanı istila edir. Bir neçə yüz il ölkə ellin təsirinə məruz qalır. Sələvkilər hakimiyyətinə b. e. əvvəl 64- cü ildə roma hücumu son qoyur. Suriya Antioxiya paytaxt olmaqla Roma imperiyasının əyalətinə çevrilir. Eramızın IV əsrindən o artıq Romanın yeni Şərq hissəsinin tərkibində olur. VI- VII əsrlərdə ölkə bir neçə dəfə İranın Sasani hökmdarlarının hücumuna məruz qalmışdır.

VII əsrin 30- 40- cı illərində ərəb- islam orduları Suriyanı fəth edirlər. Əməvilər sülaləsinin hakimiyyəti dövründə (661- 750-cı illər) ölkə islam xilafətinin dayağına çevrilir. Sonra bir müddət o, ikinci dərəcəli əyalət kimi fəaliyyət götərir. X- XI əsrlərdə Suriyanın Həmdanilər sülaləsi dövründə inkişafı nəzərə çarpır. XI əsrdən etibarən ölkənin tarixində türklər mühüm rol oynayırlar. Həmin dövrlərdə sahil rayonlarında Avropadan gəlmiş səlibçilər fəaliyyət göstərmişlər. Daxili torpaqlarda isə Fatimilər və Əyyubilər sülalələrinin hakimiyyəti qalmışdır.

Osmanlı dövləti 1516- cı ildə I Sultan Səlimin rəhbərliyi ilə Suriyanı fəth edir. 1918- ci ilədək Suriya Osmanlı Türkiyəsinin tərkibində qalmışdır.

I Dünya Müharibəsi bitdikdən sonra 1920- 1946- cı illərdə Suriya

Fransa dövlətinin mandatına əsasən idarə edilmişdir. 1946- cı ilin aprelin 17-də sonuncu fransız əsgəri ölkəni tərk edir. Həmin vaxtdan etibarən Suriya müstəqil, suveren ölkə olur.

# ƏMƏVİLƏR MEMARLIQ MƏKTƏBİ

Bu məktəb 661- ci ildən 750- ci ilədək İslam dünyasına rəhbərlik etmiş Əməvilər sülaləsinin dövründə yaradılıb təşəkkül tapmışdır. Dörd Rəşid xəlifədən sonra hakimiyyətə gələn bu sülalə Məhəmməd Peyğəmbərin daxil olduğu Qureyş qəbiləsinin Bəni Üməyyə qolundan törəmişdi. Əvvəlki xəlifələr şura tərəfindən seçilməsinə baxmayaraq, Əməvilər dövründə hakimiyyət vərəsəlik yolu ilə verilirdi.



*Əməvilər məscidi*

İlk əməvi Müaviyə ben Sufyan xilafətin paytaxtını Kufə şəhərindən Dəməşqə köçürdü. Xilafət Əməvilər dövründə ən böyük qələbələrini qazanmışdı. Onun sərhədləri şərqdə Çindən və Hindistandan başlayır,





qərbdə İspaniyada qurtarırdı. Külli miqdarda var- dövlət axıb xilafətin mərkəzinə cəmləşirdi.

Suriyanı fəth edən islam orduları ilk vaxtlar xüsusi məscidlər olmadığı üçün bir sıra kilsələri məscidə çevirməyə məcbur olmuşdular. İran ərazisində əyanların binalarını bu məqsədlə istifadə edirdilər. Amma İranda və Misirdə sürətlə şəhərlər salınır və məscidlər inşa edilirdi. Buna misal olaraq Bəsrə (635- ci il) və Kufə (638- ci il) məscidlərini göstərmək olar. Onlar öz konstruksiyalarına görə olduqca sadə, inşaat baxımından isə ucuz başa gələn idi.

Bəni Üməyyə nəslinin hakimiyyəti möhkəmləndikdən sonra ərəblərin dünyagörüşündə köklü dəyişikliklər baş verdi. Külli miqdarda sərvət təmtəraq, zövq, təntənə yaradırdı. Əvvəlki dövrdə Rəşid xəlifələrin sürdüyü olduqca sadə, heç bir zənginliyi olmayan yaşayış tərzi artıq arxada qalmışdı. Əməvi hakimləri özlərini fars və bizans zadəganlarına bənzədərək zəngin saraylar inşa etdirməyə başladılar. Bu isə öz növbəsində sənətə o cümlədən memarlığa güclü təkan verdi.

Onun ən bariz təzahürü yeni dinin tələblərinə uyğun gələn yeni məscid binaları oldu. Həmçinin hakimlər üçün saray və qəsrlər də inşa edilməyə başlandı. Əməvi rəhbərliyi bu işlərə həm mahir suriya usta və memarlarını, həm də xilafətin başqa regionlarından sənətkarları cəlb edirdilər. Nəticədə islam tarixində birinci memarlıq üslubu sayılan əməvilər məktəbi təşəkkül tapdı və o, islam ölkələrinin bir neçəsinə yayıldı.

Qeyd olunmalıdır ki, məhz Əməvilər dövründə yeni ərəb dili və mədəniyyəti ilk dəfə olaraq xarici aləmlə, daha çox isə Bizans və İran mədəniyyətləri ilə təmasa girişirdi. Onlar Suriya və İraqda olduğu kimi Misirdə də özünə dərin köklər salmışdı. Göstərilən ölkələrin maddi-mədəniyyət abidələri yunan- iran təsirlərini özündə saxlayırdılar. Bütün bu səbəblər üzündən islam mədəniyyəti nə İraqda, nə də Suriya və Misirdə özünə birdən- birə yer tapa bilməmişdir. Ərəb dili Suriyada təxminən 700- ci ildə, Misirdə isə 706- cı ildə xəlifə Əbdülmalik ben Mərvanın zamanında dövlət dili səviyyəsinə yüksələ bildi.

Əməvilər memarlıq məktəbinin formalaşmasında başlıca rolu Suriya oynamışdır. Bu ölkənin ərazisində gördükləri xristian abidələri Əməvi rəhbərliyini ciddi düşündürmüş və əsaslı quruculuq işlərinə sövq etmişdir. Tikinti - abadlıq əvvəlcə xəlifə Əbdülmalikin zamanında başlamış və Valid ben Əbdülmalik xəlifənin dövründə daha da çiçəklənmişdir. Məhz bu zaman Əməvi memarlıq məktəbinin inciləri sayılan Qüdsdəki Qübbət əs- saxra və Əl- məscid əl- əqsa məscidləri, həmçinin Dəməşqin ən gözəl abidəsi Əməvilər məscidi tikilib başa çatdırılmışdır. Onlardan əlavə Qeyrevanda

Seyyid Akabə camesi. Tunisdə məşhur Zeytunə camesi inşa etdirilmişdir. Əməvi hakimləri tarixçilərin dediyinə görə, həm də dörd xəlifə vaxtında inşa edilmiş abidələri də təmir etdirirdilər.

Maraqlı məsələdir ki, Dəməşqin özündə Əməvi hakimlərinin özləri üçün tikdirdiyi saray və qəsrlər indiyədək müəyyən olunmamışdır. Onlara arxeoloqlar Suriya səhrasında və Şərqi İordaniyada rast gəliblər. Həmin abidələr o dövrdə ova çıxmış, yaxud səfərə yollanan Əməvi sülaləsinin yüksək rəhbərliyinin istirahət evləri idilər. Bəzi hallarda qədimdən qalma-bizanslara məxsus- qəsrlər təmir edilib yararlı hala salınır, bəzənsə yeniləri tikilirdi. Əməvilərin tikdirdikləri ən məşhur qəsrlər Qüseür Əmra, Mişatdadır. Onlardan əlavə məşhur Tadmorun yaxınlığında yerləşən Hir adlı yerin şərqində və qərbində iki qəsr inşa etdirmişlər.

Bu da qeyd olunmalıdır ki, məhz Əməvilər sülaləsi dövründə əvvəllər islam memarlığında istifadə edilməyən bir sıra yeni ünsürlər tətbiq edilmişdir. Onlardan biri, başlıcası minarədir. Bəzi alimlərin fikrincə günbəzdən istifadə məsələsi Suriyada meydana çıxmışdır. İbadət zallarının yanında hündür bürsləri görən din xadimləri minbər inşa etdirməyi təklif etdilər. Müaviyə bu fikri bəyənir və Misirdəki valisinə tövsiyə edir ki, minarə inşa etdirsin. Həmçinin mehrab da Əməvilər zamanında tətbiq olunmaga başlamışdır. Bu haqda belə rəvayət vardır: Validin əmri ilə Mədinəyə məscid tikintisinə göndərilən misirli qibtilər öz kilsələrinin mehrablarından məscidlərdə istifadə olunmasını təklif ediblər. Bundan sonra məscidlərdə mehrab inşa olunmağa başlayıb. Həmçinin qeyd olunur ki, ilk islam mehrabının yanında yaradılan xüsusi otaq, məqsurə də xəlifə Müaviyəyə məxsus imiş. Əməvilər dövründə Suriyada islamın bərqərar olması Aralıq dənizi hövzəsində qədimdən yaradılmış məişət mədəniyyətinə geniş qapı açırdı. Məhz o zamandan başlayaraq islam sənətinə mozaika və ornament daxil oldu. Suriyalılar İslamdan qabaq da divar və döşəmənin bəzədilməsində mozaikadan istlifadə edirdilər. Daş üzərində naxış açma sənətini isə daha çox bizanslı ustalar mənimsəmişdilər. Bu dövrdə sənət həyatına yeni bir bəzək ünsürü daxil olmuşdur ki, o əvvəllər də suriyalılara və ərəblərə tanış deyildi. Söhbət gipsdən düzəldilmiş ornamentlərlə divarların bəzədilməsindən gedir. O, daha çox yunan və roma mədəniyyətlərinin məhsulu idi. Əməvilər bu memarlıq abidələrindən bacarıqla istifadə edirdilər.





# DƏMƏŞQ

Ərəb ölkələrində qəbul edilmiş ənənəyə görə hər bir qədim tarixə malik məşhur şəhərin öz epiteti var. Dəməşqə verilən ikinci ad "ətirli" və "geniş" mənalarını verən feyxadır. Beləliklə o, Dəməşq- əl-feyxa adlanır.

Bir sıra alimlər çox da mübaliğəyə varmadan bu şəhərin dünyanın ən qədim paytaxtı hesab edirlər. Hətta bir rəvayətə görə ətrafda yerləşən Beyt-Ləhya kəndində insan övladının anası sayılan Həvva yaşamışdır. Suriyaya gələn xarici qonaqlara indi də yer üzərində ilk qətlin qurbanı sayılan Avelin qəbrini göstərirlər. Dini əfsanələrə görə o, Həvvanın oğlu olmuşdur.



***Dəməşq – Seyyidə Zeynəb məscidi***

Dəməşq haqqında ilk yazılı məlumatlar Misirdə əldə edilmişdir. Məşhur Misir hökmdarı və çoxlu ölkələr fəth etmiş II Tutmos istila etdiyi torpaqlar içərisində Dar- Maskın da adını çəkir. Bir müddət isə o ən qüvvətli Arameya dövlətinin paytaxtı olub (b.e.əvvəl 539- cu ildə İranın Əhəmənilər sülaləsinin tərkibinə daxil olur).

Makedoniyalı İskəndərin hücumu (b.e.əvvəl IV əsr) şəhərin taleyində çox mühüm rol oynamışdır. Maraqlıdır ki, o vaxtdan etibarən Dəməşqin taleyi təxminən min il qərb ölkələri ilə - Roma, Bizans və s. - bağlı olmuşdur.

Suriya torpaqları Dəməşq ilə birlikdə 332- ci ildə Makedoniya sərkərdəsi Parenionun qoşunları tərəfindən alınmışdı. İskəndərin ölümündən sonra ölkə, fatehin silahdaşı Sələvkin tabeliyinə keçdi. Sonra başqa makedoniyalı sülalə- Lahidlərlə uzun zaman mübarizə aparmalı olurlar. Daha sonra eranın başlanğıcında Dəməşq ərəb qəbilələlərindən olmuş nobatiyalıların əlinə keçir.

Eramızın 66- cı ilində Roma qoşunları məşhur sərkərdə Pompeyin başçılığı altında Dəməşqi tutur və şəhər Romanın Suriya vilayətinin tərkibində imperiyaya tabe olur. İmperator Arian şəhərə metropoli titulu verir. Başqa bir imperator, mənşəcə Suriyalı Samtimi Sever Dəməşqi Roma şəhərləri siyahısına daxil edir. Bu isə şəhərin çiçəklənməsi deməkdi. Tezliklə ticarət genişlənir, yeni saraylar, məbədlər, hamamlar və s. inşa edilir. Şəhərin küçələri Roma küçələrinə bənzədilir və yenidən qurulur. O, küçələrdən biri, düz istiqamətlisi və qədim şəhəri şimaldan cənubadək kəsəni, beləki indiyənədək öz yerini saxlamışdır.

Dəməşq Roma dövlətinə bir sıra görkəmli şəxsiyyətlər vermişdir. Onların içərisində məşhur sərkərdələr, alimlər, siyasi xadimlər, sənətkarlar və s. olmuşdur. Memar Apollodorun, Romadakı məşhur Trayay Forumunun müəllifinin adı isə hələ də yaddan çıxmayıb. Həmin memar Dunay üzərindəki böyük körpünü də saldırmışdı.

Suriyanın Bizansa tabe etdirilməsi böyük dağıntılarla əlaqədar olmayıb. Tezliklə Suriyada xristiyanlığın ardıcılları çoxalır.

Bizans hakimiyyəti ölkədə yeni dinin- xristianlığın yayılmasını həyata keçirir. Suriyada çoxlu kilsə, monastır və s. inşa edilir. Onlardan biri, Seynayada inşa ediləni indi də turistləri özünə cəlb edir. Bəzi məlumata görə onu məşhur Bizans imperatoru Yustinian öz bacısının şərəfinə tikdirmişdir.

Seynaya həm gözəlliyi, həm də qədim tarixi ilə insanları özünə cəlb edir. Burada rəvayətə görə müqəddəs Luka tərəfindən çəkilmiş məşhur ikona saxlanılır. Əfsanəyə görə hələ orta əsrlərdə Suriyaya soxulan səlibçilər həmin ikonadan damla- damla axan zeytun yağını şüşə qaba toplayıb öz vətənlərinə, sevimli qadınlarına hədiyyə kimi göndərirdilər.

Roma, Bizans hakimiyyətinə İranın yeni sülaləsinin Sasanilərin qoşunlarının hücumu son qoyur. Amma İran təsiri çox sürmür. 635- ci ildə Ərəbistan yarımadasından bir əlində qılınc bir əlində Quran olan ərəb - islam orduları ölkəni fəth edirlər. Suriya vilayətinin qubernatoru Müaviyə xəlifə olduqdan sonra 660- cı ildə Dəməşq Xilafətin paytaxtı seçilir. Onun dövründə ərəb - islam dövləti Hind çayından İspaniyanın Piriney dağlarınadək genişlənir. Dəməşqin "qızıl dövrü" başlanır və təxminən 90 il davam edir.





Yeni sülalənin - Abbasilərin paytaxtı Bağdada köçürməsi Dəməşqin tənəzzülünə səbəb oldu. O, xilafətin əyalət şəhərlərindən birinə çevrildi.

İlk dövr memarlığı burda əsasən türbələr şəklində qalmaqdadır. Onlardan ən məşhuru Əməvilər məscidinin şərq hissəsindəki imam Hüseyn türbəsidir. Abidənin cənub tərəfindəki Seyidə Zeynəb məscidi və türbəsi də Dəməşqin ən məşhur abidələrindən sayılır. O, peyğəmbər Məhəmmədin nəvəsi Zeynəbə məxsusdur. Amma bəzən bu adı islamın yaradıcısının arvadı Zeynəblə dəyişik salanlar da olur.

Dəməşqin məşhur yerlərindən biri də, peyğəmbərimiz Məhəmmədin müasiri və ilk müsəlman müəzzini olmuş Həbəş Bəlalın türbəsidir. Şəhərin kiçik darvazaları yanında, təmtəraqlı qəbiristanda peyğəmbərin arvadı Um - Həbibə, qızı Rukeyya və nəticəsi Səkinə dəfn olunmuşdur. Ümumiyyətlə demək olar ki, Dəməşqin hər bir rayonunda məşhur dövlət, din xadimlərinə yüksəldilmiş türbələr görmək olar.

Dəməşq müxtəlif kiçik dövlətlərin - tulunilər, işxidilər, fatimilər, atabəylər və s. müsəlman əmirliklərinin tərkibində olmuşdur. Onların içərisində Əyyubilər haqqında xüsusi danışmaq gərəkdir. Sülalənin banisi Səlahəddin 1174- cü ildə Dəməşqi fəth edib və səlibçilərə qarşı mübarizəyə başçı olmuşdur. Onun öz düşmənlərinə qalib gəlməsi, məğlublara qarşı alicənablığı və nəcibliyi uzun zaman orta əsrlərdə tərənnüm olunmuşdur. Səlahəddin Dəməşqdə çoxlu gözəl abidə tikdirmişdi. Özü də Əməvilər məscidi yanında naxışlı ağacdan qurulmuş dəbdəbəli bir türbədə dəfn edilmişdi. Sonra XIV- XV əsrlərdə şəhəri monqol və Teymurləng orduları fəth edib, dağıtmışdır. Nəhayət, 1516- cı ildə şəhər bütün Suriya torpaqları ilə birlikdə Osmanlı imperiyasının tərkibinə daxil olur.

Bundan sonra Dəməşqin ikinci dərəcəli dövrü başlayır. O, dövlətin Suriya paşalığına paytaxt olur. Bir sıra dövlət xadimləri, məsələn türk qubernatoru Əsəd Paşa Əl- Əzzəm şəhərdə böyük quruculuq işləri aparır. Dəməşqdə türk abidələri, məscidlər XVI əsrdən etibarən, sultan Səlim Suleymanın dövründə tikilmişdir. Onları görkəmcə biri- birinə raketvari şəkildəki minarələri, fasadındakı ağ və qara daşlardan hörülmüş zolaq formalı bəzəkləri birləşdirir. Bu məşhur türk stilidir və ona tez- tez rast gəlinir. Hər iki məscid Dəməşqdə çox məşhurdur. Onların nəzdində təkyələr inşa edilmişdir. Bu binalar gəzəyən dərvişlər və Məkkəyə ziyarətə gedən zəvvarlardan ötrü nəzərdən tutulub.

Dəməşq I Dünya müharibəsindən sonra əvvəl yarımmüstəmləkə, sonra isə müstəqil Suriyanın paytaxtına çevrilmişdir.



Əməvilər məscidi



# AFAMEYA

Afameya (yaxud Fameya, Anameya) Suriya Ərəb Respublikasının ərazisində yerləşir və "ölü şəhər" hesab olunur. Əvvəlcə belçikalı, sonralar isə yerli arxeoloq alimlər tərəfindən aparılan qazıntılarla Afameyanın yalnız bir hissəsi tədqiq edilmişdir.



*Afameya*

Əldə olunan yazılar, ilk növbədə xarabalıqlar içərisində tapılmış xett yazısı göstərir ki, b. e. əvvvəl IX əsrdə bu torpaqlar həmin krallığın tərkibinə daxil olub. Amma b. e. əvvəl V əsrdən etibarən yunanların Kiçik Asiyanın cənub hissəsini istila etməsindən sonra Afameyada ellinləşmə başlayır. Adı yunanca Farkaka olur. Böyük Fateh Makedoniyalı İskəndərin hərbi səfərindən sonra isə onun atası Filipin şərəfinə Pella adlandırırlar (b. e. əvvəl IV əsr).

İskəndərin vəfatından sonra mə'umdur ki, tutduğu ucsuz - bucaqsız ölkələr fatehin silahdaşları, sərkərdələri arasında bölüşdürülmüşdür. Afameya bütövlükdə Suriya ilə birlikdə Sələvkilər sülaləsinin hakimiyyətinə tabe etdirilir. Ölkənin strateji mövqeyindən çıxış edən hakim dairlər ellinləşdirmə siyasətini daha da ardıcıllıqla davam etdirirlər.

Qədim dünyanın məşhur tarixçi alimləri və ilk növbədə Strabon, sülalənin yaradacısı Sələvkin Suriyada və yaxın ərazilərdə böyük quruculuq işləri apardığını yazır. Salınmış şəhərlərdən biri Sələvkin atasının adı ilə Antioxiya, başqa birisi kralın öz adına müvafik- Sələvkiyyə, üçüncüsü, ellinlərin Ramita adlandırdıqları Sələvkin anasının adına uyğun- Laodakiya (hazırkı Latakiya) adlandırılır. Faranka isə Sələvkin qadının adına görə dəyişdirilir və Afameya (yunanca Apomeya) olur. Qeyd edilməlidir ki, sələvkilər dövlətinin eyni adlı iki və artıq yaşayış məntəqələrinin olduğu tamam tarixi faktdır. Məsələn iki Antioxiya mövcud imiş. Afameya öz dövrünün həm yunan, həm də şərq mədəniyyətlərinin qaynayıb - qarışdığı, üzvi surətdə birləşib yeni forma kəsb etdiyi çiçəklənən mərkəzlərindən olub.

Strabonun yazdığına əsasən Sələvkilər sülaləsinin hakimləri Afameyaya böyük əhəmiyyət verib, şəhəri dövlətlərinin əsas hərbi mərkəzlərindən birinə çevirməyə çalışırdılar. Sələvkin hind padşahından qənimət kimi aldığı və qədim dövrlərin "canlı tankları" adlandırılan 500 fil məhz bu şəhərdə saxlanırdı. Burda, həmçinin, ümumi sayı 30 mindən çox olan at yetişdirilən atçılıq zavodu da fəaliyyət göstərirdi. Ölkənin zadəganları at sürməyi və silah işlətməyi öyrənmək üçün öz övladlarını Afameyaya göndərirdilər.

Sələvkilər dövründə (b. e. əvvəl II əsrdən başlayaraq) tərəqqi edən Afameya ölkənin ümumi tənəzzülü ilə əlaqədar olaraq get- gedə inkişafdan qalır. O, gah misirli hakimlərin (Ptolomey nəslinin), gah da erməni qoşunlarının hücumu və qarəti nəticəsində var- yoxdan çıxır, dağılır. Amma şəhər müəyyən mənada öz müstəqilliyini saxlayır və tamamilə yerlə- yeksan olmur.

Afameyanın yeni dirçəlişi Romanın Suriyanı istilasından sonra baş verir. Bizim e. ə. 64- cü ildə romalı sərkərdə Pompeyin rəhbərliyi altında böyük bir ordu ölkəni fəth edir. Yeni hakimlər tənəzzülə uğramış qədim hərbi, inzibati və ticarət mərkəzlərini, o cümlədən Afameyanı yenidən qurmaq üçün işə başlayırlar. Şəhər bu dəfə roma üslubunda, romalıların zöqünə uyğun surətdə təzədən salınır. Suriyanın sahil şəhərlərindən Mesopotamiya ərazisinədək gözəl, rahat yollar çəkilir.

B.e.əvvəl Misirin məşhur kraliçası, qədim dünyanın ən tanınmış qadınlarından sayılan Kleopatra ilə Roma imperiyasının şərq vilayətinin (Misir, Suriya) hakimi Mark Antoninin görüşü məhz Afameyada olur. Bütün qışı onlar Suriyanın başqa bir şəhərində Antioxiyada keçirsələr də, yazı və yayı Afameyada istirahət edirlər. Mark Antoni bu şəhərdə Misir kraliçası Kleopatranı özünün arvadı elan edir. Onların ikinci görüşü üç ildən sonra b.e.əvvəl 31- ci ildə, Antoninin Parfiya üzərinə müvəffəqiyyətsizliklə etdiyi





hərbi səfərdən sonra baş verir.

Roma imperiyasının hakimləri ümumən Suriya ərazisində, o cümlədən Afameyada yüksək sənətkarlıqla səciyyələnən memarlıq ansambıllarının qalıqlarına rast gəlirlər. Böyük istedada malik olan Suriyalı ustalar müxtəlif yollarla, işləmək üçün imperiyanın paytaxtına- Romaya aparılırdı. Eyni zamanda ölkənin müxtəlif şəhərlərində - Afameyada, Palmirada, Antioxiyada və s. roma memarlıq ənənələrininə uyğun müxtəlif cür tikililər- tağlar, sütunlar və s.- yaradılırdı. Afameyada məşhur Roma imperatorları Antoni Piy və Lyusiya Veranın büstləri aşkar edilmişdir. Qədimdən qalmış yerli dini ayinlər üçün tikilmiş məbədlər, romalıların dininə uyğun surətdə yenidən qurulurdu.

Eramızın ikinci yarısında isə şəhərin yenidən planlaşdırması həyata keçirilir. Əsas magistral yollarda, səkilərin kənarlarında sıra sütunlar düzülür. Şəhərin baş küçələrinin, Karlo Maksimus və Dkumanosun kəsişdiyi yerdə nəhəng ölçüyə malik terapil yerləşdirilir. Afameya bu dövrdə tarixə bir sıra görkəmli şəxsiyyətlər vemişdi. İlk növbədə adi şərq ictimai fikir tarixində layiqli yer tutan filosof alim Yaməlixin adını çəkmək lazımdır. Onun rəhbərlik etdiyi yeni Platonçu filosolar məktəbi öz dövründə böyük şöhrət qazanmışdır. Qeyd olunmalıdır ki, bu məktəbin və eləcə də suriyalı digər filosofların təbliğ etdiyi yeni Platonçuluq cərəyanı bir neçə əsrdən sonra, X-XI əsrlərdə ərəbdilli fəlsəfə elminə çox güclü təsir göstərmişdir.

IV əsrdən başlayaraq Bizansda xristianlıq dininin yayılması Suriyanın da xristianlaşması ilə nəticələnir. Bu zaman Afameya yeni dinin ruhani başçılarından olan yepiskopun iqamətgahına çevrilir. 311- ci ildə xristianlıq dövlət dini elan olunduqdan sonra şəhərdə bir çox dini mərkəzlər- kilsələr, ibadətxanalar və s. tikilir. Amma quruculuq işlərini xaricilərin - bu dəfə Xosrov Ənuşirəvan başda olmaqla fars qoşunlarının - hücumu uzun müddət ləngidir. Məşhur əsərin- "Ümumdünya xronikası"nın müəllifi Suriyalı Mixail (1126- 1196- cı illər) qeyd edir ki, bu qarətdən sonra şəhər xarabalığa çevrilibmiş.

637- ci ildə xilafət qoşunları Suriyanın əksər torpaqlarını fəth edirlər. İslam coğrafiyaşünas, tarixçi və s. elmələrinin mütəxəssisləri şəhəri yunancadan (Apameyadan) fərqli olaraq Afameya (yaxud femiya) adlandırırlar.

Ölkənin ərəbləşməsi və əməvi sülaləsinin Dəməşqi özünə paytaxt seçməsi Afameyanın tam tənəzzülündə dəyişiklik yaratmır. Sonradan, Abbasilər xilafətin paytaxtını daha da uzaq, İraqın hazırkı paytaxtı Bağdad şəhərinə köçürməsi (IX əsr) şəhərin ümumi vəziyyətini daha da pisləşdirir.

# BOSRA

Qədim Bosra şəhərinin qalıqları Suriyanın Zeydi vadisinin şimal və Batım vadisinin cənub hissəsində, Dəməşqdən 141 km aralıqda yerləşir. Sözün mənşəyi qədim sami dillərindən olub "möhkəm", "alınmaz" mənası verdiyi söylənilir. Bu tarixi abidə çox vaxt Suriyaya gələn qonaqlara türk termini ilə - "Əski Bosra" adıyla təqdim edilir.



*Bosra*

Bosra haqqında ilk məlumatlara arxeoloqlar b.e.ə. IV əsrə aid edilən Misirin Tel Əl -Əmarənə kitabələrində rast gəliblər. Onlar əsas etibarilə Misir və Suriya hakimlərinin yazışmalarını əks etdirən və qədim zamanlarda Suriya, İordaniya və s. adlarını özündə cəmləşdirən tarixi sənədlərdir.

Bosranın həqiqi çiçəklənmə dövrü b.e. əvvəllərinə təsadüf edir. Bu zaman o, tanınmış ticarət mərkəzi olmaqla yanaşı həm də qədim Nəbati çarlığının paytaxtına çevrilmişdi. Eramızın 106 - cı ilində Roma imperiyası Bosranı istila edir və Haran, Coland, İordaniyanın Şərq əraziləri də daxil olmaqla ayrıca inzibati bölgü yaradır. Rəsmən o, "ərəb vilayəti" adlandırılır. Bosra bu dəfə də paytaxt seçilir və tərəqqi edir. O, regionun ən məşhur ticarət, inzibati və mədəni mərkəzlərindən birinə çevrilir. Bosradan Ammana və Ərəb körfəzinədək, Hayfayavə Aralıq dənizi sahillərinədək, Dəməşqə və Palmirayadək abad yollar salınır.





Qonşu ölkələrdən gələn ticarət karvanları Bosranın varlanıb böyüməsinə təkan verir.

Suriya Bizans imperiyasının tərkibində olduğu müddətdə (634 - cü ilədək) Bosra və digər vilayətlərdə xristiyan dini yayılıb kök salmışdı. O əsrlərdə yunan - bizans təsiri ölkənin incəsənətində, maddi və mənəvi mədəniyyət nümunələrində aydın duyulur. Ərəb -islam orduları Suriyanı fəth etdikdən sonra bir sıra mənbələr ilk məşhur xəlifələrdən Ömər Xəttabın Bosrada olub bir sıra hərbi - inzibati tədbirlər həyata keçirdiyini xəbər verirlər.

Bosra və Suriyanın digər qədim mədəniyyət mərkəzləri orta əsrlərin əvvəllərində səlib yürüşlərinin dağıdıcı hücumlarına məruz qalmışdır. Tarixi məlumatlar Bosra müdafiə hasarlarının məhz bu səbəbdən yaradıldığını söyləyir. Həmin qala, şəhəri iki dəfə 1147 və 1151 - ci illərdə səlibçilərin azğın hücumlarından xilas etmişdir.

1261- ci ildə qala divarları monqol basqını nəticəsində dağıdılmışdır. Mənbələr göstərir ki, Bosra orta əsrlərdə, xüsusilə XV əsrdə öz elmi, incəsənəti ilə şöhrət qazanmışdır. Əvvəlləki kimi mühüm ticarət mərkəzi olmasa da, o, uzun zaman Məkkəyə ziyarətə gedən və qayıdan zavvarların dayanıb istirahət etdikləri nöqtə olmuşdur. Onun qədim abidələri öz qonaqlarını həmişə heyran qoymuşdur. Həmin tikililərdən dövrümüzə gəlib çatanlarından ilk növbədə şəhər darvazalarını göstərmək lazımdır. Dərə yolunun başlanğıcındakı şəhər darvazası b.e.-nin II əsrində, şəhərin tərəqqi etdiyi dövrdə tikilmişdir. Qala həsarı sonradan onunla birləşdirilərək vahid ansambl təşkil edərmiş. Onlar müxtəlif memarlıq üslubları üzrə yaradılmışdır. Darvaza biri digərinin üzərində yerləşdirilmiş iki hissədən ibarətdir. Hər iki hissə bazalt sütunların üzərində qərar tutmuşdur. Darvazadan içəri daxil olduqdan sonra yumurta şəklində düzəldilmiş meydança diqqəti cəlb edir. Həmçinin sütun özülləri, qədim dövrlərdə mövcud olmuş müxtəlif binaların qalıqları, 1972- ci ildə aparılmış arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmışdır.

Bosranın ən maraqlı abidələrindən biri ərəbcə "suq ardıyyə" adlandırılan, passaj şəkilli binadır. O şəhəri şimaldan cənuba düz şəkildə kəsən baş küçənin yanında inşa edilmişdir.

Alimlərin fikrincə, bu binanın tikilməsi b.e.-nin II əsrində başa çatmışdır. O, bu qəbildən rast gəlinən abidələrdən öz ölçülərinin böyüklüyünə görə fərqlənir. Passajın ümumi uzunluğu 106 m çatır. Tavanı yarım dairə şəklində qurulmuşdur. Cənub divarları boyunca inşa edilmiş 34 dənə pəncərədən içəri işıq düşür. Şimal divarında isə içəri daxil olmaq üçün altı qapı qoyulmuşdur. Passajın tavanı yerdən 4 m-dən artıq məsafədə

qurulmuşdur. 1968-ci ildən bəri arxeoloji qazıntılar, tədqiqatlar aparılmasına baxmayaraq Bosranın bir sıra abidələri kimi passaj da tam öyrənilib qurtarmayıb. Bir sıra mütəxəssislər onun həmçinin, anbar funksiyası yerinə yetirdiyini güman edirlər.



*Bosra*





Bosranın digər məşhur abidəsi, yerli əhalinin "qəndil darvazası" adlandırdığı qövsvari şəkildə tikilmiş darvaza qalıqlarıdır. Onun şimal tərəfə baxan hissəsi yaxşı qalsa da, cənub tərəfi uçub dağılıb. Darvaza eramızın üçüncü əsrində inşa edilib. Onun üç tacvari şəklində tikilmiş giriş hissələri indi də yaxşı təsir bağışlayır. Mərkəzi tacın hündürlüyü 13 m çatır. Özülündə tapılmış lövhədə latın dilində tacın Culis Colyaninin qələbəsi şərəfinə ucaldıldığı göstərilir. Həmin darvaza şəhər amfiteatrına aparan küçə ilə birləşdirilmişdir. Küçədə həmçinin səkilərə döşənmiş sallar, qədim sütun özülləri aşkar edilmişdir.

Bosranın ən maraqlı binalarından biri "hürilər məbədi" olmuşdur. Təəssüf ki, hazırda məbəddən yalnız dörd sütun durur. Onların hündürlüyü 14 m çatır. Diametrləri isə 1 m 20 sm qədərdir. Sütunların başında korinf kapitelinin qalıqları durmaqdadır. Tarixi məlumatlar məbədin ən çox müxtəlif dövrlərdə baş vermiş zəlzələlər nəticəsində zərər çəkdiyini söyləyirlər. Məbəd eramızın üçüncü əsrində tamamlanıbmış.

Yerli əhalinin "şahzadə qızın sarayı" adlandırdıqları binanın qalıqları da diqqəti cəlb edir. Arxeoloqlar bu qəbildən olan tikililərə yunan termini ilə kaliba deyirlər. Bu növ abidələrə Suriyanın başqa əyalətlərində rast gəlinir. Onlarda əsas etibarilə ordu zabitlərinin mükafatları və s. saxlandığından bir növ "şöhrət arxivi" rolunu oynayarmış. Eramızın üçüncü əsrində tikilmiş kalibə bir neçə hissədən ibarət olub. Hazırda çox cüzi hissəsi salamat qalıb. Onun haqqında yerli əhali maraqlı bir rəvayət söyləyir. Belə danışırlar ki, şahın bircə qızdan başqa uşağı olmazmış. Qız həddi-buluğa çatanda gözəlliyi və mərifəti hamını heyran qoyur. Şah bundan çəkinərək sarayı inşa etdirir. Qız öz cariyələri ilə sarayın ən yüksək yerindəki otaqlarda yaşayarmış. Binanı daha da gözəl göstərmək üçün divar boyu üzümlüklər salınır. Salxımlardan biri xanımların pilləkəninin üstündən sallanıbmış. Rəvayətə görə ora bir əqrəb girir və şahzadə qız keçəndə onu vurur. Bu kədərli hekayət el arasında yayılır və binaya bədbəxtlik rəmzi verir. Hazırda kalibanın şimal hissəsində bir sütun və bəzi sütun özüllərindən başqa heç nə qalmayıb.

Nisbətən yaxşı saxlanılan abidələrdən, ətraf rayonlar da daxil olmaqla başlıca ticarət yeri sayılan şəhər bazarını göstərmək olar.

İslam dini abidələrindən ən qədimi, yəqin ki, "Xadar məscidi" adı altında tanınan abidə qalıqlarıdır. Məscidin əsas binası Xadarın məqbərəsinə yaxın olduğu üçün belə adlandırılmışdır. Giriş hissəsində aşkar edilmiş lövhədəki yazıdan görünür ki, məscid h.t.133-cü ildə Bosra valisi Əbu Mənsur Gümüştəkinin sərəncamına əsasən tikilmişdir. Məscid ümumi plana görə kvadrat formada inşa edilib. Hər tərəfin ümumi uzunluğu 7,5 m

bərabərdir. Tavanı iri bazalt sallardan ibarət imiş, iki iri tağ və sutunlar üzərində durarmış. Məscidin artıq uçub dağılmış minbəri bir qədər aralıda tikilibmiş və bina ilə dar keçidlə birləşibmiş. Məscidin üç giriş qapısı olub. Qərb qurtaracağında Roma dövründən qalma tikili qalıqlar- durur. Ordakı otaqların birində müəyyən edilmiş qəbir, yerli sakinlərin fikrincə Xadarın məqbərəsidir. Onu həm müsəlmanlar, həm də xristianlar ziyarət edirlər.

Ən qədim kilsə eramızın IV əsrində bazilik şəklində tikilmişdir. O, Bosranın digər xristian abidələrindən formasına görə fərqlənərmiş. Onun ən gözəl hesab edilən və nisbətən yaxşı qalmış hissəsi - altarı olmuşdur. Tağı yumurta formasındadır, binanın gümbəzinin yarısı onun üzərində yerləşərmiş, həmçinin tağın üzərində iki dördbucaqlı şəklində pəncərələr də yaxşı qalıb. Maraqlıdır ki, Bosra əhalisi nəql edərmiş ki, peyğəmbər Məhəmməd məhz bu kilsədə nestorian rahibi Bəhira ilə görüşüb söhbət etmişdir. Lakin bu haqda dəqiq tarixi məlumat yoxdur.

Bosranın müxtəlif dövrlərdə müxtəlif əmirlər və sülalələr tərəfindən tikilmiş və dövrümüzədək bəzisi yaxşı şəkildə, bəzisi isə dağılmış formada gəlib çatmış abidələrinin əksəriyyəti dini xarakterdədir. Onlardan yenə də Məhəmməd peyğəmbərin əmisi ilə Suriyaya ticarətə gedərkən gecələdiyi söylənilən Mübarək Naqa adlı məscidi, Müsallə Mələb adlı məscidi, Bərikət Hac adlı məscidi və s. göstərmək olar. 1225-ci ildə Şəmsəddin Səncərin hakimiyyəti dövründə inşa edilmiş və Mədrəsə Əbu - ül -Fəda adı altında məşhurlaşan elm, tədris mərkəzi bizim zəmanəmizə yaxşı görkəmdə gəlmiş Bosra tikililərindəndir. Bunlardan əlavə bir neçə məscid, kilsə, hamam, su anbarı binalarının qalıqlarını da göstərmək olar.

Bosranı hər yanda tanıtdıran abidəsi, əlbəttə amfiteatr binasıdır. O özünün xarici gözəlliyinə, memarlıq ölçülərinin nəhəngliyinə və tikinti texnikasının dəqiq tətbiqinə görə bu haqqı qazanmışdır. Mütəxəssisilərin fikrincə amfiteatr Bosraya əbədi şöhrət qazandırmışdır. O, Roma dövründən başlayaraq bu günki günümüzədək oxşar teatr binalarını, stadion və s. idman. incəsənət tikililərini kölgədə qoymuş, görənlərdə heyranlıq və təəccüb, görməyib haqqında eşidənlərdə arzu və həsrət yaradaraq dillər əzbəri olmuşdur. Səyyah və alimlər, şair və dövlət xadimləri Bosra amfiteatrından dönə-dönə bəhs etmişlər.

Əksər mütəxəssislər onun eramızın II əsrində, Roma hakimiyyəti zamanı tikildiyini söyləyirlər. Ümumi planına görə Şərq və Qərb ölkələrində yaradılmış amfiteatrlara bənzəsə də, özünün bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Oturacaq yerləri bəzi məlumatlara görə 15 min adam tutarmış. Onlar bazaltdan düzəldilmişdir və yaxşı qalıb. Səhnə özünün bütün köməkçi binaları ilə hər tərəfdən əla görünür. Orda çıxarılan ən asta səs bütün teatra





yaxşı yayılır bu səsötürmə xüsusiyyətinin ən yüksək səviyyədə olduğuna dəlalət edir. Amfiteatrın müxtəlif hissələrində salamat qalmış bəzəklər, naxışlar, memarlıq elementləri əsasən roma, qismən də yerli sənətkarlıq məktəblərini təcəssüm etdirir.

Amfiteatr biri digərindən keçidlərdə ayrılan üç hissədən ibarətdir. Birinci hissə on dörd sıradan, ikinci hissə on səkkiz sıradan, üçüncü hissə isə yuxarı bölmələrdən təşkil edilib və beş sıradan ibarətdir.

Amfiteatr binasında çalğıçılar üçün yaradılan xüsusi bölmə də yaxşı qalmışdır. Bu halı izah edən mütəxəssislər müxtəlif dini və ictimai xarakterli, çalğı ilə müşayiət olunan mərasimlərin keçirildiyini söyləyirlər. Səhnənin tamaşalar göstərilən hissəsinin ölçüləri 45x8 m olmuşdur. Döşəməsi yaxşı düzəldilmiş taxta örtüklə döşənibmiş. Səhnənin tavanını saxlayan sütunlar mərmər və yaxşı yonulmuş qranitlə bəzədilibmiş. Tavanın özü isə möhkəm, sağlam ağaclardan düzəldilibmiş. Tamaşa göstərilən səhnənin yanında aktyorların girib çıxması üçün dəhlizlər və üç əsas qapı olmuşdur. Dəhlizlərin bəzisi indiyədək yaxşı qalıb. Onların tavanları yarımdairə formasındadır.

Tamaşa salonunda əyanlar, dövlət nümayəndələri üçün xüsusi lojalar olub. Onlardan əlavə səhnə yerləşən hissədə çoxlu köməkçi otaqlar da indiyədək qalmaqdadır. Qeyd olunmalıdır ki, amfiteatr öz ölçülərinin nəhəngliyinə baxmayaraq, ətrafının əsasən düzənlikdən ibarət olan yerin ümumi ahənginə xələl gətirmir. Hətta az qala düzənliklə eyni səviyyədə durur.

## PALMİRA

Bu şəhər Suriya - Ərəbistan səhrasının qurtaracağında, Aralıq dənizi ilə Fərat çayı arasındakı ərazidə yerləşib. Ətrafı düzəngah olsa da arabir qırmızımtıl rəngli təpəliklər nəzərə çarpır.

Bu şəhər haqqında ilk məlumatlar b.e.ə.XIX əsrə aid edilən assuri mənbələrində verilmişdir. Sonra b.e.ə yaşamış Assuri çarı Tiqlatpalasarın hərbi yürüşünü təsvir edən yazılardan məlum olur ki, onun əhalisi qədim sami tayfaları əramilər olmuşdur. Şəhər indi ərəb dilində olduğu kimi o dövrlərdə də Tadmor adlandırılmışdır.

B.e.əvvəl yaşamış Roma tarixçisi Appian özünün "Vətəndaş müharibələri" əsərində (b.e.ə.41-ci il) məşhur Roma sərkərdəsi Mark Antoninin Palmiraya hücumunu əiraflı təsvir etmişdir. Alim şəhərin ümumi mənzərəsindən bəhs edərkən yazmışdır: "...onun tacirləri İran tərəfdən Hind və Arameya malları gətirər və romalıların əlində olan ölkələrdə satardılar..."

Məşhur tarixçi Böyük Plini b.e. I əsrində orda olarkən Palmira haqqında daha geniş məlumat verir: "Şəhər tutduğu ərazi ilə məhşurlaşaraq... hər tərəfdən qumsallığın kəsdiyi tarlalarla əhatə olunmuşdur. Başqa sözlə desək, təbiət torpağı ondan alsa da, Roma və Parfiya kimi nəhəng dövlətlərdən kənarda ona müstəqillik bəxş edib; siyasi çəkişmələrdə hər iki dövlət ona xüsusi qayğı göstərməyə məcbur olurlar..."

Şəhərin çiçəklənib genişlənməsi də bu əsrlərdən başlayıb. Palmiralı tacirlər öz mövqelərindən bacarıqla istifadə edirdilər. Şəhəri həm Aralıq dənizi limanları, həm də Asiyanın məşhur mərkəzləri ilə karvan yolları birləşdirirdi. Palmiranın sürətli inkişafı ilk növbədə suriyalı tacirlərin fəaliyyəti ılə əlaqədar olmuşdur. O, ən yaxşı vaxtlarında qonşu ölkələrdə yerləşən Bəəlbək və Perqam kimi gözəl arxitekturaya malik şəhərlərlə eyni səviyyədə durarmış.



*Tetrabil*







*Palmira – Bel məbədi*

Hazırda ərazisində tapılmış maddi mədəniyyət detallarına görə yaradılma tarixi b.e.ə. III minilliyə aid edilən bu şəhər, roma istilası zamanı artıq böyük mədəni mərkəz imiş. Onun bir hissəsində qədim Palmira allahlarının - Bel, Yaribol və Aqlibolun- şərəfinə yüksəldilmiş müqəddəs məbədlər kompleksi, o biri hissəsində isə geniş bazar yerləşərmiş. Şəhərin tikintisində kərpicdən, daşdan, mərmərdən istifadə edilib. Xarici ölkələrdən gəlmiş, ilk növbədə yunan sənətkarlarının işlədiyi güman edilir. Bel allahın memarlıq kompleksi bir neçə əsr ərzində tikilib, nəhayət II əsrin ortalarında tamamlanmışdır.

Məbədin giriş hissəsinə geniş pilləkənlər - panduslar birləşibmiş. Üç qızılı rəngində darvaza geniş ətrafı hündür hasarla əhatə olunmuş və eni 200 m çatan həyətə açılarmış. 20 m hündürlüyündə hamar sütunların baş hissəsində korinf kapitelləri yerləşərmiş. Həyətdə həmçinin yuyunmaq üçün hovuz, məbədə gətirilən qurbanları qəbul etmək üçün mehrab varmış. Həyətin ortasında uzun fasadlı məbəd yerləşərmiş. Mütəxəssislərin fikrincə, onun bu vəziyyəti antik ənənələrə ziddir və Suriya memarlıq üslubunun nəticəsi sayılmalıdır.

Allahların sayına əsasən o, üç hissəyə bölünübmüş. Tavanlarda müxtəlif süjetlərə malik çoxlu rəsmlər olub. Allahların heykəlləri məbədin

içərisində yaradılmış xüsusi taxçalarda yerləşibmiş. Belə həsr edilmiş qızıl heykəlin Roma imperatoru Avrelin tərəfindən İtaliyaya aparılması tarixi fakt kimi qəbul edilir.

Ölkədə xristian dini yayıldığı zaman Bel məbədi kilsəyə çevrilir. Onda yeni dinin tələbinə uyğun olaraq bir sıra dəyişikliklər aparırlar. Suriya ərəb - islam orduları tərəfindən fəth olunduqdan sonra (VII əsr) o, yenidən dəyişdirilərək məsciddə çevrilir. Ətrafında alınmaz qala divarları tikib möhkəmləndirirlər. Amma bir neçə yüz il keçdikdən sonra - XI əsrdə - zəlzələ nəticəsində ona böyük ziyan dəyir.

Şəhərdən xeyli aralıda, təpəliklər arasında "Məqbərələr vadisi" adlanan nekropol yerləşir. Bəzilərinin hündürlüyü 20 m çatan və düzbucaqlı şəklində, vertikal qəbirüstü qüllələr uzaqdan diqqəti cəlb edir. Mütəxəssislər qeyd edirlər ki, bu cür tikililərə Suriyanın digər yerlərində rast gəlmək olmur, onlar Palmiranı səciyyələndirən xüsusiyyətlərdən biri sayılır. Əksəriyyəti də yerli qumdaşından düzəldilib. Onların quruluşu və istifadə olunan bir sıra elementlər Roma memarlığından alınsa da, milli həlli ilə demək olar ki, orijinal təsir bağışlayır. Bu cür məqbərələr bir və ya bir neçə ailənin üzvlərini dəfn etməküçün tikilərmiş. Yalnız II əsrdən başlayaraq bu məqsədlə yaradılan tikililər yeni konstruksiya əsasən inşa ediliblər.

Palmiranın çiçəkləndiyi əsrlərdən, təəssüf ki, çox az heykəl və təsviri sənət nümunələri gəlib bizə çatmışdır. Amma, tarixçilərin fikrincə şəhərdə könül oxşayan çoxlu heykəl olub. Gəlib çatmış divar yazılarından məlum olur ki, şəhərin adlı - sanlı adamlarına müxtəlif yerlərdə ümumi sayı 8-10 çatan heykəl qoyularmış. Onların əksəriyyətinin şəhəri dağıtmış Roma imperatoru Avreli tərəfindən aparıldığı söylənilir.

Məqbələr üzərində qoyulmuş qədim memarlıq elementləri uzun əsrlər boyu müxtəlif adamlar tərəfindən sökülüb aparıldığından, hazırda Palmira nekropolunda onlardan çox az qalıb. Mütəxəssislər həmin elementlərin dünyanın müxtəlif muzeylərinin salonlarını bəzədiyini qeyd edirlər.

XIX əsrin II yarısında avropalıların Şərq sənəti abidələrinə olan marağının daha da güclənməsi bir çox qədim şəhər xarabalıqları kimi, Palmiradan çoxlu sənət incilərinin müxtəlif yollarla Avropa və Amerikaya köç etməsinə səbəb olmuşdur.

Şəhərin tərəqqisi b.e. II əsrinin ortalarında daha çox müşahidə olunur. 129-cu ildə imperator Andrianın Palmiraya gəlişi şəhərdə böyük canlanma yaratmışdır. Bu zaman böyük tikinti- təmir işləri aparılıb. Yeni gözəl binalar və s. inşa edilib. İmperator coğrafi baxımından əyalət şəhəri sayılan Palmiraya "Azad şəhər hüquqi" veribmiş. O dövrdə şəhərin iqtisadi və ictimai yüksəlişinə aid məlumatlar hazırda Ermitajda saxlanılan və üzərində





ərami və yunan dillərində qiymətli yazılar olan 5 metrlik mərmər lövhədə həkk edilmişdi. Həmin lövhədəki yazılarda göstərilir ki, şəhər Roma imperiyası ilə etdiyi ticarət əsasında ən çox purpur yunu, ətirli yağlar, bürüncdən düzəldilmiş heykəllər, zeytun, dəri, şərab, buğda, duz və s. ixrac edirmiş. Göstərilən malların həcmi o qədər artıqdır ki, bütün tarixçi alimlər, o cümlədən Böyük Plini də Palmira və ətraf rayonların çox yüksək inkişaf səviyyəsini xüsusi qeyd edirlər.

Palmiranı Sura ilə birləşdirən Ela karvan yolunu da Roma hakimiyyəti dövründə inşa ediblərmiş. Ondan əlavə bu şəhər müxtəlif əsrlərdə tərəqqidə olmuş Dəməşq, Bosra və s. böyük yaşayış məntəqələri ilə də müntəzəm əlaqə saxlamaq üçün yaxşı yollara malik imiş.

Romalılar dövründə də bir məşhur abidə tikilir. O, 131-ci ildə göy allahı, yağışa və bərəkətə rəhbərlik edən Bəlşəminin şərəfinə ucaldılan məbəddir. Özünün ölçülərinin tənasüblüyünə, harmoniyasına və görünüşünün ürəyə yatımlığına görə o, məşhur Bel məbədini geridə qoyarmış. Qeyd olunmalıdır ki, onların hər ikisinin müəyyən qalıqları indiyədək durur. Amma başqa allahlara həsr edilmiş çoxlu müxtəlif ölçülərə malik məbədlər təəssüf ki, bizə gəlib çatmayıb. Onların haqqında yalnız yazılı mənbələrdə məlumat verilir. Bu qəbildən Hədad, Atarqatis, İştar, Nabu, Arsu və s. müqəddəslərin məbədləri olduğu tarixi faktlardır.

Roma hakimiyyəti dövründə öz tərəqqisinin zirvəsinə çatan şəhər romalıların əlləri ilə darmadağın edilib, süquta yetirilmişdir. Onun qısa tarixçəsi belədir:

Romanın məşhur Sələvkilər sülaləsi dövründə (III əsr) Palmira get - gedə müstəqilləşərək ətraf vilayətləri özünə tabe etdirir. 267-ci ilədək hakimiyyətdə olmuş Palmira çarı kiçik Ordenet Sasani İranına qarşı vuruşlarda müvəffəqiyyət qazanaraq Roma şərqinin hakiminə çevrilir. Amma o, oğlu və vərəsəsi ilə birlikdə 267-ci ildə Emensidə öldürülür. Bəzi mənbələr bu işdə Zenobiyanın - Ordenetin ikinci arvadının əli olduğunu güman edirlər. Taxta onun kiçik yaşlı oğlu Vaballat otursa da, həqiqi hakimiyyət Zenobiyanın ixtiyarında imiş. Tarixçi alimlər bu qadının həm gözəlliyini, həm də ağıl və fərasətini həddən artıq tərifləyirlər. Onun Palmirada tapılmış dəmir sikkələr üzərindəki şəklində düzgün və bir qədər kəskin cizgiləri olan sifəti həkk edilmişdir.

Tarixi məlumatlar bu qadının elm və ədəbiyyata böyük qiymət verdiyini təsdiq edirlər. O, öz sarayında alim və filosoflardan ibarət böyük bir qrup saxlayarmış.

270-ci ildə Romanın zəifliyindən istifadə edən Zenobiya özünü Şərqin imperatoru, Palmiranı isə imperiyanın paytaxtı elan edir. Amma bu işin

öhdəsindən gəlmək çətin idi. Romanın ümumi tənəzzülü Asiyadakı Şərq vilayətlərində də özünü göstərirdi. Palmira da əvvəlki əzəmətini get -gedə itirirdi.

272-ci ildə Romanın yeni hakimi Avrelian Misirə etdiyi müvəffəqiyyətli hərbi yürüşdən sonra Suriya üzərinə hücuma başlayır. Müharibədə Suriya ordusu məğlub olur. Romalılar Palmiranı mühasirəyə alırlar. Vəziyyəti belə görən Zenobiya kömək üçün İran şahı Şapura müraciət etməyi qərara alır və şəhərdən çıxarkən tutulur. O, romalıların qərargahına gətirnilir. Avrelian şəhərə toxunmur. Suriyalıların da tabe olduqlarını qəbul edib, Kiçik Asiya yolu ilə Romaya qayıdır. Amma Roma qoşunu Dardanel boğazını keçər - keçməz Palmira əhalisi Roma hakimiyyətinə qarşı üsyan qaldırır. 273-cü ildə Roma ordusu geri dönərkən şəhəri tamamilə dağıdır. İmperator Avrelianın əmri ilə yalnız Bel məbədi toxunulmaz qalır. Zenobiyanın sonrakı taleyi haqqında söylənilir ki, romalılar onu hərbi qənimətlərlə birlikdə paytaxtlarına gətirirlər. Palmiradan Roma paytaxtına daşınan qəniməti 200 araba güclə tutarmış. Suriyanın məşhur çariçası ömrünün sonunu Tibur adlanan yerdə sürgündə keçirir.

# ƏMƏVİLƏR MƏSCİDİ

Suriya Ərəb Respublikasının ən məşhur və görkəmli tarixi abidələrindən biri sayılan bu məscidə bəzən Böyük Məscid də deyirlər. O, özünün ölçülərinin nəhəngliyinə, quruluşunun mürəkkəbliyinə, daxili tərtibatının zənginliyinə və s. görə haqlı olaraq bu şöhrəti qazanıb. Daha əvvəl tikilmiş və islam aləmində tanınan Məkkə, Mədinə, Kufə, Bəsrə və s. şəhərlərdəki məscidlərdən öz konstruksiyasına görə fərqlənir. Özündən sonra inşa edilən müsəlman dini ocaqları üçün bir növ nümunə rolunu oynamışdır.

Hazırda Suriyanın paytaxtı Dəməşqin "qədim şəhər" adlanan hissəsində yerləşib, tamaşasına gələn qonaqları əvvəlki əzəməti ilə qarşılayır.

Həmin tikilinin yerində b.e.əvvəlki minilliyin başlanğıcında Suriyanın o dövrdəki əhalisi olan əramilər ildırım və şimşək allahı Hədadın müqəddəs məbədini yaradıblarmış. Hətta İncil - Tevratda da o abidənin təmtərağı haqqında bu cür yazılar var: İudeya çarı İoafimin oğlu Əhəz o qədər heyran olmuşdu ki, "Uriyaya bir rahiblə müqəddəs binanın çertyojlarını və təsvirini göndərdi".

Bizim eranın III əsrində Suriyanı istila edən romalılar müqəddəs ocağın





yerində iri ölçüləri olan Yupiter məbədini tikirlər. Yeni binanın eni 300 m, uzunluğu 310 m çatarmış. Hazırda qədim Roma abidəsindən korinf kopitelinin qalıqları durur. Bundan əlavə Yupiter məbədinin qərb girəcəyinin dörd sütunu isə tamamilə əvvəlki yerindədir.



*Əməvilər məscidi*

Məbəd, sonradan b.e. IV əsrindən, xristianlıq Suriyanın rəsmi dini olduğu vaxtdan başlayaraq dəyişikliyə məruz qalır. O zaman ölkə Bizans imperiyasının tərkibinə daxil imiş. Bizans hökmdarlarının əmriylə məbədin (hazırda məscidin) həyəti yerləşən hissəsi sökülür, yerində sonralar Müqəddəs Yuhənnanın adını daşıyan, mərkəzində günbəzi və üç dənə 140 metrlik nefi olan bazilika tikilir. Sökülən Roma məbədinin materialları yeni tikilidə işlədilir.

Sonradan 636-cı ildə başqa sərkərdə Xalid ben Valid olmaqla ərəb-xilafət qoşunu Dəməşqi istila edir. Yarım əsrdən artıq bir müddətdə müsəlmanların sayı o qədər çoxalır ki, artıq kiçik ibadətxanalar darlıq edir.

Bir müddət sonra Dəməşq xilafətin adi əyalət şəhərindən başlıca şəhərinə çevrilir. Yeni sülalə - Əməvilər - onu özlərinə paytaxt edirlər. Xristian kilsəsi buraya ibadətə gələn xristian və müsəlmanlara xidmət edir. Bundan əlavə əməvilər yeni paytaxtda yeni, ölkənin şöhrətinə layiq və Məkkə, Mədinə, Kufə, Bəsrə şəhərlərində tikilib fəaliyyət göstərən

məsciddən geri qalmayan bina tikdirmək qərarına gəlirlər.

Bu dövr ərəb xilafətinin ən qüdrətli dövrü olub. Sərhədlər şərqdə Çin ölkəsindən başlayır, Qərbdə Pireney dağlarında və Atlantik okeanında qurtarırdı. Əməvi nəslindən olan VI xəlifə - Əl - Valid ibn Əbdül - Malik (705-715) xristian icması ilə danışıqlardan sonra keçmiş kilsəni alır və onu sökdürməyi əmr edir. O, həmçinin tapşırır ki, tikiləcək məscidin inşasında kilsənin və Roma məbədinin materiallarından istifadə edilsin. Ərəb tarixçisi Əbdül - Rəşid əl-Bakuvi yazır ki, xəlifə bu arzusuna o qədər uymuşdu ki, bütün ölkənin yeddi illik xəracını bu binanın tikintisinə sərf etmişdi. Nəhayət iş tamamlandıqdan sonra, 18 dəvə götürən haqq-hesab kağızlarını onun hüzuruna gətirdikləri zaman o deyir: "Bütün bu məbləğlər allah yolunda xərclənib, gəlin biz də heyifsilənməyək".

Dəməşqin tarixini yazmış müasir ərəb tarixçisi İbn Şəddad qədim mənbələrə əsaslanıb göstərir ki, məscidə hər birində 14 min dinar olan 400 sandıq və 28 min dinar olan 2 sandıq qızıl sərf edilmişdi.

Həqiqətən yeni məscid binası bütün çəkilən zəhmətin müqabilində layiqli görkəmə malikdir. O, öz dövrünün səyyah, alim, diplomat, şair və dövlət xadimlərini heyrətə gətirmişdir. Ərəb müəllifləri ona "taleyin şəfəqi", "dövrün yeganəsi", "zamanın möcüzəsi" və s. adlar vermişlər. Şairlər şəninə qəsidələr həsr etmişlər (Məs. "Divani Sənubəri" əsəri). Qeyd etmək lazımdır ki, o, möhtəşəmliyi ilə yanaşı, ibadət üçün də çox əlverişli quruluşa malikdir. Həmçinin, demək lazımdır ki, memarlar qədim Sasani, Bizans memarlıq üslublarından istifadə etsələr də, çox orijinal yolla gediblər. Bu, xüsusilə ümumi plana və daxili formaya aiddir.

Məscidin ümumi ansamblı uzunu 156 m, eni 97 m olan dördbucaqlıdan ibarətdir. İbadət zalı, Roma və Bizans dövrlərindən qalma sütunların arası 5 m çox olduğu üçün hər yandan görünür. Onların üzərində ikiyaruslu tağlar var. Mərkəzi hissədə "kubbat ən -nasr" (qələbə qübbəsi) adlanan və dörd sütun üzərində yerləşən qübbə vardır. İbadət zalının xarici tərəfindən "qədim şəhərə" qapı açılır. Həmin keçid birbaşa "suq saqa" yəni "zərgərlər bazarına" aparır.

Digər məscidlərdən fərqli olaraq bunun dörd mehrabı var. Onun hər biri sünni məzhəbinin bir qoluna aiddir: maliki, hənəfi, şafii və hanbəli. Ən çox diqqəti hənəfi mehrabı cəlb edir. O, tərtibatının zənginliyinə görə başqalarını geridə qoyur.

Yaxınlıqda bayramlarda xütbə oxunmaq üçün minbər yerləşir. Sol tərəfdə məqsurə adlanan yer var. O, dəmir şəbəkə ilə əhatə olunmuşdur və xəlifə üçün nəzərdə tutulub. Elə düzəldilib ki, hər yandan görünür. Məscidin mərkəzində üzərində qübbəsi olan balaca bir pavilyon diqqəti cəlb edir.





Məscidin nəzarətçilərinin fikrincə, təmir zamanı tapılmış Müqəddəs Yuhənnanın başı guya bu pavilyonda saxlanılır. Bir sıra tarixçilərin, o cümlədən qədim tarixçi İosif Flavinin fikrincə Yuhənna tarixi şəxsiyyət olub.

Böyük məscidin üç minarəsinin özülü roma- bizans dövründən qalmışdı. Mütəxəssislərin fikrincə onlardan biri - "gəlin minarəsi" adlanan və Bəsrədə, ondan əvvəllər tikilənləri xatırlayanı, XI əsrdə fatimilər dövründə tikilmişdi. İsa minarəsi adlanan, məscidin cənub-şərqində yerləşir, bir neçə dəfə yanmasına baxmayaraq yenidən düzəldilibdir. Qərb hissəsindəki Məhəmməd minarəsi adlananı isə 1184 -cü ildə tikilib, 1400-cü ildə dəyişdirilib və 1488-ci ildə indiki formasına salınıb.

Hər bir minarə haqqında müxtəlif əfsanələr vardır. Belə danışılır ki, guya İsa Qorxunc Məhkəmədən əvvəl burda göydən yerə enib Antixristlə mübarizə aparmışdır. "Gəlin minarəsi"nin yerində isə guya İsa peyğəmbərin sevgilisi - Qəssanilər qəbiləsindən olan qız gizlənibmiş. Peyğəmbər zühur edən zaman minarəsinin cismi yarılacaq və gəmi peyda olacaq.

Böyük Məscidin sütunları arasındakı kiçik bir qapı Məşhəd Hüseyn deyilən hücrəyə açılır. Bir sıra mənbələrin dediyinə görə, Məhəmməd peyğəmbərin nəvəsi və Əlinin oğlu Hüseynin başı orda, üzərində müxtəlif Quran surələri yazılmış qutuda saxlanılır. O, Müaviyənin, (Əlinin əsas siyasi rəqibinin) oğlu Yəzidin tərəfdarları tərəfindən 681-ci ildə Kərbala yaxınlığında öldürülüb. Başını gətirib Dəməşqin şəhər darvazalarından asıblar. Rəvayətə görə bu zaman şəhərdəki bülbüllər o qədər qəmli oxuyublar ki, bütün şəhər camaatı hönkür-hönkür ağlayıb. Yəzid vəziyyəti belə gördükdə daxili ixtişaşlardan qorxaraq əmr edib ki, Hüseynin başını qızıl sandıqçaya qoysunlar. Həmin sandıqçada rəvayətə görə peyğəmbərin saçları da saxlanılır.

Çıxış qapısının yanında səkkizbucaqlı - qübbəli bir bina nəzərə çarpır. O, Dəməşqin qiymətli şeylər saxlanan binası olub. Deyilənə görə bir vaxt Osmanın Quranı da burda saxlanarmış.

İçərisinin tərtibatı - xüsusilə gözəl naxışlı iri mərmər pannolardan istifadə edilməsi - məscidin yaradıcılarının yüksək sənətkarlığına dəlalət edir. Sonralar bu binanı görmüş Bizanslılar Suriyanı həmişəlik itirdiklərini belə izah ediblər: "Bu möhtəşəm məscidin tikilməsi bir daha yəqinlik yaradır ki, ərəblər burda həmişəlik məskən salıblar".

Məscid bir neçə dəfə yanıb. Üç dəfə - 1157, 1200 və 1759-cu illərdə zəlzələ ona ziyan vurub.

# HƏLƏB

Bu şəhər bəşər sivilizasiyasının lap əvvəllərində mövcud olmuşdur. O, bir ticarət mərkəzi kimi Fars körfəzindən Aralıq dənizinə gedən yolun üstündə yerləşdiyindən uzun əsrlər boyu tərəqqi etmişdir. Hələb haqqında ilkin məlumatlara b.e.ə. II minillikdəki xett kitabələrində rast gəlinir. Şəhər Yaaxmad adlı krallığın paytaxtı kimi təqdim edilmişdir. Çox güman ki, bu krallıq daha güclü xett dövlətinin vassalı idi və məşhur xett çarı I Xattusilisə



*Hələb*

(b.e.ə. 1650-1620 -ci illər) tabe olunub xərac verirdi. Sonradan Hələb ətraf ərazilərlə birlikdə Hurrit adlı qəbilənin əlinə keçir. Amma eramızdan əvvəl məşhur Misir çarı I Tutmos 1457-ci ildə Suriyaya etdiyi səkkizinci hərbi yürüş zamanı Hələbi ələ keçirir. Sonra Hələb Suriya torpaqları ilə birlikdə Mitaniyanın və yenidən xettlərin hakimiyyətinə tabe etdirilir (b.e.ə. XV-XIV əsrlər). Eramızdan əvvəl II minilliyin sonunda "xalqların böyük yerdəyişməsi" zamanı xettlərin yaratdığı qüdrətli imperiya parçalanır və yerində xırda knyazlıqlar yaranır. Suriyada peyda olmuş kiçik dövlətlər dövrün qüvvətli imperiyaları - Assuriya və Misir arasında satellit rolunu oynamağa məcbur olurlar. Suriyalılar qədim xett yazılarının yerli variantından istifadə etsələr də bu uzun çəkmir. O, tezliklə Assuri dövlətinin





təsiri altına düşür və asılısı olur. Məşhur assuri çarı Tiqlatpalasar (b.e.ə. 745-727) Urartu və Suriya dövlətləri ittifaqını məğlub edir və torpaqlarına qatır. Belə vəziyyət Assuriyanın tam məğlubiyyətinədək davam etmişdir (b.e.ə. XII əsrədək). Qalib dövlət, Babil çarlığı, Suriyaya hökmranlığı həyata keçirmişdir.

Məşhur İran - Əhəməni çarı Kir Babili məğlub etdikdən sonra (b.e.ə. 539-cu il) Suriyanı dövlətinə qatmış və beləiklə İranın Makedoniyalı İskəndər tərəfindən məğlubiyyətindək ölkə Əhəminələrə tabe olmuşdur. B.e.ə. 333-cu ildəki qələbədən sonra yunanlar hakimiyyətə gəlmiş, b.e.ə 65-ci ildə onları romalılar əvəz etmişdir.

Bundan sonra Hələb Suriya və Fələstinlə birlikdə Bizans imperiyasının tərkibində olmuşdur. Eramızın 540-cı ilində Sasani İranının qoşunları şəhəri o qədər dağıdırlar ki, o uzun müddət viranə qalır. Nəhayət, 637-ci ildə islam-ərəb qoşunları Hələbi tuturlar. Şəhər əvvəlcə Əməvilər, sonra isə Abbasilər xilafətinə tabe etdirilir. Sonra o, yerli Həmdanilər sülaləsinin tərkibində olur, çiçəklənir. Sonradan şəhər bir müddət Bizansın, Misirin fatimilər sülaləsinin, köçəri Midasilər nəslinin əlində olmuşdur. Səlibçilər şəhəri mühasirəyə alsalar da (1124-cü il) Mosul atabəyi Zəngi köməyə gəlmiş, yadelliləri qovlayaraq şəhəri öz torpaqlarına qatmışdır.



*Hələb*

1183-cü ildə məşhur Səlahəddin əl- Əyyubi Hələbi tutur və öz oğlu Zahir Qaziyə verir. 1260-cı ildə Abbasi xənədanına son qoymuş monqol Hülaku Hələbi fəth edir, soyur, talayır, sonra bir müddət şəhərdə Məmlüklər hökmranlıq edirlər. 1516-cı ildə o, Osmanlı imperiyasının tərkibinə daxil olur.

Hələbin ən qədim abidələrindən ilk növbədə Came əl-Kəbir adlı məscidi göstərmək olar. Ondan bir qədər aralıda Bizans imperatoru Konstantinin anası tərəfindən tikilmiş sonradan isə dəyişdirilmiş "Həlaviyyə" mədrəsəsini qeyd etmək lazımdır. Şəhərin mərkəzi küçələri Bəb Antakiya və Sun əl-Atarin də qədim tarixə malikdir.

## TARTUS

Bu şəhərdən bir qədər aralıda inşa edilmiş İsmaililər qəsrlərinin uzun tarixi vardır. Məsələ burasındadır ki, İsmaili təriqəti şiəlik əsasında VIII əsrdə yaranaraq ayrılmışdır. Altıncı şiə imamı Cəfər Əs-Sadiq öz oğlu İsmayılı bir sıra əməllərinə görə (bura İsmayılın spirtli içkilər içdiyini də əlavə edirlər) imamlıq vərəsəliyindən çıxarır. Amma buna baxmayaraq bir qisim şiə camaatı Cəfərin qərarıyla razılaşmır. Onlar İsmayılı və oğlu Məhəmmədi də özlərinə imam sayırlar. Bir qisim adamlar İsmaili təriqətinin üzvləri olaraq qaldılar.

772-ci ildə İraqın Bəsrə şəhərində baş vermiş bir sıra hadisələrdən sonra İsmayılın oğlanları Mədinədən qaçmalı olurlar. Böyük oğlu Məhəmməd İrana gedir. Sonradan onun övladları Pakistanda məskən salırlar. Əli övladları ilə birlikdə Suriyaya mühacirət edir.

İsmaililər öz nəzəri müddəalarında belə əqidədə idilər ki, Qurani-Kərim alleqorik topludur. Allah yer üzünə göndərilmiş çoxlu peyğəmbərlərdə təcəssüm edə bilər. Onların dünyəvi işlərə qarşı açıq etirazı sonradan sui-qəsdlərə çevrilmişdi. Tarixi mənbələr göstərir ki, ismaililərin bilavasitə əliylə, yaxud sayəsində şərqin çoxlu mütərəqqi elm və mədəniyyət xadimləri, görkəmli şəxsiyyətləri öldürülmüşdür.

XI əsrdə İranın Qəzvin şəhəri yaxınlığında güclü İsmaili təşkilatı yaradılır. Onlar Alamut qalasını tuturlar. Onu özlərinin istinadgahına çevirirlər. Yenə həmin dövrdə İsmaililər Hələb yaxınlığında məskən salırlar. Yerli hökmdarlardan Rizvan ismaililərdən istifadə edərək özünün siyasi düşmənlərindən qisas alır. Bu təriqətin üzvlərinin yaratdığı cinayət və terror





yerli sakinlər içərisində böyük ixtişaş yaradır. Səlibçi quldurlarla əlbir olan ismaililər artıq XII əsrdə Suriya ərazisində bir neçə qəsrə malik idilər: Qədmus, Masiaf, Kəhf, Manikə, Kəhabi, Silaykə, Kuleyyə və s. Sonradan Səlibçilərin özlərinə qarşı düzəldilmiş sui-qəsdlər onları ismaililərin üzərinə qaldırır. Nəticədə səlib ordusu qalib gələrək ismaililərdən vergi alırmış.

Suriyadakı ismaililərin ən çox tərəqqisi rəhbərləri Rəşidəddin Sinanın dövrünə təsadüf edir. Onu, üzvləri "dağlı qoca" adlandırarmış. 50 ildən çox rəhbərlik etmiş bu adam, öz fanatikliyinə, qəddarlığına və təşəxxüslüyünə görə ad qazanıbmış. Gözəl danışıq qabiliyyətinə və həddən artıq energiyasına görə şöhrət tapıbmış. Hətta vəziyyət o yerə çatıbmış ki, o, özünü allahın elçisi kimi qələmə verərək, yeni peyğəmbər olduğunu elan etmişdi. Öz ardıcıllarına Ramazanı yerinə yetirməməyi və s. islam dini ayinlərindən əl çəkməyi tövsiyə edirmiş.

XIII əsrdə Alamut qalası monqollar tərəfindən alındıqdan sonra ismaililərin nüfuzu zəifləyir.

Son zamanlar bu təriqətin başçısının külli miqdarda var-dövlət sahibi olduğunu qeyd edirlər. Onu hətta dünyanın ən zəngin şəxslərindən sayırlar. Yaşadığı yerlərdən biri kimi Misirin məşhur Lüksor kurortu qeyd olunur.

## LAZİQİYYƏ

Tarixi məlumatlara görə bu sahil şəhərinin ilk adı Ramita olub. Sonradan ona Levk Ante deyiblər. Laziqiyyə isə onun ərəbləşdirilmiş formasıdır. Şəhər eramızdan iki min əvvəl Suriyanın və Livanın dəniz sahillərində yaşamış Finikiya tayfalarının məskəni olmuş və Uqarit çarlığına tabe etdirilmişdir.

Eramızdan əvvəl X əsrdə Assuriya çarlığına, 614-cü ildən isə Babilə daxil olur. Amma 539-cu ildə güclü Əhəmənilər dövləti onu işğal edir. Sonra 333-cü ildə Makedoniyalı İskəndər onu tutur və ölümündən sonra mənşəcə yunan olan Seləvkilər sülaləsinin dövlətinə birləşdirilir. Çar I Seləvk şəhəri anasının şərəfinə, adıyla "Laodiseya" adlandırır. Eramızın III əsrində məşhur Suriya çariçası Zenobiya şəhəri istila edir. Sonra Bizans dövründə, iki dəfə 494-cü və 555-ci illərdə zəlzələ şəhəri dağıdır, amma imperator Yustinian (527-565-ci illər) tərəfindən yenidən Romanın tərkibinə qatılır. 1098-ci ildən səlibçilər Laziqiyyə limanına ordu çıxarırlar. Sonra bir neçə onilliklər ərzində şəhər və ətraf ərazilər uğrunda səlibçilərlə müsəlman qoşunları arasında müharibələr gedir. Həmin dövrdə baş vermiş zəlzələ də (1170-ci il) şəhərə böyük ziyan vurmuşdur.

1516-cı ildə Osmanlı türkləri şəhərlə birlikdə Suriyanı istila edir və onların hakimiyyətləri I Dünya müharibəsinədək sürmüşdür.

Qədim şəhərdən hazırda çox az abidə qalmışdır. Onlardan Vakx sütunları adlanan dörd sütun, mütəxəssislərin fikrincə və tapılan bəzi məlumatlara görə qədim yunan məbədinin qalıqlarıdır. Həmçinin Roma tetrapili (dörd dayaqlı tağ) də tarixi abidələrdəndir. Onu tarixdə romalı məşhur çar inşa etdirmişdir (193-211-ci illər).

Laziqiyyənin ətraf rayonları isə qədim dövrlərin maddi - mədəniyyət nümunələri ilə zəngindir. 13 km aralıda yerləşən Uqarit şəhəri xett dövrünün yadigarıdır.

Şəhərdən qərb hissədə yerləşən qala isəXIV əsrin yadigarıdır. İçərisində çar üçün saray tikilmişdir. Həmçinin digər müdafiə xarakterli binalar da vardır.

Laziqiyyədən 30 km aralıda, Xafə kəndi yaxınlığında Saxyun qəsrinin qalıqları durur. Qədim dövrlərdə ondan finikiyalılar istifadə edərmiş. Orta əsrlərdə səlibçilərin əlində olub, XII əsrdə Səlahəddin tərəfindən istila edilmişdir.

# MƏLULƏ

O, Dəməşq-Hama yolundan bir qədər aralıda,Suriya paytaxtından 60 km məsafədə salınıb. İlk baxışda qayaların nəhəng görkəmi və kəndin özünün qeyri-adi mənzərəsi diqqəti cəlb edir. Məlulə yamac boyunca amfiteatr kimi tikilmişdir. Kəndarası yol və keçidlər demək olar ki, kənardan görünmür. Evlərin bəzisi elə qaya çuxurlarından, mağaralardan düzəldilmişdir.

Məlulədə müqəddəs Tekliya monastırı yerləşir. Bir rəvayətə görə o, müqəddəs Pavelin tələbəsi olmuşdur. Bütpərəst atasının və tərəfdarlarının təqibindən qaçaraq dağa üz qoyur. Lakin qayalıqlar yolunu kəsir. Tekliya vəziyyətin çıxılmazlığını görüb əllərini göyə qaldırır və allahdan kömək diləyir. Birdən-birə qaya yarılır və qıza yol açılır. Tekliya xilas olur və sonradan həmin yerdə monastır tikdirir. Bu monastır dünyada ən qədim xristian mərkəzidir.

Məlulədəki monastırın otaqlarının birində Tekliyanın qəbri yerləşir. Yaxınlıqdan isə qayanın üzü ilə bulaq suyu süzülüb axır. Xristianlar həmin suyun insanlara xoşbəxtlik və səadət verəcəyinə inanırlar.Yerli sakinlər Tekliyanı müqəddəs sayır, onu kəndlərinin himayəçisi hesab edirlər və monastıra, qəbrinə ziyarətə gəlirlər. Tekliya monastırından əlavə 1622 m yüksəklikdə daha bir xristianlıq ocağı - Bizans dövründə tikilmiş müqəddəs Sergiya monastırı vardır.







*Məlulə*

Məlulənin aşağı hissəsində yerli sakinlərin "kraliça hamamı" adlandırdığı Roma məbədinin qalıqları durur. Onun haqqında yaranmış rəvayətdə deyilir ki, bütpərəstlər ora toplaşar və səfehlik edərmişlər. Müqəddəslərdən biri gəlib onları doğru yola çağırır, xeyirli işlərlə məşğul olmağı tövsiyə edir. Amma onlar həmin adamın məsləhətinə qulas asmırlar, Allah onları qırıb qurtarır. Sonralar xristianlar həmin yerdə kilsə tikirlər.

Maraqlıdır ki, Məlulə əhalisi ərami dilində danışır. Məlumdur ki, o, qədim sami dillərindən olub, eramızdan əvvəl bütün Ön Asiyanın rəsmi dövlət dili kimi fəaliyyət göstərmişdir. İncil - Tövrat məhz bu dildə yazılmışdır. Eramızın başlanğıcında demək olar ki, bütün Fələstində geniş yayılmış, hazırda isə o, yalnız Məlulədə və digər iki dağ kəndində əhalinin danışıq dili kimi qalmaqdadır.

# XOMS

Suriyanın ən böyük şəhərlərindən olan Xoms geniş vadidə, yolların kəsişdiyi nöqtədə yerləşib. Şəhərin ərazisi dəniz səviyyəsindən 500 m-dək yüksəklikdədir.

Tarixi mənbələr göstərir ki, Xoms yerləşən ərazidə lap qədim dövrlərdə yaşayış məskəni olub. Qismən adına ilk dəfə olaraq eramızın əvvəllərində Roma sənədlərində rast gəlinir. Şəhər romalıların ifadəsincə Eliz adlanıb. Onu ən çox tanıtdıran Günəş məbədinin rahibi xomslu Eleqabal adlı birisi olub. Sonra isə həmin yerdə imperator elan edilmişdir (216-cı il).



*Xoms – Xalid bel Valid məscidi*

Hökmdarın öz vətəninə verdiyi töhfələr və yaratdığı yaxşı şərait Xomsun çiçəklənib inkişaf etməsinə təkan verir. Sonralar onun adına tarix səhifələrində rast gəlinir. O, bəzi tarixçilər tərəfindən məşhur Karakallanın oğlu kimi qəbul olunur. Elizdə yerləşən region onu 14 yaşında ikən imperator elan etsə də, nestorianlıların tərəfindən öldürülüb, cəsədi Tibrə atılmışdır. Tarixi mənbələr göstərir ki, Günəş ilahəsinin rəmzi sayılan qara daş Eleqabalın sağlığında Elizdən-Xomsdan aparılır və Roma ilahəsi Vestanın odunun yanına qoyulur. Amma ölümündən sonra yenidən Elizə gətirilir.

636-cı ildə ərəb orduları Suriya ilə birlikdə Xomsu da fəth edirlər. O vaxtdan şəhər əhalisi arasında müsəlmanlar çoxluq təşkil edir. Həm də Xoms inzibati rayonun mərkəzinə çevrilir. Monqol hücumu nəticəsində zəifləyir və uzun müddət Hama və Dəməşqdən asılı vəziyyətə düşür.

Şəhərin ən maraqlı abidəsi Came əl-kəbir adlanan məscid binasıdır. O,





qədim dövrdə mövcud olmuş kilsənin yerində inşa edilmişdir. Həmçinin qayalıq təpə üzərində yerləşən şəhər qalası da diqqətəlayiqdir. Bütün Xoms əhalisinin fəxrlə qeyd etdiyi tarixi yerlərdən biri də Xalid İbn Validin (o, böyük islam sərkərdəsi olmuşdur.) Came əl-Kəbirdə (Böyük məsciddə) yaradılan məqbərəsidir.

Xoms bəndi də bir tarixi abidə kimi diqqət tələb edir. O, Oront çayı üzərində salınıb və Xoms gölünü yaradıb. Yunan tarixçisi Strabon onun misirlilər, ərəb tarixçisi Əbülfəzl Makedoniyalı İskəndər tərəfindən salındığını göstərir. Talmudda bənd haqqında məlumat verilir. Bənd isti fəsillər üçün su ehtiyatı yığır, Xomsa və ətraf ərazilərə kanallar vasitəsilə su paylayır.

## RASAFƏ

Suriya səhrasında yerləşən dağılmış şəhərlərdən biri də Rasafədir. Onun haqqında qədim mənbələrdə, o cümlədən İncil-Tövratda məlumat verilir. Xristianlıq yayıldığı zaman şəhər müqəddəs Sergiyin şərəfinə Sergiyepolis adlanır. Tarixi mənbələr Sergiyin eramızın 305-ci ilində imperator Dionletan tərəfindən bu şəhərdə zindana salındığını xəbər verir. Şəhərdə onun adını daşıyan kilsə olmuşdur. O mərkəzi və iki yan neflərdən ibarət imiş. Yaranması VI əsrə aid edilir. Bu zaman Sergiy artıq müqəddəslər silkinə mənsub edilmişdi. Sergiy kilsəsindən qərb tərəfdə Hitamın sarayının qalıqları durur. O, Əməvilər sülaləsi devrildikdən sonra yandırılıb dağıdılmışdır. Rasafənin taleyi də kədərlə doludur. Bizans hakimiyyəti illərində müqəddəs Sergiyin məbədinə



*Rəsafə*

ziyarətə gələnlər sayəsində şəhər bir qədər dirçəlir. Sonra Bizans imperatopu Anastasi (491-918-ci illər) şəhərin adını dəyişdirib, öz adını qoyur. Rəsafə - Sergiopolis bir müddət Anastasiopolis adlanır. Şəhər abadlaşdırılır, su təchizatı anbarı, istehkamlar, yollar tikilir. Anastasi şəhərdə kilsə inşa etdirir. V əsrdə İran hökmdarı Xosrov Ənuşirəvan Rasafəni mühasirəyə alsa da məğlub edə bilmir. Amma 616-cı ildə digər İran hökmdarı II Xosrov Rasafəni istila edir, zəngin qənimət ələ keçirir. Ərəblər Suriyanı tutduqdan və paytaxtı Dəməşqə köçürdükdən sonra hakimiyyətə gələn Əməvilər sülaləsinin nümayəndəsi xəlifə Hişam (724-743-cı illər) şəhərin müdafiə hasarını təmir etdirir, su təchizatını sahmana saldırır. Rasafə xəlifənin o qədər xoşuna gəlir ki, burda özünə yeni iqamətgah da tikdirir. Rasafənin əksər binaları ağ rəngli, könül oxşayan rəngli daşlardan inşa edilibmiş. Şəhərin müdafiə hasarı plan etibarilə dördbucaqlı şəklində olub, dörd darvazaya malik imiş. Hasarın qalınlığı 3 m çatarmış. Hasardan kənarda dərin müdafiə xəndəkləri olub. Abbasilərin hakimiyyəti zamanı (VIII əsrin sonu) Rasafə talana və güclü dağıntıya məruz qalır, hakimlər şəhərin sağ qalmış əhalisini Hama və ətraf rayonlarına köçməyə məcbur edirlər. Abbasi rəhbərliyi əsas siyasi rəqiblərindən olan Əməvi nəslinin nümayəndəsi xəlifə Hişamın məqbərəsini də dağıtdırır.

## HAMA

Hama şəhərinin tarixi çox qədim olduğu üçün dəqiq müəyyən edilməyib. Yaxınlıqdakı təpədə aparılan qazıntılar hələ neolit dövründə bu torpaqda insan yaşadığını göstərir. Bir sıra əşyalar b.e.əvvəl V əsrdə yaşayış məskəni olduğuna aydın dəlalət edir. II minilliyin əvvəlində baş vermiş inkişaf, bədəvi qəbilələr, qiksoslar tərəfindən bir müddətə ləngidilmişdir. Sonradan Hama Şimali Mesopotamiyanın Mitaniya çarlığının tərkibinə daxil olur (b.e.ə.1500-ci illər) və yenidən dirçəlir. Amma o, yenidən tənəzzülə uğrayır.

B.e.əvvəl Hama ərami tayfaları tərəfindən istila edilir. Onların hakimiyyəti 200 il çəkib. Sonra o, ətrafı ilə birlikdə Suriya - xett krallığının paytaxtına çevrilir. Şəhər üçün möhkəm qala inşa olunur. B.e.ə. 720-ci ildə güclü Assuri dövlətinin orduları başda çar Sarqon olmaqla şəhəri alır və darmadağın edir.

Hamanın yeni dirçəliş dövrü Sələvki sülaləsindən olan IV Epifanın hakimiyyəti zamanı başlayır. Çarın şərəfinə şəhər Epifaniya adlandırılır. B.e.ə. 64-cü ildə roma qoşunları Hamanı tutur. Bir müddət Roma imperiyasının tərkibində qaldıqdan sonra Hama Şərqi Romaya - Bizans imperatorluğuna tabe etdirilir.







*Hama*

650-ci ildə Ərəb - islam orduları Hamanı fəth edirlər. O vaxtdan o, müsəlman şəhərinə çevrilir. Səlib yürüşləri zamanı Hama ciddi dağıntıya məruz qalmayıb. 1157-ci ildə zəlzələ şəhərə ciddi ziyan vurmuşdur. Sonra o, bütün ölkə ilə birlikdə müxtəlif sülalələrin, dövlətlərin tərkibində olub. Osmanlı hakimiyyəti dövründə Hama inzibati bölgünün - paşalığın mərkəzi idi.

Şəhərin ən görkəmli abidəsi Azam sarayı sayılır. O, Suriya ərazisində bu adla tikilən ən gözəl binalardan biridir. Təpəlikdəki qədim qalanın müəyyən hissələri aşkar edilmişdir. Həmçinin qədim abidələrdən Qubbat əl-Hasaneyn məscidini də göstərmək olar.

## MƏMLUKLAR MEMARLIQ MƏKTƏBİ

Bu sənət məktəbi məmlukların Misir və Suriyada hakimiyyətdə olduqları dövrdə (1250-1517 -ci illər) yaradılıb formalaşmışdır. O dövrü adətən iki yerə bölürlər. I -Türk mənşədən olan məmlukların hakimiyyəti (1250 - 1390-ci illər), II - Qafqaz mənşədən olan (əsasən çərkəz) məmlukların hakimiyyəti (1382-1518-ci illər). Məmluklar əvvəlcə Səlib yürüşlərinə qarşı istifadə edilən muzdlu əsgərlər idilər. Onların əksəriyyətini

yerli hakimlər bazarlardan qul kimi pulla alır, əsgər böyüdürdülər. Sonradan sayları çoxalmış, qüvvələri artmışdı.

Tarixi mənbələr məmluklar dövrünü Misir incəsənətinin "qızıl dövrü" adlandırıb. Bu inkişaf Suriyada da özünü göstərmişdir. Siyasi həyatda baş vermiş qarmaqarışıqlıq Qahirədə misilsiz memarlıq ansambllarının yaradılmasına mane olmamışdı. Təsadüfi deyildir ki, bu dövrü çox zaman islam memarlığında yeni səhifə hesab ediblər.

Türk məmlüklarının (onlara ərəbcə "əl -mamalik - əl bəhriyyə" yəni - "dəniz məmlukları" deyirlər) yaratdıqları abidələrinin bir neçəsini göstərmək olar: Zahir Baybars Camesi, Naser Məhəmməd Camesi və Mədrəsəsi, Sultan Həsən Mədrəsə və Camesi.

Çərkəc məmlukları (ərəbcə "əl-mamalik - əl - burciyyə" adlanırlar) isə bu böyük abidələri yaradıblar: Qansuva quri mədrəsəsi, Zahir Bərquq mədrəsəsi. Tarixçilər bu məmluk sultanlarından Qayıtbayın adını çox çəkirlər. Məhz onun dövründə daha çox memarlıq işləri görülmüşdür. İmam Şafi mavzoleyi onun tərəfindən inşa etdirilmiş və məmluk məktəbində ən kamil əsərlərindən sayılır. Bunlardan başqa məmluklar bir neçə mərtəbədən ibarət saraylar inşa etdirmişlər, çaylar üzərində körpülər saldırıblar, həmçinin çoxlu hərbi obyektlər tikdiriblər.

Məmluk sənətinin özünəməxsusluğunu mütəxəssislər dönə-dönə qeyd etmişlər. Alimlər göstərirlər ki, mənşəcə türk olan məmluklar Misirə və xüsusilə Qahirəyə türk ənənələri gətirdilər. Onların təsiri sənətdə aydın görünürdü. Zaman keçdikcə isə həmin ənənələr yerli, əvvəlcə mövcud olan fatimilər sənətkarlığı ilə qaynayıb qarışmışdır. Məmluklar sənət üslubu bu sintezdən yaranmışdır.

Həmçinin göstərilir ki, bundan əvvəl Əyyubilər dövründə Misirdə mədrəsələr eyvanlı tikilərdi və mavzoleylərin qübbələri olardı. Məmlukların hakimiyyəti zamanında bu üslubdan faydalandılar. Məscidlər kompleks şəklində, yeni mədrəsə və mavzoleylərlə birlikdə inşa olunmağa başladı. Deməк olar ki, ayrıca məscid binası tikilmirdi. Onların planında da yeniliklər meydana çıxmışdı. Məmluklar dövründə məscidlərin əsasən dörd eyvanı olurdu. Başlıca giriş qapısı həyətə açılarmış və o, dəhlizlər vasitəsilə küçə ilə bağlanarmış. Tələbə və müdərrislərin hücrələrinin (otaqlarının) başqa binadan qapısı olarmış. Onların da mədrəsə və mavzoleylərdən ibarət vahid kompleksi olmuşdur.

Məmlukların dövründə Suriya memarlığı ilə Misir memarlığında daha çox oxşarlıq meydana gəlmişdir. Vahid məmluk məktəbi çox hallarda ümumilik yaratmışdır. Bu məscid və mavzoleylər arasındakı fərqləri tam aradan qaldırmışdı.

Həmin dövrdə qübbələr dəbilqə formasında inşa edilirdi. Özülü isə ya çoxbucaqlı, ya da dairə şəklində olurdu. Bu üslub özünün ən parlaq ifadəsini səhvən "xəlifə qəbiristanlığı" adlandırılmış, əslində isə məmluklar dəfn





olunan qəbiristanlıqda göstərmişdi. O yer, Qahirənin şərq hissəsindəki səhra zonasındadır və dünyada ən əzəmətli "ölülər şəhəri" sayılır. Suriyada isə qarışıq formalı qübbələr geniş yayılmışdır.

Tarixçilər məmluk hakimlərinin məscid binalarına xüsusi qayğı göstərdiklərini qeyd edirlər. Bu ənənə Fatimilər dövründən başlanmışdır. Məhz o zamandan etibarən məscidlərdə ornamentli daş örtüklərdən istifadə olunurdu. Başqa bir yenilik üfüqi formada müxtəlif rəngli daşlardan istifadə edilməklə zolaq - zolaq effekt yaratmaq idi. Həmin üfüqi zolaqların müvazinətini saxlamaq və bədii estetik təsirini gücləndirmək üçün təqribən binanın bütün divarını əhatə edən vertikal istiqamətdə oyuqlar tərtibatı vurulurdu. Sonra orda nəfəsliklər inşa edilirdi. O yuxarıda kornizə qədər qalxırdı. Ətrafında isə diş-diş formalı balkoncuqlar olardı. Belə oyuqlar işıq və kölgə zamanı əsas rol oynayırdılar, səthin müxtəlif rənglərlə əks edilməsinə kömək göstərirdilər, binanın hündür və əzəmətli olması təsirini yaradırdılar. Fasadın üstünü həmçinin, Quran ayələri və başqa yazılar bəzəyirdi. Nəticədə həm fasadın, həm də binanın təsir qüvvəsi artır, vahid bir ideyaya xidmət edən ansambl fikri yaranırdı.

Bu dövrdə o, gibsdən, nə də ağacdan düzəldilməzdi. Halbuki fatimilər dövründə məhz bu cür hərəkət edərdilər. Məmluklar onu mərmərdən yaradırdılar. Nəticədə mehrabın funksiyası daha da qüvvətlənir və o, binanın ümumi ahənginə daha çox uyuşurdu. Məscidlərin məmluk məktəbinin təsiri altında yaradılan daxili tərtibatında mərmər, mehrab, əlavə olunmuş yeni ornamentlərlə üzvi əlaqə və bütövlük yaradırdı. Rəngli mərmər həm də təkcə dini abidələrin bəzədilməsində yox, inzibati binaların tərtibatında da geniş istifadə olunarmış.

Bəzi alimlər bu fikirdədir ki, məmluk sənət məktəbi öz daxilində əvvəlki üç məktəbin təsirini daşıyarmış. Onda yerli Fatimilər ənənələrindən daha çox Əyyubilər və xüsusilə Səlcuqilər sənətinin təsiri duyularmış. Sənət mütəxəssisləri həmçinin, bu dövrdə ağac emalının yüksək inkişaf etdiyini göstərirlər. Onlardan məscid və mədrəsələrin daxili tərtibatında, mülki binalarda çox geniş istifadə edirdilər.

Həmçinin bu da qeyd edilməlidir ki, məmluklar dövründə Misir və Suriyada kitab tərtibatı yüksək səviyyəyə çatmışdır. Həmin sahədə əsas irəliləyiş bundan ibarət idi ki, kitablar cildlənərkən daha çox dəridən istifadə olunurdu. Bundan əlavə kitabın tərtibatında nəbatət rəsmləri göz oxşayırdı, onlar rəngarəng və yüksək zövqlə işlənərdilər. Həmçinin həndəsi rəsmlər də tərtib edilərdi.

Məmluklar sənət məktəbi, bir də metal emalı və şüşə istehsalı ilə məşhur olmuşdur. Hətta şüşə istehsalını məmlukların fəxri sayanlar da vardır.

Miniatürlər isə yüksək səviyyədə olsalar belə İran, monqol və yerli ərəb təsirlərindən yaxa qurtara bilməmişlər.

# SURİYANIN DİGƏR TANINMIŞ ABİDƏLƏRİ

Suriya torpağında yerləşən qədim abidələrdən biri də Rakka şəhərinin qalıqlarıdır. Bir sıra məlumatlar onun Makedoniyalı İskəndər tərəfindən inşa edildiyini söyləyir. Ərəb xilafəti dövründə o, məşhur Abbasi xəlifəsi "Min bir gecə" nağıllarının qəhrəmanı Harun ər-Rəşidin yay iqamətgahlarından biri olmuşdur.



*Suriya – Səman qalası*

Yunanlar onu Ninefrion, romalılar isə bu şəhərdə ölmüş, məşhur Sofistin- Kallinikosun şərəfinə eyni cür adlandırmışlar. Bizans və Sasani İranı arasında gedən müharibələrdə şəhər dəfələrlə mühasirə və dağıntılara məruz qalmışdır. Sasani hökmdarı I Xosrov bura məşhur ərəb qəbiləsi Mudarı köçürüb yerləşdirmişdir. 772-ci ildə şəhər abadlaşdırılır. Xəlifə Harun ər- Rəşid sonradan burada məşhur Qasır əs-Sələm adlı saray tikdirir. Şəhər ərəbcə "Ər - rəfiqə" adlandırılır. Xəlifə Rəşidin oğlu da atası kimi daha bir iqamətgah inşa etdirir. XIII əsrdə monqol hücumu nəticəsində





şəhər darmadağın edilir. O vaxtdan bəri o yenidən tərəqqi edə bilməmişdir. Xarabalıqlar əsasən Fəratdan 1 km məsafədədir. Kərpic hasar bir neçə bürc, şəhər darvazası - Bəb Bağdad - saray və məscid binalarının qalıqları durur.

Hələb qalası qayalıq təpədə tikilib. Arxeoloji qazıntılar zamanı məlum olmuşdur ki, b.e.ə. I minillikdə bu təpədə insan yaşamışdır. Həmçinin Suriya- xett mədəniyyəti nümunəsi sayılan Akropol müəyyən edilmişdir. Ellinizmin güclü təsirə malik olduğu əsrlərdə qalada yerli allah Hədadın məbədi var imiş.

İslam - ərəb dövründə Əl-Qazi qalanı özünə iqamətgah edir. 1260-cı ildə monqollar qalanı tutur və dağıdırlar. 1292-ci ildə onu yenidən bərpa edirlər. Qala təzədən əmirlərin iqamətgahı olur. Teymurləng hücumla qalanı alır və müəyyən qədər dağıdır. Sonradan uçmuş yerlər düzəldilir və həm hökmdarların iqamətgahına, həm də nizami ordu saxlanılan yerə çevrilir.

Bizə gəlib çatmış qala divarları XIX əsrdə bərpa edilmişdir. O, orta əsrlərin hərbi tikilisinin ən tipik nümunələrindən biridir. XII əsrin sonunda Zahir Qazi divarın dibini iri, 48 dərəcə bucaq altında qoyulan iri qaya parçaları ilə möhkəmlədir ki, lağım atmaq mümkün olmasın. Giriş üzərindən irəli çıxan tikili isə körpünü qorumaq üçün inşa edilibmiş. Birinci qapı yandadır. O, körpü ilə üzbəüz tikilməmişdir. Qapının belə qoyulması onu birbaşa talanmaqdan qoruyurmuş. Körpüdən keçdikdən sonra beş dəfə dönmək və üç qapıdan keçmək lazım idi. Birinci darvaza üzərində üç əjdaha heykəli, ikinci darvaza üzərində iki döyüşən şir heykəli və üçüncü darvaza üzərində iki yarımçıq şir heykəli dururdu. Onlar qalanın içindəkilərə yüksək mənəvi - ruhi təsir aşılayırdı.

Üçüncü darvazadan sonra üstüörtülü keçid vardı. Orda yaşayış və mühafizə otaqları yerləşirdi. Qalanın daxilində yeraltı zalda su anbarı və məhbəs inşa edilmişdi. Daş pilləkan qayada yonulmuş kiçik bir otağa aparırdı. Qalada həmçinin 1167-ci ildə Nurəddin tərəfindən tikilmiş "İbrahim məscidi" deyilən məscid də vardır. Ondan əlavə, 1214-cü ildə əmir Zahir Qazi tərəfindən tikdirilmiş böyük məscid binası da görünürdü. Həmçinin xett məbədinin qalıqları da dururmuş. Böyük məscidin 21 m hündürlüyündə olan minarəsi həm də nəzarət punktu rolunu oynayırmış. 1834-cü ildə qalada İbrahim paşa tərəfindən qazarma inşa etdirilmişdir. Qalanın ən maraqlı yerlərindən birinə - su quyusuna 225 pilləkanı olan daş nərdivanla enmək olar. Qədimdən qalmış hamam, böyük tac zalı, Xosroviyyə məscidi, saray və s. digər tikililərin bəzisinin pis, bəzisinin yaxşı qalmış qalıqları da diqqətə layiqdir.

Suriyanın xristianlıq dövrünü təmsil edən ən məşhur abidələrdən biri Hələb - Antioxiya yolunun üstündəki "Qalat - Səman" (Səman qalası) adlı dini mərkəzdir. Bu abidə tarixə Səman Stilit adı ilə daxil olmuş xristianlığın

"müqəddəslər"indən sayılan bir zahidin adı ilə bağlıdır. 390-cı ildə anadan olan Səman monastırda 27 il tək - tənha ömür edib. Ona qulaq asmağa, moizələrini dinləməyə gələnlərdə özü haqqında peyğəmbərlik təsiri yaradarmış. 459-cu ildə vəfat etdiyi zaman cənazəsi monastırın sütunları arasında dəfn edilir, sonra isə Antioxiyaya köçürülür və Konstantin kilsəsində basdırılır. Amma xristianlar öz müqəddəslərinin ziyarətinə monastıra gəlirdilər. Sonradan dindarlar monastırı təmir edirlər, qülləli müdafiə hasarı tikirlər, bir sıra binalar yaradırlar. V əsrdə tikilmiş Bazilika Suriya memarlığının görkəmli nümunəsi hesab edilir. Onu ən yaxşı xristian abidəsi sayırlar. Bazilika üç kilsədən ibarətdir. Mərkəzdə səkkizbucaqlı bina yerləşir. Bazilikanın üç nefi və xaçı var. Bu tikilinin mərkəzi Səmanın yaşadığı hücrə qəbul edilmişdir.

Dura Yevropes Hələbdən bir qədər aralıdadır. Bəzi məlumatlar şəhərin Sələvkilər sülaləsi dövründə salındığını göstərirlər (b.e.ə. III əsr). "Dur" sözünün mənası qala deməkdir. Yevropes isə şəhərin öz adı olmuşdur. O, ətraf ərazilərlə birlikdə uzun müddət Arnasidlərin hakimiyyətinə tabe olmuşdur. B.e.ə. 64-cü ildən etibarən Suriya Roma tərəfindən istila edilərkən belə şəhər bir qədər müstəqilliyini saxlayır. Roma və İran arasında bufer rolunu oynayır. II əsrdə Palmira ordusu şəhəri tutur. 116-cı ildə Troyanın Ktesifon üzərinə hücumu zamanı Roma legionerləri şəhərdə yerləşdirilibmiş.

116-cı ildə zəlzələ şəhəri dağıdır. Sonra Romanın və Palmiranın köməyilə şəhər dirçəlir. 272-ci ildə Avrelian onu yenidən dağıdır. 363-cü ildə Yulianın Ktesinofon üzərinə yürüşü zamanı şəhər elə vəziyyətə düşmüşdü ki, "onun yalnız bəzi detalları nə vaxtsa çiçəkləndiyinə dəlalət edirdi".

Şəhərin ümumi sahəsi 73 h imiş. Şəhər qalasının bir hissəsinin Fəratın suları yuyub aparıb. Aşağı port və anbarlar yerləşən hissədən indi heç nə qalmayıb. Sol sahildə, tərəqqi illərində suvarma kanalları, bərəkətli bağ-bostan olub. Onların izi indi də qalır.

Şəhər planlı surətdə salınıbmış. Küçələr paralel və perpendikulyar olduğundan yaşayış məhəllələri dördbucaqlı şəklində imiş. Evlər kərpicdən, qapı - pəncərə isə ağacdan olub. Əksəriyyəti birmərtəbəli, zirzəmili imiş. Şəhərin girəcəyində qüllə və məbədin qalıqları indi də durur. Dörd sütunda aşkar edilmiş təsvirlərin ən qədimi I əsrə, qalanları II və III əsrlərə aid olunur.

Məbədin yaxınlığında Mitra ilahəsinin şərəfinə Mitraum adlı dini ocaq yaradılıbmış. Məlumatlar göstərir ki, 209-211-ci illərdə Senptimin legionerləri Mitraumun dağıdılmış yerlərini təmir ediblər.







*Lataniya*

Qərb hissədə Palmira darvazası olub. Şəhərin mərkəzi küçəsi bu darvazalardan başlanarmış. Şəhərin qalası şimal tərəfdə qayalıq yerdə imiş. Onun salamat qalmış hissəsi əzəmətli təsir yaradır. Uzunluğu 288 m olan

qərb hasarı hər biri 28 m olan üç qüllə ilə tamamlanarmış. Şəhərdə həmçinin, digər məbədlərin və s. tikililərin qalıqları durur. Əhalisinin etnik tərkibi mürəkkəb olub- əramilər, yəhudilər, yunanlar, farslar və s. xalqların nymayəndələri yaşayarmış.

Mirqab səlib yürüşlərinə başçılıq edənlərdən biri - Rocerin- əlinə keçdikdən sonra, səlibçilərin əsas dayaq nöqtələrindən birinə çevrilir. Sonralar, 1186-cı ildən başlayaraq, o, müqəddəs İoann ordeninin əsas dayaq nöqtələrindən biri olur. Cəngavərlər qalanı daha da möhkəmləndirirlər və genişləndirirlər. Uzun müddətli vuruş aparmaq üçün yararlı edirlər. Qalanın içərisində tikililərin sayı çoxaldılır. Mühasirə zamanı o, düşmənlərə qarşı davamlı edilir. Bir neçə içməli suyu olan dərin quyu qazılır. Bundan əlavə yağış sularını toplayan xüsusi qurğu tikilir. O su, çınqıl, qum və kömürdən düzəldilmiş xüsusi süzgəcdən keçirilir və yeraltı anbarlarda saxlanırdı.

Qalanın təbii şəraiti də mühasirəyə davamlı olmaq üçün yaxşıdır. Onun qərb və şimal hissələri kəskin disklə əhatə edilib, şərq tərəfində isə dərin dərə vardır. Yalnız cənub hissəsi hərəkət üçün yararlıdır. Qalanın bu hissəsinin divarları xüsusilə möhkəmdir. Beləliklə Mərqab-qalası həqiqətən alınmaz qaladır.

Səlibçilər onu dayaq nöqtəsi seçərək, şərqi ərazilərə hərbi yürüşlər ediblər. Əks hücumlar zamanı ərəb orduları onu bir neçə dəfə mühasirəyə salsa da ala bilməyib. Bəzi məlumatlarda məşhur sərkərdə, səlibçiləri məğlub etmiş Səlahəddinin də onu tuta bilməməsi söylənilir.

O, müsəlmanlar tərəfindən 1285-ci ildə fəth edilir. Həmin hadisə haqqında maraqlı bır rəvayət var: Sultan Kalyaun ətraf paşaları toplayıb güclü qoşunla qalanın üzərinə yeriyir. Öz çadırını qaladan bir az aralı Nsariyə dağının ətəyində qurdurur.

Kalyaunun qoşunu bir neçə dəfə Mərqabı mühasirə etsə də ala bilmir. Qara bazaltdan tikilmiş qalın divarlar qoşunun bütün həmlələrinə davam gətirir. Nəhayət, növbəti hücumdan sonra, məyus olmuş sərkərdə çadırının yanında yandırdığı tonqalın ətrafında oturubmuş. Əlində tutduğu bazalt parçasını hirslə oda ataraq deyir: "O, allah, lənətə gəlmiş daşa heç nə kar etmir". Bundan sonra Kalyaun bir müddət də tonqalın yanında oturub fikirləşir. Daş parçası isə odda qızdığından parçalanır. O, bunu gördükdə sevinir və sərkərdələrini başına toplayıb yeni plan qurur. Cənub tərəfdən qoşun divar altına dağım atır və böyük tonqal qalayır. Eyni zamanda divarlara yanan qətran dağıdılır. Bazalt divar o qədər qızdırılır ki, dözməyib partlayır. Yaranmış uçuqdan Kalyaunun döyüşçüləri hücumla qalaya daxil olur. vəziyyəti belə görən səlibçilər aman istəyirlər. Kalyaun qala qapılarının bürcündə dayanıb qaladan çıxan əsir səlibçilərə tamaşa edərmiş.





Qaladan dəniz sahilinə və gözətçi bürcünə doğru yeraltı yol çəkilibmiş. Hazırda həmin yolun bir hissəsi yararlıdır. Bundan əlavə qalanın içərisində müxtəlif detallar: qədim kilsə divarlarına çəkilmiş freskalar, müxtəlif məqsədlər üçün tikilmiş binalar diqqəti cəlb edir. Kalyaun uçurtduğu divarın yerində bürcü olan qara bazaltdan yeni hasar çəkdirir.

Suriyada müxtəlif dövrlərdə olmuş xalqlar: amoritlər, xettlər, qədim misirlilər, babillilər, assurilər, xaldeylər, finikiyalılar, əramilər, farslar, qədim yunanlar, qədim romalılar, parfiyalılar, bizanslılar, Qərbi Avropa səlibçiləri, monqollar türklər yaşayıblar.

VIII əsrin əvvəllərində ərəblər Suriyaya gəliblər.

# İORDANİYA
# CƏRƏŞ

Bu yaxınlaradək İordaniya paytaxtının yaxınlığında yerləşən qədim bir şəhərin -Cərəşin adı BMT-nin nəzdində müəyyən olunmuş dünya mədəni irsini əks etdirən siyahıya düşməmişdi. Halbuki, minlərlə iordanlı və xarici turist həmin şəhərin antik dövr mədəniyyət abidələrini ziyarət etmək üçün hər il oraya axışıb gedirlər. 80-cı illərin sonunda İordaniya hökuməti Cərəşin şöhrətini nəzərə alaraq BMT-nin mədəniyyət işləri üzrə xüsusi orqanından - Yuneskodan - Cərəşi dünya mədəniyyəti xəzinəsinə daxil etməyi xahiş etmişdi.



*Cərəş*

Cərəş həqiqətən İordaniya krallığının fəxr etməyə haqqı olan, tarixi kökləri ən qədim dövrlərlə bağlı bir abidədir. Təxminən b.e.ə. XI əsrdə Cərəş öz dövrünün məşhur şəhərinə çevrilib. Onun küçələri məğlubedilməz roma legionerlərini, ağıllı və bic bizanslıları, farsları, səlib yürüşləri iştirakçılarını görüb. Şəhərin ən məşhur və qədim abidələri iki min ildən əvvəl yarandığına baxmayaraq heç də pis qalmayıblar. Xüsusilə antik dövr ilahələrinin şərəfinə ucaldılmış Zevs və Artamida məbədləri, imperator Adrianın qurduğu təntənələr tağı öz kamilliyi ilə diqqəti cəlb edir. Həmçinin





hər iki tərəfində mərmər sütunlarla bəzədilmiş "təntənələr xiyabanı" öz möhtəşəmliyi ilə yaddaşlarda yaşayır.

Hal-hazırda Cərəşdə təmir-tədqiqat işləri müntəzəm şəkildə aparılır. İlk bərpa işləri 1988-ci ildə başa çatdırılmalı idi. Yalnız bundan sonra və İordaniya hökümətinin abidələri qorumaq üçün tam təminat verməsi nəticəsində, Cərəş BMT-nin siyahısına daxil edilə bilərdi. İordaniya həmçinin ətraf rayonların da abadlaşdırılması işini başa çatdırmalıdır. Bununla əlaqədar olaraq Cərəş şəhəri yaxınlığında nəqliyyatın hərəkəti qadağan edilmişdir, tikinti işləri də dayandırılmışdır.

Qəbul olunmuş plana əsasən hazırda 70 min adam yaşayan şəhərin yenidən qurulması da nəzərdə tutulur.

# ROMA SƏNƏTİ
# (MEMARLIĞI)

Roma sənəti Roma dövlətinin yaradılmasından süqutunadək uzun bir inkişaf yolu keçmişdir. Digər tərəfdən Roma sənətinə qədim romalıların dünyagörüşü dərin iz qoymuşdur. Siseronun yazdığı kimi ağıl, əxlaq, fəzilət, sədaqət və başqa ali xüsusiyyətlər təbiət hadisələri kimi, romalıların ibadət etdiyi məfhumlar idi. Onlara Romada məbədlər həsr edilibmiş. Amma qədim romalılar allahları təsvir etmirdilər.

B.e.ə. III əsrdə bütün İtaliya Romaya tabe etdirilir və ölkənin cənubundakı yunan şəhərləri Roma dövlətinə daxil olur. Bu dövrdən etibarən yunan mədəniyyəti və incəsənəti romalılar tərəfindən mənimsənilir. Ümumi inkişafın nəticəsi bu olur ki, romalılar inşaat işini bacarıqla həyata keçirirlər, yolların çəkilişində, körpülər və akveduklar tikintisində ustalaşırlar.

Tarixi mənbələr göstərir ki, Romanın məşhur sərkərdəsi Pompey Mitilendə olarkən yunan teatrını görmüş və o, sərkərdəyə böyük təsir bağışlamışdı. Pompey əmr etmişdi ki, teatrın planını götürsünlər və Romada ona bənzərini tiksinlər. Həqiqətən, məşhur romalı arzusunu həyata keçirir və tikdirdiyi teatr daha əzəmətli alınır.

Roma memarlığında işlədilən əsas materiallar tuf, qumdaşı, ahəngdaşı, ağac və palçıq olub. Sütunların bəzədilməsində mərmərdən istifadə edilərmiş. Respublika quruluşunun son dövrlərində "roma betonu" adlanan xüsusi palçıq hazırlanırmış. Onun tərkibinə cınqılla yanaşı əhəng palçığı və vulkandan çıxan qum daxil imiş.



*Amman*

B.e.ə. III - I əsrlərdə yunan təsirindən danışarkən belə bir tarixi fakt göstərilir ki, yunan şəhərlərindən maddi mədəniyyət nümunələri uzun müddət Romaya daşınılmışdır. Onların əksəriyyəti qənimət kimi xalqa nümayiş etdirilirdi. Bu da qeyd olunur ki, e.ə. II əsrdə bir romalı sərkərdə Romaya yunan vilayəti sayılan Makedoniyadan 230 araba heykəl, şəkil və s. aparıbmış. Siseron Afinadan olan bir dostuna bu barədə yazmışdı ki, yunan şəhərlərində göz oxşayan könül riqqətə gətirən nə varsa al göndər. Siseron yazırdı ki, evini bəzəmək üçün heç nəyi əsirgəyən deyil.

Romanın imperiya dövrü Roma sənətinin parlayıb çiçəklənmə mərhələsi hesab edilir. I-III əsrlərdə Roma dövlətində əla memarlıq nümunələri yaradılmışdır, tarixi relyef və fərdi portret ən yüksək səviyyəsinə çatmışdır. Roma memarlığı özünü amfiteatrlar, sirklər, körpülər, akveduklar şəklində büruzə verirdi. Dövlətin ucsuz - bucaqsız ərazilərində müxtəlif mənşədən olan millətlərin yaşadıqları ölkələrdə Roma memarlığının yayılması həm də dövlətin qüvvəsinə dəlalət edirdi.

Bu dövrdəki memarlıq ölkənin zəngin təbii sərvətlərindən bacarıqla istifadə edir, meydana gələn nümunələri bəzəyirdi. Ağ və rəngli mərmər, porfır, qranit və s. bunlara ən yaxşı nümunə idi. İmperiya quruluşunun ilkin dövrlərindəki Roma sənəti daha çox ciddi və rəsmi üslubda idi. Məhz o vaxtdan etibarən həm sütunlarda, həm də divarların, döşəmənin və karnizin bəzədilməsində mərmərdən istifadə olunur.





Həmin dövrün ən layiqli memarlıq nümunəsi kimi imperator Avqustun Forumu qeyd edilməlidir. O, hər tərəfdən nişa ilə genişləndirilmişdi. Hər iki tərəfdə sütunlar və heykəllər yüksələrmiş. İntiqamçı Marsın məbədi də burda imiş. Forumun özünün inşa edilməsində məqsəd işgüzar görüşlər keçirmək, sövdəgərlik etmək idi.

O dövrdəki ikinci məbəd isə "Sülh məbədi" adlanarmış. Avqustun şərəfinə inşa edilmiş bu məbəd yüksək bir meydançada yerləşirdi. Məbədi əhatə edən divarın çöl hissəsi üzərində təntənə həkk edilmiş barelyeflə düzəldilmişdi. Barelyefdə təsvir edilən hadisələrdə imperator və yaxın adamları addımlayırdı. Barelyefin aşağı hissəsində isə müxtəlif bitkilər təsvir olunurdu.

Roma imperatorlarının öz şərəfinə inşa etdirdikləri abidələr onlara həqiqətən şöhrət gətirirdi. Tarixdə qəzəbi, əyyaşlığı və s. keyfiyyətləri ilə tanınan imperator Neron yaratdığı "Qızıl ev" adlı iqamətgahı ilə bütün hökmdarları arxada qoymuşdu. Evin giriş zalında Neronun özünün nəhəng heykəli ucalırdı. Girəcəyi üç sıra sütunla (300 m artıq) əhatə edilibmiş. Evin yaxınlığında göl yaradılıbmış və gölün ətrafındakı əlavə binalar şəhəri xatırladırmış. Daha sonra tarlalar başlanırdı, orada üzümlüklər salınmışdı. Onların yanında çəmənlər, meşələr varmış və çoxlu ev və vəhşi heyvanlar saxlanarmış. Bütün bunlardan başqa evin içindəki tərtibatda çoxlu qızıl və s. qiymətli daşlardan istifadə edilibmiş. Yemək otaqlarının tavanı fil dişi sümüyündən elə düzəldilmişdi ki, o, hərlənə bilirdi. Belə quruluşda məqsəd tavandan çiçək və ətir səpmək idi. Bunlardan başqa evin başqa xüsusiyyətləri də qeyd olunur.

Eramızın 86-cı ilində imperator Titin inşa etdirdiyi Zəfər darvazası Roma memarlığının bu sahədəki yaxşı nümunəsidir. O, romalıların iudeylər üzərindəki qələbəsi şərəfinə ucaldılmışdı. Darvazanın üstündə imperator oturan zəfər arabasının heykəli dururdu. Darvazanın yanlarında isə qələbə ilahəsi sayılan Viktoriyanın heykəlləri uçan şəkildə qoyulmuşdu. Relyefdə, həmçinin qalib imperatora Yerusəlimdə məğlub edilmiş xalqların və ölkələrin adları həkk edilmiş lövhəciklər təqdim edilməsi mərasimi də vardı. Bu darvazanın bir tağı olmuşdur. Üç tağlı Zəfər darvazasını Romada eranın 203-cü ilində Semptemi Sever adlı imperator inşa etdirib. Bu abidə isə parfiyalılar üzərində qələbəyə həsr edilmişdi.

Romada yerləşən ən böyük amfiteatr olmuş Kolizey çöl tərəfdən üç yaruslu sütunlar və tağlarla əhatə edilmişdir. Maraqlıdır ki, birinci yarusdakı sütunlar dori üslubunda, ikinci yarus ioniya üslubunda və üçüncü yarus isə korinf üslubunda yaradılmışdır.

O dövrün ən yaxşı memarı kimi Dəməşqli Apollodorun adı çəkilir. Bu

sənətkar ən böyük forum sayılan Trayan Forumunu yaratmışdı. Bundan əlavə eramızın II əsrində Romada inşa edilən Panteon da onun adı ilə bağlıdır. Panteon bütün Roma allahlarının toplandığı məbəd idi.

Eranın I-II əsrlərində nəhəng Roma imperiyasının hər yerində şəhər tikintisi sürətlə inkişaf edir. Yeni salınan əyalət şəhərləri çox zaman Roma qərargahının planı əsasında inşa etdirilirdi. Memarlıq baxımından bütün imperiyada vahid Roma üslubu hökm sürsə də, ayrı-ayrı ölkələrin sənət ənənələri bu və ya digər dərəcədə özünü biruzə verirdi. Məsələn, Fransada Nim adlı yerdə o dövrdən qalma Avqust məbədi deyilənlərə yaxşı misaldır. Oranc adlı yerdə isə romalıların qallar üzərində qələbəsinə həsr olunmuş zəfər tağı inşa edilmişdi. O yerin teatr binası yaxşı qalıb. Maraqlıdır ki, romalılar bu teatrı inşa edərkən yunan ənənələrinə sadiq qalıblar. Tamaşa salonu təpənin yamacında yerləşir və təbii amfiteatr rolunu oynayır.

Yuqoslaviyanın, Bolqariyanın, Rumıniyanın və qonşu ölkələrin ərazilərində müəyyən olunmuş məbədlərin qalıqları arasında çoxlu Roma ilahələrinin heykəlləri tapılmışdır. Yunanıstanda romalıların inşa etdirdikləri memarlıq və s. sənət abidələrində isə yunan sənət əlaqələrinin təzahürü çox güclüdür. Buna misal olaraq imperator Adrianın Afinada tikdirdiyi məbədi göstərmək olar. Onu mütəxəssislər Romu üslublu tağın yunan memarlıq ənənəlri əsasında yüksəldilməsi hesab ediblər.

İmperiyanın şərq (Asiya) əyalətlərində isə vəziyyət daha mürəkkəb idi. Bu əyalətlərin çoxu əvvəllər ellin sənətinin güclü təsirinə məruz qalmışdır. Odur ki, Roma sənəti bu ölkələrdə (Kiçik asiya, Suriya, Livan, Misir və s.) yayıldıqca yerli şərq ənənələri ilə yunan sənətinin qatışığına rast gəlirdi. Bununla belə Roma sənəti özünə yol açır və yerli şəraitə uyğunlaşırdı. Nəticədə həmin ölkələrin Roma tabeliyində olduğu dövrlərdə layiqli sənət abidələri yaradılırdı. Efes (Kiçik Asiya) adlı şəhərin mərkəzi küçəsində tikilmiş Roma üslublu ictimai binalar və məbədlər deyilənlərə ən yaxşı misaldır.

Perqamda (Kiçik asiya) imperator Troyanın şərəfinə yüksəldilmiş məbəd (Trayanium), Palmiranın (Suriya) mərkəzi küçəsini bəzəyən (küçənin uzunluğu 1100 m çatarmış) müxtəlif növ binalar əzəmətli Roma dövrünün abidələridir. Eranın I-III əsrlərində Roma dövlətinin tərkibində olan Livanda böyük abadlıq işləri aparılmışdır. Bəəlbəkdə bir sıra məbədlər və s. binalar görülən quruculuq işlərinin vüsətindən xəbər verir.

Şimali Afrikada da Roma tərəfindən böyük abadlıq işləri aparılmışdır. Hazırda Bimqad adlanan şəhər eramızın 100-cü ilində Roma qərargahı şəklində salınmışdı. Başqa bir şəhərdə - Leptis Maqnada eranın III əsrində yeni əzəmətli forum binası, teatr, zəfər tağı, bazilika və s. binalar inşa edilmişdi.







*Əriha*

Eramızın III -IV əsrlərində Romada inşaat işləri əvvəlki sürətlə davam etdirilirdi. Romalı memarların yaradıcılıq fantaziyası və cəsarəti, iri və yeni abidələrin yaradılması ilə nəticələnirdi. Roma şəhərində o dövrdə yenidən qurulan Diokletian ümumi hamamları, Magsensi baziliki, Konstantin tağı və s. abidələr Roma memarlığının ümumi tərəqqisindən xəbər verir.

Eranın V əsrində paytaxtın üstünü almış hərbi təhlükə şəhər ətrafında yeni müdafiə hasarının çəkilməsini tələb edirdi. Həm hasarın özü, həm də ona daxil edilmiş, piramida şəklində, əvvəllər mövcud olan Sesti məqbərəsi layiqli tarixi abidələrdəndir.

Müdafiə istehkamları başqa yerlərdə də tikilirdi. Trada nəhəng bürcləri olan qala qapısı o dövrün məhsuludur. Amma son Roma dövrünün ən görkəmli abidəsi Splitdə, 305-ci ildə inşa edilmiş Dioklektianın sarayı sayılır. Saray dəniz sahilində yerləşir və dörd hektar sahəni əhatə edir. Bu abidə Roma qəragahı formasında salınmışdır. Ətrafında hasar və bürclər vardır. Həm müdafiə hasarları, həm də mərkəzi meydan bu günki günümüzədək yaxşı qalmışdır. Meydanın ətrafı boyu yüksəldilən sütunların, sarayın fasadının giriş salonunda və s. binaların qalıqları tikintisi yüksək səviyyəsinə dəlalət edir.

Saray, mütəxəssislərin fikrincə aşağıdakı əsas binalardan ibarət idi: çox da iri olmayan Yupiter məbədi, üzərində qübbəsi olan səkkizgüşəli Diokletianın məbədi, hərbi və mülki qulluqçular üçün xüsusi binalar.

...Antik mədəniyyət bəşərə sonralar da xidmət etmişdir. Antik dövrün elmi, sənəti və ədəbiyyatı sonrakı dövrlərin inkişafına böyük təsir göstərib. Yaradılan körpülər, akveduklar orta əsrlərdə də insanların malı idi. Məişətdə də antik dövrün çoxlu mədəni ünsürləri yaşamışdır.

## AYA PETRA



Aya petra

XVIII əsrin sonlarında, XIX əsrin əvvəllərində Yaxın Şərqin öyrənilməsi bir sıra qədim abidələrin üzə çıxarılması ilə nəticələndi. Haqqında danışacağımız qədim Nabateya çarlığının paytaxtı Petranın qalıqlarının tapılması da bu tədqiqatlarla əlaqədardır.Bu xoşbəxt məsələ gənc İsveçrə səyyahı və şərqşünası İoqann Burkardta nəsib olub. O, 1812-ci ildə Petranın xarabalıqlarını kəşf edib.

İoqann Suriya ərazisini gəzərkən yerli əhalidən Vadi-Musada (yəni Musa vadisi) saysız-hesabsız abidələrin, çoxlu sərvətin saxlanıldığını eşidibmiş. Rəvayətə görə Musa peyğəmbər Misirdən qayıdan həmvətənlilərinin-iudeylərin-köçünü bu vadidə qəbul edərmiş. Ona görə də dərə Vadi-Musa adını alıb. Həmçinin rəvayətə görə vadinin yanında yüksələn Xor dağında Musa, qardaşı Harunu dəfn edib. İslam dini də Harunu müqəddəs sayır. Müsəlman əhali Harunun qəbrini ziyarət edərək, qurbanlar verirlər.

İncil-Tövratda da Petranın adı çəkilib. Amma o, Sela adlanıb. Petra b.e.IV əsr əvvəl hazırki İordaniya və Ərəb yarımadaının qərb qurtaracağında olan torpaqlarda yaşamış bir ərəb qəbiləsinin paytaxtı olub. Həmin dövlət tarixə Nabateya kimi daxil olub. Onun süqutu b.e. əvvəl 106-cı ildə başlayıb. Həmin vaxt Roma imperatoru Troyan ölkəni fəth edir, digər torpaqlarına qatır.





Şəhərin tarixini İncil-Tövrata əsasən yozan alimlər göstərməyə çalışırdılar ki, o, müqəddəs kitabda adı çəkilən Sinay şəhəridir. Onlar həmçinin əldə etdikləri sənədlərə əsasən sübut edirdilər ki, 1101-cə ildə səlibçilərin kralı I Bolduin və birgə yürüşdə iştirak etmiş tarixçi Fulçer də şəhəri Sinay kimi adlandırmışdır.

Amma bizim əsrin əvvəllərində Petrada aparılın arxeoloji qazıntılar bu fərziyəni alt-üst etdi. Məlum oldu ki, bu şəhərin nə Musa nə də ki, yəhudilərin Misirdən qayıtma tarixi ilə heç bir əlaqəsi yoxdur. B.e. əvvəl VI əsrdə Sinay dağlarına sarı ərəbdilli Nabateya qəbiləsi köç edir. Onlar yerli edomitləri sıxışdırıb çıxarır. Sonra nabateyalılar ətraf rayonlarda yaşayan qəbilələri də özlərinə tabe edir və daha da güclənirlər. B.e.əvvəl 312-ci ildə nabateyalılar Suriya çarı Antiqonla apardıqları iki müharibədə artıq öz qüvvələrini sübut edirlər. Sonradan Nabateya çarlığı Misirin Ptolomey sülaləsi və Roma imperiyası ilə ittifaq bağlayır. Məşhur romalı Yuli Sezar Nabateya çarı Malikə yazdığı məktubda xahiş edibmiş ki, Misir müharibəsi üçün bir atlı dəstə göndərsin. Edomitlərin qədim paytaxtı Sela nabateyalılar tərəfindən daha da abadlaşdırılır və tarixə romalıların verdiyi adla Aya Petra adıyla daxil olur.

Nabateya çarlığı ən qüvvətli dövrünü bizim eranın başlanğıcında keçirmişdir. O zaman çarlığın sərhədləri Dəməşqə qədər uzanarmış. Amma Roma, Suriya və Livanı tutduqdan sonra Nabateyanın üstünə yeriyir. Əlbəttə, kiçik çarlığın silahlı qüvvələri ciddi müqavimət göstərirlər. Amma qüvvətli Roma imperiyasının qabağında durmaq mümkün olmayır. 105-ci ildə Romalılar başda imperator Troyan olmaqla Petranı istila edirlər, Nabateya çarlığı Romanın ayələtinə çevrilir.

Qeyd edilməlidir ki, çarlığın əhalisini əsasən ərəbdilli nabateyalılar təşkil etsələr də, rəsmi dövlət dili və əlifbası ərami yazısı hesab edilərmiş. Ərami dili uzun əsrlər boyu latın dilinin Avropada oynadığı rolu bu regionda oynayıb. Məhz arameya yazısı müasir ərəb əlifbasının əsası olmuşdur.

Petra bir şəhər kimi Romaya tabe etdirildikdən sonra daha da dirçəlir. Məsələ burasındadır ki, Romanın xarici siyasətinə görə Nabateya, Palmira, Kammaqena və s. imperiyanın ucqar hissələrində, qüvvətli rəqiblərə yaxın ərazilərdə yerləşdikləri üçün bir növ büfet dövlətlər kimi qiymətləndirilirdilər. Onlara mərkəzi roma hakimiyyəti müəyyən mənada müstəqillik də verirdi ki, Romanın daxili rayonlarını xarici basqınlardan qoruya bilsinlər. Belə vəziyyət Petranın çiçəklənməsinə səbəb olmuşdu. Ərəbistandan Aralıq dənizi sahillərinə və əks istiqamətdə hərəkət edən ticarət karvanları Petrada dincəlmək üçün dayanırdılar.



*Aya petra*

Ətraf ölkələrlə ünsiyyətdə olan nabateyalılar şəhərini abadlaşdırmaq üçün çox iş görürdülər. Xaricdə gördükləri memarlıq detallarından qaya-şəhərdə də tətbiq edirdilər.

Aya Petranın ən yaraşıqlı binaları - məbədlər və sərdabələrdir. Çarların, Roma qubernatorlarının, varlı tacir və əyanların qəbirləri öz təmtərağı ilə diqqəti cəlb edir. Yüz illər boyu tikilmiş bu abidələrdə Misir və Assuri memarlığında səciyyəvi olan lokonizm, Roma və Bizans məbədlərinə xas olan zəriflik və yaraşıq özünü göstərir.

Şəhər müxtəlif rəng çalarlarında - sarı, mavi, çəhrayı - özünü göstərirdi. Rəngarəng qayalıqlar evlərə çevrilirdi, sütunlar və tağlar ətraf yerlə vəhdət təşkil edirdi.

Petranın arxitekturasında Roma təsiri aydın duyulurdu. Hətta bəzi tədqiqatçılar bir sıra binaların romalılar tərəfindən inşa edildiyini söyləyirlər. Petrada aşkar olumuş ikimərtəbəli saraylar Roma şəhərində tikilmiş sarayların sanki təkrarı idi.

Petrada həmçinin, digər stillərin təsiri də müəyyən olunmuşdur. Bütöv bir küçə quruluşca Misir ehramlarına bənzəyən tikililərdən ibarət inşa edilmişdir.

Petranın giriş hissəsi, hündürlüyü 35 futa çatan, üzərində korinf





kapitelləri olan altı sütunla əhatə edilib. Fasadın frontunu ona dayanıb. Yuxarı hissədə sütunlu üç pavilyon da vardır. Onlar müxtəlif heykəllərlə bəzədilmişdir. Arxistravın üzərində bir-biri ilə festonlarla bağlanmış vazalar durarmış. Diqqətlə fikir verildikdə görünür ki, bütün sütunlar bütöv qumdaşından yonulub düzəldilmişdir.

Girişdən sonra məbədin ümumi zalı yerləşir. O, nəhəng mağaradan yonulub hazırlanmışdır. Tavanı, döşəməsi hamar olsa da kənarlarında sütunlar var. İçəri otaqlarda çox böyük həcmli müxtəlif heykəllər qalmaqdadır. Zaldan müxtəlif yollar qədim məqbərələrə sarı ayrılır. Onu qeysərin sarayı hesab edirlər.

Saraydan sonra vadidə müxtəlif məqbərə qalıqları görünür. Əksəriyyəti elə qayadan kəsilib düzəldilmişdir.

Həmçinin, oturacaq yerlərinin sayı 3 minə çatan və bütöv qayalıqda yonulub hazırlanmış qədim amfiteatr tikilisi də var. Başqa tikililərə nisbətən o çox yaxşı qalıb. Bütövlükdə daşdan yonulan amfiteatr qədim Roma və yunan stilindədir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Petra yaradılan vadinin qayalıqları əsasən qumdaşından olduğu üçün o, bazalt və s. təbii süxurlara nisbətən asan yonulurdu. Amma, həmçinin, təbii qüvvələrə qarşı davamlığı da bir o qədər az olurdu.

Petranın mənası "qaya, daş" deməkdir. Bəzi mülahizələrə görə Ərəbistan yarımadasının şimali - qərb hissəsi onun adı ilə Petra adlanır. Roma yazıçısı Kesariyalı Yeviseviya da Petranın və Harunun qəbrinin eyni vadidə, yəni "Vadi Musa"da yerləşdiyini yazıb.

Gənc şərqşünas Burkardtın bu tapıntısı təxminən yüz il sonra, XX əsrin əvvəllərində öz həqiqi qiymətini alıb. Vadidə aparılan geniş arxeoloji qazıntılar qayalıqlar arasında, qum basmış yerlərdə çoxlu abidələr, məbəd özülləri, saray qalıqları tapdılar. Hazırda Petra Yaxın Şərqin və xüsusilə İordaniyanın ən tanınmış tarixi yerlərindəndir.

## QUSEYR - ƏMRA

Bu kitabda oxuyucuya təqdim olunan orta əsr ərəb memarlıq abidələrinin bir neçəsi içərisində Quseyr - Əmra özünəməxsus yer tutur. O, yeni yaranmaqda olan ərəb-islam mədəniyyətini öyrənmək üçün tutarlı nümunələrdən olduğu üçün bu özünəməxsusluğu qazanmışdır. Xilafətin ilk əsrini (VII əsr) tədqiq edən alimlər göstərirlər ki, bu dövrdə ərəb-islam

tətbiqi sənətində təsviri - sujet başlancığı güclü olub. O, bir tərəfdən islamdan əvvəlki sami-ərəb ənənələrinin bir növ davamı kimi yaşayırdısa, digər tərəfdən başqa mədəniyyətlərin - ələlxüsus Sasani İranının və Bizansın- güclü təsirinə məruz qalmışdı. Tarixdən məlumdur ki, iki nəhəng dövlətin ərəb-islam dünyasına nüfuzu təkcə incəsənət sahəsi ilə məhdudlaşmamışdı. Həm Bizansın, həm də Sasani İranının, Xilafətin qüvvətli qonşularının və məğlub dövlətlərin, ərəb-islam dövlətinə başqa sahələrdə də - idarə işində, hüquq məsələlərində və s. - çox böyük təsiri olmuşdu.

Ərəb-islam incəsənətini tədbiq edən mütəxəssislər çox vaxt islam dininin insan təsvirini qadağan etdiyini yazırlar. Amma, alimlər xilafətin ilk dövründə bir sıra əldə edilmiş rəngarəng nümunələrə əsaslanaraq bu fikrə müəyyən qeydlər ediblər. Məsələn, Qasr -al -Xeyra adlanan abidə tədqiq edilərkən ağ, sarı və qırmızı boya ilə işlənmiş bir neçə ornament aşkar edilib. Onlarda insan və fantastik heyvan təsvirləri olduğu bəlli olub.



*Quseyr -Əmra*

Quseyr -Əmra adı ilə tanınan abidə Əməvi xəlifələrinin İordaniya ərazisində yerləşən iqamətgahı imiş. Təəssüf ki, öz dövrünün ən maraqlı tikililərindən olan bu qəsrdən yalnız hamamxana binası bizim dövrümüzə gəlib çatıb. Hamamın divarlarına və tavanına müxtəlif mövzulara həsr





edilmiş çoxlu rəsmlər çəkilmişdir. Əsas yeri dünyəvi mövzular tutur: işləyən insanlar, ov səhnəsi, çimən qadınlar, dəfn mərasimi və bir sıra alleqorik səhnələr.



*Quseyr -Əmra*

Binanın divarları iki əsas hissəyə bölünüb: aşağı, bütün binanın daxili boyu uzanan panelə bənzər hissə və yuxarı, tavanadək şəkillər bəzədilmiş hissə. Şəkillərdə bəzən memarlıqda gəlmə motivlər də nəzərə çarpır: düzgün sütunlar, naxışlı tağlar, rəngli tavan təsviri, əsas tağları öz üzərində saxlayan sütunlar və s.

Quseyr -Əmra rəsmləri içərisində insan təsvirləri əsas yer tutur. Onlardan bəzilərində orta əsr etikasının təsiri duyulur. Məsələn, bu baxımdan taxtında oturan xəlifənin təsviri çox maraqlıdır. Onun görünüşündə təntənə və təmtəraq var, xəlifə öz taxtında sanki quruyub - qalıb, ətrafında yüksələn sütunların kənarı boyu adamlar cərgə ilə oturublar. Şəklin kompozisiyası statik təsir bağışlayır, ciddi və sakit ritmdədir.

Ümumiyyətlə, Quseyr - Əmra rəsmlərində insan hərəkətlərinin canlı və azad təsvirinə, insanın daxili aləminə nüfuz meyli güclüdür. Bu təsəvvür bir də açıq rənglərdən bol-bol istifadə etməklə yaradılmışdır. Mütəxəssislər bu halı, həyata aydın fəlsəfi münasibəti yaradan antik dünya duyumunun hələ də müəyyən mənada yaşamaqda olan təsirində də görürlər. Bu baxımdan tavandakı bir rəsm diqqəti çox cəlb edir. Orda insanın üç həyat mərhələsi qələmə alınıb: cavanlıq, orta yaş və qocalıq. Onların ətrafında isə musiqiçi, rəqqasə və heyvan - quş təsvirləri var. Şəkil açıq - sarı fonda çəkilib, əsas rənglər yaşıl və açıq qırmızıdır. Mütəxəssislər rəssam işini yaxşı qiymətləndirirlər.

# MŞATTA



*Mşatta – friz*

İordaniya ərazisində yerləşən çoxlu qədim abidələrdən biri də Mşatta adı altında tanınan və inşası VIII əsrə aid edilən xüsusi quruluşlu tikilidir. Onun Əməvi hakimlərinin müdafiə məqsədi üçün yaratdıqları söylənilir. Mşatta öz dövrünün tikinti materiallarından - kərpic və daşdan inşa edilmişdir. Qeyd etməliyik ki, uzun əsrlər boyu Suriya və Mesopotamiya inşaatçıları ən çox bu materiallardan istifadə etmişlər. Adın mənası ərəb dilində "qışlaq" deməkdir. İordaniyanın şərqində, Şamdan Mədinə, Məkkəyə gedən yolun üstündəki Mşatta ümumiyyətlə ilk islam memarlığı haqqında müəyyən təsəvvür yarada bilir.

Mşattanın ümumi planı isə islamdan əvvəlki Suriya və Fələstin ərazisində xırda əmirlər tərəfindən tikdirilmiş qəsrlərin planını xatırladır. Onlar sənət aləmində "xira" termini altında tanınırlar.

Mşatta forma etibarilə düzbucaqlı şəklindədir. Ümumi uzunluğu 150 m çatan divarları daşdan hörülüb və yarımdairəvi qüllələrə malikdir. Daxili binalar da ümumən simmetriya şəklində inşa edilib. Mşattanın mərkəzi dördbucaqlı açıq sahədir. O, sütunlarla üç yerə bölünüb. Yan tərəfdə isə kvadrat şəkilli xüsusi örtülü otaq var. Sütunların əksəriyyəti yaxşı qalıb. Onlar hamar daşdan düzəldilmişdir. Ümumi mənzərələrdə tənasüblük aydın duyulur. Zərif yonulmuş ornametləri karnizlə bəzədilmişdir.

Mşattanı görkəmli sənət əsərləri sırasına çıxaran qəsrdə mövcud olmuş və yüksək qiymətləndirən relyef frizidir. O, cənub hissəsinin ön divarını bəzəyirmiş. Özündən bir qədər yuxarıda, uzun zolaq şəklində və 5 m hündürlüyə çatan, friz əsas girəcəyin hər iki tərəfini tutarmış. Frizin ümumi tərtibatı belədir: çox da dərin olmayan relyef naxışı iri üçbucaqların





içərisindədir. Üçbucaqlar ziqzaq şəkilli bir qədər domba valiklə yaradılmışdır. Hər bir üçbucağın tam mərkəzində zəngin ornamentləri olan bitki şəkilləri vardır. Həddən artıq zərif çiçəyə bənzəyən naxışlar müxtəlif mövzuları təcəssüm edirlər. Onların içərisində ən çox cürbəcür formalarda təsvir edilən üzüm salxımları nəzərə çarpır. Yerli bitkilərin yarpaqları domba valikin və kornizin üzərində həkk olunmuşdur. Üçbucaqların üzərində həmçinin real həyatda mövcud olan və təxəyyüldə yaradıla bilən cürbəcür heyvanlar, bitkilər təsvir edilmişdir.

Mütəxəssislərin fikrincə Mşattanın memarlığında olduğu kimi tərtibatında da yerli ənənələrin güclü təsiri duyulur. Onları həm ornament mövzularında, həm də bitki və heyvanların real traktovkasında görmək olar. Amma bununla belə antik dövrün sonları və Bizans mədəniyyətinin əvvəlllərinə xas olan ənənələr burda başqa cür təqdim edilmişdir. O dövrün mədəniyyəti ilə məşğul olan mütəxəssislər Mşattanı Bəəlbək, yaxud Palmira ornametnləri ilə müqayisə etdikdə görmüşlər ki, bu hər iki mədəniyyətin sadəcə təkrarı deyildir. Əsas fərqlər isə bunlar olub: ornamentlərdə əvvəlki plastiklik itmişdir, traktovka daha dekorativ olub, xalça xüsusiyyətləri özünü biruzə verir. Mşattanı tanıdan friz orta əsr ərəb ornamentlərinin yarandığına dəlalət edən nümunə kimi diqqətə layiqdir.



*Mşatta*

Mşattanın planı isə bəzi cəhətlərinə görə ənənəvi ərəb çadırlarını xatırladır. Ortalıq hissə, adətən mərkəzdə qurulan hökmdar çadırı rəmzi kimidir və bu, qədim ərəb dövləti Ləhmilərin paytaxt mənzərəsini təkrar edir. Mşattanın bu xüsusiyyətini ilk dəfə olaraq H.Lammens öz tədqiqatı sayəsində müəyyən etmişdir və sonradan Xerzfeld bu fikri inkişaf etdirərək Mşattanı Əməvi xəlifələrinin birinin yaşaması üçün xira şəklində tikilmiş "badiya", yəni səhra sarayı kimi izah etmişdir.



*Mşatta – uçuq qala*

Bu qədim abidənin aşkar edilmə tarixi də maraqlıdır. 1872-ci ildə X.B.Tristam tərəfindən ilk dəfə kəşf edildikdən sonra, arxeoloq alim Y.Ferdisson Mşattanın xarabalığını Sasanilərə aid bir saray kimi təqdim edir. O belə fərz etmişdir ki, bu sarayı İran hökmdarı II Xosrov 614-cü ildə Suriyanı tutduqdan sonra tikdirmişdir. Həqiqi arxeoloji tədqiqat isə 1898-ci ildən sonra R.Brunnov və A.Domaszevski tərəfindən planın tərtibi və nəşri sayəsində mümkün olub. Sonra alman alimlərinin bir sıra tədqiqatları 1904-cü ildə Berlində nəşr olunub. Nəticədə Mşattanın bir sıra qiymətli eksponatları Almaniyaya köçürülmüşdür.

Abidədən danışarkən bir məsələ də qeyd olunmalıdır. Onun hörgüsündə, xüsusilə hökmdara aid qapıda, İraq inşaat ənənəsi ilə suriya ənənəsinin qarışdığı müşahidə olunur. Bu, tarixçi alimlərin fikrincə Əməvi hakimləri tərəfindən tətbiq edilmiş iş mükəlləfiyyəti nəticəsində müxtəlif ölkələrdən gəlmiş işçi qrupların fəaliyyətinin bəhrəsidir.

Mütəxəssislərin fikrincə, Mşatta memarlığı bir də onu göstərir ki, artıq yeni dinin incəsənətində sütunlu və otaqlı yunan ənənələrinin təsiri az nəzərə çarpırdı. Amma yeni memarlıq bir məktəb kimi tam təşəkkül tapa bilməyən, öz ideyasını, köklərini və ifadə üslublarını axtaran vəziyyətdə idi.





# QÜDS

Qüds şəhəri çox qədim tarixə malikdir. Onun tarixi qədim olduğu qədər də mürəkkəbdir. Uzun əsrlər boyu ən çox dini mərkəz kimi tanınan Qüds indi planetimizdə başqa səbəblərdən məşhur olub. Müasir dünyamız artıq 50 ildən artıqdır ki, İsrail - ərəb müharibələri nəticəsində Fələstin xalqının faciəsini narahatlıqla izləyir. Artıq 16 ildən çoxdur ki, Qüds şəhərinin taleyi insanlarda həyəcan hissləri yaradır. 1967-ci ildən bəri İsrail Qüdsü fəth edərək, ölkənin paytaxtını bu şəhərə köçürmüş və bu da, öz növbəsində yeni gərginlik yaratmışdır.

Qüdsün tarixi çox qədim dövrlərdən başlayır. Tarixi məlumatlar ilk zamanlar burda müxtəlif cür tayfa birliklərindən yaranmış qədim bir xalqın - xanaanilərin yaşadığını xəbər verir. Sonralar ətraf torpaqlarda yaşayan (həm Sinay yarımadasında, həm də Ərəbistanda) ərəb və yəhudilərin ulu babaları olan köçəri tayfalar bura gəlib məskən salırlar. Ümumiyyətlə, Qüds haqqında məlumatlara b.e.ə II minilliyin ortalarına aid edilən sənədlərdə rast gəlinir.



*Qüds – Məscid Əl-Aqsa*

B.e.ə. X əsrdə yəhudi tayfaları olan iudeyalılar və israillilər xannaaniləri məğlub edib, Qüdsi tuturlar. Fələstin torpağında yaratdıqları çarlıq təxminən yüz il fəaliyyət göstərdikdən sonra daxili ixtişaşlar

nəticəsində b.e.ə. təxminən 925-ci ildə İsrail və İudeya dövlətlərinə bölünür. Bundan sonra güclü Assuri dövlətinə məğlub olan İsrail həmişəlik tarixdən silinir. Bu, b.e.ə. 772-ci ildə olur. İkinci dövlət isə İudeya Babilin hücumlarına məruz qalır. Nəhayət, b.e.ə. 586-cı ildə məşhur çar Novuxodonosor İudeyanı məğlub edib əhalisini Babilə qovub aparır. İudeyalılar sonradan Babildən dünyaya səpələnirlər. Qalanları b.e.ə II əsrdə Babilin süqutundan sonra yenidən Fələstinə qayıdırlar. Yəhudilərin Qüdsün ətrafı ilə birlikdə ərazisində yaratdıqları yeni dövlət, bu dəfə 70-ci ildə nəhəng Roma imperiyası tərəfindən məğlub edilir. Romanın hücumu çox dəhşətli olur. Məğlub edilmiş əhalinin bir hissəsi qırılır, sağ qalanı isə ölkədən qovulur. Bununla sakitləşməyən romalılar iudeyalıların müqəddəs Solomon məbədini darmadağın edirlər. Yəhudilərin ora yenidən qayıtması qadağan olunur.

Bizim eranın IV əsrindən başlayaraq Qüds xristianlığın müqəddəs şəhəri hesab edilir. Bu, Şərqi Roma imperatoru Konstantinin hakimiyyəti zamanında baş verir.



*Qüds qalası*

Qeyd etmək lazımdır ki, b.e.ə. VII əsrdən başlayaraq Qüds əhalisinin əksəriyyətini əramilər təşkil edir. Onlar sami irqindən olublar. Müasir dövrdəki Fələstin ərəblərinin əcdadları sayılırlar.





Bizim eranın 638-ci ilində, xəlifə Ömərin hakimiyyəti zamanı Qüdsü ərəb ordusu fəth edir. Əramilərlə ərəblər dil baxımından yaxın olduqları üçün qaynayıb qarışmışlar, beləliklə ölkənin əksər əhalisi islamı qəbul etmişdir. Bu dövrdən etibarən Fələstin ərəb ölkəsi sayılmağa başlayır. Qüds həm də müsəlmanların müqəddəs şəhərinə çevrilir. Şəhərdə ən böyük müsəlman abidələrindən sayılan Ömər məscidi (Qübbət -əs-Saxra) tikilir. Həmin məscid indi də müsəlmanların ziyarət yerlərindən biri sayılır. Dini rəvayətə görə islamın yaradıcısı peyğəmbər Məhəmməd burdan göylərə qalxar və Allahla ünsiyyətdə olarmış.



*Qüds – Qiyama*

Fələstin ərəb xilafətinin tərkibində olduğu zaman, artıq yəhudilər getgedə yenidən Qüdsə qayıdırlar və əsas etibarilə ticarətlə məşğul olurlar. Başqa dinlərdən olan vətəndaşlara yaxşı münasibət onlara da şamil edilir. Yəhudi zəvvarları öz dini mərkəzlərini - Solomon məbədindən qalmış yeganə yeri - Ağı divarını ziyarət etmək imkanı əldə edirlər.

1517-ci ildə Fələstin digər ərəb ölkələri kimi Osmanlı imperiyasının orduları tərəfindən fəth edilir. İmperiya daxilində qayda-qanun əsasən islam dini ehkamları, şəriət üzrə qurulduğundan digər dindən olan əhaliyə münasibət demək olar ki, dəyişilmir. Vəziyyət I Dünya müharibəsinə kimi belə davam edir. Bu zaman bütün dünyada yaşayan 15 milyona yaxın yəhudilərin yalnız 30 mini Fələstin ərazisində yerləşmişdi.

Lakin 1897-ci ildə Avropada yaradılmış Ümumdünya Sionist təşkilatının güclü təbliğatı nəticəsində yəhudi axını çoxalır. Bu işdə o vaxtkı nəhəng sənaye dövlətləri, xüsusilə Böyük Britaniya dövləti əsas rol oynayır. 1917-ci il noyabrın 2-də xarici işlər naziri Balfurun Fələstində "Milli Yəhudi Vətənin"in yaradılması haqqında elan etdiyi bəyannamə buna çox kömək etdi.

# QÜBBƏT ƏS - SAXRA MƏSCİDİ



Əməvilərin hakimiyyəti dövründə tikilmiş ən yaxşı memarlıq abidələrindən biri də Qüds şəhərindəki Qübbət-əs-Saxra (hərfi tərcüməsi "Qaya üzərində gümbəz") adlı məscid binasıdır. Tarixi məlumatlar onun 687-691-ci illərdə inşa olunduğunu xəbər verir. O, Moriya adlı təpəliyin üzərində yaradlımışdır. Rəvayətə görə məscidin yerində müsəlmanların da qəbul etdikləri Süleyman peyğəmbərin məbədi olmuşdur.

Məscidin binası geniş, daş sallarla döşənmiş və ətrafdan bir qədər hündürlükdə olan Haram - əş-Şərif adlı meydançada yerləşir. Müxtəlif səmtlərdən məscidə bir neçə enli pilləkan qalxır. Məscidin neçə əsr keçməsinə baxmayaraq indiki vəziyyətində qalması ona göstərilən qayğının nəticəsində mümkün olmuşdu. O dəfələrlə təmir edilmiş, bəzi xarab olmuş hissələri yenidən dəyişdirilmişdir. Məsələn, məscidin xarici örtüyü dəfələrlə əvəz edilmişdir. Amma bu maraqlı abidə öz konstruksiyasını və memarlıq formasını VII əsrdəki kimi saxlamışdır.





Məsciddən söhbət açan mütəxəssislər Qübbət-əs-Səxranın memarlıq ölçülərinə və yerləşdiyi Haram-əş-Şərif meydanındakı yaratdığı əzəmət və təmkinliyə diqqət yetirirlər. Məscidin diametri 23 m çatan yarımsferik günbəzi mavi səmada yaxşı görünür. Günbəz ümumi diametri 50 m çatan və səkkizguşəli əsas məscid binasının üzərində tikilmiş barabanda yüksəlir.

Məscidin xarici görünüşündə sadə memarlıq elementlərindən istifadə edilməklə yaranan hormoniya hökm sürür. Daxili tərtibatı isə daha zəngin və dinamikdir. İki sıra ilə düzülmüş tağlar və sütunların birincisi dairə şəklində baraban və günbəzin altında, ikincisi isə səkkizguşəli əsas binanın divarlarının yaxınlığı boyu yerləşdirilmişdir. Birinci sütun və tağların ortası "Müqəddəs qaya" adlanan yerdir.

Məscidin bu cür konstruksiya həllini xristian mənbələr (əsas etibarilə suriya mənşəli) yerli memarlıq ənənələrilə bağlayırlar. Belə vəziyyətə VI əsrdə Əmra və Bosrada yaradılmış binalarda da rast gəlmək olur. Həmçinin qeyd olunmalıdır ki, ilk Bizans abidələri sayılan - Konstantinopoldakı Sergey və Vakx kilsələri, Ravennadakı San Vital kilsələrindəki günbəz də binanın mərkəzində yerləşmişdi. Amma onlarda bina başqa quruluşda idi.

Məscidin əsas divarları boyu çoxlu tacvari pəncərənin olması və naxışlı daş şəbəkələrlə bəzədilməsi ona ornament ritmi verir. Bu da günbəzdə monolit təsir yaradır. O, sanki havadan asılı qalmışdır.

Qübbət-əs-Saxranın daxili tərtibatı da adətən, plastiklik və yumşaqlığı ilə seçilən Bizans memarlıq ənənələrindən fərqli olaraq başqa cür düzəldilmişdir. Burda mərkəzi hissə ilə sıra sütunlar arasındakı mənzərəli hissə bir - birilə kontrast yaradır.

Qeyd olunmalıdır ki, daxili tərtibatda bolluca mərmərdən, qızıldan istifadə edilmişdir. Boyalar da parlaqdır. Günbəzin altındakı baraban, tağların ətrafı rəngli mozaika ilə bəzədilmişdir. Qızıla çalan fonda müxtəlif zərif bitkilərin yaşıl, mavi və qırmızı rənglərlə işlənmiş nümunələri qiymətli daşlarla bəzədilmiş ornament təsiri yaradır.

# LİVAN



*Beyt-əd-din meydanı*

Livanı çox zaman "Cənnət güşəsi", "Səyahət və mey ölkəsi", bəzənsə "Aralıq dənizi İsveçrəsi" adlandırırlar.

Livan ərazisi elə bir nöqtədə yerləşib ki, onun üzərindən çoxlu xalqlar müxtəlif səmtlərdə hərəkət ediblər. Ölkənin qədim adı Finikiya olub. Tir, Sidon (Sayda) və Beyrut kimi şəhərlər ticarət işlərində böyük rol oynayıblar. Bu şəhərlərdən qədim finikiyalılar öz gəmilərini dünyanın müxtəlif ölkələrinə göndəriblər. Aralıq dənizi hövzəsində yerləşən müxtəlif ölkələrdə öz koloniyalarını yaradıblar. Biblosun ərazisində o dövrlərdə ən yaxşı gəmilər sayılan gəmilər inşa edilibdir. Livan ərazisi çoxlu sidr ağacları olan meşələrlə örtülüb. Ümumiyyətlə, sidr ağacı qədim tarixdə çox yüksək qiymətləndirilib. O ğacdan məbədlər, saraylar tikintisində istifadə olunub. Tarixdən məlumdur ki, b.e.ə. 970-ci ildə Qüdsün Solomon məbədində sidrdən istifadə edilib. Məşhur Əhəməni çarı Kir ondan öz sarayının bəzək işlərində işlədib.

Qədim dövrün böyük dövlətləri - Misir və Mesopotamiya arasında yerləşən Finikiya (tərcüməsi "purpur yeri"deməkdir) bu ölkələrlə geniş iqtisadi əlaqələrə malik imiş. Qədim dünyanın kimyasında çox işlənən purpur Sidon və Tir şəhərləri yaxınlığında dənizdən çıxarılarmış.

Livan torpağı bir vaxtlar ordusu ilə Misirə yollanan Makedoniyalı İskəndərin də şahidi olub. Tir qalasının onun üçün qorxu törədəcəyini düşünərək vuruşsuz təslim edilməsini tələb edir. Qalanın təslim olmadığını görən İskəndər yeddi ay onu mühasirədə saxlayır və hücumla alır.

Müxtəlif sivilizasiyalar Livan torpağında iz qoyub... Bəəlbək qədim şəhərlərdən biridir...





Qədim Livanda müxtəlif xalqların müxtəlif dövrlərdə yaratdıqları çoxlu mədəniyyət abidəsi vardır.

Rəvayətə görə Livanın ilk sakinləri ərəb tayfalarının yerləşdiyi Ərəbistan yarımadasından gəlmişlər. Onlar köçəri maldar olublar. Məlumdur ki, Ərəbistan yarımadası qarın nə olduğunu bilmir. Öz mal-qaraları üçün otlaq axtara-axtara gəlib başıqarlı dağları olan Livana çatdıqda heyrətlərindən donublar. Təəccüblə dağlara baxa-baxa "leben" deyiblər. Sözün mənası süd deməkdir. Rəvayətə görə ölkənin adı - yəni Livan sözü burdan götürülüb.

Tarixi faktlar göstərir ki, ölkənin ərazisində sami dilli tayfalardan olanlar yaşayıblar. Onlar özlərinin Xanaaneyan adlandırıblar. Xanaaneya hazırkı Fələstin, Livan və Suriya torpaqlarına birlikdə verilmiş addır. Hazırkı tədqiqatlar onlarla amoritlərin, assuri-babillilərin, yəhudilərin və ərəbləriin sıx əlaqələri olduğunu söyləyir. Sonralar purpur istehsalı ilə məşğul olan əhali yunanca finikiyalılar adlanmağa başlayır.

Livanın mədəniyyəti tarixi səpgidə götürülsə, Ön Asiyanın bütöv mədəniyyətinin ayrılmaz hissəsi olubdur.

Sidr nahaq yerdən Livan dövlətinin bayrağını bəzəmir. Tarixi məlumatlar onun uzun əsrlər boyu Misirə ixracından xəbər verir. Həmin ağac Mesopotamiyanın indiki ərazisində yerləşən dövlətlər tərəfindən də alınırdı. İranın əhəmənilər sülaləsindən olan şahları da uzaq Livandan sidr ağacını öz iqamətgahları üçün daşıtdırırdılar.

Məşhur şumer dastanı "Bilqameş haqqında nağıl"da da Livanda bitən sidr ağacları xatırlanır.

Cünəş allahı Şamaşın tapşırığı ilə Bilqameş xumbabaya, yəni allahlar dağında bitən sidr ağaclarını qoruyana qarşı hərbi yürüş yaratmalıdır. Qəhrəman öz dostu Enkidu ilə birgə uzun axtarışdan sonra ora gəlib çıxır. Günəş allahının göndərdiyi iki igid dağda tez vəziyyətə uyğunlaşırlar və keçmişi yerindən oynatmağa çalışırlar. Aralarında olan savaşda Bilqameş onu öldürür. Amma allahların ümumi rəyincə Günəş allahının tapşırığını yerinə yetirən bu iki nəfərdən biri ölməlidir. Enkidu nəticədə ölür.

Roma tarixçisi və alimi Böyük Plini özünün "Təbiətin tarixi" əsərində purpurun tapılması və hazırlanmasını belə təsvir edir: hər şeydən əvvəl gərək içərisində tələb edilən maye olan dəniz malyuskaları toplanılmalıdır. Tapılmış balıqqulağı açılır, içərisində olan faydalı cisimlər çölə çıxarılırdı. Əgər malyuskalar çox kiçik idisə, onu daş həvənglə əzib həmin maddəni çıxarırdılar. Çıxarılan maddə sonra üç gün duz məhlulu ilə qatışdırılıb saxlanılırdı. Sonra on gün ümumi məhsulu dəmir qablarda yüngül odda qaynadırdılar. Bundan sonra həmin maddə ağ rəngli boya ilə qarışdırılır və

günün altına qoyulurdu. Alınan maddə purpur adlanırdı.

Rəvayətə görə Makedoniyalı İskəndər Əhəmənilərin paytaxtı Suzu zəbt edərkən fars padşahlarının saraylarında 190 il qalmış və öz təbii keyfiyyətlərini tamamilə saxlamış purpurla rənglənmiş parçalara rast gəlir.

Livanın və Suriyanın cənub hissəsinin parlayıb çiçəklənməsi Roma imperiyasında Suriya-Livan sülaləsinin (193-235-ci illər) hökmranlığı dövrünə təsadüf edir. O zaman özünün möhtəşəm məbədləri ilə bu torpaq saysız-hesabsız varlıları onu görməyə cəlb edirdi.

İndiyədək qalmış çoxlu ictimai məqsədli binaların qalıqları o dövrdə Romaya daxil olan Finikiya haqqında təsəvvür yaradır. Onlar xüsusilə Tir şəhərində çoxdur. Bundan başqa Sidonda və qismən də Bibldə antik dövrün abidələrinə rast gəlinir.

Üç min il əvvəl Livanda yaşamış qədim finikiyalılar mahir dənizçi və ticarətçi olmaqla yanaşı özlərindən sonra çoxlu abidə qoyub gediblər. Onlara indi Livanın demək olar ki, hər yerində rast gəlmək olar. Dünyanın ən qədim şəhərlərindən sayılan yeddi min il əvvəl salınmış Biblos buna misaldır. "Biblos" yunan-latın sözü olub, finikiyalıların yazdıqları papirus mənasındadır. Finikiyalılar isə şəhəri ümumsami sözü ilə "qəbəl" yəni dağ adlandırıblar. Hazırda qədim Biblosun yerində müasir yaşayış məntəqəsi də - Cubeyl (kiçik dağ) həmin mənanı verir. Burada b.e.ə. III - II minilliklərdən qalma müxtəlif daş hissələr, amorit, qiksos və qədim Misir hökmdarlarının qəbirləri aşkara çıxarılıb. Qədim Finikiya məbədlərinin özülləri yerdən azca hündürdə qalmaqdadır. Bizim eranın III əsrindən, Roma imperatoru Karakallanın zamanından qalmış Asuan qranitindən yonulmuş sütunlar və amfiteatr diqqəti cəlb edir.

Makedoniyalı İskəndərin Heliopolis (hərfən "Günəş şəhəri"), finikiyalıların isə Bəəlbək (yəni "Bəkaanın sahibi") adlandırdıqları yer Livanı dünyada tanıtdırır. Burada həm ərəblərdən qalma məqbərə - VIII əsrdə Əməvi əmiri Əli ibn Talibin qəbri üzərində tikilmiş mavzoley, həm 1750-ci il zəlzələsindən sonra uçub dağılmış antik dövrün məbədləri, həm də qədim romalılardan qalmış Vakx, Venera və Yupiter məbədlərinin müxtəlif hissələri qalır.

Hazırkı Saydanın yerində salınmış qədim Finikiya şəhəri Sidon bir vaxtlar öz əzəməti ilə digər Finikiya şəhərləri --Biblos və Uqarti gölkədə qoyubmuş. Amma təəssüf ki, indi ondan heç nə qalmayıb. XII əsrdə məşhur səlibçi Fridrix Barbarossanın tikdirdiyi dəniz qalası, yenə həmin əsrdə tikilmiş müqəddəs Lüdovik kilsəsi səlibçilər dövrünün zəmanəmizə gəlib çatmış yadigarıdır.

Livanın digər şəhəri - Trablissə qədim tikililəri ilə daha az məşhurdur.





Şəhərdə səlibçilər dövründə tikilmiş və onlar qovulduqdan sonra Məmluk sultanı Kalavun tərəfindən yenidən qurulmuş qala indiyədək qalır. Şəhərin kənarında qədim Finikiyadakı daha qədim dövrlərin abidələrinin qalıqları - Bziz və Naus məbədlərinin hissələri məşhurdur.

Bunlardan əlavə Deyrəl-qəmər (Ay monastırı) və Beytu - ud - din (Din evi) kəndlərində tikilmiş və Livan tarixində mühüm rol oynamış nəsillərin qala və sarayı da görkəmli abidələrdəndir. Lomartin özünün "Şərqə səyahət" adlı məşhur əsərində Beyt-ud-din sarayından geniş söhbət açır.

Ölkənin paytaxtı Beyrut özünün qədim abidələrindən çox müasir binaları ilə daha artıq tanınır. Dəniz sahili ilə 15 km, quruya perpendikulyar olaraq 12 km ərazini tutan bu "Şərqin Parisi", "Şərqin Avropaya açılan qapısı", "Şərqlə qərbin yollarının kəsişdiyi yer", özünün müasir dəbdə tikilmiş, bütün müasir memarlıq üslublarının istifadə edildiyi göydələnlərlə, bütün dünyada tanınmış əyləncə yerləri və mehmanxanaları ilə məşhurdur.

## BƏƏLBƏK

Bəəlbəkə gedən yol, Aralıq dənizi sahilində yerləşən balaca liman şəhəri Bibldən başlayır, sonra Livan dağlarında burula-burula ona sarı qalxır. Uzunluğu təxminən 100 km, eni 10 km olan, arxasında antilivan dağları görünən vadi məşhur Bəəlbək şəhəri yerləşən vadidir. Dağların zirvələri ilin yarısında qarla örtülü olur. Əks tərəfdə isə içi qamışla dolu göl var.

Bəəlbəkin mənası qədim sami dillərində "Baal şəhəri" deməkdir. Makedoiyalı İskəndər Livanı fəth etdikdən sonra hakimiyyətdə olmuş silahdaşları, Sələvki nəsli dövründə şəhər Helopolis adlandırılmışdır. Bu sözün mənası isə "Günəş şəhəri" deməkdir.

Bəəlbək bir sıra mənbələrin verdiyi məlumatlara görə, qədim Finikiyanın dini mərkəzi olmuşdur. Həmçinin, onun kişilərinin yüksək natiqlik qabiliyyətinə, qadınlarının isə nadir gözəlliyə malik olması göstərilir.

Bəəlbək böyük əhəmiyyətə layiq tarixi abidə kimi yüksək qiymətləndirilir. Amma bu şəhərdə aşkar edilmiş iri sal daşlar arxeologiya elmində müəyyən suallar doğurmuşdur. Məsələ burasındadır ki, bu daşların nə üçün belə ölçülərdə kəsilib düzəldilməsi tamam bəlli deyil. Bu problem müxtəlif fərziyyələr doğurmuşdur. Hətta daşların bizim planetdən olmayan canlılar tərəfindən hazırlanması da güman edilir. Ən çox isə qədim əsrlərdə yerdə yaşayan insanların onlardan start meydançaları kimi istifadə etdikləri

söylənilir. 1896-cı ildə Beyrutda nəşr edilmiş "Bəəlbəkin tarixi" adlı kitabda bu xüsusda belə yazılmışdır: "Daş karxanalarında səliqə ilə kəsilmiş və yeddi metr hündürlüyə qaldırılmış bu salları müasir texnika belə çox çətinliklə yerindən tərpədə bilər. Karxananın özündə isə nəhəng, ətrafları hamarlanmış, amma yerindən oynadılmamış iri bir daş qalmaqdadır. Onun uzunluğu 21 m, eni 3,8 m, hündürlüyü isə 4,2 m -dir. Belə qaya parçasını hərəkətə gətirmək üçün ən azı 40 min adam tələb olunur".


***Bəəlbək. Baxus məbədi (b.e.ə.I-III əsrlər)***

Bəəlbəkin özündə işlədilən hər salın təxmini uzunluğu 20 m, çəkisi isə 1000 tona yaxındır. Onlar şəhərin girəcəyindəki yol boyu döşənmişdir.

Yaradıldığı dövr dəqiq müəyyən olunmayan Bəəlbəkin baş məbədi Əramilərin ildırım və şimşək allahı sayılan Hədadın şərəfinə ucaldılıbmış. Qədim Əramilər həmin allahın xeyir-bərəkət gətirən yağış göndərməsinə, yaxud tufan və daşqın törədən leysan yağış yağdırmasına inanarmışlar. Odur ki, Hədəd məbədi onların ibadət etmə yeri olub. Sələvkilər hakimiyyəti zamanı ellin təsiri gücləndiyindən Hədad məbədi dəyişdirilir və Yupiter məbədinə çevrilir. Bina genişləndirilir və təmir edilir. Hədad allahın heykəlinə bir sıra ellin elementləri əlavə olunur.

Roma istilasından sonra Bəəlbəkin əhəmiyyəti artır. Yupiter - Hədad məbədi öz əvvəlki dini-ideoloji rolunu oynamaqda davam edir. Romalılar həm də Bəəlbəkdən bir inzibati-hərbi mərkəz kimi də istifadə edirlər. Əkinçilik üçün yaxşı torpaqlara malik vadi, Aralıq dənizindən ölkənin içərilərinə gedən ticarət yolları məhz buradan nəzarət olunur. Yaxınlıqda yaradılmış hərbi düşərgədən Romanın əsas rəqiblərindən sayılan Parfiya dövləti üzərinə hərbi yürüşlər təşkil edilir.





Bir rəvayətdə 116-cı ildə Livanda olmuş məşhur Roma imperatoru Troyanın Yupiter-Hədad məbədinə baş çəkməsi söylənilir. Həmçinin, imperatorun həmin ildə Kilikiyada qəflətən vəfat etməsini də məbədə və məbədin dini xidmətçilərinin qüdrətinə şəkk getdiyində görürlər. Romanın ən ali dövlət rəhbərlərinin Bəəlbəkə göstərdikləri diqqət bununla məhdudlaşmır. Başqa bir imperator Antonin Piy (138-161) kiçik Yupiter məbədinin yerində dünyada tayı-bərabəri tapılmayan yeni dini ocaq tikdirməyi əmr edir. İşin əlbəttə, nəhəng həcmi bolluca vəsait və işçi qüvvəsi tələb edirdi. Tikinti, sadəcə olaraq romalıların Livana və ümumən Şərqə marağından yaranmayırdı. Məsələ burasındadır ki, o dövrlərdə Roma imperiyasının başında duranlar mənşə etibarilə müəyyən mənada bu göstərilən regionla bağlı idilər. Severlər sülaləsi ana tərəfdən Livan torpağından çıxmışdılar. Semptimi Severin arvadı tarixdə fərasəti ilə ad çıxarmış Yuliya Domna Roma senatı da daxil olmaqla dövlətdə böyük nüfuza malik idi. Onun köməyi və nəzarəti sayəsində finikiyalılar Roma ordusunda, ticarət və inzibati işlərində mühüm mövqelər ələ keçirmişdilər. Oğlu Karakalla hakimiyyətdən istifadə edərək anasının vətənində davam etdirilən tikinti işlərini sürətləndirir. Məbəd və akropol lazımi inşaat materialları və əskərlə təmin olunurdu.

Bəəlbəkin yeni görkəmini görənlər heyran qalmışdılar. Belə bir tikintinin nəinki bütün imperiya ərazisində, hətta paytaxtın özündə belə həyata keçmədiyini qeyd edirdilər. Bəzi mənbələr isə Karakallanın nəzərdə tutduğu işi tamamilə yerinə yetirə bilmədiyini göstərir. Amma, nə olursa olsun, Bəəlbək o dövrdə müqayisə edilməz dərəcədə dəyişilibmiş. Bir sıra qərb tarixçiləri ərəb-islam ordularınınVII əsrdə Bəəlbəki istila etdikləri zaman, məbədin yalnız cinlərin dilini bilən Süleyman peyğəmbər tərəfindən inşa olunduğunu güman etdiklərini yazırlar. Ərəb-islam rəhbərliyi belə adidənin insan əli ilə yox, qeyri-insanlar, cinlər-mələklər tərəfindən tikildiyini düşünürmüşlər.

Bəəlbəkin ümumi mənzərəsi isə belə imiş: Akropolun əsas girəcəyi cərgə sütunlarla əhatə edilibmiş. Ona isə çox böyük ölçüləri olan enli pilləkanlar aparармış. Əsas girişin darvazası müxtəlif fiqurlarla bəzədilibmiş. Onun hündürlüyü 15 m, eni isə 10 m olub. Akropola gedənlər əvvəlcə yenə də sütunlarla əhatə edilmiş altıbucaqlı həyətə daxil olarmışlar. Sonra isə ikinci, akropolun əsas həyəti gələrmiş. Onun ümumi sahəsi bir hektardan çox olub, mərkəz hissəsində nəhəng ölçülərə malik mehrab tikilibmiş.

Tarixi məlumatlar xəbər verir ki, akropolun sütunları Qırmızı dənizə yaxın yerdən, Misir ərazisində aşkar edilmiş daş karxanasından gətirilərmiş. Daş

sütunlar kəsilib yonulduqdan sonra Nil vasitəsilə İsgəndəriyyə limanına ötürülərmiş. Ordan isə gəmilərdə Beyruta daşıdılarmış. Beyrutdan Bəəlbəkə quru yolla aparılarmış.

Maraqlıdır ki, eyni daşdan olan, oxşar sütunlara həm Roma şəhərində, həm də Palmirada rast gəlinir.

Bəəlbəkin mərkəzi tikintisi isə Yupiter məbədi olub. O, iri daş sallardan hörülmüş nəhəng özül üzərində yüksəlirmiş. Hər salın uzunluğu 20 m, hündürlüyü 5 m, eni isə 4 m imiş. Belə qeyri-adi ölçülərə malik daşların yonulub daşınması o dövrün texnikası ilə nə qədər çətin başa gəldiyi aydındır. İnşaatçılar iri daş salları əsasən tez-tez baş verən zəlzələlərin məbədi dağıtmaması üçün gətirirdilər. Salların altında isə müxtəlif məqsədlər üçün zirzəmilər düzəldilmişdir.



*Bəəlbək*

İstifadə olunan salların sayı üç olduğundan, onlar məşhur "tripiton" məfhumunu qazanmışlar. Dördüncü sal isə Bəəlbəkə gətirilməmiş, kəsildiyi yerdə-şəhərdən bir qədər aralıda yerləşən karxanada qalmışdır. Bəzi alimlər hətta Roma kimi külli miqdar qulu olan qüvvətli dövlətin belə tikintini başa çatdırmaqda çətinlik çəkdiyini qeyd edirlər. Karxanada qalan salın ümumi çəkisi min tondan artıqdır. Üzərində minlərlə qulun əməyinin izləri - daş kəsib yonan alətlərin izləri indiyədək durur.

Məbədin ətrafında sıra sütunlar olub. Onların diametri 3 m çatarmış. Hündürlükləri isə iyirmi metrdən çox imiş. Hər sütun üç hissədən ibarətdir. Sütunların başında yaraşıqlı kapitel olub. Sonra isə ağır gövdəli friz və karniz durarmış. Mütəxəssislər həm sütunları, həm də digər hissələri estetik və texniki baxımdan çox yüksək qiymətləndirirlər.





Məbədin daxilində ilahənin qızıldan tökülmüş büstü olub. Antik mənbələrin göstərdiyinə görə ilahə cavan və saqqalsız təsvir edilibmiş. Sağ əlində şimşək, sol əlində isə ildırım simvolları tutubmuş. Dini mərasimlər və bayramlar zamanı büstü şəhərin ən tanınmış adamları çiyinlərində məbəddən çölə çıxararmışlar. Məbədin xəzinəsində həmçinin, müqəddəs qara daşlar saxlanırmış.

Yupiter məbədi böyük var-dövlətə malik olub. Geniş Roma imperiyasında onunla rəqabətə girən ikinci belə mərkəz yox imiş. Onun xüsusi zirzəmilərində bolluca qiymətli daş-qaşlar saxlanıldığını dönə-dönə yazmışlar.

Yupiter məbədinin sol tərəfində Bəəlbək akropolunun ikinci məşhur abidəsi Venera ilahənin şərəfinə tikilmiş məbəd durarmış. Maraqlıdır ki, bu tikili uzun əsrlər boyu nə səbəbdənsə Baxusa məbədi adlandırılmışdır.

Bu abidə öz ölçüləri və zənginliyinə görə Yupiter məbədinə nisbətən kiçik olmuşdur. Dövrümüzədək gəlib çatmış 15 m hündürlüyə malik darvazası məbəd haqqında təsəvvür yaradır. Məbədin frizi, üzərində Mars, Baxus, Merkuri, Pluton, Venera və üzüm salxımları təsvir olunan daş panellərdən düzəldilibmiş.

Akropoldan bir neçə yüz metr aralıda, romalıların hakimiyyətinin sonuna yaxın tale ilahəsi sayılan Fortunanın şərəfinə daha bir məbəd də tikilibmiş.

Heliopolis - Bəəlbək Suriya - Livan ərazisində yeni dünyəvi din - xristianlıq yayılanadək tərəqqidə olur. Romanın iki hissə - Şərqi və Qərbi imperiyaları kimi qəbul edilməsi, Bəəlbəkin süquta yetməsini şərtləndirmişdir. Yupiter və Venera məbədlərinin pərəstişkarlarının sayı get - gedə azalmış, gəlirlər isə kəsilmişdir. Yen din - xristianlıq məlumdur ki, əvvəlki çoxallahlı dinlərə qarşı pis münasibətdə olmuşdur. Şəhər bir ticarət mərkəzi kimi fəaliyyət göstərsə də, dini mərkəz kimi ləğv edilmişdir. Əvəzində xristianlığın öz ibadət binaları, kilsələr tikilmişdir.

Bizans imperatoru Feodosi IV əsrdə mehrabın yerində kilsə inşa edilməsini tapşırır. Fortuna məbədi də kilsəyə çevrilir və müqəddəs Varvara kilsəsi adlandırılır. Bizansın başqa imperatoru Yustinian isə Akropol meydanını əhatə edən sütunların Kostantinopola daşıdılmasını əmr edir. Bu dəfə sütunlar yeni dini ocağın - məşhur müqəddəs Sofiya kilsəsinin tikintisində işlədilir. Hal - hazırda həmin memarlıq hissələri İstanbulun Aya - Sofiya məscidini bəzəyir.

Sonra təbii fəlakətlər - zəlzələlər, tufanlar - Bəəlbək akropolunda öz

izlərini qoymuşlar. Amma onların dağıntısı, şüurlu insanların dağıntısından qat - qat az olmuşdur.

Ərəb - islam orduları akropolu qalaya çevirmişdilər. Qədim memarlıq abidələri sökülüb, divar bürclərində işlədilmişdir. Ərəblər şəhərin mərkəzində məscid binası da tikdirmişlər.

Səlibçilərin bir müddət şəhəri istila etmələri də müəyyən dağıntıya səbəb olmuşdur.

## BİBL

Məlumdur ki, Qədim Misir b.e. əvvəl dünyanın ən qabaqcıl mədəniyyət mərkəzlərindən biri olmaqla yanaşı, həm də ən qüvvətli dövlətlərin sırasında tanınmışdır. Misir orduları bəzi hallarda indiki İraq da daxil olmaqla, Asiyanı dəfələrlə işğal etmişdilər. Fələstin, Livan, İordaniya və Suriya əraziləri min illər boyu Misirin təsirinə məruz qalmış və tabeliyində olmuşdur. Livan və Suriyanın Aralıq dənizi sahillərində məskən salmış qədim finikiyalılar Misir mədəniyyətindən çox xüsusiyyətlər əxs etmişdilər. Hətta iş o yerə çatırdı ki, finikiya hökmdarları Misir fironlarını yamsılamağa çalışırdılar. Onlar öz məişət və davranışlarını Misir ənənə və etikası əsasları üzərində qururdular. Lakin məlumdur ki, qədim Misir fironlarının həyat dəbdəbəsi, yaşayış təmtərağı və yerinə yetirdikləri nəhəng işlər tarixdə çox böyük iz qoymuşdur. Buna misal olaraq dövrümüzədək gəlib çatmış əllidən artıq ehramın - yüz minlərlə əsirin həyatı bahasına və yüz illərlə məşəqqətli əməyi sayəsində yaradılan abidələrin - adını çəkmək kifayətdir. Finikiyalı hakimlər isə belə möhtəşəm tikili inşa etmək imkanından məhrum idilər. Onların yaratdıqları həm həcm, həm də sərf olunan əmək baxımından Misir abidələrinin kiçildilmiş nüsxələri sayıla bilərdi.

Finikiya hakimləri bu dünyadakı yaşayışlarını qədim Misir adət-ənənələrinə uyğunlaşdırdıqları kimi, "o dünyadakı" ömürlərini də bu mədəniyyət əsasında görmək istəyirdilər. Onlar tarixdən bizə məlum olan fironlar kimi cah-cəlalla, qızıl sərdabə, ətrafında çoxlu daş-qaş və s. ilə dəfn olunmağa çalışırdılar. Lakin, təbiidir ki, Finikiya hakimlərinin var-dövləti nə qədər çox olsaydı belə, demək lazımdır ki, Aralıq dənizi ölkələri ilə edilən ticarət nəticəsində qədim finikiyalılar yaxşı qazanırdılar, yenə də Misir hökmdarlarının sərvəti qədər ola bilməzdi. Odur ki, tabut və məqbərələri də nisbətən az bəzək-düzəkli olurdu.





*Biblos: 1,5 min il ərzində tikilən divarlar*

Tarixçi alimləri, bütün bu deyilənlərdən daha çox finikiyalıların bəşər sivilizasiyasına verdiyi yeniliklər daha çox maraqlandırır. Qeyd olunmalıdır ki, bu baxımdan qədim Finikiya əhalisi müəyyən xidmətlərə malikdir. Onlardan biri Bibl şəhəri rayonunda aşkar edilmiş və qədim Misir ənənəsi əsasında inşa olunmuş hökmdar sərdabəsi ilə əlaqədardır.

Əvvəlcədən deyək ki, sözlər arasında zahiri oxşarlığa baxmayaraq qədim Bibl şəhərinin (ona bəzən Qubl da deyirdilər), məşhur dini kitab Bibliya (azərbaycanca Tövrat ilə) heç bir əlaqəsi olmamışdır.

Qeyd olunan sərdabə Qubl hökmdarı Axirama məxsus imiş. Onu, iri qayanı çapıb düzəltmişdilər.Tabut qoyulan sarkofaq dörd şir heykəlinin üzərində durubmuş. Qərb hücrəsinin divarlarında hökmdarı təsvir edən barelyef olub. Sarkofaqın ətrafında həmçinin, daş-qaş da qoyulubmuş. Amma bu qəbri qədim dünyanın digər-dövrümüzə gəlib çatmış saysız-hesabsız qəbirlərindən bir çox mühüm xüsusiyyət fərqləndirir. O da üç min il əvvəl tərtib edilmiş sarkofaqda hərflərlə beş sətir yazının olmasıdır. Alimlər bunu ilk hərf yazısı hesab edirlər. Məlumdur ki, əvvəlki və sonrakı dövrlərdə insanlar mixi yazılardan və ioreqliflərdən istifadə edirdilər. Qədim finikiyalılar başqa ölkələrlə saxladıqları müntəzəm əlaqələr nəticəsində öz yazılarının da yayılmasında müəyyən rol oynamışdılar.

Bibl (Qübl) şəhəri təxmini hesablamalara görə beş min il əvvəl salınmışdır. Əsasən balıqçılıqla məşğul olan əhali min illər boyu topladığı təcrübə və var dövlətdən istifadə edərək hündür, geriyə əyilmiş burunu olan gəmilərlə Aralıq dənizi ölkələrilə ticarəti genişləndirirdilər. Şəhər əhalisi varlandıqca özünü müdafiə üçün daha böyük zərurət hiss edirdi. Qübl ətrafında tikilmiş və dəfələrlə yenidən qurulmuş şəhərin qala divarları buna ən yaxşı misaldır. Bizim e. əvvəl 1500 il ərzində şəhərin sərvəti və yaxşı coğrafi mövqeyi dövrünün güclü siyasi birliklərini özünə cəlb edirdi. Müəyyən vaxtlarda Bibl misirlilərin, qiksos, xett, assuri, fars və s. xalqların istila və talanlarına məruz qalmışdır.

Qədim Finikiya b.e.ə.1200-900 illərdə çox tərəqqi edir. Buna əsas səbəb Finikiyanın qorxulu düşmənləri sayılan Misir və Xett dövlətlərinin gücdən düşməsi idi. Bu əsrlərdə tranzit ticarət sayəsindəIbllə birlikdə Finikiyanın digər şəhərləri Tir və Sidonun (Saydanın) varlanma dövrü başlayır. Qoçaq finikiyalılar, bizə əsasən qədim misir təsvirlərindən bəlli olan aypara şəkilli, Livan sidrindən düzəldilmiş gəmilərilə Misir, Kipr, Rodos, Krit, Korsika, Siciliya və s. torpaqlara səfərlər edirdilər. Fələstindən taxıl, yağ, Hindistandan və Cənubi Ərəbistandan karvan-karvan ətir və qənnadı məmulatı liman şəhərlərinə gətirilir və gəmilərlə xarici aləmə daşınırdı. Finikiyalıların Afrika qitəsi ətrafına dolanmaları da tarixçi Heredot





tərəfindən qeyd olunmuşdur. Bu hadisəni qələmə alanlar yazırlar ki, qədim Misrin fironu Nexo finikiyalılara Nili Qırmızı dənizlə birləşdirən kanalla üzüb cənuba dönmələrini əmr edir. Cəsarətli dənizçilər verilən tapşırığa əməl edə-edə bir neçə il qitənin sahili boyu gah üzür, gah da dayanıb lövbər salaraq özləri üçün ərzaq və s. təchiz edirlərmiş. Nəhayət onlar indiki Cəbəlüttariq boğazından Aralıq dənizinə daxil olurlar və vətənləri Livana yaxınlaşdıqları zaman Heredotun yazdığına görə görürlər ki, "günəş artıq əvvəlki istiqamətdən doğurmuş."

Finikiyalıların işgüzarlığı və səyləri öz bəhrəsini bir də müxtəlif ölkələrdə çoxlu finikiya kaloniyaları salınmasında göstərir. Tarixi mənbələrə görə Kiprdə, Sardiniyada Mastada, İspaniyada və s. ərazilərdə çoxlu ticarət mərkəzləri olmuşdur. Qədim dünyanın ən məşhur şəhərlərindən biri, nəhəng Roma imperiyasının əsas düşmünlərindən sayılan Karfagenin də finikiyalıların tərəfindən inşa edildiyi söylənilir.

Aralıq dənizinin Asiya sahillərində ellin təsirinin güclənməsi Biblin də dirçəlişinə səbəb olur. Onu yunanlar öz dillərinə uyğun Bibl adlandırırlar. Bu şəhər o dövrün məşhur ilahələri Adonis və Veneranın dini mərkəzinə çevrilir və hər il burda dini mərasimlər keçirilir.

Roma istilası da şəhəri qısa bir müddətdə tərəqqidən salsa da, Bibl yenə də inkişafdan qalmır. Məhz o dövrlərdə Bibldə çoxlu məbəd, saray və s. tikililər inşa edilmişdir. Roma hakimləri Adonisin şərəfinə daha gözəl və yaraşıqlı məbəd yaradırlar. Giriş hissəsində çoxlu sütunları olan keçid varmış. Məbədin yaxınlığında həmçinin layiqli amfiteatr binası da inşa edilibmiş. Hazırda bu böyük abidədən yalnız altı dənə giriş sütunu bizim dövrümüzə gəlib çatmışdır.

Sonrakı dövrlərdə - Livan Bizans imperiyasının və Ərəb xilafətinin tərkibində olduğu əsrlərdə - şəhərdə tarixdə iz qoymuş abidə inşa edilməmişdir. Amma əvvəllər yaradılanların da dağılanı dağılmış, qalanı qalmışdır.

Səlib yürüşləri zamanı Bibl yenidən diqqəti cəlb edir. Avropalı dəmir geyimli cəngavərlər Suriya və Livan ərazisində yurd salıb yerləşdikcə ətraf düşmənlərdən qorunmaq üçün qala-qəsrlər inşa etmək məcburiyyətində qalırdılar. Maraqlıdır ki, səlibçilər əksər hallarda roma qarnizonları yerləşən mərkəzlərdə daha çox yurd-yuva salmağa meyl göstərmişlər. Bu baxımdan Bibl səlibçilərdə maraq oyadır. Onlar şəhərin min illər əvvəl tikilmiş abidələrinin hazır inşaat materiallarını sadəcə olaraq öz qala-qəsrlərinə işlədirlər. Nəticədə qədim Şərqin digər mədəniyyət ocaqlarında olduğu kimi Bibl də böyük ziyan dəyir. Gözəl memarlıq abidələrinin salamat qalmış hissələri avropalı cəngavərləri müdafiə etmək üçün sökülür. Səlibçilərin inşa

etdikləri (1103-cü il) qəsr isə o qədər səy və dəqqətlə tikilir ki, indiyədək sağ-salamat qalmışdır.

Bibl dünyamızın ən qədim şəhəri kimi diqqəti cəlb edir. Onun adının Bibliyaya (Tövrata) aid edildiyini isə alimlər belə yozurlar. Bibl tacirləri Misirdən alıb xaricdə satdıqları çoxlu əşya arasında papirus xüsusi yer tutarmış. Yunanlar papirus məfhumunu tacirlərin ana vətəni Bibl kimi qəbul edir və eləcə də adlandırırlar. Odur ki, sonralar meydana çıxan dini kitaba - Tövrata da o dövrün kağız və kitab tacirlərinin vətəninin adını verirlər. Beləliklə Bibliya sözü yaranır.

## BEYRUT



*Beyrut. 1291-ci ildə tikilən məscid binası*

Beyrut haqqında ilk məlumata b.e.ə. XV əsrdə yazılmış mənbələrdə rast gəlmək olar. Şəhərin ən qədim adlarından biri Beros imiş. Sonra o, latınca Berit, ərami dilində Beritos adlanarmış. Beyrut sözü həmin adın ərəb dilində ifadəsidir.

Bütün Finikiya kimi Beyrutun tarixi taleyi də Aralıq dənizi ölkələri ilə bağlı olub. Roma hakimiyyəti bu şəhərdə də öz izini qoymuşdur. Beyrutda hazırda qədim Roma hüquq məktəbinin binasının qalıqları durur. Bəzi tarixçilərin fikrincə, dörd Roma imperatoru bu məktəbdə təhsil almışlar.

Beyrut məktəbləri həmçinin, bəlağət, siyasət və idarə elmləri sahəsində də məşhurlaşmışdı. Miladdan sonra 349-cu ildə baş vermiş zəlzələ də onun şöhrətini azaltmışdır. Sonrakı zəlzələ isə (529-cu il) daha çox ziyan vurmuşdu.





Beyrut Makedoniyalı İskəndərin ordularını görmüşdür. O zaman Beyrut tanınmış liman idi. İskəndərin xələfləri dövründə şəhər bir müddət misirlilərin hakimiyyətinə tabe edilib. Sonra III Antiox Livanı misirlilərdən geri alır və b.e.ə 140-cı ildə o, suriyalı Diodos tərəfindən qarətə məruz qalır.

Roma hakimiyyəti dövründə, imperator Avqustun hakimiyyəti illərində şəhər Aqrippa tərəfindən yenidən bərpa edilir. Beyrut Roma əsgəri koloniyası statusuna malik olub.

Beyrutun yerləşdiyi ərazi öz mənzərəsi, gözəlliyi və torpağının bərəkəti ilə məşhurdur. Roma tarixçisi Plini yazır ki, bu şəhər Tirlə birlikdə Aralıq dənizi hövzəsində ipək ticarətinin əsas mərkəzi olub. Müsəlman orduları 635-ci ildə Əbu Ubeydanın komandanlığı altında şəhəri alırlar. O dövrdən etibarən Beyrutun çox əsrlik həyatının yeni mərhələsi başlanır. Əməvi sülaləsinin ilk xəlifəsi Beyruta İrandan əhali köçürüb gətirir. Müxtəlif növ gəmilər inşa etdirir. Beyrutda ticarət yenidən canlanır. İctimai həyat zənginləşir. Elm və mədəniyyət inkişaf edir. Beyrutun o dövrünün tərəqqisi haqqında coğrafiyaçı alim Vaqit öz əsərlərində qeyd etmişdir. Alimin yazdığına görə Beyrut çiçəklənən və məşhur bir şəhər imiş.

Səlib yürüşləri Beyrutun tarixində müəyyən iz qoyub. Yerusəlim kralı 1110-cu ildə iki aylıq mühasirədən sonra şəhəri zəbt edir. Amma məşhur Səlahəddin şəhəri 1187-ci ildə geri almağa müvəffəq olur. 1197-ci ildə səlibçilər ikinci dəfə Beyrutu tuturlar. Onların hakimiyyəti 1291-ci ilədək davam etmişdir. Maraqlıdır ki, həmin dövrün Avropa qaynaqları şəhəri Beritti, Baruti, bəzənsə Baruts adlandırmışdır.

Osmanlı hakimiyyəti dövrünə nəzər yetirdikdə şəhərdə və eləcə də ətraf rayonlarda quruculuq işləri aparmış əmir Fəxrəddin (1595-1634-cü illər) yada düşür. Amma İbrahim paşanın rəhbərliyi altında türk ordusunun Livana məşhur səfəri zamanı Beyruta zərər dəydi. 1840-cı ildə ingilis, avstriya və türk donanmasının şəhəri bombardman etməsi də Beyrutun tənəzzülünə səbəb olmuşdu.

1860-cı ildən etibarən şəhərin yeni dirçəliş dövrü başlandı. Suriyadan və Livanın müxtəlif rayonlarından əsasən xristian olan əhali Beyruta axışaraq ticarətin, sənətkarlığın inkişafına təkan verdi. Artıq XIX əsrin sonlarında Beyrutda yüz min adam yaşayırdı ki, bunun da üçdə ikisi xristianlar idilər. O, get-gedə nəinki Dəməşqlə rəqabətə girirdi, hətta bəzi hallarda onu qabaqlamağa nail olurdu.

Beyrutun o vaxtdan bəri tərəqqisində qərb aləmi ilə əlaqələri mühüm rol oynamışdır. Belə ki, 1863-cü ildə açılmış Amerika Universiteti dünyəvi elmlərin - tibb, əczaçılıq, ticarət elmlərinin inkişafında və yerli kadrların yetişdirilməsində böyük iş görmüşdür.

1875-ci ildə yaradılan Saynt - Cozef Universiteti isə teologiya mütəxəssisləri, təbib və əczaçılar, mühəndis və filosoflar hazırlayırdı. Beyrut ərəb xalqlarının milli-azadlıq mübarizəsini hazırlayan və ona nəzəri rəhbərlik edən milli kadrların yetişdirilməsində də böyük yer tutmaqdadır. Əsrimizin əvvəllərində bu şəhər ərəb millətçilərinin əsas fəaliyyət mərkəzlərindən biri olmuşdur.

Birinci dünya müharibəsindən sonra Antanta qüvvələri Beyrutu fəth edir və o, Livan-Suriya ərazisindəki fransız mandatını həyata keçirən yüksək komissarlığın qərargah yeri olur. 1920-ci ildən etibarən respublika paytaxtı kimi tanınmaqdadır. Həmin vaxtda şəhərin əhalisi sünni və şiə müsəlmanlardan, maronit və ortodoksal xristianlardan ibarət olmuşdur. Burada həmçinin, ermənilər də məskən salmışdılar. Beyrutun gələcək inkişafında dəniz limanı olması ilə yanaşı 1895-ci ildə Beyrut -Dəməşq dəmir avtomobil yollarının salınması böyük rol oynamışdır. 1924-cü ildən başlayaraq Beyrut-Bağdad şosse yolu fəaliyyətdədəir və o, mühüm iqtisadi arteriya hesab olunur.

## TİR (SUR)

Finikiyanın qədim yaşayış məskəni olan bu şəhər yaranma dövründən bəri Livanın sahillərində yerləşən və dəniz ticarətində böyük ad çıxaran zəngin mərkəz olmuşdur. Tir özünün qonşusu Sayda ilə rəqabət aparmış və qərbdəki Finikiya kaloniyalarını öz təsiri altına salmağa çalışmışdır. Makedoniyalı İskəndərin tarixi hücumundan sonra baş vermiş tənəzzül bu məşhur şəhərin regiondakı əhəmiyyətini çox qısa bir müddətə azaltmışdı. İskəndərin yürüşünün mühüm bir nəticəsi bu oldu ki, adına bir sədd inşa edildi. Bu sədd cənubi-qərb sahillərinin axar sularının gətirdiyi alliviual təbəqələr sayəsində get-gedə bərzəx kimi təşkil olunan qurudan ibarətdir. Beləliklə əsasən adada yerləşən Tir, həmin quru zolaqla qitəyə bağlanmışdı. Roma hakimiyyəti dövründə isə Tir ətraf əraziləri birləşdirən inzibati və dini mərkəz olmuşdu.

Suraxbil ben Hasana Şamı aldıqdan sonra İordaniya və ətraf şəhərlərini də zəbt etdi. Onların arasında Tir və Saffiriyya da vardı. Tarixçi Vaqidinin yazdığına görə ("Fütuh-əş-şam" əsəri) Tir şəhəri, Hələbin keçmiş əsgəri valisi Abdulla Yuhənnanın xəyanəti nəticəsində Suraxbil ben Hasananın əlinə düşmüşdü. Bundan əlavə Vaqidinin yazdığına görə Müaviyə 27- ci ildə Kipr adasına etdiyi səfər nəticəsində Akkanı və Tiri müəyyən qədər səhmana saldırmışdı.42- ci ildə İordaniyanın bir sıra şəhərlərində, həmçinin





Akkada, Tirdə, Bəəlbəkdə və Antaliyada fars mənşəli əhalidən yerləşdirildiyini qeyd edir. Tirli müəllif Xisam belə bir hekayət yazmışdır: "Biz yaşamaq üçün Tirə və başqa sahil şəhərlərinə daxil olduğumuz zaman orda ərəblərlə rastlaşdıq. Rumlular onlardan daha çox idi. Sonradan bizimlə həmin şəhərlərdə yaşamaq üçün başqa ölkələrdən də adamlar gəldilər və Suriya sahillərinin digər sahil şəhərlərində də eyni vəziyyət yaranmışdı.

H.t.49-cu ildə Bizans donanması lazımi müdafiə qüdrətinə malik olmayan həmin sahil şəhərlərinə bir həmlə etmişdir. Ərəb xəlifəsi Müaviyə bunun cavabında, İordaniyanın mühafizəsi üçün Akkada gəmiqayırmanı inkişaf etdirdi. Əbdülmalik ben Mərvan yenidən tənəzzülə uğramış Tiri, Qeysəriyyəni və Akkanı təmir etdirmişdir. Əl-Balazuri yazmışdır ki, xəlifə Əbdülmalik yerli varlılarla münaqişə üzündən gəmiqayırma emalatxanalarını Akkadan Tirə köçürtmüşdü. O, Tirdə, alimin dediyinə görə, tərsanə və dərin liman qurdurmuşdu. Vaqidiyə görə Mərvanilər zamanında Tir şəhəri Akkanın əvəzinə liman şəhəri olmuşdu və elə qaldı. Xəlifə Əl-Mütəvəkkil (248-ci il) donanmanı və dəniz qüvvələrini əsasən Suriyanın liman şəhərlərində cəmləmişdi.

Ərəb coğrafiyaşünasları Tirdən danışarkən onu İordaniya əyalətinin yaxşı möhkəmləndirilmiş, əhalisi çox, torpaqları münbit bir sahil şəhəri kimi təsvir edirlər. Deyildiyi kimi ada üzərində salınan bu şəhərə qurudan ancaq bir yol olub. O yol körpüdən və darvazadan sonra başlanırdı. Darvaza özü də hər tərəfdən dənizdən bir neçə metr yüksəkdə duran sədlərdə qorunurdu. Qədimdə olduğu kimi orta əsrlərdə də şəhərin ikinci hissəsi quruda, şəhərlə üzbəüz yerləşirdi. Əl-Müqəddəsi tərəfindən də xatırlanan körpüyə Əl-Qəzvini dünyanın ən böyük körpüsü demişdi. Hazırki Rasal-ayndan (yaxud Rəşidiyyədən) Tel-əl Məşuq üzərindən Tirə bir su kəməri çəkilmişdi və onun sayəsində şəhər su ilə təmin olunurdu. 1047-ci ildə Tirdə olan Nasiri Xosrov qeyd edib ki, şəhərdə beş və ya altı mərtəbə evlər varmış. Şəhərin girəcəyində zəngin bir məscidi təsvir edir. Bu dövrdə şəhər sakinlərinin əksəriyyəti şiə müsəlman olub. Əl-İdrisi şəhərin qab-qacaq istehsalını, yaxşı kitab buraxıldığını qeyd etmişdir.

Tulunilər dövründən başlayaraq Suriya ilə birlikdə Tir də Misirə tabe olunur. Fatimilər dövründə bu hakimiyyət daha da qüvvətləndi. 998-ci ildə Tir əhalisi Alaqa adlı bir nəfərin rəhbərliyi altında Xəlifə əl-hakimə qarşı üsyan edir. Suriya valisi Kaus ben Məhəmməd Tirə qarşı ordu göndərir. Qoşun həm qurudan, həm də sudan Tirə hücum edərkən Alaqa bizanslıları köməyə çağırır. Bizans imperatorunun göndərdiyi gəmilər dəniz vuruşmasında məğlub edilir. Bundan sonra şəhər müdafiə oluna bilməyib qoşun tərəfindən fəth olunur. XI əsrdə baş vermiş (1089-cu və 1098-ci illər) üsyanlar da yatırılmışdır. Nətigədə həm şəhər, həm də əhali arasında böyük tələfat vardı.

Sonrakı səlib yürüşləri də şəhərdə çaxnaşma, vurnuxma və ziyan törətmişdi. O, səlibçilərə qarşı müdafiəyə qalxır, amma qüvvəsi çatmadığından və sahildə, hücumlar üçün əlverişli mövqedə yerləşdiyindən tələfat verməyə məcbur olurdu.

Əl-İdrisi ilə İbn Cibayirin şəhər haqqında verdikləri məlumatlar əsasən səlibçilər dövrünə aiddir. Əl-İdrisi bu şəhədə ənənəvi metal və çini qab-qacaq emalatxanalarının olduğunu söyləyir və istehsal olunan malların keyfiyyətini tərifləyir. Ondan əlavə olduqca zərif və zövqlü şəkildə buraxılan kitablardan söhbət edir. Tirdə qalan on bir gün İbn Cibayir təsadüfən bir bayram təntənəsi ilə rastlaşır və öz kitabında onu bütün təfərrüatı ilə təsvir edir. Tir şəhərinin daxilinə vardıqca, biri-digərinin ardında inşa edilmiş olan 3-4 qapıdan keçilməli idi. Dəniz tərəfdən iki yüksək qüllədə mütəşəkkil qurulmuş iki qapı yerləşmişdi. Onlardan biri Limana (qədimdə Sidəp limanı adlanarmış) açılarmış. Bu qapı alimin fikrincə, sahil şəhərlərində gördüyü qapıların ən gözəli imiş. Liman üç tərəfdən şəhərin istehkamları ilə əhatə olunmuşdu. Dördüncü tərəfdən gəmilərin yan ala bildiyi bir kəmərli divar olub. Şəhərin içində yerləşən bu liman iki qüllə arasında sağlam və möhkəm zəncirlə birləşə bilirdi. Zəncir, əlbəttə, gəmilərin daxil olmasına, yaxud çıxmasına imkan vermirdi.

Tirin süqutu tarixi mənbələrə görəXIII əsrin ortalarına təsadüf edir. Məhz o illərdə gedən səlibçilərin əmirliklərlə vuruşları Tirin həyatında başlıca rol oynayıb.1266-cu ildə qüdrətli Baybars Tirə qarşı hərbi səfər edib. 1269-cu ildə təkrar edilən yürüş intiqam xarakteri daşıyarmış. 1271-ci ildə şəhərin rəhbərliyinin səyləri nəticəsində səlibçilərlə vuruş olmayıb. Amma Tirin əhatə etdiyi kənd və Qalanın ilə on illik sülh müqaviləsi imzalayır ki, bu da uzun çəkmir. 1291-ci ildə Akkanın fəthindən sonra o Tirlə birlikdə tam tənəzzül keçirir və müqavimət qüvvəsini itirir. Tirin zəbtindən sonra Xəlil şəhər sakinlərini öldürür, sağ qalanları əsir kimi satdırır, şəhəri isə dağıtdırır.

Əbul-Fida (1321-ci il) Əl-Qalqalandi (1400-ci il) və Xəlil əl-Zahidi (1459-ci ildən sonra) bu şəhərin yalnız xarabalıqlarını görüblər. İbn Battuta (1335-ci il) qala divarları və limandan ancaq zəif izlər müşahidə edib. Bu dövrdən sonra Tir yalnız əhəmiyyətsiz bir yer olaraq qalır. Əmir Fəxrəddin (1595-1634-ci illər) şəhərin dirçəlişinə çalışırsa müvəffəq olmur. XVIII əsrin ikinci yarısında Akkalı Şeyx Zahir Əl-Ömər və Xələfi Cəzzar Paşa da bu sahədə fəaliyyət göstəriblər. 1837-ci ildə Tir şəhəri bir zəlzələ nəticəsində daha da dağılır. Şəhərdə ikinci dünya müharibəsindən əvvəl təxminən altı min beş yüz nəfər olub. Əsrimizin altmışıncı illərində Tirdə təxminən on yeddi min adam yaşayıb. O, hazırda Livan Respublikasına daxildir.





*Bəalbək*

# SAYDA

Sayda adlı şəhər (o qədim mənbələrdə Sidon adlanardı) Beyrutdan cənubda, dəniz sahilində yerləşir. Rəvayətə görə bu şəhəri Kənanın oğlu b.e.ə. 2500-cü ildə inşa etdirmişdir.

Sidon bu uzun tarix ərzində yüz dəfədən çox hücuma və istilaya məruz qalıb. Şəhərin ətrafında indiyədək qalmaqda olan qala divarları bu hadisələrdən xəbər verir. Həmin istehkamlardan ən məşhuru Səlibçilər qalası adlı abidədir.

Bu qala sahildən aralıda, dənizin ortalarında yerləşir. Ora quru yol yoxdur. Qala uzaqdan mayakı xatırladır. Daxilində müəyyən arxeoloji qazıntılar aparılmışdır. Qalanın orta əsrlərə məxsus görkəmi tamaşaçıda o dövrlər haqqında ağır təəssürat yaradır.

Səlibçilər qalasını sahillə yer altı yol birləşdirir. Yolun ümumi uzunluğu 600 m bərabərdir. Yolun çəkildiyi dövr nəzərə alınarsa bu, çox cəsarətli inşaat həlli hesab edilir. Müşahidəçilərin fikrincə qalanın daxili hissəsi çox yaxşı qalmışdır. Bu, xüsusən qala bürclərinə, bürclər arası keçidlərə və mazğallara aiddir.

Hal - hazırda həm Saydanın, həm də ümumən Livanın ən tanınmış abidələrindən olan qala bəzi məlumatlara görə qədim bir məbədin - 2500 il əvvəl mövcud olmuş ilahə Melnartın şərəfinə yüksəldilmiş möhtəşəm abidənin - yerində yüksəldilmişdir. Tarixi qaynaqlar göstərir ki, məbəd dəhşətli zəlzələ nəticəsində dağılıbmış. Livanda yerləşən səlibçilər isə onun əla hərbi mövqeyini qiymətləndirib yerində qala inşa ediblər.

Saydanın mərkəzi hissəsində sağlamlıq ilahəsi sayılan Eşmunun şərəfinə məbəd ucalarmış. Aparılan tədqiqatlar abidənin tamamilə yerin altında olduğunu müəyyən etmişdir. Həmçinin, çoxlu müxtəlif növ qiymətli əşyalar, pullar, qab-qacaq, keramika məmulatları, memarlıq bər-bəzəyi və s. aşkar edilmişdir.

Deyildiyi kimi nəhəng sidr ağacları Livanın milli simvoluna çevrilmişdir. Ölkənin şimal hissəsində, həmin ağacların ən gur yerində xüsusi dövlət qoruğu yaradılmışdır. Tripoli adlı qədim şəhər də məhz ordadır. Tripoli hazırda, Beyrutdan sonra ölkənin ikinci şəhəri sayılır.

Tripolinin inşa tarixini bizim eranın 635-ci ilindən qəbul edirlər. Şəhər hal - hazırda üç böyük hisəyə bölünür: Liman, Aşağı şəhər və Yuxarı şəhər. Şəhər haqqında verilən məlumatlarda ən çox XIV əsrdə, Osmanlı türkləri tərəfindən tikilmiş türk hamamlarının adı çəkilir.

Şəhərdən bir qədər aralıda yerləşən məşhur abidəyə müxtəlif adlar





verilib. O həm qala, həm dindarlar evi, həm də ay məbədi kimi məşhurdur. Bu maraqlı abidə 1593-cü ildə II Böyük Fəxrəddin tərəfindən inşa etdirilib. Dağlarda sərinlik içində yerləşdiyi üçün yayın istisində ölkənin prezidenti ora dincəlməyə gəlir. Abidənin muzey hissəsində Livanın əvvəlki hökmdarlarına aid çoxlu və rəngarəng material toplanmışdır. Ümumiyyətlə, mütəxəssislərin fikrincə, bu abidənin görkəmində zərif şərq elementləri üstünlük təşkil etsə də, mavritaniya üslubunun təsiri də aydın duyulur.

# TÜRKİYƏ

Türkiyə Respublikasının Anadolu adlanan Asiya hissəsi insanın ilk yaşayış məskənlərindən sayılır. Tədqiqatlar göstərmişdir ki, hələ qədim daş dövründə bu torpaqlarda insanlar yaşamışlar. Təxminən on min il əvvəl Anadolu ərazisində müəyyən mədəniyyətə malik oturaq əhali həyat sürmüşdür.

Çox zaman Türkiyə torpağını qədim mədəniyyətlərin tükənməz xəhinəsi adlandırırlar. Amma hələ sirri açılmamış nə qədər tarix uyuyur bu ərazidə. Bütün qədim dünyanın ölməz sənət əsərləri olan "İlliada" və "Odisseya"nın qəhrəmanları bu torpaqlarda fəaliyyət göstərmişlər. Troya, adı insanlara daha çox Homeri xatırladan Troya burdadır. Bəs bəşərin ağıl və işi sayəsində parlayan gözəl mədəniyyət abidələri Perqam, Efes, Milet, Kappodokiya, Atioxiya… hansını sayasan..

Bəzi alimlərin fikrincə müasir Türkiyənin ərazisində yaşamış ən qədim tayfalar xattlar olmuşdur. B.e. əvvəl III minillikdə isə qərbi və mərkəzi Anadoluda hind-avropa mənşəli qəbilələr üstünlük təşkil edirlər. B.e. əvvəl xett qəbilələrinin yaratdığı quldar xett dövləti şərqin o dövrdəki ən qüvvətli siyasi birlikləri ilə - Misir və Assuri şahlıqları ilə rəqabət apara bilmişlər. Xett şahlığının paytaxtı Xattusun xarabalıqları Türkiyənin hazırki paytaxtı Ankaranın 150km-də aşkar edilmişdir.

B.e. əvvəl VIII əsrdə Egey dənizi sahillərində bir sıra yunan qəbilə birləşmələri əmələ gəlir. Onlar əvvəl Troyanı, sonra isə Xett dövlətini məğlub edirlər. Sonradan Anadolu ərazisində yeni yunan dövlətləri yaranır. Onlardan Friqiyanı, Kariyanı, Lidiyanı, İoniya ittifaqını göstərmək olar. Kiçik Asiyanın yunanlaşma prosesi gedir. Hətta İran hökmdarı Kirin b.e.əvvəl 546-cı ildə yunanları tam məğlub etməsi də bu əməliyyatı dayandıra bilmir. İranın Əhəmənilər sülaləsinin Anadolu ərazisindəki hakimiyyətinə bu dəfə dahi sərkərdə Makedoniyalı İskəndər son qoyur. B.e. əvvəl 333-cü ildə o, Daranın qoşunlarını darmadağın edir və İran da daxil olmaqla ucu-bucağı görünməyən bir imperiya yaradır.

Bizim eranın əvvəllərində Kiçik Asiya bu dəfə qüdrətli Roma dövlətinə tabe etdirilir. Roma imperiyası bir neçə dəfə bölünüb birləşdikdən sonra, nəhayət eramızın 395-ci ilində son dəfə iki hissəyə parçalanır. Şərq əyalətləri paytaxt Konstantinopol olmaqla Bizans adlanmağa başlayır.

IV əsrdən etibarən xristianlıq Bizansın dövlət dininə çevrilir. Amma Romadan fərqli olaraq bu ölkədə pravoslavlıq yayılır. Ölkənin dini başçısı, yunan-pravoslav kilsəsinin patriarxı Konstantinopolda oturur.





III əsrdən VII əsrin əvvəllərinədək Bizans Sasanilər İranı ilə saysız-hesabsız müharibələr aparmışdır. Sonra isə müharibələr bu dəfə gənc qüvvətli dövlətlə -ərəb xilafəti ilə Bizans arasında gedirdi. İslam orduları iki dəfə Konstantinopolu mühasirəyə almağa müvəffəq olsalar da, tam məğlub edə bilməmişlər.

XI-XII əsrlərdə Bizans şərqdən gəlmiş yeni qüvvələrlə - səlcuqlarla vuruşmalı olur. Bir neçə əsr davam edən müharibələrdən sonra oğuz tayfalarının yaratdığı güclü dövlət-Osmanlı imperiyası qələbə çalır.

Müasir Türkiyənin əhalisinin etnik tərkibində əlbəttə, türklər çox böyük üstünlüyə malikdir. Amma yunan, laz, erməni, kürd və s. xalqlar da müəyyən dərəcədə onlarla ya qaynayıb-qarışmış ya da müstəqil olaraq yaşamışdır.

Türkiyə tarixi ilə məşğul olan mütəxəssislər bu fikirdədirlər ki, Osmanlı türklərinin incəsənəti əsas etibarilə XI əsrin ortalarından təşəkkül tapmışdır. Ərəb və Fars xalqlarının çox əsrlik tarixə malik mədəniyyətlərindən fərqli olaraq osmanlı türklərinin mədəni irsi cavan hesab olunur. Tarixçi alimlər bu halı əsasən tarixi amillərlə, xalqın yaşayış xüsusiyyətləri və s. ilə bağlayırlar.

Osmanlı türklərinin incəsənətinin çiçəklənmə dövrü Osmanlı imperiyasının ən qüvvətli vaxtına XV-XVI əsrlərə təsadüf edir. Məhz bu zaman ölkədə saysız-hesabsız məscidlər, karvansaralar, mavzoleylər və s. memarlıq abidələri yaradılmışdır. XVI əsrdən XIX əsrin ortalarınadək isə incəsənətdə əvvəlki inkişaf ləngiyir, milli kolorit zəifləyir, xarici - xüsusilə Avropa ölkələrinin təsiri güclənir.

Osmanlı dövlətinin tərkibinə XIV-XIX əsrlərdə daxil olan qeyri-türk, yunan, slavyan, fars və s. xalqların bu mədəniyyətin yaradılmasında göstərdikləri xidmət şübhəsizdir. Bununla birlikdə, göstərilən dövrdə yaradılmış abidələrin təkrarsızlığı, özünəməxsus xüsusiyyətlərə malik olması da inkaredilməz faktdır.

İlk memarlıq abidələri sayılan Yaşıl Came (Ədirnə 1414-ci il) və s. Kiçik Asiyanın əvvəlki iri dövləti - Səlcuqilər imperiyası abidələri ilə müqayisə edənlər müxtəlif osmanlı ustalarının öz sələflərindən bir sıra konstruksiya, kompozisiya xüsusiyyətləri əxz etdiklərini söyləyirlər. Amma burada inşa olunmuş Yaşıl Came adlı məscid həm planına, həm də daxili tərtibatına görə yenidir və bu məqsədlə yaradılmış əvvəlki tikililərin təkrarı olmadığını göstərir. Maraqlıdır ki, bu tanınmış abidələrin tikintisində Azərbaycandan gətirilmiş sənətkarların - Təbrizli ustaların- Məhəmməd Məcnunun və Əli ibn Hacı Əhmədin də böyük əmək sərf etdikləri qeyd olunur.

Osmanlı memarlığında özünəməxsus xüsusiyyətlərin formalaşması müəyyən mənada Kəmaləddin adlı memarın adı ilə bağlıdır. Onun Ədirnədə

1448-ci ildə başa çatdırdığı Yuç-Şerefeli məscidi deyilənə ən yaxşı misaldır. Həmçinin, 1421-ci ildə Bursada inşa etdilmiş Sultan I Mehmet Çələbinin mavzoleyi də bu qəbildəndir.

Kəmaləddin və müasirlərinin osmanlı memarlığına gətirdiyi yeniliklər, daha doğrusu yeni memarlıq məktəbinin yaradılmasına verdiyi töhfələr ilk növbə də minarələrin sayına və formasına aid idi. Onlar məscidlərin dörd tərəfində əvvəlkindən fərqli olaraq dörd minarə yüksəltmişdilər. Həm də minarələr daha düzgün qamətli və yaraşıqlı idilər. Məscidlərin gümbəz hissəsində də dəyişikliklər aydın nəzərə çarpırdı. Bir sözlə həm ümumi planda, həm konstruksiyada, həm ayrı-ayrı detallarda Osmanlı memarlığında özünəməxsusluğun yarandığı müşahidə olunurdu.

İstanbulun Akropol meydanında 1466-cı ildə inşasına başlanmış və hazır olduqdan sonra XIX əsrdən Türkiyə sultanlarının rəsmi iqamətgahı sayılan Topqapı saray kompleksi də görkəmli abidələrdən sayılır. Memar Kəmaləddin bu kompleksə daxil olan Çinili-köşk adlı binanın tikintisinə rəhbərlik etmişdir.

XVI əsr Osmanlı imperiyasının ən qüdrətli dövrüdür. Ölkənin sərhədləri Avsrtriyanın indiki paytaxtı Vyananın yaxınlığından Hind ökeanınadək, Qafqazdan Atlantik okeanınadək uzanırdı. Oğuz türklərinin yaratmış olduğu hərbi - feodal dövlət özünün qızıl dövrünü yaşayırdı. Fəth olunmuş ölkələrdən, məğlub edilmiş dövlətlərdən alınan külli miqdarda qənimət, vergi, Osmanlı hakim dairələrini son dərəcə varlandırmışdı. Artıq təkcə sultanın yox, həm də iri feodalların, canişinlərin saraylarında təmtəraq, zənginlik get-gedə adi hala çevrilirdi. Adi, zəhmətkeş xalqdan zor gücünə alınan vergilər istismarçı təbəqələrin keyfinə sərf olunur, həyatını rövnəqləndirirdi. Dövlətin başçıları adlarını "həmişəlik əbədiləşdirməkdən" ötrü külli miqdarda xərc tələb edən tikililər - əksər hallarda mavzoley və məscidlər- yaratmağa çalışırdılar.

Yeni tikiləcək binalar həm dövlətin qüvvəsinə müvafiq olmalı, həm də islam dininin sənət qarşısında qoyduğu tələblərə cavab verməli idi. Amma abidələri iri ölçüdə yaratmaq zərurəti onlara yeni konstrutiv zəll, yeni planlaşdırma və s. mühüm işlər görməyə məcbur edirdi. Bu baxımdan memarlıq əvvəllər tikilmiş abidələrin- ilk növbədə öz ölçüləri, tərtibatı, kamilliyi ilə nüunə rolunu oynayan Müqəddəs Sofiya kilsəsinin- xüsusiyyətlərini öyrənirdi.

Osmanlı incəsənətini keçmiş sovet mütəxəssisləri də daxil olmaqla öyrənən alimlərin demək olar ki, hamısı Konstantinopolda yaradılmış memarlıq ansamllarının ümumən türk - Osmanlı incəsənətinə təsirini xüsusi qeyd edirlər. Müqəddəs Sofiya kilsəsi məscidə çevrilərək - yad dinin - xristianlığın varlığının təcəssümçüsü funksiyasını itirmişdi. O, artıq islam dininin böyük və zəngin abidəsi kimi osmanlı memarlarını özünə cəlb edir, öz inşaat xüsusiyyətlərini öyrənmək üçün təşəkkül tapan Osmanlı memarlıq məktəbinin nümayəndələrini həvəsləndirirdi.





Bu işdə böyük müvəffəqiyyət qazanan 1489-cu ildə Anadolunun Qayseri şəhərciyində doğulmuş Sinan həqiqətən Osmanlı - türk incəsənəti tarixində bütöv bir mərhələ yaratmış, dünya memarlıq tarixində silinməz iz qoymuşdur. Onun adını sənətşünaslar bəşər sivilizasiyasının ən sönməz ulduzları ilə bir cərgədə çəkirlər. Bu böyük sənətkarın yaradıcılıq vüsətini təsəvvür etmək üçün təkcə bunu demək kifayətdir ki, onun bilavasitə layihəsi və rəhbərliyi altında 81 iri, 50 kiçik məscid, 55 mədrəsə binası, 19 mavzoley, 17 imarət, 3 xəstəxana binası, 7 akveduk, 8 körpü, 17 karvansara, 32 saray, 33 hərəmxana binası inşa edilmişdir. Həmin abidələrlə Osmanlı dövlətinin müxtəlif yerlərində rast gəlmək mümkündür.

# YUNAN SƏNƏTİ

Qədim dünyanın ən mahir sənət yaradıcılarından biri, yunan xalqı olmuşdur. Aradan iki min ildən də çox zaman məsafəsi keçdiyinə baxmayaraq qədim yunanların əməyi sayəsində meydana gələn sənət əsərləri- memarlıq, heykəltəraşlıq, təsviri sənət nümunələri- hələ də öz gözəlliyini, forma kamilliyini, təravətini itirməmişdir.

Qədim yunan (ellin) sənəti dünya mədəniyyətinin ən parlaq səhifələrindən birini təşkil edir. Ondakı həyatilik, insan qüvvəsinin təsviri, gözəlliyin tərənnümü və sair məziyyətlər həmişə yüksək qiymətə layiqdir. Yunan heykəltəraşlığı ilk dəfə olaraq azad ictimai insan, vətəndaş surəti yaratmışdır. İnsanın ali xüsusiyyətlərinin bariz təcəssümü yunan sənətinin həm estetik, həm də tərbiyəvi təsirini artırıb.

Yunan sənətindəki obrazlar qədim xalq yaradıcılığının mifik qaynaqlarından qidalanaraq meydana gəlirdi. Mifik surətlər içərisində zəngin yunan təxəyyülünün məhsulu olan allahlarla yanaşı, hər şeyə qadir qüvvətli və cəsur insanlar da geniş yer tuturdu. Sənət məhusullarının çoxunda yunanlar həmin surətləri verməklə yaşadıqları dövrün hadisələrini təsvir etməyə çalışırdılar. Odur ki, mifik obrazların mahiyyətində çox zaman insan xarakteri dururdu. Belə səhnələr şər qüvvələrin təmsilçisi kentavrlarla (yarımvəhşi at- yarım adam) insanların mübarizəsini əks etdirirdi. Kentavrların simasına təbiətin kortəbii vəhşi qüvvələri verildiyi halda, insan

surətləri təbiətin ən kamil və yetkin nümunələri kimi təqdim olunurdu. Bu mübarizə adətən kamil insanın qələbəsi ilə bitirdi. Yunan sənətinin bu cəhətinə diqqət verən dahi mütəfəkkir Aristotel onu "təbiətin sadə təqlidi" adlandırmışdı. Başqa bir böyük filosof Platon isə sənətin tərbiyəvi əhəmiyyətini, onun insan duyğularında oynadığı rolu çox da yüksək qiymətləndirməsə də insanın özünü gözəl və sağlam olmağa, hormonik surətdə inkişaf etdirməyə çağışmışdır. Platon göstərirdi ki, yalnız idmanla məşğul olmaq insanı kobudlaşdıra, incə zərif duyğulardan məhrum edə bilər. Əksinə yalnız elm və sənətə ömür sərf edib fiziki gözəlliyi və sağlamlığı yaddan çıxarmaq isə zəiflik və xəstəliklə nəticələnə bilər. Odur ki, əqli və mənəvi inkişaf mütləq fiziki tərbiyə ilə həmahəng olmalıdır ki, kamil insan yetişə bilsin.

Yunan sənətinin yaranma, inkişaf və yayılma tarixi sıx surətdə antik cəmiyyətin tarixi prosesi ilə bağlı olmuşdur. Onun birinci mərhələsi b.e.ə. IX -VIII əsrlər hesab edilir. Bu sənət özünün primitivliyi və sadə təsvir vasitəsilə səciyyələnmişdir. Həmin dövrdəki yaranmış üslub isə həndəsi üslub adlandırılır.

Sonrakı mərhələ daha zəngindir (b.e.ə. VII-VI əsrlər). Məhz bu dövrdə məbəd əsas memarlıq nümunəsi kimi bütün sənət sahələrinə başçılıq edir. Məbəd bir ictimai bina kimi yunan şəhər - dövlətlərinin (polislərin) başlıca mərkəzlərinə çevrilmişdir.

Dövlətin himayədarı olan allahlar məbədlərdə təcəssüm edilmişdi və hər bir vətəndaşın borcu ona sitayiş etmək idi. Məbədlər bu ideoloji və siyasi vəzifəni yerinə yetirdiklərinə və allaha bir növ "ev olduqlarına" görə polisin digər binalarından seçilirdi. O, daha zəngin və görkəmli olmalı, onu görənlərdə nəhənglik təsəvvürləri yaratmalı idi. Bunun üçün məbədin giriş qapıları iri tikilir, yerləşdiyi özül isə hündür olurdu. Özül çoxlu pilləkanlara malik yaradılırdı. Allahlara həsr edilmiş məbədlərin fasadı Şərqə sarı olmalı idi. Giriş qapısının arxasında ucaldılmış allah heykəli mütləq gündoğana sarı baxmalı idi. Ölümündən sonra ilahiləşdirilmiş qəhrəmanların şərəfinə ucaldılan məbədlərin üzü isə günbatana sarı olardı. Onun rəmzi mənası bu idi ki, ilahə daha çox o dünya ilə bağlıdır.

O dövrdəki ən çox yayılmış məbəd növü peripetr adlanırdı. Məhz peripetr sonralar yunan memarlığının məbəd tikintisində başlıca nümunə olmuşdur. O, dörd bir tərəfdən sütunlarla əhatə edilmiş dördbucaqlı formaya malik imiş.

Peripetrlə əlaqədar olaraq yunan memarlığının ən böyük tapıntılarından sayılan order adlı ünsür meydana gəlib. Order sütunlarla binanın örtüyü qurulan xüsusi hissəyə deyirlər. Orderdən qədim dövrlərdə ağacdan tikilən





binalarda istifadə edərmişlər. Daş sütunlarla binanın örtüyünün birləşdiyi yerdə qurulan order üç cür olmuşdur. Onların ən qədiminə dori üslublu order, ikincisinə ioniya orderi və ən sonuncusuna isə korinf orderi adı verildi. Hər üslubun, əlbəttə öz xüsusiyyətləri olmuşdur.

Məbəd memarlığında, xüsusilə binanın yuxarı hissələrində rəng - bəzək işlərindən geniş istifadə edilib. Yunanların ən çox sevdiyi rənglər - qırmızı, göy və qızılı rənglər idi. Həm məbədlərin əsas hissələri, həm də heykəllər rənglənirdi.

Qeyd olunmalıdır ki, dori üslublu orderlər işlədilən məbədlər daha çox əzəmət və ciddilik təsiri bağışlayırdı. İoniya üslubu özünü ən çox mərmər dipterlər adlanan tikililərdə biruzə vermişdir. Onların adətən iki sıra sütunları olub. İoniya üslubunun ən gözəl nümunəsi Efesdəki Artemida məbədidir və o, haqlı olaraq dünyanın yeddi möcüzəsindən biri hesab edilir.

O dövr memarlığında mərmərlə yanaşı əhəndaşı da geniş istifadə olunub. Əvvəllər adətən ağac heykəllər qoyulurdusa, sonradan tuncdan tökülən heykəllər onun yerini tutmuşdur. Daha sonralar isə yunanlar daşdan da heykəllər yonub yaradıblar.B.e.ə. VII-VI əsrlərdə isə yunan heykəltəraşlığında əsasən ciddi - simmetrik üslub hökm sürmüşdür.

B.e.ə V əsr yunan quldarlıq cəmiyyətinin ən yüksək inkişaf mərhələsi sayıldığı kimi sənətkarlığın da ən parlaq dövrü hesab edilir. Digər tərəfdən yunanların farslar üzərindəki qələbəsi xalqda (deməli sənətdə də) böyük ruh yüksəkliyi yaratmışdı və vətənpərvərlik hissini coşdurmuşdu. Bu dövrdə yaradılmış ən yaxşı sənət nümunələri Paseydoniyadakı (Cənubi İtaliya) və Olimpiyadakı məbədlərdir. Xüsusilə Olimpiyadakı Zevs məbədi daha çox qeyd olunur. Yerli əhəngdaşından tikilən bu abidənin Şərq frotundakı heykəllər qrupu Pelops və Enomayanın arabalardakı yarışlarını təsvir edərmiş. Məbədin içərisində isə 14 m hündürlükdə fil dişi və qızıldan düzəldilmiş Zevsin heykəli ucadılıbmış. Qeyd olunur ki, Zevsin bədəni bir - birinə kip bərkidilmiş fil sümüyündən, saçları və paltarı isə qızıl lövhələrdən hazırlanmışdır. O, məğrurcasına öz taxtında əyləşibmiş. Taxt isə fil sümüyü, qızıl və qiymətli daş-qaşların istifadə edildiyi qara ağacdan düzəldilibmiş. Heykəlin müəllifi Fidiy adlı sənətkar imiş. Həmin dövr yunan sənətinin ən böyük nümayəndələrindən həmçinin Miron və Polikletin adı çəkilir.

B.e.ə. V əsrin II yarısında quldarlıq demokratiyasının tərəqqisi ilə əlaqədar olaraq Afinada böyük quruculuq işləri görülür. Eramızın II əsrində yaşamış Plutarxın yazdığına görə o dövrdə çoxlu əcnəbi memar, heykəltəraş, rəssam və nəqqaş işləyirmiş. Onların əməyinin nəticəsi kimi Afina Akropolu adlanan və özündə dövrün başlıca memarlıq abidələrini cəmləşdirən ansambl meydana gəlir.



*Aya Sofiya*



Mütəxəssislərin rəyincə Akropol, yunanların memarlığı hissiyyatla uyğunlaşdırmaq bacarığının ən yaxşı ifadəsidir. Digər tərəfdən o, afinalıların qüdrətinin timsalı idi. Akropol, onun yaradıcılarının nəzərində başqa yunan şəhərlərinə münasibətdə Afinanın hegemonluğunu nümayiş etdirməli, ellin dünyasının siyasi və mədəni mərkəzi təsiri yaratmalı idi.

B.e.ə. VI əsrdə şəhər-dövlətlərin tənəzzülü sayəsində yunan sənətində dəyişiklik baş verir. Əvvəlki kimi sənət daha bütövlükdə şəhər obrazını yox, ayrı-ayrı şəxslərin mənafeyini ifadə edir. Heykəltəraşlıqda qəhrəmanlıq cizgiləri itir, rəssamlıq isə əsas diqqətini insanın daxili aləminə verir. Allahlar daha adi təsvirlə verilir.

Memarlıq da öz xarakterinə görə dəyişilir. Bu dövrdə İoniya stili üstünlük qazanır. Get -gedə məbədlərin inşaatı məhdudlaşır. Bu dövrdə daha çox teatr binaları, polestlər və gimnaziyalar tikirlər. Ayrı-ayrı hökmdarlar özləri üçün təmtəraqlı imarətlər qurdururlar.

O dövrün ən yaxşı memarlıq nümunəsi kimi Epidavrda tikilən Asklepinin məbədi diqqəti cəlb edir. Məbəd müalicə allahının şərəfinə tikildiyindən ora çoxlu xəstə pənah gətirərmiş. Məbəd ətraf memarlıq abidələrinin mərkəzində yerləşdirilmiş və öz sadəliyi ilə fərqlənərmiş. Ansamblın ən tanınmış abidələrindən biri on min tamaşaçı tutan teatr binası olmuşdur.

Kiçik Asiyanın Qalikarnos adlı şəhərində tikilmiş mavzoley o dövrün yadigarıdır. Abidə hökmdar Mavsolun dəfn olunduğu yerdə ucaldılıb. Bu mavzoley dünyanın yeddi möcüzəsindən biri hesab edilir. Qeyd edilməlidir ki, Skopos adlı məşhur memar bu abidənin inşasında fəal iştirak etmişdir. Mavzoleyin bəzəyi sayılan və yunanlarla amazonkaların vuruşunu əks etdirən relyef onun işidir.

E.ə. IV əsrdən etibarən yunan mədəniyyəti daha çox Kiçik Asiyada, Suriya və Misirdə tərəqqi edir. O dövrdə tikilən abidələr öz təmtərağı və zənginliyi ilə seçilirdi. Order üslubu müxtəlif variantlarla tətbiq edilirdi. Yaranan ellin orderi daha yüngül və zərif idi.

Ellin sənətinin nəhəngliyini və zənginliyini ən yaxşı nümayiş etdirən abidələrdən biri Milet yaxınlığındakı Apollon məbədidir. O b.e.ə. IV-II əsrlərdə inşa edilib. Onun sütunlarının hündürlüyü 20 m çatarmış.

Şəhərlərin mərkəz meydanları adətən üstüörtülü qalereyalarla əhatə olunarmış. Bəzi hallarda iki yaruslu sütun dirəklərdən istifadə edilərmiş. Əvvəlki dövrlərdən fərqli olaraq adi adamların təsviri, irqindən, peşəsindən, yaşından asılı olmayaraq geniş yayılır.

E.ə. II əsrin memarlığı və ümumiyyətlə sənət səviyyəsi özünü Perqamdakı Zevs məbədində göstərmişdir. Məbədin relyefi ən yaxşı sənət

abidəsi kimi hər yanda tanınır. Bu abidə bir də onunla səciyyələnir ki, burda nə şəhər-dövlət, nə də vətəndaşlar yox, ölkənin hökmdarının şöhrəti vəsf edilmişdir. Maraqlıdır ki, bu məbədin heykəllərinin ümumi ahəngində bir qəhrəmanlıq pafosu və dramatizm duyulur. Epiqon adlı sənətkarın işi sayılan bir neçə detal buna ən yaxşı misaldır. Onun yaratdığı "ölən qall", "özünü və arvadını qılıncla öldürən qall", heykəllərində insanın azadlığa olan məhəbbəti və gözəlliyə nifrəti öz əksini tapmışdır. Çünki qall düşmənlərə əsir düşdüyünə və köləlik həyatı qisməti olacağına görə özünü öldürür. Yəni, qall sürətində ölümü gözəllikdən üstün tutan adam təsvir edilmişdir.

Yunan memarlığı bütün yunan elmi və mədəniyyəti kimi dünya mədəniyyətinə böyük təsir göstərib. Yunan memarlığının digər fərqləndirici cəhəti onun ümumxalq malı olmasında idi. Böyük sənət abidələri özünün dini-ideoloji və sosial-siyasi vəzifələrini yerinə yetirməklə yanaşı hamı tərəfindən qorunur və sevilirdi. Hər bir vətəndaş onlardan estetik zövq almaq imkanına malik idi.

## EFES

Qədim Efes şəhərinin xarabalıqları İzmirddən təxminən 80 km cənubda, iki dağın - Panayırda və Bülbüldağın - arasındakı vadidədir. Onu çox zaman açıq havada olan muzey adlandırırlar. Bir qədər aralıda Aladağın zirvəsində xristian dininin ən müqəddəs ocaqlarından biri, Qız Məryamın evi durur.

Kilsə təliminə əsasən, Məryəm Ana (Boqorodisa) öz oğlu İsus Xristosun vəfatından sonra Kiçik Asiyaya yollanıb. O, bu yerlərdə xristian dinini yayır və Efesin yaxınlığında vəfat edir. Çox sonralar, XIX əsrin sonunda Aladağın zirvəsindəki bu ev, bir sıra mütəxəssislər (məşhur arxeoloq alim Yanq başda olmaqla) tərəfindən və kilsə rəhbərlərinin təkidilə Qız Məryəmin evi kimi qəbul edilir. Bundan sonra həmin yer dünya xristianlarının ziyarətgahına çevrilir.

Efes dünyada tanınan şəhər olub. O, bəşəriyyətə "dialektikanın atası" saylan Efesli Herakliti verib, dünyanın yeddi möcüzələrindən biri Efes Artemidasının məbədi burda olub.

Efesdə əsaslı arxeoloji qazıntılar XIX əsrin 60- cı illərində ingilis alimi Vufun rəhbərliyi altında aparılıb. Nəticədə Efesdə Teatrın və Artemida məbədinin qalıqları üzə çıxıb.







*Türkiyə – Efes*

Artemida allahın məbədinin yaranma tarixi haqqında Artemionun yazdıqlarından bir sıra məlumatlar almaq olur.

Efes əhalisi, həmişə yüksək saydıqları ovçuluq ilahəsinin şərəfinə məbəd yaratmağı qərara alırlar. Memar Xersifren işə rəhbərlik edir. Qeyd etmək lazımdır ki, qədim dövrlərdə ovçuluq Kiçik Asiya əhalisi arasında ən yüksək yerlərdən birini tutarmış.

Məbədin tikintisində yerli xammaldan, mərmərdən istifadə olunub, tikinti işləri ağır zəhmət və uzun vaxt tələb edib. Məbədin inşası üçün həm yerli və həm də ətraf çarlıqların əhalisi çoxlu maddi vəsait ayırıblar.

Memar Xersifren əvvəlcə binanın özülü üçün böyük çökək qazdırır. Onu ağac və yunun qarışığı ilə doldurur ki, gələcək tikilinin özülü möhkəm, həm də elastik olsun.

Məbəd, tarixi məlumatlara görə 120 ilə tikilib. Memar özü onu hazır görə bilməyib. Oğlu Metaqen inşanı başa çatdırıb. Tikili b. e. əvvəl 450- ci ildə tamamlanıb.

Tikilinin bütün formasındakı yüngüllük və simmetriya onu görənləri heyran qoyur. Məbəd hər tərəfdən mərmərdən tikilmiş iki sıra hündür və düzgün sütunlarla əhatə edilibmiş. Bu bina öz döründə nəinki təkcə Efesin,

həmçinin bütün Kiçik Asiyanın fəxri olub, şöhrəti bütün dünyaya yayılıb.

Amma məbədi b. e. əvvəl 356- cı ildə Qurotrat adlı birisi yandırır. Onu yenidən təmir edib əvvəlki halına salmaq üçün Efes əhalisi vəsait toplayır və işə başlayır. Bu zaman Makedoniyalı İskəndər öz ordusu ilə Kiçik Asiyadan keçərmiş. B. e. əvvəl 333- cü ildə o, Efes yaxınlığında olarkən şəhərin elçiləri ilə görüşür. İskəndər məbədin tikilməsinə gömək edə biləcəyini söyləyir. Amma məğrur Efeslilər sərkərdənin yardımını qəbul etmirlər.

Beləliklə, Artemida məbədinin uzunluğu 109 m, eni 50 m. olub. Ətrafındakı, onu bürümüş sütunların ümumi sayı 127- yə çatarmış. Hər biri 20 m. hündürlüyündə olub. Məbədin içərisində sidr ağacından çox böyük məharətlə yonulmuş Artemidanın heykəli durarmış. Ondan başqa bir sıra rəsmlər və heykəllər də burda imiş. 36 sütunun relyefi qədim sənətkarların əlləri ilə yaradılıb. Bu, dini mərkəzdən daha çox qədim sənət nümunələri saxlanan bina olub.

B. e. əvvəl 263- cü ildə Efesi istila edən xatlar məbədi də ələ keçirirlər. Sonradan məbəd yeni dinin xristianlığın tərəfdarlarının hücumuna məruz qalır. Həm də çayın hövzəsinə yaxın yerdə salındığından get- gedə sellərin gətirdiyi qum- daş onu doldurur.

Məbədin hazırki vəziyyətə gətirilməsi bizim əsrin əvvəllərində mükün olub. Hazırda Qumadası adlanan yerə gedən yoldan bir qədər aralıdadır. Qədim evlər, küçələr nisbətən yaxşı qalıb. Dövrünün ən böyük teatrlardan sayılan Efes teatrı da müəyyən edilib. O, Panayırdağın qərb yamaclarında salınıbmış. Teatrı qədim Efesin ən maraqlı tikililərindən sayırlar.

Tarixi məlumatlara görə o, imperator Klavdiyanın hakimiyyəti zamanında (41- 54- cü illər) tikilməyə başlayıb. İnşası imperator Trayanın dövründə (98- 117- ci illər) başa çatdırılıb. Tamaşa salonu 24 min adam tutarmış. Teatrın mərmər səhnəsini özündə saxlayan binövrə indiyənədək qalmaqdadır.

Ümumiyyətlə, Efesin bu böyük teatrı şəhərin himayədarı sayılan Artemidaya həsr edilmiş təntənələrdən ötrü inşa edilibmiş. Hər il aprel ayında keçirilən təntənələr axırda teatr qruppasının oyunu ilə tamamlanarmış. Sonralar, ellin dövründə və roma hakimiyyəti zamanı teatrda əsasən tamaşalar qoyularmış.

Efes teatrından başqa arxeoloqlar qədim kitabxananı da aşkar ediblər. Bu gözəl bina məşhur roma senatoru Selsin Poleminə xatirə olaraq oğlu tərəfindən tikdirilib. Onun zirzəmisində indi də Selsinin mərmərdən düzəldilmiş qəbri qalmaqdadır. Bu gün eni 21 m. olan və mərmərdən düzəldilmiş dəhlizin sonunda oxucu zalı yerləşən sahəyə girmək olar. Bütün zal və dəhliz rəngli mərmərdən inşa edilib.





*Süleymaniyyə*

Kitabxana ilə üzbəüz qədim Efesin iki küçəsinin kəsişdiyi yerddə, şəhərin çiçəkləndiyi dövrdən qalma digər abidələr - Zəfər darvazası və fantan nəzəri cəlb edir. Onlardan başqa Oktaqon mavzoleyi də vardır.

Ümumiyyətlə, Efesin ən məşhur küçəsi Arkadi xiyabanı adlanıb. O imperator Arkadinin dövründə əsaslı surətdə tikilib, tərtibat aldıqdan sonra bu adı qazanıb. Küçə Efesin böyük teatrından başlayıb limanda sona çatarmış. Uzunluğu yarım km, eni 14 m. çatan bu küçə böyük mərmər pilitələrlə örtülübmüş. Tədqiqatçı alimlərin fikrincə, pilitələrin altında xüsusi tullantı sistemi olub. Küçənin hər iki tərəfində ticarət binaları yerləşibmiş. Qədimdən qalma yazı xəbər verir ki, küçə iki tərəfdən fənərlərlə işıqlandırılarmış. Hazırda mərkəzi küçənin hər iki ucunda tikilmiş Zəfər darvazalarının qalıqları durmaqdadır. Böyük teatra sarı açılan darvaza xüsusi maraq doğurur.

Qədim şəhərdən tapılan qiymətli eksponatlar Efesdən bir neçə km aralıqda salınmış Səlcuq adlı türk şəhərindəki Efes muzeyində toplanıb. Muzey 1929- cu ildə yaradılıb. Muzeyin binası çox da böyük olmasa da müasir formadadır, eksponatlarla zəngindir.

## PERQAN- ZEVS MƏBƏDİ

Paytaxtı Perqam şəhəri olan çarlıq Kiçik Asiyanın şimali- qərb hissəsində yerləşmişdir. O, tarixdən məlum olan Friqiyya, Lidiya, Kariya və Psidiya adlı əyalətləri özündə birləşdirmişdi. Bu çarlığın ən böyük dövrü b. e. əvvəl III əsrin ortalardan başlayır və b. e. əvvəl 133- cu ilədək davam edir. Bundan sonra çarlıq Roma tabeliyinə keçir və tənəzzülə uğrayır. Perqamın inkişafı hər şeydən əvvəl əlverişli coğafi şəraiti, bərəkətli torpaqları və ticarətin güclü fəaliyyəti ilə əlaqədar olmuşdur. Ölkənin mədəni və yüksək səviyyəli rəhbərləri xəzinəyə daxil olan bolluca gəliri sənətə, ölkənin mədəni inkişafına sərf etməkdə böyük iş görmüşdür. Nəticədə qədim dünaynın "yeddi möcüzəsindən" sayılan və indi də çox yüksək qiymətləndirilən Perqam Akropolu yaradılmışdır. Bu gözəl və nəhəng tikili gimnaziyalardan (qimnastika məktəblərindən), teatrdan, Afina məbədindən, Dianis məbədindən, Zevs mehrabından, müxtəif saraylardan, cürbəcür xidmət binalarından və s. ibarət olub. Perqamın o dövrdəki yüksək mədəni səviyyəsini, fondlarında 200000 qədər əlyazma, kitab və s. saxlanılan kitabxanası yaxşı xarakterizə edir. O, məşhur İskəndərin İskəndəriyyə





kitabxanasından sonra öz zəmanəsini ən böyük kitab sarayı sayılarmış. Perqam əhalisi Misir papirusu ilə beynəlxalq aləmdə yarışa bilən yeni yazı materialı, tarixə perqament adı ilə daxil oliuş nazik dəri istehsal ediblər.



*Perqam*

Perqam Akropolunun sənətkarlıq baxımından ən kamil hissəsi sayılan Zevs məbədi b. e. əvvəl II əsrin əvvəllərində qatlar üzərində qələbənin şərəfinə ucaldılıbmış. Mütəxəssislərin fikrincə, burda memarlıqla heykəltəraşlıq və təsviri sənətin digər komponentləri ən böyük ustalıqla birləşərək əzəmətli sənət abidəsi təşkil edirlər. Məbədin ümumi görünüşü dördbucaqlı fomasındadır. Ölçüləri 36, 44x34, 20 m bərabərdir. Hündürlüyü 9 m. çatarmış. Enli kürsü (1, 80 m hündürlüuündə) üzərində nəhənglərin allahlarla müharibəsini təsvir edən böyük friz yerləşərmiş. Bundan əlavə eni 26 çatan 20 pilləli pilləkan məbədin ikinci hissəsilə birləşərmiş. O, şimal və cənub hər birində 21 sütunla, ön tərəfdə 4 sütunla və pilləkanlar üzərində dayanan 12 sütunla əhatə edilərmiş. Daxili hissədə yerləşən sütunların arasında Zevs allaha gətirilən qurbanlar üçün xüsusi yer varmış. Binanın damında başdan- başa müxtəlif heykəllər tamaşaçıların diqqətini cəlb edərmiş.

Zevs məvədində, eləcə də bütövlükdə Perqam Akropolunda salamat qalmış eksponatlar Berlində xüsusi "Perqam muzeyi" adlanan məşhur tarix və sənət sarayında toplanmışdır. Məbədin əsas hissəsi orda təmsil olunmur. Amma bununla belə XIX əsrin sonlarında alimlərin böyük əməyi və səyi nəticəsində yığılıb bəşərin xidmətinə çevrilmiş bu görkəmli abidənənin əhəmiyyəti azalmamışdır.

Frizin ümumi uzunluğu 120 m çatarmış., eni isə 2, 30 m imiş. O, təxminən eni 0, 7 m- dən 1, 10m olan 115 pilitətən hazırlanıbmış. Pilitələr

həm bir-biri ilə, həm də kürsülük və karnizlə xüsusi birləşdirci qarmarqlara möhkəm birləşibmiş. Məbədin bütün binası, frizlər üzərindəki abidələr və heykəllərin hamısı yerli Perqam mərmərindən yaradılıbmış.

Böyük friz üzərində həkk olunmuş sujet, allahlarla nəhənglər arasında gedən vuruşmalardan götürülübmüş. Yunan mifologiyasına əsasən Yer Allahı Qeylin və Göy Allahı Uranın övladları olan nəhənglər, Göy allahlarının və xüsusilə başçısının əlehinə üsyan qaldırır və hakimiyyəti ələ keçirmək istəyirlər. Allahların nəhənglər üzərində qələbə çalması, Perqamın öz düşmənləri üzərində qələbələrinin bir növ simvolik ifadəsi olmalıymış. Onun ölçüləri və sənətkarlıq səviyyəsi Perqam çarlığının və xüsusən perqamlı hakimlərin zənginliyini və gücünü nümayiş etdirməli idi.

Frizin ümumi kompozisiyası ayrı- ayrı vuruşan qruplardan ibarət olub vahid ideyaya xidmət edir. Bir cəbhədə- xeyri təmsil edən allahlar, başqa bir cəbhə də isə şər qüvvələrin ifadəçiləri, nəhənglər durmuşdular. Ölüm- dirim mübarizəsi getdiyi üçün gərginlik son həddinə çatmışdır.

Təsvir olunanlar müxtəlif vəziyyətdədirlər. Onlardan bəzisi at üstündə, digəri şirin belindədir. Biri dörd at qoşulmuş arabada gedir, (Qelios) başqası (Poseydon) dəniz atını minib; allahların bəziləri isə qılınc- qalxan tutublar.

Nəhənglərin də təsviri rəngarəngdir. Sənətkarlar onları gah qanadlı, gah da aslana bənzər ayaqlı təqdim edirlər. Nəhənglərin bəzilərinin görkəmi isə adi yunan əsgəri təsiri bağışlayır.



*Türkiyə – Perqan*





Bəzi əşyaların rəngli verilməsi, təsvir olunan sürətli çılpaq bədənlər ilə birlikdə yaratdığı ümumi ahəng relyefin təsir qüvvəsini daha da artırırdı.

Friz üzərində verilən allahlar əsas etibarilə dörd cəhətə görə qruplaşdırılıb: Şərq tərəfdə yunan penteonun ən ali Allahları gəlir: Zevs, Afina, Apollon, Artemida və s. təsvir olunur. Şimal tərəfdə əksərən gecə ilahələrinin vuruşduğunu görürük (Niks, Dioskura, Eriniya və s. ).

Nəhəng ölçülərə malik frizi təsvirlərlə tam əhatə etmək üçün göstərilən fiqurlardat əlavə başqa canlıların - yer allahlarının, əcinnələrin, müxtəlif heyvanların (atların, pələnglərin) - təsvirləri də verilmişdir.

Sənətşünas alimlərin fikrincə Zevs məbədinin daxili tərtibatı ellin incəsənətini səciyyələndirmək üçün ən yaxşı nümunədir. Məbədin ikinci yarusunun qurban verilmək üçün yaradılan bölməsi sütunlarla və friz relyefi əhatə olunmuşdur. Məbədin başqa bir xüsusiyyəti pilləkanlı özülü olan hündür kürsülük isə şərq memarlığından əxz olunmuşdur. Onlar həmçinin, məbədin, Perqam heykəltaraşlıq məktəbinin ən yaxşı ənənələrini özündə cəmlədiyini qeyd edirlər. Ümumiyyətlə, Perqam məktəbinin Afina incəsənəti ilə üzvü bağlı olduğu məlum tarixi faktdır. Perqam hakimləri nəsil etibarilə Afinalı olduqlarını həmişə qeyd etməyə çalışmışlar. Hətta allahlarla nəhənglərin vuruşmasınnın süjeti də Afina ilə əlaqədar olduğu qeyd edilir.

Bütün Akropol kimi məbədin taleyi də kədərlə doludur. Orta əsrlərin başlağıcında o dağılır, yerə tökülmüş çoxlu hissələri perqamlılar şəhər qalasının tikintisində istifadə edirlər. Salamat qalmış qismini isə təbii qüvvələr xarab edir. Sonralar bu gözəl sənət abidəsinin ətrafında daş karxanası yaradıldığından onun detallarını da çəkib aparırlar. Xristian dini qədim dinlərə pis münasibətdə olduğundan, onların maddi mədəniyyət abdilərinə də dağıdıcı təsir göstərirdi. Türklərin Kiçik Asiyanı fəthindən sonra da məbədin taleyində yaxşılığa doğru dönüş yaranmır.

Perqamda həqiqi hərtərfli elmi tədqiqatlar alman alimi və mühəndisi K. Human tərəfindən aparılıb. Onun şəxsi təşəbbüsləri sayəsində keçən XIX əsrin 70- ci illərindən başlayaraq Perqamın zəngin nümunələri toplanıb öyrənilmişdir. Məbədin demək olar ki, bütün hissələri dəniz və dəmir yolları vasitəsilə Almaniyaya daşınıb aparılmışdır. Nəticədə həmin abidələr nümayiş etdirilən və Almaniya Arxeologiya Cəmiyyətinin 100 illiyinə həsr edilmiş "Perqam muzeyi" yaradılmışdır.

# KAMMAQENA

Kammaqena bir dövlət və paytaxt kimi, Makedoniyalı İskəndər İranın Əhəmənilər Sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra (b. e. əvvəl IV əsr) meydana gəlmişdir. Böyük Fatehin yaratdığı nəhəng imperiya vəfatından sonra silahdaşları arasında bölüşdürülür. Ucsuz- bucaqsız ərazilərdə çoxlu xırda dövlətlər meydana gəlir. Kammeqana da onlardan biri kimi hazırki Türkiyə, Suriya və İraq sərhədlərinin kəsişdiyi yerdə Dəclə və Fəratın arasındakı torpaqlarda mövcud olmuşdur.

Fərat çayına yaxın yerdə müasir türk şəhəri Samsat Kammeqanın əsas inzibati və iqtisadi mərkəzi kimi b. e. əvvəldən fəaliyyət göstərmişdir. O, zaman o, yerli yunan- fars hakim dilinə uyğun olaraq Samosata adlandırılırdı. Şərqdən qərbə, şimaldan, cənuba gedən karvan yollarının üstündə yerləşdiyi üçün şəhər uzun əsrlər boyu tərəqqidə olub. Yunanıstandan İran və Suriyadan, uzaq Hindistandan, hətta Çindən gələn tacirlər dincəlmək üçün Samosotada dayanırdılar. Şəhərin özündə və tranzit ticarətlə əlaqədar çoxlu idarə və mağazalar yaradılıbmış.

Kammeqana bir müstəqil birlik kimi iki nəhəng yırtıcı imperiya - Roma və Parfiya - dövlətlərinin arasında bufer dövlət olaraq meydana gəlib. Onun hakimləri mənşə etibarilə yunan fars qarışığından olublar. Yaranan siyasi vəziyyətdən bacarıqla istifadə edən diribaş Kammena hakimləri bir neçə əsr müddətində öz kiçik dövlətlərinin müsəqilliyini saxlaya biliblər. B. e. ə. 64-cü ildə Kammeqana hakimi Antiox hətta Romanın məşhur başçılarından olmuş Pompeylə sülh müqaviləsi kimi bərabərlik təmsil edən sənəd də imzalanmışdır. Bu hadisədən təxminən 8 il sonra, yəni 72- ci ildə Kammeqana Romanın tabeliyinə keməyə məcbur olmuşdur.

Bu kiçik dövlət ümumi vəziyyətindən, coğrafi mövqeyindən və etnik mənşəyindən asılı olaraq qədim dünyanın əsas mədəniyyətlərinin təsirini özündə biruzə vermişdir. Buradakı abidərdə Yunan, Roma, İran, Parfiya, Mesopotamiya sənəti ünsürlərinə rast gəlmək olar.

Kammeqeananı tarixə saldıran adını çəkdiyimiz hakimi Antioxun cavanlıqda şöhrət həvəsi ilə gördüyü işlər olub. O, tarixi məlumatlara görə ana tərəfdən Makedoniyalı İskəndərlə, ata tiərəfdən İranın hakim sülaləsi ilə qohum imiş. Antiox bu qohumluqla qürrələnir, özünü Daranın və İskəndərin yer üzündəki təcəssümü kimi təbliğ edərmiş. Sonra isə gənc hakim özünü allah elan edir. Pompeylə bağladığı müqavilə əsasnıda romalıların hücumundan qorunur və xırda çarlığın maddi və insani ehtiyatlarını öz allahlığını əbədiləşdirməyə yönəldir.





Tarixçilər göstərirlər ki, Kammeqanın mədəni irsi də çox mürəkkəb, müxtəlif svilizasiyaların qarışığından ibarət olub. Əhalinin sitayiş etdiyi allahlar içərisində həm yunan Apollon, Zevs, Fortuna, həm də Azərbaycan, İran mənşəli Əhriman, Hörmüz və s. bütlər var imiş. Əsasən ticarət də və qismən də əkinçilikdə məşğul olan yerli camaat bəzən bir neçə ilahini birləşdirir, çoxadlı, çoxfunksiyalı allahlar yaradılmışlar. Bu cür şəraitdə Antioxun müqəddəs qüvvə kimi təlqin edilməsi çox da çətinliklə başa gəlməyib.

Hökmdarın adını əbədiləşdirməsi isə daha çətin idi. Fikrinin həyata keçirilməsi külli miqdarda vəsait tələb edirdi. Çar malikanələrini girov qoydu, dədə- babasından qalma daş- qaşı satdı və ölkəsində toplanan vergiləri vaxtından əvvəl yığıb işə başladı. Beləliklə Samasatdan bir qədər aralıda yüksələn Nimrud dağda Kammeqana allahlarının şərəfinə abidə yüksəldiləməyə başlandı.

Antioxun topladığı ustalar əvvəlcə Nimrudun ərazisində, dəniz səviyyəsindən təxminən iki min metr yüksəldildikdə biri digərlərindən təxminən bir neçə metr fərq edən üç qayanı yonub düzəltdilər. Ən yüksək meydançada beşmərtəbəli ev hündürlüyündə beş dənə nəhəng insan bədəni yonuldu. Onların ölçülərini təsəvvür etmək üçün demək lazımdır ki, hər birinin təkcə başı 5 m artıqdır. Meydançalar kənarında yerləşdirilmiş barelyeflərdə çar Antioxun həyatının bəzi səhnələri olmuş, yaxud uydurulmuş igidliklərini təsvir edən səhnələr həkk olunmuşdur.

Gənc, enerjili və inadkar Antioxun səyləri nəticəsində çox da güclü olmayan Kammaqena dövləti belə nəhəng işin öhdəsindən gələ bilmişdi. Sonra çarın əmrilə müqəddəs Samasatdan rahat yol çəkdirilir. Mənbələr göstərirlər ki, əhali iki dəfə, çarın ad günüdə və taxta çıxdığı tarixdə allahların abidəsini ziyarətə gedərmiş.

1953- cü ildə amerikalı geoloq Tereza Qellin rəhbərliyi ilə təşkil olunan ekspedisiya Kammeqanı ətraflı öyrənmiş və elm aləminə təqdim etmişdir. Alimlər olduqca ağır şəraitdə işləyərək indi də öz əzəmətini itirməyən abidəni hərtərfli tədqiq etmişdilər. Məlum olmuşdur ki, beş heykəldən yalnız birinin- tale ilahəsi Fortunanın- başı yaxınlıqda düşüb qalmışdır. Müəyyən olunmuş qaya rəsmlərinin, yazılarının ustalıq səviyyəsi alimləri heyran qoymuşdur. Maraqlıdır ki, məğrur çar öz sənətkarları haqqında heç nə yazdırmamışdır.

Ekspedisiyanın beş illik ağır, məşəqqətli əməyi sayəsində qalan dörd heykəlin, iki heyvanın şir və qartalın, məbədin keşiçkilərinin başı da tapılmışdır. Antioxun heykəli sifətcə Makedoniyalı İskəndərə oxşayır. Cavan təsvir olunmuşdur. Başındakı tiara isə onun Əhəmənilər nəslinə

mənsub olduğundan xəbər verir. Maraqlıdır ki, bu cür təsvir başqa allahlarda da müşahidə olunur. Onların hamısı sifətcə ellinlərə bənzəyirlər, başlarında da tiara var.

Kammaqena qədim dünyanın elm aləminə təqdim olunan ən sonuncu abidələrindən sayılır. Qeyd edilən ekspedisiyanın tədqiqatlarından sonra bu maraqlı, yarandığı tarixi bəlli, amma unudulduğu dövr bilinməyən, adı Roma, Parfiya, Suriya və s. mənbələrində dəfələrlə çəkilən abidəyə maraq daha da artmışdır.

Kammaqenanın daha bir tikilisi haqqında ayrıca danışmaq lazımdır. O da hündürlüyü 50 m çox olan və iri daşlardan hörülmüş piramidadır. Tereza Qellin fikrincə, Antiox məhz piramidada dəfn olunmuşdur. Onu bu cür fərziyyə söyləməyə daş üzərində həkk edilməsidir: Zevsin səma taxtının yanında olan kəs ən yüksək zirvəyə layiqdir. Arxeoloq alimlər bütün təcrübələrindən istifadə edərək piramidanın altına sarı lağım atmışlar. Amma, iri daşların uçub tunelə dolması onları öz məqsədlərindən daşındırmışdır. Beləliklə Kammaqenanın maraqlı hissəsinin sirri açılmamış qalmışdır.

Tarixi məlumatlar həmçinin, müxtəlif dövrlərdə, müxtəlif orduların, hakimlərin Kammeqanaya sarı can atdıqlarını göstərirlər. Abidələr bəzən səlibçilər, bəzənsə digər hərbi yürüşlərə çıxan cəngavərlər tərəfindən müəyyən dağıntıya məruz qalmışlar.

## BİZANS SƏNƏTİ (MEMARLIĞI)

Bizans bir dövlət kimi eramızın II əsrində meydana gəlib. İmperator Konstantin 324- 330- cu illərdə qədim Bizansda yeni paytaxt saldırır. Və bu paytaxt sonradan onun adını daşıyır. Eranın 395- ci ilində Roma imperiyası iki hissəyə parçalanır. Dövlətin şərq vilayətləri Konstantinopola tabe etdirilir və yeni imperiya Bizans adlandırılır. O, 1453- cü ilə, yəni türklər şəhəri fəth edənədək mövcud olmuşdur.

II əsrin sonunda imperator Feodosinin xüsusi qərarı ilə xristianlıq Bizansın yeganə dini elan edilir.

Xristianlıq bir din və ideologiya kimi ölkə əhalisinin bütün mədəniyyət sahələrinə böyük təsir göstərir. Özü antik və yaxın şərq mədəniyyətindən çox şey qəbul etsə də, xristianlıq o dövrdən əvvəlki mədəniyyətlərin əksi kimi çıxış etməyə başlayır.





Bizans estetik fikri öz inkişafı prosesində stoiklərin, İskəndəriyyəli Filonun, ilk xristianların, qnostiklərin, yeni platonçuların fikir və təsəvvürlərini cilalamış, daha da təkmilləşdirmişdir. Bizans təfəkkürünün əsas istiqamətini xristianlığın başlıca ideyası müəyyən edirdi: insanın əxlaqi və ruhu tərbiyəsi, bu dünyada insanın "dəyişdirilməsi" və o dünyada onun "xilası". Xristianlıq mədəniyyət tarixində ilk dəfə olaraq təsir göstərmək üçün insanın mənəvi dünyasının təhlilini geniş surətdə ön plana çəkmişdir.

Bizans estetik fikri öz tarixində böyük mərhələ keçmişdir. Birinci mərhələyə eranın I- II əsrlərində formalaşan estetika daxildir. O, mütəxəssislər tərəfindən ilkin xristianlıq dövrü hesab edilir. İkinci mərhələ IV- VII əsrləri əhatə edir və ilkin bizans dövrü adlandırılır. Üçüncü mərhələ VIII- IX əsrlərdə, dördüncü və sonuncu mərhələ ilə IX- XI əsrlərdə yaradılan sənət nəzəriyyəsi sayılır.

Bizans sənətinin və xüsusilə memarlığının inkişafı ilk növbədə dinin sənət və ruhi həyat qarşısında qoyduğu tələblərdən asılı idi. Milyonlarla adamı xristianlıq ruhunda tərbiyə etmək üçün güzəştə gedə bilməzdi. Yeni din olan xristianlıq antik dövr məbədlərindən ibadət evi kimi istifadə etməyin əleyhinə idi. Bunun başlıca səbəbi təkallahlıq təbliğ edə xristianlıqla bütpərəstliyin bir- birinə zidd mahiyyətdə olmasıdır. Lakin xristianlıq antik dövrün qeyri- dini abidələrindən kənarda qalmadı. Yunan və Roma dövrlərində tikilmiş bu səpkidə binalar xristian ideoloqları və sənətkarları tərəfindən öyrənilib yeni dinin mərasimlərinə uyğunlaşdırılır. Təsadüfi deyildir ki, məhz antik dövrün bazilikası yeni dinin başlıca ibadət evi sayılan kilsənin quruluşu üçün əsas olmuşdur.

Eranın 313- 320- ci illərində imperiyanın paytaxtı sayılanRomada inşa edilmiş Lateran bazilikası beş daxili meydançası olan bina idi. Hər meydança, daxili sıra sütunlarla ayrılırdı. Mərkəzi meydançalar üst pəncərələr vasitəsilə işıqlandırılırdı. Bazilikanın daxili quruluşu elə idi ki, təsadüfi və tək olan yox edilirdi. İçəridə yaradılan duyğu və təsəvvürlər ümumilik, qayda- qanun, sakitlikdən ibarət olmalı idi. Yuxarı hündürlükdəki işıq allahın böyüklüyünü, əlçatmazlığını təlqin edirdi.

İmperator Konstantinin dövründə xristian memarlığında dinin təzahürü aydın və formalaşmış şəkildə özünü göstərir. Onun əmri ilə Vifleymdə Milad və Qüdsdə Dirilmə məbədləri inşa edilir. Konstantinopolda yaradılan Apostollar məbədi isə mürəkkəb simvollara malik idi. Xaç şəklində planı vardı və xristianlığın dünyada yayılmasına işarə idi. Başqa bir tərəfdən bu məbəd Konstantinin özü üçün mavzoley rolunu olnamışdı. Onun daxilindəki qəbri imperatoru on üçüncü apostol mövqeyinə qaldırırdı. Lakin sonralar imperatorun qəbri oradan kənar edilmişdi.

Əgər Konstantinin dövründə Bizans memarlığı özünün coşqun və gərgin axtarışları və tapıntıları dövrünü yaşamışdısa, sonra, V əsrdə vəziyyət başqa cür idi. Memarlıq sənəti artıq sabitləşmişdi. Məbəd tikintisi əsasən şərq- qərb oxu üzərində həyata keçirilirdi. Mehrab isə Konstantinin dövründən fərqli olaraq üzü şərqə sarı qurulurdu.

Deməк lazımdır ki, xristianlıq Bizans memarlıq sənətini ümumi dini ideyaya tabe edirdisə qədim memarlıq əlaqələrinə malik ölkələrdə tikilən abidələrdə yerli üslublar özünü göstərirdi. Amma imperiyanın daxilində mövcud olan mədəni, dini və siyasi əlaqələr müxtəlif yerli üslubların qarşılıqlı təsirlənməsinə və faydalanmasına təkan verirdi. Eranın V əsrindən etibarən Konstantinopol başda olmaqla Egey dənizi rayonunda yaradılan memarlıq sənəti Bizansın aparıcı üslubuna çevrilməyə başlayır. Şimali Afrikada, Aralıq dənizinin şimal sahillərində xristian abidələri inşa edilir.

Suriyanın daxili rayonlarında tikilmiş xristian abidələrində üslub aydın görünməkdədir. Mütəxəssislər göstərirlər ki, suriya xristiyan memarlığı bir tərəfdən Konstantinopol üslubundan faydalanmışdısa, digər tərəfdən Antioxiya inşaat ənənələrinin tə'sirinə məruz qalmışdı. Bu, özünün ifadəsini Qalat- Saman (480- 490- cı illər) adlanan yerdə tikilən monastır kompleksində göstərmişdi. Qalb- Luzadda tikilmiş bazilika isə özünün əzəmətli, təmkinli görkəmi ilə diqqəti cəlb etmişdir. Bu abidənin ön və yan tərəflərindəki tağlar, simmetrik quruluşlu bürclər, fasadın mürəkkəb tərtibatı və sairə xüsusiyyətlər sənətin inkişafından xəbər verir.

Suriya ərazisində yaradılan memarlıq inciləri Kiçik Asiyanın digər rayonlarındakı sonradan qurulan xristian abidələrinə öz təsirini göstərmişdir. Türkiyənin Kappadokiya və Binikilsə adlı yerlərində çoxlu xristian abidələri buna misaldır. Binbirkilsənin demək olar ki, bütün kilsələri üç qübbəli və üç meydançalı bazilika binalarından ibarətdir ki, qubbələr alçaq olduğundan ağır görünürlər. Qərb fasaddakı simmetrik bürclər Suriya abildələrinin təqlidi kimi yaradılmışdır. İnteryerin isə qaranlıq olması Konstantinopol üslubu ilə bağlılıqla izah olunur.

I əsrdə memarlığın inkişafı Konstantinopolu imperiyanın başlıca sənət mərkəzinə çevirdi. O dövrdə həyata keçirilən inşaat əsasən dünyəvi xarakterdə idi. Paytaxtın ətrafında çoxlu bürclər olan üçqat müdafiə hasarı ucaldılırdı, İppadromdan şimal səmtdə böyük imperator sarayı və köməkçi binalar inşa edilirdi. Küçələr abadlaşdırılıdı və memarlıq inciləri ilə bəzədilirdi. İstehkamlar, akveduk və sair tikililərlə bağlı olaraq mühəndislik güclü tərəqqi edirdi. Bu işlərdə Kiçik Asiyanın antik mədəniyyət mərkəzlərində (Perqam, Efes) mövcud olmuş tikinti mateiallarından geniş istifadə olunurdu.





Konstantinopoldakı saray komplekslərinə çoxlu binalar daxil idi. Qədim Roma ənənələrinə uyğun olaraq Bizans hökmdarlarının rəsmi zalları ikinci mərtəbədə tikilərdi. Zalların yanında illak adlı açıq terraslar olmalı idi. Aşağıda isə fial adlı açıq meydançalar salınırdı və onların çoxunun fəvvarələri olurdu. Fial adətən çoxlu adam üçün nəzərdə tutulurdusa, bəzi hallarda çıxış üçün inşa edilirdi. İllaklar və fiallar arasında açıq pilləkanlar tikilirdi. Sarayın daxilində isə mərtəbələr arasında vintşəkilli pilləkən olmalı idi.

Sarayların tərkibinə roma hamamları, ippadromlar, qəşəng pavilyonu olan bağçalar, qulluqçular üçün yardımçı evlər və sairə daxil idi. Bu binaları bir- biri ilə çox zaman bir və ya iki yaruslu örtülü keçidlər birləşdirirdi.

VI əsrin əvvəllərində inperatorun yaxın adamları dinin tələblərindən çıxış edərək ideya irəli sürdülər. Memarlar qarşısında qoyulan məqsəd bu idi ki, kilsə konstruksiya baxımından dünyanın quruluşunu əks etdirməlidir. Başqa sözlə deyilsə, yeni ibadətgahda allah ideyası özünü tam və qabarıq şəkildə göstərməli idi.

Belə abidə, mütləq iri qübbənin olmasına zərurət yaradırdı. Bir sıra Bizans abidələrində qübbə müəyyən qədər formalaşmışdı və tikililərin ayrılmaz hissəsinə çevrilmişdi. Onlarda qübbə simvolik olaraq, bəzi qədim şərq dinlərindəki kimi göy mənasını ifadə edirdi.

Bu ideya özünü dövrünün və dünyanın ən əzəmətli abidələrindən birində, Konstantinopolda tikilmiş Müqəddəs Sofiya kilsəsində həyata keçirdi. O, kilsənin mövcudluğunu təsdiq etmək üçün yaranmışdı. Əsas ideya bu idi ki, dünya allah tərəfindfn insanlar üçün tikilmiş məbəddir. Kilsəyə daxil olan və dünyanın (eləcə də kilsənin) quruluşunu dərk edən insan, sanki allahla ruhi təmasda olurdu.

Müqəddəs Sofiya kilsəsinin təsvirini və təhlilini verən mütəxəssislər onu bəzən kosmosa bənzədiblər. Bu abidə real formaların gözəlliyi ilə bağla olduğu üçün ictimai şüuru mövcudluğun qanunauyğunluqları və mənası üçün ictimai və doqmatik əsasdan çıxış edən dinə nisbətən daha obyektiv və geniş ifadə etmişdir. Bu abidədə irəli sürülən fikir və fikirlər öz əhatəliyi baxımından dini- teoloji çərçivəyə sıxışa bilməzdi. O, Bizans memarlığının şah əsəri olduğu üçün sənətin inkişafına böyük təkan verdi. Bundan sonra qübbəli kilsə ideyası geniş yayılmağa başladı.

VI- VII əsrlərdə liturgiyanın (ibadətin) və kilsənin ideyası, rəmzi şərtləri tam formalaşır. Bu dövr, ibadətin həyata keçirilməsini əsas saydığı üçün sənətkarlığı köməkçi hal kimi qəbul edirdi. Kilsələrin daxilində dəyişiklik həyata keçirilir. Bundan sonra Bizansda xaçşəkilli qübbələri olan çoxlu kilsə tikilmişdir. Onlardan Antalyada (Türkiyə) sonradan məscidə çevrilmiş Kumanin- cameni və Qortindəki (Krit) müqəddəs Tit kilsəsini göstərmək olar.

Bizans sənətindən danışarkən bir məsələ də qeyd edilməlidir. Bu da rənglərin müəyyən fəlsəfi- dini mahiyyət daşıması ilə əlaqədardır. XI əsrdən etibarən başlıca bizans rəngləri bunlar idi: al qırmızı, ağ, sarı, yaşıl və qismən də göy və qara. Al qırmızı Bizans mədəniyyətində ilk növbədə imperator rəngi hesab edilirdi.

VIII- IX əsrlər dövründəki sənətin başlıca istiqaməti əvvəlki sənətin ayrı- ayrı sahələrini və ideyalarını inkişaf etdirmək olmuşdur. X- XV əsrlərdə isə daha çox doğmatika özünü göstərmişdir.

Min ildən artıq davam etmiş Bizans sənəti və o cümlədən memarlığı yaxın və uzaq ölkələrdə xristianlığın yayılmasına ciddi təsir göstərmişdir. Onu Türkiyə ərazisində, Zaqafqaziyada, qədim Rusda, ərəb ölkələrinin ərazisində və başqa regionlarda görmək olar.

# AYA SOFİYA

İstanbulu hər yanda tanıtdıran ilk növbədə onun bu möhtəşəm abidəsidir. Bizans tarixinin ən layiqli nümunəsi sayılan Müqəddəs Sofiya kilsəsi (məscidi), qədimdə bəzən "Böyükkilsə" mənasını daşıyan Aya Sofiya kimi məşhurlaşmışdı.

Bu əzəmətli memarlıq abidəsinin yaradılma tarixini b. e. əvvəl IV əsrdən başlayırlar. İmperator Konstantinin əmrilə dördbucaq formasında kiçik bir məbəd tikilir. Sonradan X əsrin ortalarında şəhərdə baş vermiş qiyamın yatırılması şərəfinə Bizans hökmdarı Yustinian yeni kilsə tikdirmək qərarına gəlir. Ətraf ölkələrin ən yaxşı memarları- Anfimi və İsidor- tikintiyə cəlb olunur və inşaat işləri dörd il müddətində davam edir.

Tikintinin nəhəngliyi və lazım olan inşaat materiallarının qiymətli olması həddən artıq xərc tələb edirdi. Bizansın neçə illik gəliri kilsənin tikintisinə sərf edilmişdi. Roma, Afina və Efesin ən yaxşı sütunları bura gətirilmişdi. Qonşu ölkələrdən müxtəlif rəngli mərmər, antik dövrdən qalmış memarlıq elementləri inşaatda işlədilirdi. Tikintidə 10 mindən çox fəhlə çalışırdı.

Xristianlığın ən möhtəşəm abidələrindən sayılan Aya Sofiyanın yaradılması çoxlu rəvayət, əfsanə və s. doğurmuşdur. Onlardan birində deyilir ki, guya məbədin ümumi planı və quruluşu yuxuda Yustiniana mələklər tərəfindən verilibmiş. Tikinti zamanı qarşıya çıxan çətinlikləri də Yustinian ilahi qüvvələrin köməyi sayəsində aradan qaldırarmış.







*Aya Sofiya*

Kilsənin (məscidin) ümumi planı dördbucaqlı formasındadır. Uzunluğu 79, 29 m, eni 71, 7 m- dir. Üç nefli şəkildə qurulmuşdur və kənarlarında yüksələn gümbəz durur. Mərkəzi nefin üstündə gümbəz vardır, mərkəzi nefin kənarlarında yüksələn nəhəng sütun üzərində möhkəmləndirilmiş dörd iri arka (tağ) yerləşir. Günbəzin ümumi diametri 30 m çatır. Tarixi ərzində dəfələrlə zəlzələ nəticəsində uçmuş və yenidən qurulmuşdur. Axırıncı dəfə o, yerdən daha 14 m hündürlüyə qaldırılıb. Hazırda hesablamalara görə ümumi hündürlüyü 65 m çatır.

İki kənar- şərq və qərb- yarım sferik gümbəzə malikdir. Onların hər biri daha üç kiçik nişa ilə birləşmişdir. Daxildəki şimal və cənub hissələrdə qalereya yaradan xüsusi tağlar vardır (bunlarda imperator və imperatrisa üçün xüsusi məqsurələr tikildiyi söylənilir).

Abidədə yaradılmış sütunların sayı 107- dir. Qeyd olunduğu kimi, onların bir qismi başqa məbədlərdən bura gətirilmişdir. Birinci mərtəbə sayılan hissədə 40 sütun, qalereyalar yerləşən hissədə 60 sütun və pritvor adlanan hissədə 7 sütun vardır. Onların hamısı müxtəlif rəngli mərmərlərdən yaradılıb və cürbəcür kapitellərə malikdirlər.

Günbəzin tərtibatında cürbəcür rəng çalarlarına malik mərmərdən bolluca istifadə edilmişdir. Döşəmədə işlənən mərmər o qədər məharətlə düzülmüşdür ki, tamaşaçılarda xalı təsiri bağışlayır. Həmçinin, mütəxəssislərin fikrincə Aya Sofiya mərmər lövhələr işlədilən ilk abidələrdən biridir.

Səlibçilərin Aya Sofiyanı dağıdıb qarət etdikləri zamandan etibarən bina öz əvvəlki təmtərağını, əzəmtli görkəmini itirir. Bir sıra tarixi mənbələr, Aya Sofiyanın nəinki düzəldilmiş bəzək əşyalarının, həmçinin başqa hissələrinin də qarətçilər tərəfindən yox edildiyini göstərirlər.

Türklər İstanbulu adaldan sonra Aya Sofiya məscidə çevrilir. II Mehmetin əmrilə yanında minarə tikilir. Sonra II Bayazid daha birisini tikdirir. Türklərin Sultanı II Səlim hazırda mövcud olan dörd minarənin qalan ikisini inşa etdirir. Binanın daxilində də dəyişiklik edilir, bəzi hissələr islam dini ayinlərinə uyğunlaşdırılır.

Aya Sofiyanın əsas girəcəyinin sol hissəsində məşhur "daş sütun" yerləşir. Bir sıra rəvayətə görə o, xəstə adamlara sağlamlıq və gümrahlıq verir. Yaradıldığı gündən indiyədək bu sütun zəvvarlar tərəfindən o qədər sürtülmüşdür ki, onu sonradan mis örtüklə örtməyə məcbur olmuşlar. Ondan əlavə Aya Sofiyada daha bir möcüzə vardır. İkinci mərtəbənin qərb hissəsində "işıqsaçan daş" durmaqdadır. Rəvayətə görə o İrandan gətirilmişdir. Gündüzlər günəşin şüalarını udub, gecələr həmin işığı ətrafa səpələyir.

Binanın daxili tərtibatında həmçinin, müxtəlif dini mövzulara həsr edilmiş, mərmər üzərində həkk edilmiş çoxlu şəkil vardır.

Türk və Bizans mədəniyyətləri üzrə mütəxəssislərin fikrincə Aya Sofiyanın inşasında qəbul edilmiş qübbə üslubu Mesopotamiya regiounundа yaradılmış, sonra Egey dənizinin şərq sahillərinə yayılmışdır. Şərqi Anadolu memarları onun İstanbula gətirilməsində başlıca rol oynamışlar. Beləliklə bütün Şərqi Rumda özünə möhkəm yer tutmuş bu üslub get- gedə qəqim yunan bazilik üslubuna üstün gəlmişdir.

Aya Sofiya, mütəxəssislərinin fikrincə öz memarlıq üslubuna görə bütün ortodoskal xristianlıq üçün (burda Rusiya xüsusilə qeyd olunur) bir örnək rolunu oynamışdır. Qərbi Avropada inşa edilən kilsələrin bir çoxu da onu təkrarlamışdır. Rumelidə, türklər tərəindən ilk dörlərdə inşa edilən camelər də Aya Sofiyanın ecazkar təsirindən yaxa qurtara bilməmişdir. Türk incəsənəti üzrə mütəxəssislərin rəyincə, XIV əsrdən başlayaraq İstanbulda və Ərdəbildə yaradılan camelərdə bu təsirin nisbətən azaldığı göstərilir.

1935- ci ildə Türkiyə Respublikasının yaradıcısı və ilk prezidenti Mustafa Kamal Atatürkün göstərişi ilə Aya Sofiya dövlət muzeyinə çevrilmişdir.





# KAPPADOKİYA

Bu ölkənin rəngarəng təbii iqlim şəraiti olduğu kimi, çoxlu tarixi abdələri var. İstanbulun qədim tikililəri, Troya dövründən qalma abidələr, qədim Efesdə arxeoloji axtarışlar... Artemida məbədinin qalıqları... onu çox vaxt "Dünyanın yeddi möcüzəsi" sırasına daxil edirlər. Türkiyənin Aralıq dənizi sahilləri qədimdən qalma tikililərlə doludur. Roma istilası dövründə orda rəvayətə görə Sezarla Kleopatra dənizə çimməyə çıxarmışlar.

İndi söhbətimiz Kappadokiya haqqındadır... o, Kiçik Asiyanın mərkəzi hissəsindədir. Ankaradan 300- 350 km cənub şərq tərəfdədir.

Kappadokiya Türkiyəyə gələn saysız- hesabsız turistlərin ən çox görməyə çalışdıqları yerlərdən biridir. Onu bütün aləmdə tanıtdıran daşdan yonulmuş binaları, yeraltı evləridir.

Yer kürəsində həyatın əmələ gəldiyi dövrlərdə vulkan püskürmüş və enli vadini lava ilə doldurmuşdu. Sonradan sellər, küləklər lavanı parçalamış, ondan müxtəlif formalı təpəliklər, konusa bənzər qayalıqlar, əcaib şəkilli suxurlar əmələ gətirmişdir. Adamlar bir neçə min il bundan əvvəl bu yerlərə gəldikləri zaman hazır, evə oxşar süxurlar görüb qaldılar. Onları yona- yona otaq şəklinə saldılar və yaşamağa başladılar. Kappadokiyanın ətraf rayonlarının torpaqları da münbit, bərəkətli, bol üzüm, buğda, meyvə, bostan bitkiləri yetişdirmək üçün yararlı idi.

Beləiklə göbələyə, piramidaya, günbəzə, divara, hətta raketə bənzəyən evlərdən ibarət yaşayış məntəqəsi yarandı.

Yaxınlıqda yerləşən Qayseri (qədim adı Kesariyadır) şəhəri Roma dövründə Qara dəniz sahillərindən Suriyaya, Zaqafqaziya torpaqlarından Aralıq dənizi sahillərinə gedən ticarət yollarının üstündə tikildiyindən mühüm ticarət mərkəzi olub. Xristianlıq yayılan dövrlərdə Qayseri Bizans ərazilərindəki ən böyük dini ocaqlardan birinə çevrilir (II əsr). Əsasən zahidlərə bənzəyən, tərkidünyalıq sevən, dini xəyallara qapılan adamlar ora toplanırlar. Kappadokiyanın saysız- hesabsız mağaraları bu qəbildən olan insanlar üçün ideal yer idi.

IV əsrdən başlayaraq ilk monastırlar inşa edilir. İki yüz il çəkən xristianlıq dövrünə şərqdən hücum edən atəşpərəst farslar son qoydular. Sonra müsəlman ərəblər ətraf ərazilərlə birlikdə Kappadokiyanı da istila edirlər. Əvvəl müsəlman ərəblər, sonra isə türklərin istilası Anadolunun xristian əhalisinə mənfi təsir göstərir. Təqibdən, yaxud başqa səbəblərdən çoxlu əhali hər yandan axışaraq gəlir, Kappodokiyanın ümumi sahəsi 200 kv. km çatan mağaralarında məskən salırdılar. Tarixi mənbələr göstərir ki,

əsrimizin birinci minilliyinin sonlarında daş labirintlərdə azı otuz min adam yaşayırmış.

Buradakı kilsələrdə aşkar edilmiş freskalar Bizans sənətinin ilkin mərhələsini tədqiq etmə baxımından maraq doğurur. Kilsələrdən "Qaranlıq kilsədə", daha çox freska vardır. Onun bəzi xüsusiyyətlərini, yumşaq və zəif cizgilərini, mütəxəssislər qədim rus kilsələrinin freskalarına bənzətmişdilər. Kilsələrə verilən adlar sırf maddi mühütlə əlaqədardır. Məsələn: "almalı kilsə"də başqa kilsələrə nisbətən qaranlıqdır və s.

Qeyd olunmalıdır ki, kilsələrin daxili temperaturunun nisbətən sabit və havasının quru olması çəkilən freskaların yaxşı saxlanmasınea kömək etmişdir. Amma XVII əsrdən başlayaraq onların bəzilərinin tələf olduğu müşahidə olunur. Bu da ğöstərilən kilsələrin get- gedə boş qalması və müxtəlif növ səyahətçilərin, quldur və s., ya bilə- bilə, ya da başa düşməyərək qədim sənəti korlaması ilə nəticələnmişdir.

Daşdan yonulmuş məvədlər daxili tərtibata malikdir. Onların tavanları sütunları, divarları xristian dini mövrularından olan süjetlərlə bəzədilmişdir. Əsasən IX- XII əsrlərdən qalma bəzək- düzək pis saxlanılmayıb. Hazırda həmin kilsələr işləmir, çünki onun əhalisi 1924- cü ildə Türkiyə Yunanıstan müqaviləsinə əsasən ölkəni tərk edib Yunanıstana köçüb.

Bu ərazidə yerləşən Qaymağın şəhərciyi isə özünün yeraltı şəhəri ilə tanınır. Demək lazımdır ki, belə şəhərlərin bərpa olunması vacib işdir. Yeraltı süxurlar əsasən tifdan olduğundan yonulması asandır. Şəhər 6- 8 mərtəbəli bina qədər dərinlikdədir. Eyni vaxtda bir neçə min adam orda yerləşə bilər.

Başqa bir qəsəbədə - Digeniyada- bir neçə əsr bundan əvvəl yonumuş yeraltı şəhər 8 mərtəbəlidir. Ymymi dərinliyi 85 m. çatır.

Əsasən müdafiə məqsədi daşıdığından bu şəhər uzun müddətli yaşayış üçün yaradılırdı. Katakombalarda o dövrdə yonulub dyzəldilmiş otaqlarda və əşyaları, su saxlanılardı. Ventilyasiya üçün xüsusi nəfəsliklər vardı. Hətta xüsusi olaraq şərab hazırlamaq üçün daşdan yonulmuş çənlər orda aşkar edilmişdir. Bütün bunlardan əlavə məişət emalatxanaları, kilsə və məbədlər, hətta qəbiristanlıqlar da katakombalarda yerləşdirilirdi.

Düşmən təhlükəsi olmayan zamanlarda əhali katakombalardan çıxar, yer üzərində adi həyatla yaşayardı. Onlar sənətkarlıq edər, əkinçiliklə məşğul olardılar. Təhlükə yaxınlaşan zaman isə yenidən yeraltı şəhərə çəkilər, girişləri daş sallarla elə qapayardılar ki, kənardan izi itərmiş.





# OSMANLI MEMARLIQ MƏKTƏBİ

Osmanlı- türk sənəti tarixində iki mühüm hadisə qeyd edilməlidir. Birincisi, həm siyasi, həm də dini hakimiyyəti ələ alaraq islam aləmində xüsusi mövqeyin qazanılması; ikincisi, Sultan Məhəmməd Fateh tərəfindən Qədim Bizansın başlıca mədəniyyət mərkəzi Konstantinopolun fəth edilməsi. Məhz bu iki hadisə Osmanlı sənətində böyük iz qoymuşdur. O, yeni görkəm almış və Bizans mədəniyyətinin güclü təsirinə məruz qalmışdır. Get- gedə təşəkkül tapan Osmanlı sənəti müxtəlif sənət cərəyanlarının qarışdığı yerdə meydana gəlirdi. Şərqdən İran və Azərbaycanın təsiri onda iz buraxırdı. Bizansın təsiri daha çox memarlıqda özünü göstərirdisə, şərq mədəniyyətləri saxsı qab istehsalında, toxuçuluq sənətində və miniatürlərdə əks olunurdu. Sonradan onlara Avropa təsirləri də əlavə olunurdu. XVII əsrdən etibarən osmanlı rəhbərliyinin Avropa ölkələri ilə əlaqələrinin genişləndirməsi ona geniş imkanlar vermişdir. Osmanlı sənət üslubu müxtəlif yollarla tabe ölkələrə- Dəməşqə, Bağdada, Qahirəyə, Tunisə və s.- yol açırdı. Onun məmulatları Avropa bazarlarına çıxarılırdı.

Osmanlı memarlığını mütəxəssislər iki dövrə ayırırlar. Birinci dövrə Konstantinopolun alınmasına qədərki mərhələ, (bu dövrdə Osmanlı memarlığında Səlcuq ənənələri üstünlük təşkil edir), ikinci dövr İstanbulun fəthindən sonrakı mərhələ (bu dövrdə memarlıqda Bizans təsiri duyulur).

Bunun ən yaxşı nümunələrinə qədim Bursa şəhərində rast gəlmək olar. Onlardan biri- Ulu Came adlanan- öz memarlıq xüsusiyyətlərinə görə bu deyilənlərə sübutdur. İstanbul alınandan sonra isə Aya Sofiya adlanan memalıq möcüzəsi Osmanlı memarlığına böyük təsir göstərmiş, onun konstruktiv və estetik bədii təşəkkülündə böyük rol oynamışdır. Səlcuq məktəbinin ünsürləri isə get- gedə azalmışdır. Onun tam itmədiyinə ən yaxşı misal 1501- 1507- ci illərdə inşa edilmiş Sultan Bəyazid adlı möhtəşəm camedir. Belə ki, onun əsas qübbəsi ibadət salonundakı dəhlizləri üzərində yüksələn dörd dayaq üzərində qurulmuşdür. İki yan dəhlizlərin hər iki tavanında isə dörd kiçik qübbə yerləşir. Bu xüsusiyyətlərinə görə o Aya Sofiyanı xatırlatsa da, öz minbərlərinin quruluşu və tərtibatı baxımından Səlcuq məktəbini təbliğ edir.

Sənət mütəxəssisləri bu fikirdədirlər ki, Osmanlı memarlarını uzun müddət bu məsələ düşündürmüşdü: necə etsinlər ki, qübbəni saxlayan dayaqların sayını minimuma endirsinlər və nəticədə camelərin daxili hissəsi daha geniş olsun. Bu fikir artıq Bursa məscidlərində özünü göstərsə də, öz həllini İstanbulda inşa edilən Suleymaniyyə camesində tapmışdır. Onların

inşası ən istedadlı və bacarıqlı türk memarı Sinanın adı ilə bağlıdır.

Osmanlı memarlıq məktəbi öz təsirini böyük imperiyanın hər yerində göstərmişdir. Bu üslubda Qahirənin mərkəzi yerində inşa edilmiş Sinan paşa məscidini (1571- ci il) qeyd etmək olar. Ondan əlavə yenə Qahirədə hicri tarixi ilə 1236- cı ildə yaradılan Məhəmməd Əli məscidi yaxşı nümunə sayıla bilər. Həmin abidə 1617- ci ildə Sinanın ardıcılı Məhəmməd Ağa tərəfindən yaradılan Sultan Əhməd camesinin təsirindən meydana gəlmişdir.

Osmanlı məscidləri də çox zaman came məscidlərinə bitişik inşa edilərdi. Bunu biz məşhur Sultan Səlim camesinin misalında görürük. Ondan əlavə sultanların tikdirdiyi qübbəli mavzoleylərin də camelərlə birgə inşa edildiyini göstərməliyik. Onların ən yaxşı nümunəsi Bursa şəhərində yerləşən Yaşıl Cameyə bitişik tikilən I Məhəmməd mavzoleyidir (1421- ci il). Ona bəzən Yaşıl türbə də deyilir. Bu ad türbənin divarlarının yaşıl firuzeyi rəngli bəzəklərlə işlənməsindən yaranmışdır. Al Osman sultanlarının Bursa və Ədirnə şəhərlərinidə yaratdıqları saraylar qalmamışdır. İstanbulda isə o dövrdə inşa edilmiş məşhur saraylardan ən çox zəmanəmizədək gəlib çatanı Çili köşk adlanan saraydır. O, tikilərkən İstanbulun xaricində imiş. Üç ayrı- ayrı binalardan təşkil edilibmiş, balkonlarının üstü örtülü olub. Hər binanın ayrı həyəti varmış. Ətraflarında başqa yardımçı binalarda qala divarları və bürcləri inşa edilibmiş. Burda qeyd olunmalıdır ki, sənət tarixçiləri XVIII əsrin əvvəllərinə qədər yaradılan abidələri nəzərdə tuturlar. Çünki, qəbul olunmuş qaydaya görə Osmanlı memarlıq məktəbi zaman etibarilə 1282- 1730- cu illəri əhatə edir.

Osmanlı memarlığında XIV əsrin II yarısından etibarən binaların fasadlarında ornamentlərlə bəzək işləri çoxalmışdır. Bu, özü- özlüyündə Konya paytaxtı olmuş Səlcuq memarlıq ənənələrinə zidd idi. Digər tərəfdən binaların daxili tərtibatında saxsıdan yaradılan bəzək detallarından istifadə edilirdi. Onlar çox zaman kvadrat, yaxud dördbucaqlı şəkildə istehsal edilirdi. Ən yaxşı saxsı bəzək detalları Sultan I Səlimin vaxtında Özək adlı şəhərdə yaradılırdı. Belə bəzəklər çox zaman tərtibatda, yaşayış evlərində və s. işlədilirdi. Mavzoley və məscidlərin bəzədilməsində də onlardan geniş istifadə olunurmuş. Bəzi alimlər bu fikirdədir ki, XV əsrədək Osmanlı memarlığını saxsı ilə Təbriz şəhəri təmin edərmiş.

Bursa şəhəri həm də türk toxuma sənətinin mərkəzi sayılır. Osmanlı ipəyi Avropa bazalarında yüksək qiymətləndirilmişdir. O, ispan ipəyi ilə rəqabət apararmış. Səlcuq türkləri tərəfindən əsası qoyulan xalçaçılıq da osmanlılar zamanında (on altıncı əsrdən başlayaraq) böyük nailiyyətlər qazanmışdır. Yerli miniatür məktəbinin yaradılmasında Təbrizdən gətirilmiş rəssamların çox böyük rolu olmuşdur.





# BURSA



*Bursa*

Onun antik adı Bursadır. Strabon şəhərin Lidiya çarı Kroysos tərəfindən b. e. əvvəl 560- cı ildə salındığını yazır. Onun inşası Əhəməni çarı Kirin dövrünə təsadüf edir. Şəhər haqqında daha ətraflı məlumatlar b. e. əvvəl I yüzilliklərdən etibarən verilmişdir. Onlarda qeyd olunurdu ki, IX Nikomedesin vəfatından sonra (b. e. əvvəl 74- cü il) Romanın ilhaq qərarıyla razılaşmayan oğlu, Pontiya kralı Mitridatla əlaqə yaratmışdır. Bu dövrlərdə Bursa nisbətən az məşhur olan bir əyalət şəhəri imiş.

İmperator Trayanın zamanında Bursanın gənc valisi Plinisin ciddi cəhdləri sayəsində şəhər çiçəklənir.

Sonralar Bizansın ümumi tərəqqisi ilə əlaqədar olaraq Bursa da inkişaf edir. İmperator Yüstinianın şəhərdə tikdirdiyi gözəl saray və hamam öz dövründə çox məşhurlaşıbmış.

1080- cı ildə Səlcuq sultanı Süleyman şah tərəfindən Bursa alınır. Bizanslılarla türklər arasında bu torpaqlar uğrunda uzun illər boyu müharibələr getmişdir. Axırda bütün Anadolu kimi Bursaya da malik olan osmanlılar burada bir neçə qala tikdirir.

Türklər hərbi strateji məqsədlərinən çıxış edərək Bursaya böyük əhəmiyyət veriblər. Nəticədə uzun əsrlər boyu şəhər abadlaşdırılmış, çoxlu məscid, türbə, minarə, mədrəsə və s. tikilmişdir.

Bursanı Türkiyədə və eləcə də xaricdə tanıtdıran camelərdir. Onlar həmçinin osmanlı memarlıq sənətinin ilkin dövrlərini öyrənmək baxımından da diqqətə layiqdir.

Bursanın bütün memarlığı ilə məşğul olan mütəxəssislərin fikrincə şəhərdəki camelərin ən böyüyü və ən gözəli İldırım Bəyazid zamanında (1395- ci il) inşasına başlanmış və I Mehmet dövründə tamamlanmış Ulu camedir. Bu came dörd tərəfdən divarla əhatə olunub. O, 12 sütunlu inşa edilmişdir. Daxilən came beş sahəyə bölünmüşdür. Hər bir sahənin üzərində

dörd dənə qübbə vardır. Və qübbələrin ümumi sayı iyirmiyə çatır. Mehrab dörd guşəli bir hücrə şəklindədir. Mehrabın sağ tərəfində inşa edilmiş minbər islam dünyasında mövcud olan böyük və gözəl minbərlərdən sayılır.

Bursanın ikinci camesi Orxan Qazi adı altında tanınan camedir. Orxan camesi konstruksiyası etibarilə Ulu camedən fərqlənir. Əgər birincisi sütünlar üzərində bərqərar olmuşdusa, bu camenin quruluşu bürc şəklindədir.

Xronoloji sıraya görə Bursanın üçüncü camesi adı dillər əzbəri olmuş Yaşıl camedir. O, memar Hacı İlyas tərəfindən Çələbi sultan Birinci Mehmetin şərəfinə ucaldılmışdır (1413- 1421- ci illər). Bunlardan əlavə II Səlim zamanında tikilmiş cameni də göstərmək olar. Amma adları çəkilən abidələr Bursada yerləşən nümunələrin az bir qismini təşkil edir. Camelər çoxdur, amma hamısı haqqında danışmaq olmur.

Bursanı tanıtdıran başqa sənət əsərləri içərisində məşhur türbələr xüsusi yer tutur. Məlumdur ki, hər osmanlı hökmdarı xüsusi türbələrdə dəfn olunub. Tarixçi alim Hammer qeyd edir ki, ilk osmanlı padşahının qəbri məscidə çevrilmiş qədim bir bizanç kilsəsinin binasında imiş. Hazırda o yer məlum deyil. Dövlətin yaradıcısı sayılan Osmanlı türbəsi səkkiz güşəsi və üstündə gümbəzi olan bir binadır. Başqa hökmdarın- Orxanın türbəsi də özünəməxsus bürcvari görkəmdədir. Bir sıra başqa hökmdarların türbələri də bu yuxarıda göstərilən formada tikilmişdir.


*Türkiyə – Bursa Yaşıl Cami*

Bursanın ən gözəl türbəsi, həqiqi sənət əsəri kimi dillərdə dastan olan Yaşıl camenin yanında yüksələn və 1421- ci ildə I Mehmetin ölüm ilində inşa edilən Yaşıl türbədir. Bü türbə də səkkiz guşəlidir və sivri qübbəyə malikdir. Türbənin yaşıl adlanması, daxilinin rəngli haşiyələrlə olduqca gözəl bəzədilməsindən irəli gəlir. Qeyd olunmalıdır ki, bu məşhur türbənin yaradılmasında Azərbaycandan gəlmiş sənətkarlar da iştirak etmişdir. Türbənin daxilində xüsusi lövhədə usta Əhməd Təbrizinin adı həkk olunması deyilənlərə ən yaxşı sübutdur.

Məlumdur ki, Bursa Osmanlı





dövlətinin bir vaxtlar nəinki paytaxtı, həm də ən abad şəhərlərindən olub. Burda hakimiyyətdə olmuş son hökmdarların və ailələrinin türbələri yan-yana olduğundan bir kompleks təsirini bağışlayır. Adətən dörd, altı və səkkiz güşədən ibarət olan bu türbələr on bir dənədir. Bu kompleksə daxil olan ən qədim türbə II Muradın və ailəsinin dəfn olunduğu türbədir. Qalanları sonradan inşa edilmişdir. Fatehin və Qanuni Süleymanın oğullarının türbələri II Muradın türbəsinin yanında yerləşir. Fatehin oğlu Mustafanın türbəsinin daxili tərtibatı, işlədilən materialların keyfiyyəti və ustalığı diqqəti cəlb edir. Eyni sözləri Süleymanın oğlu Mustafanın türbəsi haqqında da demək olar.


*Bursa*

Bursanın başqa memarlıq nümunələri onun orta əsrlərdə tikilmiş mədrəsələridir. Onların quruluşu demək olar ki, eynidir. Şəhərin ən məşhur mədrəsəsi İldırım camesinin yanında yerləşən I İldırım mədrəsəsidir. Yaşıl mədrəsə, hazırda muzeyə çevrilmişdir. II Muradın mədrəsəsi də qeyd olunmalıdır. Bunlardan əlavə Əmir Sultan, Bəyazid paşa və Lələ Şahin mədrəsələri sənət baxımından diqqətə layiq əsərlər kimi göstərilir.

Bursa abidələrindən danışarkən incə zövq və yüksək sənətkarlıqla inşa edilmiş hamamlarını və qaplıca adlı binalarını xatırlamaq yerinə düşər. Qaplıcalar təbii qaynar sulardan istifadə olunma yolu ilə fəaliyyət hamamxanalardır. Onların ilkin variantını bizanslılar yaradıblar. Əsas proses belədir ki, təbii qaynar su ya hovuzlarda yığılır, ya da istənilən şəkildə axma yolu ilə işlədilir. Türklər bu sxemə öz əlavələrini etmişlər. Onlar qaplıcaya öz ənənəvi hamam ünsürləri daxil etdilər. Bursanın ən tanınmış qaplıcaları Əski Qaplıca, Yeni Qaplıca və Böyük kükrtlü hamamlarıdır.

Bunlardan əlavə Bursada karvansaralar, ayrı- ayrı imarətlər və kəhpirlər də tarixi abidələr kimi tanınır. Karvansara binaları içərisində ən qədimi Orxan tərəfindən inşa edilmiş Əmir Xanidir. Ondan başqa I Murad tərəfindən tikdirilmiş Qapan xanını, I Mehmet zamanında yaradılmış İpək xanını göstərmək olar. Amma şəhərin ən gözəl və sənətkarlıq baxımından kamil karvansarası Xani adlanır. O, 1451- ci ildə II Muradın hakimiyyətinin son dövrlərində tamamlanmışdır.



Türkiyə – Bursa

Şəhərin ən məşhur imarətləri bu gün də öz təravətinin itirməyib. Yunanlar, Xudavəndi, Yaşıl, II Murad, Əmir Sultan, Dəmirtaş Paşa, Əbu İshaq və başqaları buna misaldır. Onlardan əlavə Bursada İldırımın Daruşşəfa (Müalicə evi) adı altında tanınan məşhur bir xəstəxana binası var. Amma təəsüf ki, bina dağılmaq təhlükəsi altındadır.

Şəhərin körpülərinə gəlincə osmanlıların tikdirdiyi və Nilufər çayının üzərində orta əsrlərdə salınan iki körpünü göstərmək olar. Onlardan biri Nilufər Harun körpüsü, digəri isə Səlcuq Harun körpüsüdür. Sonuncu abidə hazırda salamatdır və üzərindən gəliş- gediş kəsilmir. Körpünün mərkəzi hissəsində qoyulmuş kitabədə salınma tarixi göstərilmişdir. O sənədə görə Səlcuq Harun körpüsü 1465- ci ildə inşa edilmişdir.

## İSTANBUL



İstanbul – Dolmabaxça daxili hissə

İstanbul kimi tarixi qədim və zəngin, təbiəti gözəl, iqlimi mülayim ikinci bir şəhər çox azdır. Yarandığı dövrdən etibarən Bizans, sonra Konstantinopol və türklərin fəthindən sonra İstanbul adalandırımışdır. Bu şəhəri qədim düyanın böyük şəhərləri- Roma, Afina- ilə eyni dərəcədə qiymətləndirirlər.

Çox əlverişli təbii coğrafi şəraiti ona Asiya, Avropa və Afrika qitəsi ölkələri ilə ticarət etmək üçün böyük imkanlar verirdi. Şəhərin uzun əsrlər boyu Yaxın və Orta Şərqdə, Balkan yarımadasında, Qara Dəniz sahillərində yerləşən ölkələrdə böyük iqtisadi rol oynması da məhz bununla əlaqədardır.







İstanbul – Rumeli hasarı

İstanbulun yaradılmasını b. e. əvvəl 658- ci illə bağlayırlar. Qədim yunan tayfaları Mərmərə dənizinə çıxan burunda ilk dəfə olaraq şəhər salmışdı. Yeni yaşayış məskəni yunan qəbiləsinin başçısının şərəfinə Bizans adlandırılır. Bir müddətdən sonra şəhər digər yunan dövlətləri arasında görkəmli rol oynamağa başlayır. O dövrün yüksək mədəniyyət mərkəzləri Afina və Sparta ilə rəqabətə girir.

Bizim eranın 196- cı ilində Roma imperatoru Sever hücumla şəhəri alır. Bizans dağılsa da həmin rəhbərin əmri ilə yenidən qurulur. 330- cu ildə digər Roma imperatoru Konstantin imperyasının paytaxtını bura köçürür. Şəhər bir müddət Yeni Roma adlansa da tezliklə imperatorun öz adını daşımağa başlayır, Konstantinopol adlanır.

Şərqi imperiyanın rəhbərliyi isə paytaxtın ən məşhur şəhərlər sırasına çıxması üçün çox iş görürlər. Konstantinin əmrinə görə dövrünün ən məşhur memarları, heykəltəraşları, rəssamları və başqa sahədə işləyən sənətkarları Romadan, Efesdən, Korinfdən, Antioxiya və s. yerlərdən şəhərə gətirilir, yaxşı təmin edilməklə işə cəlb olunurlar. Abadlaşdırma nəticəsində çiçəklənən şəhərdə elm, mədəniyyət yüksək tərəqqiyə çatır. Öz dövrünün məşhur alim və şairləri, yüksək istedad sahibləri işləmək və yaşamaq üçün buraya can atırlar.

Roma kimi Konstantinopolda yeddi təpə üzərində salınmışdı. Tərəqqi dövründə onun geniş xiyabanları, səliqəli və yüksək zövqlə tərtib edilmiş meydanları, zəngin məbədləri, sarayları və müxtəlif quruluşa malik binaları görənləri heyran qoyarmış. Şəhərdə tikilmiş Təntənələr darvazasının və Cıdır meydanının şöhrəti hər yana yayılmışdı. Mesi adlanan baş küçə şəhərin bir tərəfində başlayıb, o biri tərəfində bitərmiş.

XI əsrdən başlayaraq Bizansın ümumi tənəzzülü ilə əlaqədar olaraq şəhərin tərəqqisi də zəifləyir. O, müxtəlif xalqarın və hərbi qüvvələrin hücumuna məruz qalır. 1096- ci ildə səlibçilər şəhəri alır və qarət edirlər. 1204- cü ildə doqquz aylıq mühasirədən sonra başqa Səlib yürüşünün (IV) iştirakçıları yenidən Konstantinoplu tutur və əsaslı surətdə viran qoyurlar. Qaçıb canlarını qurtarmış şəhər əhalisi dövlətin başqa yerlərinə, Moruyeya, Trapezunda və s. səpələnirlər. Bundan sonra Bizans kimi Konstantinoplun da tənəzzülü başlayır.

Nəhayət 1452- ci ildə osmanlı ordusu sultan II Mehmetin rəhbərliyi adltında Konstantinoplu fəth edir. Müqəddəs Sofiya kilsəsi məscidə çevilir. Bir müddətdən sonra şəhər Osmanlı dövlətinin paytaxtına çevrilir və İstanbul adlanır.


*İstanbul – Nuri Osmaniyyə XVIII əsr*

İstanbul Osmanlı hakimiyyəti dövründə yenidən inkişaf edir və tərəqqiyə başlayır. Şəhər get- gedə Bizans xüsusiyyətlərini itirərək Şərq kaloritini qazanır. İstanbulun indiki görkəminə malik olmasında məşhur türk memarlarının, ilk növbədə Xeyrəddin və Sinanın az əməyi olmamışdır.

Hazırda bu möhtəşəm şəhərin əhalisinin ümumi sayı 2 ml. nəfərdən çoxdur. Asiya və Avropa qitələrində yerləşir. Onun Asiya sahillərindəki hissəsi Üsküdar adlanır. Türklər şəhərin Avropa hissəsinə Bəyoğlu deyirlər. Şəhərin ümumi küçələrinin sayı 6 minə çatır.

Hazırda İstanbul Türkiyə Respublikasının mühüm elm və mədəniyyət mərkəzi sayılır. Burda iki Universitet, Ali texniki məktəb,





Ali iqtisadiyyaq ticari məktəbi, Dövlət Konservatoriyası vardır. Şəhərdə iyirmidən çox cəmiyyət fəaliyyət göstərir. Ölkənin ən böyük kinostudiyalarından beşi burdadır. Şəhərdə 550 yaxın qəzet və jurnal buraxılır.


*İstanbul – Dolmabaxça*

İstanbulu bütün dünyada ən çox tanıtdıran onun Müqəddəs Sofiya kilsəsi (məscidi), Xora kilsəsi, Qahirə kilsəsi, Müqəddəs İrina kilsəsi, İsani Studion kilsəsi və s. dini mərkəzlər, Cıdır meydanı, Konstantinun sütunu, Bizans hasarı və s. abidələrdir və onlar yunan- bizans mədəniyyəti nümunələrindədir. Türklərin yaratdığı Eyyub Camesi, Sultan camesi, Sultan Süleyman məscidi, Sultan Əhməd camesi və s. məscidlər, xəmçinin Topqapı, Dolmabağça və s. saraylar şəhərə az şöhrət qazandırmamışdır.

Şəhər öz idarə sistemində də Romadan bəzi şeylər əxz etmişdi. Məsələn, o on dörd inzibati "regiondan" (rayondan) ibarət idi və onlardan on ikisi qədim şəhər qala divarları içərisində yerdləşmişdi. Belə inzibati bölüm İstanbulun türklər tərəfindən fəthinə qədər davam etmişdi.

Bizans dövrü nümunələrindən danışarkən yadigar qalmış məşhur meydanları sadalamaq gərəkdir. Onların ən tanınmışları bunlardır:

I) Avqesteon. O, Aya Sofiya camesi ilə Sultan Əhməd camesi arasnda yerləşir. Burda son vaxt Bizans imperatorluğuna aid yolların göstəricisi - milliorium - durumuş. Meydanda həmçinin zəfər tağı, heykəllər, sütunlar

göz oxşayırmış. İmperator Yustinianın at üstündə heykəli də burda idi.

2) Forum Konstantini. Burda da heykəllər olub. Mərkəzdəki sütun diqqəti cəlb edərmiş. Sütunun üstündə imperator Konstantinin tuncdan heykəli görünərmiş.

3) Forum Tauri. Bu meydanın adı da bir komandanın adından götürülüb. Rəvayətə görə burada bir tunc heykəl olub. I Teodor tərəfindən qurulan bu meydanda imperatorun öz heykəli qoyulubmuş və heykəlin əli şəhərə sarı uzanıbmış.

4) Forum Amastrianum. O, bugünkü Şəhzadə Bağının cənub tərəfində olub.

5) Forum Vovis. Bu meydan adını Peqamondan götürən və böyük bir öküz başını təmsil edən tunc bir heykəldən götürüb. Forum hazırki Aksaray adına meydanın müqabil tərəfində idi.

6) Forum Arkadi. Adını imperator Arkadiusdan almış bu meydan dördbusaqlı şəklində idi və mərkəzində imperator Arkadiusun heykli varmış. Sütunun mərmər bünövrəsi hal- hazırda Paşa Camesinin yaxınlığında durur.

Bizans dövrü abidələri çoxdur və onlar haqqında müfəssəl danışmaq üçün ayrıca kitab yazmaq lazımdır. Biz isə burada ən qısa məlumatla kifayətlənməyə məcburuq.

Osmanlı dörünün abidələri də Bizans dövründən geri qalmır. Tarixən sonra quruculuğa başladığı üçün o əvvəlki mərhələlərdən çox şey qəbul etmişdi. İstanbul 1452- ci ildə türklər tərəfindən alındıqdan sonra bir müddət tənəzzül keçirsə də, tezliklə öz əvəllki həyatına qayıtdı və abad, nikbin bir şəhər oldu. Amma get- gedə onda Asiya xüsuiyyətləri üstünlük qazanırdı.



***İstanbul***





Anadolu hasarı. O İstanbul boğazının ən dar yerində XIV əsrdə inşa edilmişdir. Bu qala Anadolu sahəsində, Göysu mənsəbi adlanan yerdədir. Bu qalaya bəzən "gizlicə hisar" da deyirlər. Tarixi qaynaqlar onun yerində əvvəllər kiçik bir məvəd olduğunu söyləyir. Türkiyə tarixçiləri qalanın İldırım Bəyazid tərəfindən 1395- ci ildə Bizansın Qara dənizlə əlaqələrini kəsmək məqsədi ilə tikildiyini göstərir. Çələbi isə başqa bir sultanı, II Mehmeti qalanın yaradıcısı kimi göstərməsi yanlışlıq törədib. Çünki II Mehmet 1452- ci ildə başqa bir qalanı Rumeli hasarı (Boğazkəsən) tikdirdiyi zaman onda İstanbulun fəthinə hazırlıq göstərirdi. Anadolu hasarına da bəzi qüllə və qala divarları əlavə olunmuşdu.

Anadolu hasarı həm İstanbulun fəthində (1452- ci ildə). həm də sonrakı illərdə fəal hərbi mərkəzlərdən biri olmuşdur. O, Qara Dənizdən gözlənilən hücumlardan şəhəri qoruyan bir istehkam rolunu oynamışdır. Evliya Çələbi özünün "Səyahətnaməsi"ndə onun möhkəmliyindən bəhs etmiş, onu "şəddadi bina olmuş ali və möhkəm bir qala" adlandırmışdır. Ondan əlavə, məşhur səyyah, qalanın önündə Fatehin bir məscid də tikdirdiyini söyləyir. Hazırda onun yalnız xarabalığı qalır.

Bu qala təxminən 3 m hündürlüyü olan bir qaya üzərində qurulub. Diametri 20 m, qalınlığı 1, 5 m və yüksəkliyi 20 m çatan divarlarla əhatə olunmuşdur. Divarın içərisində, şimal tərəfdə hündürlüyü 20 m çatan bir qüllə vardır. Qala divarında və qüllədə mağara yerləri olmuşdur. XIX əsrdə qalanı və ətrafını görmüş səyyahlar onun dənizdən yaxşı göründüyünü yazmışdır. Qala çoxdandır ki, diqqətdən kənarda qalmışdır.

Türklər İstanbulu alandan sonra şəhərin həm əhalisi, həm də ümumi görkəmində dəyişikliklər baş verdi. Bizansa aid bəzi məhəllələr, evlər və s. əsl adını, formasını dəyişdi. Müsəlman türklərin saldıqları məhəllələr ənənəvi islam prinsipinə əsasən qurulurdu. Adət üzrə məhəllənin camesi, yaxud məscidi tikilirdi və onun imamı, qazisi olurdu. Belə məhəllələr bəzən bir inzibati valid kimi şəhərin ümumi idarə təşkilatlarına daxil olurdu.

Şəhərin fəthindən sonra çoxlu came inşa edilirdi. O, dövr haqqında ən yaxşı məxəz kimi Ayvansarai adlı müəllifin "Hadiqat əl- cavami" (camelər bağı) əsərini göstərmək olar. Ondan əlavə Hammer də bu haqda bəhs etmişdi. Məşhur səyyah və alim Evliya Çələbi də İstanbul islam abidələrindən söhbət açmışdır. Qeyd olunmalıdır ki, Sultan Süleyman Qanuni dövrünədək şəhərdə əlliyədək came inşa etdirilmiş və ona qədər kilsə dəyişdirilmiş və came funksiyasını icra etməyə başlamışdır.

Sonradan II Mehmet, II Bəyazid və I Səlim dövrlərində də müxtəlif şəxsiyyətlər İstanbulun müxtəlif yerlərində abidələr yuksəltmişlər. Həmin mərhələdə, qaynaqlar göstərir ki, təkcə İstanbulda 150 yaxın məscid inşa olunmuşdur.

İtanbul həm paytaxt kimi yox, həm də elm və maarif mərkəzi kimi özünə layiqli mövqe qazanmışdı. Bu məqsədlə şəhərdə çoxlu mədrəsələr və s. maarif ocaqları tikilmişdi. İlkin Osmanlı dövründən fəaliyyət göstərimiş mədrəsələr bunlardır: Aya Sofiya, Atik Əli Paşa, İbrahim, Çoban Çavuş, Davud Paşa və s. Ümumiyyətlə o dövrdə inşa edilən mədrəsələrin sayı əllidən çoxdur. Əlbəttə, sonrakı mərhələlərdə də maarif sahəsində də belə quruculuq işləri davam etdirilmişdir.

Şəhərdə başqa ictimai xarakterli, memarlıq və sənət baxımından əhəmiyyətli binalar da inşa edilmişdir. Onlardan məşhur daruşşəfaları, xanələri, karvansaraları, hamamları, çarşı bazarları və s. göstərmək olar. Ən məşhur daruşşəfalardan Dabbaqlar məhəlləsində fəaliyyət göstərən Aristotel xəstəxanasını, bəzi sənədlərdə Bimaristan kimi təqdim edilən Daruşşəfa adlı həm xəstəxana həm də poliklinika olmuş xəstəxananı göstərmək olar.

Şəhərdə ayrşı- ayrı şəxsiyyətlərin tikdirdikləri, türk mənbərlərində imarətlər adı ilə təqdim edilən, ictimai binalar də öz xüsusiyyətlərinə görə quruculuq tarixinə düşmüş nümunələrdir. Onların hər biri haqqında ayrıca danışmaq tələb olunsa da, biz adlarını çəkməklə məhdudlaşırıq. Bəyazid imarəti, Daruzziyafə, Əski imarət (ona bəzən Fateh imarəti və fəziləxana da deyirlər) Qələndərxanə, Kosa Mustafa Paşa, Əyyub, Mahmud Paşa (bunun əvvəlkilərdən fərqli olaraq yaradılma tarixi- 1462- ci il göstərilər. Bu imarət türklərin İstanbulda yaratdıqları ilk imarətdir). Göstərilən binalər öz dövrünün bir növ mehmanxana - xeyriyyə mərkəzləri rolunu oynamışlar. Mənbələrdə onların bəzisinin həcmi və s. faktlar verilib.

İstanbul xanə və karvansaralarla zəngin bir şəhərdir. Onların ən iriləri iyirmidən çox olub- Əsir Kapanı xanı, Əski Xanə, Kürkcü xanə və b.

Bütün Şərqdə olduğu kimi İstanbulun ən böyük ticarət mərkəzləri onun çarşı bazarı olub. Şəhərdəki Qapalı Çarşı neçə vaxdır ki, təksə Türkiyədə yox, az qala bütün dünyada tanınmışdır. Ən məşhur çarşılardan Əski Aya Sofiya çarşısı, Balıq bazarı çarşısı, Dilişdaş çarşısı, Dabbaqxana çarşısı və s. göstərmək olar. Ümumiyyətlə, bu şəhərin çarşı və bazarlarının sayı əllidən çoxdur.

Onların içərisəndə tarixi abidəsi sayıla bilən iri mağazalar, dükanlar vardır.

Deyildiyi kimi, tarixi abidələrlə zəngin olan bu şəhərin tam təsvirini vermək üçün bir neçə cildlik əsər yazmaq gərəkdir. Onun saraylarının, meydanlarının, küçələrinin tarixinə və təsvirinə sayzız- hesabsız məqalə, kitab, buklet, otkrıtka həsr olunmuşdur və bundan sonra bu iş davam etdiriləcəkdir. Qərblə, Şərqin, Asiya ilə Avropanın həm coğrafi, həm də





mədəni baxımdan qarşılaşdığı, bir- birinə təsir göstərdiyi, faydalandığı və deməli yeniləşdiyi bu gözəl şəhərə həsr etdiyimiz bu kiçik yazı ilə oxucudan ayrılmaq istəyirik.

# İZMİR

İzmirin yaranma tarixinə aid bir neçə əfsanə var. Onların birində deyilir ki, şəhər b. e. əvvəl XX əsrdə Friqiya çarı Tantal tərəfindən salınıb. Başqa birisində söylənilir ki, İzmir Efesdən gəlmiş adamların sayəsində b. e. əvvəl X əsrddə tikilib. O zaman Efes özü də Egey dənizi sahillərində salınmış məşhur şəhərlərdən biri idi.

Adının (Smirna) yaranmasına aid də rəvayətlər mövcuddur. Onu gah qəşəng, qoxulu çiçəklə əlaqələndirirlər, gah da ilk yunanların Artemida allahının şərəfinə adlandırıldığı güman edilir. (O zamanlar Samorina adlanırmış). Strabon qeyd edir ki, şəhərin adı ilk sakinləri olan cəsur və qəşəng Efes amazonkalarının birinin adından götürülüb. Bir fikir də budur ki, Efesin özünün rayonlarından biri Smirina adlandırıldığından yeni şəhərə də bu ad verilə bilərdi. Şəhərin gözəlliyi həmişə hamını valeh edib (Türklər onu gözəl İzmir adlandırıblar).

Yunan xalqının ən qədim tayfa birliklərindən sayılan ionalılar, b. e. əvvəl I minillikdə Kiçik Asiyanın Aralıq dənizi sahillərini məskən seçir. Gözəl təbii və iqlim şəraiti çoxlu əhali cəlb edir. Qısa bir tarixi dövr ərzində çoxlu yaşayış məskənləri və şəhərlər salınır.

Smirna ticarət və sənətkarlığın sayəsində çiçəklənir. Şəhərdə ədəbiyyat, elm, incəsənət nümunələri yaranır. Hətta bir əfsanəyə görə Homer Smirnada doğulub boya başa çatıb.

İona ərazisində qədim dünyanın fikir nəhəngləri Pifaqor, Heraklit, Miletli Fales, Anakmoqor, Anaksimandr yaşayıb yaradıb.

Uzun əsrlər boyu müxtəlif dövlətlər arasında davam edən müharibələrdən sonra Smirna tənəzzül edir. Onun yenidən dirçəlməsi Makedoniyalı İskəndərin adı ilə bağlıdır. İskəndər qədim iranlılarla apardığı müharibələrdən sonra qalib gələrək şəhəri tikdirir. Rəvayətə görə İskəndər yuxuda gördüyü bir əhvalatdan sonra əmr edir ki, Smirnanı dirçətsindlər. Bu haqda Strabon yazır ki, şəhər böyük sərkərdənin göstərişi əsasında yenidən qurulur.

Bundan sonra Smirnanın nisbətən dağıntısız keçən həyatı başlayır. Ta romalıların zəbtinə qədər. Bu dövrdə o dünyanın ən tanınmış şəhərlərindən

biri olur. Gənc Siseron Kiçik Asiyaya etdiyi səyahət zamanı şəhərdə bir neçə dəfə çıxış edir.

Xristianlıq dini yayılarkən Smirna onun ilk mərkəzlərindən biri olur. Orda tikilmiş kilsə ən qədim kilsələrdən sayılır.

Türklər Smirnanı 1084- cü ildə tuturlar. Səlcuqlardan olan Çaqabəy dənizdən hücum edərək şəhəri istila edir və ətrafı ilə birlikdə kiçik bir dövlət yaradır. Amma tezliklə bizanslılar şəhəri geri alırlar. Şəhər bir neçə əsr əldən- ələ keçir. Bu dövr ümumiyyətlə Bizansın tənəzzülü dövrü olduğundan ümumi vəziyyət Smirnaya da təsir edir. "Asiya gəlini" sayılan şəhər get-gedə geriləyir, tərəqqidən qalır.

Türklərin şəhəri alması 1402- ci ildə həyata keçib. Bu dəfə onu Orta Asiyadan ildırım sürəti ilə gələn Teymurləngin ordusu fəth edir. O vaxtdan Smirna İzmir olur. Osmanlı dövlətinin tərkibində qalır.

İzmirin ən qədim tikililərindən biri olan Kadifakaladır. O, Makedoniyalı İskəndərin sərkərdəsi Lasiman tərəfindən b. e. əvvəl 332- ci ildə tikilib (qədim adı Paqosdur). İlk dövrdə qalanın alınmaz divarlı olub. Qalanın içərisində yağış suyunu toplamaq üçün xüsusi qurğu da yaradılıb. Hazırda qaladan bir qədər divarı və əsas qapıları qalıb. Qala yerləşən təpəlikdən İzmirin ən geniş panoramı görünür.

Dinanın hamamları adlı tikili Xalqapınar rayonunda yerləşir. Əvvəllər su mənbəyi kimi istifadə edilən göl 1963- cü ildə quraqlıq nəticəsində çəkilir. Həmin tikililər də bu vaxt üzə çıxır. Bu haqda maraqlı bir əfsanə vardır.

Deyirlər ki, həmişə gözəl, düz qaməti, füsunkar və cəld qız olan Diana (yunanlarda Artemida) əlində nizə, çiynində ox- kaman çıxıb dağlarda, təpələrdə gəzməyi xoşlayırmış. Onu həmişə yaxın rəfiqələri- pərilər müşayiət edərlərmiş. Müqəddəs Diana hərdən xor təşkil edər, qardaşı Apomonun qızıldan olan çalğı alətinə qulaq asar, hərdən də insanlardan uzaqlaşıb sərin guşələrdə istirahət edərmiş. Bir dəfə ovçu Anteon dostları ilə birlikdə Dinanın səyahət yerinə gəlir və gül- çiçəyə bürünmüş vadıyə daxil olur.

Yorulmuş ovçu bilmir ki, bu yer Dinanın sevimli güşəsidir. Müqəddəs Diana da gəzməkdən qayıdıbmış ki, çıxıb istirahət etsin. Pərilər onun saçlarını açır, ayağındakı səndəlləri çıxarırlar. O çimməyə gedərkən, yolda Anteona rast gəlir. Pərilər Dinanı əhatə edirlər ki, adamın gözü ona sataşmasın. Amma müqəddəs Diana artıq Anteonu görmüşdü, qeyzə gəlir və bircə baxışla marala çevrilir. Maral qorxub qaçır. Anteonun itləri maralı görüb dalınca düşür və parçalıyırlar. Səs- küyə gələn dostları isə belə yaxşı ovu Anteonsuz əldə etdiklərinə sevinirlər.





Bu əfsanəyə əsasən uzun əsrlər boyu xəstələr bura axışıb gələr, müalicə olunmağa ümid bəsləyərdilər.

İzmirin ən qədim dövrü abidəlrindən biri də Bayraqlı adlanan rayonda üzə çıxarılmışdır. O, eradan üç min il əvvəl yaradılmış yaşayış evi, su quyusu, anbar və s. ibarətdir.

Namazgah rayonunda tapılan abidələr isə eramızın ikinci əsrinə aiddir. Çoxlu sütunlar, yeraltı zirzəmilər, heykəllər və s. burda üç mərtəbəli gözəl bir binanın olduğunu sübut etmişdir. Binada həmçinin geniş zallar və bazilika olmuşdur. Bütün bunlar binanın bir dövlət idarəsi kimi inşasından və daxilində ibadət üçün xüsusi mərkəz olduğundan xəbər verir.

Tapılmış sütunlar, dekorativ hissələr muzeydə nümayiş etdirilir. O dövrün ilahələrinin- Poseydonun, Demetrin, Artemidanın mərmərdən düzəldilmiş heykəlləri indi də öz yüksək sənətkarlığı ilə heyranlıq yaradar.

İzmirin ilk dövr abidələri daha çoxdur və nisbətən yaxın dövrlərdə tikildiyi üçün yaxşı qalmışlar. Aydındır ki, orta əsrlərdə islam ölkələrində (təkcə islam ölkələrində yox) olduğu kimi Türkiyədə də əsas binalar dini xarakterli olmuşdur. Odur ki, türk memarlığının inkişaf mərhələləri məhz məscidlərdə, təkyələrdə və türbələrdə öz real əksini tapmışsa, bu təəccüblü olmamalıdır. Ənənəvilik baxımından isə türk- osmanlı memarlığı iki mənbədən, səlcuq memarlıq məktəbindən, yunan- bizans memarlığından, xüsusilə, onun ən əzəmətli əsəri olan Aya Sofiyadan çox xüsusiyyətlər qəbul etmişdi.

Hazırda İzmirdə otuzdan artıq came və bir o qədər məscid vardır. Bir sıra səbəbəlr üzündən İzmirin cameləri də təmtərağı, daxili tərtibatı və ölçüləri baxımından Bursanın və İstanbulun eyni tipli abidələri ilə müqayisəyə gələ bilmir. (O səbəblərdən biri, adları çəkilən şəhərlərin dövlətin paytaxtı olmasıdır).

Başqa bir fərq İzmir məscid və camelərinin ayrı- ayrı sutan və s. şəxs adlarını yox, yerləşdikləri rayonların adını daşımasıdır. İzmir camelərinin əsasən doqquz dənəsi xüsusi diqqətə layiqdir. Və onları tarixi- mədəniyyət abidələri kimi təqdim etməliyik.

Hisar Camesi adlanan abidə 1598- ci ildə yaradılmışdır O, İzmirin ən nəhəng məscidi sayılır. Qala meydanında yerləşdiyi üçün Hisar camesi adlanır, hal- hazırda onun ətrafında şəhər bazarı vardır. Camenin ibadət zalı dördbucaqlı şəklindədir. Və ətrafında səkkiz dənə sütun qurulmuşdur. Nəhəng və gözəl qübbə həmin sütunlar üzərində dayanır. Əsas qübbənin ətrafında altı xırda qübbələr inşa edilmişdir. Ondan əlavə on dənə xırda qübbə ibadət zalının tavanı ətrafı boyu düzülmüşdür.

Şadırvan Camesi 1636- 1637- ci illərdə inşa edilib. Bu came şəhər

bazarının ərazisində, fonton- şadırvanla yanaşı yerləşdiyi üçün belə adlanır. Camenin qübbəsi səkkiz sütunlarda saxlanılır. Maraqlıdır ki, camenin daxilinin mərkəzi hissəsi, yəni qübbə altı tavan qədim antik stilindədir. Mehrab, minbər və s. hissəsələr ala naxışlı və yazıları olan mərmərdən inşa edilmişdir.

Məsciddən bir qədər aralı kitabxana və fontan vardır. Fontanın suyu qədim bir bulaqdan axıb gəlir və dadlı sayılır.

Maraqlıdır ki, İzmirin bütün məscidləri kimi bu camenin də yalnız bir minarəsi vardır. Məlumdur ki, başqa yerlərdə onların sayı daha da çoxdur. Sultan Camesi isə hətta altı minarəlɘdir.

Hacı Hüseyn Camesi. Onu bəzən yerləşdiyi ərazinin adı ilə Başdurak Camesi adlandırırlar. 1652- ci ildə tikilmişdir. Sonrakı zəlzələ nəticəsində çox dağılmış və 1774- cü ildə təmir edilmişdir. Nəticədə came öz ilkin görkəmini müəyyən qədər itirmişdir. Onun mərkəzi qübbəsi çox iridir, nisbətən üç kiçik qübbə isə daxili genişliyi daha artırmığa imkan vermişdir.

Hacı Əhməd ağa Camesi Kəməraltı adlanan rayonda yerləşir və 1671-ci ildə tikilmişdir. Onun da əsas mərkəzi qübbəsinin ətrafında üç qübbə vardır. Daxili tərtibatı əvvəlkilərə nisbətən sadədir. Diqqəti gözəl, naxışlı yazılar cəlb edir.

Xatuniyyə Camesi şəhərin Anafartlar Cəddəsi adlı küçəsində yerləşir. O, XVII əsrdə inşa edilmişdir. Sonradan bu məscid yenidən qurulub və təmir olunub. Genişləndirildiyi üçün öz əvvəlki formasını itirmişdir. Bu camenin bir xüsusiyyəti də ondadır ki, qadınların ibadəti üçün ayrıca hissəsi var.

Sələnçi Camesi- Sələnçi oğlu küçəsində yerləşdiyi üçün belə adlanır. Mütəxəssislərin fikrincə, İzmirin memarlıq baxımından və bədii tərtibatına görə ən maraqlı abidəsidir. Onun giriş qapısına enli mərmər pilləkənlər aparır, hər iki tərəfdə isə gözəl terraslar vardır. Məscid başdan- başa mərmər və yaşıl rəngli daşla örtülmüşdür. Hər ikisi abidəyə təzəlik və yaraşıq verir.

Kestanə bazarı Camesi 1663- cü ildə tikilmişdir və şəhərin Kestanə bazarında yerləşir. Bu came iki mərtəbəlidir. Və bir növ İstanbulun məşhur Dolmabağça camesini xatırladır. Birinci mərtəbə anbarlar və dükanlar üçün ayrılmışdır. Camenin mərkəzi qübbəsi dörd böyük sütun üzərində qurulub. Daxili tərtibatda; mehrabın, qapıların bəzədilməsində türk xəttatlıq və miniatür sənətinin zənginliyi aydın görünür.

Vali Camesi vilayət binasının qarşısında, Konak rayonunda yerləşdiyi üçün belə adlanır. O, 1754- cü ildə tikilmiş, Birinci Dünya Müharibəsi dövründə əsasdlı təmir olunmuşdu. Daxili tərtibatı olduqca gözəldir. İncə zövqlə bəzədidlmişdir. Mehrab naxışlı mərmərlə örtülmüş, minbər müxtəlif rəngli kərpicdən hörülmüşdür. Daxili tərtibatda gözəl naxışlı ağac





hissələrdən istifadə olunmuşdur.

Əliağa Camesi İzmirin məşhur sənət abidəsidir. Və 1672- ci ildə inşa edilmişdir. O, mərkəzi şəhər xəstəxanasının yanında, böyük bir bağın içində yerləşir. Bəzi səbəblər üzündən məscid yerli sənətkarlar tərəfindən tamam dəyişdirilmişdir.

İzmirin sadalanan tarixi abidələrindən əravə bazarı haqqında bir qədər danışmaq gərəkdir. O, əksər şərq bazarları kimi üstüörtülüdür (türklər qapalı çarşı deyirlər). Bu bazar- Bədəstan demək olar ki, şəhərin mərkəzində yerləşmişdir və Anafartlar Cəddəsilə bitişikdir. Bazarda çoxlu dükan, mağaza, çayxana və s. vardır. Burda həmçinin arxeoloji nümunələr, bizans ikonaları, müxtəlif dövrlərin və xalqların silahları və s. satılır. Xüsusi cərgələrdə zərgərlər, misgərlər, xalçaçılar, və s. müxtəlif çeşidli alver edirlər. Bazarın bəzi mağazalarının də daxili tərtibatı maraq doğurur.

# MEMAR SİNAN

Bu kitabda ayrı-ayrı memara həsr olunmuş xüsusi bölmə yoxdur. Kitabın qarşıya qoyduğu məqsəd müəyyən tarixi dövrlərdə yaradılmış sənət nümunələri ilə oxucunu tanış etməkdir. Amma Sinan memarlıq tarixində elə bir iz qoymuşdur ki, o böyük insanın gördüyü iş xüsusi diqqət tələb edir. Odur ki, biz memar Sinandan ayrıca danışmağı lazım bildik. Qoy bu bizim böyük sənət və böyük sənətkar qarşısında öz oxucu borcumuzun ifadəsi kimi səslənsin.

Sinanın bütün nəhəng yaradıcılıq qüdrətini üç böyük sənət əsəri Şahzadə Süleymaniyyə və Səlimiyyə məscidləri müəyyən dərəcədə bir-birini tamamlayan və qismən bir-birinə oxşayan və fərqlənən, amma sənətkarın inkişafını yaxşı təcəssüm edən ən layiqli şəkildə təsdiq edir. Onları böyük Sinanın yaradıcılığının zirvələri sayırlar.

1548-ci ildə İstanbulda inşası tamamlanan Şahzadə məscidi haqqında maraqlı bir rəvayət var. Danışılır ki, Osmanlı Sultan I Süleyman qadını Koksolanın dedi-qodusu nəticəsində oğlu Mustafadan şübhələnir və özünə qarşı sui-qəsd düzəldildiyini güman edir. Sultan öz oğlunu öldürür. İkinci oğlu Cahangir qardaşının günahsız ölümünə dözməyib intihar edir. Tutduğu əməldən peşiman olan sultan I Süleyman hər iki oğlunun şərəfinə Şahzadə məscidini tikdirir.

Bu abidənin ümumi planı kvadrat şəklindədir.Hazırda hamar divarları yonulmuş daş lövhələrlə örtülmüşdür. Pəncərələri, tağları, nişaları ox

şəkillidir. Əsas bina ilə günbəz arasında dörd yarımgünbəz yerləşdirilib. Onlardan əlavə kənarda da dörd yarım günbəz tikilmişdir.

Məscidin həyəti də kvadrat şəklindədir. Həyətdə fantan var. İki gövdəli minarə binanın monumentallığı ilə uyğunlaşır.

Sinanın bu ilk möhtəşəm əsərinin interyeri də xarici görkəmi kimi nəhəng ölçülərə malikdir. Mərkəzi zalla bitişik tikilmiş köməkçi binalar məscidin daxili genişliyini daha da artırmışdır. Tağlar, səkkizbucaqlı, gövdəli sütunlar mütənasibdir.

Böyük memarın ikinci məscidi xüsusi yer tutur. Bu abidə 1550-1557-ci illərdə inşa edilmişdir. Məscidin sifarişcisi tarixdə məğrurluğuilə tanınan I Süleyman bir neçə dəfə memarı işinin ləng getdiyinə görə hədələmişdi. Hətta Sultanın bəzən öz fıkrından əl çəkmək istədiyini də yazırlar. XVII əsrin tanınmış səyyah və tarixcisi Evliya Çələbi öz əsərində qeyd edir ki, Sultanın bu məscidinin sorağını eşidən Səfəvi şah Təhmasib ona elciləriylə qiymətli hədiyyələr göndərir. Təhmasib sultana yazdığı məktubda arzusunu həyata keçirməyi tövsiyə edir və əgər maddi vəsaiti çatmasa göndərdiyi hədiyyələrdən də istifadə etməyi məsləhət görür. Məğrur Süleyman məktubu oxuyub qurtardıqdan sonra elçinin yanındaca şahın hədiyyələrini İstanbul tacirlərinə paylayır. Qiymətli daşlar qoyulmuş mücrünü isə memar Sinana verir. Sonra tapşırır ki, şahın göndərdiyi daş-qaşı məscidin tikintisinə sərf etsin. Sinan həmin qiymətli daşları, deyirlər ki, minarənin birinin bəzədilməsində istifadə etmişdir. Maraqlıdır ki, Süleymaniyyə minarələrinin biri beləcə də "daş-qaşlı" adlandırılmışdır.

Həqiqətən Süleymaniyyə məscidinin tikintisi çox böyük vəsait tələb edibdir. Evliya Cələbinin və digər orta əsr müəlliflərinin yazdığına görə bu abidə otuz milyon asprdan artıq məbləğə başa gəlmişdir.

Məscidin əzəmətini təsəvvürə gətirmək üçün bir neçə rəqəm sayaq: günbəzin ümumi diametri 26, 5 m, hündürlüyü isə 53 m-dir. Altında yerləşən barabanın pəncərələrinin sayı 32 dənədir. Sahzadə məscidindəki kimi burada da əsas bina kub formasındadır. Burada da beş günbəzdən əlavə yarımgünbəzlər inşa edilmişdir. Amma Sinan Süleymaniyyəyə əzəmət verməkdən ötrü binanın xarici quruluşunda bir sıra yeniliklər yaratmışdır. Pilonlar və gövdəli kontrforslar məscidin görkəmində istənilən təsiri törədir. Süleymaniyyənin əzəməti bir də yerləşdiyi təpəliyin-həm quru həm də sudan yaxşı görünən yerin- mövqeyindən yaradılır. Bina kənardan tamaşa edənlərə ağır təsir bağışlamamaq üçün memar oxvari pəncərə və nişalarla divarları tamamlamış, günbəzi daha da qabarıq qurmuşdur. Sinanın böyük isdedadı Süleymaniyyənin daxili quruluşunda da özünü göstərir. Binanın içərisi geniş və işıqlıdır. Əsas sütunlar və yarımsütunlar qiymətli daşlardan





yonulmuşdur. Tavan, divarlar, tağlar bir-birindən gözəl, könül oxşayan naxışlarla bəzədilmişdir. Əsas şəkillərdə cürbəcür çiçək, yarpaq, sünbül, və s. təsvir olunur. Qurandan götürülmüş yazılar da diqqəti cəlb edir. Bağların tərtibatında ağ və rəngli mərmərdən istifadə olunub. Mehrab, çiçəklənən kollar təsvir olunan pannonun fonunda füsünkar görkəm alır. Onu rəngli mərmərdən düzəldilmiş, göy və qızılı ulduzlarla bəzədilmiş konusla bitən minbər yaxşı tamamlayır. Mütəxəssislər binanın xarici görkəmindəki əzəmətin, daxili tərtibatındakı yüksək zövq və tərtibatın ecazkar təsir bağışladığını həmişə qeyd edirlər. Bu gözəl sənət əsərini Sinandan əlavə məşhur xəttat Həsən Qara Hisar və rəssam Sərxoş İbrahim öz ölməz istedadları sayəsində yaratmışlar.

Süleymaniyyə kompleksinə daxil olan hissələr bunlardır:

Ənənəvi formalı həyət, üçmərtəbəli portal, minarələr, həyətdəki köməkçi xidmət məqsədilə inşa edilmiş binalar. Həyətdə ən görkəmli abidələrdən sultan və arvadı Xürrəmin mavzoleylərini demək lazımdır. Onlardan əlavə məscid kompleksinə mədrəsə, tibb məktəbi, karvansara, xəstəxana və imarət daxil imiş. Qeyd olunmalıdır ki, böyük sənətkarın sadə görkəmə malik məqbərəsi də Süleymaniyyə məscidinin həyətində yerləşir.

Sinanın yaratdığı və Ədirnə şəhərinin əsas abidəsi sayılan Səlimiyyə məscidi 1569-1575-ci illərdə tikilib başa çatmışdır. Sinan, maraqlıdır ki, bu sənət əsərini həyatının mənası hesab etmişdir. Şahzadə məscidi haqqında demişdir ki, o şagirdlik təcrübəsi olub. Süleymaniyyə məscidinin tikintisi isə usta köməkçisi işi səviyyəsindədir. Göründüyü kimi dahilər ölməz sənət əsərləri yarada bildikləri qədər də özlərinə qarşı ciddi və tələbkardırlar. Səlimiyyə bütün mütəxəssislərin fikrincə ölməz sənət əsərlərindən biri olaraq qalmaqdadır.

Bu məscid plan etibarılə kvadrat formasındadır. Böyürlərdə tikilmiş dördbucaqlı binalar mərkəzi zalla birləşdirilmişdir. Əsas binanın hissələrə bölünməsi kənardan aydın görünür. Pəncərəli nişalar enlidir, kontrforslar bir qədər maildir, yarımgünbəzlər yastı və sferikdir. Baş günbəz hündür olmayan baraban üzərində yerləşib və altı dənə uc hissəsi iti tikilmiş kiçik qüllə ilə əhatə olunmuşdur.

Binanın bu cür konstruksiyaya malik tikilməsi Sinanın fikrincə ən yaxşı memarlıq həllidir. Günbəzin ilk növbədə diqqəti özünə cəlb etməsi məscidin təsir qüvvəsini artırmalıydı. Böyük memar, əlbəttə haqlı idi. Səlimiyyəni görən müasirləri onun insan əli ilə yaradıldığından daha çox, ilahi qüvvə tərəfindən səmadan göndərildiyinə inanırlar.

Səlimiyyə məscidinin minarələri başqalarından fərqli olaraq, az qala əsas binaya bitişik qaldırılmışdır. Həm də məscidin ümumi ölçülərinə

nisbətən daha uca və qamətlidir. Onların şiş ucları fəzaya zilləndiklərindən muasir dövrümüzün raketlərini xatırladırlar. Memarın minarələri həm də əsas binaya yaxın və uca qurması məscid kompleksinə monolitlik verməyə çalışmasından doğmuşdur. Sinan bu yeniliklə də öz istəyinə nail olmuşdur.

Səlimiyyənin daxili hissəsi də əvvəlki abidələrdən fərqlənir. Süleymaniyyə məscidindən danışarkən, onun içərisinin geniş və işıqlı olduğu qeyd edilmişdir. Səlimiyyənin daxili tərtibatı öz gözəlliyi və zənginliyi baxımından heç də əvvəlki məscidlərdən geri qalmır. Amma burda ciddilik və ifrata varmamaq hökm sürür. Mərmərdən düzəldilmiş mehrab gözəldir. Divarlar açıq və rəngli mərmərlə örtülmüşdür. Günbəz müxtəlif bitkilər təsvir edilən gözəl naxışlarla bəzədilmişdir. Çoxlu Quran yazısı burda da diqqəti cəlb edir.

Daxili quruluşda da yeniliklər var. Burda əsas günbəz çox da böyük olmayan tağların üzərində yerləşdirilmişdir. Tağları saxlayan sütunlar isə yan divarlara çox yaxın yerdən qaldırılıb. Beləliklə memar daxili quruluşda etdiyi dəyişikliklə zalın geniş qavranılmasına nail olmuşdur.

Səlimiyyə də başqa iri məscidlər kimi kompleks yaradılmış abidədir. Burda da dördbucaq formalı həyət vardır. Meydançanın mərkəzində səkkizguşəli fantan inşa edilmişdir. Ətrafda günbəzli qalereya yerləşir. Qalereyanın mərkəzində əsas giriş, yan tərəfdən isə ehtiyat giriş qapıları qoyulub, həyətdə yardımçı binalar əsas abidə ilə vahid ansambl təsiri yaradır.

## DİYARBƏKİR

Şəhər ən qədimlərdə Amida, sonralar Amid və yaxud Qara Amid adlandırılmışdır. Türkiyə Respublikasının cənub-şərq hissəsinin ən böyük şəhəri hesab olunur.

Diyarbəkirin mühüm yaşayış mərkəzi kimi inkişafı onun çox böyük əhəmiyyətə malik yollar üzərində yerləşməsi ilə əlaqədardır. Bu yollardan biri Anadolu və Suriyadan adlayaraq İrana daxil olur. Başlanğıcı Bəsrə limanından gələn bu yoldan Diyarbəkirdə ikinci bir yol ayrılaraq şimala uzanır və Xarput və Sivas üzərindən adlayaraq Samsuna sarı enir. Bu Mesopotamiyanı Qara dənizlə birləşdirən həyat arteriyasıdır. Bundan əlavə başqa bir yol Diyarbəkiri Bitlis və Van gölü hövzəsi ilə birləşdirir və oradan da Azərbaycana, sonra isə İrana adlayır. Beləliklə Amida-Diyarbəkir ta qədim zamanlardan ticarət mərkəzi rolu oynamaq üçün yaxşı imkana





malikdir. Onun haqqında yazırlar ki, Bizans imperatoru Konstantin 349-cu ildə burada quruculuq işi aparmışdır. Sonra isə, 10 ildən sonra Sasani şahı Şapurun qoşunları tərəfindən mühasirə edilmişdir.

Diyarbəkiri görən səyyahların diqqətini ilk növbədə şəhərin ətrafına dolanmış qala divarları cəlb edibdir. Qara bazaltdan inşa edilmiş bu divarları və şəhər qalasını tədqiq edən alim A.Qabriyel belə məlumat verir ki, onun uzunluğu şərqdən qərbə 1700 metr, şimaldan cənuba sarı isə 1300 m qədərdir. Əsas divarın hündürlüyü 8-12 m yüksəklikdədir. Müxtəlif məsafələrdə, birı-birından aralı olaraq həm kvadrat, həm də dairəvi şəkildə 78 dənə bürc sıra ilə göz oxşayır. Əsas qapıların yanındakı bürclərin isə xüsusi adı vardır. Ulu Bədən, Yeddi Qardaş və Kişi Bürcü. Qalanın dörd cəhətində qapıları vardır. Bunların şimal qapısı Xarput (yaxud Dağ), qərbdəki Urfa (əvvəlcə Rum adlanırdı), cənubdakı Mərdın, şərqdəki isə Yeni Qapı (yaxud Şatt Dəclə) adlanır.

Qalanın içərisində X1X əsrdə tikilib tamamlanmış bir məscid binası da vardır.

Mütəxəssislərin fikrincə qala divarları əsasən Bizans dövrünün məhsulu olsa da islam dövründə müxtəlif sülalələrin rəhbərliyi altında - Abbasilər, Mərvanilər, Səlcuq türkləri, Artuk oğulları- yenidən qurulmuş, təmir edilmiş, bəzənsə öz əvvəlki görkəmini itirəcək dərəcədə dəyişdirilmişdir. Şəhərin qala davarları kimi abidələri də, bəzən ağ kirəc daşından, bəzənsə bazaltdan inşa edilmişdir.

Şəhərin demək olar ki, hər bir hissəsində müəyyən tarixi əhəmiyyətə malik abidə mövcuddur. X1X əsrin sonlarına aid bir tarixi qaynaqda göstərildiyinə görə şəhərdə hələ o zaman 24 came, 21 məscid, 11 kilsə, 3 kitabxana, 11mədrəsə, 8 hamam 20 karvansara və bir dənə örtülü bazar olubmuş. Camelərin ən böyüyü çox güman ki, şəhərin mərkəz hissəsindəki Ulu Camedir. O, ilk dəfə 1839-cu ildə Ç.Taxiyer tərəfindən qismən öyrənilmiş, daha sonra Qudei və Q.Bell tərəfindən bir daha yoxlanılmış və nəhayət, 1932-ci ildə A.Qabriyel onu mükəmməl tədqiq etmişdir.

Bir rəvayətdə deyilir ki, Ulu came sonralar müsəlman ibadətgahına çevrilmiş kilsə olmuşdur. Bu haqda Evliya Çələbi bir əfsanə kimi qeyd etsə də, başqa alimlər onu təkrarlamış müəyyən qədər həqiqətə oxşatmışlar. Vam Berqhem isə abidənin daha əvvəllərdən, xristianlığın yayıldığı vaxtlardan da əvvəl mövcud olduğunu söyləmişdir. A. Qabriyel isə Ulu Cameni əsaslı tədqiq etdikdən sonra qəti surətdə bildirmişdir ki, nə binanın özülündə, nə də başqa bir hissəsində keçmişdən qalma heç bir əlamətə rast gəlməmişdir.

Diyarbəkirdən qalan abidələr əsasən X1Y əsrdən sonra, xüsusilə osmanlılar dövründə, inşa edilmişdir. Camelər konstruksiya baxımından bir-

birini təkrar etməsə də eyni tiplidir. Ən qədim minarələr dairəvi formada inşa edilib, nisbətən sonrakı dövrlərin məhsulları isə dördbucaqlıdır. Abidələrin əksəriyyəti bir cərgə qara bazalt, bir cərgə ağ kirəc daşı ilə tikilmişdir, Onlardan ən əvvəl osmanlı dövründən iki il qabaq Ağqoyunlu Cahangir oğlu Qasım tərəfindən inşa edilmiş Qasım padşah (və ya Şeyx Matar) camesini, Bayikli Mehmet Paşanın tikdirdiyi Fateh Paşa və Peyğəmbər camelərini, şəhər zadəganlarından Hacı Hüseyn Əli tərəfindən 1532-ci ildə tikilmiş Safa camesini, Nadir Əli Paşa və İsgəndər Paşa camelərini, Osmanlı dövrü camelərinin ən əhəmiyyətlisi sayılan və baş darvazvsı bəzədilmiş Bəhram Paşa camesini (inşa tarixi 1572-ci il) Mələk Əhməd Paşa və Nazeh Paşa camelərini göstərmək olar.

Diyarbəkirin salamat qalmış və indi də diqqəti cəlb edən xanə və karvansaraları arasında ikisi xüsusi qeyd olunmalıdır. Məhşur tədqiqatçı A. Qabriyel yazır ki, Mərdin qapısı yanındakı Dəlillər xanesi iki mərtəbəli və dörd hissəli olaraq XY1-XY11 əsrlərin inşaat məhsuludur. Onların ən qədimi, alimə görə şəhərin mərkəzində 1575-ci ildə tikilmiş Hasan Paşa adlı xanədir. Səyyah və alim Evliya Çələbi Diyarbəkir qalasının sudan korluq çəkmədiyini yazmışdır. Şəhərin kənarındakı Qaraca dağdan çıxan Xamravat suyunun Diyarbəkirə gətirildiyini və bu işin Süleyman Qanuni zamanında həyata keçdiyini (1535-ci il) qeyd etmişdir.

## XİSN KEYFA

Dəclə çayının sag kənarında Diyarbəkir ilə Cəzirə arasında yerləşən bu şəhərcik ən qədim insan məskənlərindən sayılır. Burada inşa edilən qala böyük müdafiə qabiliyyətinə malik olmuş və Roma imperiyasının İran sərhədləri üzərinə nəzarət edən mərkəzi imiş. Eranın əvvəlində Kifas və Kefa adlanan şəhər Kalkedon (Kadıköy) konsullugu daxilində bir siryan yepiskopatlıgının mərkəzi olmuşdur. (451-ci il). Məhşur tarixçi alim Əl-Müqəddəsi burada çoxlu kilsənin fəaliyyət göstərdiyini yazmışdır.

Xisn Keyfa orta əsrlərdə də öz strateji və hərbi mövqeyini qoruyub saxlamışdır. Müsəlman hakimiyyəti altına düşdükdən sonra Abbasi sülaləsinin nüfuzu azaldıqda xilafətin digər əyalətlərində olduğu kimi burda da rəhbərlik az- çox iqtidara malik yerli xanədanın əlinə keçmişdir. Bu şəhər ətrafı ilə birlikdə Həmdanilərin, Mərvanilərin və 130 ildən artıq bir müddətdə (1101-1231-ci illər) Artuk oğulları deyilən sülalənin paytaxtı olmuşdur. Xisn Keyfanın tərəqqisi və abadlığının zirvəsi məhz həmin illərə





düşmüşdür. O, abidələrdən bu günkü günədək gəlib çatanları bərbad vəziyyətdə olsalar belə, quruculuq vüsəti haqqında təsəvvür yarada bilərlər.



*Xisn Keyfa*

O dövrdə Xisn Keyfa hökmdarları bəzən Anadolu səlcuqları, bəzənsə Əyyubilər sülaləsinə müəyyən müqavilələrlə bağlı olmuşlar. Nəhayət, Əyyubilərdən olmuş Əl-Malik Əl-Kamil 1232-ci ildə şəhəri zəbt edərək Artuk oğullarını devirdi. 1260-cı ildə şəhər monqollar tərəfindən zəbt olundu. Bu zaman şəhər ciddi zərər çəkmişdi. Xisn Keyfanın tənəzzülünü tarixçilər məhz həmin illərlə bağlayırlar. Tarixçi alim Həmdulla Mustafi bu şəhər haqqında danışdığı zaman (1340-cı il) Xisn Keyfa artıq çox hissəsi dağılmış bir yer idi. Sonradan onun Ağqoyunlulardan olmuş Uzun Həsənin oğulları yenidən dirçəltdiyi qeyd olunmuşdur. XVI əsrdə Xisn Keyfa bir müddət səfəvilər xanədanının əlinə keçib, amma az sonra osmanlı dövlətinin tərkibinə qatılıb və Diyarbəkir vilayəti tərkibində bir sancağa mərkəz olub. Amma şəhər əvvəlki tənəzzülündən yaxa qurtara bilmədii. Diyarbəkir ilə Əl-Cəzirə arasındakı gediş-gəliş yolu artıq buradan keçmirdi. Dəclə üzərində körpü uçulmuş və şəhər get-gedə nüfuzdan düşmüşdü.

Qədim şəhərin orta əsrlər, islam dövründə çatdığı parlaq zirvə, daxilində həyata keçmiş quruculuq işlərinin böyüklüyü ilə, qismən də salamat qalmış abidələrinin memarlıq səviyyələri ilə yaxşı izah oluna bilər. Həmin abidələr məhşur arxeoloq A. Qabriyel tərəfindən əsaslı surətdə tədqiq edilmişdir.Hasar Dəclənin yatağından 100 m yüksəklikdə olan sarp bir yerin üzərindəki düzənlikdə qurulmuşdur. O, şimal-şərq tərəfdə yerləşən şəhərdən dərin xəndəklərlə ayrılarmış. Şəhərin özü isə çayın yatağından



*Xisn Keyfa*

cənub- şərqdəki cüzi mailliyi olan düzənlikdə salınmışdı. Hasardan bu günə qədər qədim bir saray xarabası, bir came və s. tikili parçaları qalmışdır. Şəhərin özündə də tərk edilmiş və zamanın təsirindən uçulub dağılmış çoxlu came xarabalıqları qalmaqdadır. Xarabalar üzərində bir sıra sutun, uçub dağılmamış bir-iki minarə yüksəlməkdədir. Dəclənin qarşısındakı yamacda da bir neçə qədim bina və türbə görünür. İki sahili bir-birinə bağlayan, möhtəşəm körpü çoxdan uçub yox olmuş, yerində ancaq təməlləri qalmışdır.

Hər tərəfi sıldırım yamaclarla əhatə olunmuş qalaya yalnız şərq tərəfdən, pilləkanlar inşa edilmiş dolambac bir cığırla qalxmaq olar. Bu yoxuş İbn Şəddadın təsvirinə görə yeddi qapı ilə möhkəmləndirilibmiş. Bu gün isə onlardan yalnız üçü mövcuddur. Onlardan birisinin üzərində Əyyubi hökmdarı Süleyman tərəfindən (1420-ci il ) vurdurulmuş lövhə vardır. Amma elmi tədqiqatlar göstərir ki, bu qapılar daha əvvəl, XIII əsrdə mövcud olmuş qapıların yerinə asılıbmış. Qaladan çaya sarı enən bir qayada düşüb-qalxmaq üçün cığır yonulmuşdu. Həmin yoldan mühasirə zamanı çaydan su götürmək məqsədi ilə istifadə olunarmış. Qalanın ən yüksək hissəsində Ulu Came yerləşir. Hazırda o came çox saglam görkəmə malikdirsə, bir sıra təmirlər onun planında dəyişiklik törədibdir. Mövcud kitabələrdən ən qədimi 1399-cu ilə aiddir və o, Fəxrəddin Süleymanın adını daşıyır. Amma, elmi axtarışlar göstərib ki, kitabə abidənin tarixini yox, təmirin vaxtını təsdiqləyir. Ulu Camedən bir az aralıda bina edilmiş saraydan indi yalnız geniş təməllər, qismən də uçub tökülmüş divar və kəmərlər qalmışdır. A.Qabriyel heç bir kitabəsi olmayan bu binanı körpü ilə yaşıd saymış və bununla Xisn Keyfanın ilk Artuk oğulları tərəfindən inşa edildiyini söyləmişdir. Qalanın şimal -şərqində, Dəclənin kənarında möhtəşəm bir qaya üzərində qalmış xarabalıq bir zaman alimin fikrincə, hökmdarların yay istirahət evi olmuşdur.

Bu gün ancaq şimal-qərb tərəfdə, bəzi ev və dükanların yerləşdiyi şəhərə gəlincə, o, əvvəllər də qala divarları ilə əhatə edilməmişdi. İstəxri öz





əsərində Xisn Keyfanın xüsusi qala divarları olmayan, amma ayrıca alınmaz qalası olan bir şəhər kimi səciyyələndirir. Bununla belə xarabaların ümumi sahəsi, şəhərin genişliyi bir fikir doğurur. Burada görülən camelər içərisində diqqəti Cameyi-Riza cəlb edir. O, şəhərin şimal-şərqində, qismən uçub dağılmış bir məhəllədə yerləşib. Onun binası xeyli uçubdur. Və müəyyən qədər dəyişdirilmişdir. Amma minarəsi olduğu kimi qalıbdır. Bu came 1409-cu ildə Əyyubi sultanı tərəfindən inşa edilmişdir. Başqa bir camenin giriş qapısında qalmış kitabədə isə Əyyubi hökmdarı Qazi ben Məhəmmədin (1351-ci il) adı hək olunmuşdur. Yalnız divarlardan bəzi parçaları qalan Goş Camesi isə XIV əsrin sonu, XV əsrin əvvəllərində tikilib. Bunlardan əlavə bir sıra türbə, məscid və mədrəsə xarabalıqları mövcuddur.

Dəclə üzərindəki körpü, əlbəttə Xisn Keyfanın ən məhşur abidəsi olub. Yaqut bu körpüdən bəhs edərkən, "gəzdiyim məmləkətlərin heç birində bundan böyüyünü görmədim", deyib.

Bu körpünün kim tərəfindən inşa edildiyi dəqiq bilinməsə də, qərb alimi Taylor onu daha qədim dövrlərə aid etmiş və bu fikir etiraz doğurmuşdu. Ritter onun 1122-ci ildə Səlcuqlu Fəxrəddin tərəfindən tikildiyini göstərir. İbn Heykəlin zənninə görə o, h.t. 510-cu ildə Artuk oğullarından Qara Arslan tərəfindən tikilmişdir. Amma o ildə Qara Arslan yox, atası Davud hakimiyyətdə olmuşdur. Digər tərəfdən, o tarixin inşayamı, yaxud təmirəmi aid olduğu qəti deyilməyib. A.Qabriyelə görə körpü orta əsrlərin abidəsidir. Və o, Mərvanilər dövründə tikilməsi və Artuk oğulları dövründə təmir edilməsi ehtimalı üzərində dayanır. Alim bu körpü ilə, tədqiq etdiyi digər körpü, Batman çayı üzərində Teymur-Taş körpüsünün oxşarlığına diqqət vermiş, bu gün üzərində heç bir kitabəsinə təsadüf edilməyən bu körpünün Artuk oğullarına aid edilməsi ehtimalını qüvvətli görür. Gözlə görünən kəmərin isə sonradan, XVI əsrdə inşa edildiyini söyləyir. Xisn Keyfa körpüsünün nə zaman xarab olub uçduğu dəqiq məlum deyil. Amma o, XVI əsrin yarısınadək mövcud imiş. Katib Cələbi bu körpünün salamat vaxtından bəhs etmişdir. XVII-XVIII əsrlərdə Xisn Keyfadan keçən yolun adı çəkilmir. Səyyahlar bu yerlərdən söhbət açarkən onu yada salmayırlar.

Dəclənin sol tərəfində, bir təpə üzərindəki binalar arasında qismən xarabaya dönmüş İmam Abdulla təkkəsi və Uzun Həsənin oğlu Zeynal bəyin ustuvanı və türbəsi qalmaqdadır.

M.Streskin "Mesopotamiya mağara sakinlərinin baş şəhəri" adlandırdığı Xisn Keyfada mağara məskənləri və qaya məzarlarını da qeyd etməyə dəyər. Qaya evlərinin çoxu bəsit və tək otaqlı olubdur.

Yalnız Lehmani-haqut ikimərtəbəli bir qaya evindən söhbət açmışdır.

A.Qabryel bu evləri çox qədim dövrlərə aid etmişdir və bu fikir, həqiqi Xisn Keyfa adının mənşəyi də uzun zaman alimləri düşündürmüş və onun izahı bir neçə fərziyyə doğurmuşdur. Keyfa adının siryan dilində "qaya" mənasını verdiyi "kifa" sözündən yarandığı təxmin edilir. Burdan çıxış olunsa və onun siryan qaynaqlarında Xisn Kifa kimi verildiyi nəzərə alınsa, sami dillərdən gəlmə Xizi Keyfa, bizim dilə "Qaya qalası" kimi tərcümə edilə bilər.

## QAYSERİ



*Qayseri*

Şəhərin yaranma tarixini bizim eranın 17-ci ili ilə bağlayırlar. Roma imperatoru Tiğeri Kappadokiya və ətrafını inzibati rayona çevirərkən bu şəhəri saldırır və adını Keazeriya qoydurur. Ərəb müəllifləri isə şəhərin adını ərəbləşdirərək Qaysəriyyə etmişlər. Ərəb variantı osmanlı dövlətinin son dövrlərinədək rəsmi ad kimi Qayseri şəhərini tanıtdırmışdır.

Daxili Anadoluda yerləşən Qayseri özünün tarixi və abidələri ilə zəngin olan bir yerdir. XIX əsrdə bu şəhəri gəzmiş qərb səyyah və alimləri abidələr haqqında az-çox məlumat vermişlər. Türkiyəli alim Xəlil Edhəm də bu abidələrin bəzisini tədqiq etmişdir. Amma onların yaxşı mütəxəssisi sayılan A. Qabriyel abidələri arxeoloji və memarlıq baxımından öyrənmiş, planlarını hazırlamışdır.

Alimlərin fikri belədir ki, Qayseri abidələrinin az- çox qalanı əsasən türk dövrünün məhsullarıdır. Bizans dövründən qalma qala divarları həddən ziyadə uçuq olub, bəzi yerləri isə türk dövründəki təmir və yenidən qurmadan sonra bərpa edilib. Türk alimləri belə bir iddianı əsassız sayır ki, mövcud camelərin bəzisi qədim kilsələr əsasında inşa edilmişdir. Qədim abidələrin belə az gəlib çatması ilk növgədə şəhəri bir neçə dəfə alt-üst etmiş zəlzələlər ilə bağlıdır.





Türk dövrünün ən qədim və layiqli nümunələri XIIvə XIII əsrlərdə, Daneşməndilər və Səlcuqlar tərəfindən inşa edilmişdir. Amma o abidələrin bəziləri baxımsızlıq üzündən dağılmış daxili tərtibatı çox pıs hala düşmüş, öz əvvəlki gözəlliklərini itirmişlər. Mədrəsələrin və türbələrin çoxu uçub dağılmaq üzrədir. Anadoludakı memarlıq abidələri ümumən götürülsə, Qayseridəkilər həcmcə Konya və Sivas abidələrinə nisbətən kiçikdir. Amma onların əhəmiyyəti böyükdür.

Türk arxioloqu Xəlil Əhmədin əldə etdiyi kitabəyə görə, Qayserinin ən qədim abidəsi 1193- cü ildə inşa edilmiş Xoca Həsən mədrəsəsi olub. Hazıra gəlib çatanı isə Daneşməndilər dövründə tikilən Ulu Camedir. Bəzi qaynaqlarda Sultan Camesi adı ilə tanınan bu abidənin iç sahəsi 35x50 m qədərdir və böyük camelərdən sayılır. Ulu Camenin qədim kilsə yerində inşa edilməsi fikri onun daxili sütunlarının bəzisinin daha qədim zamanlardan qalması faktı ilə izah olunur. Camenin cənub tərəfində Məlik Qazi mədrəsəsi və onun daxilində adı çəkilən hökmdara aid olduğu güman edilən, amma kitabəsi olmayan bir türbə vardır. Xəlil Əhmədə görə, Came Daneşməndilərdən olan Məlik Məhəmməd Qazi tərəfindən XII əsrin ikinci yarısında, A.Qabriyelə görə isə XII əsrin birinci yarısında inşa edilmişdir. Hazırda mövcud kitabəyə görə XIII əsrin başlanğıcında o, Qiyasəddin I Keyxosrov və Daneşməndi əmirlərindən olmuş Müzəffərəddin Mahmud ben Yaqubazan tərəfindən təmir edilmişdir. Daxilində və qapılarında təzyinatı olmayan bu came hal-hazırda 1 m-dən çox yerə batmışdır.



*Qayseri*

Camenin qərb tərəfindəki minarə sonradan ona əlavə edilmişdir. Və o, Qayseri minarələrinin ən qədimi sayılır. Ulu came daha sonralar, yəni 1723-cü ildə Əhməd zamanında təmir edilmişdir. Onun yanında III Səlimin rəisul-küttablarından Rəşid Əfəndi tərəfindən vəqf edilmiş bir kitabxana olub.

Qayserinin qədim camelərin-

dən biri də Kuluk Camedir. O, h.t. YI əsrdə inşa olunduğu güman edilir. Təmiri isə adı çəkilən Müzəffərəddin Mahmudun qızı Atsız Elmi Xatın tərəfindən 1212-ci ildə icra edilib. Cameyə bu günkü adı1335-ci ildə zəlzələdən sonra, bərpa işləri aparmış Kuluk Şəmsəddin ben Alaməddinin şərəfinə verilmişdir.

Qayserinin abidələri içərisində Cifte-Mədərələr, Xiand Xatun, Hacı Qılınc və Şahabiyyə mədrəsələri xüsusi yer tutur. Cifte-Mədrəsələr şəhərin şimal tərəfində, qala hasarının dalında, bir-birinə bitişik iki binadan ibarətdir. Onların birinə Qiyasiyyə, digərinə isə Şifaiyyə deyirlər. Bu mədrəsələr 1206-cı ildə Qiyasəddin I Keyxosrov tərəfindən mədrəsə və xəstəxana kimi inşa edilmişdir. Xiand Xatun mədrəsəsi əlavə olaraq mədrəsə, came, türbə, hamam və başqa imarətlər içərisində inşa olunubdur. İç qalanın şərqində və qala hasarlarının dışında olan bu mədrəsə Əlәddin I Keyqubadın zövcəsi Mah Peri Sultan (Xiand Xatun) tərəfindən və oğlu Qiyasəddin Keyxosrovun zamanında(1238-ci il) inşa edilmişdir. Mədrəsə ilə camenin arasında yerləşən türbənin fasadı fövqəladə dərəcədə bəzəkli olub, içərisində Mah Pəri Sultana və qızı Səlcuq Xatuna aid olunan qəbirlər vardır. Şəhərin şimalında qala divarlarının xaricində Hacı Qılınc Camesi və mədrəsəsi yerləşir. İzzədin II Keykavusun vaxtında (1250 il) inşa edilmiş bu bir-birinə bitişik binanın hər ikisinin giriş hissəsi böyük bir sənətkarlıqla işlənmişdir. Əbulqasım ben Tusi tərəfindən inşa edilən Hacı Qılınc Camesinin nə üçün belə adlandığı məlum deyil. Ehtimal olunur ki, o şəxs binanın yenidən təmir etdirəndir. Bu Came XYI əsrdə Qayseri Mirlivasi Hüseyn bəy tərəfindən təmir etdirilmiş, amma baxımsızlıq üzündən sonralar dağıntıya məruz qalmışdır. Nəhayət, Şahabiyyə mədrəsəsi 1267-ci ildə məşhur Səlcuq vəziri Şahib Fəxrəddin Əli (Şahib Ata) tərəfindən inşa etdirilmişdir. O, uçulsa da fasad divarlarının ziynəti bu abidəni ən yaxşı Səlcuq abidələrindən saymağa imkan verir.

Səlcuq dövründən sonra gələn Anadolu bəylikləri dövründə də bir sıra abidələr yaradılmışdır. Onlardan biri şəhərin cənub-şərqində bir təpə üzərində ucaldılmış Köşk Mədrəsə deyilən abidədir. Uzaqdan qalanı xatırladan bu binanın orta hissəsində səkkizguşəli bir türbə ucalmaqdadır. Salamat qalmış kitabələrdən məlum olur ki, türbə şahzadələrə məxsus məqbərə olmuşdur. Ondan əlavə şəhərin qala divarları içərisində bir uçuq bina vardır. O, Xatuniyyə mədrəsəsi adlanır. Və 1432-ci ildə Malik al-Nazir Məhəmməd tərəfindən Zulqadir oğulları zamanında inşa etdirilmişdir.

Osmanlı dövrünün ən qədim abidəsi I Mehmet tərəfindən qala içində qədim bir məscidin yerində tikilmiş came olmuşdur. Şəhərin ən məhşur osmanlı abidəsi isə "Qurşunlu" adı ilə tanınan camedir.





XYI əsrdə İstanbulda və Anadoluda buna bənzər camelər çox tikilərdi. O, dördbucaq şəkilli, tək minarəli olub qala divarlarından xaricdə 1585-ci ildə Əhməd Paşa tərəfindən inşa etdirilib. Bu camenin Qayseridə böyük memar Sinan tərəfindən yaradıldığı tarixi fakdır. Evliya Çəlibi Qayseridə böyük memar tərəfindən inşa olunmuş binalar arasında Hacı Camesindən başqa Osman Paşa və Lələ Paşa camelərini də saymışdır. Lakin başqa müəlliflərin bu haqda fikri başqadır. Ümumiyyətlə Evliya Çələbinin Qayseridə gördüyü və qeydə aldığı abidələrin bəzisinin adı sonradan dəyişdirildiyi üçün dolaşıqlıq yaradıb.

Qayserinin ən gözəl və məşhur xanələri, hamam və imarətləri əsasən osmanlı dövrünün məhsullarıdır. Onlardan ən məşhurları XYIII əsrdə yaradılmış Vəzir xanəsi və Pamuk Xanəsidir. Hamamlardan Qadı hamamını göstərmək olar. Qayserinin bazar binaları isə başqa Anadolu bazarlarından ciddi şəkildə fərqlənmədiyi üçün böyük diqqət tələb etmir.

# DİVRİCİ

Divrici Sivasın ən qədim şəhərlərindən sayılır. Onun yaranma tarixi haqqında məlumat yoxdur. Amma bir rəvayətdə şəhərin salınması belə nəql olunur: Məşhur Roma sərkərdəsi Pompey Mitridatla apardığı müharibələrdə qələbə çalır və Sivasda Nikopolis inşa etdirir. Sonradan onun yerində hazırkı şəhər əmələ gəlmişdir. Lakin tarixi qaynaqlar bu rəvayətin yanlış olduğunu göstərir. Çünki Pompeyin saldırdığı Nikopolis xeyli aralıda müəyyən olunmuşdur.

Bizans dövründə bu şəhər Təprike adlandırmışdır və alimlər belə güman edirlər ki, onun yerində daha qədimlərdə təxminən buna bənzər adda bir qəsəbə mövcud idi. İbn Bibinin "Səlcuqnamə" kitabında şəhər Dəfriki, başqa mənbələrdə isə gah Dovrini, gah da Davriqi adlanmışdır.

Divrici yeddinci əsrin başlanğıcında sasanilərin hücumuna məruz qalmışdır. Bizans sərkərdəsi Heraklit onları geri oturtsa da, bir müddət sonra ərəblərin hücumu başlanmışdır. Ərəb mənbələri şəhərə Əl-Bayalığa adını veriblər və bu da Divricida pavlikyanların yaşadığından irəli gəlmişdir. Pavlikyanlar müəyyən bir məzhəbə qulluq edən əhali və onun yaratdığı icma olub. Bu əhali xristian dinində olsa da, bəzən müsəlman ərəblərlə ittifaqa girərək Bizansa qarşı, bəzənsə əksinə hərəkətetmişdir.

Türklərin Divriciyə gəlmə tarixi də dəqiq müəyyən olunmayıb. Belə güman edilir ki, Divrici öz ətraf rayonları ilə birlikdə məşhur səlcuq rəhbəri

Alp Arslanın Malazqirt qələbəsindən sonra türklərin əlinə keçmişdir. Nəticədə Şərqi Anadolu türk əmirləri arasında bölünmüş və Divrici rayonu əmir Menkuçükün payına düşmüşdür. Divricinin bu günə qədər gəlib çatmış abidələrinin yaradılmasında bu sülalənin böyük rolu olmuşdur.

Sonra 1276-cı ildə, Hülakünün oğlu, Azərbaycan Elxanilərindən olmuş Abaqa Misir məmluklarına qarşı etdiyi məşhur Elbistan səfəri zamanı Divriciyə soxulmuş və səlcuqlar hakimiyyətini devirmişdir. Sonra bir müddət şəhərin adı az-az çəkilir. Bir neçə əsr ərzində şəhərin taleyi Misir məmluklarının, gah da qonşularının hücumları ilə bağlı olub.

XY əsrin əvvəllərində birinci Sultan Səlimin hakimiyyəti dövründə Osmanlı dövlətinin tərkibinə qatılmışdır. O, əvvəlcə bir sancaq mərkəzinə çevrilmişdir.

1649-cu ildə Divricidə səyahətdə olmuş məşhur alim Evliya Çələbi yazmışdır ki, şəhərin möhkəm qalası varmış. Evləri, bağ-bağatı, üstü örtülü zəngin bazarı, çoxlu məscidi, karvansara mədrəsə və hamamları olub.

Divricini görüb gəzmiş səyyah və alimlər şəhərin abadlığından həmişə söhbət açmışlar. Əsrin əvvəllərində onlar tədqiq edilmişdir. Son dövrlərdə isə alim A.Qabriyelin xidmətləri qeyd olunmalıdır.



*Divirçi – Ulu Came*

Deyildiyi kimi Divricinin fəxri sayılan başlıca abidələr 1180-1252-ci illərdə hakimiyyətdə olmuş Məngüçük sülaləsi tərəfindən yaradılmışdır. Şəhərdəki bir təpəlikdə yüksəldilən daş hasarın ömrü çox qədimdən





başlansa da, orta əsrlərdə yenidən qurulmuş və böyüdülmüşdür. XYII əsrdə həmin hasarı görmüş E. Çələbi yazmışdır ki, hasarın ətrafında üç yüzə yaxın ev, anbar və s. məişət obyekti mövcud olmuşdur. Hasarın ortasında tikilmiş qüllə və ya qaladan bu günümüzə ancaq bir divar parçası gəlib çatmışdır. Hasarın dörd qapısına aid olunan və üzərində ardıcıl olaraq 1236, 1237, 1243 və 1252 tarixləri həkk olunmuş kitabələr saxlanmaqdadır. Bu hasarın daxilində Məngüçük əmiri ilə Şahənşah Süleyman tərəfindən 1181-ci ildə inşa etdirilən bir məscid vardır. Qırmızı daşdan tikilmiş, yüksək zövq və qabiliyyətlə inşa edilmiş bu məscidin daxili tərtibatına bərk zərər dəymiş və çox yeri uçmuşdur. Minarəsinin isə yalnız təməli qalmışdır. Əmir Şahənşahın məzarı isə qalanın yaxınlığında, 1196-cı ildə tikildiyi göstərilən bir türbədədir.



*Divirçi – Dəruluş şəfa*

Divricinin ən tanınmış abidəsi, Anadolunun ən qiymətli türk memarlıq incilərindən sayılan Ulu Camedir. Bu abidə başqa qədim tikililər kimi şəhərin kənar hissəsində mövcuddur. Ulu Came Məngüçük əmiri Əhməd şah Süleyman tərəfindən yaradılmışdır. Abidənin memarı Ahlatlı Xürrəmşah adlı bir şəxs sayılır. Camenin inşa tarixi kimi 1229-cu il qəbul edilmişdir. Tarix həkk olunmuş kitabədə Əhməd şahın tabe olduğu Səlcuq hökmdarı Ələddin I Keyqubadın adı da vardır. Çox güman ki, bu səbəbdən Evliya

Çələbi özünün məşhur "Səyahətnamə" adlı kitabında abidənin yaradıcısı kimi səhvən səlcuq hökmdarının adını göstərmişdir. Amma başqa bir tarixi əsərdə "Cahannüma"da Ulu Came digər adla Əhməd Paşa Camesi kimi təqdim edilmişdir. Camenin yaradılmasında başlıca rol oynamış Əhməd şah və anası Fatimə xatun həm Divricidə, həm də ətraf rayonlarda çoxlu quruculuq işləri görmüşdür. Gözəl kirəc daşından tikilən bu camenin ətrafında yardımçı binalar da vardır. Onlardan biri Turan Məlik Dəruşşəfa (müalicəxana) binasıdır və o, 64x32 ölçülərə malik bir meydana bitişikdir. Bu ümumi kompleks içərisində Camenin tutduğu sahə beşin üçə nisbətindədir. Ulu came sonradan bir neçə dəfə təmir olunmuş, yıxılmış kəmərlər və gümbəzlər yenidən qurulmuş, istinad divarları hörülmüşdür. Bu işlər sultan Süleyman Qanuni dövründə başlanmış, XYIII əsrdə davam etdirilmiş və sonralar yerinə yetirilmişdir. Nəticədə Came müəyyən qədər xarab olmaqdan qurtarmış, fəaliyyətdən qalmamış və dövrümüzə qədər salamat gəlib çatmışdır. Binanın şimal səmtinin giriş qapısı zəngin təxəyyülün məhsulu kimi diqqəti cəlb edir. İslam incəsənəti üzrə mütəxəssislərin fikrincə o, islam sənətinin ən gözəl nümunələrindən sayılır. Bundan əlavə Camenin gözəl minarəsi və üzərində 1241-ci il tarixi həkk olunmuş bir minbəri də yüksək qiymətləndirilir.

## ƏRZURUM

Türkiyə tarixinə dair məlumatlar göstərir ki, şəhər bizanslıla tərəfindən 415-422-ci illərdə, Şərqdən iranlıların hücumlarının qarşısını almaq üçün bir məntəqə kimi salınıb. Bizanslılar onu II Teodosiopolis adlandırıblar. Həmin vaxtdan etibarən yüz ildən çox bir müddətdə şəhər yerləşən ərazilərdə bir neçə dəfə Bizans-İran müharibələri baş vermişdir.

Xəlifə Osmanın dövründə, 651-ci ildə Harib ben Mustafanın komandanlığı altında bir ərəb-islam ordusu ilk dəfə olaraq Anadolunun şərqinə də daxil olmuşdu. Sonradan şərqi Anadolu ilə birlikdə Ərzurum da bu dəfə Bizans-İslam müharibələrinin şahidi olmuşdur. Şəhər həm də Şərqi Anadoluda yerləşən ərəb qoşunlarının istinadgahı vəzifəsini icra etmişdir.

X əsr müəllifləri artıq şəhərin ticarət mərkəzi olduğunu söyləyirlər. XI əsrdə yaşamış Bizans tarixçisi Gedrenus şəhərin zəngin və diqqətəlayiq olduğunu göstərmişdir. Şəhərdə Suriyalı, erməni və.b. xalqların nümayəndələri yaşamışdır. Məşhur erməni Baqrat nəslindən də burda mülkləri olanlar varmış





Bizans tarixçilərinin(erməni mənbələrinə əsasən) verdiyi məlumata görə 1049-cu ildə türklər Ərzurumun yaxınlığındakı Erzeni-Rum şəhərini zəbt edir. Qanlı vuruşma nəticəsində çoxlu insan tələfatı olur və şəhər başdan - başa yanır. Sağ qalan əhali Teodosiopolisə keçməyə məcbur olmuşdur. Bundan sonra həmin şəhər Erzeni-Rum və daha sadəcə Ərzurum adlandırılmışdır.



*Ərzurum – Ciftə minarə (Xatuniyyə) məqbərəsi*

1080-ci ildə bir neçə müharibədən sonra türk orduları Ərzurumla birlikdə şərqi Anadolunu fəth edirlər və tarixdə Səltuq oğulları adı ilə tanınan bir əmirlik yaradılır ki, onun da mərkəzi şəhəri Ərzurum olur. Əmirliyin yaradıcısı Əmir Səltukun atası Əbul- Qasım bu müharibənin fəal iştirakçısı olmuşdur.

Osmanlı dövründə şəhər Anadoludan və Qara dənizdən şərqi-İran və Azərbaycana gedən böyük ticarət yolu üzərində başlıca mərkəz kimi fəaliyyət göstərmişdir. Osmanlı dövlətinin şərq cəbhəsində apardığı müharibələrin dayaq məntəqəsi olduğu üçün şəhərin tarixində ən çox hərbi yürüşlər, müharibə səhnələri üstünlük təşkil edir. Tarixi abidələr haqqında məlumat yox dərəcəsindədir.

## AMASİYA

Amasiya Şimali Anadoluda Yaşıl İrmak çayı üzərində salınan qədim bir şəhərdir. Amasiyaya yaxın dağlardan biri Fərhad dağı adlanır və o, məşhur Fərhad və Şirin əfsanəsi ilə bağlıdır. Hətta Yerli əhalidə belə bir təsəvvür vardı ki, şəhərin əsasını memar Fərhad qoymuşdur. Tozanlı çayının məcrasını külüngü ilə qayaları çaparaq dəyişmiş, şəhərə münasib bir səmtə yönəltmişdir. Qədim su kəmərlərini də Fərhadın adı ilə bağlayırlar. Hal hazırda yeri qalan saraya da xalq "İsfəndiyar sarayı" deyir. Şəhərin

ətrafındakı qala xarabalıqları var və tarixi məlumatlar onun çox qədimdə yaşayış yeri kimi mövcud olmasını göstərir. O, bir vaxtlar Pontiya çarlığının mərkəzi olmuş, sonra Roma imperiyasının əyalət mərkəzinə çevrilmişdir. İmperator Diospot Amasiyanı məşhur inzibati və dini mərkəz etmişdir. VIII əsrdən etibarən Bizans oranı özünün həm də hərbi- strateji dayağına çevirmişdir. Bu dövrdə Amasiyanın abidələri imperator Yustinian tərəfindən təmir edilmiqşdir. 712-ci ildə şəhər və ətrafı qısa bir müddətə ərəblərin əlinə keçdisə, bizanslılar onu geri qaytara bildilər.

Bu şəhərin ən yaxşı təsvirini e.ə. I əsrində Amasiyada dünyaya göz açmış böyük yunan tarixçisi Strabon vermişdir. Alimin məlumatına görə İrizə (Yaşıl İrmağın qədim adı) döğru şaquli surətdə enən qayalar üzərində Amasiyanın alınmaz qalası olub. Bu qaladan ayrılan iki hasar çaya sarı enərmiş, çayın sahili boyunca uzanaraq şəhəri qoruyarmış. Strabon yazmışdır ki, şəhərdən o biri sol sahilə iki körpü uzanarmış və əks tərəfdə də yaşayış məhəllələri varmış. Deyildiyinə görə, şəhərin bu cür planı orta əsrdərdə də dəyişilməmişdi. Amma qala divarları arasındakı yer kifayət etmədikdə şəhər genişlənən zaman divarlar xaricində məhəllələr meydana gəlmişdir. Yaşıl İrmaq üzərində salınan körpülərin sayı da çoxalmışdır.

XYIII əsrdə bu şəhəri gəzmiş Evliya Çələbi Amasiyada 48 islam və 7 xristian məhəlləsi olduğunu göstərir. Şəhərdə bir neçə came, mədrəsə, təkkə, imarət, xanə və hamam olduğunu da qeyd edir. Amasiya o dövrdə Anadolunun başlıca fikir mərkəzlərindən biri olmuşdur. Burada həm elm, həm də sufizm inkişaf etmişdir. Katib Çələbi isə Amasiyanın "Bağdadi-Əl-Rum", yəni Anadolu Bağdadi adlandırıldığını da qeyd edir. Başqa müəlliflər onu "Mədinət-əl hükamə" yəni müdriklər şəhəri adlandırırdar. Bəzi əsərlərdə isə o, "Anadolu şəhərlərinin incisi" kimi fəxri adla təqdim edilir. Evliya Çələbi Amasiyanı gördükdən sonra etdiyi təsvir Strabonun verdiyi təsvirlə çox uyuşur və bu da şəhərin ümumi planındakı nisbi sabitliyi göstərir. Ondan əlavə Çələbi dağın üstündəki qaladan və çay boyu uzanan divarlardan söz açmışdır. Şəhərdə baş vermiş plan dəyişikliyi orta əsrlərə aid edilir. A.Qabriel Samsun yolu boyunca şəhərin genişləndiyini tədqiq etmiş və belə bir nəticəyə gəlmişdir ki, əsas inkişaf Amasiya tarixinin türk dövrü ilə bağlı olmuşdur.

Amasiyanın türklər tərəfindən işğalını dəqiq təsvir edən tarixi qaynaq yoxdur. Amma, bununla belə şəhərin Məlik Daneşmənd Qazi tərəfindən əvvəlcə mühasirə, sonra isə zəbt edildiyi müəyyən edilmişdir. Artıq XI əsrin əvvəllərində şəhər Daneşməndilər sülaləsinin hakimiyyətinə tabe olmuşdu. Bu vəziyyət Daneşməndi torpaqlarının II Qılıc Arslanın zamanında Konya sultanlığına birləşdirilməsinədək davam etmişdir.





Sonradan, Anadolunun monqollar tərəfindən fəth edilməsi də Amasiyanın tərəqqisini zəiflətməyib. Osmanlı dövrünün padşahları və şahzadələri şəhərə xüsusi diqqət veriblər. II Bəyazid bu şəhərdə vali olarkən abadlıq işləri daha da genişlənmişdir. Qanuni Sultan Süleyman bu şəhərdə I Ferdinandın holland elçisini qəbul etmişdi. Səlcuqlar dövründə də elm mərkəzi olan Amasiya öz əhəmiyyətini osmanlı dövründə daha da artırdı. O tarixçilərin qeyd etdiyi kimi Anadolunun ən böyük beş mədəni mərkəzlərindən biri olmuşdur. II Sultan Murad və I Sultan Səlim məhz Amasiyada doğulmuşdur. Şəhərdə XY və XYI əsrlərdə yetişən məhşur şəxsiyyətlər bunlardır:

Tarixçi Şükürullah, Xətat Şeyxzadə Həmdullah, böyük ədib Tağı bəy və oğulları, Səfər və Sədi Çələbilər, Zənbilli Əli Əfəndi, məşhur təbib Sabunçuzadə Şərafəddin və başqaları.

Şəhərdəki mövcud olan abidələr çoxdur və müxtəlif tarixi mərhələləri əks etdirir. Onların ən qədimi şəhər kənarındakı qayalıqlarda yerləşən və Pontiya krallarının dəfn olduqları məzarlardır. O məzarlar beş dənədir. Əlavə olaraq öz qədim formasını saxlamış digər məzarlar da vardır. Səlcuq dövrünün və eləcə də Bizans hakimiyyəti zamanının abidələri də salamat qalmayıb. Onların demək olar ki, hamısı şəhərdə o dövrdə baş verən zəlzələlər nəticəsində uçmuş və dağılmışdır. Kral sarayının bünövrəsi qalanın yerləşdiyi təpənin ortasında durmaqdadır. Müxtəlif dövrlərdə də qədim ellin üslubunda qurulan, təməllər üzərində inşa edilən qala divarları həm də təmirdən çıxmışdır. Evliya Çələbinin haqqında danışdığı aşağı qala indi mövcud olsa da, çay boyunca uzanan divarlar, əksinə uçub dağılmışdır.

Amasiyanın ellin dövründən qalmış olan qalası əvvəlcə səlcuqlar, sonra isə osmanlılar tərəfindən yenidən qurulmuşdur. Evliya Çələbi bu qalanın təsvirini verərkən onun beşguşəli olduğunu, içində qədim üslubda tikilən bir saray olduğunu, ərzaq anbarı və səmniclər gördüyünü, amma bazara rast gəlmədiyini yazmışdır. O dövrdə qalada, həmçinin İldırım Bayazid tərəfindən tikilən bir came və cəhənnəm quyusuna bənzəyən "aqrabal-ğaraib" adlı bir həbsxana varmış. Düşünüldüyü kimi qala XYIII əsrdən etibarən baxımsız qalmışdır. İndi xarabaları görünür. Qalanın içində 1485-ci ildə Qara Mehmet Ağa tərəfindən inşa edilmiş bir məktəblə ayrıca bir imarət, bir təkkə və iki hamam varmış. İndi onların hamısı xarabaya dönüb. Bu gün xalqın Burmalı minarəli Came, yaxud sadəcə olaraq Burmalı Minarə dediyi came Səlcuq dövrünün yadigarıdır. Evliya Çələbinin haqqında danışdığı Məhkəmə Camesi həmin came-güman olunur. Tarixçi Nizaməddin yazmışdır ki, Came 1591-ci ildə zəlzələ nəticəsində ziyan görmüş və 1602-ci ildə yanmışdır. Yenidən təmir edilərək əlavə bir minarə də qurulmuşdur.

1731-ci ildə təkrar yanan Came, yenidən təmir edilmiş və hazırkı burmalı minarə də o zaman əlavə olunmuşdur. Camenin fasadına vurulmuş kitabə göstərir ki, o, 1237-1247-ci illərdə Qiyasəddin II Keyxosrovun dövründə tikilib tamamlanmışdır. Yenə də səlcuq dövründən qalmış Göy mədrəsə, həm came, həm də mədrəsə olaraq məşhurdur. O da Burmalı Came kimi baxımsız qalmışdır. Mədrəsənin yanında bir türbə vardır. Həm mədrəsə, həm də türbə Amasiyanın o dövrdəki valisi Seyfəddin Təmirtaş tərəfindən tikilmişdir. Türbənin üstündəki kitabə inşa tarixini 1267-ci il göstərir.

Osmanlı dövrünün abidələrindən Bayazid Paşa Camesini (1419-cu il) Yurquc Paşa Camesini (1430-cu il) Sultan Bəyazid camesini (1486-cı il), Mehmet Paşa Camesini (1486-cı il) Pazar Camesini (inşa tarixi bilinmir) ilk növbədə göstərmək olar.

Amasiyada adları çəkilən abidələrdən əlavə bir Daruşşafa binası (1488-ci il) və Kiçik Ağa mədrəsəsi vardır. Daruşşafada ağıl xəstəlikləri daxil olmaqla bir çox xəstəliklər müalicə olunurdu. Həmçinin cərrahiyyə əməliyyatları da aparılırdı. Mədrəsə planına görə inşa edilmiş binanın fəsadı və böyük giriş qapısı yaxşı görkəmə malikdir. Daruşşafanın 1308-ci ildə, Sultan Mehmet dövründə Abdullanın oğlu Anbər tərəfindən inşa olunduğu kitabəsində yazılmışdır.

Amasiyadakı Xəlifət Qazi türbəsi (1225-ci il) Təmirtaş türbəsi (1278-ci il) Sultan Məsudə aid edilən türbə (tarixi bəlli deyil) səlcuqlar dövründən qalmışdır. Şahkəlli türbəsi (1381-ci il), Şahzadə türbəsi osmanlı dövründə tikilmişdir.

Bunlardan əlavə osmanlı şahzadələrinin Yaşıl İrmağın sağ sahilində bir saray tikdirdikləri məlumdur. Hazırda onun xarabaları qalmaqdadır. Bəylər sarayı deyilən bu sarayda bir harəm dairəsi (qadınlar bölməsi), bir salamlıq (qəbul bölməsi) ağalara məxsus üç böyük bölmə, iki hamam, iki mətbəx və hər birində mərmər bir hovuz olan iki böyük baxça vardı. Sarayın və yardımçı binaların ətrafına iri hündür hasar çəkilmişdi. Onlar 1734-cü ildə və 1825-ci ildə baş vermiş zəlzələlər nəticəsində tamam dağılmışdır. 1939-cu ildəki zəlzələ də çoxlu abidəyə böyük ziyan vurmuşdu.

## ANKARA

Türkiyə Respublikasının paytaxtı Ankara Anadolunun şimal qərbində Sakariya çayının kənarında yerləşir. Onun yeri ən qədim insan məskənlərindən biri olub. Şəhərin ətrafında paleolit və neolit dövrlərinə aid izlər aşkar





edilmişdir. Ankara və ətraf rayonları xetlərin, frakyialıların, qallo-romanların hakimiyyəti altında olmuşdur.

Ankaranı şərqlə bağlayan ən maraqlı rəvayətlərindən biri budur. İslamdan əvvəlki dövrün ən məhşur ərəb şairi və bəzi mütəxəssislərin fikrincə Məcnunun prototipi sayılan İmrul-Qeys Bizans imperatoru Yustiniana yardım üçün müraciət edir və Konstantinopola gəlir. Şair cənubi Ərəbistandakı məşhur bir qəbilə başçısının oğlu idi. Düşmənləri isə atasının taxtını ələ keçirmişdilər. Bizansda olarkən şairlə imperatorun qızı arasında eşqbazlıq olur. Bu məsələdən xəbər tutan Yustinian şairi aldadır və geri vətəninə yola salır. Qisası da bu olur ki, İmrul- Qeysə parçasında zəhər olan qiymətli və gözəl paltar bəxşiş edir. Həmin paltarı geyinən və yardım alacağına ümid bəsləyən şair Ankara yaxınlığında, vətəninə qayıdan baş, zəhərdən ölür və orda dəfn olunur. Bu məşhur rəvayət tarixi həqiqət sujeti əsasında qurulmuşsa, şairin ölümündə başqa səbəblər də ola bilər. Hər nə olursa olsun, İmrul-Qeysin xalq arasında geniş yayılmış bu rəvayətinə Ankaradakı ona aid edilən türbəni də əlavə etməliyik. Həmin türbə Teysur təpəsi adlanan yerdədir. Şairin vəfatı isə 540-cı ilə təsadüf edir.



*Türkiyə – Kappadokiya*

Ankaranın sonrakı tarixində 620-ci il böyük iz qoyub. Həmin vaxt Sasani İranının qoşunları Ankara və ətraflarını zəbt edir. Hökmdarlardan əvvəlcə Şapur, sonra isə II Xosrov Qərbi Anadoluya böyük diqqət versələr də bizanslılar yenidən onları geri oturdurlar. Ərəblərlə bizanslıların Ankara və ətraf rayonlardakı vuruşları 646-cı ildən sonra XI əsrin ortalarına qədər davam etmiş, şəhər bir neçə dəfə ərəblərin əlinə keçmiş və geri alınmış, dağıdılmış və yenidən qurulmuşdur. Bu vuruşlarda şəhərin qala divarları başlıca əməliyyat mövqeyi kimi təqdim edilir. Onlar təkrar-təkrar dağıdılmış və yenidən təmir edilmişdir.

1071-ci ildə səlcuq türklərinin Malazkirt yaxınlığında Bizans ordusunu

məğlubiyyətə uğratması, bütün Anadolu kimi Ankaranın da taleyini həll etdi. Ankara bundan sonra səlcuq dövlətinə bağlandı. Sonra şəhər yerləşən rayonlar səlib yürüşlərinin şahidi oldu. Amma uzun tarixi dövrlər yaşamış, saysız hücumlar görmüş Ankara 1402-ci ildəki müharibəni heç vaxt unuda bilməz. Məhz o ildə Ankarada o dövrün ən qüvvətli orduları qarşılaşmışdı. Bir tərəfdə Osmanlı sultanı İldırım Bəyazidin qoşunu durmuşdu, o biri tərəfdə dünya Fatehi Topal Teymurun. Teymurləngin qələbəsi ilə bitən bu müharibədən sonra İldırım Bəyazid oğulları Musa və Mustafa ilə əsir alınmışdı və Ankara qalasında saxlanmışdı.

Şəhərin osmanlı dovrü haqqında çoxlu səyyahlar soz söyləmişdir. XII əsrdə Anadolunu gəzmiş fransız səyyahı R.Bellon, almaniyalı diplomant Fon Busberq Ankaradan danışmışlar. XVII əsrdə fransız səyyahı Taverniye, XVIII əsrdə Tournefort bu şəhərdə olmuşlar. XIX əsrdə arxeoloq alimlərdən Hamilton, Ayisfort, Taxier, Roycolat və b. Ankara və ətraf ərazilərdə işlər görmüş, şəhərin planını tərtib etmişlər.

Ankara hazırda qədim və yeni şəhərdən ibarətdir. Qədim Ankara (türkcə əski Ankara) artıq mövcud olmayan qala divarlarının daxilində, dar və dolambac küçələri olan şəhərdir. Qədimdəki yanğınlar həmən şəhərə çoxlu ziyan vurmuşdur. Bu hissə də öz növbəsində iki yerə bölünür. Birincisi, qala təpəsinin yüksək hissəsi (ona qala içi deyirlər), ikincisi isə bu təpənin orta yamaclarından başlayaraq çökəkliyə doğru salınmış məhəlləsidir.

Ankara qalası təpənin yüksək hissəsində tikilən iç qaladan (buna şimal, qərb və cənubdan əhatə edən daş qala daxildir) ibarətdir. İyirmiyə yaxın qülləsindən bizim dövrümüzədək on beşi və ara divarlarının böyük bir hissəsi az-çox dağılmamış gəlib çatmışdır. Onun xaricə sarı iki darvazası olub. Böyük bir hissəsini (təxminən 50 min kv. m.) əhatə edən iç qala plan etibarilə dördbucaq formasındadır. Xarici qala divarlarının bir hissəsi eyni zamanda iç qalanın şimal hissəsini təşkil edir. İç qalanın divarları özülündə mərmər və bazalt qoyulmuş şəkildə qurulmuşdur. Onun bir çox hissəsi uçsa da tikintisinin təsəvvürü və ölçüləri maraq doğurur. Qala, ümumiyyətlə 12-14 m yüksəklikdədir, divarlarsa beşguşəli 42 qülləyə malikdir. Bunlardan 19 qüllə qalanın qərb səmtindədir və orada Şərq qalası adlı bir bürc də vardır. Şimal və Şərq guşəsi yanında çox hündür bir bürc yaxındakı Hatib çayının səviyyəsindən 110 m hündürlükdədir. Yüksək olan ağ qala diqqəti cəlb edir. İç qalanın qala divarı və bürcləri, xarici qala kimi Bizans inşaatı üslubunda qurulmuşdur. Və sonradan dəfələrlə təmir edilərək bəzən dəyişdirilmişdir. Səlcuqlar dövründə şimalda Ağ qalanın bir guşəsində, Hadib çayı vadisinə sarı yüksələn ikinci bir divar inşa edilmişdir. VIII və IX əsrlər arasında, ardı-





arası kəsilməyən Bizans- ərəb müharibələri dövründə, qalada təmir işləri aparan bizanslılar əvvəlki dövrlərdən qalma Roma-Yunan abidələrinin, məbədlərinin mərmər bloklarından, sütun hissələrindən, heykəl parçalarından, kitabələrdən su kanallarının mərmər hissələrindən və s. istifadə etmişdilər. Onlara iç qala divarlarının demək olar ki, hər yerində xüsusilə cənub səmtində rast gəlmək olar. Qaladan şəhərə baxarkən böyük bir mənzərə göz önündə canlanır.

Qalanın xaricində qalan məhəllələr şəhərin başlıca ticarət, gediş-gəliş rayonlarından sayılır. Ora adətən tünlük olur. Amma qədim dövrlərdə orda orta əsrlər Ankarası yerləşirdi. Qədim şəhərin izlərinə indidə rast gəlmək olar. Qaladan cənuba sarı uzanan Sasan bazarı və ətrafında çoxlu köşklər olmuşdur. Onlar və başqa abidələr haqqında yazmış səyyahlar, həm də daha qədim nümunələri xatırlamışlar. Ankarada Bizans imperatoru Yunenə aid olunan bir sütun varmış. Roma imperatoru Avqustun adı ilə bağlı məbədsə şəhərin yaraşığı imiş. Başqa abidələr şəhər yenidən qurularkən aradan qalxıbsa, Roma məbədinin izi tamam itməyib. Onun özülü üzərində Hacı Bayram Camesi qaldırılmışdır.

Hal hazıfrda Ankarada sənət abidələri kimi diqqət tələb edən çoxlu tikili vardır. 30-cu illərdə şəhərdə 73 dənə came və məscid mövcud odlmuşdur. Bütün bu səlcuq və osmanlı hakimiyyəti dövrlərinin abidələri tarixçilərin göstərdiyi kimi hökmdarlar yox, ayrı-ayrı şəxslər tərəfindən ucaldılmışdır. Maraqlıdır ki, Ankarada mövcud olan camelər əsasən orta ölçülərə malikdir. Onların ən böyüyü sayılan Arslan xana camesinin ölçüləri 21x25 m-dir. Əksər abidələrin inşasında daha qədimdən qalma abidələrin detalları işlədilmişdir. Bir çoxlarının üst hissələri yaşıl və ya qırmızı kərpicdən olub, üstləri kirəmidli dam ilə örtülmüşdür. Bir-iki camenin isə qurğuşun örtüklü qübbəsi vardır. Ankara şəhəri 1073-cü ildəki qələbədən sonra müsəlmanların əlinə keçmişdir. Burada XIII əsrədək inşa edilmiş bir came hazırda Əlləddin Camesi adlanan qala içində, məbədin yerində olmuşdur.

## KONYA

Konyanı çox zaman Türkiyənin "Kiyev Rusunun" paytaxtı adlandırırlar. Bu ondan irəli gəlir ki, Konya uzun illər boyu Osmanlı dövlətindən əvvəl Kiçik Asiyadakı digər türk imperiyasının - Səlcuqlar dövlətinin - paytaxtı olub.

Şəhərin tarixi çox qədimdir. O, dünyanın ən qədim yaşayış



*Türkiyə – Koniya Allahan*

məntəqələrindən sayılır. Şəhər parkında aparılan qazıntılar bu torpaqda b.e.yeddi min il əvvəl insan yaşadığını söyləyir.

Hər il müasir Türkiyənin müxtəlif yerlərində belə elanlara rast gəlmək olar: "Aşıqlar, sazlarınızla Konyaya yarışa gəlin". Bundan sonra xalq aşıqları şəhərə sarı axışırlar. Yarışlarda əsas mövzu lirik mahnılardır. Hərdən kədərli "qarasevda" adlanan mahnılar da oxunur.

Bəzən ictimai motivlər də səslənir. Aşıqlar öz şerlərində xalqın ağır güzaranından, ədalətsizlikdən söhbət açırlar. Onlar öz dillərinə, adət-ənənələrinə xor baxanlara gülürlər. Avropa və Amerikanı təqlid edənləri tənqid atəşinə tuturlar.

Hərdən belə də olur: İki yarışan aşığa hakimlik edənlər bir mövzu verirlər: aşıqlar gərək o haqda şer qoşub musiqi bəstələsinlər. Hərdən dodaqdəyməz təcnisə keçirlər. Bu zaman "b", "p", "m" səslərini deməmək üçün ağızlarına sancaq qoyurlar.

Tarixi məlumatlar göstərir ki, Anadolunun ən qədim sakinlərindən olan xettlər b.e.ə. XIV-XII əsrlərdə burda məskən salıblarmış. Sonralar Konya müxtəlif dövrlərdə gah Friqiyə, gah da Lidiya şahlıqlarının tərkibində olub. B.e.ə VI əsrdə İranın Əhəmənilər sülaləsinin hakimiyyətinə tabe etdirilir. Sonra onu Makedoniyalı İskəndərin orduları fəth edir. İskəndərin imperiyası zaman isə o, Lasimax adlı padşahın dövlətinə daxil olur. B.e.ə. III əsrdə Perqam çarlığına tabe edilsə də, bir əsr sonra uzun müddət Roma dövlətinin əyalətinə çevrilmişdir.

Bizansda xristianlığın yayıldığı dövrdə (eramızın başlanğıcında) Konya mühüm rol oynayır. O, Bizans dövlətinin mühüm inzibati, hərbi və dini mərkəzi olur. Ərəb-islam ordularının hücumları (VII -IX əsrlər) da şəhərə az ziyan vurmamışdır.

Nəhayət XI əsrdə səlcuq türkləri komandan Süleyman şahın rəhbərliyi altında Konyanı tuturlar və sultan Qılınc Aslan onu yeni dövlətə - Səlcuqlar imperiyasına - paytaxt seçir. XIII əsrədək Konyanın "qızıl dövrü" davam





edir və bu dəfə monqollar şəhəri dağıdırlar. Sonra Konya öz əvvəlki əzəmətini itirməyə başlayır. Türkiyənin yeni hakimləri - Osmanlı hökmdarları- zamanından indiyədək o, əyalət şəhəri olmaqda qalır.

Şəhər ərazisində xett, Bizans və s. dövrlərdən qalma çoxlu maddi mədəniyyət abidələri var. Amma səlcuq abidələri daha çoxdur və daha qiymətlidir. Onlardan Ələddin məscidini, II Qılınc Aslanın sarayını və s. çoxlu dini və ictimai xarakterli binaları göstərmək olar.

Konyanın bütün Şərqdə tanınmasında məşhur şair - filosof Cəlaləddin Ruminin adı az rol oynamayıb. Böyük mütəfəkkir, sufi təriqətinin yaradıcılarından biri (XIII əsr) Ruminin məqbərəsi, şəhərin ən görkəmli yerlərindən biridir. 1927-ci ildən etibarən mavzoley dövlət əhəmiyyətli muzeyə çevrilib.

Deyildiyi kimi, Səlcuqlar dövründə Konyada gözəl memarlıq əsərləri yaradılmışdır. Onların bir qismi səlcuq hökmdarları, başqa bir qismi dövrünün tanınmış şəxsiyyətləri tərəfindən inşa etdirilmişdir. Konyanın əzəmətini səlcuq dövründə göstərən abidələrdən ən birincisi şəhər qala divarları olmuşdur. Təəssüf ki, onlar zəmanəmizə qədər gəlib çatmamışdır. İbn Bibi tərəfindən çox vəsf edilmiş həmin divarların tikintisi Səlcuq Sultanı Ələddin I Keyqubadın əmri ilə 1219-cu ildə başlanmış və 1221-ci ildə tamamlanmışdır. Həmdulla Mustafi də bu qala divarlarını xatırlamışdır. İbn Bibi göstərmişdir ki, Konyada Sultan Ələddindən əvvəl qala olmamışdır. Həmdulla Mustafi isə iç qalanı və sarayı Qılınc Aslanın inşa etdirdiyini yazır.

Konya qala divarları üzərində qədimdən və sonrakı dövrlərdən qalma bir neçə kitabə olub. Yarandığı vaxtdan çoxlu vuruş görmüş qala Səlcuqlar, Qaramanlılar və Osmanlı hökmdarları tərəfindən təmir etdirilmişdir. Divarlar isə XIX əsrin ortalarına qədər qalıbmış. Onlar haqqında yazan Texiyer göstərir ki, hər qırx addımdan bir divar üzərində qüllə tikilmişdi və qüllələrin sayı 108 dənə idi. Qüllələrin eni 10 m,



*Türkiyə Koniya – C.Ruminin movzaleyi*

hündürlüyü 8 m çatarmış. Qala divarlarının önündə qismən dolmuş xəndək varmış. Divarlar təxminən dörd bucaqlı şəklində şəhər ətrafında dolaşıbmış. İç qala ətrafında başqa divarlar çəkilibmiş və onların da 8 bürcü olub. 1826-cı ildə Konyanı gəzmiş, qədim səlcuq paytaxtının təsvirini vermiş və bəzi rəsmlər çəkmiş L.de Labord şəhər abidələrinin yaradılmasındakı yüksək zövqü və sənətkarlığı dönə-dönə qeyd edib. Səyyahın çəkdiyi rəsmlərdən görünür ki, Səlcuq memarları əvvəlki dövrlərdən qalma kitabə və sənəd nümunələrini tərtib etdikləri lövhələrdə elə yerləşdirmişdilər ki, muzey təsəvvürü yaranırdı.

Müəyyən səbəblər üzündən XIX əsrin II yarısında qala divarları tamam uçmuş, daş materialları yeni tikilən inzibati və dini binalara sərf olunmuşdur. Əsrin sonlarında Konyanı gəzmiş Q.Xuart yazır ki, qala və divarları yox idi və yalnız adı qalan Larendə qapısı itmişdir. Bəzi təməl daşları və yarımuçuq bürc üzərində saxlanılan bir kitabədə 618 tarixinin oxunulduğu nəzərə çarpırdı.

İndi Ələddin təpəsi adlanan, bir vaxtlar isə İç qala kimi tanınan ərazidə müxtəlif hökmdarlar tərəfindən abidələr inşa etdirilirdi. Orda qədim əsrlərdə, 1155-ci ildə Sultan İzzəddin I Məsud zamanında yaradılan bir minbər qalmaqdadır. O Ələddin camesinə aid edilir. Ahatlı bir memar tərəfindən yaradılan və ağac oymasının ən layiqli əsərlərindən biri sayılan bu minbər çox güman ki, müəyyən bir cameyə bağlı tikilibmiş. Hazırda isə o, Ələdddin I Keyqubadın tikdirdiyi cameyə bağlanmışdır.Mövcud olan kitabələr göstərir ki, bu hazırki came İzzəddin I Keyqubad vaxtında, 1220-ci ildə qurtarmışdır. Camenin memarı Məhəmməd B. Xaulan Əl- Diməşqi, tərtibatçı rəssamı Kəriməddin Ardişah olmuşdur. F. Tisçer belə qısa müddətə tikilmiş bu camenin yerində başqa bir binanın olduğunu söyləyir. Binanın planındakı tənasübsüzlüyün də məhz bu səbəbdən irəli gəldiyini fikrinə sübut kimi irəli sürür. Bu camenin yanında üzəri ehram şəkilli yüksək bir gümbəz vardır və içərisindəki səkkiz sandıq Səlcuq sultanlarına aid edilir. Sandıqların üzəri laciverd zərrin, üzərində bəyaz qabartma yazılı olan kaşilər ilə örtülmüşdür. Onların yazıları olsa da təmirlər elə xarab etmişdir ki, oxumaq olmur. Yalnız İbn Bibinin verdiyi məlumatlarda bu türbədə hansı hökmdarların dəfn olunduğunu bilmək olar. Pəncərələrin birinin üstündə qalmış kitabədə onun Yusif B. Əbdülqaffar tərəfindən yaradılması, çöl hissəsinin kəmərlərinin birindəki kitabədə isə II Qılınc Aslan zamanında inşasının bitdiyi göstərilir. Türbədə bu Səlcuq sultanları dəfn olunmuşdur: I Məsud, II Qılınc Aslan, Qiyasəddin, I Keyxosrov, Ələddin I Keyqubad, II Süleyman, Qiyasəddin, İzzəddin III Keykaus və III Məsud.

Ələddin camesinin yanında əvvəllər Səlcuq sultanlarının sarayı





yerləşərmiş. Hazırda ondan qülləni xatırladan məhdud bir hissə qalmaqdadır. Zarre, Xart və Loutved bu sarayın Taxierin yazdığından çıxış olunsa, bir qismini görmüşlər və Qılınc Aslanın adı həkk olunmuş bir kitabə parçası əldə etmişdilər. Zarre kitabədəki adın IV Qılınc Aslana aid olduğunu iddia edir. Amma F. Taxier sarayın bəzi hissələrinin daha əvvəl inşa edildiyini və o kitabənin təsadüfi saraya gəlib çıxdığını, yaxud çox sonralar əlavə edildiyini söyləyir. Loutvedə görə saray fasadının pəncərə kəmərinin bir hissəsi, adı çəkilən kitabə ilə birlikdə 1905-ci ildə uçmuşdur. 1938-ci ildə həyata keçən təmir nəticəsində divarlar səhmana salınmış, üzərlərinə isə yalnız sivri kəmərlər, bir balkon, bir pəncərə qurulmuşdur. Bu deyilənlərdən əlavə iç qala təpəsində, sonralar saat qülləsi olan bir xristian kilsəsi mövcud imiş. Hazırda Ələddin təpəsi Konya və ətrafını özünə cəlb edən bir parka çevrilmişdir.

Qədim iç qala daxilində inşa edilmiş binalardan başqa şəhərin digər hissələrində də, o quruculuq dövrünü əks etdirən abidələr vardır. Bunların içində Qiyasəddin Keyxosrovun zamanında Bədrəddin Muşlix tərəfindən 1242-ci ildə tikilmiş Sırğalı mədrəsə binası diqqətəlayiqdir. Məhəmməd B.Osman Əl-Tusi adlı memarın yaratdığı bu abidənin giriş qapısı Səlcuq memarlıq məktəbinin ən kamil nümunələrindən sayılır. Daxili hissəsi xarab olmuş bu binaların gözəl naxışları diqqəti cəlb etməkdədir. Səlcuqların hakimiyyəti dövründə aürı-aürı fərdlər də müəyyən abadlıq işləri görüb abidələr yaratmışdılar. Onlardan göstərmək olar: Cəmalləddin İshaq məscidi, Sayınəddin Başara məscidi, Şəkər Füruş məscidi, Bədrəddin b. Mahmud imarəti və b.

Monqol istilasından sonra gələn dövrlərdə şəhərin ümumi tənəzzülü ilə bağlı olaraq abadlığın sürəti azalmışdı. Səlcuq hökmdarlarının tikdirdikləri abidələr yenə də şan - şöhrət zirvəsi olaraq qalırdı. Amma yeni abidələr birsıra xüsusiyyətlərinə görə heç də onlardan geri qalmadığını göstərirdi. Mədərəsə, came və türbə növündən olan bu əsərlərin ümumiyyətlə fövqəladə bir sənətkarlıqla işlənmiş mərmər təzyinatı, bütün qapılarında və daxili tərtibatındakı çiçək rəsmləri və kufi yazılar, gözəl kaşi bəzəkləri vardır. Uzun əsrlər boyu baxımsız qalmış, hətta yanğın üzündən zərər çəkmiş binaların təmir və mühafizəsi yalnız bizim əsrdə bir problem kimi irəli sürülmüşdür. Bu əsərlər arasında Qaratay mədərəsəsi diqqəti cəlb edir. O, Sultan İzzəddin II Keykaus zamanında, 1252-ci ildə inşa edilmişdir. Mədrəsənin memarı bəlli deyil. Binanın Əmir Cəmalləddin Qaratay və b. Abdulla öz vəsaiti hesabına tikdirmişdir. Dördbucaq planlı mədrəsənin ən çox hovuz səmtinə açılan pəncərəsi, qübbəsi və dörd güşəsinin kaşi örtüyü diqqəti özünə cəlb edir. Əmir Qaratayın qəbri mədrəsənin bir qismində inşa

edilmiş türbənin içindədir.

Şahib Ətanın əsərlərinə gəlincə bunlar Larende məscidi (Şahib Əta Camesi) və İncə Minarəli məsciddir. Qədim qala divarlarından yalnız adı qalmış Larende darvazası yanında, 1258-ci ildə adı Kamil B.Abdulla oxunan bir memar tərəfindən yaradılan binadan gözəl bir giriş qapısı və kaşilərlə bəzədilmiş bir mehrab qalmaqdadır. Bu binanın arxasında yenə mavi - yaşıl rəngli kaşilərlə bəzənmiş Şahib - Əta türbəsi (1285-ci ildə tikilib) və onun yanında Xaneqah yerləşmişdir. İnçə Minarəli məscidə gəlincə, Qaratay mədərəsəsi kimi, Ələddin təpəsindən qərb tərəfdə yerləşməkdədir. O, əslində 1252-1258-ci illərdə bir mədrəsə kimi inşa edilmişdi və iki şərəfəli, gözəl kaşilərlə bəzədilmiş minarələrə malik idi. Amma 1901-ci ildə minarə uçmuş, altdakı şərəfədən aşağı hissə yalnız salamat qalmışdır ki, o da gövdəsi baxımından minarənin adına uyuşmur.

O dövrdən qalma Konya abidələri içərisində Anbar rəis məscidi adlanan binanı, Ədbül-mömin Məğəribə məscidini, Naleney gümbəzini, Atəşbaz Vəli türbəsini xatırlamaq gərəkdir.

Səlcuq dövrü abidələri Anadoluda qurulan türk dövlətinin tarixinin yadigarları olmaqla yanaşı, həm də Səlcuq memarlıq məktəbinin xüsusiyyətlərini öyrənmək üçün xüsusi əhəmiyyət kəsb edir. Bunlardan əlavə məlumdur ki, Konya uzun müddət mövləviliyin ideolji mərkəzi olmuşdur. Odur ki, din tarixini tədqiq etmək baxımından da onların öz yeri vardır. Mövlananın babası Sultan Əl-Ulama Bahaəddin 1120-ci ildə Ələddin I Keyqubadın dəvəti ilə Konyaya gəlmiş və 1231-ci ildə burda vəfat etmişdir. Oğlu və təriqətin müəssisi Mövlana Cəmaləddin Rumi 1273-cü ilədək burda yaşamış və başda məşhur "Məsnəvi" olmaq üzrə əsərlərini burda yaratmışdır. Qeyd olunduğu kimi Ruminin türbəsi Konyadadır. Ondan əlavə Şəmsəddin Təbrizinin məşhur türbəsi və Sədrəddin Konyavinin də türbəsi Konyanın ən tanınmış abidələri sayılırlar.

## ƏDİRNƏ

Osmanlı Türkiyəsinin Bursadan sonrakı paytaxtı olmuşdur. Bu şəhər Balkan yarımadasının cənub-şərq hissəsini təşkil edən Trakiya (Paşa - eli) rayonunda yerləşir və Türkiyənin Avropa qitəsindəki ən böyük şəhərlərindən biridir.

Qədim qaynaqlarda, şəhərin adına Ədirnus, Ədrunə və ya Ədirnanum şəkillərində təsadüf edilir. Sultan I Muradın zamanında yazılan bəzi





əsərlərdə indiki ada rast gəlincə də, mütəxəssislərin fikrincə Ədirnə adı XVIII əsrdən etibarən kütləvi şəkildə qəbul olunmuşdur.



*Ədirnə – Səlimiyyə camesi*

Ədirnənin yaranma tarixini qədim Trakiya qəbilələrinin adı ilə bağlayırlar. Onlar şəhərin yerində qəsəbə yaxud bir bazar inşa ediblər. Sonradan makedoniyalıların və romalıların həmin məntəqəni daha da genişləndirib abadlaşdırdığını tarixi həqiqət kimi söyləyirlər. Trakiya qəbilə başçısı olmuş Odristerin saldırdığı qəsəbəni makedoniyalılar koloniya halına saldıqdan sonra Oresta adını vermişlər. Ədirnə II əsrdə imperator Xadrianus tərəfindən bir daha yenidən qurulur və onun şərəfinə Xadrianopolis adlandırılır. IV əsrdə şəhərdə silah istehsal edən emalatxanalar olduğu göstərilir və şəhər əhalisi qotlara qarşı vuruşmalarda iştirak etmişdir.

Ədirnənin adı sonrakı dövrdə o rayonda baş vermiş müxtəlif tarixi hadisələrlə bağlı çəkilir. Belə ki, 323-cü ildə imperator Konstantin şərq imperatoru Lakiniusia barada vuruşub üstün gəlmiş, imperator Valensin orduları 378-ci ildə alan və hunlar ilə birlikdə İstanbul üzərinə yeriyən qotlara burada məğlub olmuşdu. Məhz həmin müharibədə imperatorun özü də öldürülüb.

Xadrianopolis (Ədirnə) 586-cı ildə avarlar tərəfindən mühasirə olunur. O, Bizansın bolqar qəbilələri ilə apardığı vuruşları da görmüşdür. Onu

bolqarlar 914-cü ildə fəth ediblər. Sonra şəhər yenidən bizanslıların və yenidən bolqarların əlinə keçmişdir. Ədirnə və ətraf rayonları XI əsrin ortalarında Bizans - peçeneq müharibələrinin səhnəsinə çevrilmişdir. 1050-ci ildə peçeneq qəbilələri Ədirnə qalasını mühasirəyə alsalar da tuta bilməyirlər. Konstantinopolda latın imperatorluğu yaradıldıqdan sonra Trakiya və Bolqarıstanda katolik və latınlara qarşı yunan - bolqar ittifaqı meydana gəlmişdi və qiyam qalxmışdı. Vəziyyəti belə görən latın rəhbərliyi Anadoluda Teodar Paskarisa qarşı göndərdikləri ordunu Trakiyaya, qiyamın yatırılmasına göndərir. 1205-ci ildə baş vermiş bu müharibədə latın imperatorluğu məğlubiyyətə uğrayır. Bolqar çarlığının tarixində müstəsna əhəmiyyəti olan bu davada latınların padşahı bolqarlara əsir düşmüşdü.

1362-ci ildə bir sıra vuruşlardan sonra Ədirnə Osmanlı qoşunları tərəfindən tutulur. Bu qələbə həm tarixi əsərlərdə, həm də şifahi ədəbiyyatda bir sıra rəvayətlərin yaranmasına səbəb oldu. O vaxt osmanlı sultanı I Murad Ədirnəyə gəlir və hücumda fəal iştirak etmiş sərkərdəni - Lalə Şahın Paşanı - həmin şəhərə canişin təyin edir. Bundan sonra Ədirnə Osmanlı qoşunlarının Avropa səfərində başlıca rol oynayır.

İldırım Bəyazidin vəfatından sonra şahzadələr arasında baş verən ixtilaflar nəticəsində böyük şahzadə Əmir Süleyman dövlətinin xəzinəsini Bursadan Ədirnəyə adladır. Sonra hakimiyyət uğrunda mübarizə bu şəhərlə bağlı olub. Hakimiyyətə gələn Musa Çələbi Ədirnədən bir sıra hərbi səfərlər - Solonikiyə, İstanbula və Pravadiya- etmişdir. 1413-cü ildə hökmdar olmuş II Mehmet də səkkiz illik hakimiyyətini bu şəhərdə başa vurmuşdur.

Sultan II Muradın dövründə şəhərin abadlığına daha çox fikir verilmiş, genişləndirilmiş və dövlətdə əhəmiyyəti artmışdı. XVI əsrdə də şəhərin tərəqqisi davam etmişdir. Sultan Süleyman Qanuni qərbə etdiyi səfərləri zamanı dəfələrlə Ədirnədə düşərgə salmışdı. Ədirnənin su kəmərləri onun zamanında çəkilmişdir.

XVII əsr də şəhərin tarixində əhəmiyyətli dövrdür. Sultan I Əhməd vaxtının çoxunu Ədirnədə keçirirmiş, həm o, həm də II Osman şəhərin ətrafında ova çıxmağı, gəzintini və s. istirahət növlərini xoşlayırmış. Beləliklə Ədirnə yenidən (paytaxt İstanbula köçürülmüşdü) dövlət əhəmiyyətli mərkəzə çevrilir. Sultan IV Muradın ov səhnələri çoxlu rəvayət yaradıbmış. Sonrakı hökmdar IV Mehmet isə başlıca dövlət işlərini Ədirnədə icra etmişdir. O, burada Almaniyadan, Moskvadan, Cənubi Rusiyadan gələn elçiləri qəbul etmiş, özü də bir sıra hərbi yürüşlərini burada təşkil etmişdi.

XVIII əsrdə Ədirnənin inkişafında irəliləmə nəzərə çarpmır. Bu əlbəttə, ölkənin ümumi vəziyyətindən, Avropada yürüdülən siyasətdən və





başqa amillərdən irəli gəlirdi. 1745-ci il yanğını şəhərə çox baha başa gəlmişdi. Ədirnənin çoxlu binalarının tələf olması ilə nəticələnmişdi. 1751-ci ildə baş vermiş zəlzələlər də bir ildən artıq müddətdə şəhərin çox hissəsini dağıtdığı üçün normal həyatını pozmuşdu.

Ədirnə abidələrindən danışarkən şəhər qalasından başlamağımız onun qədimliyindən irəli gəlir. Tikintisinin başlanğıcı Xadrianus zamanında (117-138-ci illər) qoyulmuş bu qala şəhərin içərisindən axan Tunca çayının kənarında, hazırda Qala içi adlanan sahəyə yaxın yerdə yerləşir. Onun divarlarının qalınlığı 3 m, hündürlüyü 8 m və ümumi uzunluğu 1 km bərabərdir. Dörd səmtində dairəvi qüllələr inşa edilmişdi və onların hər birinin arasında 12 bürc tikilmişdi. Qüllələrin adları belədir: 1. Böyük qüllə. Onun ucu taxta ilə bağlı olduğu üçün bu qülləni "qapalı qüllə" adlandırıblar. 2. Yelli Burqes (bürc) qülləsi; Evliya Çələbi onun qalanın şimal-şərq səmtində yerləşdiyini yazmışdır. Bu qüllə yüksək vəzifəli şəxslər üçün nəzərdə tutulan həbsxana rolunu oynayırdı. 3. Çerme Qapı qülləsi (Evliya Çələbi ona Mannas qülləsi deyib). O, qalanın cənub-qərbində Tunca çayı kənarında inşa edilmişdir. 4. Zindan qülləsi (Evliya Çələbidə, Tovqifhanə qülləsi). O qalanın cənub-şərq səmtində, hazırda Zindan - Atlı deyilən yerdə idi. Yanıçar korpusu ləğv ediləndə zindan olduğu üçün bu adı qazanmışdı.

Qalanın mövcud olmuş bütün doqquz qapısının adları bunlardır: Qüllə qapısı, Top qapısı, Qəfəs qapı, Köçəçilər qapısı, Oğrun qapı, Manyas qapısı, Tavuk qapısı, Balıq bazarı qapısı, Orta qapı.

Ədirnənin sarayları da qədim qalası kimi özünə diqqət tələb edir. Onların ən məşhurlarını burda xatırlamaq gərəkdir. Onlardan əvvəlcə "Əski saray" adlı bina xatırlamalıyıq. O, 1366-cı ildə Sultan I Murad tərəfindən tikdirilmişdir. Bu saray Ədirnədə osmanlıların dövlət başçısının iqamətgahı olub.

Ədirnənin ikinci məşhur sarayı Cədidi-Amirə adlanır. Onu bəzi mənbələrdə Tunca sarayı, Hunqar baxçası, bəzənsə Ədirnə sarayı kimi təqdim edirlər. Saray şəhərdən kənarda, şimal tərəfdə, Tunca çayının qərbində düzənlikdə yerləşmişdir. O, Bizans dövründən qalan abidədir və həm bizanslıların, həm də osmanlıların hakim təbəqəsinin yaşayıb istirahət etdiyi bir yer olmuşdur. Bir çox sultanın və dövlət başçısının adı və taleyi bu sarayın tarixi ilə bağlıdır.

Türk və Avropa mənbələri göstərir ki, Ədirnə osmanlı dövlətinin tərkibinə daxil olarkən şəhərdə üç kilsə və on məhəllə olmuşdur. Sonradan yaradılan ən məşhur abidələr bunlardır. Onlar həm islam, həm də xristian dini ardıcılları tərəfindən yaradılmışdır.

Ədirnənin ən qədim Camesi XIV əsrin yadigarı, 1399-cu ildə inşa

edilən İldırım Camesidir. O, IV səlib yürüşləri zamanı təxribata məruz qalmış bir kilsənin xarabasının yerində tikilmişdir. Bu Cameyə bəzən "Görəli Came" də deyilir. Evliya Çələbinin fikrincə İldırım Bəyazidin Görəli Sultan adlı qızının şərəfinə bu ad verilmişdir.

Deyildiyi kimi XV əsr Ədirnənin ən qədim tarixinin çox parlaq dövrüdür. Məhz bu zaman şəhərin bəzəyi olmuş abidələrin bir çoxu inşa edilmişdir. Onlardan biri, Əski Came adlısı 1402-ci ildə Süleyman tərəfindən tikilməyə başlamış Musa Çələbi dövründə inşaatı davam etdirilmiş və nəhayət 1413-cü ildə I Mehmetin sultanlığı illərində tamamlanmışdır. Bu camenin daxili kub şəklindədir. Dörd sütun üzərində durur və doqquz dənə qübbəsi vardır. Kiçik minarə əvvəlcədən vardı, iki böyük minarə isə sonradan tikilmişdir. Memarının konyalı Hacı Ələddin olmasını göstərən yazı vardır. Qapıları üç dənədir. Onlardan biri şərqə açılır. O biri müsəlman qibləsinə sarıdır. Üçüncüsü isə üstündə memarın adı yazılmış qapıdır.

Başqa qədim abidə Muradiyyə camesi adlanır. O, h.t.839-cu ildə Muradiyyə məhəlləsində əvvəlcə mövləvixanə kimi nəzərdə tutularaq inşa etdirilmişdir. Amma tikintisinin gedişində bir sıra səbəblərdən cameyə çevrilmişdir. Nəticədə bu abidə iki kiçik və iki böyük qübbəsi və bir minarəsi olan came kimi meydana gəlmişdir. Camenin minbəri və divarları zərif, milli koloritli kaşi ilə bəzədilmişdir. Minarə də yaşıl rəngli kaşi ilə bəzədildiyi halda 1165-ci (h.t) il zəlzələsindən uçmuş, yerinə adi bir minarə ucaldılmışdır. Bu came tikilərkən yanında mövləvixanə, hamamxana yarımçıq binaları olub.

Darülhadis adlı bina Ədirnə qalasının xaricində, Minaya adlanan yerdə tikilib. Sultan II Murad onun hədis tədrisi üçün bir mədrəsə kimi nəzərdə tutmuş və bu məqsədlə inşa etdirmişdir. 1435-ci ildə inşası başa çatdırılmışdır. Bina, amma mədrəsəyə yox, cameyə çevrilib. Onun bir dənə böyük qübbəsi və bir minarəsi olub. Camenin yanında bir mədrəsə binası da mövcud imiş. Həm minarə, həm də mədrəsə I dünya müharibəsi zamanı bombardman nəticəsində dağıdılmışdır. Darülhadisin yanındakı türbədə bəzi şahzadə və sultanlar dəfn olunmuşdur. Onların içərisində 1471-ci ildə vəfat etmiş Karaman bəyinin və Fəxrəddin Əcəmi adlı əyanın məzarları diqqəti cəlb edir.

Üç şərəfəli Came II Murad tərəfindən h.t.841-ci ildə başlanmış və h.t.851-ci ildə inşası tamalanmışdır. Bu bina Evliya Çələbinin yazdığına görə İzmirin fəthindən əldə olunmuş qənimət hesabına və Timurtaş Paşazadə Əlvənd bəyin nəzarəti altında tikilmişdir. Onun əvvəllər adı Yeni Muradiyyə, Yeni Came, Camen Kəbir olubsa, sonradan bu adı almışdır.





Ədirnə – Səlimiyyə camesi

Came dördbucaq şəklində olub, ortadan qalxan altı dənə güşəli sütun üzərində bir böyük qübbəsi yerləşmişdir. Bu qübbənin ətrafında iki orta və iki kiçik qübbə vardır. Mərmərdən döşəməsi olan böyük hamamı qalıb. İki came haramı durur. Onun dörd divarı vardır və 18 sütuna dayanan 21 qübbədən yaradılmışdır. Haramın ortasında Evliya Çələbinin göstərdiyi "Hauz hənəfi" adlanan şadranan vardır. Alimin yazdığına görə II Murad Camesinin daxili tərtibatını və haramın qübbələrinin naxışlarını yaradan usta Maninin də adı çəkilir.

XVI əsr Ədirnənin və eləcə də osmanlı memarlığının Sinan dövrü kimi tarixə daxil olub. Sinanın bu şəhərdə yaratdığı ilkin abidə əvvəllər zaviyə olmuş, sonra memarın əliylə böyüdülərək tamalanmış Daşlıq Camesidir. Bu bina yüksək qübbəsi və zərif minarəsi ilə şöhrət tapmışdır. Ədirnəni hər yanda tanıdan başqa abidələr də - Dövlətdar Camesi, Şeyxi Çələbi Camesi və əlbəttə bütün Osmanlı memarlığının zirvəsi sayılan Səlimiyyə Camesi də - məhz Sinanın böyük və tükənməz istedadının nəticələridir. Qeyd olunmalıdır ki, Səlimiyyə qübbəsi Aya Sofiya qübbəsindən altı sıra yüksəkdir və dörd sıra da dərindir. Bu faktlar abidənin əzəmətinə dəlalət edir. Bununla bağlı deyilməlidir ki, Evliya Çələbinin yazdığına görə Səlimiyyənin tikintisinə Kiprin fəthindən əldə olunan qənimət (27.760 kisə axça) sərf olunmuşdur.

Ədirnə qədimdən elm və maarif mərkəzi kimi tanınıb. Odur ki, şəhərdə çoxlu mədrəsə binaları inşa edilmişdir. Yuxarıda deyilənlərdən əlavə Üç şərəfəli Camenin nəzdindəki II Murad tərəfindən təsis edilmiş mədrəsəni, Fateh tərəfindən yaradılmış Peykar mədrəsəsini göstərmək olar.

Bunlardan əlavə Ədirnədə orta əsrlərdən qalan bədəstan, xanələr və çarşılar (bazarlar) da memarlıq və sənət baxımından diqqətə layiqdir. Çarşılarının bir çoxu memar Sinanın rəhbərliyi altında həyata keçmişdir.

Ədirnədə həmçinin, tarixi abidələr kimi bir sıra çeşmə, hamam və körpü də qalmaqdadır. Onların bəzisi indi də işləyir, çoxu isə ya xarab olub, ya da təmir edilibdir.





# SON SÖZ

Bilmirəm bu kitabı yazmaq fikri məndə nə vaxt yaranıb. Təbrizin Ərk qalasının şəklini görəndəmi, şumer ziqquratının üstünə çıxıb yadigar şəkil çəkdirəndəmi, Nil piramidalarına ehtiramla tamaşa edəndəmi, Tac Mahalın ekran təcəssümünə baxandamı? Bilmirəm... Bilmirəm məni bu işə nə vadar etdi. Sənətimdən doğan məsuliyyət hissimi, qəlbimi riqqətə gətirən gözəllik duyğusumu, tarixə olan həvəsmi?.. Bəlkə elə hamısı birlikdə məni axtarışa sövq etdi. Amma onu bilirəm ki, mən bu işdən böyük zövq almışam. Bütün əzab-əziyyətinə baxmayaraq... Bununsa səbəbi ancaq gözəllik duyğusunun yaratdığı məftunluq olub.

Şair gözləriylə baxsan cahana,
Daima qarşında durur gözəllik.
İlhamla yetirib özünü mənə
Qolunu boynuma sarır gözəllik.

Onu duyan kəsdə törədər istək,
Bilənin canına yayılır yağtək.
Diqqətsizlik görsə körpə uşaqtək
İnciyib boynunu burur gözəllik.

Sevən könüllərin sarı simidir,
Sağalmaz xəstələr o həkimidir.
Həmişə mövcuddur, həyat kimidir
İnanmam bir kəsi yorur gözəllik.

Odur ta əzəldən sevgi doğuran
Aşiqi ocaqsız, odsuz qovuran.
Yaradır təbiət,amma çox zaman
Ömrünü insanda sürür gözəllik.

Bəli, insan öz qəlbinin, ağlının, qüvvəsinin gözəlliyini cansız daşlara verməsəydi, qərinələri adlayan, indi də görənləri valeh edən sənət əsərləri yaratmazdı. İnsanı hərəkətə gətirən isə ilahi vergi sayılan ilham olmuşdur. İlhamsız heç bir sənət əsəri yarana bilməz.

Açığını deyim ki, mənim də poetik ilhamım olmasaydı bu kitab çox güman ki, təxəyyülümdə yaşayacaqdı. Hər dəfə yorulduqda ilham mənim qolumdan tutur, yeni axtarışlara ruhlandırırdı. Mən ona çox borcluyam.

Sən mənimlə varsan. Olarmı qəmim?
Sonsuz fəzalarda uçacaq gəmim.
Sənsiz yaratmaqdan qalar qələmim
Gəl məni təqsirkar etmə ilhamım.

Həqiqətdən tutmuş xəyala kimi,
Durarlar qarşımda bir qala kimi.
Yalvarıram sənə bir bala kimi
Məni yerdə qoyub getmə, ilhamım.

Bilirəm, incidir paxıllar səni
Çox vaxt görmək olmur qəlb istəyəni,
Arasan sabahı, qoru dünəni
Sürətdə zamanı ötmə ilhamım.

Ayrılığın dərdi hər şeydən betər
Qəlbimi ardınca çəkdiyin yetər.
Sənsiz bil, həyatım puç olub gedər
Vəfasız dost kimi atma ilhamım.

Bax, beləcə istəkli oxucu, ölkədən - ölkəyə gəzə-gəzə imkanımız daxilində Şərqin ölməz sənət abidələri ilə tanış olduq. Mən deyə bildiyimi dedim, sənsə oxuyub, gördün. Sağ və salamat qal.





# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

*Azərbaycan dilində*


1. Azərbaycan Sovet Ensiklopediyası.
2. Aslan M.Ərzurumun gədiyinə varanda. B.1985.
3. Qiyasi C. Yaxın-Uzaq ellərdə. B.1985.
4. Kərəmov N. Qırx il səyahətdə. B.1977.
5. Mahmudov M. Piyada... Təbrizdən Şama qədər. B.1982.
6. Məmmədəliyev V. Ərəb dilçiliyi. B.1985.
7. Onullahi S. XIII-XVII əsrlərdə Təbriz şəhəri. B.1982.
8. Orta ərslər tarixi (2 cilddə). B.1988.
9. Orta əsrlər şərqində şəhərlər və ticarət. B.1975.
10. Həsənov Y. Qədim Roma tarixi. B.1975.
11. Şükürov A. Mifologiya. 6 cilddə, Bakı.
12. Şükürov A.Fəlsəfə Bakı, 1997.


*Türk dilində*


13. Ali M. Orta əsrlərdə müsəlmanların yaşayışları. İstanbul. 1972.
14. Ali M. Səlcuqlu tarixi. Ankara. 1982.
15. Alitekin C. Dəməşq atabəyliyi. İstanbul. 1985.
16. Altay G. Alp Arslan və zamanı. Ankara. 1962.
17. Altay G. Böyük Səlcuqlu imperatorluğu tarixi. Ankara. 1984.
18. İbrahim G. Türk - islam sintezi. İstanbul. 1985.
19. İslam ensiklopediyası.
20. Yıldız Ö. Türk tarixindən yarpaqlar. İstanbul. 1969.
21. Kazım M. Anadolu pratotürkləri. Ankara. 1985.
22. Türk ensiklopediyası.
23. Hilmi Z. Türk təfəkkürü tarixi.


*Rus dilində*


24. Alayev L.B. Mən Hindistanı belə gördüm. M.1971
25. Alayev L.B. Cənubi Hindistan. M.1964.
26. Alsiseyev V.İ. və Makarenko V.A. Qanq sahilləri ilə. M.1968.
27. Aristotel. Seçilmiş əsərləri 4 cilddə IV cild. M.1984.
28. Antik sivilizasiya. M. 1973.
29. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. B.1983.
30. Aşurbəyli S.B. Orta əsrlərdə Azərbaycanla Hindistanın iqtisadi və

mədəni əlaqələri. B.1990.
31. Baboçkin B.A. Hindistanda bir ay. M.1959.
32. Bakı.
33. Berixard G.X. Qədim Livan. M.1982.
34. Beşem A. Hindistan möcüzə olduğu dövrlər. M.1977.
35. Bizans tarixi (IV-VII əsrlər) M. 1984.
36. Bonqard - Levin Q.M. Qədim hind sivilizasiyası. M.1980.
37. Böyük Sovet Ensiklopediyası.
38. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti.
39. Bünyadov Z.M. Azərbaycan VII-X əsrlərdə.
40. Vəlixanlı N.M. İbn Xordadbeh. B.1986.
41. Vasilyev A.B. Çətin aşırım. M.
42. Vasilyev A.B. Bosfor üzərindən körpü. M.
43. Vulli L. Xaldeylərin Uru. M.1961.
44. Qədim dünya tarixi. M. 1975.
45. Qədim Şərq. M.1980.
46. Qordlevski B.A. Seçilmiş əsərləri. M.1962.
47. Danilov B.İ. 7000km Türkiyə ilə. M.1975.
48. Dyakonov N.M Qədim dünya tarixi. 3 cilddə. M.1983.
49. Dostların gözü ilə. M.1957.
50 Evliya Çələbi.Səyahətnamə. M.1957.
51. Esenov R.M. Əfqanıstan səhifələri. Aşqabad.1968.
52. Əliyev İ. Midiya tarixi. Bakı. 1960.
53. Əfqanıstan (məqalələr toplusu). M.1964.
54. Əfəndiyev O. XVI əsr Azərbaycan Səfəvilər dövləti. Bakı. 1980.
55. Əşrəfi M. Hind gündəlikləri. Daşkənd.1956.
56. Əşrəfyan G.Z. Dehli: tarixi və mədəniyyəti. M.1987.
57. Jeldakov M.Y. İranın isti yolları. M.1976.
58. Ziqmund M və Qanzelka İ. - Suriya Zinobiya çarisadan Nefti çarisaya qədər. Praqa.1973.
59 İvanov N.A. Ərəb ölkələrinin osmanlılar tərəfindən fəthi. M.1984.
60. İncəsənət (I hissə). M. 1987.
61. İran (tarixi və mədəniyyəti). M.1980.
62. İran dövlətinin və mədəniyyətinin tarixi. M. 1971.
63. İran incəsənəti və arxeologiyası. M. 1976.
64. Yeremeyev D.Y. Asiya və Avropa kəsişən yerdə. M.1980.
65. Yeremeyev D.Y. Qara dənizdən o yandakı ölkə. M.1968.
66. Yusupov A.R. İstanbul. M.1970.
67. Kassis V.B. Himalaydan Qanqa qədər. M.1960.





68. Karakulov İ.G. Hind dostlarının yanında. Alma Ata. 1962.
69. Katin B.K. Livanda. M.1961.
70. Katin. B.K. Səyahətlərin əks-sədası. M.1971.
71. Kosambi D. Qədim Hindistanın mədəniyyəti. M.1968.
72.Kərimov K. Sultan Məhəmməd və onun məktəbi. M.1970.
73. Kyera E. Onlar gil lövhələrdə yazırdılar. M. 1984.
74. Kima Y. Qədim Rafideyndə cəmiyyət və mədəniyyət. Praqa. 1967.
75. Koryavin L.A. Minarətlər və göydələnlər. M.1973.
76. Gerasimov O.Q. Mesopotamiya ilə 10.000km M.1968.
77. Gerasimov O.Q. Sincar dağlarından Rub-əl-Xali səhrasınadək. M.1974.
78. Landa R.Q. Asiya ərəblərinin yanında. M. 1969.
79. Levek P. Ellin dünyası. M.1989.
80. Lloyd S. Ekiz çaylar. M.1972.
81. Losev A.F. Antik estetika tarixi. M. 1975.
82. Lukonin B.Q. Qədim və orta əsrlərdə İran. M.1987.
83. Lukonin B.Q. Sasani İranının mədəniyyəti. M.1969.
84. Luniya B.N. Hind mədəniyyəti. M. 1960.
85. Mehdi H. Bir ay və bir gün (səyahət qeydləri). M.1965.
86. Mets A. Müsəlman intibahı. M.1973.
87. Milovanov İ. B. və Seyfulmülükov F.M. İraq dünən və bu gün. M.1959.
88. Mixaylova İ.B. Orta əsrlər Bağdadı. M.1990.
89. Novikov S.B. Cənubi-qərbi İran antik dövrdə. M.1989.
90. Oblyansev M.İ. və Vasilyeva M.İ. Hindistan sovet dostlarının gözü ilə. M.1978.
91. Orta əsrlər Şərqi. M.1980.
92. Orta əsrlər tarixi (2 cilddə). M.1977.
93. Osenev N.İ. İran (yol qeydləri). M.1962.
94. Orestov O.L. Hindistan darvazası. M.1976.
95. Əfəndi R.S. Azərbaycanın daş plastikası. B.1986.
96. Petrosyan Y.A. və Yusunov M. İzmir. M.1973.
97. Platon. Əsərləri (3 cilddə). M.1970.
98. Piqulyovskaya N.B. Orta əsrlərdə Suriya mədəniyyəti. M.1979.
99. Piqulyovskaya N.B. Ərəblər Bizans və İran sərhədlərində (IV-VII əsrlər). M.1964.
100. Psell M. Xronoqrafiya. M.1978.
101. Pyatnov Q.İ. Ərəb gündəliyi. Simferopol.1967.
102. Poxodeyev Y.A. Livan (kitab-albom). M.1966.
103. Rıbakov R.B. İnduizmin burjua islahatı. M.1981.
104. Rodin L.Y. Dərin quyular ölkəsində. M.1962.

105. Rəhmani Ə.Ə. "Tarixi-aləm-arayi-Abbasi" Azərbaycan tarixinin mənbəyə kimi. B.1960.
106. Səmyanova L.A. Orta əsrlər Suriyası tarixindən. M.1980.
107. Sumbatzadə Ə.S. Azərbaycanlılar - etnogenez və xalqın formalaşması. Bakı.1990.
108. Talızin F.F. Hindistanda və Seylonda. M.1964.
109. Tesicer Y. Göl ərəbləri. M.1982.
110. Tumanoviç N.N. Herat XVI-XVIII əsrlərdə. M.1989.
111. Fətullayev Ş.S. Bakı şəhərinin XIX-XX əsrlərin əvvəlində inşaatı. L.1978.
112. Fray R. İranın irsi. M.1972.
113. Hindistan (foto -albom). M. 1964.
114. Hind mədəniyyəti və buddizm. M.1972.
115. Şapoşnikova L.V. Mədrəsin ili və ayları. M.1971.
116. Şapovnikova L.V. Hindistanın cənubunda. M.1968.
117. Şifman İ.Ş. Nabateya çarlığı və mədəniyyəti. M.1963.

*Ərəb dilində*

118. Alləm İ.İ. Yaxın Şərq incəsənəti. Qahirə. 1974.
119. Bağır T, və Səfər F. Qədim mədəniyyət tarixindən sorğu kitabı. Bağdad. 1966.
120. Bəndəroğlu Ə.İ. İnqilabi İraqda türkmanlar. Bağdad. 1972.
121. Əl-Ali S.Ə.Bağdad sülh şəhəridir (şəhərin tarixi). Bağdad. 1985.
122. Əl-Balazuri "Ölkələrin fəthi" əsəri. Qahirə. 1958.
123.Əs-Seyvani Ş.Ə. Ur. Bağdad. 1976.
124. Əl-Ələfi Ə.S. İslam incəsənəti. Qahirə. 1969.
125. Əl-Sayya H.Ə. Monqollar tarixdə. Beyrut. 1970.
126. Əl Həməvi M.Y. Dəməşq Əməvilər dövründə Dəməşq. 1946.
127. Əl-həşimi F.T. Qədim Şərq tarixi. Bağdad. 1933.
128. Əhməd S. Ərəblər və yəhudilər tarixdə. Dəməşq. 1980.
129. Zabit Ş.S. İraq türkmanlarının qısa tarixi. Bağdad. 1959.
130. İstəxri Ə.F. Əl -Məsalik val-məmalik. Qahirə. 1961.
131. Kramer S. Tarix burdan başlanır. Bağdad. 1980.
132. Misir və qədim Yaxın Şərq. Qahirə. 1967.
133. Roy C. Qədim İraq Bağdad. 1984.
134. Hati F. Suriya, Fələstin və Livanın tarixi. Beyrut. 1958.
135. Hüseyn Ə. Səlcuqlar dövründə İraqın tarixi. Bağdad. 1965.
136. Cavad Ə. İslamdan əvvəlki ərəblərin tarixi. Bağdad. 1957.
137. Şükri F. I əsrdə islam fütuhatları. Beyrut. 1968.





*QƏZET VƏ JURNALLAR*

138. Qobustan Bakı.
139. Elm və həyat Bakı.
140. Turan Bakı.
141. Xəzər Bakı.
142. Birlik səsi Bağdad.
143. Yurd Bağdad.
144. İraq EA, Xəbərləri Bağdad.
145. Asiya və Afrika bu gün Moskva.
146. Asiya və Afrika xalqları Moskva.
147. İzvestiya Moskva.
148. Pravda Moskva.
149. Əs-Saura Bağdad.
150. Əl-Əhram Qahirə.

CAVANŞİR XIDIROV
*(Xıdırov Cavanşir Vəli oğlu)*
ŞƏRQİN TARİXİ ABİDƏLƏRİ
*Bakı, "Adiloğlu" nəşriyyatı - 2004, 370 səh.*

*Kompyüter yığımı:* Fərqanə Cabarova
Məlahət Qarayeva

| | |
|---|---|
| Çapa imzalanmışdır: | 10.07.2004 |
| Kağız formatı: | 60x84 1/16 |
| Hesab-nəşriyyat həcmi: | 23,2 ç.v. |
| Sayı: | 200 |
| Sifariş: | 312 |

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.
*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 98-68-25; faks: 98-08-14*